ŞƏRQ XALQLARI ƏDƏBİYYATI

2

ELMAN QULİYEV

Şərq xalqları ədəbiyyatı
(müntəxəbat)

2 cilddə

II cild

Azərbaycan Respublikası
Təhsil Nazirinin 28.04.2011-ci il
676 saylı əmri ilə dərs vəsaiti
kimi təsdiq edilmişdir.

"CONSTANT EMPIRE"
BAKI – 2011

Kitabın çapına göstərdiyi köməyə görə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyinə minnətdarlığımızı bildiririk.

Elmi redaktor: **HİMALAY QASIMOV**
filologiya elmləri doktoru, professor

Rəyçilər: **NİZAMİ CƏFƏROV**
AMEA-nın müxbir üzvü, professor
TEYMUR KƏRİMLİ
AMEA-nın müxbir üzvü, professor
GÖVHƏR BAXŞƏLİYEVA
filologiya elmləri doktoru, professor
QƏZƏNFƏR PAŞAYEV
filologiya elmləri doktoru, professor
VÜQAR ƏHMƏD
filologiya elmləri doktoru, professor
TƏRANƏ RƏHİMLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent

Naşir
AKİF DƏNZİZADƏ

Kompyuter tərtibatı və korrektor işi:
Aytən Abbasova *Günel Bağırova*
Leyla Kərimova *Elnurə Paşayeva*
Ofelya Babayeva *Validə Şıxəliyeva*

Quliyev Elman
Q95 **Şərq xalqları ədəbiyyatı (müntəxəbat),** ***2 cilddə, 2-ci cild.***
Bakı, "**CONSTANT EMPIRE",** 2011, 684 səh.

Müntəxəbat İran, ərəb, hind, əfqan, tacik və Pakistan xalqlarının ədəbiyyat nümunələri əsasında tərtib edilmiş, Şərq ədəbiyyatının ayrı-ayrı görkəmli sənətkarlarının həyat və yaradıcılıqları haqqında məlumatlar verilmişdir. Kitab tələbə, mütəxəssis və ədəbiyyat həvəskarları üçün nəzərdə tutulur.

ISBN: 978995244703

Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.

© Elman Quliyev, 2011

BİR NEÇƏ SÖZ

Şərq tarixin başlanğıcı və insanlığın ilk vətənidir. Şərqin xoşbəxtliyi ondadır ki, insanlıq ilkin yaddaş, mənəviyyat və mədəniyyət laylasını Şərq beşiyində, onun isti qucağında dinləyib. Günəşin Şərqdə doğması da, peyğəmbərlərin, müqəddəs kitabların bu torpaqlara göndərilməsi də Allahın Şərqə hədiyyəsi və məhəbbətinin təzahürüdür. Şərqi Tarix deyil, Tarixi Şərq yaradıb. Bir mənada Tarix Şərqlidir desək, yəqin ki, səhv etmərik. Ona görə insan və cəmiyyətlə bağlı bir çox məsələlərin təməlində Şərq mahiyyətinin dayanması ideyasının üstündən sükutla keçmək qeyri-mümkündür. Tarixin sonrakı inkişaf dövrlərində formalaşmış Qərb mədəniyyət qütbü bir sistem kimi təsdiqini tapsa da, mahiyyətindəki Şərq ilkinliyini, Şərq ruhunu, bütövdən (Şərqdən) ayrılma xüsusiyyətini gizlədə bilməmiş, zaman-zaman ona rəğbət və mənəvi ehtiyac meyllərini nümayiş etdirmişdir. Balzak, Gete, Volter, Russo, Monteskyö, Tolstoy, Puşkin, Yesenin və s. Qərb mənəviyyat nəhənglərinin yaradıcılığındakı Şərq sevgi elementləri əslində Şərqlə bağlılığın əlamət göstəricisidir. Görünür, insan yaddaşında min illər qorunan, inkişafın hansı formasından asılı olmayaraq sonrakı mənəviyyat mərhələsinin mahiyyətində gizlənən ilkinliyin (Şərq ruhunun) təsiri hansısa formada (genetik bağlılıq və ya yaddaş

funksiyasında) özünü göstərə bilir. «Şölələnən ruhu ilə tarixin başlanğıcına təkan verən Şərq» ***(Hegel)*** *ənənəviliyinin yeni dövr dünya modelinin (siyasi-iqtisadi və mədəni) təməl daşıyıcı olduğunu inkar etmək mümkün deyil. Amma Şərq mahiyyəti daha çox mənəvi-əxlaqi keyfiyyət göstəricisidir və bu göstərici ədəbi-bədii düşüncə müstəvisində insana təsiri ilə (kamilləşmə aspektində) seçilir, xüsusi əhəmiyyət kəsb edir.*

Bəşər mədəniyyəti tarixində Şərq ədəbi-mədəni nümunələri xüsusi yer tutmuş və silinməz izlər buraxmışdır. Demək lazımdır ki, dünya ədəbiyyatı xəzinəsinin genişlənib zənginləşməsində Şərq ədəbiyyatının rolu əvəzolunmazdır. Qoca Şərqin müdrik əhvalat və nağılları, ibrətamiz hekayə və dastanları min illər ərzində nəinki Şərqin, eyni zamanda Qərbin də bədii təfəkkürünün sonrakı yazılı ədəbi inkişafına təsir göstərmişdir. Bu mənada qədim Babilistanda, Azərbaycanda, İranda, Misirdə, Hindistanda, Ərəbistanda və s. yerlərdə yaranan, formalaşan bədii materiallarda təbii olaraq fərqli zövq və dəyişmələrdən çox, ümumi təsəvvür və dünyagörüşlərin mövcudluğu şəksizdir və yüksək formada ortaya çıxmışdır. Daha doğrusu, Şərq ədəbi məktəbinə daxil olan qüdrətli qələm sahibləri ayrı-ayrı xalqları təmsil etsələr də, eyni məktəbin davamçılarından birinə çevrilmişlər. Ona görə də zəngin ədəbi irs qoyub getmiş türk, ərəb, hind, fars, əfqan, tacik və s. xalqların sənətkarları bütövlükdə Şərq ədəbiyyatının qızıl fondunu zənginləşdirmiş və yeni bir ədəbi aləm formalaşdırmışlar.

Şərq ədəbiyyatı ecazkar sənətkarlığına, alternativi olmayan şeir təbinə, dil baxımdan rəvan və axıcılığa görə seçilən sənətdir.

Şərq ədəbiyyatı mərhələsi bədii nümunələri baxımdan fərqli olduğu kimi, ictimai-siyasi, tarixi və s. keyfiyyətinə görə də zəngindir, əvəzolunmazdır. Bunun üçün də Şərq xalqlarının ədəbiyyatının bir fənn kimi tədrisinə, həmin xalqların bütövlükdə mədəniyyətinin, mədəni tarixinin, başqa xalqlarla mədəni-elmi qarşılıqlı əlaqəsinin öyrənilməsinə bu gün vacib şəkildə ehtiyac duyulur. Universitetlərin filologiya fakültələrində «Şərq xalqları ədəbiyyatı» adlı fənnin tədrisi bilavasitə bu zərurətdən doğur. İnkaredilməz həqiqətdir ki, Azərbaycan ədəbiyyatı Şərq ədəbiyyatının bir qoludur və o, daha çox Şərq mədəniyyəti və bədii təfəkküründən qidalanmışdır. Məhz Azərbaycan ədəbiyyatının tədrisi prosesində, tələbələrin mənimsəmə qabiliyyətlərinin yüksəlməsində, qarşıya çıxan bəzi çətinliklərin aradan qaldırılmasında və müəyyən ədəbi-bədii, tarixi əlaqələrin yaradılmasında Şərq ədəbiyyatının tədrisinə ehtiyac vardır. Hesab edirəm ki, Şərq ədəbiyyatından təcriddə tam şəkildə nə Azərbaycan ədəbiyyatını öyrənmək, nə də öyrətmək mümkündür. Ona görə də günümüzə qədər Şərqin keçdiyi çoxəsrlik ədəbi-mədəni tarixi yol, bu yolun ayrı-ayrı tanınmış, populyar sənətkarları, nadir sənət nümunələri və s. haqqında məlumatların verilməsi böyük əhəmiyyət daşıyır. Şübhəsiz, Şərq ədəbiyyatı geniş əhatə dairəsinə malik olsa da, tədris prosesində proqrama uyğun nəzərdə tutulan xalqların (fars, hind, ərəb, tacik və s.)

ədəbiyyatının əsasən klassik və müasir mərhələlərinə diqqət yetirilmişdir. Ona görə də hazırladığımız 2 cildlik «Şərq xalqları ədəbiyyatı müntəxəbatı»na həmin xalqların tanınmış sənətkarlarının əsərlərindən seçmə bədii nümunələr daxil edilmiş (buradakı izahlar əsasən tərcüməçilərə məxsusdur), kitabda sənətkarların həyat və yaradıcılıqları haqqında qısa məlumat verilmişdir. Türk xalqları ədəbiyyatı ayrıca bədii istiqamət olduğundan biz bu ədəbiyyat nümunələrini (Şumer və İraq-türkman ədəbiyyatları istisna olmaqla) müntəxəbata daxil etmədik. Güman edirik ki, ilk dəfə oxucu görüşünə gələn «Şərq xalqları ədəbiyyatı müntəxəbatı»nda yer alan bədii nümunələr və tərcümeyi-hal xarakterli yazılar tədris prosesinə kömək etməklə yanaşı, hər bir ədəbiyyatsevərdə həm sənətkarlar, həm də ayrı-ayrı milli ədəbiyyatlar haqqında müəyyən təsəvvür yaratmağa kömək göstərəcəkdir.

HİND ƏDƏBİYYATI

- QƏDİM HİND ƏDƏBİYYATI NÜMUNƏSİ
- KƏLİLƏ VƏ DİMNƏ
- ƏMİR XOSROV DƏHLƏVİ
- RABİNDRANAT TAQOR



QƏDİM HİND ƏDƏBİYYATI NÜMUNƏSİ

MAHABHARATA və ya BHARATA OĞULLARININ BÖYÜK VURUŞLARI HAQQINDA DASTAN (ixtisarla)

BAŞLANĞIC

Qədim qəhrəmanlar, onların igidliyi və nəcib əməlləri, hünər və qələbələri barədə hekayət başlanır.

Okeanın o tayından bu tayınacan bütün xalqları meydana çəkən, qurbanlarını yandırıb külə döndərən, alov kimi dörd yanı bürümüş vuruş barədə hekayət başlanır.

Ölüm-dirim çəngində, de kimdir düşməni yıxan?
Əsl igidlik nədir bu dünyada, görəsən?
Ciddi mübahisədən kimdir o qalib çıxan?
Ötdüyün bu nəğməni kimə həsr eyləmisən?

Kim ki, elin yolunda canı yandırır-yaxır,
Həqiqətin uğrunda qızıl qanından keçir,
Ölüm-dirim çəngindən həmişə qalib çıxır.

Öz xeyrini güdməyib, öz elini düşünən,
Qəlbi qara həsəddən, könlü ac bir həsrətdən
Uzaq adamı qalib görmüşəm çarpışda mən.

O nəcib qəhrəmanlar ölməz, dillərdə yaşar,
Unutmaz el yaddaşı, qərinələr ötsə də,
Adına dastan bağlar, şəninə nəğmə qoşar.[1]

BAHARATA HAQQINDA HEKAYƏT

Bir zamanlar Yer üzündə Duşyanta adlı cavan bir şah hökmranlıq eləyirdi. Ox atmaqda, qılınc çalmaqda, döyüş fillərini idarə eləməkdə Duşyantanın tayı-bərabəri yox idi. Hamı onu qanunun dayağı, xalqın pənahı adlandırırdı.

Günlərin bir günü bu böyük hökmdar ova çıxdı. Onu döyüş arabaları, döyüş filləri, atlılar müşayiət edirdilər. Təbil vurulur, şeypur çalınır. Hay-küydən, ayaq səslərindən Yer-Göy titrəyirdi, meşə heyvanları qara-qorxu içində özlərini ora-bura çırpır, gizlənməyə yer tapa bilmirdilər. Duşyanta kaman çəkib, ox atıb yüzlərlə şir, pələng, minlərlə ceyran, cüyür, saysız-hesabsız quş ovlamışdı. Ov dalınca at çapıb dəstədən xeyli uzaqlaşmış, meşənin dərinliklərinə gedib çıxmışdı.

Meşə qorxunc və keçilməz idi, ağacların gövdəsini tikanlı sarmaşıqlar sarmış, banyan ağaclarının kökləri hər tərəfə tor çəkmişdi. Birdən Duşyanta güllü-çiçəkli bir pöhrəliyə yetişdi. Sarmaşıq və jasmin çiçəklərinin ətri adamın huşunu başından alırdı. Quşlar xoş səslə oxuyur, ətirli çəmənlikdə arılar uçuşurdu. Suyu göz yaşı kimi dupduru çayın qırağında ceyranlar, cüyürlər oynaşır, aslanlar, pələnglər, qaplanlar dincəlirdi.

Duşyanta bura düşən kimi yorğunluğunu, aclığını, susuzluğunu unutdu, sonsuz bir sevinc duydu. Heyranlıqla yan-

---

[1] *Dastanda getmiş şeir parçalarının tərcüməsi Çingiz Əlioğlunundur.*

yörəsinə baxa-baxa çayın qırağına gəldi. Suyun lap qırağında bir abid koması vardı.

Şah atdan düşüb komaya yaxınlaşdı və çağırdı:

– Ay ev yiyəsi!

Onun səsinə gözəl bir qız çıxdı. Duşyantaya böyük ehtiramla baş endirdi, əl-əyağını yumaq üçün lüləyin gətirdi. Sonra da piyaləni sərin su ilə doldurub şaha uzatdı.

– Ey ədəb-ərkanlı gözəl, söylə sən kimsən? – Duşyanta soruşdu. – Kimsən, kimin qızısan?

Qız dedi:

– Anam mələkədir, Yer üzünə Göylərdən enib məni doğdu, elə bu çayın qırağında qoyub, yenidən Göylərə – Allahların məskəninə qayıtdı. Sonra abid məni tapıb gətirdi. Öz qızı kimi tərbiyə verib böyütdü. Adımı da Şakuntala qoydu. Mən də onu ata kimi sevirəm, hörmət eyləyirəm, qulluğunda dururam. İndi o, meşədən gələr, dediklərimin doğru olduğuna inanarsan.

Qız danışdıqca Duşyanta ondan gözlərini çəkə bilmir, ürəyi sevgiylə dolurdu.

Şah dedi:

– Gözəl qız, gəl səni alım, evlənək. Nəyim varsa – səltənətim, saraylarım, xəzinəm, var-dövlətim sənin olsun.

Şakuntalanın badam gözlərində sevgi və sevinc parladı, utandığından yanaqları qızardı, handan-hana asta-asta dedi:

– Böyük hökmdar, bu haqda atamla danış, o razı olsa, mən də razıyam. Ancaq bir şərtim var:

Bizim nikahımızdan
Oğul doğulsa əgər,
Şah olacaq, – başqa cür
Söylə, mümkünmü məgər?

Şah Şakuntala ilə evlənəndən sonra meşədə qalıb dinc, xoşbəxt yaşamağa başladı.

Vaxt sakit axan çay kimi ötüb keçirdi. Günlərin bir günü Duşyantanın başkəndindən – paytaxtından qasidlər çapıb gəldilər və dedilər ki, səltənətin işləri tökülüb qalıb, xalq böyük hökmdarı intizarla gözləyir, ölkədə hərc-mərclik getdikcə artır.

Duşyanta Şakuntala ilə vidalaşdı:

– Ay üzlüm, tezliklə fillərin nəriltisini, döyüş arabalarının gurultusunu eşidəcəksən. Əyan-əşrəfim səni cah-cəlalla başkəndimə gətirəcək və sən təbəələrimdən sayğı və sədaqət görəcəksən.

Şakuntala yenə meşədə yalqız, hökmdar ərinin xifətini çəkə-çəkə qaldı. O, çayın qırağı ilə çox-çox uzaqlara gedir, at kişnərtisini, döyüş arabalarının gurultusunu həsrətlə gözləyirdi. Ancaq günlər ötür, məşənin sakitliyini isə heç bir səsküy pozmurdu.

Nəhayət, ulduzların vəd elədiyi xoş gün gəlib yetişdi və Şakuntala ay parçası kimi bir oğlan doğdu. Qoca abid dədəbaba qaydasına görə bütün mərasimləri yerinə yetirdi. Uşaq ayla, illə yox, saatla, günlə böyüdü, altı yaşına çatanda yenilməz bir pəhləvan oldu. Şiri, pələngi asanlıqla tutub çəpiş kimi ağaca bağlayırdı. O elə igid, elə qənirsiz gözəldi ki, anası ona baxanda ürəyi dağa dönürdü.

Qoca abid gördü Duşyantadan səs-soraq yoxdu, qızına məsləhət elədi ki, oğlunu da götürüb başkəndə getsin.

Günlərin bir günü Şakuntala sevinc, fərəh içində, yanında da ay parçasına bənzəyən oğlu saraya, Duşyantanın hüzuruna gəlib yetişdi.

Duşyanta ulduzların dövrəyə aldığı ay kimi əyan-əşrəfin, vəzir-vəkilin əhatəsində, öz qızıl taxtında əyləşmişdi.

– Ey qibleyi-aləm, mən sənin arvadınam, abid qızı... Gəlmişəm ki, sənin sarayında öz qanuni yerimi tutam. Bu da sənin oğlun, altı yaşlı şahzadə.

Saray əhli bunu eşidib təəccübləndi; yer-yerdən səslər ucaldı:

– Bu necə ola bilər? Kimdir bu qadın? Bəs niyə indiyəcən onun haqqında heç nə eşitməmişik? O nə cəsarətlə bu uşağı şahzadə adlandırır?

Duşyanta isə Şakuntalanı tanıdı və onun qəlbində böyük sevginin sönmüş ocağı yenidən alovlandı. Şah camaatın narazılığını görəndə anladı ki, heç kəs Şakuntalanı qəbul etməyəcək, onun şah arvadı olduğuna inanmayacaq. Duşyanta ürəyində allahları sevgilisinin köməyinə çağırdı, özü isə saxta bir qəzəblə çığırdı:

– Rədd ol burdan, ifritə! Necə inanım sənə? Mənim abid qızıyla evlənməyim yadıma gəlmir. Bir də kim inanır ki, palıd ağacı kimi gövdəli, gözlərindən yetkinlik yağan bu igidin cəmi altı yaşı var?

Şakuntala bu gözlənilməz təhqirdən özünü itirdi, sonra isə kədərlə dedi:

– İndi ki, sən bilə-bilə həqiqəti danırsan, deməli, təkcə məni və xalqını aldatmırsan, doğma oğlunu danmaqla həm də böyük bir sərvətdən məhrum olursan. Elə bilmə ki, sənin bu haqsızlığından heç kim soraq tutmayacaq. Nahaq deməyiblər ki, heç bir suç cəzasız qalmır.

Bizim naqis əməlimiz
Sanma bir gün yaddaşlardan
Öz-özünə çıxasıdır!
Həqiqətin adıyla
Könüllərdə yaz olur!

Unutma ki, həqiqət
Günəşin, Yerin, Göyün,
Ayın, Odun, Küləyin
Bir də ki, bu ürəyin
Yaddaşına yazılır!

Şakuntala bu sözləri deyib örpəyi kədərlə üzünə çəkdi, oğluyla saraydan çıxıb getdi. Elə bu anda qeybdən bir səs gəldi:

– Ey aslan ürəkli hökmdar! Günaha batma, axı bu qadın sənin halalca arvadındı, o uşaq taxt-tacının varisidi, qəbul elə, nəvaziş göstər.

Saray əhli yer-yerdən dilləndi:

– Doğrudur! Qovma öz arvadını! Ulularımız deyiblər ki,

Arvad – evin bəzəyi,
Qədrin bilmək gərəkdir!
Ağır gündə – təsəlli,
Bərk ayaqda dirəkdir!

– Hökmdar, o qadını nahaq qovdun, o, doğrudan da, sənin arvadındır.

Duşyanta sevinc içində qışqırdı:

– Tez olun, qaytarın onları! Doğma oğlumu qucaqlayıb bağrıma basmasam, ürəyim partlar.

Şahın çaparları tez şəhərin küçələrinə cumdular və az sonra gözəl və bəxtəvər Şakuntala əriylə taxtda oturmuşdu, xoşbəxt idi, oğlu isə şahzadə və vəliəhd elan edildi. Şah oğlunun adını Bharata qoydu və bu ləyaqətli şahzadədən müdrik hökmdarlar, igid cəngavərlər törədi.

Bu soydan olan şahlar şərəf və ədalət dayağı idilər. Onların hər biri Yer üzündə min il hökmranlıq elədi. Ədalət qa-

nunlarını pozmadılar və böyük ad-san qazandılar. Xalq onlara gözəl mahnılar qoşdu.

BHİŞMA HAQQINDA HEKAYƏT

Bu böyük soyda Şantanu adlı ədalətli bir şah vardı. Bu xeyirxah, nəcib hökmdar ölkəni haqq və ədalətlə idarə edirdi, xalqı da xoşbəxt və firavan yaşayırdı.

Bir gün bu şah Qanqın sahilində incəbelli, piyaləgözlü bir dünya gözəlinə rast gəldi.

– Söylə, kimsən, ey saçları şəlalə, durna yerişli qənirsiz gözəl? Gəl evlənək, xanımım ol, yalvarıram.

Qız gülümsünüb şaha belə cavab verdi:

– Sənin arvadın olmağa razıyam, ey igidlər igidi. Ancaq bir şərtim var: and iç ki, məndən heç vaxt heç nə soruşmayacaqsan, istəmədiyini eləməyə icazə verəcəksən.

– Hər şərtinə razıyam. Gəl min arabama, bu yel qanadlı atlar bir göz qırpımında bizi şəhərə çatdırar.

Beləliklə, hökmdarın həyatı sevinclərə qərq oldu, elə bil gözəllik ilahəsi Lakşminin özü onun sarayına gəlin gəlmişdi. Günlərin bir günü şahın oğlu oldu və onların həyatı daha da gözəlləşdi. Ancaq şahbanu gözlənilmədən allahların qüdrətindən yaratdığı bu uşağı götürüb Qanqın sularına atdı.

Şah qəm dəryasında batsa da, söz verdiyinə görə dinmədi.

***

İllər keçdi, gözəl şahbanu özünün yeddi oğlunu beləcə bir-bir Qanqın sularına qərq elədi. Səkkizinci uşağın doğulmasına az qalanda şah özüylə bacarmadı, arvadının üstünə çığırdı:

– Neyləyirsən, ay oğul qatili?! Mənim günahsız balalarıma necə qıyırsan? Heç olmasa bircəciyini sağ saxla ki, soyumu yaşadan olsun.

– Sən əhdini pozdun, – şahbanu cavab verdi. – Əlvida.

Bunu deyib yox oldu.

Şah uzun illər dərd-qəmə batdı, heç yerdə təsəlli tapa bilmədi. O, hər gün Qanqın sahilinə gəlir, qəm-qüssə içində gəzib dolaşır, oğlanlarını yada salırdı.

Bir dəfə yenə sahildə gəzəndə gördü ki, bu müqəddəs çayın suyu azalıb və o, irəli getdikcə su daha da soğulur. Bir azdan şah gördü ki, sahildə gözəl bir oğlan dayanıb, Qanqın sularına ox yağdırır və bu oxlar çayın güclü axarını saxlayır. Bu möcüzədən heyrətə gələn şah oğlanda bu kutsal qüvvənin hardan olduğunu öyrənmək istədi.

Ancaq soruşmağa macal tapmadı. Qanqın suları yarıldı və illər boyu həsrətində olduğu arvadı peyda oldu. O, öncə ki, kimi yenə də gözəl idi. Qadın Şantanuya yaxınlaşıb dedi:

– Ey şir biləkli hökmdar, bil və agah ol, mən bu çayın ilahəsiyəm, adım da Qanqdır. Ömrünü bu çayın sularında başa vuran adam səadətə yetir, ölməzlik qazanır və allahların məskənində yaşayır. Yeddi oğlum artıq allah qüdrətinə çatıb. Atdığı oxlarla səni heyrətə salmış igid isə bizim səkkizinci oğlumuzdu. Apar onu özünlə. O, Yer üzündə haqq və ədalətin keşiyində duraraq düşmənlərin qənimi olacaq.

Qadın bu sözləri deyib Qanqın sularında yox oldu; se-

vinci yerə-göyə sığmayan şah isə oğlunu da götürüb başkəndə yollandı.

Günlər keçdikcə bu gənc, igidlərin ən yaxşısı oldu və hər üç dünyada məlum olan bilgilərin hamısını öyrəndi. Atası onu Bhişma adlandırdı və öz varisi elan elədi.

Ancaq şahın qəlbi rahatlıq tapmırdı. O, indi də bircə balasının yaşamı, həyatı üçün qorxurdu. Müdriklər nahaq demirdilər ki, bir oğlu olan kişi sonsuz bənzər...

Xeyli düşünüb-daşındıqdan sonra şah qərara gəldi ki, oğlunun gül camalına tamaşa eləmək yetər, yenidən evlənmək, soyu artırmaq gərəkdir.

Günlərin bir günü şah yenə də evlənmək haqda düşüncələrə dalaraq meşədə gəzirdi, birdən min-min süsən çiçəyinin ətrinə bərabər qoxu duydu. Və qarşısında gözəl bir qız gördü, meşəni bürümüş ətir də elə onun paltarından gəlirdi.

– Ey kamillik ilahəsi, atanın yanına apar məni, – ətirdən məst olmuş şah dilləndi. – Sənə elçi düşəcəyəm.

Qızın atası da bir balıqçı idi. Şahın istəyini eşidəndə çox sevindi, ancaq şərt qoydu ki, oğlun olsa, taxt-tacın varisi eləməlisən.

Şah buna necə razı ola bilərdi ki, artıq Bhişmanı vəliəhd elan eləmişdi? Adil hökmdar kimi ad çıxarmış şah belə haqsızlığa necə yol verə bilərdi? Özündən sonra Bhişma, Bhişmadan sonra onun böyük oğlu, ondan sonra Bhişmanın böyük nəvəsinin ilk oğlu taxt-taca sahib olmalıydı.

Şah saraya qayıtdı, meşədə rast gəldiyi qızın xiffətini eləyə-eləyə qüssə içində yaşamağa başladı.

Bhişma atasının kədərinin səbəbini öyrənəndən sonra qərara aldı ki, taxt-tacdan vaz keçsin. And içdi ki, övladları hakimiyyət üstündə üz-göz olmasınlar deyə – heç vaxt evlənmə-

yəcək. Alicənab Bhişma balıqçının qızına elçi gedib atası üçün aldı, özünün döyüş arabasında saraya gətirdi. Müdriklər deyiblər ki,

Atasının üzünə
Qayıtmayan hər oğul,
Doğma ata yurduna
Dirək oğul, nər oğul
Comərd övlad sayılır.
Atasına acıyan,
Qəlb yandıran bir oğul,
Atasının yolunda
Şirin canından keçən
Qızıl oğul, zər oğul
Yaxşı övlad sayılır.

Tezliklə şahın yeni varisi dünyaya gəldi. Aylar, illər ötdü, yeni kökmdar taxta çıxdı, bütün elmlərdən və qanunlardan xəbərdar olan Bhişma isə hər işdə ona – qardaşına kömək elədi. Onların səltənəti gündən-günə çiçəklənməkdəydi. Ulduzların vəd etdiyi xoş bir gündə Bhişma inci kimi gözəl bir qız tapıb qardaşını evləndirdi və onlar xoşbəxt yaşamağa başladılar.

Doqquz ay, doqquz gün, doqquz saat keçdi, allahlar gənc hökmdara şah nəslinə layiq bir oğul əta elədi. Onu Kuru adlandırdılar. Bhişma qardaşının oğluna da məmləkəti idarə etmək elmini öyrətdi və allahların təyin elədikləri gündə o, qanuni bir varis kimi taxt-taca sahib oldu.

OĞUL SEVGİSİ HAQQINDA HEKAYƏT

Bir gün bu gənc hökmdar Bhişmadan soruşdu:

– Möhtərəm əmim və ustadım, necə olub ki, sən belə yalqız, övladsız qalmısan? Axı qanuna görə, yetkinlik yaşına çatmış hər bir cəngavər hökmən evlənməlidir. Bəs sən niyə ailə qurmamısan?

– Ona görə ki, atamın taleyi mənə öz taleyimdən əziz olub, – Bhişma cavab verdi. – Soyumuzda atasının səadəti naminə öz xoşbəxtliyindən keçən təkcə mən deyiləm.

– Ata-babalarımızdan daha kimlər belə nəcib iş görüblər? – şah Kura soruşdu.

– Bizim soyda Yayati adlı bir hökmdar olub. Onun qılman timsallı beş oğlu vardı. Şah oğlanlarını ürəkdən sevir, onları naz-nemət içində böyüdürdü. Uşaqlar böyüyüb adlı-sanlı igid oldular. Ataları isə bilmədən bir günah işlədi və allahların ona qəzəbi tutdu. Ömrünün çiçəklənmə çağında yaşayan bu hökmdarı göylər erkən qocalıqla cəzalandırdı və oradan səda gəldi ki, oğlanlarından biri öz gəncliyini atasına verib, allahların göndərdiyi vaxtsız qocalığı özü üçün götürsə, şahın gücü-qüvvəsi özünə qayıdar.

Yayati acı-acı ağlayıb oğlanlarını yanına çağırdı və böyük bir kədərlə onlara dedi:

– Əziz balalarım, sevgi və qayğımı heç vaxt sizdən əsirgəməmişəm. Hər gülüşünüz səhər günəşi kimi mənə sevinc və fərəh gətirib, hər damla göz yaşınız yüz-yüz ilanın ağusu təki qəlbimi yandırıb. Ancaq mənə böyük bir bədbəxtlik üz verib. Öz cavanlığımdan və güc-qüvvətimdən doymamış, heysiz bir qocaya dönmüşəm. Xalq qarşısında borcumu, vəzifəmi yerinə yetirməmiş əzəmətimdən məhrum olmuşam, daha səltənətin və xalqın dayağı ola bilmirəm. Müsibətdir, müsibət!

Əziz balalarım, ümidim sizədir! Deyin, sizdən kim məni xilas eləməyə razı olar – qocalığımı götürüb, cavanlığını mənə verər? Mən bunu həmişəlik yox, mincə il müddətinə istəyirəm. Min ildən sonra cavanlıq və gözəlliyiniz qayıdar özünüzə, mənsə bu dünyadakı işlərimi görüb qurtarar, öz qismətimə boyun əyib, ölümə hazırlaşaram. Deyin görüm, hansınız məni xilas etməyə razısınız?

Böyük oğlu dedi:

Nəyi var ki, bu dünyada qocanın? –
Üzü qırış, beli donqar, gözü kor.
Bir üfürmə yarpaq kimi uçanın
Bərk ayaqda hərzə-hərzə gapı var!

İkinci oğul dedi:

Qocaldınmı, gedər hünər, şücaət,
Diş tökülər, ağıl uçar, nə qalar?
Kim görübdü qocalıqdan bərəkət?
Hər nə varsa, cavanlarda, gəncdə var!

O biri iki oğul dedi:

– Ata, biz də böyük qardaşlarımız deyəni deyirik. Axı, kim razı olar ki, vaxtından qabaq saçı, üzü qırışsın? Biz hamımız gəncliyimizdən doyunca həzz almaq istəyirik. İzn ver gedək. Ovçular bizi gözləyir, vəhşi fil ovuna getməliyik.

Bu yerdə şahın kiçik oğlu dilləndi:

– Ata, bu pis günündə səni tək qoymaram. Sənin bədbəxtliyini görəndə ürəyimin başı sızlayır. Sən qəlbinin bütün sevgisini bizə vermisən, səltənətə, xalqa dayaq, düşmənlərə göz dağı olmusan. Namərd qocalıq səni qəfil haqladı. Qolun gücdən, dizlərin taqətdən düşüb, qəddin əyilib. Sənin bədbəxtliyinə sakit baxa bilmirəm. Mən öz gəncliyimi sənə verirəm. Min il həzz al cavanlığından, döyüşlərdə zəfər çal, soyumuzun şərəfini qoru. Sənin qocalığını özümə götürürəm.

Son sözləri ağzından çıxıb qurtarmamış o, dönüb heysiz bir qoca oldu, qardaşlarıyla müqayisədə elə bil çiçəkləyən palmalar arasında qurumuş ağac idi.

Yayati görəndə ki, oğlanlarından ancaq kiçiyinin ona rəhmi gəldi, min il keçəndən sonra onun cavanlığını qaytardı, üstəlik taxt-tacı da həmin oğluna verdi. Cavan hökmdar min il şahlıq elədi.

Yayati o biri oğlanlarına da qəzəblənmədi. Məmləkətin sərhədlərindəki torpaqları dörd oğlu arasında bölüşdürdü və oğlanlar sevindilər ki, ataları onları əfv eləyib.

Qəzəbdən, təkəbbürdən rəhmdillik yaxşıdır,
Qaniçən öcalandan olmasın sizə nişan.
Xoş söz – sözün ucası... Dildən də şirin ol ki,
İnsanlara daha çox səxavətdir yaraşan.

Müdrik Bhişma söhbətini belə qurtardı və gənc hökmdar Kuru böyük sələflərinin xatirəsi önündə baş əydi.

NİFAQIN BAŞLANMASI HAQQINDA HEKAYƏT

Bharatanın bu şanlı nəvəsi uzun illər Yer üzündə hökmranlıq elədi. Bhişma səltənətinin bütün işlərinə ayıq-sayıq göz olur və vaxtı-vaxtında qardaşı oğlunun köməyinə gəlirdi. Xalq öz hökmdarının müdrikliyinə, dəyanətinə alqış deyirdi.

Ancaq dünyada əbədi, dəyişilməz heç nə yoxdur. Günlərin bir günü əzəmətli Bharata soyunun təmiz torpağına da şər toxumu düşdü və bu toxumdan ağulu şər ağacı böyüyüb qol-qanad atdı.

Ləyaqətli şah Kurunun bir oğlu oldu. Hökmdarın sarayında vəliəhdin dünyaya gəlməsi ata üçün necə də böyük xoşbəxtlik ola bilərdi! Nahaq deməyiblər ki:

Allaha yalvarıb bir oğul dilə,
Oğludur dünyada övladın xası.
Oğuldur uzadan ata ömrünü,
Yaşayır, ölməyir oğul atası!

Ancaq şah oğlunu acı tale gözləyirmiş, beşiyi başında bədbəxtlik pusubmuş: o, kor doğulmuşdu.

Şahın qəlbini bürümüş kədər ölçüyə gəlməzdi. Məmləkət əhli də qəm-qüssə içindəydi. Ancaq tezliklə şahın ürəyi toxtaq tapdı – hər bir əzası yerində olan ikinci oğlu dünyaya gəldi.

Şah böyük oğluna Dhritaraştra, yəni Səltənətin Dayağı adı verdi və onu məmləkətin gələcək hökmdarı kimi böyütməyə başladı. Kiçik oğlunu isə Pandu adlandırdı.

Öz əhdinə sadiq olan Bhişma hər iki şahzadəyə öyrətmənlik eləyirdi. Kor Dhritaraştra üçün elm oxuyub-öyrənmək çətin idi. Kiçik qardaşı Pandu isə bilgilərə asanlıqla yiyələnir, orduya başçılıq eləməkdə böyük ustalıq göstərirdi.

Hökmdar Kuru qocaldıqda taxt-taca böyük oğul yiyə durmalıydı, ancaq kor adam məmləkəti necə idarə eləyə bilərdi? Belə məmləkət, başçısı olmayan fil sürüsünə, yağış görməyən torpağa, avarsız qayığa oxşayar. Buna görə şah qərara aldı ki, əski qanunları pozub, ikinci oğlu Pandunu vəliəhd elə-sin.

Beləcə, Pandu hökmdar oldu, uzun illər qayda-qanunla, ağılla, ədalətlə şahlıq elədi. Əliaçıq, xeyirxah şahbanu Kunti beş oğul doğdu. Xalq onlara Pandu oğulları dedi.

Təbiət Pandulardan heç nəyini əsrgəməmişdi, onlara güc və gözəllik, çeviklik və igidlik, ağıl və nəciblik bəxş eləmişdi. Pandulardan böyüyünün adı Yudhişthira idi, yəni Döyüşdə Yenilməz. O, igidlik və müdrikliyi ilə seçilirdi. Qardaşları

hər bir işdə Yudhişthiraya arxalanır, onun sözüylə oturub-dururdular.

İkinci qardaşın adı Bhimasena idi. Bu adın anlamı «Qorxunc ordu»dur. Onun qollarında fil gücü vardı. Öz hünər və igidliyi ilə düşmənlərin ürəyinə vəlvələ salırdı. O, bir əliylə yoğun-yoğun ağacları kökündən qoparır, əmudunun bir zərbəsiylə dağı yarırdı.

Pandunun üçüncü oğlunun adı Ərcuna «İşıqlı» deməkdir. O, gözəl natiq idi, yaraq işlətməkdə də çox ustaydı. Ox atmaqda isə cəngavərlər arasında tayı-bərabəri yox idi. Ərcunanin bədəni liana budaqları kimi çevikdi, çöhrəsi elə gözəl, elə işıqlıydı ki, baxanda adamın gözü qamaşırdı.

Son iki qardaş əkiz idi. Onların təkcə özləri yox, fikir və əməlləri də bir-birinə elə oxşayırdı, deyirdin bir cüt ulduzdu yanaşı durub. Hər ikisi qılınc çalmaqda o qədər mahir idi ki, Yer üzündə onların qabağına çıxan cəngavər tapmaq olmazdı.

Qardaşlar bir-birini ürəkdən sevirdilər, bir kəhkəşanın ulduzları, bir əlin barmaqları kimi ayrılmazdılar, həmişə bir yerdə olurdular.

Kor Dhritaraştra ilə arvadı Qandhari yüz oğul gətirmişdi dünyaya. Onların hamısına babalarının adı ilə Kauravlar deyirdilər. Kauravlar Pandularla bir yerdə, ulu babaları – igid və müdrik Bhişmanın nəzarəti altında oxuyur və böyüyürdülər.

Pandular daha yaxşı oxuyur, quru torpaq yağışı canına çəkdiyi kimi, onlar da bilikləri acgözlüklə mənimsəyirdilər. Kauravlarda belə fərasət yox idi, biliklərə güc-bəla yiyələnirdilər.

Dünyada tayı-bərabəri olmayan Pandunun şahlığı dövründə beləydi; Kauravların atası – kor Dhritaraştra şöhrətli və varlı Hastinapur şəhərində taxtına əyləşəndən sonra da hər şey belə davam edirdi.

Dhritaraştranın böyük oğlu Duryodhana – «Zalım Cəngavər» – daşürəkli, məkrli və namərd adam idi. Padulardan zəndeyi-zəhləsi gedirdi. Məmləkət əhlinin Panduları ürəkdən sevdiyini, onların şəninə nəğmə, şeir qoşduğunu görəndə gözlərində dünya daralır. Panduların şan-şöhrəti artdıqca payız yarpağı kimi saralıb-solurdu. İstəmirdi ki, onlardan birisi taxt-tacın varisi olsun. Ulu əcdadları Kuru məmləkətin yarısını Pandulara verməyi vəsiyyət eləmişdi. Duryodhana əmisi uşaqlarından can qurtarmaq üçün gecə-gündüz düşünür, bir çarə axtarırdı. Onun qəlbinə gah həsəd, gah da qorxu hakim kəsilirdi.

Ancaq Duryodhana Pandulara açıq-açığına əl qaldırmaqdan çəkinir, ələlxüsus da şir biləkli Bhimasenadan qorxurdu.

Fənd-felin köməyi ilə Bhimasenanı aradan götürə bilsəydim, qalanlarına asanlıqla dov gələr, məmləkətin hökmdarı olardım, – Duryodhana Panduları yox etmək üçün yollar düşünürdü.

Bir dəfə Duryodhana qardaşlarının köməyilə yatmış Bhimasenanın qollarını liana budaqlarıyla möhkəm bağlayıb, onu iti axan çaya atmışdı. Ancaq şahzadələrin ən güclüsü olan Bhimasena əzəmətli kürəklərinin bircə tərpənişiylə qollarını azad eləyib, sağ-salamat sahilə çıxmışdı. Başqa bir dəfə Duryodhana onun üstünə ağulu ilanları buraxmışdı. Ancaq ilanlar fürsət tapıb ağulu dişlərini işə salanadək Bhimasena onların hamısının başını əzmişdi. Üçüncü dəfə Duryodhana onun xörəyinə elə bir ağu qatdı ki, hər hansı canlını bircə anda öldürüb yox elərdi, ancaq Bhimasenanın bədəni o qədər güclü və möhkəm idi ki, ağu ona heç bir xətər yetirmədi.

Duryodhana kimisi ilə qarşılaşan adamlar bu sözləri həmişə yada salmalıdırlar:

İblislə ilanın çənginə keçib,
İkisindən birini seçməli olsan,
İlanı seç götür, dərrakən olsun,-
Məbadə, iblisə yaxın durasan!
İlan, uzaqbaşı, bir kərə çalıb,
Sürünüb birtəhər çıxar aradan,
İblissə... o iblis donunda adam
İlantək çalacaq səni durmadan...

Axırda bu qərara gəldi ki, öz qardaşları ərsəyə çatıb kişiləşməyincə Pandulara qəsd etməyəcək. O başa düşmüşdü ki, Kauravlar döyüşkənlik bilimini incəliklərinə qədər mənimsəməsələr, öz əmisi uşaqlarına dov gələ bilməyəcəklər. Bundan sonra o, hər gün atasına deyirdi ki, şahzadələrin döyüşkənlik sənətinə yiyələnmək çağı çatıb. Şah onunla razılaşırdı:

– Hə, hə, yaraqdan yaxşı başı çıxan təcrübəli öyrətmən axtarıb tapmaq çağı yetişib.

– Özü də ən yaxşısını tapmaq gərək, – müdrik Bhişma əlavə elədi. – Bharata soyundan olan şahzadələrin ustadı olmağa yarar öyrətmən tapmalıyıq.

– Hörmətli Bhişma, bəs hardan bilək ki, ölkədə ən yaxşı öyrətmən kimdir?

– Taleyin müəyyən elədiyi çağ yetişəndə o özü gəlib çıxacaq, – Bhişma cavab verdi.

Günlərin bir günü şahzadələr taxtadan düzəldilmiş topla oynayırdılar. Qəfildən top quyuya düşdü. Uşaqlar nə qədər çalışdılarsa, topu quyudan çıxara bilmədilər. Onlar quyunun başında durub, suda ləngər vuran topa yana-yana baxırdılar.

Birdən kiminsə kinayəli səsi eşidildi.

– Siz də adınızı igid qoymusunuz? Topu çıxarmağa bir çarə tapa bilmirsiniz.

Oğlanlar arxaya çönüb gördülər ki, fil kürəkli, şir sinəli nəhəng bir adam gülə-gülə onlara baxır.

– Bharata soyundan olan şahzadələr savaş sənətinə mükəmməl yiyələnməlidir, – naməlum adam sözünə davam elədi. – Baxın, görün neyləmək gərəkdir.

Bunu deyib, quyuya bir mizraq atdı. Mizraq taxta topa sancıldı. Sonra ikinci mizrağı tulladı. İkinci mizraq birinciyə sancıldı. Beləliklə, mizraqlar bir-birinə sancılıb quyunun ağzına gəlib çatdı və kişi bu yolla topu quyudan çıxartdı.

Şahzadələr heyrətlə soruşdular:

– Sən kimsən, ey müdrik insan?

– Gedin ulu babanız Bhişmanın yanına və topu quyudan necə çıxartdığımı danışan. O sizə deyər mən kiməm.

Bhişma şahzadələrin konuşmasını eşidən kimi sevincək qışqırdı:

– Dronadır! Hər cür yarağı məharətlə işlətməyi bacaran böyük cəngavər Drona! Onun döyüş şöhrəti haqqında çox eşitmişəm və bura gəlib çıxmasını gözləyirdim. Şahzadələrə döyüşməyi o öyrətməlidir.

Savaş sənətinə dərindən bələd olan Drona o gündən şahzadələrlə məşğul olmağa başladı. O, Bharata soyundan olan bu gənclərə sərrast ox atmağı, qılınc və əmudla vuruşmağı, nizə və mizraq tullamağı, at və fil üstündə, döyüş arabasında və piyada döyüşməyi öyrədirdi.

Yenə də Pandular Kauravlardan daha çox bacarıq və fərasət göstərirdilər. Bunu görən Duryodhana kor atasından xahiş etməyə başladı ki, bu beş qardaşdan can qurtarmaq üçün bir yol düşünüb tapsın. Ancaq kor Dhritaraştra Pandulara kor atasından xahiş etməyə başladı ki, bu beş qardaşdan can qurtarmaq üçün bir yol düşünüb tapsın. Ancaq kor Dhritaraştra

Pandulara pislik eləmək istəmirdi. O, oğlunu sakitləşdirməyə, pis diləklərdən uzaqlaşdırmağa çalışırdı.

– Oğlum, müdriklərin bu sözlərin bu sözlərini heç vaxt yaddan çıxarma:

Zülm əkən zülmə də yiyə olacaq,
Düşəmməz payına bir ayrı qismət.
Dəyişmir dünyanın əski qaydası:
Nur əkən – nur tapır, zülm əkən – zülmət!

Duryodhana atasının bu sözlərini dinləyə-dinləyə düşünürdü: – «Yox, yox atam kömək eləməyəcək mənə. O istəyir biz Pandularla bərabər adamlar kimi yaşayaq. Heç fikirləşmir ki, özü öləndən sonra Pandu oğulları biz Kauravların üzərində ağalıq eləyəcəklər. Mənə kömək eləyə biləcək güclü bir dostu haradan tapım? Güclü və şücaətdə Pandularla bərabər bir igidi harada axtarım?»

– Yaxşı, möhtərəm ata, – yalandan onunla razılaşdı. – Sənin bu müdrik sözlərin ürəyimə yol tapdı. Mən başa düşdüm ki, biz öz əmimiz uşaqlarını sevməliyik.

Duryodhana öz pis diləklərini və kinini ürəyində gizlədərək çıxıb getdi.

KRİŞNA HAQQINDA HEKAYƏT

Günlərin bir günü uzaq və gözəl Mathure şəhərində yerli hökmdarın oğlu oldu. Uşağın adını Kansa qoydular. Demə, körpənin qəlbində zalım bir iblis yuva salıbmış və onun adı da Kansa imiş.

Bu fəlakətdən xəbərsiz ata-ana şah oğlu kimi tərbiyə edib böyüdür, ən gözəl, ən ülvi diləklərini bu uşaqla bağlayırdılar. Ancaq onların sevgi və qayğısına Kansa kobudluq və qəddarlıqla cavab verirdi. Hələ balaca ikən zalım Kansa onunla

bir yerdə oynayan uşaqları döyüb incidir, saray əyanlarını daşa basır, əlinə keçən canlılara işkəncə verirdi. Ən çox da onun zülmündən bacısı Devaki əziyyət çəkirdi.

Kansa yetkinlik yaşına çatıb güclü bir cəngavər oldu. Atasını tutub zindana saldı, özü şahlıq eləməyə başladı. Xalq bu zalım hökmdardan olmazın zülmlər görürdü. Şəhər meydanında gün çıxandan batanacan suçsuz adamlar asılır, qan su yerinə axırdı.

Devaki də böyüyüb adlı-sanlı bir igidin adaxlısı olmuşdu. Qədim adətə görə, bacını gərək böyük qardaş ər evinə köçürəydi. Buna görə toy toplantısının yuxarı başında Kansa əyləşmişdi. Qəfildən onun qulağına bir səs gəldi:

– Ay axmaq, niyə öz əlinlə özünə qəbir qazırsan? Bil və agah ol ki, bu evlənmədən doğulan səkkizinci uşaq sənin ölümünə bais olacaq.

Kansa öncə qorxdu, sonra bu qorxunu kor bir qəzəb əvəz elədi. Xəncəri sıyırıb şahmar ilan kimi bacısının üstünə atıldı. Ancaq Devakini adaxlısı onun ayaqları altına yıxılaraq imdad istədi:

– Qibleyi-aləm, and içirəm ki, hər dəfə uşağımız olanda, gətirib sənə verəcəyəm. Bu pak, zəif yaratığa – doğma bacına rəhm elə! O ölsə, mən də ölərəm.

Zalım Kansa bacısının əri kimi igid və güclü bir pəhləvanı itirmək istəmirdi, buna görə Devakini əfv eləməyə razı oldu.

O vaxtdan gənc ata-ana yeni doğulan oğullarını göz yaşı tökə-tökə aparıb Kansaya verirdilər. O da rəhm eləmədən bu körpələri öldürür, onların axan qanını və əzablarını gördükcə ruhu şad olurdu. Bircə Subhadra adlı qızcığazı sağ saxlamışdı. Bədbəxt ata-ananın pənahı və təsəllisi bircə bu qız idi.

Axırda Devakinin əri zalım şahı aldatmaq qərarına

gəldi. Səkkizinci uşaq doğulanda bunu şaha demədi, körpəni bir çoban arvadına saxlamağa verdi. Şan-şövkətli soydan olan bu uşaq beləcə, saraydan qıraqda, əldən-ayaqdan uzaq bir kənddə yaşayıb böyüdü. Demə, Krişna adlı bu oğlanın surətində tanrı Vişunun özü yerə təşrif gətiribmiş, zalım iblis Kansanı öldürmək Krişnanın alnına yazılıbmış. Buna görə, allahlar ona möcüzə yaratmaq qüdrətini bəxş eləmişdi, o tanrılar qədər gözəl, fil kimi güclü, dünyagörmüş qocalar kimi müdrik idi, istədiyi dona girir, qiyafəsini dəyişə bilirdi.

Tezliklə Kansa xəbər tutdu ki, Devaki uşaqlarından birini ondan gizlədib. Kansanın buyruğu ilə hər yeri ələk-vələk elədilər, ancaq uşağı tapa bilmədilər. Zalım şah bərk qəzəbləndi, əmr elədi ki, ölkədəki oğlan uşaqlarının hamısı öldürülsün. Kansanın təbəələrinin fəryadından yer-göy qan ağlayırdı. Ancaq zalım şah hələ də sakitləşməmişdi. Qorxurdu ki, onun qənimi olacaq uşaq cəlladların gözündən yayınıb hardasa gizlənə bilər. Buna görə, o, dostları iblisləri hüzuruna çağırıb buyurdu ki, Krişnanı axtarıb tapsınlar, hiylə qurub, məhv eləsinlər.

İfritələrdən biri Krişnanın yerini öyrənəndə, uşağın heç bir yaşı da olmamışdı. Körpə evdə tək idi – süd anası, çoban arvadı Yasoda inəkləri sağmağa getmişdi. Uşaq bambuk nənnidə qurudulmuş balqabaqdan düzəldilmiş oyuncaqla oynayırdı.

İfritə uzun, əyri dişlərini ağarda-ağarda, uşağı qucağına götürdü, istədi ki, əmizdirib iyrənc südüylə onu ağulasın, ancaq Krişna yaşına görə çox ağıllı idi, ifritənin kələyini anlayıb, onun döşünü elə bərk dişlədi ki, ifritənin canı ağzından çıxdı.

Başqa bir ifritə pusub Krişnanı meşədə tapanda, uşağın artıq iki yaşı vardı. İfritə iti caynaqlı əllərini qabağa uzadıb

uşağın üstünə atıldı, ancaq Krişna cəld əyilib onun ayağından yapışdı, başı üzərinə qaldırıb ağaca elə çırpdı ki, ifritənin kəlləsi çürük qoz kimi partladı.

Üçüncü bir iblis nəhəng və yırtıcı quş donuna girib Krişnanın üstünə şığıdı, onu dimdiyinə alıb havaya qalxmaq istədi. Ancaq Krişnanın bədəni birdən-birə elə isinib qızdı ki, quş dözə bilməyib onu buraxdı və Krişna quşu boğazlayıb iki parça elədi.

Başqa bir iblis isə çox zırpı bir boa ilan olub, Krişnanı uddu. Lakin uşaq ilanın qarnında böyüyüb-böyüyüb, onun qarnını yırtdı.

Devakinin möcüzəli oğlu hələ uşaq ikən bu cür hünərlərlə bütün ölkədə ad-san qazanmışdı.

Onun ömür-günü çoban uşaqları ilə müxtəlif oyunlarda keçirdi. Krişna onlara qoşulub mal-qara otarır, ormanı gəzib dolaşır, çayın qırağına timsahları cırnatmağa gedirdi. O, elə gözəl tütək çalırdı ki, eşidən məftun olub sehrə düşürdü. Arılar çiçəkləmiş ağaca necə daraşırsa, ətraf kəndlərin çoban qızları da eləcə onun tütəyinin səsinə axışıb gəlirdi. Onlar Krişnanın başına yığışıb, gün batandan sübhə qədər bütün gecəni Ay işığında rəqs eləyir, Krişna da yorulmadan sehirli tütəyində birbirindən gözəl havalar çalırdı.

Krişna böyüyüb güclü və igid bir pəhləvan oldu. Bir dəfə elə güclü yağış yağdı ki, çaylar daşıb sahilindən çıxdı, bir az da keçsəydi, sel-su bütün məmləkəti yuyub aparacaqdı. Belə olanda, Krişna nəhəng bir dağı qoparıb, leysan yağış kəsənə qədər çətir kimi başı üzərində saxladı.

Kansa eşidəndə ki, gənc qəhrəmanın hünər və şöhrəti gün-gündən artır, bərk qorxuya düşdü. Krişnanı tovlayıb başkəndə gətirmək və orada işini bitirmək fikrinə düşdü. O, Krişnaya məktub göndərib, onu cəngavər yarışlarına çağırdı.

Krişna razı olub, Mathuraya gəldi. Kansa ölkənin ən güclü pəhləvanlarına buyurdu ki, Krişnaya hücum eləyib onu qılıncla doğram-doğram eləsinlər, işdi, gücləri çatmasa, vəhşi filləri üstünə buraxsınlar.

Ancaq miskin Kansa bu ər igidin necə güclü bir pəhləvan olduğunu hələ bilmirdi, biləndə isə gec idi. – Krişna nəinki pəhləvanları və vəhşi filləri öldürdü, Kansanın özünü də cəhənnəmə vasil elədi. Bundan sonra o, Kansanın uzun illərdən bəri qaranlıq zindanda zülm çəkən qoca atasını gətirib şahlıq taxtında oturtdu, özü isə Dvaraki şəhərinin hökmdarı oldu.

Şər əməl yiyələrinin bir çoxunu yox edən Krişna beləcə bütün dünyada haqqın və ədalətin carçısı kimi ad qazandı.

Adaxlıların yarışından soraq tutanda o da Pəncəl məmləkətinin paytaxtına gəldi. Brəhmən geyimində olsalar da, Pandu oğullarını görən kimi tanımışdı. İndi o, yaxına gəlib şahbanu Kuntiyə ehtiramla təzim elədi, qardaşların hər birini böyük qəhrəman kimi salamlayıb təbrik elədi:

– Uğur diləyirəm sizə, ər igidlər! – dedi. – Qoy ad-sanınız Günəş kimi işıq saçsın! İndən belə məni özünüzə dost və müttəfiq bilin.

Beləcə, Pandu oğulları yenilməz bir cəngavərlə, mərd və cəsur Krişna ilə dostluq ittifaqı bağladılar.

MANU TUFANI HAQQINDA HEKAYƏT

Pandular meşəyə, sığınacaqlarına qayıdıb dinc yaşamağa başladılar. Yenə hər axşam müdrik abidlər onların yoxsul komasına gəlir, maraqlı söhbətlər eləyir, qədim əyyamlardan, gələcək qərinələrdən söz açırdılar.

Hər şeyin səbəbini dərk etməyə çalışan Bhimasena bir dəfə abiddən soruşdu:

– Ey müdriklər müdriki, bütün adamlar böyük Manunu həmişə hörmət və ehtiramla yad edirdilər. İstəyirəm mənə və qardaşlarıma onun böyük işlərindən, misilsiz əməllərindən söhbət açasan. Hansı səbəbə görə onun adı indiyə qədər uca tutulub! Onun haqqında bildiklərini bizə danış.

Pandular yaraqlarını bir kənara qoyub, qara maral dərisinə bürünmüş qocaya yaxın oturdular. Brəhmən hekayətinə başladı:

– Çox qədim əyyamlarda bu yerlərdə Manu adında bir adam yaşayırmış. Yer üzündə ondan böyük, ondan müdrik şəxs yox imiş. O, ömrü boyu öz əməlləriylə bəşər nəslinə böyük fayda verməyə can atırmış. Qüdrətli tanrıların sevgisini qazanmaq və onlardan Yer övladları üçün nəsə misilsiz bir bəxşiş almaq xatirinə o, həyat nəşələri və sevinclərindən büsbütün imtina eləmişdi. O, on min il çayın sahilində bir ayağı üstə durub, əllərini göyə uzadaraq yeganə bir duanı təkrarlayırmış: «Ey ulu tanrılar, imkan verin, insanlar üçün faydalı bir hünər göstərim».

Bir dəfə on dörd gecəlik Ay kimi işıldayan bir balaca balıq sahilə yan alıb Manuya dedi:

– Ey bəni-adəmlərin ən ülvisi, məni xilas elə. İri-iri balıqlar məni təqib edir, udmaq istəyirlər. Onların iti dişlərindən canımı necə qurtarım bilmirəm. Yalvarıram, mən zavallıya kömək elə. Vaxt olar, mən də səni darda qoymaram.

Manunun ona yazığı gəldi, cəld əlini atıb balaca balığı çaydan çıxardı və aparıb su dolu təknəyə saldı. O, balığı yemləyir, öz balası kimi nazını çəkirdi. Bir müddətdən sonra balıq böyüdü, daha təknəyə sığışmadı.

Balıq yenə dilə gəlib Manunu köməyə çağırdı:

– Ey böyük insan, bura çox darısqaldı, boğuluram. Mənə elə yer tap gen-bol yaşaya bilim.

Manu qızıl balığı təknədən çıxarıb gölə buraxdı. Ancaq tezliklə göl də bu möcüzəli balığa darlıq elədi və o, Manuya yalvardı ki, onu aparıb Qanq çayına buraxsın. Lakin tez bir zamanda balıq o qədər böyüdü ki, bu misilsiz çay da ona darısqal göründü və o yenə Manunu köməyə çağırdı.

– Günahı və heç bir istəyi olmayan insan! Mən daha bu çayda yaşaya bilmirəm. Mən dəryada üzmək istəyirəm.

Manu onun bu arzusuna da əməl eləyəndən sonra balıq dedi:

– İndi mənə diqqətlə qulaq as. Sən mənim hər nazıma səbirlə dözdün, əlindən gələn yaxşılığı məndən əsirgəmədin, buna görə də gələcəyin sirrini açmaq istəyirəm sənə. Tezliklə dünyaya dəhşətli bir fəlakət üz verəcək. Göydən leysan tökəcək, dağları, düzləri sel-su basacaq, çaylar, dəryalar daşacaq, bütün yer üzü suyun altında qalıb məhv olacaq. Buna görə sən qabaqcadan iri və möhkəm bir gəmi düzəlt. Hər bitkinin toxumundan, irili-xırdalı hər canlıdan, fil və böcəkdən, şir və siçandan, hər növdən bir cütünü gəmiyə doldur. Yer üzünü sel-su basanda özün də gəmiyə qalxıb məni gözlə. Vaxt-vədə yetişəndə mən böyük və buynuzlu bir balıq cildinə girib sənin yanına gələcəyəm.

Balıq bunu deyib, dalğaların qoynunda yox oldu. Manu isə hər şeyi onun dediyi kimi eləyib gözləməyə başladı. Tufan qopub dünyanı sel basanda Manu öz gəmisinə qalxdı. Elə o dəqiqə iri və buyunuzlu bir balıq peyda oldu. Manu kəndiri açıb atdı, balığın buynuzuna bənd elədi və balıq gəmini yedəyinə alıb, coşğun suları yara-yara irəli apardı.

Bu minvalla bir çox illər dəryada üzdülər, ancaq bir əlçim quru yer tapa bilmədilər. Nəhayət, uzaqlarda suyun altından boylanan dağın şiş ucu görsəndi. Bu, Himalayın ən uca

zirvəsi idi. Manu gəmini qayaya bağlayıb balığı buraxdı. Balıq dedi:

– Hamınız quruya çıxın, yeni həyatın təməlini qoyun. Məni isə bir də görməyəcəksiniz. Əlvida.

Möcüzəli balıq bunu deyib dəryanın dalğalı sularında qeyb oldu.

Yer üzündən su çəkiləndən sonra Manunun hifz elədiyi canlılardan, toxumlardan həyat yenə cücərib çiçəkləndi.

RAMA HAQQINDA HEKAYƏT

Bir müddətdən sonra Yudhişthira yenə qəm dəryasına qərq oldu. Heç cür anlaya bilmirdi ki, nə səbəbə onlar bu cür məhrumiyyətlərə dözməlidirlər. Bir dəfə qoca abiddən soruşdu:

– Söylə, nəyə görə Draupadi kimi ağıllı və gözəl bir qadın sürgünə sürülməli, meşədə dilənçi kökündə yaşamalıdı? Bəs ədalət harada qaldı? Biz heç vaxt günah iş tutmamışıq, heç kəsə pislik etməmişik, bəs nə üçün belə incidilirik? Hansı günahlara görə bu cür zəlil və bədbəxt olmuşuq?

Dünya görmüş qoca abid cavabında dedi:

– Bunu soruşmazlar. Deməli, qismətimiz beləymiş. Yer üzünün bir çox adamları həyatlarını sürgündə keçirmişlər. Sən öz şahlıq taxtını qumarda uduzmuş Nal haqqında hekayəti eşitdin. Mən günahı olmaya-olmaya başı çox bəlalar çəkmiş qəhrəman haqqında daha bir hekayət bilirəm. O qəhrəmanın da arvadını qaçırmışdılar. Ancaq nə olsun ki?! Bütün dünyada onun adını uca tuturlar və həmişə də uca tutacaqlar.

Panduları maraq bürüdü, abidə yaxın əyləşdilər. Yudhişthira dedi:

– O qəhrəman kimdir? Onun başına hansı müsibətlər gəlmişdi? Düşmənləri kimlərdi?

– Belə rəvayət eləyirlər ki, qədim əyyamlarda, uzaq Lanka adasında üç rakşas qardaş yaşayırmış. Birinin adı Ravan, o birinin – Kumbhakarna, üçüncüsünün də adı Vibhişan imiş. Qardaşlardan ən böyüyü və zalımı – Ravanın on başı varmış. Kumbhakarna qeyri-adi gücü ilə seçilirmiş,Vibhişan isə rakşasların heç birinə oxşamırmış. O, xeyirxah, həqiqətpərəst və ədalətli imiş.

Hər üç qardaşın ürəyində bir gizli dilək varmış. Ancaq bu diləklər yalnız tanrıların köməyi sayəsində yerinə yetə bilərmiş. Qardaşlar tanrıların mərhəmətini qazanmaq üçün böyük-böyük hünərlər göstərirlər. On başlı Ravan düz min il beş tonqalın arasında bir ayağı üstə dayanıb durur. Sonra on başının onunu da kəsib allahlara qurban verir – tonqala atıb yandırır. İkinci qardaş Kumbhakarna neçə yüz il başını aşağa salıb durur, Vibhişan isə xəzəl yeməklə dolanır.

Qardaşların hünərindən razı qalan allahlar Ravanın on başının onun da özünə qaytarır və rakşasların hər bir istəyinə əməl edəcəklərinə söz verirlər. Belə olanda, Ravan arzulayır ki, heç kəs onu öldürə bilməsin – nə allahlar, nə ilahələr, nə handharvlar, nə rakşaslar, nə pələnglər, nə ilanlar, timsahlar; bircə insanın adını çəkmir, çünki o zaman rakşaslar bəni-adəmlərdən zərrəcə də qorxmurmuşlar. Ortancıl qardaş Kumbhakarna özü üçün minillik bir yuxu istəyir. Vibhişan isə hətta təhlükə anında da yaxşılıq yolundan sapmamaq üçün allahlardan səbir və dəyanət istəyir.

Hər üçü diləyinə yetişən kimi, Ravan xəzinələr allahı Kuberanı çapıb-talayır, onun səma arabasını əlindən alır. O bu arabada Himalayın ən uca zirvələrinə qalxır, allahların məskəninə basqın eləyir, onların dincliyini pozur. İnsanlar arasında

da o, şər toxumu səpir. Yer üzündə fitnə-fəsad gündən-günə artıb çoxalır.

Axırda allahlar bir yerə yığışıb məsləhət-məşvərət edirlər ki, bu otbaxmaz, qılınckəsməz düşməndən necə yaxa qurtarsınlar. Birdən yadlarına düşür ki, Ravan öz diləyini söyləyəndə insanın adını çəkməyib, deməli o, yalnız insan əliylə öldürülə bilər. Allahlar qərara alır ki, Göydən ensinlər və yer sakinlərinin cildinə girib zalım rakşası öldürsünlər.

Bu işi Vişnu adlı tanrıya tapşırırlar. Vişnu həmişə qanun və ədalətin keşiyində dururmuş. İnsanlar şər əməllərə qurşananda, Yer üzündə hərc-mərclik başlayanda, Vişnu göydən enir, gah qaban, gah şir, gah da tısbağa donuna girərək qanuntörə yolundan çıxanları cəzalandırırdı. İndi də o, insanların qəlbində xeyrə hörmət və şərə nifrət oyatmağın vaxtı çatdığını görüb, şah Daşarathanın balaca oğlu Ramanın cildinə girdi.

Padşah Daşarathanın üç gözəl-göyçək arvadı var imiş. Rama şahın böyük arvadının oğlu idi. O, atasının sarayında böyüyür, misilsiz gözəlliyi və gücü ilə hamını heyran eləyir. Hələ uşaq ikən bütün bilikləri sinədəftər eləyib yenilməz bir pəhləvan olur. Onun adı gələndə düşmənlər tük salır. O, yüksək amal və duyğularla yaşayır. Qədim adətə görə, şahlıq taxtında atasından sonra o oturmalı idi. Hamı Ramanın adını sayğıyla çəkir, onun şah olacağı xoşbəxt günü səbirsizliklə gözləyir.

Rama yetkinlik yaşın çatıb, adaxlılar yarışında dünya ölkələrinin şahzadələrinə qalib gəlir, gözəlliyi min Günəş kimi Yer üzünə işıq saçan Sitanı alır. Rama və onun təbəələri xoşbəxt bir həyat sürürlər.

Ancaq tezliklə bütün ölkəni fəlakət seli basır və adamlar uzun illər şahzadənin işıqlı çöhrəsindən məhrum olur.

Bu fəlakətə də şahın kiçik arvadı, məğrur Kaykeyi bais olur.

Günlərin bir günü qozbel, bədxah dayəsindən eşidir ki, müdrik hökmdar Daşaratha hələ öz sağlığında məğlub edilməz oğlu Ramanı taxta oturtmaq istəyir.

Kaykeyinin dayəsi çox şərçil arvad imiş. O, şahın cavan arvadının ürəyinə xal salır, onu qorxudub inandırır ki, hərgah Rama padşah olsa, onun doğma oğlu, şahzadə Bharataya zülm eləyəcək, onu xoşbəxt yaşamağa qoymayacaq.

Belə olanda, Kaykeyi əri, padşah Daşarathanın yanına gedir, yalvarıb-yaxarır ki, onun hər istəyinə əməl edəcəyinə söz versin.

Daşaratha cavabında deyir:

– Mənim mələyim, söylə, istəyin nədir? Hökmdar öz sevimli arvadının bir sözünü iki eləməz.

Belə olanda, oğluna görə keçirdiyi qorxudan ağlını itirmiş Kaykeyi haqq-ədaləti unudaraq:

– Alicənab şah, istəyim odur ki, böyük oğlun, vəliəhdin ölkədən qovulsun, oğullarından ən kiçiyi, mənim Bharatam şahlıq taxtında əyləşsin, – deyir.

Bu sözlər Daşarathanın ürəyinə ox kimi sancılır, heyrət və dəhşətdən şahın dili tutulur.

Ancaq nəcib Rama biləndə ki, padşah Kaykeyinin hər bir istəyinə əməl edəcəyinə söz veribmiş, deyir:

– Mən sürgünə gedərəm, təki atam vədinə xilaf çıxmasın. Qoy ölkədə Bharata şahlıq eləsin, xoşbəxt olsun.

Saf qəlbli şahoğlu zahid paltarı geyib, öz ölkəsini və xalqını tərk eləyir. Onun vəfalı arvadı Sita: «Nə bu dünyada, nə o dünyada səndən ayrılmaram», deyib əriylə bərabər sürgünə yollanır. Ramanın ortancıl qardaşı həmişə böyük-böyük hünərlərə can atan gənc cəngavər Lakşman da canından əziz tutduğu qardaşından ayrılmaq istəmir.

Bu üç nəfər öz abad ölkələrindən çox-çox uzaqlarda, qalın bir meşədə yurd salır. Onlar rakşasları qırır, zahidlərin

keşiyini çəkirlər. Bundan onbaşlı Ravan xəbər tutur. Öz döyüş arabasında havaya qalxıb uzaq meşəyə tərəf uçur ki, onun təbəələrini öldürən qəhrəmanlara divan tutsun.

Ramanın koması yaxınlığında yerə enir, rakşaslardan birinə əmr eləyir ki, qızıl buynuzlu maral cildinə girsin:

– Onların komasının ətrafında dolan, gah qabaqlarına çıx, gah gözdən it, ta o vaxtacan ki, dalınca düşüb qovlasınlar. Qalanı ilə işin olmasın, özüm bilərəm nə elərəm.

Öz zalım hökmdarının idarəsinə tabe olan rakşas Ramanı və Lakşmanı tovlayıb meşənin dərinliyinə çəkib apardıqda namərd Ravan gözəl Sitanı zorla səma arabasına mindirib öz məmləkətinə qaçırır.

Sita göz yaşı axıda-axıda Ramanı köməyə çağırır. Onun fəryadını nəhəng qanadlı çalağan Catayu eşidir. Qıy vurub Ravanın üstünə şığıyır, dimdiyi, caynağı ilə rakşası didməyə başlayır. Ravan qılıncını çəkib çalağanı ölümcül yaralayır. Qanadları qırılmış, qanına qəltan olmuş çalağanı Rama və Lakşman tapırlar. Artıq ölüm tanrısının caynağında çırpınan çalağan Ravanın bu kamil qadını haraya qaçırdığını, onun ağlaya-ağlaya ərini necə köməyə çağırdığını qardaşlara danışır.

Ramanın qəlbini qəzəb bürüyür. Sədaqətli qardaşı ilə birgə uzaq Lankaya tərəf cumur. Onlar elə iti qaçırlar ki, dağlar bir göz qırpımında arxada qalır, ağaclar, çaylar, göllər isə tufanın qovduğu buludlar kimi görünüb dərhal yox olur.

Quş kimi qanad açıb az bir vaxtda meşə meymunlarının hökmdarı Suqrivanın səltənətinə yetişirlər. Bu vaxt Suqriva sürgündə imiş. Hökmdarın zalım və güclü qardaşı onun şahlıq taxt-tacını da, sevimli arvadını da əlindən alıb, özünü ölkədən qovubmuş.

Haqsızlığa dözməyən qəhrəman Rama, meymunlar hökmdarının namərd qardaşını öldürüb, qızıl tacı ölkədən haqsız qovulmuş Suqrivaya qaytarır.

Suqriva şad olub, saysız-hesabsız təbəələrini hüzuruna çağırır, onlara buyurur ki, hər yeri axtarıb, Ravanın ayüzlü Sitanı haraya qaçırdığını öyrənsinlər.

Suqrivanın vəziri Xanuman adında bir meymun imiş. Bu meymunun əlində möcüzə yaratmaq su içmək kimi bir şeymiş: istəyəndə cildini dəyişir, uçmağı bacarırmış. İndi də o, havaya qalxır, okeanın üzəriylə uçub dərin bir girdabın ortasında üzən Lanka adasına yetişir. Sitanı Ravanın bağçasında saçı dağınıq, gözləri yaşlı, taqətsiz halda görür. Ona toxtaq verib deyir:

– Ürəyini sıxma, möhtərəm şahbanu, mən nur çöhrəli Ramanın müjdəçisiyəm. O, tezliklə saysız-hesabsız qoşunla Lankaya gəlib səni azad eləyəcək.

Suqrivanın bu qüdrətli vəziri Ramanın yanına qayıdıb Sitanı gördüyünü, onun qırmızıgöz, üçgöz, təkayaqlı və başqa eybəcər və zalım dişi rakşasların içində necə əzab çəkdiyini, öz ərini necə bir həsrətlə gözlədiyini danışır.

Qəzəbdən Ramanın gözləri qanla dolur. Suqriva və Xanumandan rica eləyir ki, ordunu meşə tayfalarından yığsınlar. Elə ki, Suqrivanın yüz milyon təbəəsi, yüz milyon güclü ayı və başqa meşə sakinləri bir yerə toplanır, Rama bu nəhəng ordunu götürüb okeana, Lankaya tərəf hərəkət edir. Dalğalı okeanın sahilinə çatıb, çaşqınlıq içində dayanır: indi bu ucsuz-bucaqsız dəryadan necə keçsinlər. Müdrik Rama deyir:

– Gecənin xeyrindənsə, səhərin şəri yaxşıdır, səhəri gözləyək. Sübh tezdən mən od saçan oxlarımla bu dəryanı yandırıb qurudaram.

Sonra o, okeanın lap qırağında uzanıb gözlərini yumdu ki, bir az dincəlsin. Yuxuda o zinətli və əzəmətli Okeanı gördü. Okean sayğıyla ovuclarını cütləyib soruşdu:

– Sən kimsən, ey cəngavər? Məndən nə istəyirsən?

– İzn ver, qoşunum sənin dalğalı qoynundan keçib Lankaya getsin.

Okean dedi:

– Yaxşı, sənə kömək edərəm. Qoy sənlə bura gələnlər əllərinə keçən qayaları, daşları, qamış və ağacları coşğun sularıma atsınlar. Mən öz dalğa qollarımla bunları suyun üzündə tərpənməz saxlaram, bir ucu burada, bir ucu Lankada olan körpü düzələr.

– Sübhün ilk şəfəqləriylə yuxudan qalxan Rama öz qoşununa möcüzəli körpü qurmağı əmr elədi. Tezliklə onun bütün qoşunu körpüdən keçib, Lanka adasına, Ravanın məmləkətinə qədəm qoydu.

Rakşasların şəhəri hündür, daş hasarla əhatə olunmuşdu. Bu hasar da sularında timsah və yırtıcı balıqlar qaynaşan yeddi dərin xəndəklə dövrələnmişdi. Divarın üstündə təpədən-dırnağacan yaraqlanmış keşikçilər gəzişirdilər; çənlərdə qatran qaynayır, səbətlərdə ağulu ilanlar qaynaşırdı.

Ancaq Ramanın cəsur qoşunu heç nədən qorxmadı, şəhərə həmlə elədi. Vuruş başlandı. Bir tərəfdə, qorxunc bağırtısı ilə düşmənlərin canına vəlvələ salan boz ayılar döyüşürdü, onlara Lakşman sərkərdəlik eləyirdi. Başqa bir tərəfdə Suqriva və Xanuman öz quyruqlu cəngavərlərini qala divarlarına həmləyə göndərirdi, onlar da qorxu-hürkü bilmədən xəndəklərin üzərindən tullanır, cəld divara dırmaşırdılar. Üçüncü tərəfdə meşə sakinləri qoşun-qoşun şəhərə axışır, rakşasları didib-parçalayırdı. Rama isə odsaçan oxlarını düşmənin üstünə elə sürətlə yağdırdı, elə bil göydən odlu yağış tökürdü.

Ravanın qardaşı, comərd Vibhişan görəndə ki, Rama ədalət uğrunda döyüşür, onun tərəfinə keçib rakşaslarla vuruşmağa başladı.

Ravan bir də baxdı ki, qoşunu lap seyrəlib, bir az da keçsə, qırılıb qurtaracaq. Minillik yuxuya dalmış ortancıl qardaşı – Kumbahakarnanı dümsükləməyə başladı. Birtəhər yuxudan oyanan bu nəhəng rakşas döyüşə başladı. O, meydana yenicə girmişdi ki, cəsur Suqriva onun üstünə cumub, yüzillik

bir ağacı başına çaldı. Ancaq Kumbhakarnanın heç tükü də tərpənmədi, o, Suqrivanı qamarlayıb şəhərə apardı ki, orada rahat yesin.

Bunu Lakşman gördü, oxu kamana taxıb atdı, ox ildırım kimi acgöz rakşasın ürəyinə sancıldı. Adamyeyən yerə elə zərblə dəydi ki, yer ayrılıb onu uddu. Surqiva onun əlindən qurtulub öz döyüşçülərinin yanına qayıtdı.

Ravan öz qardaşının öldüyünü görüb, ox-yayla yaraqlanmış oğlunu döyüşə göndərdi. O, tilsimli oxlarla Ramanı və Lakşmanı vurub yerə sərdi. Hamının gözünə qaranlıq çökdü, elə bil göydə günəş və ay söndü. Ancaq müdrik Vibhişan əfsun oxudu, oxları bu qorxmaz qəhrəmanların bədənindən çıxarıb onları həyata qaytardı.

Belə olanda, hətta tanrıları da dəhşətə salan on başlı Ravan cəng arabasında döyüşə atıldı. Öz sehrinin gücüylə yüz min yeni rakşas yaratdı və bu tüklü, baltadiş əsgərlərinin əhatəsində Günəş kimi işıq saçan Ramanın üzərinə yeridi.

Qüdrətli Rama bu şər hökmdarını qorxu-hürküsüz qarşıladı. Odsaçan oxlarıyla Ravanın yaraq-əsləhəsini vurub parça-parça elədi. Sonra da oddan lələk taxılmış oxla rakşasların hökmdarının düz ürəyindən vurdu, Ravan od tutub yandı.

İgid Rama bütün canlıların nifrət elədiyi Ravanı öldürəndən sonra onun nəcib qardaşı Vibhişanı Lankanın hökmdarı təyin elədi, özü isə vəfalı arvadı Sita və yenilməz Lakşmanla doğma yurduna qayıtdı.

Beləcə, Yer üzü böyük fəlakətdən qurtuldu, orada yenə haqq-ədalət bərqərar oldu.

Nə qədər ki, Yer üzündə uca dağlar durublar,
Nə qədər ki, bütün çaylar okeana tələsir,
Ramanın şücaətini vəsf eləyən nəğmələr
Unudulmaz heç zaman, xalqın dilində gəzər!

MÖHTƏŞƏM ŞƏRQ ABİDƏSİ

Şərqin möhtəşəm abidələrindən biri olan «Kəlilə və Dimnə» III-IV əsrlərdə Hindistanda şifahi hikayələr şəklində formalaşmışdır. Hind brəhmənləri tərəfindən onların kağıza köçürülməsi sonrakı dövrlərə aiddir. Kağıza köçürüləndən sonra «Kəlilə və Dimnə» İran və Ərəbistada yayılmağa başlamışdır. Deyilənə görə İran hökmdarı Xosrov Ənuşirəvan (531-579) kitabı İrana gətirmək məqsədi ilə təbib Bərzuyəni Hindistana göndərmişdir. Bərzuyə hind, pəhləvi və sanskrit dillərini yaxşı bildiyi üçün əsəri pəhləvi dilinə tərcümə etmişdir. Lakin həmin tərcümənin nümunələri zamanımıza gəlib çatmamışdır. Həmin vaxtda Bərzuyə «Kəlilə və Dimnə» ilə bərabər şahmatı da Ənuşirəvana hədiyyə kimi gətirmişdir. (İndikindən fərqli olaraq 12x12 formasında). Ancaq şərqşunaslıqda belə bir fikir də mövcuddur ki, «Kəlilə və Dimnə» pəhləvi dilinə tərcümə edilənə qədər «Pançatantra» adı ilə tanınmışdır. Lakin bir qrup şərqşunas bu fikri təkzib edir və göstərirlər ki, hər iki kitab başqa-başqadır. «Pançatantra»da elə hekayə və təmsillər var ki, onlara «Kəlilə və Dimnə»də rast gəlinmir. Həmin tədqiqatçılar «Kəminə və Dimnə»nin 18, «Pançatantra»nın isə 5 fəsil olmasını da hər iki kitabın müxtəlifliyi kimi izah edirlər. Digər bir fikir ondan ibarətdir ki, Hindistanda «Kəlilə və Dimnə» ilə yanaşı buna bənzər bir neçə

kitab da olmuşdur. Guya «Kəlilə və Diminə»dən seçilmiş beş təmsil əsasında «Pançatanatra»nı (beş hikmət) tərtib etmişlər. Lakin əsərin ilkin olaraq hansı ad altında olması hələlik elmə məlum deyil. VIII əsrin ortalarında Abdulla ibn əl Müqəffa əsəri müəyyən əlavə və dəyişikliklərlə ərəb dilinə tərcümə edəndən sonra bu əsər başqa xalqlar arasında geniş yayılmağa başlamışdır. Ümumiyyətlə, «Kəlilə və Dimnə» ibrətamiz hekayələr toplusudur. Burada əhvalatlar heyvanların dilimdən nəql olunur. Kitabda verilən hər bir hekayənin son cümlələri müdrik nəticə kimi səslənir. Bu nəticələr insanları pisliklərdən, müharibələrdən, ədalətsiz hərəkətlərdən, zülümkarlıqdan və s. uzaqlaşdırmağa kömək edir, bəşər övladını sülhə, əmin-amanlığa, bir-birinə kömək və dayaq olmağa və s. səsləyir. «Kəlilə və Dimnə» görkəmli şərqşunas alim Rəhim Sultanov tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.

KƏLİLƏ VƏ DİMNƏ
(İxtisarla)

İBN ƏŞ ŞAH ƏL FARİSİ ADI İLƏ ŞÖHRƏT TAPMIŞ BEHNUD İBN SƏHVANIN MÜQƏDDİMƏSİ

...Şükr-sənadan sonra biz bu müqəddimədə brəhmənlərin[1] başçısı, hind filosofu Beydəbanın hind padşahı Dəbşəlim üçün tərtib etdiyi «Kəlilə və Dimnə» kitabının yazılmasının səbəbini göstəririk. Bu kitab ona görə heyvanların və quşların dilindən yazılmışdır ki, onun əsil məqsədi cahillərdən və nadanlardan gizli saxlansın. Axmaq adamlara onun məzmunu yüngül görünə bilər, fərasətli adamlar isə onda olduqca dərin, qiymətli və ibrətli bir məna taparlar, mənbələri nöqteyi-nəzərindən isə çox zəngin və gözəl olduğunu görərlər. Bu kitab filosof üçün – əngin bir fəza, əql üçün – böyük məşq meydanıdır, söz aşiqləri üçün – unudulmaz xatirədir, mənasını dərk edib qananlar üçün gözəl bir ibrət xəzinəsidir. Biz İran padşahı Xosrov Ənuşirəvanın həkimbaşı Bərzuyəni hindlilər ölkəsinə «Kəlilə və Dimnə»nin dalınca göndərməsinin səbəbini göstəririk. Biz, Hindistana gəldikdən sonra, gecələr gizli surətdə şahın xəzinəsində bu kitabın üzünü köçürməyə razılıq verən adamı tapana qədər Bərzuyənin necə kələklər işlətdiyini, hind alimlərinin başqa kitablarını, on xanalı[2] şahmatı və bu kitabı İrana necə gətirdiyini təsvir edirik.

Biz burda Büzürgmehr ibn Əl Buxteqanın kitabın mənşəyi haqqındakı müqəddiməni nə üçün yazdığınıda söyləyirik.

---

[1] *Brəhmən – Hindistanda dini xadim, ruhani alim*

[2] *İndiki şahmatların xanası 8X8-dir. Görünür ki, o zaman 10X10 olmuşdur.*

Eyni zamanda kitabın məziyyətlərini də deməkdən çəkinmirik. Biz bu kitabı ələ keçirmiş hər bir adamı təhrik edirik ki, onu öyrənsin, ona dönə-dönə müraciət etsin, onun faydalı və ibrətli cəhətlərinə diqqət versin. Yalnız bu zaman oxucu görəcək ki, bu kitab insan ürəyinin meyl etdiyi bütün əyləncələrdən yaxşıdır. Bunun üçün kitabdakı rəmzi danışıqların sirrini kəşf etmək lazımdır. Əks təqdirdə, oxucu kitabın qarşıda qoyduğu məqsədə nail ola bilməyəcəkdir. Biz burada Bərzuyənin qayıtmasını və kitabı oxumaq üsulunu kəşf etməsini göstəririk. Büzürgmehrin nə üçün xüsusi bir fəsil yazaraq onu «Təbib Bərzuyə» adlandırdığından da danışırıq. Həmin fəsildə Bərzuyənin anadan olduğu gündən necə oxumağa başladığı, ilahiyyata meyl etdiyi, fəlsəfəni sevdiyi, müxtəlif cərəyanlar ilə tanış olduğu göstərilir. Biz bu fəslin kitabın əvvəlində olan «Şir və öküz» fəslindən qabağa salınmasının da səbəbini göstəririk.

Əli ibn Əş-Şah Farisi belə nəql edir ki, filosof Beydəba «Kəlilə və Dimnə» kitabını hind padşahı Dəbşəlim üçün aşağıdakı səbəbə görə yazmışdır: Rumlu İskəndəri-Zülqərneyin Qərb krallarını məğlub etdikdən sonra Şərq şahlarının, İranlıların və başqalarının üzərinə hücüma başladı. O, düşməni məğlub edib aradan qaldırmayınca və ya özünə tabe etməyincə müqavimət göstərənlərə qəddarcasına divan tuturdu, vuruşanlara qarşı vuruşur, sülh istəyənlər ilə sülh bağlayırdı. İran şahları onun yolu üstündə ilk düşmənlər idi. Tezliklə onlar müxtəlif tərəflərə səpələnməyə və qırıq-sınıq qoşun kimi dağılmağa məcbur oldular. Bundan sonra İskəndəri-Zülqərneyn öz qoşunu ilə Çin tərəfə yola düşdü və burada rast gəldiyi ilk ölkə Hindistan oldu. O, hind padşahını özünə tabe edib, dinini və hökmranlığını ona qəbul etdirmək istədi. Bu zaman Hindis-

tanda Forek adlı güclü, igid, məğlub edilməz sayılan tədbirli bir adam şahlıq edirdi.

İskəndəri-Zülqərneynin yaxınlaşmaq xəbəri ona çatdıqda, Forek vuruşmağı qərara aldı. Müharibə üçün lazım olan bütün tədbirləri gördü, sərkərdələri çağırıb döyüşə hazır olmalarını əmr etdi. Qısa müddətdə onun üçün zirehli fil dəstələri, hücum üçün xüsusi təlim görmüş yırtıcı heyvanlar, atlar, uzun nizələr, iti qılınclar, parlaq mizraqlar hazırladılar.

İskəndəri-Zülqərneyn hind şahı Forekin olduğu yerə yaxınlaşdıqda xəbər çatdı ki, hindlilər İskəndərin vuruşduğu ölkələrin heç birində misli görünməmiş, gecə qaranlığı qədər dəhşətli olan süvari dəstələri hazırlayıblar. İskəndəri-Zülqərneyn bunu eşitdikdə tələsik başlanacaq müharibənin fəlakətlə nəticələnəcəyindən qorxdu. İskəndər hiyləgər, qəddar olmaqla bərabər, həm də ayıq və tədbirli bir adam idi. Bir sıra hiylələri sınaqdan keçirdikdən sonra ehtiyatlı olmaq, fənd işlətmək qərarına gəldi. O, ordu qərargahı qarşısında xəndək qazdıraraq hələlik tutduğu mövqedə qalmağı, hind padşahına hücum etmək planını fikirləşib tədbir görməyi qət etdi. İskəndər münəccimləri çağırıb əmr etdi ki, hücuma keçib hind padşahını məğlub etmək üçün hansı günün xoş olduğu haqda rəml atsınlar. Onlar şahın əmrini yerinə yetirdilər. İskəndərin belə bir adəti var idi: hər şəhəri aldıqda oranın müxtəlif sənətlərdə şöhrət tapmış ustalarını özü ilə götürüb aparardı. İskəndər çox fikirləşdikdən sonra birdən ağlına gəldi ki, yanında olan bu ustalardan istifadə etsin. Ustalara tapşırdı ki, misdən içi boş olan adam şəklində atlı süvarilər düzəltsinlər, bu atları elə çarxlar üzərinə qoysunlar ki, itələdikdə onlar sürətlə hərəkət edə bilsin. İskəndər əmr etdi, iş qurtardıqdan sonra atların içi neft və kükürdlə doldurulsun, süvarilərə müharibə paltarları geydiril-

sin və onların hamısı ordunun mərkəz hissəsinin önündə yerləşdirilsin. İki tərəfin qoşunu toqquşarkən onlara od vurulsun, beləliklə, közərmiş süvariləri xortumları ilə götürən fillər geri qaçmağa məcbur olsunlar.

O, ustalara əmr etdi ki, bu işləri tezliklə başa çatdırsınlar. Ustalar cidd-cəhdlə işə başladılar. Münəccimlərin təyin etdikləri gün də yaxınlaşırdı. Zülqərneyn öz elçilərini hind padşahının yanına göndərib, ona tabe olmağı təklif etdi. Lakin Forek bildirdi ki, Zülqərneyn düşməndir və ona qarşı qəti müqavimət göstəriləcəkdir.

Zülqərneyn Forekin bu qərarını eşitdikdə öz zirehli süvarilərilə birlikdə hücuma başladı. Forek filləri qabağa verdi. İskəndərin adamları mis süvariləri irəli sürdülər. Fillər həmləyə başlayaraq xortumları ilə mis süvarilərdən yapışdılar. Lakin xortumlarının yandığını hiss etdikdə üstlərindəki əsgərləri yerə çırpıb tapdaladılar, ağına-bozuna baxmadan qabaqlarına çıxan hər şeyi basdalayıb sürətlə geri qaçmağa üz qoydular.Vəziyyəti belə görən Forek və onun qoşunu müxtəlif tərəflərə səpələndilər. İskəndərin cəngavərləri isə onları təqib edir, ağır zərbələr endirirdilər. Bu zaman İskəndər qışqırdı:

– Ey hind padşahı! Gəl mənimlə vuruşaq, öz qoşununa, adamlarına yazığın gəlsin, onları ölümə sürükləmə! Bədbəxt dəqiqələrdə və fəlakətli yerlərdə qoşunu qoyub qaçmaq şahlara yaraşmaz... Şah öz var-dövləti ilə onları müdafiə etməli, onların nicatı üçün öz canından keçməlidir. Şah öz var-dövlətini və həyatını belə onlara qurban verməlidir. Ordunu burax, mənim meydanıma gəl! Bizlərdən kim kimi öldürsə, o da xoşbəxt olsun.

Forek Zülqərneynin bu sözlərini eşitdikdə bəxtini sınamaq və qalib gəlmək eşqi ilə onun üzərinə həmlə etdi, o tə-

rəfdən də İskəndər hücuma keçdi. Meydanda bir neçə saat at çapıb silah oynatdılar. Lakin heç biri üstün gələ bilmədi. Belə vuruşmadan yorulmuş İskəndər başqa hiylə və çıxış yolunun olmadığını gördükdə bərkdən elə bir nərə çəkdi ki, zərbindən yer-göy lərzəyə düşdü. Bu qışqırtını eşidən Forek, ordusunun başına bir fəlakət gəldiyini düşünərək, dönüb geri baxdı. İskəndər bu zaman ona ağır bir zərbə endirdi. Bu birinci zərbə Foreki yəhərdən ayırdı. İkinci zərbə isə yerə sərdi. Öz şahlarının başına gələn bu fəlakəti görən hindlilər İskəndərin üzərinə hücuma keçdilər, öz şahları ilə birlikdə ölməyi daha şərəfli hesab edərək qızğın müharibəyə başladılar. Lakin İskəndər onlar ilə mərhəmətli rəftar etməyə söz verdi, buna görə də allah İskəndərə zəfər qazandırdı. İskəndər hindlilərin ölkəsini ələ keçirdi və özünün inanılmış adamlarından birini onlara şah etdi. Lazım olan tədbirləri görüb, öz hakimiyyətini tam bərpa edənə qədər Hindistanda qaldı. Sonra İskəndər həmin inanılmış adamı öz yerində qoyub Hindistandan çıxdı, öz yeni hədəfinə doğru yola düşdü.

O, öz ordusu ilə bərabər Hindistandan uzaqlaşdıqda Hindlilər İskəndərin yerində qalan həmin adama müti olmaqdan boyun qaçırdılar. Onlar bela dedilər:

– Hindistan kimi əzəmətli bir dövlətə yaraşmaz ki, bizim nəsildən olmayan bir adam bizə padşahlıq etsin. Belə adam həmişə bizə etinasız baxıb bizi təhqir edəcəkdir.

Sonra onlar şahzadələrdən birini padşah qoymaq qərarına gəldilər və Dəbşəlim adlı birisini özlərinə şah seçdilər, İskəndərin təyin etdiyi adamı isə taxtdan saldılar. Dəbşəlimin hakimiyyəti güclənib vəziyyəti möhkəmləndikcə lovğalanmağa, özünü öyməyə, təkəbbür və qürurla dolanıb, ətrafındakı şahlara hücum etməyə başladı. O, hamıya qalib gəlir və məğ-

lubedilməz sayılırdı. Ona görə ətrafda olan bütün şahlar vahiməyə düşür, əhali ondan qorxurdu. Öz qüdrətinin gücünü, hakimiyyətinin möhkəmliyini görən Dəbşəlim rəiyyətin qayğısına qalmır, onları təhqir edir və incidirdi. Zaman keçdikcə onun bu qudurğanlığı artdı, o, uzun müddət belə azğınlıqlar etdi.

Dəbşəlim padşahın vaxtında öz bilik və mərifəti ilə şöhrət tapmış, brəhmənlərdən olan müdrik bir filosof vardı, hamı məsləhət üçün ona müraciət edərdi. Onun adı filosof Beydəba idi. Şahın rəiyyətə qarşı bu ədalətsizliyini görən Beydəba onu ədalət və doğruluq yoluna qaytarmaq haqqında çarə düşünməyə başladı. O, bu məqsədlə öz şagirdlərini toplayaraq dedi: – Bilirsinizmi mən sizinlə nə barədə məsləhətləşmək istəyirəm? Onlar dedilər: – Yox, bilmirik! O dedi: – Biliniz və agah olunuz ki, mən Dəbşəlim padşahın həddini aşmış ədalətsizliyi, onun törətdiyi saysız-hesabsız cinayətlər, alçaq hərəkətlər və xalqla bədrəftarı haqqında çox düşünmüşəm və bu qərara gəlmişəm ki, biz aşağıdakı qaydanı özümüzə adət edək:

– Biz şahın pis fikrə düşdüyünü görcək şərri xeyrə çevrilməyə, şahı ədalətli olmağa məcbur etməliyik. Əgər onu özbaşına buraxıb fikir verməsək, bu heç vaxt bizim üçün güzəşt edilməz; fəlakətlər baş verər, biz həmişə qorxduğumuz bir vəziyyətə, yəni o axmaq adamların vəziyyətinə düşərik ki, onlar bizi özlərindən daha axmaq sayır və bizə alçaq nəzərlə baxırlar. Mən doğma vətəni tərk etmək fikrində deyiləm. Padşahın yaramaz hərəkətlərini davam etdirib, xalqa zülm etməsinə isə bizim əql və kəmalımız göz yuma bilməz. Onunla mübarizə etmək üçün dildən başqa bizim heç bir silahımız yoxdur. Kömək toplamaq məqsədi ilə başqa yerə getsək – bu da fayda

verməz. Narazılığımızı, onun çirkin əməllərini bəyənmədiyimizi duysa, bizi məhv edər.

Siz bilirsiniz ki, güzəranı gözəl, mənzərəsi qəşəng olan yerdə belə itin şirlə, ilanın öküzlə qonşuluğu təhlükəlidir. Arzuedilməz müsibətlər və ağır fəlakətlərdən özünü qorumaq, iyrənc şeyləri aradan qaldırıb yox etmək, sevimli şeyləri yaratmaq haqqında düşünmək filosofun borcudur. Deyirlər, bir filosof öz şagirdlərinə belə yazmışdır: «Pis adamla qonşu olub dostluq edən, dəniz səyyahı kimdir: batmaqdan yaxasını qurtarsa da, qorxu çəkməkdən qurtara bilməz. Əgər belə adam özözünü gətirib təhlükəli və dəhşətli bir yerə çıxarsa, onu idraksız heyvan hesab etmək lazımdır; çünki faydalı və zərərli şeyləri sövqi-təbii olaraq vəhşi heyvanlar da dərk edirlər. Axı, su içmək üçün heç heyvanlar da öz sürülərini təhlükəli yerlərə aparmırlar, təsadüfən gəlib belə bir yerə çıxdıqda, sövqi-təbii olaraq oradan qaçır və öz canlarını xilas edirlər».

Mən sizi bu iş üçün yığmışam. Siz mənim ən yaxın adamlarım və sirdaşlarımsınız, siz mənim dayağım və istinadgahımsınız. Məlumdur ki, fikir və əqidədə tək qalan adam harada olur-olsun məhv olar, özünə köməkçi tapa bilməz.

Bu barədə belə bir rəvayət də vardır:

«Bir Turağay bir filin yolu üstündə özünə yuva tikib yumurta çıxardı. Filin su içmək üçün gedəcəyi bir yol var idisə, o da bu cığır idi. Adəti üzrə fil bir dəfə su içməyə gedərkən yuvanı tapdalayıb yumurtaları əzdi. Turağay bu bədbəxtliyi gördükdə dərhal anladı ki, bunu edən fildir. Uçub filin başına qondu və dedi: «Şahım! Sən nə üçün yumurtaları əzib balalarımı məhv etdin? Özünə nisbətən məni zəif, gücsüz və yazıq sandığın üçünmü belə edibsən?» Fil dedi: «Bəli, məhz ona görə». Turağay bunu eşitdikdə uçub quşların yanına getdi və

filin onun başına nələr gətirdiyini nəql etdi. Quşlar dedilər: «Biz ona nə edə bilərik? Biz gücsüz quşuq». Belə olduqda Turağay sağsağan və qarğalara dedi ki, mən istəyirəm, siz mənimlə gedib filin gözünü çıxardasınız, ondan sonra özüm bilərəm, onun başına nə oyun açaram. Onlar razı oldular. Turağay ilə uçub getdilər, filin gözlərini o qədər dimdiklədilər ki, onlar ovulub yerə töküldü. Bundan sonra fil nə su içməyə, nə də yemək əldə etməyə bir yol tapdı. Olduğu yerdə nə var idisə, onunla da dolanırdı.

Turağay bundan xəbər tutcaq çoxlu qurbağası olan bir gölməçənin qırağına gəlib əhvalatı danışdı, fildən qurbağalara şikayət etdi. Onlar dedilər: «Biz güclü filə nə edə bilərik? Turağay dedi: «Mən istəyirəm, siz mənimlə filin yaxınlığında olan bir uçurumun kənarına gedib, orada quruldayasınız və hay-küy qoparasınız. Fil sizin səsinizi eşitcək orada suyun olduğuna inanıb uçuruma düşər». Qurbağalar buna razı oldular. Uçurumun kənarına toplaşıb quruldamağa başladılar. Susuzluğa tab gətirməyən fil onların qurultusunu eşitcək o tərəfə yollandı və uçuruma yıxılaraq məhv oldu. Turağay isə uçub, onun başı üstə qanad çalaraq dedi: «Ey gücü ilə öyünüb mənə həqarətlə baxan zülmkar! Boyumun balacalığı ilə işlətdiyim böyük kələyi, bədəninin böyüklüyü ilə elədiyin kəmağıllığı necə gördün?!»

Sizlərdən kim nə düşünürsə, qoy onu söyləsin.

Onlar dedilər:

– Ey ağıllı, zəkalı və müdrik filosof, bizim aramızda ən bilikli və ən ləyaqətli sənsən. Bizim mülahizəmizin və fikrimizin sənin əqidən və düşüncən yanında nə əhəmiyyəti ola bilər? Biz bilirik ki, suda timsah ilə bir yerdə üzmək təhlükəlidir. Lakin günah burada timsahda deyil, onun yaşadığı yerə

girmiş adamdadır. Əgər sən ilanın dişindən zəhəri çıxarıb öz üzərində sınaqdan keçirsən, bu işdə ilanın heç bir təqsiri olmaz. Kim şirin mağarasına girirsə, o, parçalanmağı da gözünün qabağına gətirməlidir. Fəlakətlər padşaha ibrət olmur, bədbəxtliklər onu sarsıtmır. Şahın keyfinin kök vaxtına rast galməsən, inanmırıq ki, həm sən, həm də biz onun qəzəbindən xilas ola bilək.

Beydəba dedi:

– Həyatıma and içirəm ki, siz yaxşı dediniz, gözəl cavab verdiniz. Lakin mərifətli və ehtiyatlı adam həm özündən aşağı, həm də özündən yuxarı vəzifəli adamlarla məsləhətləşməlidir. Bir ağıl xüsusi məsələləri həll etməkdə bəs olmadığı kimi, ümumi məsələləri həll etməkdə də kifayət etməz. Mənim Dəbşəlim şahla görüşmək qərarım düzgündür.

Mən sizin çıxışlarınızı dinlədim, sizin mənə səmimi dost olduğunuzu, eləcə də, həm mənim həyatım, həm də öz həyatınız üçün narahat olduğunuzu anladım. Lakin mən fikirləşib elə bir qərar qəbul etmişəm ki, siz onun nəticəsini mən padşahla görüşüb söhbət etdikdən sonra biləcəksiniz. Şahın sarayından qayıtdığımı eşitsəniz, mütləq mənim yanıma toplaşın.

Beydəba dostlarının xudafizləşməsinə icazə verdi. Onlar xeyir-dua etdikdən sonra xudafizləşib ayrıldılar. Beydəba şah Dəbşəlimin yanına getmək üçün gün təyin etdi. Müəyyən edilmiş gün çatdıqda o, brəhmənlərə məxsus abid paltarı geyib padşahın sarayına yollandı. Şahın eşik ağasını axtarıb tapdı, ona salam verib dedi ki, çox xeyirli bir iş üçün şahı görməlidir. Eşik ağası şahın yanına gəlib icazə istədi. Həmin gün şahın boş günü idi, icazə verdi. Beydəba içəri girib, şahın qarşısında durdu, ona baş əyib təzim etdi, sonra qəddini düzəl-

dərək susmuş halda dayandı və bir kəlmə də olsun danışmadı. Şah Dəbşəlim onun susmasını gördükdə fikrə gedib öz-özünə dedi: «Bu filosof yalnız iki məqsəd üçün mənim yanıma gələ bilər: ya öz vəziyyətini yaxşılaşdırmaq üçün bir şey almaq istəyir, ya da elə bir bədbəxtlik üz verib ki, o, bunun qarşısında acizdir. Yardım göstərəcək bir adam tapa bilmir. Ona görə mənə pənah gətirib ki, mən onun düşməninə ən ağır və ən işgəncəli cəza verim. Sonra o dedi: «Yox, filosoflar belə iş görməzlər. Şahlar hakimiyyətcə filosoflardan üstün olsalar da, filosoflar öz müdriklikləri ilə şahlardan daha çox üstündürlər, çünki filosofun şaha ehtiyacı yoxdur, şahlar isə dövlətli olmalarına baxmayaraq alimsiz keçinə bilmirlər. Mən əql ilə həyanı ən yaxın və ayrılmaz dost hesab edirəm, biri itdikdə, o birini də tapmaq olmur. İnsanlar və heyvanlar arasında olan səmimi dostlar da belə olur. Biri öz yoldaşını itirdikdə bütün ömür boyu onun üçün qüssələnir və kədərlənir. Kim alimlərdən həya etməsə, onlara hörmət göstərməsə, onların üstünlüyünü etiraf etməsə, onları təhqiredici vəziyyətdən və nalayiq yerlərdən qurtarmasa, belə adamın əqli zay olmuş, həyatı isə hədər getmişdir. Alimlərin hüquqlarına qarşı ədalətsizlik etdiyindən onun adı axmaqlar sırasına yazılmalıdır».

Sonra Beydəbaya nəzər salıb dedi: – Görürəm susursan, öz ehtiyacını demir, arzularını bildirmirsən, lakin mən bilirəm ki, danışmamağının səbəbi ya səni sarsıdan bir bədbəxtlik, ya sənə üz verən bir fəlakətdir. Mən bunu sənin bayaqdan bəri susmağından başa düşdüm və öz-özümə dedim ki: «Beydəba bura bizə tamaşa etməyə gəlməmişdir. Yəqin ki, onu gəlməyə məcbur edən bir hadisə baş vermişdir. Axı o bizim zəmanənin ən ləyaqətli adamıdır. Onun buraya gəlməsinin səbəbini soruşmağa ehtiyac varmı? O, üz vermiş bir ədalətsizliyin qarşı-

sını almaq üçün bizdən kömək istəyirsə, yardım əlimizi uzadıb, ona ən ləyaqətli tərzdə hörmət etməli və onun bütün arzularını yerinə yetirməliyik. Onun məqsədi bu dünyanın nemətlərinə malik olmaqdırsa, əmr edərəm, onu arzu etdiyi kimi təmin etsinlər. Yox, o, yalnız şahlara xas olub, başqalarına etibar edilməyən məsələlərlə maraqlanırsa, bu işlərə qarışmaq fikrində olmasa belə mən ona nə kimi cəza vermək haqqında fikirləşməliyəm. Mənim diqqətimi rəiyyət işlərinə cəlb etməyə gəlibsə, onları yoxlaram. Axı, ağıllılar xeyirxəbər olurlar, axmaqlar isə əksinə».

Deməli, mən sənə danışmağa icazə verirəm, nə istəyirsən de.

Beydəba şahın dediklərini eşitdikdə bir az sakitləşdi, ürəyinə çökmüş qorxu rəf oldu. O, baş əyib təzim etdikdən sonra dedi: – Hər şeydən əvvəl allahdan arzum budur ki, şahın ömrü uzun, təxt və tacı əbədi olsun. Şah mənə böyük hörmət etdi, bu, məndən sonrakı alimlərin şöhrətini artıracaq və dünya durduqca ağıllı adamların xatirindən çıxmayacaqdır, çünki şah öz üzünü mənə tərəf çevirmiş, mərhəmətli baxışlarını məndən əsirgəməmişdir.

Məni buraya gəlməyə məcbur edən iş başqasına deyil, məhz şaha xeyirli məsləhət verməkdir. Qoy bunu dinləyən bilsin ki, mən şahdan alimlərə layiq münasibət tələb etməkdə heç bir şeydən çəkinməyəcəyəm. O, fikrimi deməyə icazə verib məni sərbəst buraxsa, ondan sonra öz istədiyi kimi də rəftar edə bilər. Yox, mənim dediklərimə əhəmiyyət verməsə, yenə də mən öz borcumu yerinə yetirmiş olaram. Xalq da bu barədə məni məzəmmət edə bilməz.

Şah dedi: – Ey Beydəba, danış, mən sənin dediklərinə

diqqətlə qulaq asacağam, ürəyində nə varsa, hamısını de ki, mən də ona layiq sənə xələt verim.

Beydəba dedi: – Şahım! Mənə elə gəlir ki, insanı bütün heyvanlardan ayıran, onu dünyanın bütün sirlərinə vaqif edən dörd şeydir: – Hikmət, əql, təmkin və ədalət. Alimlik, savad və hər şeyi ətraflı düşünə bilmək – hikmətə; tədbir, səbr, nəzakət, mərhəmət – əqlə; həya, alicənablıq, özünü ələ almaq və özünü dərk etmək – təmkinə; doğruluq, vədi yerinə yetirmək, yaxşı işlər görmək və xoşxasiyyətli olmaq – ədalətə daxildir. Bu sifətlər gözəldir, ona əks olanlar isə – çirkin. Bu sifətlərin hamısı kamil bir şəkildə bir adamda toplandıqda dünyanın ən böyük xoşbəxtliyi belə onun başını gicəlləndirə bilməz, ən böyük bədbəxtliyi onu sarsıda bilməz. Belə bir adam onu təmin etməyən şeylərin varlığından qəmlənməz, taleyin onun əlindən qoparıb aldığı şeyləri itirməsindən kədərlənməz və baş verə biləcək fəlakətlərdən özünü itirməz. Hikmət – bitməz, tükənməz bir dövlətdir, xərclənməklə qurtarmaz, paylanmaqla azalmaz. Hikmət – elə bir paltardır ki, geydikcə köhnəlməz, elə bir xəzinədir ki, ardı kəsilməz. Şahın qarşısında durarkən birinci olaraq sözə başlamamağımın səbəbi qorxu və şaha bəslədiyim hörmət olmuşdur. Həyatıma and içirəm ki, şahlar zəhmli olmağa layiqdir, xüsusilə o şah layiqdir ki, onun şən və şövkəti özündən əvvəlki bütün şahlarınkından artıq olsun. Atalar deyiblər ki, dilini saxla, başın salamat olar, yersiz danışmağın nəticəsi peşmançılıqdır. Nəql edirlər ki, bir padşah məsləhət üçün yanına dörd alim çağırıb deyir: «Hərəniz elə bir hikmətli söz deyin ki, o, gözəl bir tərbiyənin əsası olsun». Birinci deyir: – Ağıllı adamların ən layiqli cəhəti danışmamaqdır. İkinci deyir: – Dünyada ən faydalı şey odur ki, insan öz əqlilə məsləhətləşməmiş sözə başlama-

sın. Üçüncü deyir: – İnsan üçün ən xeyirli iş odur ki, fikirləşməmiş dinməsin. Dördüncü deyir: – İnsan üçün ən rahatı odur ki, özünü taleyin ixtiyarına verməsin.

Deyirlər, bir gün Çin, Hind, İran və Rum padşahları bir yerə toplaşıb şərt qoyurlar: onlardan hər biri elə bir söz desin ki, dünya durduqca dursun. Çin şahı deyir: – Mən demədiyim sözü ağzımda saxlamağa, dediyim sözü ağzıma qaytarmaqdan daha çox qadirəm. Hind şahı deyir: – Mən o adama təəccüb edirəm ki, dediyi söz özünün xeyrinə olduqda fayda verməsin, zərərinə olduqda onu məhv etsin. İran şahı deyir: – Sözü nə qədər ki, deməmişəm o mənim qulumdur, elə ki, dedim, oldu ağam. Rum şahı deyir: – Mən demədiyim sözdən heç vaxt peşman olmamışam, dediyimdən isə çox peşmançılıq çəkmişəm.

Şahların susması fayda verməyən boş söhbətlərdən daha yaxşıdır. İnsan hər şeydən çox dilindən bəlaya düşür.

Allah şahın ömrünü uzun etsin, o, mənə sərbəst danışmağa icazə vermişdir. Mən isə məqsədə keçməzdən əvvəl demək istəyirəm ki, deyəcəyim sözlərin meyvəsini şah dərəcəkdir, mən yox. Onun bütün xeyrini şah görəcəkdir, mən yox; mənim deyəcəyim sözlərdən ala biləcəyim hədiyyə yalnız şaha nəsib olacaqdır; şah həm fayda götürəcək, həm şöhrət qazanacaqdır; mən isə yalnız öz borcumu yerinə yetirəcəyəm. Şahım! Mən demək istəyirəm ki, sən, səndən qabaq şəhərlər salan, təbiəti müti edən öz şah atalarının və qüdrətli babalarının təxtində otursan. Onlar qalalar tikərək ordulara sərkərdəlik etmiş, ehtiyat toplamış və uzun ömür sürmüşlər; onların atları çox, silahları bol olmuşdur. Onlar əsrlərlə xoşbəxtlik və şadlıq içərisində yaşamışlar, bu xoşbəxtlik onların faydalı işlər görməsinə mane olmamış, onları lütfə qarşı mərhəmət hissindən məhrum etməmişdir;dövlətlərinin böyük gücünə, özlərinin

məstedici şən və şövkətlərinə baxmayaraq, öhdələrinə götürdükləri vəzifələri yaxşılıqla yerinə yetirmişlər.

Ey bəxt ulduzu bütün ulduzlardan uca olan xoştale şah, indi sən onların torpaqlarına, şəhərlərinə, dövlətlərinə varis olub, allahın sənə bəxş etdiyi təxti-səltənətdə oturubsan. Sən miras olaraq dövlət və ordu alıbsan, lakin öhdənə düşən vəzifəni yerinə yetirmirsən, hakimiyyət başına keçmiş şahlardan tələb olunan qayda-qanuna riayət etmirsən. Yox, sən həddini aşıbsan, zülmlər edibsən; təkəbbür və qürrə sənin gözünü tutub, rəiyyətə həqarətlə baxırsan, yaramazlıq edirsən, törətdiyin cinayətlərin isə sayı hesabı yoxdur. Halbuki, sənin ən ləyaqətli və ən şərəfli vəzifən öz əcdadlarının yolu ilə, səndən qabaqkı şahların yolu ilə getmək, sənə miras qalmış gözəl işləri davam etdirmək, rüsvayedici işlərdən çəkinmək idi. Sən öz rəiyyətinə qarşı diqqətli olmalı, onun üçün elə qanunlar yaratmalı idin ki, bu qanunlar həmişəlik olaraq xatirələrdə yaşasın, zaman keçdikcə sənin şöhrətini artırsın, elə qanunlar yaratmalı idin ki, onlar əbədi sülh və ədalət rəmzi olsun. Öz işlərini şöhrətpərəslik və mənsəbpərəstliklə idarə edən adam ağıllı hesab edilə bilməz. Ağıllı və dərrakəli adam odur ki, ölkəni ədalət və mərhəmətlə idarə etsin. Şahım, mənim dediklərimə yaxşı fikir ver, qoy onlar sənin ürəyini sıxmasın. Axı, mən onları səndən bəxşiş almaq və ya sənin mərhəmətinə layiq olmaq məqsədi ilə demədim. Yox, mən sənin yanına vicdan əzabı çəkən səmimi bir dost kimi gəlmişəm.

Beydəba sözlərini deyib öz nəsihətinə son verdikdə şahın qəlbi titrədi, o, nifrətlə dolu bir səslə Beydəbaya kobud bir cavab verdi. Şah dedi: – Sən mənə çox ağır sözlər dedin. İnana bilmirəm ki, ölkəmdə mənə belə sözlər deməyə cəsarət edən daha başqa bir adam tapılsın. Yaşı az, xeyri yox, gücü

zəif olan sən buna necə cürət etdin? Sən mənə elə sözlər deməyə cəsarət edibsən ki, onları dilə gətirməyə heç kəsin haqqı yoxdur. Mən sənin buradakı çıxışına və həddini aşan diliuzunluğuna təəccüb edirəm. Mən başqalarını susdurmaq üçün səni ağır cəzalandırmalıyam. Bu, şahlarla görüşmək şərəfinə nail olan, bəlkə də, şahlardan sənin tələb etdiyin şeyləri istəmək arzusu ilə gələn bütün adamlara ibrət dərsi və xəbərdarlıq olar.

Sonra şah əmr etdi ki, Beydəbanı çarmıxa çəkib edam etsinlər. Əmri yerinə yetirmək üçün onu apardıqda şah fikrindən döndü, əmr etdi, geri qaytarıb zindana salsınlar. Beydəbanın ayaqlarına kündə vurub zindana saldılar. Sonra padşah onun şagirdlərini, yanına gəlib-gedənləri tutmaq üçün adam göndərdi. Beydəbanın şagirdləri başqa ölkələrə qaçdılar, dəniz adalarında gizləndilər. Beydəba uzun müddət zindanda oturdu, Şah nə onun haqqında bir şey soruşur, nə də ona fikir verirdi. Heç kəs də onu şahın yadına salmağa cürət etmirdi. Bir gecə şahı yuxu aparmırdı, o, gözlərini səmaya dikib fələyin dövranı, ulduzların hərəkəti haqqında düşünməyə başladı, fikrə dalaraq göy haqqında nə isə bir məsələni həll etməyə çalışırdı. Birdən Beydəba yadına düşdü, onun sözlərini xatırlayıb tutduğu işdən peşman oldu. O, öz-özünə dedi: «Mən bu filosofun haqlı tələblərinə etina etməməklə ona qarşı yaxşı iş görmədim. Qəzəbin şiddəti məni buna vadar etdi, atalar isə deyiblər – şahlarda qəzəb olmamalıdır. Çünki qəzəb hər şeydən çox nifrətə layiqdir. Buna görə də qəzəblilərə həmişə nifrət edirlər; xəsislik də yaxşı şey deyil, çünki var olan yerdə xəsislik bağışlanmaz; qonşuluqda yalan danışmaq, kobud olmaq yaramaz, qonşuluq və ədəbsizlik bir yerə sığmaz. Mən sadiq, pak və təmiz bir adama rast gəlmişdim, lakin onu layiq olduğu kimi deyil, əksinə qarşıladım, ona lazımi hörmət edə bilmədim.

Yox, onun mükafatı bu olmamalı idi. Mən onun sözlərinə qulaq asmalı, məsləhətlərini yerinə yetirməli idim».

Şah o saat əmr etdi, onu gətirsinlər, Beydəba qapıda göründükdə şah dedi: – Ey Beydəba! Sən dediyin sözlərlə mənim əqlimi çaşdırmaq, kəmalımı azdırmaq istəmirdin ki? Beydəba dedi: – Ey xoşbəxt şahım! Mən yalnız sənin xeyrini, rəiyyətin xeyrini dedim, dövlətin əbədiliyi xatirinə bunları söylədim.

Şah ona dedi: – Dediklərinin hamısını, bir kəlmə buraxmadan təkrar et!

Beydəba danışır, şah onun sözlərinə diqqətlə qulaq asır və əlində olan bir şeyi yerə döyürdü. Sonra o, başını qaldıraraq Beydəbaya oturmasını əmr etdi. Beydəba oturdu. Şah ona dedi: – Ey Beydəba! Sənin dediklərin mənim xoşuma gəldi, ürəyimə yatdı. Mən sənin məsləhətlərini nəzərdən keçirib onlara əməl edəcəyəm. Sonra əmr etdi, kündəni Beydəbanın ayağından açdılar və şah paltarlarından ona xələt verdilər.

Bu zaman Beydəba dedi: – Şahım! Mən hər nə dedimsə, hamısı sənin xeyrinədir. Şah dedi: – Doğru deyirsən, ey ləyaqətli alim! İndi mən bu görüşümüzdə bütün şahlığı sənə tapşırıram. Beydəba dedi: – Şahım! Məni bu işdən azad et. Mən sənsiz bu işin öhdəsindən gələ bilmərəm.

Şah bu fikirlə razılaşıb onu azad etdi.

Lakin o getdikdən sonra şah başa düşdü ki, düz etməyib, adam göndərdi, onu geri qaytardılar. Şah Beydəbaya dedi: – Mən səni azad etmək fikrindən əl çəkdim. Qət etdim ki, bu işi yalnız sən yerinə yetirə bilərsən; səndən başqa heç kəs onun öhdəsindən gəlib həll edə bilməz. Mənim sözümə bax, razı ol. Beydəba razı oldu.

O zamankı şahların belə bir adəti var idi: kimi vəzir et-

səydilər, onun başına tac qoyub ata mindirər və saray adamlarının müşayiəti ilə şəhəri gəzdirərdilər. Şah əmr etdi ki, Beydəbanın da başına tac qoyub, ata mindirsinlər və şəhəri gəzdirsinlər. Bu əmr yerinə yetirildikdən sonra Beydəba ədalət və həqiqət salonunda oturdu. O, güclülərə qarşı gücsüzlərin tərəfini saxladı, zülmkarları cəzalandırdı, ədalətli qanunlar verdi. Beydəbanın şagirdləri bu xəbəri eşitcək hər tərəfdən axışıb gəlməyə başladılar, şahın ona bəxş etdiyi bu hakimiyyət, hədiyyə və mərhəmətdən çox şad oldular. Onlar allaha şükür etdilər ki, Beydəba onun köməyi ilə şah Dəbşəlimi yaramaz hərəkətlərdən saqındıra bilmişdir.

Onlar həmin günü bayram elan etdilər və bu gün, dünya durduqca onların ölkəsində bayram ediləcəkdir.

Beydəbanın fikri Dəbşəlim sarıdan rahat olduqdan sonra, ölkəni idarə etməklə bərabər boş vaxt tapır və incə mənalı çoxlu kitablar da yazırdı.

Şah isə Beydəbanın məsləhətinə əsasən rəiyyətlə mehriban və ədalətli rəftar etməyə başladı. Bunu görən bütün əhali və saray adamları şahdan razı qaldılar. Beydəba öz şagirdlərini toplayıb, onlara belə bir gözəl vəsiyyət etdi: – Bilirəm, mən padşahın yanına getdikdə siz özlüyünüzdə fikirləşdiniz ki, bu, ədalətsiz, qəddar hökmdarın yanına getməyi qət etmişsə, demək onun əqli itmiş, kəmalı zay olmuşdur. İndi isə düşüncəmin nəticəsini, fikrimin düzgünlüyünü görürsünüz və bilirsiniz ki, mən şahın yanına onun xasiyyətini öyrənmədən, gözləri bağlı getməmişəm. Mən eşitmişəm, deyiblər ki: «Şahlar da cavanlar kimi coşğun və dəliqanlı olurlar, bu dəliqanlılıq və sərməstliyin qarşısını isə yalnız alimlər və ağıllı adamlar ala bilər. Ağıllı adamlar öz sözləri ilə padşahları tərbiyə etməli, öz ağıllı

məsləhətləri, aydın və inandırıcı sübutları ilə padşahların yaramaz və ədalətsiz hərəkətlərinin qarşısını almalıdırlar.

Mən alimlərin şahlar haqqında dedikləri bu sözləri müdrik adamlara verilən bir tapşırıq kimi qəbul etdim, çünki həkimlər öz təbabətləri ilə bədəni xəstəlikdən mühafizə edib, onu sağaltmalı olduqları kimi, ağıllı adamlar da öz nəsihətləri ilə şahları məstlik yuxusundan ayıltmalıdır. Mən bu işi özbaşına buraxmaq istəmədim, istəmədim ki, mən öləndən sonra yer üzündə yaşayan insanlar mənim və sizin haqqınızda qeybət edib desinlər ki: «Dəbşəlim şahın dövründə Beydəba adlı bir filosof yaşamış, lakin şahı cinayət törətmək fikrindən daşındırmamışdır».

Əgər biri desə: «O öz canının qorxusundan dillənməmişdir», o zaman başqaları ona cavab verərlər ki: «O, şahdan və onun sarayından qaçıb uzaqlara gedə bilərdi». Lakin vətəni tərk etmək çox ağırdır. Məndən sonra yaşayacaq alimlərin mənə haqq qazandıracaqlarını nəzərə alaraq, mən həyatımı qurban verməyi qət etdim. Mən arzularımın məhv olması, ya qələbə çalması üçün hücuma keçdim, indi isə siz nələr baş verdiyinin şahidisiniz.

Hansı bir təmsildə isə deyilmişdir: «Üç şey olmasa, heç vaxt böyük rütbəyə çatmaq olmaz: zəhmət çəkmək, dövlət sərf etmək, güzəştə getmək».

Təhlükəli işə girişməyə cəsarət etməyən adam arzusuna çata bilməz.

Padşah rəiyyətlə xoş rəftar edərək ömür sürür, Beydəba isə işlərə nəzarət yetirir və ölkəni idarə edirdi. Elə ki, Dəbşəlimin hakimiyyəti möhkəmləndi, o, rəiyyətin işi ilə məşğul olmaq, düşmənin hərəkətlərini izləmək və onlara qarşı mübarizə aparmaq vəzifəsindən azad oldu (bu işlərin hamısını Bey-

dəba tək idarə edirdi). Hind filosofları tərəfindən Dəbşəlimin ata-babası üçün yazılmış kitablar onun diqqətini cəlb etdi. Dəbşəlim istədi ki, xəzinədə öz adına da bir kitab olsun, o bilirdi ki, belə bir kitabı Beydəbadan başqa heç kəs yaza bilməz. Şah Beydəbanı yanına çağırıb təklikdə ona dedi: – Ey Beydəba! Sən hind filosofusan, hind alimisən. Mən qabaqkı şahların hikmət xəzinələri haqqında çox fikirləşib, çox düşünmüşəm. Mən elə bir şah tapmadım ki, onun adına bir kitab yazılmasın və bu kitabda onun apardığı müharibələr, həyatı, özünün və eləcə də saray adamlarının kəmalı haqqında bir şey deyilməsin. Onların bir qismini, elm və hikmətlərini göstərmək üçün, şahların özləri yazmışlar, bir qismi isə filosoflar tərəfindən yazılmışdır. Qorxuram, onların başına gələn mənim də başıma gəlsin, yəni mən də öləm, axı ölümə çarə yoxdur. Axırda mənim xəzinəmdə elə bir kitab tapılmasın ki, şahlar onu oxuyub, mənim kim olduğumu və nələr etdiyimi öyrənsinlər. Mən istəyirəm ki, sən bütün hünərini, əql və kəmalını işlədib, mənim haqqımda gözəl bir kitab yazasan və orada göstərəsən ki, xalqı necə idarə edib, onu necə tərbiyə etmək lazımdır; orada şahların əxlaqından, rəiyyətlə necə rəftar etməyindən, rəiyyətin şaha necə tabe olub ona xidmət göstərməsindən danışasan, bəlkə beləliklə, həm mənim üçün, həm də rəiyyət üçün bir sıra zəruri dövlət işi yüngülləşə. Mən istəyirəm ki, bu kitab gələcək əsrlər üçün məndən yadigar qalsın.

Beydəba bunu eşitdikdə üzüqoylu yıxılıb şaha təzim etdi və sonra başını qaldırıb dedi: – Ey xoştale şah! Qoy sənin bəxt ulduzun çıxsın, qəm ulduzun batsın. Qoy sənin ömrün uzun olsun. Həqiqətən şahın kəmala yetmiş təbiəti, zəngin və müdrik ağlı onu bu yola gətirib çıxarmış, mənim indicə eşitdi-

yim bu böyük işi görmək fikrinə salmış, onun düşüncəsini ali dərəcəyə qaldırmışdır.

Qoy qadir allah şahın səadətini əbədi etsin, ona öz qərarını, mənə isə onun arzusunu yerinə yetirməyə kömək olsun. Qoy şah nə istərsə, əmr etsin, mən bütün ağlımı sərf edib onu məqsədinə çatdırmağa hazıram.

Şah dedi: – Ey Beydəba! Sən həmişə müqəddəs bir kəmala sahib olmaqla şahın əmrini yerinə yetirməkdə ad qazanıbsan. Mən sənin belə adam olduğunu bilirəm. Mən qət etmişəm ki, sən bütün səy və bacarığını sərf etməklə elə bir kitab yazasan ki, orada əyləncə, zarafat, ciddiyyət, hikmət və fəlsəfə bir yerdə olsun, ağıllı adamlar ondan həm hikmət dərsi alsınlar, həm də gülməkdən özlərini saxlaya bilməsinlər.

Beydəba müti halda ona təzim edərək dedi: – Mən şahın əmrini qəbul edirəm və bunun üçün müəyyən vaxt istəyirəm. Şah dedi: – Nə qədər vaxt istəyirsən? Beydəba dedi: – Bir il.

Şah dedi: – Ey Beydəba! Bir il sənə vaxt verirəm. Sonra əmr etdi Beydəbaya çoxlu hədiyyə və bəxşiş versinlər ki, kitabı yazıb qurtarana qədər gücdən düşməsin, özünü yaxşı hiss etsin.

Beydəba kitabı necə hazırlamaq, nədən başlamaq, nə şəkildə yazmaq, fəsilləri necə adlandırmaq haqqında bir neçə gün fikirləşməli oldu.

O, öz şagirdlərini toplayıb dedi: – Şah mənə elə bir iş tapşırıbdır ki, mənim, sizin və ölkəmizin əsrlər boyu şöhrəti bu işin necə yerinə yetirilməsindən asılı olacaqdır. Mən sizi bunun üçün yığmışam. Şah Dəbşəlim tapşırmışdır ki, mən onun adına bir kitab yazım. Orada hikmət nümunələri olmalıdır. Qoy sizin hərəniz bu sahəyə aid bir şey yazıb mənə versin

və bununla da öz ağlının dərəcəsini, kəmalının həddini bildirmiş olsun.

Onlar hamısı belə cavab verdilər: – Ey ləyaqətli filosof və incə düşüncəli insan! Sənə müdriklik, şüur və müqəddəslik bəxş etmiş allaha and içirik ki, heç vaxt belə bir şey bizim ağlımıza gəlməmişdir. Sən bizim başçımızsan, aramızda səndən ləyaqətlisi yoxdur. Sən bizim şən və şöhrətimizsən, biz özümüz sənin köməyinə möhtacıq. Lakin buna baxmayaraq, biz sənin əmrini yerinə yetirərik.

Sonra Beydəba şahın məqsədini, kitabın quruluş və məzmunu barədə verdiyi göstərişləri onlara danışdı. Amma onlar şahın tələb etdiyi bu kitab haqqında fikirləşib bir şey tapa bilmədilər.

Şagirdlərinin acizliyini görən Beydəba anladı ki, bu işi yalnız çox fikir edib, böyük əql işlətməklə yerinə yetirmək olar. O dedi: – Mən görürəm ki, gəmi dəryada yalnız dənizçilərin gücü ilə hərəkət edir, çünki gəmini onlar idarə edirlər. Lakin o yalnız külli-muxtar olan gəmi başçısının əmri ilə dalğaları yarır, dənizləri aşır. Gəmi dənizçilərlə dolu olub, müsafirlərlə həddən artıq yüklənsə, onu batmaqdan xilas etmək olmaz.

O, uzun müddət bu kitabı yazmaq haqqında düşünür, bir an da olsun, onu yaddan çıxarmırdı. Nəhayət, bu kitabı istedadına inandığı bir şagirdi ilə yazdı. O, əvvəlcə çoxlu kağız, özünə və şagirdinə bir il müddətində çatacaq azuqə topladı. Sonra şagirdi ilə xəlvətə çəkildi. Onlar bir otağa girib qapını bərk-bərk bağladılar. Sonra Beydəba kitabı yazmağa başladı. O, ara vermədən deyir, şagirdi isə yazır və yenidən oxuyurdu. Həm məzmun, həm də həcm etibarilə gözəl bir kitab əmələ gələnə qədər onlar belə işlədilər. Beydəba kitabı on dörd fəslə

böldü. Bu fəsillərin hərəsi özlüyündə müstəqil idi. Hər fəsildə sual və cavab var idi. Bu, ona görə belə edilmişdi ki, hər hansı bir fəslə baxan adam ondan bir fayda götürə bilsin. Beydəba bu kitabı «Kəlilə və Dimnə» adlandırdı. Buradakı danışıqların hamısı vəhşi heyvanların və quşların dilindəndir. Bu, ona görə belə edilmişdi ki, kitab zahirən sadə adamları əyləndirsin, daxili mənasına görə isə ağıllı adamlara ibrət olsun. Onlar həm dünyada, həm də axirətdə insana nə lazımsa, hamısını burada tapsınlar, şaha tabe olmaq, ya ondan qaçıb qurtarmaq üçün nəyin xeyirli və nəyin zərərli olduğunu buradan öyrənsinlər.

Beydəba bu kitabı həm xarici, həm də daxili quruluşca başqa hikmət kitabları şəklinə saldı. Beləliklə, buradakı heyvan surətləri əyləncə, onların dediyi sözlər isə hikmət və nəsihət oldu.

Beydəba bu işə başlarkən kitabın əvvəlində iki dostu, onların necə dost olduqlarını və bu möhkəm dostluğun bir xain tərəfindən necə pozulduğunu təsvir etdi.

Sonra o, öz şagirdinə əmr etdi ki, nə desə, onu yazsın, lakin yersiz kəlmə işlətməsin, çünki ehtiyatsız deyilmiş bir kəlmə hikmətli nitqə daxil olduqda onun mənasını korlayıb məhv edər.

Beydəba kitabın məzəli yerinə rast gəldikdə üzünü köçürür, ciddi yerinə təsadüf etdikdə bura əlavə edirdi. Beləliklə, heyvanların dilindən deyilmiş hikmətli sözlərlə dolu bir kitab əmələ gəldi. İlk növbədə Beydəba öz şagirdi ilə kitabın xarici bəzəyini bir tərəfə buraxıb onun məzmununda olan hikmətli nəsihətlər və ibrətli öyüdlərlə məşğul olmağa başladı.

Cahil adamlar onlar üçün yazılmış bu kitabın mahiyyətini başa düşməzlər, heyvanların danışıqlarına təəccüb edib bunları zarafat sanarlar. Kim bu kitabı öyrənib mənimsəməsə,

buradakı sözlərin mənası onun üçün qaranlıq qalar. Belələri bu əsərin məqsədini başa düşməzlər, halbuki, filosofun birinci fəsildə irəli sürdüyü məqsəd qardaşların birləşməsini, onların bu dostluğunun hansı vasitələrlə möhkəmlənməsini təsvir etmək; şəxsi mənafe xatirinə, yalan və böhtanlarla iki dost arasında nifaq və düşmənçilik salan rəzil adamlardan ehtiyatlı olmağı təbliğ etməkdən ibarətdir.

Kitab qurtarıb təyin olunmuş vaxt başa çatdıqda Dəbşəlim şah Beydəbaya xəbər göndərdi ki, vaxt bitib, sən nə edirsən? Beydəba şaha xəbər göndərdi ki, mən şaha verdiyim vədi yerinə yetirmişəm. Qoy o, əyan və əşrafı topladıqdan sonra əmr etsin, mən bu kitabı gətirib onların hüzurunda oxuyum.

Dəbşəlimin göndərdiyi adam qayıdıb bu xəbəri şaha dedikdə, o, çox sevindi, ölkədə olan adamların toplanması üçün gün təyin etdi. Sonra Hindistanın ən ucqar yerlərinə carçı göndərdi ki, hamı kitabın oxunmasına gəlsin. Elə ki, təyin olunmuş gün çatdı, xalq toplandı, şah əmr etdi, iki taxt hazırlasınlar: birini özü üçün, birini Beydəba üçün. Sonra hamı gəldi. Beydəba həmişə şahın qəbuluna geydiyi qəzildən toxunmuş filosof paltarında ayağa qalxıb şaha yaxınlaşdı, mütilik əlaməti olaraq yerə qədər əyilib təzim etdi və başını yuxarı qaldırmadı.

Şah ona dedi: – Ey Beydəba! Başını dik tut. Bu gün matəm günü deyil, şadlıq və sevinc günüdür.

Sonra kitab oxunarkən şah ondan hər fəslin mənasını, onun qarşıya qoyduğu məqsədləri soruşur, o da hər fəslin məqsəd və mənasını izah edirdi. Şah bundan daha çox vəcdə gəlir və onun istedadına heyrət edirdi.

Şah dedi: – Sən mənim ürəyimdən xəbər veribsən, arzumu yerinə yetiribsən, mənim də istədiyim elə bu idi. Könlün nə istəyir de!

Beydəba ona xoşbəxtlik arzu edib dedi: – Şahım, mənə dövlət lazım deyil, paltarlar içərisində isə mən öz ləbbadəmi hamısından üstün tuturam. Lakin ixtiyar verildiyi üçün mən öz ehtiyacımı şahdan gizlətməyəcəyəm.

Şah dedi: – Belə olduqda sənin nəyə ehtiyacın vardır? Sənin nəyə ehtiyacın varsa, hamısı bizim tərəfimizdən təmin ediləcəkdir.

Beydəba dedi: – Mən şahdan xahiş edirəm ki, o da atababaları kimi əmr etsin, mənim kitabımın üzünü köçürüb onu mühafizə etsinlər; mən qorxuram ki, bu kitab hind ölkəsindən getsin, onun varlığından xəbər tutan iranlılar onu ələ keçirsinlər, o itib yox olsun. Qoy bu kitab «Hikmət evindən»[1] xaricə çıxmasın.

Sonra şah Beydəbanın şagirdlərini çağırıb, onlara qiymətli paltarlar və hədiyyələr verdi.

Bu kitabın xəbəri gəlib şah Xosrov Ənuşirəvana çatdı. Ənuşirəvan isə elmi və ibrətli kitabları çox sevirdi.

Ona görə o, təbib Bərzuyəni Hindistana göndərdi. Bərzuyə də bütün hiylə və bacarığını işə salaraq, bu kitabı hind ölkəsindən qaçırıb, İran xəzinəsinə gətirdi. Ondan sonra Ənuşirəvanın ürəyi sakit oldu.

İBN MÜQƏFFANIN TƏRTİB ETDİYİ KİTABDA OLAN MÜQƏDDİMƏ

Əbülhəsən Abdulla ibn Müqəffa... belə nəql edir ki: «Allah öz hikmət və qüdrətilə dünyanı əmələ gətirdi, insanları bilik, əql və kəmalda başqa heyvanlardan üstün yaratdı. Çünki əql xeyir qapılarının açarı, səadət xəzinələrinin kilididir. Bu

[1] *Hikmət evi – kitabxana.*

dünyanın naz və nemətlərini əldə etmək, o dünyanın əzab və işgəncələrindən xilas olmaq əql və kəmala bağlıdır. İstedad, əql və kəmal isə iki növdür: biri fitri, yəni anadan gəlmə, digəri əməli, yəni təcrübə vasitəsilə əldə edilən. İnsanlarda olan fitri istedad, taxtadakı yanma qabiliyyətinə bənzər. Taxtaya od dəyməmiş yana bilmədiyi kimi, fitri istedad, əql və kəmal da təcrübə və vərdiş olmadan özünü göstərə bilmir. Alimlər demişlər ki, təcrübə insanda əql və kəmal oyadır.

Hər kəs fitri əql və kəmala sahib olub sənət kəsb etməyə çalışsa, bəşəriyyətin əldə etdiyi təcrübələr haqqında düşünüb onlardan bacarıqla istifadə etsə, həm bu dünyada öz arzusuna çatar, həm də o dünyada xoşbəxt olar... Bilmək lazımdır ki, hər işin öz səbəbi, hər səbəbin öz illəti, hər illətin öz məkan və zamanı vardır. Ömrün uzunluğu və dövlətin varlığı bunlardan biri ilə bağlıdır. Bu kitabın Hindistandan Farsa gətirilməsinin səbəbi odur ki, allah-taala dünyanın padşahı olan xoşbəxt, qüdrətli Ənuşirəvan Kəsra ibn Qubadi əql nurundan və ədalət xəzinəsindən qəni etmiş, iş bilməkdə, fikri düz başa düşməkdə mahir yaratmış, səy göstərməkdə, söz söyləməkdə ona fövqəladə bir istedad vermişdi. O, bütün bunlardan istifadə edərək elm öyrənməkdə, onun incəliklərini dərk etməkdə, müxtəlif bilik sahələrindəki məlumatda elə yüksək bir rütbəyə çatmışdı ki, ondan əvvəlki şahların heç biri bu mövqeyə qalxa bilməmişdi. Belə ali bir rütbə, şərəfli bir mənsəb onlara qismət olmamışdı.

Padşahlıq qüruru və dünyanı tutmaq həvəsi onunla nəticələndi ki, Ənuşirəvan bir çox ölkələri ələ keçirdi, bir sıra zülmkar hakimləri özünə tabe olmağa məcbur etdi, hər bir adamın həsəd apara biləcəyi şən, şövkət, qüdrət və əzəmət sahibi oldu. Bu zaman onun qulağına çatdı ki, hind şahlarının xəzi-

nəsində quşların, vəhşi heyvanların və həşaratın dilindən yazılmış bir kitab vardır. Padşahlar rəiyyətə cəza vermək, ədalətli və mərhəmətli işlər görmək, düşmənləri darmadağın edib aradan qaldırmaq istərkən ona müraciət edirlər. Bu kitab bütün yaxşılıqların mənbəyi, bütün elmlərin məxəzi, xeyir və mənfəət xəzinəsi, hikmət açarı hesab edilir. Bu kitab şahlara fayda verdiyi kimi, xalqa da xeyir verir. Bu kitabın adı «Kəlilə və Dimnə»dir.

Ənuşirəvan-Adil bu kitabı görmək fikrinə düşdü. Əmr etdi, elə bir istedadlı adam tapsınlar ki, o elm sahəsində şöhrət qazanmış olsun, fars və hind dilini bilsin və bu mühüm işin ona tapşırılması nəzərdə tutulsun.

Çox gəzdikdən, sorğu-sual və axtarışdan sonra bütün bu deyilən xüsusiyyətlərə malik olan və tibb elmində şöhrət qazanmış Bərzuyə adlı cavan bir oğlan tapdılar.

Ənuşirəvan onu yanına çağırıb dedi: – Çox fikirləşib götür-qoy etdikdən, məşvərət və məsləhətdən sonra belə qərara gəlmişik ki, sənə çox mühüm və məsuliyyətli bir iş tapşıraq. Sənin əql və kəmalın, istedad və bacarığın bizə məlumdur; elm öyrənməkdə hərisliyin, sənət sahibi olmaqda inad və iradən sübut olunmuşdur. Deyirlər ki, Hindistanda qiymətli bir kitab vardır. Biz istəyirik, o kitab gətirilib bizim ölkəmizdəki başqa hind kitablarının içərisinə daxil edilsin. Hazırlaşıb bu iş üçün Hindistana getmək, nə vasitə ilə olur-olsun, o kitabı ələ gətirmək lazımdır. Sənə çoxlu pul və mal-dövlət veriləcəkdir. Onu ehtiyacın olan yerdə, istədiyin kimi xərcləyə bilərsən. Orada çox qalmaq lazım gəlsə və sənin yenə də pula ehtiyacın olsa, yaz, göndərək. Əgər bütün xəzinəni bu yolda qurban vermək lazım gəlsə, müzayiqə edilməyəcəkdir.

Sonra Ənuşirəvan əmr etdi Bərzuyənin yola düşməsi

üçün xoş və münasib bir gün təyin etsinlər. Həmin gün gəlib çatdıqda Bərzuyə yola çıxdı. Onun ixtiyarında əlli xurcun və hər xurcunda əlli min dinar pul var idi. Bütün qoşun, sərkərdələr və dövlət adamları onu yola salırdılar. Bərzuyə böyük bir həvəslə bu işi yerinə yetirməyə gedirdi. Bərzuyə Hindistana çatdıqda padşahın sarayı olan şəhərə gəldi və orada yaşamağa başladı. O, alimlər yığıncağına, əyan-əşraf məclisinə, qara camaat toplanan yerlərə gedir, bir sözlə, adamların içərisinə girib hər yeri dolanır, şahın yaxın adamlarının vəziyyətini öyrənir, şəhərin adlı-sanlı adamları, alim və filosofları haqqında sorğu-sual edib məlumat toplayırdı. Hara gedirdisə, qaynayıb oradakılara qarışır, hamı ilə dostlaşaraq təmkin və nəzakətlə dolanırdı. Hamıya deyirdi ki, mən bura elm öyrənmək və təhsil almaq üçün gəlmişəm. Dərin elmi məlumatı olduğu halda özünü sadəlövhlüyə vurur, özünü avam kimi aparırdı. Hər fürsətdən istifadə edərək müxtəlif təbəqədən olan adamlarla dostlaşır və hərəsini bir yol ilə sınaqdan keçirirdi. Nəhayət, o, axtardığını tapdı, istədiyi adama rast gəldi. Bu adam əql və kəmalda, istedad və huşiyarlıqda başqalarından fərqlənirdi. Bərzuyə həmin adamla dostluğa başlayıb ona o qədər yaxşılıq etdi ki, axırda qardaşlaşıb can bir qəlb dost oldular. Az vaxt içərisində həmin adamın əxlaq və xasiyyətini öyrəndi, dostluq və sədaqətini sınaqdan keçirdi. Sonra özözünə dedi: «Əgər bu sirrin açarını ona verib, könül evinin qıfılını onun üzünə açsam, o, nankorluq edib duz-çörəyi tapdalamaz, kərəm və mürüvvət, dostluq və yoldaşlıq xatirinə xəyanət etməz».

Bir müddət keçdikdən və onların arasında olan səmimilik bir az da möhkəmləndikdən sonra, Bərzuyə onun əmanətə xəyanət etməyəcəyinə, sirri heç kəsə açmayacağına inandı.

Daha çax hörmət göstərib, daha artıq yaxşılıq etməyə başladı və bir gün ona dedi: – Qardaşım, mənim bir sirrim var, onu indiyə qədər səndən gizlədirdim, lakin bilirəm ki, sən bunu hiss etməmiş deyilsən, çünki arifə bir işarə də kifayətdir.

Hindli dedi: – Doğru deyirsən, hərçənd sən öz məqsədini gizlədirdin, lakin mən onun səndə olan nişanə və əlamətlərini gördüm. Ancaq sənin rəftarın onu deməyə imkan vermirdi. İndi ki, sən özün məsələni açdın, elə bilirəm ki, o barədə danışmağına dəyər. Günəş kimi aydındır ki, sən bizim vilayətin nəfis və qiymətli sərvətlərini aparıb öz şahının hikmət xəzinəsinə əlavə etmək üçün gəlibsən, bunu isə məkr və hiylə ilə həyata keçirmək istəyirsən. Lakin mən səndə olan səbir və iradəyə heyran qalmışam. Mən söhbət vaxtı ağzından bir şey qaçıracağını və beləliklə, öz məqsədini bildirəcəyini gözləyirdim. Lakin belə bir şey olmadı, səndə olan bu möhkəmlik və ağzıbütövlük mənim sənə olan etiqadımı artırdı, dostluq və qardaşlıq hisslərini gücləndirdi. Çünki heç bir məxluqda belə bir iradə və özünü saxlaya bilmək qabiliyyəti ola bilməz ki, qürbət vilayətdə, tanımadığı, əxlaq və adətlərini bilmədiyi nabələd bir xalq arasında özünü sənin kimi apara bilsin.

İnsanın ağlı özünü səkkiz xüsusiyyətdə büruzə verər: birinci – nəzakətli və təmkinli olmaqda; ikinci – öz şəxsiyyətini tanıyıb öz iradəsinə malik olmaqda; üçüncü – adil şahlara itaət edib onların arzu və istəklərini yerinə yetirməkdə; dördüncü – öz sirlərini dosta verib-verməməsini yerini bilməkdə; beşinci – özünün və başqalarının sirrini saxlamaqda; altıncı – şahlar qapısında ehtiyatlı olub, şirin dil ilə saray adamlarını ələ ala bilməkdə; yeddinci – öz dilinə malik olub artıq-əskik danışmamaqda; səkkizinci – məclislərdə susmağı özünə adət

edib, soruşulmayan şeyləri deməməkdə və peşmançılıq gətirən şeyləri dilə gətirməkdən çəkinməkdə...

Kimdə bu səkkiz xüsusiyyətin hamısı bir yerdə olsa, o, öz ehtiyaclarına üstün gəlməyə, dostlarından tələb etdiyi bütün şeyləri almağa və arzusuna çatmağa layiqdir. Bu xüsusiyyətlərin hamısı səndə vardır. O da məlum oldu ki, sənin mənimlə dostluq etməkdən məqsədin nə imiş. Doğrudur, bu fəzilətlərə malik olan adamın bütün arzu və istəklərini yerinə yetirmək mürüvvət və kərəm sahiblərinin yanında səhv sayılmaz, lakin sənin xahişin məni dəhşətə gətirdi. Bu, çox böyük və qorxulu bir işdir.

Bərzuyə gördü ki, hindli onun məkr və hiyləsini başa düşmüşdür. Onun bu sözlərinə kəskin etiraz etməyib çox yumşaq və həlim bir tərzdə dedi: – Mən bu sirri açmaq üçün böyük bir fəsil düşünmüş, onu sərlövhələrə ayırmış, xüsusi şöbələr və bölmələr açmış, əvvəlini, axırını, sağını, solunu təyin etmiş, dostluq, sədaqət, duz-çörək, inam və etibar cavahiratı ilə ona bəzək vurmuş, əhdə vəfa, dərdə şəfa günəşi ilə onu işıqlandırmış, sonra qonağa hörmət, qəribə kömək ağacı əkərək ona qol-budaq vermişdim ki, bəlkə bu yol ilə bu səadət səhrasında əsil məqsədimin camalını örtən qorxu pərdəsini atam, sənin hörmət və köməyin sayəsində vətənə üzü ağ qayıdam. Lakin sən bircə işarə ilə mənim bütün fikrimi başa düşdün, onun incəliklərini duyaraq məni bu uzun cansıxıcı müqəddimədən xilas etdin. Bu, sənin kərəm və mürüvvətinə, hümmət və alicənablığına yaraşır. Doğrudan da, mən sənlə bu məqsədə çatmaq ümidi ilə dostluq edirdim. Əgər ağıllı bir adam bünövrəsi möhkəm, özülü qüdrətli bir qalaya pənah gətirsə, ya şiddətli külək və güclü daşqından qaçıb bir dağın arxasına sığınsa, bu, eyib hesab edilməz.

Hindli dedi: – Ağıllı adamlar üçün dostluqdan əziz heç bir şey yoxdur. Dostluq nəticəsində əmələ gəlmiş inam mal alverində sarsınırsa, demək, o dostluq hələ qüsurludur. Lakin bütün tilsimlərin açarı – sirri saxlaya bilməkdədir. Üçüncü adamın bilmədiyi sirr yayılmaz, eləcə də üçüncü adamın eşitdiyi sirr ağızlara düşər və onun qarşısını almaq mümkün olmaz... Buna misal olaraq göydə topa-topa müxtəlif tərəflərə yayılmış bahar buludlarını göstərmək olar. Əgər bir adam belə buludların olduğunu desə, hamı onu təsdiq edər. Çünki ağıllı adamlar gördükləri şeyi inkar etməzlər. Mən sənin dostluğundan o qədər şad və razıyam ki, heç bir şey onu əvəz edə bilməz. Lakin əgər bir adam bu işdən xəbər tutsa, bizim qardaşlığımız elə pozular ki, onu heç bir mal və dövlətlə qaytarmaq olmaz. Bizim şah çox ayıq və tündxasiyyətdir, balaca bir şeyin üstündə ağır cəza verir. Günah böyük olsa, gör nələr edər?

Bərzuyə dedi: – Dostluğun ən böyük şərti sirri saxlamaqdır. Mənim isə bu işdə səndən başqa bir sirdaşım yoxdur. Mən sənin alicənablığına, əql və zəkana inanıram. Mən başa düşürəm ki, bu çox qorxulu işdir, lakin ümid edirəm, bizim aramızda olan dostluq və sədaqət naminə sən məni öz arzuma çatmaqdan məhrum etməzsən. Əgər bu yolda çətinliyə rast gəlsən, onu asan hesab et, alicənablıq xatirinə onlara döz. Bilirsən ki, bu sirri mən heç kəsə vermərəm. Lakin sən öz yaxın adamlarından, dost-aşnalarından qorxursan ki, bilib şaha xəbər verələr. Mən ümid edirəm ki, heç kəsin bu işdən xəbəri olmayacaq və sən də rahat və farağat yaşayacaqsan.

Hindli bir az fikirləşəndən sonra lazım olan kitabları Bərzuyəyə verməyə başladı. Bərzuyə, böyük qorxu və ehtiyat içində işə girişib gecə və gündüz yazmaqla məşğul oldu, çoxlu pul sərf etdi, bu kitabın və başqa kitabların surətini çıxartdı.

Sonra Ənuşirəvana məktub yazıb işlərin nə yerdə olduğunu xəbər verdi.

Ənuşirəvan məktubu oxuyaraq çox sevindi, əmr etdi, nə qədər ki, fələyin dövrani şadlığı qəmə çevirməyib, Bərzuyəni geri çağırsınlar. Məktub yazıb bildirsinlər ki, gəlməyə tələssin, ayıq olsun. Heç nədən qorxmasın və o kitabı möhkəm saxlasın. Topladıqlarını gətirərkən ehtiyatlı olub, ağıllı hərəkət etsin.

Sonra məktubu möhürləyib qasidə verdilər. Məktubun düşmən əlinə keçməməsi üçün qasidə tapşırdılar ki, o, gizlin yollarla getsin və mümkün qədər heç kəsin gözünə görsənməsin.

Bu məktub Bərzuyəyə çatcaq, yola düşüb Ənuşirəvanın sarayına gəldi. Onun gəldiyini şaha xəbər verdilər. Ənuşirəvan o saat Bərzuyəni yanına çağırtdırdı. Bərzuyə içəri gircək baş əyib təzim etdi. Şah Bərzuyənin üzündəki yorğunluğun, əzginliyin, keçirdiyi qorxu və həyəcanın izini gördükdə ona ürəyi yandı və dedi:

– Özünü ələ al, ey xoşbəxt insan, onu da bil ki, sənin göstərdiyin xidmət yüksək qiymətləndirilmiş, onun böyük qələt və tərifə layiq olduğu nəzərə alınmışdır. Get bir həftə dincəl, sonra gələrsən, nə lazımsa, əmr edərəm, hamısını yerinə yetirərlər.

Yeddi gün keçdikdən sonra Ənuşirəvan əyan-əşrafın hazır olmasını əmr etdi. Saray adamları toplandıqda Bərzuyəni yanına çağırtdırıb kitabı oxumasını buyurdu. Bərzuyə kitabı oxuduqca onların təəccübü artır, kitabın gözəlliyinə heyran qalırdılar. Kitab sona çatdıqda onlar Bərzuyəni alqışlayıb, bu işdə müvəffəqiyyət qazandığı üçün allaha şükr etdilər.

Ənuşirəvan əmr etdi, xəzinələrin qapılarını açdılar. And içdi ki, gərək Bərzuyə heç bir şeydən çəkinmədən ora girib ürəyi istədiyi qədər daş-qaş, pul və cəvahirat götürsün.

Bərzuyə padşaha təzim edərək dedi: – Padşahın mənə göstərdiyi mərhəmət və məhəbbət hər şeydən qiymətlidir. Hansı var-dövlət, hansı sərvət dünya şahənşahının öz qulu olan mənə göstərdiyi nəvazişi əvəz edə bilər? Mənə şahın səlamətliyindən başqa heç bir şey lazım deyil. Lakin şah and içdiyi üçün, mən şahlara xas olan Xuzistan parçasından hazırlanmış mərasim paltarlarından bir dəst götürürəm ki, padşahın qulluğuna gələrkən onu geyim. Sonra Bərzuyə sözünə davam edərək dedi: – Bu vəzifəni yerinə yetirərkən rast gəldiyim çətinliklər, çəkdiyim qorxu və iztirablar, şahın istək və arzularını yerinə yetirdiyim üçün gözlənildiyindən az oldu. Bəndələrin əlində sədaqətlə xidmət edib cəhd göstərməkdən başqa bir şey yoxdur. İşlərin yerinə yetirilməsi, müvəffəqiyyətlər yalnız şahın səadətli bəxti və xoş taleyi sayəsində olur.

Mən burada olmadığım müddətdə sənin mənim ailəmə göstərdiyin kəramət müqabilində bütün xidmətlər heç dərəcəsindədir. Lakin mən bir şey xahiş etmək istəyirəm ki, o, şahın lütfü qarşısında cüzi, mənim üçün isə dünyalara bərabərdir. Şah ona icazə versə, məni həm bu dünya, həm də o dünya malından qəni etmiş olar və xoşbəxt şahın adı həmişə yaxşılıqla çəkilər.

Ənuşirəvan dedi: – Sən mənim şahlığıma şərik olmaq istəsən, o da qəbul ediləcəkdir. Nə xahişin varsa, açıq söylə.

Bərzuyə dedi: – Şah məsləhət görərsə, Büzürgmehr bu kitaba mənim haqqımda xüsusi bir fəsil əlavə etsin və orada mənim kim olduğumu, əsil-nəsəbimi, sənətimi, din və məzhəbimi yazsın. Şah bu barədə əmr verərsə, mənə göstərdiyi şərəf əbədi qalar, mənim şaha etdiyim yaxşı bəndəlik nümunəsi isə məhv olub getməz.

Bu sözləri eşidən Ənuşirəvan, əyan və əşraf heyran qaldılar. Bərzuyənin böyük əql və kəmala sahib olduğunu təsdiq

etdilər, hamısı bu qərara gəldi ki, Bərzuyənin bunu xahiş etməyə haqqı vardır.

Ənuşirəvanın əmri ilə Büzürgmehri çağırdılar. Büzürgmehr gəldikdə Ənuşirəvan ona dedi:

– Sən Bərzuyənin nə qədər sadiq və fədakar olduğunu, onun bizim əmrimizə görə nə qədər böyük qorxu və iztirab çəkdiyini bilirsən. Biz istədik, Bərzuyə öz xidmətinin səmərəsini görüb dünya malından qəni olsun. Lakin o, bundan imtina edərək xəzinədən heç bir şey götürmədi. Onun bircə xahişi bu oldu ki, sən bu kitaba ayrıca olaraq onun haqqında bir fəsil əlavə edəsən, orada onun anadan olduğu gündən bu vaxta qədər tərcümeyi-halını yazasan. Biz də buna razı olduq. İndi sənə tapşırıram ki, belə bir fəsil yazıb kitaba əlavə edəsən və qurtardıqdan sonra camaatı yığıb oxuyasan. Lakin onu elə yazmalısan ki, sənin nələrə qadir olduğunu məmləkətin bütün əyan və əşrafı da bilsin.

Bərzuyə şahın belə göstəriş verdiyini eşitcək, təzim edib öz təşəkkürünü bildirdi.

Büzürgmehr həmin fəsli burada olduğu kimi yazıb onu gözəl ibarə və hikmətli sözlərlə bəzədi və qurtardığını şaha xəbər verdi. Padşahın qəbul günü olduğundan Büzürgmehr həmin fəsli Bərzuyənin və ölkənin bütün əhalisinin qarşısında oxudu. Padşah və orada olanların hamısı onu bəyənib Büzürgmehrin gözəl qələm sahibi olduğunu təsdiq etdilər. Padşah muzd haqqı olaraq Büzürgmehrə çoxlu qızıl, gümüş, cavahirat və paltar təklif etdi, lakin Büzürgmehr paltarlardan başqa heç nə götürmədi.

Bərzuyə Ənuşirəvanın əlini-ayağını öpərək dedi:

– Allah padşahın ömrünü uzun, bəxtini güclü, onu həm bu dünyada, həm də o dünyada cah-calal sahibi etsin. Padşahın bu kəraməti onun nə qədər mərhəmətli olduğunu bir daha

dünyaya göstərdi, onun şöhrətini artırdı və qulu olan məni sevindirərək utandırdı. Oxucular bu fəsildən fayda alıb onun nə üçün yazıldığını başa düşəcək və anlayacaqlar ki, əməllərin ən fəzilətlisi adil hökmdarlara xidmət etməkdir, insanların ən şərəflisi dövrünün hökmdarları tərəfindən qiymətləndirilib özünə layiq mövqe tutanlardır.

Onu da demək lazımdır ki, bu «Kəlilə və Dimnə» kitabı 16 fəsildir. Əslində hind dilində on fəsil olmuşdur, altı fəslini isə parslar artırmışlar.

Hind dilində olan əsil on fəsil bunlardır: «Şir və öküz», «Dimnənin işinin yoxlanması», «Alabaxta göyərçin», «Bayquş və Qarğa», «Meymun və Tısbağa», «Zahid və Gəlincik», «Pişik və Siçovul», «Şahzadə və Qübbərə quşu», «Şir və Çaqqal», «Ana şir, Çaqqal və ovçu».

Parsların əlavə etdikləri altı fəsil isə aşağıdakılardır: «Kəlilə və Dimnəyə müqəddimə», «Təbib Bərzuyə», «Zahid və Qonaq», «Bilar və Brahimə», «Səyyah və Zərgər», «Şahzadə və onun yoldaşları»...

BÜZÜRGMEHR BUXTEQANIN «KƏLİLƏ VƏ DİMNƏ» KİTABINA YAZDIĞI MÜQƏDDİMƏ

Nəsihət, hikmət və zərbi-məsəllərlə dolu olan bu «Kəlilə və Dimnə» kitabı hind brəhmənləri və hind alimləri tərəfindən yazılmışdır. Hər bir xalqın alim və filosofları nə vasitə ilə olur-olsun, öz arzu və istəklərini həyata keçirmək, mövcud cəmiyyəti nizama salmaq, gələcək arzularına çatmaq üçün həmişə müxtəlif yollar düşünmüş, müxtəlif tədbirlərə əl atmış, bu barədə müxtəlif əsərlər yazmağa çalışmışlar. Bunlardan biri də quşların, canavarların və başqa heyvanların dilindən yazılmış son dərəcə dərin mənalı, incə rəmzli və müəmmalı bu ki-

tabdır. Alimlər bu yolu seçməklə bir sıra üstünlük əldə etdilər: hər şeydən əvvəl, onlar burada sözləri istədikləri kimi deyib, hər fəsli arzu etdikləri kimi bəzəmək imkanına malik oldular. Bundan əlavə, bu yol ilə nəsihət, hikmət, lətifə və zarafat incilərini də bir-birinə qatdılar ki, arif adamlar onlardan istifadə etmək üçün bu kitabı mütaliə etsin, nadan adamlar isə əfsanə xatirinə onu oxusunlar.

Gənc şagirdlərə gəldikdə isə onlar elm əldə etmək, savadlı olmaq, nağıl söyləmək məqsədilə burada yazılanları asanlıqla yadlarında saxlayacaqlar. Başları çallaşıb əql və təcrübə sahibi olduqda əzbərlədikləri və yadda saxladıqları sözlər ətrafında fikirləşib düşünərkən sinələrinin nə qədər faydalı hikmətlərlə dolu olduğunu görəcək və gözləmədikləri halda birdən böyük bir sərvətə, bitməz-tükənməz bir xəzinəyə sahib olduqlarını dərk edəcəklər. Gənclərin bu şadlığı – həddi-buluğa çatdıqda atasının miras qoyduğu xəzinəni tapan və ömrünün axırına qədər əziyyət çəkmədən dolana biləcəyini hiss edən adamın şadlığına bənzər.

Bu kitabı oxuyan adam onun nə üçün yazıldığını, nə kimi məqsədlər güddüyünü başa düşməlidir. Əks halda, o, bu kitabdan fayda götürə bilməz, onun səmərələrindən feyziyab ola bilməz. Bu kitabı dərk etməyin birinci şərti onu düzgün oxumağı bacarmaqdır. Bir şeyi oxumağı bacarmadan onun mənasını dərk etmək olarmı? Yazı mənanın qəlibidir, yazıda səhv edilərsə, mənanı başa düşmək olmaz. Oxumağı bacaran adam isə bu kitabı fikirləşə-fikirləşə oxumalı və tez başa çatmağa tələsməməlidir, çünki onun faydası insanın təbiətinə tədriclə təsir edir. Bu şərti yerinə yetirməyən adamın vəziyyəti xəzinə tapan nadan adamın vəziyyətinə oxşar.

Nəql edirlər ki, bir kişi səhrada xəzinə tapır və öz-özünə

belə deyir: – Əgər bu xəzinəni özüm tək daşısam, ömrüm hədər gedər və az şey əldə etmiş olaram. Yaxşısı budur ki, bir neçə muzdur tapıb, bir neçə heyvan kirayə tutum və tez bir zamanda hamısını evə daşıtdırım.

O dediyi kimi də edir. Özü xəzinənin başında qalaraq ləl və cavahirlə yüklənmiş heyvanları evlərinə göndərir. Lakin yük daşıyan hiyləgər adamlar var-dövləti həmin şəxsin mənzilinə deyil, öz evlərinə aparmağı daha əlverişli hesab edirlər.

O nadan kişi öz mənzilinə gəldikdə, peşmançılıq və təəssüfdən başqa, xəzinədən heç bir şey tapmır.

Bir həqiqəti də bilmək lazımdır ki, oxumağın faydası əzbərləməkdə yox, dərk etməkdədir. Hər kəs bilmədiyi işdən yapışsa, onun vəziyyəti sözü əzbərləyib mənasını başa düşməyən adamın vəziyyətinə oxşar.

Rəvayət. Belə nəql edirlər ki, bir kişi ərəbcə öyrənmək istəyirmiş. Çox savadlı dostlarının birindən xahiş edir ki, qızıl lövhə üzərində onun üçün bir neçə ərəb sözü yazsın. Dostu onun bu xahişini yerinə yetirir. Həmin kişi ərəbcə yazılmış qızıl lövhəni evinə aparır, hərdən ona baxaraq elə güman edir ki, artıq ərəb dilini kamil bilir. Bir gün bir məclisdə ərəbcə danışmaq istəyərkən səhv buraxır. Orada onlardan biri ona ibrət dərsi vermək üçün istehza ilə gülür. Həmin kişi bundan qəzəblənərək deyir: – Məndən səhv tuta bilməzsən, qızıl lövhə bizim evimizdədir.

İnsanlar elmə sahib olmalı, onu dərindən dərk etməlidir. Çünki elm o dünyaya aparılacaq ən böyük sovqatdır. Bu dünyada isə biliklərə yiyələnmədən, yaxşı işlər görmədən dolanmaq çətindir. Günəşin camalı yer üzünü işıqlandırdığı və həyat suyu əbədi bir ömür verdiyi kimi, elmin də kəmalı qəlbləri nurlandırar; təcrübənin şəfaverici dərmanları insanları cə-

halətin ağır xəstəliyindən xilas edər. Yaxşı işlər elmə yaraşıq verir. Bilik ağacının meyvəsi xeyirxahlıq və başqalarını incitməməkdir. Elmli olub ona əməl etməyənlər, yolun qorxulu olduğunu bilib geri dönməyən adamlara oxşarlar ki, bunlar yolda qarət edilib soyular; yeməklərin zərərli olduğunu bilib onlardan imtina etməyən xəstələrə bənzərlər ki, bunun nəticəsində onlar məhv olub gedərlər. Hər halda əmənin çirkin olduğunu bilib, yenə də ondan əl çəkməyən adam məzəmmət atəşinə tutular. Məsələn, biri kor, biri gözlü iki adam quyuya yıxılıb ölümcül yaralansa, onların eyni vəziyyətdə olmalarına baxmayaraq, ağıllı və düşüncəli adamlar yanında korun günahı gözlününkündən az olar və onu üzrlü hesab edərlər.

Elm və biliyin əldə edilməsi hər şeydən əvvəl insana öz hörmətini qaldırmaq, izzəti-nəfsini qorumaq üçün lazımdır. O yalnız başqalarına öyrədilmək üçün olsa, insan özü ondan bir xeyir görməsə, o, hamının istifadə etdiyi bulağa oxşar: suyundan hamı fayda götürər, lakin bulağın bundan xəbəri olmaz.

İki şeydən, yəni elm və maldan, insan əvvəl özü istifadə edib, sonra başqalarına paylamalıdır. Təcrübələrin nəticələri səmərəli olduqda, insan əvvəl onu özünə, sonra başqalarına tətbiq etməlidir, yəni insan əvvəl özünü müalicə etməlidir, sonra başqalarını. Kim bu sözlərin mənasını dərk etməyib onu cəfəngiyat saysa, «koru» «gor» oxuyan axmağa bənzər. Ağıllı adam gərək işin əvvəlində onun sonunun nə ilə qurtaracağını gözünün qabağına gətirə, yola çıxmamış hara gedəcəyini müəyyən edə. Əks halda o, yolun ortasında avara qalar, nəticədə isə peşmançılıq və fəlakətdən başqa bir şey qazanmaz... Ağıllı adam odur ki, əcdadların həyatından ibrət dərsi götürüb onların təcrübəsindən istifadə edə. Hər bir işi yenidən yoxla-

maq istəyən insan həmişə möhnət içində yaşar. Odur ki, deyiblər, hər ziyanda bir xeyir var. Lakin ən yaxşısı budur ki, başqalarının ziyan çəkdiyini görüb, onların faydalı təcrübələrindən istifadə edəsən. Bu yol ilə getməyən adamlar günü-gündən müvəffəqiyyətsizliyə uğrar və nəhayət, uzun təcrübədən sonra düzgün yola düşənədək ölüm vaxtı gəlib çatar. Kim fürsəti əldən versə, iş görmək lazım olan yerdə kahıllıq etsə, doğru və yalan ola biləcək xəbərləri doğru hesab edib onu başqalarına zorla qəbul etdirsə, yalançının yağlı dilinə inansa, öz tərəfdarlarını fitnəkar adamların iftiralarına əsasən incitsə, məsul vəzifələri ağıllı adamlara tapşırmayıb onların gətirə biləcəyi xeyri əldən versə, yaşayış imkanlarından məhrum olar. İnsan heç bir şeyin düşgünü olmamalıdır. Ağıllı adam üçün düşgünlükdən, doğru yoldan azıb öz arzu yükünü şübhələr küləyi əsən yerə və ya etibarsızlıq havası olan evə qoymaqdan daha zərərli heç nə ola bilməz. Çünki insanlar əksərən düşgünlük və ya buna bənzər şeylər üzündən cəhənnəmə gedirlər.

Ağıllı adamlar təsadüfən düşgünlük və aludəçilik mühitinə düşsə, tez oradan xilas olmağa çalışmalı və səhvi dərinləşdirməməlidir. Düşgünlüyü iradəlilik və əhdə vəfa kimi qiymətləndirməməlidir. Hər kəs kor-korana nabələd yola çıxsa , o, xalqın getdiyi düz yoldan uzaqlaşar və nə qədər çox getsə, o qədər çox azmış olar. Əgər hirsli və qəddar bir adamın gözünə tikan düşsə və o bu tikanı çıxarmayıb onu əhəmiyyətsiz bir şey hesab edərək gözünü ovuşdurmağa başlasa, mütləq kor olar. Ağıllı adam göylərin hökmü ilə razılaşıb ona inanmalıdır, lakin bununla birlikdə əqlin və təcrübənin dediklərinə də qulaq asmalıdır. Ümumiyyətlə, sadəlövhlük və səhvlərə yol verilməməlidir. Ağıllı adam özünə rəva bilmədiyi şeyləri baş-

qalarına da rəva görməməlidir. Çünki hər bir əməlin öz mükafatı var, möhlət başa çatdıqda, vaxtı yetişdikdə o özünü mütləq büruzə verər.

Bu kitabı oxuyanlar hər şeydən əvvəl onun mənasını dərk etməyə çalışmalı, orada işlədilən istiarələri, rəmzli və müəmmalı sözləri başa düşməli və tez-tez başqa kitablara müraciət etmək ehtiyacından azad olmalıdır.

İbn Müqəffa bu müqəddiməyə əlavə edərək deyir ki, mən farsların bu kitabı hind dilindən pəhləvi dilinə tərcümə etdiklərini gördükdə istədim ki, Əraq, Şam və Hicaz əhli də ondan istifadə edə bilsin və bu kitab onların ana dili olan ərəb dilinə tərcümə edilsin. Sonra mən bu işi yerinə yetirərkən mümkün qədər dürüst və aydın tərcümə etməyə çalışdım ki, tələbələr və oxucular ondan asanlıqla istifadə edə bilsinlər.

TƏBİB BƏRZUYƏ HAQQINDA FƏSİL

Fars təbiblərinin başçısı Bərzuyə belə nəql edir: «Mənim atam ordu başçılarından, anam isə Zərdüşt üləmaları ailəsindən idi. Allahın mənə bəxş etdiyi ilk nemət ata-anamın məhəbbəti oldu. Onlar mənim qayğıma qalır, məni başqa uşaqlarından çox sevirdilər. Mənim tərbiyəmlə ayrıca məşğul olur, yemək-içməyimə xüsusi fikir verirdilər. Yeddi yaşıma çatdıqda məni tibb elmini öyrənməyə təhrik etdilər. Bu elm ilə bir az məşğul olduqdan sonra onun məziyyətini dərk etdim. Sidq ürəkdən coşğun bir ehtirasla onu öyrənməyə girişdim. Sonra bu sənətdə böyük şöhrət qazanaraq xəstələri müalicə etməyə başladım. Birdən bütün insanların nəfsi kimi mənim də nəfsimin dörd şey arzusunda olduğunu hiss etdim: mal toplamaq, keyf çəkmək, başqaları tərəfindən təriflənmək, əbədi şöhrət qazanmaq. Onu da deməliyəm ki, tibb elminin bütün

alimlər yanında və bütün dünyada böyük hörməti vardır. Tibb kitablarında yazılıbdır: «Təbiblərin ən fazili odur ki, xəstələri pulsuz müalicə etsin, bu yolda o, həm bu dünyanın, həm də o biri dünyanın nemətindən feyziyab olar». Kəndlinin toxum səpməkdən məqsədi öz ruzusunu çıxarmaq, yəni taxıl əldə etməkdir. Heyvanların yemi sayılan ot-ələf isə nəticə olaraq özbaşına əmələ gəlir. Xülasə, harada sağalmasına ümid olan xəstə eşitdimsə, gedib onu məccani müalicə etməyə başladım. Bir az sonra tay-tuşlarımın mal-dövlət, şən-şövkətdə məndən üstün olduqlarını gördüm. Tamah mənə zor gəlir, nəfsim məni dünya malı toplamaq eşqinə salırdı. Az qalmışdı ki, yolumu azam. Öz-özümə dedim: «Ey nəfs, sən xeyrinlə ziyan arasındakı fərqi görmürsən. Ağıllı adam əziyyəti çox, xeyri az olan şeyi necə arzu edə bilər? Sən yaxşı ad qoyub getmək fikrindəsənsə, bu fani dünyada acgöz və həris olma. Dünyanın işlərindən möhkəm yapışmağın əsas səbəblərindən biri insanı şirnikdirən pul və dövlətdir. Sən doğru olmayan bu fikirlərdən əl çək, əbədi savab qazanmaq üçün çalış. Çünki yol qorxulu, yoldaşlar etibarsız, köç yaxın, istiqamət naməlumdur. Ayıq ol, axirəti ələ gətirmək üçün fürsəti fövt etmə. İnsanın həyatı birbirinə zidd olan dörd ünsürün qarışığından hörülmüş nazik bir sap kimidir, onun uzun müddət davam gətirəcəyinə ümid bağlamaq olmaz.

İnsan bədəninin üzvləri bir mıxla bərkidilən qızıl bütə oxşayır. Mıx çıxarılacaq büt parçalanıb dağıldığı kimi, insanın bədəni də yaşamaq qabiliyyətini itircək çürüyüb dağılır və məhv olur. Qohum-qardaşın, dost-aşnalarınla da çox qürrələnmə və onlarla bir yerdə olmağa xüsusi həvəs göstərmə. Onların sevincləri həmişə kədərlərindən az, qəmləri isə şadlıqlarından çox olar. Bütün bu qəm və qüssə, iztirab və hə-

yəcanla birlikdə nəticədə insanı bir hicran dərdi, bir ayrılıq kədəri də gözləyir. Bəzən də elə olur ki, birisi öz ailəsini dolandırmaq, arvad-uşaqlarını təmin etmək üçün mal toplamaq, sərvət yığmağa məcbur olur və özünü bu yolda qurban verir. Bu, ocağa atılan uda[1] oxşayır, ətrindən başqaları faydalanır, yanma əzabını isə özü çəkir».

Öz-özümə dedim: «Ən doğrusu budur ki, sən xəstələri müalicə etməkdən əl çəkmə, ona fikir vermə ki, camaat həkimə qiymət qoymur, onun qədrini bilmir. Sən onu nəzərə al ki, müvəffəq olub bir nəfəri ölümün cəngindən qurtara bilsən, bunun savabı hər şeydən çoxdur.

Uzun sürən təhlükəli xəstəliklər nəticəsində su, çörək, arvad, uşaq üzünə həsrət qalan bir insanı müalicə etmək və onun sağlamlığını özünə qaytarmaq mümkün olsa, bunun nə qədər böyük savab iş olduğunu kim hesablaya bilər?».

Öz nəfsimlə belə mübarizədən sonra onu yenə doğru yola qaytara bildim. Səmimi qəlbdən, heç bir şey ummadan xəstələri müalicə etməyə başladım, uzun müddət bu işlə məşğul oldum. Bu xidmətə mükafat olaraq ruzu qapıları mənim üzümə açıldı. Şahlar arasıkəsilmədən mənə xələt və peşkəş verməyə başladılar. Həm Hindistan səfərindən əvvəl, həm də sonra çoxlu yaxşılıqlar və töhfələr gördüm. Mal-dövlət, şənşövkətlə öz tay-tuşumu vurub keçdim.

Bir gün tibb elminin müvəffəqiyyətləri və nəticələri haqqında, verdiyi fayda və səmərələr haqqında düşünməyə başladım. Elə bir hadisə xatırlaya bilmədim ki, tibb əsl sağlamlığa səbəb olsun, ya heç olmasa, bircə xəstəliyi tamamilə aradan qaldırsın, onun geri qayıtmaq yollarını bağlamış olsun.

---

[1] *Ud – yandırılarkən ətir verən ağacdır.*

Həqiqət belədirsə, o zaman ağıllı adam tibb elminə etibar edib onu şəfaverici hesab edə bilərmi? Bu zaman savab işlər görüb axirət üçün əlləşmək mənə daha inandırıcı görünməyə başladı. Deyilənlərə görə, bu cür işlər günah kimi xəstəliyi birdəfəlik aradan qaldıra bilir, elə aradan qaldırır ki, o bir daha geri qayıtmır.

Mən bütün bunları düşündükdən sonra tibb elmindən əl çəkib ilahiyyatla məşğul olmağa başladım. Doğrusu, mən burada əvvəli-axırı görünməyən bir yola düşdüm. Yol qaranlıq və qorxulu idi. Nə bir bələdçi var idi, nə də uzaqdan bir işıltı görünürdü. Tibb kitablarında da bu barədə bir şey deyilməmişdi ki, ona əsaslanıb şəkk və şübhədən, heyrət və tərəddüddən xilas olasan. Müxtəlif xalqların dinləri arasında da böyük fərq və ziddiyyət var idi. Bəziləri ənənə naminə əlini zəif bir budağa atır, bəziləri şahların qəzəbindən və canlarının qorxusundan ayaqlarını boş bir kötüyün üstünə qoyur, bir qismi də dünya malı və vəzifə xatirinə arxasını çürük bir ağaca dayayırdı.

Onların arasında xaliq və məxluq, yaradan və yarananın mənşəyi, dünyanın sonu haqqında böyük mübahisələr gedirdi və hərəsi elə düşünürdü ki, onun dediyi doğru, müxalifinin dediyi isə yanlışdır.

Belə fikirləşə-fikirləşə şəkk və şübhə səhrasında irəli və geri gedir, təpələrə dırmaşıb dərələrə enir, lakin nə məqsədə doğru bir yol, nə həqiqətə doğru bir cığır tapa bilirdim. Nəhayət, belə qərara gəldim ki, bütün din alimlərilə görüşüb onların təriqətləri haqqında tədqiqat aparım və ürəyimə yatan doğru bir din tapım. Mən bu məqsədimi yerinə yetirdim, bütün təriqətlərlə dərindən tanış oldum, gördüm ki, hər tayfa öz din və məzhəbinin üstünlüyündən dəm vurur, müxalif tərəfinkini

isə pisləyir. Mən onların heç birisinin arxasınca gedə bilmədim, öz dərdimə dərman tapmadım. Aydın oldu ki, onların hamısının iddiası cəfəngiyatdır. Ağıllı adam onların heç birisinin dediklərini qəbul edə bilməz.

Öz-özümə fikirləşdim ki, əgər mən belə müxtəlif rəylərdən sonra bu dinlərdən birini qəbul etsəm və qərəzlə deyilən sözlərdən birinə inansam, aşağıda nəql edilən oğru əhvalatındakı nadan oğrunun gününə düşərəm.

Oğru əhvalatı. Deyirlər ki, bir oğrubaşı öz yoldaşları ilə bir dövlətlinin evinə oğruluğa getdi. Ev sahibi ayaq tappıltısına yuxudan ayıldı, başa düşdü ki, damda oğru var. Yavaşca arvadını oyadıb əhvalatı ona başa saldı və dedi: – Mən özümü yuxuluğa vuracağam, sən onların eşidə biləcəyi uca bir səslə, böyük bir təkidlə məndən soruş ki, bu qədər mal və dövləti necə ələ gətirmisən. Nə qədər mən demək istəməsəm, sən o qədər inadla təkid et və məndən əl çəkmə. Arvad ərinin dediyini etdi və ərini sorğu-suala tutdu. Kişi dedi: – Arvad məndən əl çək və bu sualdan vaz keç. Doğrusunu desəm, qorxuram eşidələr, biz biabır olaq, camaatın bizdən acığı gələ.

Arvad təkid edib yalvarmağa başladı.

Kişi dedi: – Sənin bunu soruşmaqda məqsədin nədir? Kişinin gizli sirri ilə arvadın nə işi var?

Arvad dedi:

– Bilmək istəyirəm.

Kişi dedi:

Bu mal-dövlət oğurluqla toplanmışdır. Mən bir vaxt oğurluqda mahir idim və bir ovsun bilirdim. Aylı gecələrdə dövlətli adamların divarlarının dibinə gəlib yeddi dəfə deyərdim: «Şolem, Şolem». Ayın işığından tutub bir anda qalxardım damın üstə və durardım bacanın başında. Sonra yeddi dəfə

«Şolem, Şolem» deyib heç bir zəhmət çəkmədən enərdim evin ortasına. Orada da yeddi dəfə «Şolem, Şolem» dedikdə evdə nə qədər pul və dövlət var idisə, hamısı gələrdi qabağıma. Gücüm çatdığı qədər götürüb, yenə də yeddi dəfə «Şolem, Şolem» dedikdən sonra ay işığından tutaraq bacadan qalxardım. Bu ovsunun bərəkətindən nə bir adam məni görərdi, nə də bir insan məndən bədgüman olardı. Yavaş-yavaş bu gördüyün dövlət ələ gəldi. Ancaq amandır, bu sözü heç kəsə öyrətmə ki, onun bizə böyük ziyanı dəyə bilər.

Oğrular bu əhvalatı eşitdikləri və o sözü öyrəndikləri üçün çox şad oldular. Bir az gözlədilər. Ev sahiblərinin yatdıqlarına arxayın olduqdan sonra oğrubaşı yeddi dəfə «Şolem, Şolem» dedi, lakin ayağını bacaya qoymağı ilə yerə dəyməyi bir oldu. Ev yiyəsi tez yerindən sıçrayıb əlinə bir çomaq götürdü və düşdü oğrunun üstə, vur ki, vurasan. Özü də vurduqca deyirdi: – Mən əziz ömrümü sərf edib dövlət toplamışam ki, sənin kimi dələduzun biri gəlib onu aparsın. Kim olduğunu deməsən, öldürəcəyəm.

Oğru dedi:

– Mən həmin nadan və sadəlövh adamam ki, sənin yağlı dilinə aldanıb bu tora düşmüşəm...

Xülasə, bu yol ilə mən həqiqəti tapa bilmədim və özözümə dedim: «Əcdadımın dinində qalıb kor-koranə ona riayət etsəm, mən o cadugərə oxşaram ki, doğru olmayan işlərlə məşğul olduğunu bildiyi halda yalnız əcdadı cadugər olduğu üçün özünü haqlı hesab edir. Yox, yenidən din axtarmağa başlasam, qorxuram ömür vəfa etməyə. Çünki əcəl yaxındadır. Tərəddüd içərisində yaşasam, fürsəti əldən verər və heç bir iş görməmiş bu dünyadan getməli olaram. Ona görə mən bütün dinlərdən

əl çəkib hər şeydən üstün hesab edilən xeyir əməllərlə məşğul olmağı əqlə batan, ürəyə yatan işlər görməyi qət etdim.

Bundan sonra mən heyvanları və insanları öldürüb incitməkdən əl çəkdim. Qəzəblənib təhqir etməyi, xəyanəti və oğurluğu buraxdım, əyyaşlıqdan uzaqlaşdım, yalan danışıb böhtan deməyi, söyüş söyməyi tərk etdim, xalqı incitmək, dünya malına həris olmaq, hoqqabazlıq, cadugərlik etmək kimi nalayiq hərəkətlərdən çəkindim. Merac, qiyamət, savab və günah haqqında bilmədiyim şeyləri özümdən toqquşdurmadım, pis adamlardan qaçıb yaxşı adamlara qoşuldum, düzlük və təmizliklə dost oldum. Çünki dünyada düzlükdən daha yaxşı bir dost ola bilməz. Yalnız düzlük vasitəsi ilə tez varlanmaq olar. Bu dövlət paylanmaqla azalmaz, xərclənməklə qurtarmaz. Düz adam padşahdan qorxmaz, od, su, yırtıcı, vəhşi heyvanlar və başqa zərərli şeylər düz adama ziyan vura bilməz. Kim düzlükdən üz döndərib onun məziyyətini xeyrat almaq, pul toplamaq ləzzəti ilə əvəz etsə, öz malını və ömrünü bu dünya məqsədlərinə çatmaq üçün sərf etsə, o adam başına aşağıdakı əhvalat gəlmiş tacirə oxşar:

Tacir əhvalatı. Deyirlər ki, bir tacirin çoxlu mirvarisi varmış. Onları deşmək üçün günü yüz dinara bir adam tutur. Həmin adam tacirin evinə gəlib işə başlamaq istərkən evdə gözəl bir çəng[1] görür, diqqətlə ona baxmağa başlayır. Bunu görən tacir ondan soruşur: – Çalmaq bacarırsanmı? Muzdur çəng çalmaqda mahir idi. Deyir, bəli, bilirəm. Tacir ona «çal!» – deyə əmr edir. Muzdur həmin çəngi götürüb gözəl havalar çalmağa və xoş bir səslə oxumağa başlayır, tacir böyük bir zövq ilə ona qulaq asır, mirvarilər isə deşilməmiş qalır. Axşam

[1] *Çəng – Simli çalğı alətidir.*

olduqda muzdur muzd haqqı istəyir. Tacir deyir: – Mirvarilər olduğu kimi də durur və deşilməmişdir, görülməmiş iş müqabilində muzd verilməz. Xülasə, muzdur nə qədər deyirsə, fayda vermir, vəziyyəti belə görən muzdur əsəbiləşərək tacirin üstünə qışqırıb deyir: – Mən sənin muzdurun idim, hər nə deyibsən, onu da eləmişəm, sənin haqqın yoxdur mənim muzdumu kəsəsən. Tacir muzdurun haqqını verməyə məcbur olur və günün boş keçdiyinə, vaxtın hədər getdiyinə, mirvarilərin deşilməmiş qaldığına, işin görülmədiyinə baxaraq dərin fikrə dalır.

Düzlük və möminlik arzusu qəlbimi ələ aldığından, istədim, ibadətlə məşğul olam. İstədim, mənim alt paltarımla üst paltarım, xaricimlə daxilim, zahirimlə batinim, sözümlə işim bir-birinə uyğun gəlsin, çünki möminlik və abidlik şərri rəf edən möhkəm zirehli paltar, xeyri cəzb edən uzun kəmənddir. Düzlük və möminliyin səmərələrindən biri odur ki, ömrün müvəqqəti, dünyanın fani olması səni qorxutmur. Mömin adam bu müvəqqəti dünyanın işlərinə fikir versə və onların haqqında fikirləşsə, orada olan yaramazlıqları həqiqət gözü ilə görər, o dünyaya əliboş getməmək üçün camaatı incitməkdən əl çəkər, şöhrətpərəstliyi buraxar. Qəm və kədərini azaltmaq üçün öz taleyi ilə razılaşar. Dünyanın əziyyətlərindən yaxa qurtarmaq və bütün günahlarını təmizləmək üçün inzivaya[1] çəkilər, hamının məhəbbətini qazanmaq üçün həsəd və paxıllıqdan əl götürər. Mal-dövləti itirmək qorxusundan xilas olmaq üçün səxavəti özünə peşə edər, peşman olmamaq üçün işi ağıl ilə görər, təvazökar və qənaətlə dolanmaq üçün axirəti yaddan çı-

[1] *İnziva – guşənişin olmaq, dünyadan əl çəkib ibadətlə məşğul olmaq..*

xartmaz, büdrəyib səhv etməmək üçün işin sonunu nəzərə alar, özünün rahat və farağat yaşaması üçün xalqı incitməz.

Mən düzlük və möminliyin məziyyətləri haqqında düşündükcə onlara rəğbətim artırdı. Lakin mən bu dünyanın ləzzətindən əl çəkib, nəqdi əldən vermək və nisyə dalınca qaçmağın çətin bir iş olduğunu bilirdim, bu yolda səhv etmiş olarsam, belə böyük bir işin həm bu dünya, həm də axirət işinə böyük zərər verə biləcəyindən və onun nəticəsinin peşmançılıq olmasından qorxurdum. Belə olduqda mənim vəziyyətim ağzındakı sümüyün əksini suda görüb tamaha düşən və onun başqa sümük olduğunu təsəvvür edərək nəqdi buraxıb xəyali sümük dalınca suya cuman itin vəziyyətinə bənzərdi.

Az qalmışdı bu cür qorxulu və kədərli düşüncələr üstün gəlib məni yoldan azdırsın və hər iki dünya əldən çıxsın. Mən yenidən bu dünyanın işləri haqqında fikirləşməyə və onun naz və nemətlərini göz qabağına gətirməyə başladım. Mənə aydın oldu ki, bu dünyanın nemətləri şimşək qədər davamsız və ötərgidir. Bununla belə o, içdikcə şor su kimi ətəş gətirər, zəhər qatışdırılmış bal qədəhi kimi, əvvəl şirin, sonra öldürücü olar, ürəkaçan gözəl röya kimi ayıldıqdan sonra təəssüf və həsrət doğurar. Bu dünyanı ələ gətirmək istəyən insan ipək qurduna oxşar, nə qədər çox toxusa, öz əl-qolunu o qədər bərk bağlamış olar və onun xilas olması o qədər çətinləşər.

Sonra öz-özümə dedim: «Bu olmadı ki, sən gah bu dünyadan o dünyaya, gah o dünyadan bu dünyaya qaçırsan. Sən eyni hadisə üstündə bir-birini təqsirləndirən iki düşmənin hər ikisinə bəraət qazandıran riyakar bir qazıya oxşayırsan ki, bu yol ilə də düşmənçilik aradan qaldırıla bilməz».

Bir qəlbin var, tap bir ürək dostunu,
Çətin günün mərd və zirək dostunu[1].

Nəhayət, mən ibadət etmək qərarına gəldim, düşündüm ki, bu dünyanın əziyyətinə dözmək, axirətdə nicat tapmağa nisbətən heç mənzələsindədir, bu dünyadan alınan ləzzət o dünyada veriləcək əziyyətin mində biri ola bilməz. Hər halda nəticədə çoxlu şirinlik gətirən az acılıq, çoxlu acılıq gətirən az şirinlikdən daha yaxşıdır. Bir adama desələr ki, əbədi nicat üçün sənin ətini yüz il hər gün on dəfə kəsib yenə bir-birinə tikmək və yenə də kəsmək lazımdır, gərək o buna razı olsun, çünki əbədi nemət içində yaşamağa nisbətən bu yüz il bir saatdan da öz görünər. Demək, ağıllı adam möminliyi böyük və çətin bir iş hesab edib, bir neçə günlük ibadətin əziyyətinə dözməkdən boyun qaçıra bilməz. Onu da bilmək lazımdır ki, dünya bəla və əzabla doludur. İnsan ana bətnindən ömrünün axırına qədər bir an da olsa, öz canını bəladan qurtara bilmir. Tibb kitablarında yazılıbdır ki, uşağın əmələ gəlməsinin əsas səbəbi olan kişinin mayası ana bətnində qadının mayası ilə qarışdıqda qəlizləşib bərkiməyə başlayır. Bu zaman ananın bətnindəki yel bu qarışıqları çalxayıb əvvəlcə pendir suyuna, sonra isə qatığa oxşar bir maddə əmələ gətirir, bundan sonra bədən üzvləri yaranmağa başlayır. Uşaq oğlandırsa, üzü ananın kürəyinə; qızdırsa, üzü ananın qarnına tərəf çevrilmiş olur. Əllər alına, çənə dizə sıxılır, uşağın vücudu pərdə ilə elə örtülür ki, guya onu bir kisəyə salıb bağlayıbsan, zorla nəfəs alır. Bətndəki istilik, ana qarnının ağırlığı, qaranlıq, darlıq və təsəvvürə gəlməz əziyyətlər... Elə ki, hamiləlik dövrünün sonu yetişir, doğum vaxtı çatır, ana bətnində yel, uşaqda isə

---

[1] *Şeirləri M.Soltan tərcümə etmişdir.*

hərəkət etmək qüvvəti əmələ gəlir və uşağın başı ana bətnindən bayıra çıxır. Ana bətninin darlığı nəticəsində uşaq elə bir ağrı hiss edir ki, onu heç bir əzab və işgəncə ilə müqayisə etmək olmaz. Uşaq dünyaya gəldikdən sonra ona yumşaq bir əl toxunsa və ya yüngül bir külək əssə, onun çəkdiyi əziyyət, böyüklərin dərisini soyduqda çəkdiyi ağrıya bərabər olar. Bundan sonra isə müsibət və bəla silsilələri başlayır: acanda yemək, susayanda su istəyə bilmir; bir yeri ağrıdıqda başa sala bilmir. Sonra açılıb bələnmək, qoyulub götürülmək, beşiyin darlığı və saysız-hesabsız məşəqqətlər. Elə ki, körpəlik vaxtı qurtarır, təlim və tərbiyə əziyyətləri başlayır: filan şeyi yemə, filan şeyə əl vurma, filan şeyi demə, sonra xəstəlik, acı dərmanlar və bununla əlaqədar olaraq məhrumiyyətlər silsiləsi... Elə ki, həddi-büluğa çatdı, ev-eşik, arvad-uşaq dərdi, bununla birlikdə mal-dövlət toplamaq və pul qazanmaq hərisliyi meydana çıxır. Bundan əlavə bir-birinə zidd olan dörd ünsür[1] həmişə insanla bir yerdə yaşayır, onunla bir yerdə yatıb, bir yerdə durur. Bundan sonra hadisələr, bəlalar, fəlakətlər, müsibətlər, xəstəliklər bir-birini əvəz edir. İlandan, əqrəbdən, vəhşi heyvanlardan qorxmaq, isti və soyuqdan, qar və yağışdan, göy gurultusu və ildırımdan təşvişə düşmək, kim tərəfindən isə qəflətən hücum edilib öldürülmək vahiməsi... sonra əgər ömür vəfa edib qocalığa qədər yaşamaq mümkün olarsa, qocalıq dərdləri, zəiflik və taqətsizlik o vaxta qədər olan bütün dərd və kədərləri vurub keçər. Düşmənlərin araverməz qəsdləri və bədxahların niyyətləri də öz yerində.

---

[1] *Qədim Şərq fəlsəfəsində insan bədənində 4 ünsürün həmişə mübarizə etdiyi və bunlar arasında müvazinət pozulduqda, hətta insanın öldüyü düşünülürdü. Bu 4 ünsür: qan, öd, zərdab və bəlğəm hesab edilirdi.*

Fərz edək ki, bunların heç biri baş verməyəcək və insan ən yaxşı şəraitdə sağ və səlamət yaşayacaqdır. Bəs ölüm, ölüm saatı çatdıqda necə? Oğul, uşaq, qohum, qardaş, dost, aşna ilə vidalaşmaq, acı ölüm şərbətini damla-damla içmək lazım gələn o gündədəmi bu dünya məhəbbəti insanın qəlbindən silinməyəcəkdir?

Belə olduqda, heç bir ağıllı adam, xüsusilə indi, şərrin yavaş-yavaş xeyrə üstün gəldiyi və insanların get-gedə gözəl xasiyyətləri itirməyə meyl göstərdikləri bu fəlakətli gündə, dünyanı ələ gətirmək üçün ömür sərf etməyi özünə rəva bilməz. Çünki əbədi qalan şeyi tez məhv olub gedən şeylə, əbədiliyi müvəqqətiliklə dəyişmək, təmiz və pak bir ruhu kəsif və natəmiz bir bədənə qurban vermək böyük eyib və bağışlanmaz səhv hesab edilər.

Hərçənd Ənuşirəvani-Adil ibn Qubad özü xoşbəxt olmaqla birlikdə yüksək əql, sarsılmaz iradə, ali hikmət, qüdrətli kəmal, səlis ləhcə, şöhrəti dünyaya yayılmış ədalət, sonsuz səxavət sahibidir; adı dillərdə gəzir, elmə böyük məhəbbəti və alimlərə hörməti var; hikmət elminə və hikmət sahiblərinə xüsusi rəğbət bəsləyir; qəddar adamlara cəza verib xidmətçilərini tərbiyə etməkdə, zalimləri darmadağın edib məzlumlara kömək göstərməkdə ad qazanmışdır. Lakin bütün bunlara baxmayaraq zəmanənin xarab olduğunu, fəlakətə doğru sürüklənndiyini görürəm. Sanki xeyir insanlardan qaçır. Faydalı işlər, yaxşı sözlər unudulur, elə bil, doğru yollar bağlanmış, bədbəxtlik qapıları açılmışdır. Ədalət məhv edilərək zülm və sitəm hakimiyyət başına keçmiş, elm aradan qaldırılaraq cəhalət onun yerini tutmuş, rəzalət və xəyanət artaraq kərəm və mürüvvəti sıxışdırıb aradan çıxarmışdır. Dostluq zəifləmiş, düşmənçilik qüvvətlənmişdir, yaxşı adamlar təhqir edilərək əziyyət və mə-

şəqqət içində, alçaq adamlar hörmət qazanaraq keyf və əyləncə içərisində yaşayır. Hiylə və riyakarlıq ayıq, vəfa və düzlük isə yatmışdır. Yalan – azad, doğru – məhbus, haqq – məğlub, nahaq – qalib, qorxu – güclü, inam – zəif, zalım – haqlı, məzlum – haqsız, hərislik – hakim, qənaət – məhkum, qazi – qəddar, zahid – riyakar...

Mən dünyanın bu işlərini fikirləşdikdən sonra başa düşdüm ki, insan bütün məxluqatın ən şərəflisi və bütün varlığın ən nəcibidir. Lakin öz ömrünün qədrini bilmir, öz nəfsinin nicatı üçün çalışmır. Mən bu vəziyyəti müşahidə etdikdə çox təəccübləndim, diqqətlə baxdıqda gördüm ki, bu xoşbəxtliyə mane olan şey insanların azca rahat yaşamaq və cüzi mal toplamaq xəstəliyinə tutulmasıdır, bu da insanın dadmaq, iyləmək, görmək, eşitmək və hiss etmək duyğularını təmin etmək üçündür. Lakin bu duyğuların heç biri ehtiyacı ödəmək və məqsədə çatmaq üçün kifayət etməz. Bundan başqa həmişə mal-dövləti itirmək qorxusu vardır. Belə bir dövlət insana nəsib olsa da, o, həm bu dünyada, həm də axirətdə ziyandan başqa bir şey verməz. Bu hal o adamın vəziyyətinə bənzər ki, qızmış dəvədən xilas olmaq üçün quyunun üstə əyilmiş iki budaqdan yapışıb quyuya sallanmağa məcbur ola, diqqətlə baxdıqda görə ki, ayaqlarını dörd ilanın başına qoymuşdur. Quyunun dibinə nəzər saldıqda görə ki, orada bir əjdaha ağzını açaraq onun düşməyini gözləyir, gözünü yuxarı dikdikdə görə ki, ağ və qara siçanlar ara vermədən yapışdığı budaqların kötüyünü gəmirib yerə tökürlər. Bu vəziyyətdən xilas olmaq haqqında düşünərkən birdən gözünün qabağında bir arı yuvası peyda ola və həmin yuvada bir qədər bal görünə, barmağını bu bala batırıb yalaya və balın şirinliyi o qədər başını qarışdıra ki, özünün vəziyyətini unuda, yadından çıxa ki, ayağını dörd

ilanın başına söykəmişdir və bu ilanlar hər an başlarını çəkə bilər, unuda ki, siçanlar budaqları gəmirib tökməkdən əl çəkmir və budaqlar qırılan kimi əjdahanın ağzına düşəcəkdir. Baldaş alınan cüzi ləzzət o vaxta qədər bu fəlakəti unutdurar, zəif cahələt pərdəsi o vaxta qədər güclü ağıl nurunun üstünü örtər ki, siçanlar budaqları gəmirib qurtarar və bu zavallı adam acgöz əjdahanın ağzına düşər.

Mən dəhşətli və qorxulu quyu dedikdə bu dünyanı nəzərdə tuturam; budaqları gəmirən qara və ağ siçan gecə-gündüzdür, onların hər ikisi insanların ömrünü azaltmaq, onları həlak etmək üçün ara vermədən bir-birini əvəz edir; dörd ilan varlığın mahiyyətini təşkil edən dörd ünsürdür ki, onlardan biri öz müvazinətini itirsə, insan dərhal məhv olub gedər; bal, əziyyəti çox, faydası az olan, insanları düz yoldan azdırıb, nicat qapılarını onların üzünə bağlayan fani dünyadır; əjdaha – heç kəsin yaxa qurtara bilməyəcəyi ölümdür. Əcəl şərbətini içmək lazım gəldikdə, Əzrail başın üstünü aldıqda ölümdən yaxa qurtarmaq olmaz və peşmançılıq fayda verməz: nə geri qayıtmaq mümkün olar, nə təxirə salmaq. Nə tövbə etməyə vaxt qalar, nə dua oxumağa macal...

Xülasə, ən nəhayət, mən olduğum kimi qalıb əlimdən gəldikcə yaxşı işlər görmək qərarına gəldim. Mən ümid edirdim ki, bəlkə bu yol ilə elə bir vəziyyətə düşəm ki, o, həqiqəti görməkdə mənə kömək edə və bərk gündə imdadıma çata. Bir müddət bu ümidlə yaşadım, nəhayət, Hindistan səfəri qarşıya çıxdı. Mən orada da həddən artıq səy göstərir, həqiqəti kəşf etmək üçün əlimdən gələni əsirgəmir və çoxlu kitab oxuyurdum. Mən Hindistandan qayıdarkən külli miqdarda kitab gətirmişdim. Onlardan biri də təqdim etdiyimiz bu «Kəlilə və Dimnə» kitabıdır.

ŞİR VƏ ÖKÜZ FƏSLİ

...Hind racı[1] brəhmənə dedi: – Mənə elə bir əhvalat danış ki, orada xain adamın yalanı nəticəsində iki dost arasında olan sədaqət ədavətə çevrilsin və onlar bir-birindən ayrılmalı olsunlar.

Brəhmən dedi: – Əgər iki dost arasına bir xain girsə, onların qohum-qardaşlarının, dost-aşnalarının arasına mütləq nifaq düşər və onlar bir-birindən ayrılarlar, necə ki, şir və öküz bir-birindən ayrıldı.

Rac soruşdu: – O necə olmuşdur?

Rəvayət. Brəhmən dedi: – Belə rəvayət edirlər ki, dövlətli bir tacir var imiş, onun övladları böyüyüb həddi-büluğa çatdıqda heç bir sənətlə məşğul olmaq istəmədilər, atalarının malını yeyib, dağıtmağa başladılar.

Atası onları danlayıb dedi: – Ey mənim övladlarım! İnsan bu dünyada üç şey üçün çalışır ki, bu üç şey də başqa dörd şeyin nəticəsində əldə edilə bilər. Üç şey: yaxşı güzəran, insanlar arasında yüksək mövqe tutmaq, axirət əldə etmək üçün savab işlər görməkdir. Bu üç şeyi əldə etmək üçün istifadə edilən dörd vasitə aşağıdakılardır: namuslu əməklə dövlət toplamaq, əldə edilmiş dövləti saxlaya bilmək, sonra israfa yol vermədən onu özünə, qohum-qardaşlara, dost-aşnalara xərcləmək… Nəhayət, mümkün qədər nəfsini ziyanverici işlərdən çəkindirmək. Bu dörd şərtdən bircəsini yerinə yetirməyən adam arzusuna çata bilməz, çünki insanın dövləti olmasa, o özü yeyib başqasını yedirdə bilməz; əgər dövləti olsa, lakin bu var-dövlət haqqında qayğı göstərməsə, onu qənaətlə xərclə-

---

[1] *Rac – hind dilində hökmdar, şah deməkdir.*

məsə, çox keçmədən bu var-dövlət qurtarar və ona heç nə qalmaz. Odur ki, deyiblər, xərcləmək qazanmaqdan çətindir.

Mal ələ gətirmək asandır, ancaq
Çətindir o malı əldə saxlamaq.

Əgər insan qazanc gətirmədən pulu xərcləməyə başlasa, nə qədər az xərcləsə də, yenə tez-gec pul qurtarar, sürməni az-az işlətməyə baxmayaraq o da qurtarır.

Dağdan hey götürüb, desən ki, çoxdur,
Bir də görərsən ki, dağ özü yoxdur.

Odur ki, deyiblər: «Dama-dama göl olar, dada-dada heç».

İnsan dövlət yığıb saxlasa, onu xeyirli və faydalı işlərə xərcləməsə, dövlətli deyil, yoxsul hesab edilməlidir. Belə adamın dövləti müxtəlif yollarla lazım olmayan yerlərə xərclənib gedər. Bu, su gələn yolu olub, çıxan yeri olmayan bir hovuza bənzər, suyun artığı faydalı yerlərə sərf edilmədiyi üçün daşıb ətrafı basar, hədərə gedər.

Nəhayət, atanın nəsihəti oğlanlarına təsir etdi, onların hərəsi bir sənətlə məşğul olmağa başladı. Böyük qardaş tacirlik məqsədilə uzaq bir ölkəyə səfərə çıxdı, yolda böyük bir bataqlığa rast gəldi. Onun yük daşıyan iki öküzü var idi, birinin adı Şətrəba, o birinin adı isə Bəndəba idi. Şətrəba burada palçığa batdı, tacir və onun köməkçiləri çox çətinliklə Şətrəbanı bataqlıqdan çıxardılar, lakin onda getməyə artıq taqət qalmamışdı. Tacir öz köməkçilərindən birini Şətrəbanın yanında qoydu və tapşırdı ki, bir neçə gün ona qulluq etsin, yaxşılaşdıqda dalınca gətirsin.

Bir-iki gün keçdikdən sonra öküzün yanında qalan adam darıxmağa başladı, öküzü orada qoyaraq tacirin dalınca getdi və ona dedi ki, Şətrəba öldü. Öküz isə oradan çıxaraq çox

gəzdi, çox dolandı, nəhayət, suyu çox, ələfi bol olan gözəl bir çəmənliyə çatdı və orada qaldı.

Gülab tək ətirli suları vardı,
Sularda sonalar məclis qurardı...

Bir az keçmədi ki, öküz piylənib kökəlməyə, finkirib böyürməyə və bütün ətrafa səs salmağa başladı.

Yaxında isə meşənin padşahı şir və onunla birlikdə canavarlar, ayılar, çaqqallar və başqa heyvanlar yaşayırdı. Şir xudpəsənd və özündən razı bir padşah idi. O, heç vaxt öküz görməmiş və onun böyürtüsünü eşitməmişdi. Ona görə öküz böyürtüsü eşitdikdə bərk qorxdu, lakin heyvanlar və quşlar onun qorxduğunu bilməsin deyə, yerindən tərpənməyib ova çıxmağı tərk etdi.

Şirin yanında olan heyvanlar içərisində iki çaqqal var idi, bunlardan birinin adı Kəlilə, o birisinin adı Dimnə idi. Onların hər ikisi ayıq və gözüaçıq idi. Lakin Dimnə daha çox həris, daha çox özündən dəm vuran idi.

Dimnə Kəliləyə dedi:

– Qardaşım, sən şir haqqında nə fikirdəsən? O, bir neçə gündür ki, yerindən tərpənmir, ova çıxıb şikar etmir.

Kəlilə dedi: – Sənə dəxli olmayan məsələlər haqqında nə üçün sorğu-suala girirsən, bizim vəziyyətimiz aydındır: biz şah qulluğunda xidmət edir və onun sayəsində dolanırıq. Biz şahlar məclisində söhbət etmək hüququna malik olub, şahların işlərinə nəzarət yetirənlərdən deyilik. Sus və unutma ki, ona dəxli olmayan işlərlə məşğul olanın aqibəti meymun kimi olar.

Dimnə dedi: – Meymuna nə olmuşdu ki?

Meymun və dülgər əhvalatı. Kəlilə dedi: – Belə nəql edirlər ki, bir meymun bir dülgərin at üstündə oturmuş kimi, böyük bir dirək üstə oturaraq iki paz vasitəsi ilə onu yardığını

gördü. Dülgər bir pazı çaldıqdan sonra ikincisini çıxardıb qabağa çalır və beləliklə, dirəyi yara-yara irəliləyirdi. Dülgər ehtiyac üzündən işini buraxıb bir anlığa getməli oldu. Bunu görən meymun ona dəxli olmayan bir işdən yapışaraq dülgərin işini davam etdirməyə başladı. Arxasını dirəyin yarılmış hissəsinə tərəf çevirərək oturdu, yumurtası dirəyin yarığına girdi, o isə pazı çıxarmağa başladı. Pazı çıxardıqda yumurtası dirəyin arasında qalıb sıxıldı, meymun huşunu itirərək özündən getdi, dülgər qayıdıb gələnə qədər bu vəziyyətdə qaldı. Dülgər isə döyüb meymunu öldürdü. Odur ki, deyiblər: «Dülgərlik meymunun işi deyil».

Dimnə dedi: – Mən sənin söylədiyin əhvalatı eşitdim və nə demək istədiyini başa düşdüm, lakin bilməlisən ki, şaha yaxınlaşan hər adam yalnız öz qarnını doydurmaq məqsədini güdmür, çünki qarnı hər yerdə doydurmaq olar... Yox, belə bir adam şaha hər şeydən əvvəl dostları sevindirib düşmənləri qəzəbləndirən vəzifə və şöhrət xatiri üçün yaxınlaşır, yalnız qarnı üçün əlləşənlər heyvan zümrəsindən olanlardır. İt quru sümükdən sevindiyi kimi, belə adam da ona verilən ən kiçik sədəqədən sevinər və onunla kifayətlənər. Alicənab iradəli adamlara gəldikdə isə onları cüzi şeylər kifayətləndirə bilməz. Dovşanı şikar edən şir dağ keçisini gördükdə dovşanı buraxıb onun üzərinə hücum edər.

Qürurda Pələng ol, vüqarda Qartal,
Vuruşda qalib gəl, ovun üstün al.
Tavusa, bülbülə sən az nəzər sal,
Birisi bəzəkdir, biri qilü-qal!

Az şeyə razı olmaq mənəvi yoxsulluq və xəsislik əlamətidir. Yüksək mövqeyə çatan adamın ömrü gül qədər az olsa da, ağıllı adamlar onu uzun ömür hesab edərlər və əksinə, az

şeyə razı olan adamın ömrü şam ağacı qədər çox olsa belə mürüvvət əhlinin yanında onun qədr-qiyməti olmaz.

Kəlilə dedi: – Mən sənin sözlərini başa düşdüm, lakin ağlını başına yığ və bil ki, hər adamın öz yeri, öz mövqeyi vardır. Biz o təbəqədən deyilik ki, belə yüksək dərəcəyə layiq olaq və onu tələb etməyi bacaraq. Biz səlamət dolanırıqsa, bu, bizim üçün kifayətdir...

Dimnə dedi: – İnsanlar müxtəlif vəziyyətdə olurlar. İstedad və qabiliyyəti olanlar özlərini alçaq vəziyyətdən ali dərəcəyə çatdırır, iradəsi zəif, əqli kəm olanlar isə yüksək mövqedən aşağı rütbəyə enirlər. Yüksək dərəcəyə qalxmaq çox çətin, oradan aşağı enmək isə olduqca asandır.

Vəzifə ağır daş kimi şeydir, onu çox əziyyət və məşəqqətdən sonra çiyinə qaldırırlar, lakin çox asanlıqla yerə atırlar. Ali dərəcəyə çatmaq üçün mərd və iradəli adamların köməyə ehtiyacı yoxdur...

Sənət sahibi bilsə öz qüdrətin,
Göyə qaldırar hər işin hörmətin.

Biz yüksək vəzifə almağa layiqik və indiki aşağı vəziyyətdə qalmağa razı olmamalıyıq.

Kəlilə dedi: – Sən nə etmək fikrindəsən?

Dimnə dedi: – Mən bu fürsətdən istifadə edib şirin yanına getmək istəyirəm. O, qorxu və tərəddüd içindədir, bəlkə məsləhət vasitəsilə onun könlünü ələ alam, beləliklə, onunla dostlaşıb böyük vəzifəyə çatam.

Kəlilə dedi: – Sən nədən bilirsən ki, şir qorxu və tərəddüd içindədir?

Dimnə dedi: – Mən bunu əql və idrakımla bilirəm, ağıllı adamlar insanların gizlin işlərini onların xarici əlamətlərindən, xarici görünüş və qiyafələrindən başa düşürlər.

Kəlilə dedi: – Şahlar xidmətində olmadığın, şah məclislərinin qayda-qanunlarını bilmədiyin halda sən şirlə dostlaşıb ondan necə vəzifə ala bilərsən?

Dimnə dedi: – Böyük və məsuliyyətli iş, ağır və narahat yük güclü və möhkəm adamı yora bilməz. Qəriblik və tənhalığın ağıllı adam üçün qorxusu yoxdur... Fərasətli və huşyar adamlar hər şeyin yolunu tez taparlar...

Kəlilə dedi: – Şahlar öz mərhəmətini fəzilət sahiblərinə deyil, bəlkə özünə yaxın, nəsilbənəsil ona xidmət edib müxtəlif yollarla hörmət qazanmış adamlara göstərirlər. Şahlar bu cəhətdən üzüm tənəklərinə oxşayırlar, özlərinə daha yaxın olan ağaclara sarınırlar.

Dimnə dedi: – Sən haqlısan, lakin mən bilirəm ki, şahın yaxın adamları və onların sələfləri həmişə bu mənsəbdə olmamışlar, onlar əvvəl uzaq olmuş, sonra yavaş-yavaş yaxınlaşaraq bu dərəcəyə çatmışlar. Mən də çalışacağam ki, onların mənsəbinə çatım və bunun üçün əlimdən gələni əsirgəməyəcəyəm... Deyirlər, hələ indiyə qədər şah qapısında elə adam olmamışdır ki, o, şahın qəzəbinə dözmədən, onun təhqirlərinə davam gətirmədən, öz hirs və nifrətini boğmadan və insanlarla həlim rəftar etmədən böyük vəzifə almış olsun.

Kəlilə dedi: – Tutaq ki, sən şirlə dostlaşdın, sən hansı yol ilə və hansı əsasa görə ondan vəzifə alacaqsan?

Dimnə dedi: – Əgər mən ona yaxınlaşa bilsəm, əvvəlcə onun xasiyyətini öyrənər, ona sədaqətlə hörmət göstərib bütün arzularını yerinə yetirər, qəbih və yaramaz işlərdən çəkindirərəm. O, mənim fikrimə görə, yaxşı və ölkənin xeyrinə olan bir iş başladıqda, mən həmin işi onun gözündə böyüdüb daha da çox təriflər, bu tədbirin verəcəyi faydaları daha da şişirdərək onu gözəl boyalarla bəzəyər və şahın sevincinin artmasına

səbəb olaram. Yox, əgər mənim fikrimcə, aqibəti qorxulu və ziyanlı ola biləcək bir işə əl atmaq istəsə, mən ehtiyatla, çox mehriban, çox yumşaq, həlim və nəzakətlə bu işin zərərli cəhətlərini izah edər, əgər bu işdən əl çəkərsə, ondan alınacaq xeyir və faydanın nədən ibarət olduğunu başa salaram. Elə deyərəm ki, bu, onun ürəyinə toxunub, onun qəzəbinə səbəb olmasın. Ümid edirəm ki, başqalarından belə xidmət görməyən şir onun müqabilində mənə daha çox hörmət etməyə başlar.

Danışmağı bacaran ağıllı adamlar, yalanı həqiqətə və həqiqəti yalana çevirməyi də bacararlar... Mahir rəssamlar qələmlə elə səhnələr yarada bilir ki, burada heykəllər şəkil, şəkillər heykəl kimi görünür.

Möcüzə yaradan rəssama bax sən,
Simurq şəkli çəkir, quşu görmədən.

Şir məndəki bu qabiliyyət və istedadı gördükdə yaxın olmağımı məndən də artıq bir ehtirasla arzu edər.

Kəlilə dedi: – İndiki sən o fikirdəsən, gərək ehtiyatlı olasan, şahlarla dostluq etmək çox təhlükəlidir. Atalar deyiblər ki, üç işə girişməyə yalnız nadan adam cəsarət edər: şahlarla dostluq etməyə, dadına baxmaq xatirinə zəhər içməyə, sirri arvada verməyə. Ağıllı adamlar şahı elə bir sıldırım dağa bənzətmişlər ki, onun üzərində çoxlu meyvələr, müxtəlif xəzinələr vardır, lakin bununla birlikdə ora pələnglər, şirlər, canavarlar və başqa yırtıcı heyvanlar yuvasıdır. Ora qalxmaq qorxulu, orada qalmaq isə daha qorxuludur.

Dimnə dedi: – Sənin dediklərin doğrudur, lakin təhlükədən qorxan məqsədə çata bilməz...

Xətərsiz bir qazanc yoxdur dünyada,
Xətərdən qorxanlar çatmaz murada.

Qüdrətli iradəyə və böyük əqlə sahib olmadan üç işin

öhdəsindən gəlmək olmaz: şaha xidmət, dəniz ticarəti və düşmənlə müharibə. Atalar deyiblər:

İgid adamlara yalnız iki yer yaraşar: o, ya şah qulluğunda şöhrət tapmalı, ya inzivaya çəkilərək zahidlik etməlidir...

Kəlilə dedi: – Arzuna çatmaqda Allah sənə kömək olsun, ancaq mən bu işdə sənlə şərik deyiləm.

Dimnə gedib şirə salam verdi, şir yanındakılardan soruşdu: «Bu kimdir?» Dedilər: – Filankəs oğlu filankəs. Şir dedi: «Atasını tanıdım». Sonra Dimnəni yanına çağırıb soruşdu: – Sən harada olursan və nə edirsən?

Dimnə dedi: – Mən şahın qulluğundayam və onu, ehtiyaclarımın qibləgahı, arzularımın ümidi hesab edirəm. İndi gözləyirəm, əgər bir iş olsa, onu öz əql və bacarığımla yerinə yetirim. Çünki padşahın sarayında elə işlər olur ki, onu yerinə yetirmək üçün ən balaca vəzifəlilərə belə ehtiyac olur. Sizin dərgahınızda tavusdan tutmuş milçəyə qədər hamıya iş tapılar. Vəzifəcə ən aşağı, bədəncə ən zəif xidmətçilər də xeyir və ziyan verə bilərlər. Yola atılmış quru çöp də bəzən işə yarayır. Onunla lazım olduqda qulağı qaşıyar və ya dişi qurtdalarlar. Zərər və ya xeyir verə biləcək heyvandan isə daha yaxşı istifadə etmək olar.

Bir dəstə gül olmaq bacarmasaq da,
Yararıq odun tək yanaq ocaqda.

Şir Dimnənin sözlərini eşitdikdə onun məsləhət vermək fikrində olduğunu başa düşərək təəccübləndi. Sonra üzünü yaxın adamlarına çevirib dedi:

– İstedadlı və bacarıqlı adamın vəzifəsi kiçik, nüfuzu az, düşməni çox olsa da, o, əql və kəmalı sayəsində özünü büruzə verər, xalq arasında özünə layiq şöhrət tapar. Belə adamlar

çıraq kimidirlər, fikir verməmisinizmi ki, çırağı söndürmək istərkən o, yüksəyə qalxmağa meyl göstərir?!

Dimnə bu sözləri eşitdikdə sevindi və bildi ki, şirin xoşuna gəlmişdir. Dedi: – Şahın bütün adamları, əyan və əşraflar öz fikirlərini, bilik və bacarıqlarını şaha bildirməlidirlər. Çünki şah öz xidmətində olanları yaxşı tanıyıb, onların hərəsinin əql və dərrakəsinin dərəcəsinə vaqif olmasa, nəyə yarayıb, nəyə yaramadıqlarını bilməsə, onlardan yaxşı fayda götürə bilməz, vəzifəyə təyin etməkdə çətinlik çəkər. Toxum yerin altında olduqca heç kəs onunla maraqlanmaz, elə ki, torpağın pərdəsini yırtıb yerin üzünü zümrüd kimi bəzədi, onun nə olduğu meydana çıxar, bu zaman ona qulluq edər və onun bəhrəsindən fayda götürərlər.

Şah hər kəsdən öz ləyaqət və bacarığına görə istifadə etməlidir. Xidmətində onları vəzifəyə təyin edərkən, şahlar, əsasən, bu xüsusiyyəti nəzərə almalıdırlar.

Mən gül kolu və torpağam, sənsə günəş, buludsan,
Mən necə gül açа billəm, sən məni hey unutsan?!

Rəiyyətin, padşahlar qarşısındakı haqqından biri də odur ki, şah hər kəsə əqlinə, dərrakəsinə, sədaqətinə və bacarığına görə vəzifə verə və işi tərsinə etməyə, yəni, bacarıqsız və ləyaqətsiz adamları istedadlı və qabiliyyətli adamlardan üstün tutmaya. İki şey şahlara yaraşmaz: baş çalmasını ayağa dolamaq, ayaq dolağını başa bağlamaq. Ləl və yaqut qurşun və qalaya tutulsa, bununla onların qiyməti azalmaz, lakin bu işi tutan adamın axmaqlığına dəlalət edər.

İşin müvəffəqiyyəti köməkçilərin çoxluğunda deyil, iş bacarmalarındadır. Daş-qaş gəzdirməklə adamın qiyməti artmaz, lakin ondan insanın başına çoxlu bəla gələr. Hünər sahibləri aşağı vəzifəli, az nüfuzlu olsa da, əqilli adamlar onlara

alçaq nəzərlə baxmamalıdır. Torpağa düşmüş ağ damarı yerdən qaldırıb onlardan üzəngilər hazırlayarlar ki, şahların mindiyi atların üzərinə qoysunlar; kamanlar qayırarlar ki, onları şahlar, əyan və əşraflar əllərində gəzdirsin. Dövlətli və adlısanlı nəsildən olmadıqlarına görə hünər sahiblərini aşağı vəzifəyə təyin etmək, istedadsız adamlara isə, böyüklərin varisi olduğu üçün, yüksək rütbə vermək şahlara yaraşmaz. Şah insanları ölkəyə verdikləri faydaya görə, gətirdikləri xeyrə münasib vəzifəyə təyin etməlidir. İstedadsız adamlar öz əcdadlarının xidmətini səadət vasitəsi etsələr, bundan işlərə ziyan gələr və hünər sahibləri məhv olub gedər. İnsana öz canından daha əziz heç nə yoxdur. Lakin bədənin bir üzvü xəstələndikdə onu uzaq və yad şəhərlərdən gətirilmiş dərmanlarla müalicə edərlər. Siçan insanla həmsayə və həmxanədir, lakin zərərverici olduğu üçün onu öldürməyə çalışıb evdən qovarlar. Qızılquş dağlarda, səhralarda vəhşi halda yaşasa da, fayda verdiyi üçün onu böyük həvəslə tutub əhliləşdirər və tərbiyə edərlər. Şahlar özləri onu əl üstündə gəzdirərlər.

Dimnə sözünü qurtardıqda şahın Dimnəyə qarşı olan marağı bir az da artdı, onu tərifləyib xoş dillə dindirməyə başladı. Dimnə fürsətdən istifadə edərək şahla tək qalmalarını xahiş etdi. Elə ki, ara xəlvət oldu, Dimnə dedi:

– Çoxdandır ki, şah bir yerdə oturaraq ova çıxmır, bunun səbəbi nədir?

Şir istədi ki, özünün qorxduğunu Dimnədən gizlətsin, lakin bu zaman Şətrəba bərkdən böyürdü və onun bağırtısı şiri elə sarsıtdı ki, o, artıq özünü saxlaya bilməyib sirrini Dimnəyə açdı. Dedi: – Səbəbi o eşitdiyin səsdir, bilmirəm kimdir. Lakin güman edirəm ki, onun gücü və cüssəsi də səsinə müvafiq olar.

Əgər belə isə, o zaman mənim burada qalmağım doğru deyildir.

Dimnə dedi: – Bu səsdən başqa şahı narahat edən başqa şey yoxdur ki?

Şah dedi: – Yox.

Dimnə dedi: – Şah yalnız bu səbəbə görə doğma yurdunu tərk edib cəlayi-vətən olmamalıdır. Atalar demişlər ki: çox danışmaq əqlin azlığına, yalan danışmaq iradənin süstlüyünə, səsin yoğunluğu isə qüvvətin zəifliyinə dəlalət edər. Məsəl var, deyərlər ki, hər səsi yoğun, hər bədəni böyük pəhləvan olmaz, tülkü ilə təbil təmsili kimi.

Şir soruşdu: – O necə təmsildir?

Təmsil. Deyirlər ki, bir tülkü bir meşə ilə gedirmiş, görür ki, bir ağacın dibinə bir təbil düşüb. Külək əsdikcə ağacın budaqları təbilə dəyir və təbildən dəhşətli səslər çıxır. Tülkü təbilin səsinin yoğunluğunu və onun cüssəsinin böyüklüyünü gördükdə ağzı sulandı və elə bildi ki, təbilin əti də səsinə uyğun olacaqdır. Çox əlləşdikdən sonra təbili yırtmağa müvəffəq oldu. Lakin quru dəridən başqa bir şey tapmadı. Peşmançılıq atını minərək hər tərəfə çapır və deyirdi:

– Bilmirdim ki, bədəni böyük, səsi yoğun olanın içi boş olarmış!

Dimnə sözünə davam edərək dedi:

– Mən bu məsəli ona görə gətirdim ki, şah yalnız bu səsə görə narahat olmasın. Əgər şah mənə icazə versə, gedib onun kim olduğunu öyrənər və gəlib həqiqəti şaha bildirərəm.

Bu söz şirin xoşuna gəldi. Dimnə yerindən sıçrayıb şahın əmri ilə yola düzəldi. Dimnə gözdən itdikdən sonra şah fikrə getdi, Dimnəni göndərməsindən peşman oldu. Öz-özünə dedi: «Bu işə razı olmaqda və bu fikri bəyənməkdə doğru iş

görmədim, çünki padşahlar sarayında günahsız olaraq zülm görmüş, uzun müddət ağır və əziyyətli həyat keçirmiş, ya dövlət və hörmətini əldən vermiş, ya vəzifədən qovulmuş, ya acgözlülük və fitnəkarlıqda şöhrət tapmış, ya xeyirli işlərdən kənarda qalmış, yoldaşlarının əfv edildiyini, özünün isə həbsdə saxlandığını görmüş, ya eyni günah üstə yoldaşlarına nisbətən daha ağır cəzalanmış, ya eyni xidmət müqabilində yoldaşlarından daha az mükafat almış, ya düşmənin onunla rəqabət apararaq üstün gəldiyinin və mənsəbə çatdığının şahidi olmuş bir adamı, ya din və əqidədə möhkəm olmayan, ya padşahın ziyanına olan işlərdə özünə xeyir axtaran, ya düşmənin xahişini qəbul edən bir xidmətçini uzun müddət imtahan edib sınaqdan keçirmədən düşmən yanına göndərmək və ona sirr verməkdə şah tələsməməlidir. Bu Dimnə çoxbilmiş və uzaqgörəndir. O, uzun müddət mənim qapımda əziyyət çəkmiş, lakin mükafat görməmişdir. əgər onun qəlbində kin-küdurət varsa, mənə xəyanət edib qisas almaq fikrinə düşə bilər. Ola bilər, o, düşməni həm gücdə, həm bədəndə məndən üstün görüb, onun tərəfinə keçməyə meyl göstərsin və bildiyi sirləri ona versin».

Şir bu fikirlər içində həyəcan keçirir, gah durur, gah oturur, gah var-gəl edir və gözünü Dimnə gedən tərəfdən çəkmirdi. Birdən Dimnənin gəldiyini uzaqdan gördü, ürəyi bir az sakitləşdi və qayıdıb öz yerində oturdu, Dimnə gəlib çatdıqda şir soruşdu:

– Nə etdin?

Dimnə dedi:

– Bir öküz gördüm ki, böyürür, şahı narahat edən də həmin səs idi.

Şah soruşdu: – O, çox güclüdürmü?

Dimnə dedi: – Mən onda elə bir təkəbbür və qürur görmədim ki, onun güclü olmasına dəlalət etsin. Elə ki, ona yaxınlaşdım, bir dost və tay-tuş kimi onunla danışmağa başladım. O, mənə heç bir şey etmədi, mənə elə gəldi ki, onun təbiətində əzəmət və təvazökarlıqdan daha çox tamahkarlıq vardır. Ürəyimdə də qorxu hiss etmədiyim üçün ona daha artıq hörmət etməyi lazım bilmədim.

Şir dedi: – Hələ bu, onun gücsüzlüyünü göstərmir və ona görə də özünü aldatmaq olmaz, çünki qüvvətli fırtınalar yoğun ağacları kökündən qopardıqları, möhkəm binaları, uca qalaları və qalın barıları dağıtdıqları halda, balaca və nazik otlara toxunmazlar. Böyük adamların və vəzifə sahiblərinin özünə tabe olanları və aşağı vəzifəliləri cəzalandırmağa vicdanı da yol vermir. Düşmən alicənab və kəramət sahibi olmazsa, heç kəs onun güclü və şən-şövkətli olduğunu qəbul etməz, hər kəslə öz gücünə və öz mövqeyinə görə rəftar etmək lazımdır. Mürüvvət sahibləri bilirlər ki:

Çəyirtkəyə hücum eyləməz qartal,
Şirin də şikarı deyildir çaqqal.

Dimnə dedi: – Şah bu işə o qədər də əhəmiyyət verməməlidir. Əgər buyursanız, mən gedib onu gətirərəm və o, şahın qulluğunda müti bir qul olar.

Şir bu sözü eşitcək sevindi və onu gətirməyi Dimnəyə əmr etdi. Dimnə Şətrəbanın yanına gedib onunla ürəklə, qorxu və tərəddüd hiss etmədən, amiranə bir şəkildə danışmağa başladı və dedi: – Məni şir göndərib ki, səni onun yanına aparam və söz verib ki, onun yanına tez getsən, indiyə qədər etdiyin bütün günahları bağışlayacaqdır. Özün bil, əmrə tabe olmayıb burada qalsan, o saat qayıdıb əhvalatı şirə nəql edəcəyəm.

Şətrəba dedi: – Axı, bu şir kimdir?

Dimnə dedi: – Yırtıcı və vəhşi heyvanların padşahıdır.

Elə ki, Şətrəba şir və yırtıcı vəhşi sözünü eşitdi, qorxudan canına titrətmə düşdü. Dimnəyə dedi: – Əgər mənə ürək verib səlamət qalmağıma əmin etsən, sənlə gedərəm. Dimnə ona ürək verib onun əmin-amanlıqda olacağına möhkəm and içdi. Hər ikisi şirin yanına yollandılar. Ora çatdıqda şir öküzü mehribanlıqla qarşıladı və onun bu yerlərə nə vaxt, nə üçün gəldiyini soruşdu. Öküz başına gələn əhvalatı danışdı. Şir əmr etdi ki, Şətrəba orada qalıb, şirin mərhəmət və kəraməti sayəsində naz və nemət içində yaşasın. Öküz öz razılıq və təşəkkürünü bildirdikdən sonra şirin xidmətində qaldı.

Şir Şətrəbanı əzizləyib haqqında həddindən artıq lütf və mərhəmət göstərdi, özünə yaxın olanlar sırasına çəkdi, şəxsən onun vəziyyəti ilə maraqlandı. Onu sınaqdan keçirib əql və kəmalını, iş və təcrübəsini bəyəndi, uzun götür-qoydan, məsləhət və məşvərətdən sonra ona etibarlı bir vəzifə tapşırıb özünə sirdaş etdi. Şir Şətrəbanın əxlaq və adətləri ilə daha yaxından tanış olduqca ona qarşı olan inamı artır, onun bilik, dərrakə və qanacağının daha artıq olduğuna inanır və günü-gündən vəzifəsini yüksəldərək hörmət və nüfuzunu, bəxşiş və ənamını artırırdı. İş gəlib o dərəcəyə çatdı ki, öküzün hörməti bütün qoşun nəfərlərindən və şaha yaxın olan bütün sərkərdələrdən çox oldu.

Dimnə şirin öküzə etdiyi bu böyük hörmət və kəraməti gördükdə, onun şirə bu qədər yaxın olduğunu və hər dəqiqə başqalarından seçilərək mənsəb və dərəcəsinin artdığını müşahidə etdikdə paxıllıq əli onun gözünə intiqam sürməsi çəkdi, qəzəb qılıncı onun qəlbində qisas atəşi alovlandırdı. Dimnənin gecəsi gündüz oldu, yuxusu göyə çəkildi. O, bir yerdə oturub rahat ola bilmirdi. Kəlilənin yanına şikayətə gedərək dedi: –

Qardaşım, mənim acizliyimə və xamlığıma bax ki, şirin işini düzəldib öz işimi korladım. Bu öküz şirin yanına gətirildikdən sonra hörmət və mənsəb sahibi oldu. Mən isə öz mövqe və vəzifəmdən bir az da aşağı düşdüm.

Kəlilə dedi: – Zahidin başına gələn əhvalat sənin də başına gəldi.

Dimnə dedi: – O necə əhvalatdır?

Əhvalat. Kəlilə dedi: – Belə nəql edirlər ki, bir padşah bir zahidə bahalı bir paltar və qiymətli bir xələt bağışlamışdı. Bir oğru bunu görərək tamahı düşdü, zahidin yanına gələrək dedi ki, mən sənin yanında qalıb təriqət qayda-qanunlarını öyrənmək istəyirəm. Zahid razı oldu. Oğru zahidlə dostlaşaraq bir yerdə yaşamağa başladı, ona çoxlu hörmət etdi və fürsət tapcaq paltarı götürüb qaçdı. Zahid paltarın yox olduğunu gördükdə kim tərəfindən oğurlandığını bildi, onu axtarmaq üçün şəhərə yollandı. Yolda gördü iki dağ keçisi bir-birilə o qədər vuruşmuş ki, hər ikisinin buynuzundan qan axır. Bu zaman bir tülkü gəlib onların buynuzundakı qanı yalamağa başladı. Dağ keçiləri qəflətən buynuzlaşıb tülkünü öldürdülər.

Zahid axşam çağı şəhərə çatdı, gecələmək üçün yer axtarmağa başladı, nəhayət, əxlaqsız bir qadının evinə düşməli oldu. Bu qadın öz evində bir neçə qız saxlayırmış. Onlardan biri o qədər gözəl imiş ki, behişt huriləri onun paxıllığını çəkir, ay ondan işıq alır, günəş onun camalı qarşısında səcdə edirmiş. Bu könül açan, ətir saçan, məclis qızışdıran, şəhvət coşduran bir qız imiş. Şairlər belələri haqqında demişlər:

Camalın fələkdə bir çadır qursa,
Hər bürcdən təzə ay görünər, inan.
Əgər, yer altında lütfün tapsa yol,
Yüz Yusif qaldırar baş hər quyudan.

Qadınları həyəcana gətirən, kişilərdə qibtə doğuran uca boylu, incə belli, şirin dilli, polad qollu, qəlbi odlu, təzə yetmə cavan bir oğlan o qıza aşiq olmuşdu və əlbəttə, başqa kişilərin ona yaxınlaşmasına yol vermirdi... Bu isə qadının həmin qızdan ala biləcəyi gəliri azaldır, qəzəbinə səbəb olurdu. Qızın bir gün oğlanla qaçaraq əldən çıxacağı arvadı yaman narahat edirdi. Ona görə arvad oğlanı öldürmək qərarına gəldi və bu barədə tədbir düşünməyə başladı. Arvad öz fikrini həyata keçirmək istədiyi gecə zahid gəlib bura çıxmışdı. Arvad həmin qızla oğlana o qədər şərab içirtmişdi ki, onlar məst olaraq özlərindən getmişdilər. Elə ki, onların hər ikisi bərk yuxuya getdi, qadın içi boş bir qamış götürüb bir başına bir qədər zəhər qoydu və dal tərəfdən oğlana keçirdi, o biri başını ağzına qoyub istədi zəhəri oğlanın içərisinə üfləsin, elə bu zaman qəflətən oğlandan yel hasil oldu, böyük zərbə ilə zəhəri qadının qarnına doldurdu və dərhal onu öldürdü...

Bunu görən zahid səhər, günəş öz nurilə dünyanı işıqlandıranda, o fəsad ocağından qaçaraq başqa yer axtarmağa başladı. Bir başmaqçının zahidə yazığı gəldi. Onu evinə apararaq arvadına tapşırdı ki, zahidə yaxşı hörmət etsin və özü dostlarından birinin qonaqlığına getdi. Demə, arvadın oynaşı var imiş və bir dəllək arvadı onların arasında vasitəçi imiş. Başmaqçı arvadı o saat dəlləyin arvadı vasitəsi ilə oynaşına xəbər göndərdi ki, ərim toya gedib, tez gəl, lakin elə gəl ki, bir mən bilim, bir də sən. Axşam olcaq oynaş gəlib qapının ağzında hazır oldu. Bu zaman arvadın əri qonaqlıqdan qayıdıb onu qapı ağzında gördü. Əvvəllər də ondan şübhələndiyindən arvadı möhkəm döyərək evdəki sütuna bağladı və özü yatdı. Elə ki, gecə yarı oldu, ara sakitləşdi, dəlləyin arvadı gələrək dedi: – Nə üçün oynaşını bu qədər gözləməyə məcbur edirsən,

istəmirsən, de getsin. Başmaqçının arvadı dedi: – Bacım, əgər rəhmin gəlirsə, məni aç və icazə ver, səni öz yerimə bağlayım. Dostumla görüşüb üzr istəyim və tez qayıdım. Hər nə istəsən verərəm. Dəlləyin arvadı razı oldu. Başmaqçı arvadı onu sütuna bağlayaraq oynaşının yanına getdi. Bu zaman başmaqçı ayılaraq arvadını səslədi, lakin dəlləyin arvadı tanınmasından qorxaraq cınqırını belə çıxarmadı. Başmaqçı yenidən çağırdı, dəlləyin arvadı yenə səsini çıxarmadı. Başmaqçının hirs başına vurdu, qəzəblənərək yerindən qalxdı, dəlləyin arvadının burnunu kəsərək ovcuna qoydu və dedi: – Öz aşiqinə töhfə göndər.

Başmaqçının arvadı qayıdıb öz bacılığını burnukəsik gördükdə kədərləndi, çoxlu üzr istədi və onu açaraq yenə də özünü sütuna bağladı, dəlləyin arvadı isə burnu kəsilmiş halda evlərinə qayıtdı. Zahid bütün bu hadisələri görür və edilən söhbətləri eşidirdi.

Bir saat keçdikdən və başmaqçının arvadı sakitləşdikdən sonra əllərini göyə qaldırıb dua etməyə və yalvarmağa başladı və dedi: – İlahi, sən ki bilirsən, ərim zülm edib iftira demişdir, sən onu öz fəzlinə bağışla və mənim burnumu özümə qaytar. Bunu eşidən başmaqçı dedi: – Ey ifritə, cadugər, bu nə sözdür danışırsan?

Arvad dedi: – Ey qəzəbli zalim, dur, sənin cövr və sitəminin qarşısında o böyük Allahın mərhəmətinə tamaşa et. Günahsız olduğum üçün Allah burnumu yerinə qaytarmış və xalq içərisində rüsvay edilməyimə razı olmamışdır. Kişi qalxıb çırağı yandırdı, sütunun qarşısına gəldi, arvadının burnunun yerində olduğunu gördü, o saat təqsirini boynuna alaraq üzr istəməyə başladı, tövbə edərək bağışlanmasını xahiş etdi. Bundan sonra belə işlər etməyəcəyinə, ağzıgöyçək, sözgəzdirən,

yalançı adamların iftirasına inanmayacağına və öz namuslu, duası müstəcab olan ismətli arvadını incitməyəcəyinə and içdi.

Dəlləyin burnu kəsilmiş arvadı isə evə qayıtdıqdan sonra fikrə getdi və başına gələn bu əhvalatdan təşvişə düşərək, qonum-qonşu, dost-aşna, qohum-qardaş arasına necə çıxacağı və ərinə nə cavab verəcəyi haqqında hiylə düşünməyə başladı. Bu zaman dəllək yuxudan ayılaraq arvadına dedi ki, tez bülöv-ülgücü hazırla, böyük bir adamın başını qırxmağa gedəcəyəm. Arvad bir az gözlədikdən sonra açıq bir ülgücü dəlləyin əlinə verdi, dəllək bundan qəzəblənərək qaranlıqda ülgücü arvada tərəf atdı. Arvad tez özünü yerə yıxaraq hayküy qopardı, ah və fəryad edərək zarıldadı və qışqırdı: «Vay burnum, vay, burnum!!» – Arvadını burunsuz görən dəllək təəccüb etdi, qonşuları isə toplanıb onu məzəmmətlədilər...

Sübh qaranlıq pərdəsini üzündən ataraq öz işıqlı camalı ilə dünyanı nura qərq etdiyi zaman arvadın qohum-qardaşı yığılıb dəlləyi qazinin yanına apardılar. Qazi dəlləyə dedi: – Bu günahsız və təqsirsiz qadını nə üçün bu günə salıbsan? Dəllək məəttəl qalaraq bəraət qazanmaq üçün heç bir söz tapıb deyə bilmədi və qazi onu cəzalandırmaq üçün hökm çıxardı. Bu zaman zahid yerindən qalxıb qaziyə dedi:

– Bu işdə ehtiyatlı olub bir az düşünmək və səbəbini tapmaq lazımdır. Çünki səbəb olmasaydı, oğru paltarı oğurlamazdı, dağ keçiləri tülkünü öldürməzdi, zəhər əxlaqsız qadını həlak etməzdi, dəllək, arvadının burnunu kəsməzdi. Bütün bu bəlaları biz özümüz öz başımıza gətirmişik.

Qazi əhvalatın necə olduğunu bilmək üçün dəlləkdən əl çəkib üzünü zahidə tərəf döndərdi. Zahid dedi:

– Əgər mən müridlərimin artması və mənə tabe olan adamların çoxalması həvəsinə düşməsəydim, oğrunun şirin di-

linə aldanmaz və onu öz evimə buraxmazdım, o da fürsət tapıb mənim paltarımı aparmazdı. Tülkü həris və tamahkar olmasaydı, qan içməkdən imtina etsəydi, dağ keçiləri onu öldürməzdi. Əxlaqsız qadın zəhərlə bir başqasının həyatına qəsd etməsəydi, öz şirin canını bada verməzdi. Başmaqçının arvadı ismətli olsaydı, kötək yeməzdi; dəlləyin arvadı yaramaz, layiqsiz işlərdə iştirak etməsəydi, burnu kəsilməzdi...

Kəlilə dedi: – Mən bunları ona görə söylədim ki, bilə-sən, sən bu bəlanı özün öz başına gətirdin və onun nəticəsinin nə olacağını nəzərə almadın.

Dimnə təsdiq edərək dedi: – Doğru deyirsən, bu işi mən etmişəm, lakin indi nə məsləhət görürsən?

Kəlilə dedi: – Sən nə fikirdəsən?

Dimnə dedi: – Mən o fikirdəyəm ki, incə hiylə işlətmək və ustalıqla tələ qurmaq yolu ilə bu işi düzəldim və hansı vasitə ilə olur-olsun çalışıb bu maneəni aradan qaldırım. Çünki yavaş tərpənib fürsəti əldən versəm, ariflər yanında xar olaram. Bundan əlavə, mən yeni vəzifə arxasınca qaçmıram və elə bir şey tələb etmirəm ki, məni acgöz və tamahkar adlandıralar. Bir neçə şey var ki, adamlar onları ələ keçirmək üçün hiylə işlədib, tədbir görməyi rəva bilərlər. O şeylər bunlardır: əldən çıxmış qazancı geri qaytarmaq və mövcud zərəri aradan qaldırmaq, mövcud qazancı əldə saxlayıb, gələcəkdə baş verə biləcək fəlakətin qarşısını almaq, xeyri yaxınlaşdırıb şərri uzaqlaşdırmaq.

Mən əvvəlki mövqeyə qayıtmaq və əvvəlki kimi rahat yaşamaq əzmində olduğumdan gərək elə bir kələk quram ki, öküz yer üzü ilə vidalaşıb yer altını özünə vətən etsin. Bu, həm mənim ürəyimi sakitləşdirər, həm də şirin xeyrinə olar. Çünki

şir öküzə etdiyi yaxşılıq və mərhəmətdə ifrata varmış, bu işdə ədalətsizlik göstərmişdir.

Kəlilə dedi: – Mən öküzün vəzifəsinin artırılmasında şirdə heç bir nöqsan görmürəm.

Dimnə dedi: – Onun şirə yaxınlaşdırılmasında ifrata yol verilib, başqa xeyirxahlar nəzərdən qaçırılıb. Ona görə hamı şahdan incimişdir.

Deyirlər ki, altı şey şahlığın qənimidir: məhrumiyyət, qiyam, düşgünlük, təbii fəlakət, tünd xasiyyətlilik və nadanlıq. Məhrumiyyət odur ki, xeyirxahları özündən uzaqlaşdırıb, əql və təcrübə sahiblərini vəzifə başından qovasan və beləliklə, sədaqətli və istedadlı adamlardan məhrum olasan. Qiyam – gözlənilməz üsyan, vuruşların başlanması deməkdir ki, bu zaman düşmən qılıncları öz qınından çıxarılmış olar. Düşgünlük – qadına, ova , keyfə, əyləncəyə, içkiyə və bu kimi şeylərə həddən artıq olan aludəçiliyə deyilir. Təbii fəlakət – yoluxucu xəstəlik, vəba, taun, quraqlıq, daşqın, yanğın və bu kimi şeylərdir. Tünd xasiyyətlilik – cəza, işgəncə verdikdə həddini aşmaqdır. Nadanlıq – dostluq etmək lazım olan yerdə düşmənçilik, yaxşılıq etmək lazım olan yerdə pislik etməkdir.

Kəlilə dedi: – Dediklərinin hamısını başa düşdüm, lakin sən öküzü necə öldürə bilərsən ki, onun gücü sənin gücündən artıq, dost və köməkçiləri isə sənindən çoxdur?

Dimnə dedi: – Sən buna əhəmiyyət vermə, çünki işlərin müvəffəqiyyəti bədənin qüvvətindən və köməkçilərin çoxluğundan asılı deyildir... Atalar yaxşı deyiblər ki, məsləhət və tədbirlə görülən işi qol gücü ilə görmək olmaz. Eşitmisənmi, bir qarğa hiylə ilə bir ilandan necə qisas alıbdır?

Kəlilə dedi: – O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Belə nəql edirlər ki, bir qarğa

bir dağdakı ağacda özünə ev tikmişdi, onun yaxınlığında bir ilan yuvası var idi. Qarğa balaladıqca ilan da onun balalarını yeyərdi. Qarğa nəsihət etmək üçün ilanın yanına gəlib dedi:

– Yadında saxla ki, belə məsəl var: «Zülm qılıncı işlədən həmin qılıncla da məhv olar!»

Kim sitəm qılıncı qaldırsa əgər,
Həmin qılıncla da məhv olub gedər.

Əlbəttə, qarğanın nəsihəti ilana təsir etmədi. İlan artıq həddini aşmış, qarğa isə çarəsiz qalmışdı, ona görə də öz dostu çaqqalın yanına gedərək dedi: – İstəyirəm, canımı bu zalımın əlindən xilas edəm.

Çaqqal soruşdu:

– Sən bu işi necə yerinə yetirmək istəyirsən?

Qarğa dedi:

– İstəyirəm, ilan yatanda onun gözlərini çıxaram. Bəlkə bundan sonra mənim gözlərimin işığı, ürəyimin parası əziz balalarım onun bəlasından xilas olalar.

Çaqqal dedi:

– Bu, əqilli tədbir deyil, əqilli adam düşmən haqqında elə tədbir görməlidir ki, özünə xətəri olmasın. Ayıq ol, balıq yeyən quş kimi eləmə ki, xərçəngi öldürmək istərkən öz əziz canını bada verdi.

Qarğa dedi: – O necə olmuşdur?

Rəvayət. Çaqqal dedi: – Bir balıq yeyən quş bir göl qırağında özünə yuva salmışdı. Ehtiyacı olduğu qədər balıq tutub yeyir və naz-nemət içərisində yaşayırdı. Elə ki, qocalıq gəlib çatdı, quş qüvvədən düşdü və artıq ova çıxa bilmədi, dedi:

– Əfsus, ömür tez keçdi və ondan təcrübədən başqa bir şey qalmadı ki, qocalıqda işə yarasın. İndi ki, qüvvədən düşmüşəm, gərək öz işlərimi tədbirlə görəm.

Sonra gedib qəmli halda gölün kənarında oturdu. Xərçəng uzaqdan onu görüb yaxına gəldi və soruşdu: – Nə olub, səni qəmli görürəm?

Quş cavab verdi:

– Necə qəmli olmayım, ki, mən hər gün bir-iki balıq tutub yeyər və bununla dolanardım. Həm mənim güzəranım yaxşı keçərdi, həm də balıqlar azalmazdı. Bu gün burdan iki ovçu keçirdi, biri o birinə dedi: – Bu göldə balıq çoxdur, bunlara bir tədbir çəkməliyik. O biri dedi: – Yox, filan yerdə daha çoxdur, oradakıları tutub qurtaqdıqdan sonra bura gələrik.

Əgər iş belə olsa, gərək mən şirin canımdan əl çəkib, aclığa, bəlkə də ölümə razı olam.

Xərçəng gedib əhvalatı balıqlara danışdı. Balıqların hamısı balıq yeyənin yanına gəlib dedilər:

– Biz sənlə məsləhət etməyə gəlmişik, əgər düşmənin də yanına məsləhətə gəlsələr, gərək o bundan imtina etməsin. Xüsusilə, o zaman ki, bu məsləhət onun öz xeyrinə olsun. Sənin həyatın bizim yaşamağımızdan asılıdır. Sən bizə nə məsləhət görürsən?

Balıq yeyən dedi: – Ovçulara müqavimət göstərmək fayda verməz və mən bu barədə bir söz deyə bilmərəm. Lakin bu yaxınlıqda bir göl tanıyıram ki, onun suyu aşiqlərin göz yaşı kimi duru, füsunkarlığı isə sübh nəsimi qədər ürək açandır. Suyu o qədər təmizdir ki, dibindəki qum dənələrini saymaq olur; o qədər durudur ki, göydən balıq kürüləri görünür... Əgər ora köçə bilsəniz, əmin-amanlığa çıxıb, naz və nemət içərisində yaşayırsınız. Balıqlar dedilər: – Gözəl məsləhətdir, lakin sənin köməyin olmadan biz ora necə köçə bilərik?

Balıq yeyən dedi: – Hərçənd bu çox vaxt tələb edir,

lakin mən müzayiqə etmirəm. Ancaq tələsmək lazımdır, ovçular hər saat gəlib çata bilər və biz fürsəti əldən verə bilərik.

Balıqlar çox yalvarıb-yaxardıqdan sonra nəhayət, balıq-yeyən belə qərara gəldi ki, hər gün onlardan bir neçə balıq götürüb aparsın və o yaxınlıqda olan təpənin üstə yesin, elə də etməyə başladı. Qalan balıqlar bir-birinə qibtə edir və daha tez köçmək üçün özlərini qabağa salmağa çalışırdılar. Balıq yeyən isə ibrət gözü ilə onların sadəlövhlüyünə baxır və öz-özünə deyirdi: – Düşmənin yağlı dilinə inanıb bədcinslərə etibar edənlərin cəzası belə olar.

Bir müddət keçdikdən sonra xərçəng də köçmək istədi. Balıq yeyən onu dalına alıb balıqların məzarı olan həmin təpəyə tərəf üz qoydu. Xərçəng uzaqdan çoxlu balıq sümüyü gördükdə işin nə yerdə olduğunu anladı və öz-özünə dedi:

– Ağıllı adam təhlükəli vaxt düşmən qəsdinə qarşı sakit otursa, öz canına qəsd etmiş olar. Hücuma keçib qalib gələrsə, şöhrət qazanar, əksinə, məğlub olarsa, igidlik və qəhrəmanlığı tərifənər və onun bu şərəfli ölümü haqq qazanmış olar. Bunu dedikdən sonra özünü balıq yeyənin boynuna atıb onun boğazından yapışdı və elə bərk sıxdı ki, o, huşunu itirib aşağı enməyə başladı və yerə çatdıqda o saat canı çıxdı. Xərçəng baş götürüb qalan balıqların yanına gəldi, diri qaldıqları üçün onları təbrik etdi, öldürülmüş yoldaşları haqqında başsağlığı verdi və əhvalatı danışdı. Hamısı sevindilər. Balıq yeyənin ölümünü yeni həyat hesab etdilər...

Bircə gün düşməndən sonraya qalmaq,
Yenə də çox uzun ömürdür, bil sən!
Ölümdən qurtarıb bir nəfəs almaq,
Xoşdur, yetmiş, həştad illik ömürdən.

Bu rəvayəti ona görə sənə dedim ki, bir çox adamların

öz hiylə və kələkləri üzündən həlak olduqlarını biləsən. Lakin mən sənə bir yol göstərərəm, əgər elə etsən, özün səlamət qalarsan, ilan isə məhv olar.

Qarğa dedi: – Dostların məsləhətlərinə və ağıllı adamların göstərişlərinə xor baxmaq olmaz.

Çaqqal dedi:

– Havaya uçub damlara, həyətlərə, küçələrə nəzər sal, harada qapıb qaçırmaq mümkün olan qiymətli şey görsən, o saat enib onu götür və havaya qalx, lakin elə uç ki, həmişə adamlar səni görüb dalınca gələ bilsinlər. Elə ki, ilanın olduğu yerə çatdın, onu sal ora. Adamlar əvvəl ilanı öldürüb sənin canını xilas edər, sonra isə qiymətli şeylərini götürüb gedərlər.

Qarğa uçub bir yaşayış məntəqəsinə doğru getdi, gördü ki, bir qadın mirvari boyunbağısını damın qırağına qoyub əlüzünü yuyur. O saat enib boyunbağını götürdü və çaqqalın dediyi kimi gətirib ilanın olduğu yerə saldı, qarğanın arxasınca düşən adamlar o saat ilanı görüb öldürdülər, mirvari boyunbağını götürüb getdilər. Qarğanı ilanın şərrindən xilas etdilər.

Dimnə dedi: – Bu məsəli ona görə gətirdim ki, biləsən, güclə mümkün olmayan şeyləri hiylə ilə yerinə yetirmək olar.

Kəlilə dedi: – Öküzün gücü, qüvvəti onun əql və kəmalı ilə birləşmişdir. Sən onu necə aldada bilərsən?

Dimnə dedi: – Doğru deyirsən, lakin öküz mənə inanır və məndən arxayındır. Mən onu aldada bilərəm, çünki inanılmış adamın qurduğu tələ böyük olar və ona tez düşərlər, necə ki, şir dovşanın tələsinə düşüb həlak oldu.

Kəlilə dedi: – O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Belə nəql edirlər ki, gözəl bir meşə varmış. Onun nəsimi behiştə ətir verərmiş, camalının əksi səmanı işıqlandırarmış, hər budağında min ulduz parılda-

yar, hər ulduzu min fələyi heyran qoyarmış... Sanki bulud göydən bu meşəyə yaqut və zümrüd tökmüş, sübhün nəsimi isə onların üzərinə qızıl və gümüş səpmişdi. Göyün göz yaşı, yerin nəfəsi bu meşəni behiştə çevirmişdi. Ona görə buradakı vəhşi heyvanlar yemək, içməkdə korluq çəkmir, naz-nemət içərisində dolanırdılar. Lakin yaxınlıqda olan şirin verdiyi əziyyət oradakı əmin-amanlığı pozur, o naz-neməti onlara haram edirdi. Vəhşi heyvanlar bir gün yığışıb şirin yanına getdilər və ona dedilər ki, sən hər gün böyük zəhmət çəkdikdən və özünə əziyyət verdikdən sonra bizlərdən birini ovlayıb yeyirsən. Sən həmişə narahatlıq, biz isə qorxu və tələş içərisində yaşayırıq. Biz elə bir şey fikirləşib tapmışıq ki, həm sən zəhmət çəkməyəsən, həm də biz rahat yaşayaq. Əgər sən bizə hücum etməkdən əl çəksən, biz söz veririk ki, hər gün yemək vaxtı şahın mətbəxinə bir ov göndərək. Şir razı oldu və bir müddət iş belə davam etdi. Bir gün növbə gəlib dovşana çatdı. Dovşan yoldaşlarına dedi: – Əgər məni göndərməkdə tələsməsəniz, sizi bu qaniçici qəddar zülmkarın əlindən həmişəlik xilas edərəm. Heyvanlar dedilər: – Bizim etirazımız yoxdur. Dovşan o qədər gözlədi ki, şirin yeməyinin vaxtından xeyli keçdi, sonra yola düşüb yavaş-yavaş şirə tərəf getməyə başladı. Gördü şirin qanı qaralıb, aclıq onu özündən çıxarmış, qəzəbindən gözləri qızarmış, ağzının suyu qurumuş, heyvanlar əhdə vəfa etmədikləri üçün hücuma hazırlaşmışdır. Dovşanı görcək nərə çəkib dedi:

– Haradan gəlirsən, heyvanlar nə qayırırlar?!

Dovşan dedi: – Padşah sağ olsun, mənimlə birlikdə bir dovşan da sizə göndərmişdilər, yolda bir şir tutub aldı, nə qədər dedim ki, bu, padşahın yeməyidir, padşah üçün göndərilib, qulaq asmadı. Onu incitməyə başlayıb, dedi ki, bura mənim ovlağımdır və ona görə də buradakı ovlar birinci mənə

çatar, çünki mən həm gücdə, həm də şən-şövkətdə ondan artığam. Mən tələsik gəldim ki, şaha xəbər verəm.

Şir yerindən qalxıb dedi: – Onu mənə göstər. Dovşan qabağa düşüb, şiri bir quyunun başına gətirdi. Quyunun suyu o qədər təmiz idi ki, ayna kimi hər şeyi dumduru göstərirdi... Dovşan dedi ki, bu quyudadır, lakin mən ondan qorxuram. Əgər şah məni qucağına alsa, mən düşməni ona göstərə bilərəm. Şir onu qucağına alaraq quyuya baxdı, orada özünə oxşar bir şir gördü ki, onun da qucağında bir dovşan var idi. Dovşanı yerə qoyub özünü quyuya atdı və oradaca boğulub öldü.

Dovşan səlamət geri qayıtdı. Heyvanlar əhvalatı soruşdular.

Dovşan dedi: – Qarunun dövləti torpağa batan kimi şir də suya batıb məhv oldu. Hamı şadlıq atına minib meşəlikdə arxayın-arxayın o tərəf-bu tərəfə çapmağa başladı...

Kəlilə dedi: – Əgər şirə ziyan vurmadan öküzü öldürə bilsən, o zaman bu işi başlamağına dəyər və fikirləşib buna yol tapmaq olar. Yox, əgər nəzərdə tutduğun ziyanı öküzə vurmaq mümkün olmayacaqsa, amandır, bu işə başlama; çünki heç bir ağıllı adam öz şəxsi mənafeyi üçün ağasının inciməsinə razı olmaz.

Bununla onların söhbəti qurtardı və Dimnə bir neçə gün şirin görüşünə getmədi. Bir gün şirin yanına heç kəsin olmadığını görüb ona yaxınlaşdı.

Şir dedi: – Xeyir ola, bir neçə gündür görünmürsən?

Dimnə ayağa duraraq dedi: – Xeyirdir.

Şir soruşdu: – Bir hadisəmi baş vermişdir?

Dimnə dedi: – Bəli.

Şir dedi: – De görüm nə olub?

Dimnə dedi: – Başın ayıq və heç kəs olmayan vaxt desəm yaxşıdır.

Şir dedi: – İndi əsl vaxtdır, nə qədər tez desən, o qədər məsləhətdir. Çünki vacib məsələləri təxirə salmaq olmaz, xoşbəxt ağıllılar bu günün işini sabaha qoymazlar.

Dimnə dedi: – Hökmdarın xoşuna gəlməyən sözlər deməyə və nəsihət verməyə hər adam cəsarət etməz. Lakin hökmdarın ağlı kamildirsə, xüsusilə, əgər deyilən sözlər yalnız hökmdarın xeyrinədirsə və söyləyənin burada yalnız öz borcunu yerinə yetirib yaxşılıq etməkdən başqa heç bir məqsədi yoxsa, o, bu sözü deməli və hökmdar da ona qulaq asmağı bacarmalıdır. Əgər söz deyilib qurtardıqdan sonra söz söyləyən səlamət qalarsa, bu, onun üçün ən böyük mükafat və ya ən şöhrətli qələbə olar. Bir də bu sözləri ona görə demək olar ki, padşah ağıl və kamalda başqalarından çox-çox üstündür. Ona görə də o, deyiləcək sözlərə şahlara məxsus bir təmkinlə qulaq asa bilər. Bir də aydın məsələdir ki, mənim deyəcəyim sözlər yalnız məhəbbət və sədaqət xatirinə deyilir, orada yalan və riyakarlıq ola bilməz. Atalar deyiblər ki, bələdçi öz ağalarına yalan deməz. Məlumdur ki, bütün vəhşi heyvanların yaşaması sizin həyatınızdan asılıdır. Ağıllı və nəcib adamlar öz borclarını yerinə yetirib bildiklərini şaha deməsələr, xəstəliklərini həkimdən gizlətsələr, təhlükə və bədbəxtliyin yaxınlaşdığını dostlara xəbər verməsələr, özünə xəyanət etmiş olarlar.

Şir dedi: – Sənin səmimi və sədaqətli olduğun məlumdur. Sənin etdiyin iş də bunu sübut edir. Təzə nə bilibsənsə de ki, sənin səmimiyyət və sədaqətin bir daha özünü göstərsin və onu şübhə altına almağa imkan qalmasın.

Dimnə dedi:

– Şətrəba ordu başçılarını yığıb onlarla gizlində söhbət

etmiş və hərəsinə bir növ vədə verərək demişdir: «Mən şiri imtahan edib sınaqdan çıxarmışam, onun güc və qüvvətinin dərəcəsini, ağıl və kamalının səviyyəsini öyrənmişəm, onların hər birində böyük bir nöqsan və zəiflik görmüşəm».

Şahım, siz isə o nankor və vicdansız haqqında həddindən artıq mərhəmət göstərmiş, hörmət və nüfuzda onu özünüzə bərabər, şahlara layiq səviyyəyə qaldırmışsınız. Ciddi məsələləri həll etmək, əmr verib qadağan etməkdə, çətin düyünləri açıb hökm verməkdə ona o qədər böyük imkan yaratdınız ki, fitnə divi onun qəlbinə toxum saldı. Şahlıq eşqi onun başında üsyan arzusu əmələ gətirdi. Ağıllı adamlar deyiblər, elə ki, padşah xidmətçilərindən birini şən və şövkətdə, mal, dövlət və nüfuzda özünə bərabər gördü, gərək o saat onu aradan qaldırsın. Yoxsa, özü məhv olar. Nə kimi tədbir görmək lazım olduğunu şah özü hamıdan yaxşı bilir. Lakin mənə elə gəlir ki, öküzün məsələsini təxirə salmaq və fürsəti əldən vermək olmaz. Çünki iş elə yerə çata bilər ki, tədbir görmək fayda verməz: Atalar deyiblər ki, insanlar iki növdür: ayıq və xam. Ayıq adamlar da iki növdür: Onlardan biri təhlükə baş verməmişdən əvvəl onun nəticəsini bilər, başqalarının sonra başa düşə biləcəklərini o, işin başlanğıcında düzgün təyin edər və axırda lazım olacaq tədbiri əvvəlcədən görər.

Hadisə baş verdikdən sonra huşiyar adamla avam adamın vəziyyəti bir olar...

Düşmənin hər gizli fikrini görər,
Oğrun bir baxışla ağlının gözü.
Bircə an düşünsən, zehnin kəşf edər,
Sirlər pərdəsilə bürünmüş sözü.

Ağıllı adamlar öz işlərinə belə yanaşdıqda həmişə ayıq

olar, hadisələrin cilovunu öz əlində saxlar, təhlükəli girdaba düşməzdən əvvəl özünü sahilə çatdırar...

Düşmənin var isə yuxlama bir an,
Oğruya çıraqdır yatsa pasiban.

İkinci, ayıq adam ona deyərlər ki, fəlakət baş verdikdə özünü itirməsin, dəhşət və qorxuya düşməyib vəziyyətdən qurtarmaq üçün yol tapa bilsin. Xam və aciz adama gəldikdə isə o, mütərəddid, cəsarətsiz, tez-tez fikrini dəyişən olar; bir hadisə baş verdikdə özünü itirib əl-ayağa düşər. Xoşbəxtlik, səadət əldə etmək bacarığından məhrum olduğundan ah və nalə edə-edə özünü ora-bura vurar. Üç balıq hekayəsində olduğu kimi çırpına-çırpına məhv olub gedər.

Şir soruşdu:

– O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Belə nəql edirlər ki, uzaq və əl çatmayan bir yerdə bir göl var idi. Burada üç balıq yaşayırdı. Bunlardan ikisi ayıq və təcrübəli, birisi isə xam və təcrübəsiz idi. Təsadüfən bir gün iki ovçu oradan keçirdi. Bir-birinə vədə verdilər ki, gəlib hər üçünü tutsunlar. Balıqlar bu sözü eşitdilər. O balıq ki, çox ayıq idi və dəfələrlə zalım zəmanənin zülmünü və qəddar fələyin vəfasızlığını görmüş, ağıl və təcrübə sahibi olmuşdu, o saat işin nə yerdə olduğunu başa düşdü və dərhal su gələn tərəfdən xaricə çıxdı. Bu zaman ovçular gəlib gölü suyun gəldiyi və çıxdığı hər iki tərəfdən möhkəm bağladılar. Birinciyə nisbətən təcrübəsiz, lakin ağıl və kamaldan, təcrübə və düşüncədən məhrum olmayan ikinci balıq vəziyyəti belə gördükdə dedi: – Fürsəti əldən verdim, qafillərin işinin axırı elə belə olar. İndi artıq tədbir və hiylə vaxtıdır. Hərçənd fəlakət baş verdikdən sonra görülən tədbir böyük fayda verməz və bəla vaxtı ağıl və kamalın səmərəsindən o qədər də mənfəət

götürmək olmaz. Lakin buna baxmayaraq ağlı olan biliyin verə biləcəyi xeyirdən ümidini kəsməməli və düşmənin hiyləsini dəf etməkdə təxirə yol verməməlidir. Mərd adamların iradə, ağıllı adamların hiylə işlətmək yeridir. Bunu dedikdən sonra özünü ölülüyə vurub suyun üzərinə qalxdı. Ovçular elə bildilər ölüb, qırağa atdılar. O sürünərək özünü çaya saldı və beləliklə, canını qurtardı.

Aciz və həyati təcrübəsi olmayan üçüncü xam balıq özünü itirmiş, hövlnak bir halda çırpına-çırpına gah sağa, gah sola üzdü, gah suyun altına batdı, gah üzə çıxdı, nəhayət, ovçuların toruna düşdü.

Bu misalı ona görə gətirdim ki, şah Şətrəba haqqında təcili tədbir görsün. Xoşbəxt şah ona deyiblər ki, əldə fürsət var ikən, qüdrət sarsılmamışkən düşmən haqda ölçü götürsün, iti qılıncla onun kökünü kəssin. Şahın dünyanı işıqlandıran kamalının alovları düşmən evinin tüstülərini göylərə qaldırsın.

Şir dedi: – Məsələ aydındır, lakin güman etmirəm ki, Şətrəba ona edilmiş bu qədər yaxşılıqdan sonra xəyanət etmək fikrinə düşə və xeyirxahlığa qarşı pisliyi rəva görə, çünki Şətrəba haqqında indiyə qədər yaxşılıqdan başqa heç bir şey edilməmişdir.

Dimnə dedi: – Doğru buyurursunuz, elə padşahın göstərdiyi böyük mərhəmət onu gətirib bu fikrə çıxarmışdır... Xain və bədcins adamlar arzu etdikləri vəzifəni alana qədər səmimi və sədaqətli olurlar, elə ki, bu vəzifəni aldılar, layiq olmadıqları daha yüksək vəzifələr xəyalına düşər və bunun üçün hiylə və xəyanətə əl atarlar. Nacins və rəzil adamların xidmət və məsləhətləri ümid və qorxuya görə olur. Elə ki, arxayınlaşdı və məqsədinə çatdı, su bulandırmağa, şər atəşini alovlandırmağa başlar. Deyiblər ki, padşah öz xidmətçilərini

mərhəmət və kəramətdən o qədər məhrum etməməlidir ki, birdəfəlik ümidini kəsib düşmən tərəfinə keçsin və o qədər də çox nemət və dövlət verməməlidir ki, varlanıb pis-pis fikirlərə düşüb allahlıq iddiası etsinlər. Elə etmək lazımdır ki, onlar xof ilə rica, qorxu ilə ümid arasında yaşasınlar: nə ümidsizlik onlara üstün gəlsin, nə qudurğanlıq həvəsinə düşsünlər... Padşah bilməlidir ki, əyri adamdan düzgünlük ummaq olmaz. Yolunu azmış adamı cəza və mükafatla doğru yola qaytarmaq hər dəfə mümkün olan şey deyil... Əqrəbin və itin quyruğunu nə qədər çox bağlı saxlayıb onu düzəltməyə çalışsalar, açan kimi o saat əvvəlki vəziyyətinə qayıdar və heç bir vəchlə onu öz təbiətindən döndərmək mümkün olmaz. Hər kəs öz dostlarının verdiyi nəsihətə qulaq asmasa (bu nəsihətlər acı və ağır olsa da), onun işinin sonu peşmançılıq olar. Necə ki, həkimin verdiyi dərmanlara əhəmiyyət verməyib, öz arzu etdiyi xörəklərdən yeyən və içkilərdən içən xəstələrin hər dəqiqə səhhəti ağırlaşar, mərəzləri gec sağalar... Şahın xidmətçiləri onlara göstərilən nemət və mərhəmət qarşısında bildiklərini şahlara deməyə məcburdurlar. Şahların da bunu tələb etməyə haqları vardır. Xidmətçilərin ən sadiqi odur ki, xeyirli xəbərləri şaha çatdırmaqda xüsusi səy göstərə və heç bir şeyi gizlətməyə. İşlərin ən yaxşısı odur ki, başlanğıcı xoş, sonu xeyirli olsun və hamı tərəfindən təriflənsin. Təriflərin ən çox ürəyə yatanı odur ki, böyük və adlı-sanlı adamlar tərəfindən edilsin. Dostların ən xoşa gələni odur ki, höcət olmaya və hər işdə yaxından kömək edə. Xasiyyətin ən bəyənilmişi odur ki, həlim və təmiz ola. İnsanların ən dövlətlisi odur ki, acgöz və həris olmaya. Adamların ən kamili odur ki, dövlətdən qürrələnib yoxsulluqdan ruh düşgünlüyünə qapılmaya...

Yatağı oddan, balıncı ilandan olan adamın yuxusu şirin

ola bilməz. İnsan idrakının kamilliyi və ağlının çoxluq əlaməti odur ki, dostlardan biri düşmənçilik etdikdə və ya xidmətçilərdən biri qudurğanlıq etmək fikrinə düşdükdə dərhal tədbir görə, o, fürsət tapıb ziyan yetirməmiş onları aradan qaldıra. Çünki düşmənə möhlət verdikcə qüvvətlənər, vaxt verdikcə güclənər...

Düşmənlərin qarışqaydı, indi dönmüş ilana,
İlan olmuş qarışqaya aman vermə bir daha.
Əldən versən bu fürsəti, zaman keçər, vaxt ötər,
Onda ilan dönüb olar dəhşətli bir əjdaha.

Padşahların ən acizi odur ki, işin əvvəlini, axırını düşünməyə, ölkənin vəziyyətini bərbad hala sala, böyük hadisələr baş verdikdə, çətinliklər qarşıya çıxdıqda vaxtında ağıllı tədbir görməyə. Fürsəti əldən verdikdən və düşmən qalib gəldikdən sonra öz yaxın adamlarını təqsirləndirib hərəsinə bir cəza verə...

Ölkə dolandırmağın şərtlərindən biri odur ki, düşmən baş qaldırıb qələbə çalmamış, onun qarşısı alınsın və işə əngəl törədən maneələr aradan qaldırılsın. Fəlakət baş verməmişdən əvvəl tədbir görülsün, xəyanət edib nifaq salmağa düşmən imkan tapmasın; qərarlar qocaların məsləhəti və cavanların razılığı ilə qəbul edilsin... Çünki sərvət – ticarətsiz, elm – mübahisəsiz, hakimiyyət – siyasətsiz ola bilməz.

Dövlətin bünövrəsi qılıncsız möhkəm olmaz,
Kim ki, dövlət istəyir, atmalı qılınca əl.
Xalqının başı üstən asılmasa bir qılınc,
O şahın tacü-təxti daim gəzər əlbəəl.

Torpağı qanla yoğurulmamış saraylar davamlı ola bilməz.

Zəmanə şahlığı verməz o ələ,
O əl qılınc vurub etməsə həmlə.

Şir dedi: – Sən çox dəhşətli və sərt sözlər danışdın. Lakin xeyirxah adamın sözlərinin sərtliyini bəhanə edib ona qulaq asmamaq doğru deyildir. Şətrəba düşmənçilik fikrinə düşsə, onun nələr edə biləcəyi, nə fəsadlar törədə biləcəyi məni qorxuda bilməz. Çünki o mənim təamımdır. Onun yemi otdur, mənim xörəyim ət. Bir də ki, mən ona aman vermişəm.

Şirə bata bilərmi, qorxusundan bir maral?
Kəklik dözə bilərmi hücuma keçsə qartal?..

Bundan əlavə, onunla mənim aramda haqq-salam, hörmət və inam vardır. Deyiblər ki, ağıllı adamlar inama xəyanət etməzlər. İndi mən nəyə əsasən Şətrəbaya qarşı xəyanət edə bilərəm. Halbuki mən məclislərdə dəfələrlə onu tərifləyib ondan razı olduğumu, onun ağıl və kamalından məmnun qaldığımı, ona aman verib əbədi olaraq bu vədə sadiq qalacağımı demişəm. İndi bu dediklərimin əksini etsəm, mən sözünün üstündə durmayan və tez-tez fikrini dəyişən bir adam kimi tanınaram. Bundan sonra heç kəs mənim verdiyim vədlərə ürəkdən inanmaz.

Dimnə dedi: – «Şətrəba mənim təamımdır» – deyə şah aldanmamalıdır. Şətrəba özü bir şey edə bilməsə də, ətrafına dost-aşna toplayıb hiylə və riyakarlıqla məqsədinə çata bilər. Mən qorxuram ki, bütün yırtıcı heyvanlar onun tərəfinə keçsinlər. Çünki Şətrəba onların qəlbində sənə ədavət, özünə rəğbət hissi oyatmışdır. Bunlardan əlavə, əgər Şətrəba başqalarını təhrik etməyib təkbaşına bu fikrə düşsə belə, yenə onun hicranı vüsalından yaxşıdır.

Dimnə o qədər belə şeylərdən danışdı ki, axırda şiri yoldan çıxardı.

Şir Dimnədən soruşdu: – Yaxşı, indi bu barədə fikrin nədir?

Dimnə dedi: – Çürük diş çıxarılmayınca ağrısı dayanmaz... Xörək həzm edilməyib ürəyi bulandırsa, qusub geri qaytarmayınca sancısı kəsilməz. Müdara, lütf və mərhəmətlə ələ gəlməyən, get-gedə dostluq əvəzinə daha çox düşmənçilik fikrinə düşən rəqib məhv edilməyincə, onun şərrindən qurtarmaq olmaz.

Şir dedi: – Şətrəbanın qonşuluğu artıq məni əsəbiləşdirir və mən onu görmək belə istəmirəm. Bir nəfər göndərəcəyəm, ona desin ki, hara istəyir, rədd olub getsin və bir daha gözümə görünməsin.

Dimnə bilirdi ki, bu söz Şətrəbanın qulağına çatsa, o dərhal özünə bəraət qazandırmaq üçün sübutlar gətirəcək, Dimnənin yalan danışıb hiylə işlətdiyinin üstünü açacaqdır. Ona görə tez şirə cavab verib dedi: – Ehtiyat igidin yaraşığıdır. Belə etmək məsləhət deyil. Çünki söz nə qədər ki, deyilməyib, onu həmişə demək olar, lakin deyilmiş sözü deyilməmiş etmək mümkün deyildir.

Deyilməmiş sözləri deyə bilərsən hər an,
Lakin deyilmiş sözü qaytara bilməz insan!

Ağız həbsxanasından çıxan sözü gizlətmək, kaman yayından xilas olmuş oxu qaytarmaq olmaz. Bir də ki, susmağın zəhm və əzəməti şahlar üçün nəfis bir bəzək, qiymətli bir libasdır. Atalar deyiblər ki, sirri öz ürəyinə də demə...

Bu sirri qəlbində elə gizlə ki,
Qəlb özü axtarsa, tapa bilməsin.

Bundan əlavə, Şətrəba bu xəbəri eşidib özünün ifşa edildiyini bildikdə həddini aşa bilər. Ordunu səfərbərliyə alar və ya hazır halda müharibəyə gələ bilər.

Əql və təcrübə sahibləri açıq günah üstündə gizlin cəza verməyi və əksinə, gizlin günah üstə açıq cəza verməyi məsləhət görməzlər.

Şir dedi: – Heç bir sübut olmadan, yalnız ehtimala əsasən yaxın adamları uzaqlaşdırmaq, onları məhv etmək üçün səy göstərmək, öz-özünə əzab vermək və öz kökünə balta vurmaq kimi bir şeydir. Padşahlar bütün işlərdə, xüsusilə mükafat və cəza verməkdə fikriləşib düşünməlidirlər.

Dimnə dedi: – Şahın buyurduğu doğrudur. Lakin bu qəddar hiyləgər gələnə qədər fürsəti əldən verməyib hazır və amadə olmaq lazımdır. Şətrəbaya diqqətlə baxılsa, onun xəbis fikirdə olduğunu murdar üzündən də müşahidə etmək olar. Çünki dost ilə düşmən arasında olan fərq, özünü baxışda, davranışda büruzə verər. Bunu ayıq və huşyar adamlardan gizlətmək o qədər də asan olmaz...

Olar sirri gözlərindən aşkar,
O gözlərdə düşmənçilik odu var.

O, xəyanətkarlıq fikrinə düşdükdə xarici əlamətləri belə olur: kefi pozulur, gözə təşvişli və narahat görünür, sağa-sola baxır, qabağa-dala buynuz vurur, elə bil, müharibə edib müqavimət göstərir.

Şir dedi: – Bu başqa məsələ. Əgər doğrudan da mən bu əlamətlərdən birini onda görsəm, o zaman bütün şübhələrim zayil olar.

Dimnə şirin bu sözlərini eşitdikdə öz kələyinin baş tutduğunu anladı və öküzü də yoldan çıxarmaq üçün onun yanına getmək qərarına gəldi. Lakin şirdə şübhə oyatmasın deyə, əvvəlcə ondan icazə almağı lazım bildi və şirə dedi:

– İcazə versəniz, Şətrəbanın yanına gedər, onun nə fikirdə olduğunu öyrənib sizə xəbər verərəm.

Şir icazə verdi.

Dimnə başını aşağı salaraq qəmli halda Şətrəbanın yanına gəldi. Şətrəba onu mehribanlıqla qarşılayaraq dedi:

– Bir neçə gündür ki, səni görmürəm, kefin necədir?

Dimnə dedi: – Bir adamın ki, ixtiyarı öz əlində deyil, başqalarının əmrinin əsiri ola, həmişə qorxu və iztirab içində yaşaya, bir dəqiqə də olsun, rahat nəfəs alıb ürək sözünü deyə bilməyə, onun kefi necə ola bilər?

Şətrəba dedi: – Nə olub ki?

Dimnə dedi: – Nə olacaq, heç nə! İnsanın alnına nə yazılıbsa, o da olacaq... Heç taleyindən qaçıb qurtaran adam görübsənmi? Görübsənmi ki, insan böyük mənsəbə çata, bu dünyanın şərbətini içə, lakin məst olmaya? Düşkünlüyə qapıla, lakin məhvə doğru sürüklənməyə? Qadınlar məclisində kef çəkə, lakin birinə bənd olmaya? Alçaq adamlara işi düşə, xar və zəlil olmaya? Fitnəkar adamlarla otura-dura, peşmançılıq çəkməyə? Padşahlarla dostluq edə, canını salamat qurtara?

Şətrəba dedi: – Sənin sözlərindən elə görünür ki, şirdən şübhələnib narahat olubsan.

Dimnə dedi: – Doğrudur, lakin öz haqqımda yox. Sənlə dost olduğumu, aramızda olan qədim dostluq əlaqələrini, şir məni ilk dəfə sənin yanına göndərərkən bağladığımız əhd və peymanları, mənim onlara necə sadiq qaldığımı, özün gözəl bilirsən. Ona görə, mən baş verə biləcək yaxşı, pis, xeyirli və zərərli hadisələri səndən gizlədə bilmərəm.

Şətrəba dedi: – Söylə görüm nə var, ey əhdinə vəfadar olan mənim əziz dostum!

Dimnə dedi: – Etibarlı bir adamdan eşitmişəm, deyirdi: «Şir ağzından qaçırıbdır ki, Şətrəba çox kökəlibdir, görəndə adamın ağzının suyu axır. Onun burada qalmasının da mənası

yoxdur. Ələ-ayağa dolaşmaqdan başqa bir işə yaramır. İstəyirəm, onun ətindən vəhşi heyvanlara bir qonaqlıq verəm». Şirin qaniçici və dediyini eyləyən olduğunu bildiyim üçün, bunu eşitcək tez sənin yanına gəldim ki, xəbər verəm və qardaşlıq borcumu yerinə yetirəm. Bununla da dostluq, vicdan, şərafət, mürüvvət və əhd-peyman şərtlərinə əməl etmiş olam.

Əhdinə gər vəfa eyləsə insan,
Hər şeydən yüksəkdir, öyləsə insan.

İndi bircə yol qalır ki, tez tədbir görüb, hiylə işlədib canını ölümdən xilas edəsən.

Şətrəba Dimnənin dediklərinə qulaq asdı, şirin verdiyi vədləri və içdiyi andları xatırladı, sonra şirin sözünün üstündə duran adam olduğunu gözünün qabağına gətirərək dedi: – Şirin mənə qəzəblənməsinə əsas yoxdur, çünki indiyə qədər məndən heç bir xəyanət baş verməmişdir. Lakin ola bilər ki, mənim haqqımda yalan sözlər danışıb onu yoldan çıxarsınlar, şir belə adamların böhtan və iftiralarına inanıb mənə acığı tutsun. Şirin xidmətində xain adamlar çoxdur və onların xəyanətkarlıqda xüsusi məharətləri vardır. Şir dəfələrlə belələrinin xəyanətlərinin şahidi olmuşdur. Ona görə də başqaları barəsində nə deyirlərsə inanır. Hər halda fitnəkar adamların böhtanları yaxşı adamlar haqqında şübhə yaradır və belə yalanlara inananlar axırda peşman olurlar. Necə ki, ördək peşman olmuşdu.

Rəvayət. Ayın işığını suda görən bir ördək onu balıq hesab edərək özünü suya vurur. Lakin heç bir şey tapmır. Bu hadisə bir neçə dəfə təkrar olunur. Nəhayət, ördək yorularaq bu işdən əl çəkir. Bir neçə gündən sonra həmin suda həqiqi balıqlar əmələ gəlməyə başlayır, lakin ördək hər dəfə balıq

gördükdə onu ay işığı hesab edib hücuma keçmir, bu yanlış təcrübə nəticəsində həmişə ac qalır.

Əgər şirə mənim haqqımda qərəzanə bir şey deyiblər və o buna inanıbsa, demək, o, başqa xəyanətlərin şahidi olduğu üçün buna inanmışdır və mənim ittiham edilməyimin səbəbi başqalarının xəyanətidir. Yox, belə bir şey yoxdursa və şir səbəbsiz olaraq mənə nifrət edirsə, bu, çox qəribə və təəccüblüdür. Əgər qəzəb və narazılığın səbəbi varsa, üzr istəmək və buraxılmış səhvi düzəltmək yolu ilə onu rəf etmək olar. Lakin böhtan və fitnəkarlıqla düzəlmiş işlər baş tutanda onu aradan qaldırmaq, həqiqəti meydana çıxarmaq çox çətin olur. Çünki yalan və iftiranın həddi-hüdudu olmaz, o, get-gedə artar, azalmaz.

Mən ha fikirləşirəm, şirlə mənim aramda narazılıq yarada biləcək heç bir şey yadıma sala bilmirəm. Doğrudur, gecə və gündüz bir yerdə olan, bir-birinin xeyrində-şərində, şad və qəmli günlərində iştirak edən iki dost nə qədər ehtiyatlı, ayıq, huşyar və təmkinli olsalar, yenə də onlardan birinin səhv buraxması mümkündür. Çünki səhvsiz insan ola bilməz. Qəsdən əhdi pozmaq istəmədikdə xırda və iri xətalara göz yummaq olar. Böyük adamların alicənablıq və səxavətlərinin gözəllik dərəcəsi, əfv edib bağışladıqları kiçik adamların günahlarının və xəyanətlərinin çirkinliyi ilə müəyyən edilir. Əgər mənim qüsurum varsa, bu da o ola bilər ki, mən hərdənbir, xeyirxahlıq naminə bəzən onun fikirlərinə müxalif çıxmışam. Bəlkə o, bunları kobudluq və hörmətsizlik hesab edib? Lakin mən verdiyim məsləhətlərdən heç eləsi olmayıb ki, ondan xeyir və mənfəət gəlməsin. Bununla belə, mən bu sözləri heç vaxt adam yanında deməmişəm və deyərkən elə etmişəm ki, onun qəlbinə toxunmasın, böyüklüyünə sədəmə dəyməsin. Hər nə

söyləmişəmsə, nökərin öz ağasına söylədiyi bir tərzdə söyləmişəm. Adamın ağlına batmır ki, məsləhət – xəyanət, xidmət – ədavət doğursun.

Dərmanlar xəstəni salırsa dərdə,
Bu xəstə yataqdan durarmı bir də?

Hər kəs məşvərət zamanı məsləhətçinin; müalicə vaxtı təbibin; şəri məsələlərdə müftinin sözünə baxmasa, düzgün rəyin faydasından, müalicənin xeyrindən, ibadətin savabından məhrum olar. Əgər bu deyilənlərin heç biri deyilsə, onda görünür ki, şiri bu fikrə salan səltənət düşgünlüyü və şahlıq sərməstliyidir. Şahların sərməstlik əlamətlərindən biri budur ki, xainlər onların gözünə sadiq adamlar simasında, sadiq adamlar isə xainlər qiyafəsində görünərlər. Elə buna görədir ki, alimlər deyiblər: «Dəryanın dibində nəhənglə oynamaq, quyruğu basılmış ilanın dodağını sormaq qorxuludur, lakin şahlarla yaxınlıq etmək ondan da qorxuludur...» Bəlkə, məndə olan istedad onun qəzəbinə səbəb olmuşdur. Çünki yaxşı atı gücünə və qaçışına görə cilovlayıb minərlər. Bar verən ağacın budağını meyvəsinə görə sındırarlar; tavus isə gözəlliyinə görə həmişə quyruğu yoluq, qanadı qırıq olur.

Biliyim başımın bəlası oldu,
Tavusun quyruğu, qanadı kimi.
Ceyranı məhv etdi göbəkdəki müşk,
Natiqlik kəsdirdi mənim dilimi...

Hünər sahibləri həmişə istedadı olmayan paxıl adamlar tərəfindən məhv edilər, alçaq və rəzil adamların nifrət və qəzəbinə səbəb olarlar. İstedadsız, paxıl, alçaq və rəzil adamlar istedadlı və alicənab adamlardan çox olduqlarına görə həmişə qalib gələrlər. Xəsis səxavətlini gördükdə, cahil alimlə bir məclisə düşdükdə, axmaq ağıllı ilə söhbət etdikdə ürəkləri sı-

xılıb qanları qaralar. İstedadsız adamlar hünər sahiblərini pisləməkdə o qədər ifrata vararlar ki, onların hətta oturuş və duruşlarını belə günah paltarına geyindirər, ona xəyanət və cinayət bəzəyi vurarlar. Beləliklə, səadət və xoşbəxtlik hesab edilən hünər və istedadı ədavət və bədbəxtliyə çevirərlər...

Söyləyirlər, hər yerdə, mənim çoxdur günahım,
Vallah hünərdən başqa mənim yoxdur günahım.

O bədxah bu fikrə düşübsə və fələk də bu işdə ona yar olacaqsa, onun qarşısını almaq, qızmış şiri zəncirləmək, gürzə ilanı tutmaq, uzaqgörən ağıllı adamları aldadıb xam salmaq, axmaq və sadəlövh adamları ayıq, igid və cəsur adamları – qorxaq, qorxaq və ağciyər adamları – cəsur, dövlətli adamları – yoxsul və yoxsulları dövlətli etməkdən daha çətindir.

Dimnə dedi: – Şirin bu qərarının səbəbi sənin saydıqların, guya, düşmənlərin təhrik etməsi, şahlıq sərsəmliyi və sairə deyildir. Sadəcə olaraq o güclü, müstəbid, qəddar, hiyləgər və xaindir. Belə adamlarla dostluğun əvvəli həyat kimi şirin, sonu ölüm kimi acı olar.

Şətrəba dedi: – Doğrudur, mənim də ürəyimə damıb ki, əcəl çəkib məni buraya gətirmişdir. Yoxsa mən hara, şirlə dostluq hara?! O, ət yeyir, mən ot. Mən onun xörəyiyəm, o mənim qənimim. Görünür, taleyim belə imiş... məni girdaba salan hərislik, cah və calal, şən və şövkət ümidi olmuşdur. İndi isə ondan xilas olmaq mümkün deyildir. Bal arısı neylufər gülünün rəngini görüb, iyini duycaq o saat onun üstünə qonub şirəsini sormağa və ətrindən zövq almağa başlar. Onun başı bu işə o qədər qarışar ki, vaxtında uçub getməyi belə unudur. Neylufər yavaş-yavaş öz yarpaqlarını yumar və bal arısı onun içərisində qalıb məhv olar. Öz qismətilə razılaşmayıb daha artıq şey tələb etmək fikrinə düşən adam, gözəl çəmənliklərdə

rəngarəng çiçəklərin ətri və yaşıl yarpaqlı ağacların meyvələrinə qane olmayıb, filin qulağına girən və onun qulağının bir hərəkətilə məhv edilən milçəyə bənzər. Qədr-qiymət bilməyən adama xidmət edib nəsihət vermək, şoranlıqda toxum əkmək, ölü ilə məşvərət etmək, anadangəlmə karın qulağına hikmət dərsi oxumaq, axan suyun üzərinə sirr yazmaq, hamamda çəkilmiş şəkillərlə eşqbazlıq etmək kimi bir şeydir.

Dimnə dedi: – Bu sözlərdən əl çək, başının çarəsini qıl:

Şətrəba dedi: – Mən nə edə bilərəm? Mən onu bilirəm ki, şir mənim haqqımda yaxşılıqdan başqa bir şey düşünməz, lakin ona yaxın olan adamlar məni həlak etmək istəyirlər. Əgər belə isə, çarə qılmaq çətin olacaqdır. Çünki hiyləgər və zalım adamlar əl-ələ verib birinin evini yıxmaq qərarına gəldikdə həmişə öz qəsdlərinə nail olar və onu məhv edərlər. Necə ki, canavar, qarğa və çaqqal əlbir olub dəvəni məhv etdilər. Dimnə soruşdu: – O necə olmuşdur?

Rəvayət. Öküz dedi: – Belə nəql edirlər ki, bir qarğa, bir canavar, bir çaqqal bir şirin qulluğunda xidmət edirdilər və onların məskəni bir karvan yolunun qırağında idi. Bir gün bir tacirin dəvəsi karvandan ayrılıb orada qaldı və yem tapmaq üçün meşəyə gəldi. Elə ki, şirin yanına çatdı, baş əyib xidmət etməkdən başqa çarəsi qalmadı. Şir də onu mehribanlıqla qarşılayaraq sorğu-sualdan sonra dedi: – İndi fikrin nədir? Getmək istəyirsən, yoxsa qalmaq? Dəvə dedi: – Şahın könlü necə istəyirsə.

Şir dedi:

– Meylin varsa, mənim yanımda qalıb rahat-farağat bolluq içərisində yaşaya bilərsən.

Dəvə bunu eşitcək, sevinib bir müddət o meşədə yaşadı.

Bir gün şir ov arxasınca gəzərkən bir məst filə rast

gəldi. Onların arasında şiddətli vuruşma başladı, hər iki tərəf ciddi müqavimət göstərdi. Şir yaralı halda inildəyə-inildəyə gəlib öz mağarasına girdi və bir neçə gün canının ağrısından şikara çıxa bilmədi. Canavar, qarğa və çaqqal da ac qaldılar. Bunu hiss edən şir onlara dedi: – Görünür, əziyyət çəkirsiniz, bu yaxınlarda bir ov tapın mən onu parçalayım, həm sizin işiniz düzəlsin, həm mənim. Onlar bir guşəyə çəkilib öz aralarında məsləhətləşməyə başladılar və bir-birinə dedilər: – Burada dəvə bizim aramızda artıqdır və heç bir faydası yoxdur, nə bizimlə dostluq edə bilir, nə də şirlə. Şiri məcbur etmək lazımdır ki, dəvəni parçalasın, həm özü yesin, həm də bizə bir şey düşsün. Çaqqal dedi: – Bunu etmək olmaz, çünki şir ona aman verərək öz qulluğunda saxlamışdır. Hər kəs padşahı xəyanətə təhrik edib verdiyi əhdi pozdurmağa çalışsa, dost-aşnalarını bəla toruna salar və bədbəxtliyi kəməndlə öz tərəfinə çəkmiş olar.

Qarğa dedi: – Elə dəlil gətirmək olar ki, şir öz əhdini pozmağa məcbur olsun. Mən qayıdana qədər siz öz yerinizdən tərpənməyin, mən bu saat gəlirəm.

Qarğa bu sözləri dedikdən sonra uçub şirin yanına gəldi və təzim edərək onun qarşısında durdu.

Şir soruşdu: – Bir şey tapdınızmı?

Qarğa dedi: – Acından heç kəsin gözü bir şey görmür, lakin bir məsələ var, əgər şah onu bəyənib razılıq versə, hamımız bol nemət içərisində yaşarıq.

Şir soruşdu: – O nə işdir?

Qarğa dedi: – Bu dəvə bizim aramızda yabançıdır və onun burada olmağının şaha heç bir xeyri yoxdur.

Şir qəzəblənib dedi: – Bu insaf və mürüvvətdən uzaq-

dır, insanın vicdanı buna yol verməz. Bir də ki, mən dəvəyə verdiyim əhdi necə poza bilərəm?

Qarğa dedi: – Mən bu barədə də fikirləşmişəm. Atalar deyiblər ki, fəlakət baş verdikdə bir adamı bir ailəyə, bir ailəni bir tayfaya, tayfanı bir şəhərə, şəhər əhalisini isə padşaha qurban vermək olar. Əhdə gəldikdə isə elə etmək olar ki, həm əhd pozulmasın, həm də padşah aclıq və ölüm təhlükəsindən xilas olsun. Şir bunu eşitcək başını aşağı saldı.

Qarğa geri qayıdıb yoldaşlarına dedi: – Şir əvvəlcə bir az qəzəblənib boyun qaçırmaq istədi. Lakin axırda susub ram oldu. İndi məsləhət budur ki, biz hamımız dəvənin yanına gedib şirin aclıqdan əzab çəkdiyini ona deyək və əlavə edək ki, biz yalnız bu şahın dövlətinin sayəsində gözəl və şad günlər keçirmişik. Əgər indi ona üz vermiş bu ağır gündə fədakarlıq göstərib canımızı və ruhumuzu şahın yolunda qurban verməsək, onun çörəyi bizim gözümüzü tutar və kəramət sahibləri yanında qədir-qiymətimiz olmaz. İndi bircə çarə qalır ki, şirin yanına gedib onun bizim boynumuzda nə qədər böyük haqqı olduğunu etiraf edək və deyək ki, bizim canımızdan başqa heç nəyə gümanımız gəlmir, o da şaha qurbandır. Sonra növbə ilə hər birimiz deyək: – «Bu gün şahın təamı mən olacağam», o birisilər rədd edib bəhanə gətirsinlər və şirin onu parçalamasına mane olsunlar. Beləliklə, həm şirə olan minnətdarlıq borcumuzu yerinə yetirərik, həm də hamımız salamat qalarıq.

Onlar belə də etdilər.

O qədər dil tökdülər ki, axırda boyu uzun, boynu əyri dəvəni yoldan çıxardılar və o, şirin yanına getməyə razı oldu. Onlar şirin yanına çatdıqda baş əyib təzim etdilər. Sözə birinci qarğa başladı və dedi:

– Şahın ömrü uzun, dövləti əbədi olsun. Bizim güzəra-

nımız şahın sağlığından asılıdır. İndi ki, şaha belə bir müsibət üz verib, bizim yaşamağımızın mənası nədir? Boyumun balaca və bədənimin zəif olmasına baxmayaraq mən özümü şah həzrətlərinə qurban gətirmişəm.

Mən kiməm ki, geyinim rəxti vəfa ey canan,
Ya çəkə bari bəlani bu dilü dideyü can.
Allaha and içirəm gər deyəsən canını ver,
Şadlıq ilə verərəm ol cani cananə inan.
Ya desən ver dilü canü bədəni birlikdə,
Edərəm hər üçünü xaki rəhində qurban.

Əgər şah bu gün mənim ətimlə dolana bilərsə, buyursun, mən hazram.

Başqaları dedilər: – Səni yeməklə nə olacaq, sənin ətindən kim doyacaq. Sonra çaqqal sözə başladı və o da qarğa kimi fədakarlıqdan dəm vurdu. Ona da cavab verdilər ki, sənin ətin iy verir və zərərlidir, şaha layiq xörək deyil. Ondan sonra canavar dilini işə saldı, ona da etiraz edib dedilər ki, sənin ətin adamın boğazını inağ edir və zəhrimar kimidir, səni də yemək olmaz. Növbə yazıq dəvəyə çatdı, o, hiyləgərlərin səmimiliyinə bel bağlayaraq ətinin təmiz və ləzzətli olduğunu böyük bir həvəslə tərifləməyə başladı. Hamısı birdən dedi: – Çox düz danışırsan, bu sözlərin hamısını sidq ürəkdən deyirsən, özün kök, ətin ləzzətlidir, özü də bizim hamımıza çatar. Dəvənin üstünə tökülüb onu parçaladılar. Beləliklə, dəvə onların toruna düşüb məhv oldu.

Bu təmsili ona görə nəql etdim, biləsən ki, düşmənlərin hiyləsi, xüsusilə, onlar əlbir olub sözü bir yerə qoyduqda, səmərəsiz qalmaz.

Dimnə dedi: – Yaxşı, bəs indi sən nə fikirdəsən?

Şətrəba dedi: – Vuruşub müqavimət göstərməkdən

başqa əlacım yoxdur. Əgər bir adam bütün ömrü boyu namaz qılıb halal malından fəqir-füqəraya paylasa, yenə də onun əldə etdiyi savab öz dövlətini, öz namusunu qorumaq üçün bir saatlıq mübarizə edən adamın əldə etdiyi savabdan çox ola bilməz. Çünki mübarizə edən adam vuruşda həlak olsa belə, yenə də şöhrət tapıb hörmət qazanar və belə ölüm, şərəfli ölüm sayılar. Bıçaq sümüyə dayandıqda, can boğaza yığıldıqda mal və can, din və məslək uğrunda aparılan mübarizənin savabının həddi-hüdudu olmaz...

Dimnə dedi: – Ağıllı adam mübarizə etməyə tələsməz, hazırlıq işi görmədən böyük və qorxulu işlərə başlamaz, düşmənlə mümkün olduqca həlim rəftar edib narazılığı sülh və dostluq yolu ilə həll etməyə çalışar. Hikmət sahibləri öz zəif düşmənlərinə xor baxmazlar, çünki düşmən zəif və gücsüz olduqda hiylə və fitnəkarlığa əl atıb qalib gələr. Halbuki, şirin qorxmaz, cəsur, güclü və qüdrətli olduğu hamıya məlumdur. Kim öz düşməninə xor baxıb edəcəyi müharibənin sonunu düşünməsə, Teytəva quşunu zəif bilərək onu təhqir edən dəniz ilahəsi kimi peşman olar.

Şətrəba dedi: – O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Belə nəql edirlər ki, su quşlarından olan bir cüt Teytəva quşu dəniz qırağında yaşayırmış. Bala çıxarmaq vaxtı çatdıqda dişi quş erkəyə dedi: – Yumurta qoymaq üçün xüsusi yer tapmaq lazımdır.

Erkək cavab verdi: – Elə bura yaxşıdır, başqa yerə köçməyə ehtiyac yoxdur.

Dişi dedi: – Fikirləşmək lazımdır, dəniz təlatümə gəlib dalğalar coşsa, su axıb bizim balalarımızı aparsa, biz nə edə bilərik?

Erkək dedi: – Güman etmirəm ki, dəniz ilahəsi cəsarət

edib mənə tərəf gələ. Əgər o, belə bir iş tutsa, ondan intiqam almaq asandır.

Dişi dedi: – Adam özü-özünü tanıyıb həddini bilsə, çox yaxşı olar. Sən hansı güc, hansı qüdrətlə dəniz ilahəsini təhdid edib onu intiqamla qorxudursan?! Bu fikirdən əl çək, yumurtalar üçün təhlükəsiz bir yer seç. Xeyirxah dostların sözünə baxmayan adamın aqibəti tısbağanın aqibəti kimi olar.

Erkək soruşdu: – Tısbağaya nə olmuşdu ki?

Rəvayət. Belə nəql edirlər ki, bir gölün kənarında iki ördək və bir tısbağa yaşayırdı. Qonşu olduqları üçün onların arasında dostluq və səmimiyyət vardı. Birdən qəddar ruzigar onların şən həyatını pozdu. Ayna rəngli səma onlara ayrılıq və hicran surəti göstərdi. Onların güzəranının əsasını təşkil edən su hiss ediləcək bir sürətlə azalmağa başladı.

Bunu görən ördəklər tısbağanın yanına gələrək dedilər: – Vidalaşmağa gəlmişik, ey əziz dost və səmimi yoldaş, səlamət qal!..

Tısbağa ayrılıq dərdindən nalə çəkərək göz yaşları axıtdı və dedi:

– Ey mənim əziz dost və mehriban qardaşlarım, suyun az olması mənim üçün daha dəhşətlidir, çünki mən susuz yaşaya bilmərəm. İndi mərhəmət və mürüvvət vaxtıdır, məni də xilas etmək üçün bir tədbir görün. Ördəklər dedilər: – Səndən ayrılmaq və hicran dərdi çəkmək bizim üçün daha ağırdır. Hara getsək, naz və nemət içərisində yaşasaq da, sənsiz ləzzət verməyəcəkdir. Lakin sən dostlarının dediklərinə əhəmiyyət vermir, öz xeyrini başa düşmürsən, deyilənlərə qulaq asmırsan. İstəyirsən ki, səni də aparaq, şərtimiz budur; göyə qalxandan sonra bizi görən camaat nə desə, gərək ağzını bərk-bərk yumub heç bir şey danışmayasan.

Tısbağa dedi: – Razıyam. Necə lazımdırsa, elə də edin. Mən söz verirəm ki, canımı dişimə tutub heç cınqırımı da çıxartmayam.

Ördəklər bir çubuq tapıb gətirdilər. Tısbağa dişi ilə bərk-bərk onun ortasından tutdu. Onlar çubuğu hər iki başından götürüb göyə qalxdılar. Ördəklər bir az da yüksəyə qalxdıqda adamlar onları görüb təəccüb etdilər, sağdan və soldan səslər ucalmağa başladı: «Pah atovnan, ora baxın, ördəklər tısbağa aparırlar!!».

Tısbağa bir müddət susdu, lakin sonra davam gətirə bilməyib dedi: – Gözü götürməyənin gözü çıxsın.

Tısbağanın ağzını açması ilə kəllə-mayallaq yerə dəyməsi bir oldu. Ördəklər bu əhvalatı hər yerdə danışmağa başladılar ki, dostlar bundan ibrət dərsi götürsünlər.

Xeyirxahlar nəsihət eylərkən,
Nikbəxtlər düşərlər onu başa.
Xeyirxahın mənəm sənin, lakin
Söz əsər eyləyərmi qəlbi daşa?!.

Erkək Teytəva dedi: – Dediklərinin hamısını eşitdim, lakin bütün bunlara baxmayaraq qorxma, yumurtaları buradaca bir yerə qoy.

Dişi Teytəva elə də etdi. Erkək Teytəvanın sözlərini eşidən dəniz ilahəsi onun belə böyük-böyük danışmasından və özünü öyməsindən qəzəblənərək dənizi tətatümə gətirdi. Dalğalar quşun yeni çıxmış balalarını götürüb apardı. Dişi Teytəva bunu gördükdə böyük bir iztirab içində erkək Teytəvaya dedi: – Mən bilirdim ki, su ilə zarafat olmaz. Sən isə öz inadkarlığın üzündən balalarımızı məhv etdin. İndi heç olmasa bir tədbir gör.

Erkək dedi: – Özündən çıxıb artıq-əskik danışma, kişi

tüpürdüyünü yalamaz. Mən verdiyim sözü yerinə yetirib, dəniz ilahəsindən intiqam alacağam.

Erkək Teytəva dərhal başqa quşların yanına gedib onların rəhbərlərini bir yerə topladı və başlarına gələn əhvalatı onlara danışmağa başladı. Danışıq əsnasında dedi:

– Əgər biz hamımız əl-ələ verib, dal-dala dayanıb bu bəlanın qarşısını almasaq, dəniz ilahəsi get-gedə cürətlənər və onun bu qudurğanlığı adət şəklinə keçər. Bütün dəniz quşlarının nəsli kəsilib məhv olar.

Quşların hamısı yığışıb Simurqun[1] yanına getdilər və əhvalatı ona danışdılar. Quşlar vəziyyətin ciddiliyini şərh etdikdən sonra dedilər: – Əgər sən dəniz ilahəsindən intiqam almasan, bundan sonra quşların padşahı adlana bilməzsən.

Simurq bunu eşitcək qanad çalıb havaya qalxdı. Bunu görən başqa quşlar ürəklənib dəniz ilahəsindən intiqam almaq üçün Simurqun dalınca uçmağa başladılar. Dəniz ilahəsi Simurqun qüdrətini və başqa quşlar birləşərkən onlarda olan güc və mətanəti yaxşı bilirdi. Ona görə Teytəvanın balalarını geri qaytarmağa məcbur oldu.

Dimnə dedi: – Mən bu əfsanəni ona görə sənə nəql etdim ki, heç vaxt düşmənə xor baxmayasan və birinci olaraq müharibəyə başlamayasan. Çünki məğlub olsan deyəcəklər, «özü-özünü məhv etdi», qalib gəlsən deyəcəklər, «bəxti gətirdi».

Şətrəba dedi: – Yaxşı, mən birinci olaraq vuruşmağa başlamaram, lakin hər halda özümü müdafiə etmək lazım gələcəkdir.

---

[1] *Simurq – Şərq xalqlarının nağıllarında darda qalan, insan və heyvanların dadına çatan çox güclü və qüdrətli əfsanəvi bir quşdur.*

Dimnə dedi: – Ona söz yox, mən sənə şirin hücum əlamətlərini də deyə bilərəm. Şirin şax durduğunu, tüklərini qabartdığını, quyruğunu yerə vurduğunu görsən, demək o, hücuma hazırlaşmışdır.

Şətrəba dedi: – Yaxşı, mən bu əlamətləri görsəm, bütün şübhələrim aradan qalxar və şirin mənə xəyanət etdiyinə inanaram.

Dimnə sevinərək çox razı halda Kəlilənin yanına gəldi. Kəlilə onu görcək soruşdu: – İşlərin necə gedir?

Dimnə dedi: – Kefin istədiyi kimi, hər şey öz qaydasındadır...

Sonra hər ikisi şirin yanına getdilər. Bu zaman Şətrəba da gəlib ora çıxdı. Şir Şətrəbanı görcək şax durdu. Şətrəba şirin ona hücum edəcəyini anladı və öz-özünə dedi: – Şah xidmətində olmaq, ilanla bir yerdə yatmaq və ya şirlə bir mağarada yaşamaq qədər qorxulu və təhlükəlidir. İlan yatmış, şir yuxuya dalmış olsa da, axırda biri başını qaldıracaq, digəri isə ağzını açacaqdır.

Şətrəba belə düşünərək özünü müdafiə edirmiş kimi sağa-sola buynuz vurmağa başladı. Şir onun müharibəyə hazırlaşdığını gördükdə hücuma keçdi. Şiddətli çarpışmalar oldu. Hər iki tərəfdən çoxlu qan axıdıldı. Kəlilə bunu gördükdə üzünü Dimnəyə çevirib dedi:

Min hiyləyə minbir kələk qatdın sən,
Asanlıqla öz arzuna çatdın sən.
Yağış yağsa, bu dünyada üç yüz il,
Yuya bilməz qaldırdığın tozu bil.

Ey nadan, indi öz fitnəkarlığının rəzalətli nəticələrinə tamaşa et.

Dimnə dedi: – Rəzalətli nəticələr hansılardır?

Kəlilə dedi: – Şirin vicdan əzabı, əhdin pozulması, öküzün öldürülməsi və onun qanının hədərə axıdılması, ordu arasında düşən çaxnaşma, qoşunun pərakəndəliyi vuruşda sənin qorxaq və hiyləgər olmağının aşkara çıxması. Əgər nadan olmasaydın, sən bu cinayəti şirin əli ilə görüb işi bu dərəcəyə çatdırmazdın. İnsanların ən nadanı odur ki, ehtiyac olmadan öz dostunu müharibəyə göndərə. Ağıllı adamlar qüdrətli, güclü, məğlub edilməz olduqları zaman belə vuruşdan imtina etmiş, fitnələri yatırmağı, hücumları dayandırmağı, müharibə təhlükələrini aradan qaldırmağı lazım bilmişlər. Sülh və danışıq yolu ilə həll edilə bilən məsələlərdə öz şahını müharibəyə sövq edən vəzir ən axmaq və ən ləyaqətsiz vəzirdir. O, xəyanət edib işə zərər vurmaqdan başqa heç bir şeyə yaramaz. Çünki rütbə sahiblərinin əqli qılıncından iti olmalıdır. Qılıncla alına biləcək şeyləri əql və tədbirlə əldə etmək mümkün olduğu halda, məsləhətlə görülə biləcək işləri ikiağızlı xəncərlə də yerinə yetirmək olmaz. Ürəyi möhkəm, beyni küt olan adamların səsi gur, mühakiməsi dayaz olduğu kimi, gücü çox, ağlı kəm olan adamların da hay-küyü çox, xeyri az olar.

Mən sənin xudpəsənd olduğunu, xülya qədər şirin, röya qədər aldadıcı olan bu dünya malına həris və məftun olduğunu gözəl bilirdim. Lakin onları deməkdən çəkinirdim, fikirləşirdim, bəlkə özün başa düşüb qəflət yuxusundan ayılasan. Lakin bunun əvəzində sən həddini aşdın. İndi sənin bəzi nöqsanlarını deməyin, nə qədər cahil və nadan olduğunu, nə qədər murdar işlər gördüyünü açıb göstərməyin vaxtı çatmışdır. Mənim sayacaqlarım dəryadan bir damla, dağdan bir zərrə götürmək mənzələsində olacaqdır. Deyiblər ki, sözü işindən, qövli felindən üstün olan vəzirdən padşah üçün daha təhlükəli heç bir

şey ola bilməz... Söz verib eləməyən bir kəs ilə eləyib söyləməyən bir adamın fərqi böyükdür. Səndə bu xasiyyət vardır. Sənin dilin hünərindən üstündür. Şir sənin dediklərinə inanıb yazıq öküzü məhv etdi. Deyiblər ki, nəzəriyyə təcrübəsiz, şəkil məzmunsuz, dövlət ədalətsiz, dostluq sədaqətsiz, elm hikmətsiz, sədəqə niyyətsiz, həyat əmniyyətsiz fayda verə bilməz. Təbiəti etibarilə səxavətli və ədalətli olan padşahın vəziri mərdimazar olsa, rəiyyət yenə də padşahın səxavət və ədalətindən məhrum olar, mərhəmət qapıları onların üzünə bağlanar. Bu, içərisində nəhəng yaşayan saf və şirin su hovuzuna bənzər ki, təşnə olan heç bir üzücü ona əl uzadıb ayaq basmağa cəsarət etməz...

Su qarşımda, özüm təşnə, fəqət orda nəhəng vardır.

Xidmətdə duran sadiq və iş bilən adamların çoxluğu şahların zinətidir. Sən isə istəyirsən ki, səndən başqa şirin yanında heç kəs olmasın, onun ən yaxın və inanılmış adamı yalnız sən olasan. Lakin öz xeyrini başqalarının bədbəxtliyində axtarmaqdan, sadiq və səmimi dostlarını xain qələmə verib məhv etmək və bu yol ilə hörmət və mənsəb sahibi olmaqdan daha axmaq və rəzil bir şey düşünmək mümkün deyildir. Riyakarlıqla ibadət edib savab qazanmaq, tündxasiyyətlilik və zorakılıqla qadınlarla dostluq etmək, zəhmət çəkmədən elmə yiyələnmək olmaz. Lakin bu söhbətlərin faydası yoxdur, çünki bilirəm, onlar sənə təsir etməyəcək. Mənim sənə verdiyim nəsihət bir kişinin bir quşa «Əlacı olmayan xəstəliyi müalicə etməyə çalışma» söyləməsinə oxşayır. Çünki atalar deyiblər:

Hər dərdin bir dərmanı, əlacı var,
Lakin yoxdur əlacı maymaqlığın.

Dimnə soruşdu:

– O hadisə necə olmuşdur?

Rəvayət. Kəlilə dedi: – Bir dəstə meymun bir dağda yaşayırdı. Bir gün ulduzlar şahı[1] Məğribə çəkilib üfüqlər arxasında gizləndikdə və dünyanın üzünü zülmət pərdəsi bürüdükdə, şimal küləyi öz cilovunu qıraraq dörd ayağa çapmağa və meymunlar üzərinə hücum etməyə başladı. Yazıq meymunlar soyuqdan titrəyir və qızışmaq üçün bir çarə axtarırdılar. Birdən onların gözlərinə işıqsaçan bir atəş böcəyi sataşdı. Elə bildilər ki, oddur. O saat çör-çöp yığıb onun üstə qoydular və hər tərəfdən üfləməyə başladılar. Onların qarşılarındakı ağacda bir quş oturmuşdu. Meymunların bu hərəkətini görcək hay-küy salıb qışqırmağa başladı və dedi: – Böcəkdir, qanadları var, gecə vaxtı işıq verir, amma od deyil, nahaq yerə üfləməyin. Əlbəttə, meymunlar ona əhəmiyyət vermədilər. Bu zaman oradan keçən bir adam quşa dedi: – Zəhmət çəkib özünü əziyyətə salma, bunlar sənin sözünlə bu işdən əl çəkən deyillər, bir də ki, belə adamlara nəsihət vermək qılıncı daşa vurmaq və şəkəri su altında gizlətmək kimi bir şeydir.

Quş adamın sözünə qulaq asmadı, əksinə, atəş böcəyinin nə üçün işıq verdiyini daha yaxşı başa salmaq üçün enib meymunların yanına gəldi. Tutub başını üzdülər.

Sənin də işin buna oxşayır. Heç vaxt sözə baxmırsan və xeyirxahların nəsihətinə qulaq asmırsan. Amma bir gün gələcək ki, sən bu hiyləgərlik və riyakarlıq üzündən bərk peşman olacaqsan. O vaxt üz-gözünü didib ağlamağın, başına döyüb sinəni cırmağın xeyri olmayacaqdır. Atalar deyiblər, sonrakı peşmançılıq fayda verməz, necə ki, o namərd şərikə fayda vermədi.

---

[1] *Ulduzlar şahı – günəş.*

Dimnə soruşdu: – O necə olmuşdur?

Rəvayət. Kəlilə dedi: – İki şərik var idi. Bunlardan biri sadəlövh, digəri isə hiyləgər idi. Bir gün alverə gedərkən yolda bir küp qızıl tapdılar, bir-birinə dedilər: «Bəxtimiz gətirdi, daha alverə getməyin mənası yoxdur, bununla kifayətlənib geri qayıtmaq lazımdır». Elə də etdilər. Şəhərə yaxınlaşdıqda istədilər pulu bölüşdürsünlər. Lakin hiyləgər dedi: – Nə üçün bölüşdürək? Kimə nə qədər lazımdır, o qədər götürsün. Qalanını aparıb bir yerdə basdıraq, istədiyimiz vaxt gəlib ehtiyacımız olduğu qədər götürək. Sadəlövh razı oldu. Hərəsi o puldan lazım olan qədər götürdü və yerdə qalanını gətirib bir ağacın altında basdırdılar. Sonra çıxıb şəhərə getdilər. O birisi gün özünü ağıllı hesab edən hiyləgər gəlib qızılların hamısını apardı. Bir müddət keçdikdən sonra sadəlövhün pula ehtiyacı oldu, şərikinin yanına gəlib dedi:

– Mənim pula yaman ehtiyacım var, gedək o xəzinədən adama bir az götürək. Hər ikisi birlikdə qızıl basdırılan yerə gəldilər, lakin orada qızıl tapmadılar. Hiyləgər şərik sadəlövhün boğazından yapışaraq dedi: – Qızılları sən aparmısan, çünki başqa adamın bundan xəbəri yox idi. Yazıq sadəlövh and-aman içdi ki, mənim xəbərim yoxdur, fayda vermədi. Hiyləgər onu qazi divanına gətirib qızılların alınmasını tələb etdi və əhvalatı qaziyə danışdı.

Qazi soruşdu: – Şahid və sübutun varmı?

Hiyləgər dedi:

– Altında qızıl basdırdığımız ağac şahidlik edibdir ki, qızılı bu insafsız, xain aparmış və məni əliboş qoymuşdur.

Qazi bu sözü eşitdikdə təəccüb etdi, çox götür-qoydan sonra belə qərara gəldi ki, gedib həmin ağacın altında məhkəmə qursun və ağacın verəcəyi şəhadətə qulaq assın.

Hiyləgər sevincək evə gəlib atasına dedi: – Bu qızıl işinin bizim xeyrimizə qurtarması sənin mərhəmət və iradəndən asılıdır. Mən sənə bel bağlayıb ağacın şahidlik edəcəyini demişəm. İndi mən deyənə razı olsan, həm gətirdiyim qızıl bizim olar, həm də əlavə olaraq həmin qədər qızıl alarıq.

Atası dedi: – Bunun üçün mən nə etməliyəm?

Hiyləgər dedi: – O ağacın içi elə boşdur ki, orada on adam gizlənsə belə, görmək olmaz. Bu gecə gedib orada gizlənmək və sabah qaziyə lazım olan şəhadəti vermək lazımdır.

Atası dedi: – Ey oğul, bir çox hiylələr var ki, onlar nəticədə hiyləgərin zərərinə qurtarır. Gözlə, sənin də hiylən qurbağanın hiyləsinə oxşamasın.

Hiyləgər soruşdu: – O necə olubdur?

Rəvayət. Atası dedi: – Bir qurbağa bir ilanın qonşuluğunda yaşayırdı. Həmişə balalayarkən ilan gəlib onun balalarını yeyərdi. Qurbağanın bir xərçəng dostu var idi. Bir gün onun yanına gedib dedi: – Qardaşım, mənə bir çarə! Axır zamanlar güclü və amansız bir düşmən meydana çıxmışdır. Nə onun öhdəsindən gələ bilirəm, nə də bu yerdən əl çəkə bilirəm. Çünki mənzərəsi gözəl, ab-havası yaxşı, yeri zümrüd kimi yamyaşıl xalılarla döşənmiş, üzərinə inci və kəhrəba kimi güllər səpələnmişdir.

Suyudur sanki zəmzəmü kosər,
Torpağı cümlə kafurü ənbər.
Hüsnünü pozmamışdır hökmi-zaman,
Əsməmişdir bu yerdə heç badi-xəzan.

Xərçəng dedi: – Güclü düşmənə yalnız hiylə ilə qalib gəlmək olar. Filan yerdə Gəlincik adlı bir heyvan yaşayır. Bir neçə balıq öldür, apar Gəlinciyin yuvasından ilanın yuvasının ağzına qədər düz. Gəlincik balıqları yeyə-yeyə gəlib ilanın yu-

vasına çıxar və səni onun şərrindən xilas edər. Qurbağa bu hiylə ilə ilanı öldürdü. Bir neçə gün keçdikdən sonra Gəlincik adəti üzrə (adət isə aşiqlikdən pisdir) balıq tamahı ilə həmin istiqamətdə getdi, lakin balıq tapmadı, basıb qurbağanı bütün balaları ilə birlikdə yedi. Bu əfsanəni ona görə dedim biləsən ki, çox zaman başqasına quyu qazan özü düşər.

Hiyləgər dedi: – Ata, az danış, uzunçuluq etmə, bu işdə az zəhmət var, çox mənfəət.

Mal və dövlətə olan hərislik, övlad məhəbbəti qocanı yoldan çıxartdı, o, buna razı oldu.

Sabahı gün qazi şəhərdən çıxaraq həmin ağacın altına getdi. Tamaşa üçün xeyli camaat yığılmışdı. Qazi üzünü ağaca çevirərək qızılın nə olduğunu soruşdu. Ağacdan səs gəldi ki, sadəlövh aparmışdır. Qazi təəccüb edib ağacın dövrəsinə dolanmağa, ona diqqətlə baxmağa başladı. Orada böyük ovuq gördükdə o saat məsələnin nə yerdə olduğunu anladı. Özözünə dedi: «Xəyanətə qarşı mərhəmət olmaz». Əmr etdi ağacın ətrafında ocaq qalayıb od vursunlar. Qazinin əmrini yerinə yetirdilər. Qoca bir saata qədər dözdü, lakin həlak olacağını hiss etdikdə yalvarıb aman istədi. Qazi əmr etdi ki, onu çıxarsınlar. Qocanı çəkib ağacın içərisindən bayıra çıxartdılar. Qazi sorğu-sual edib həqiqətin necə olduğunu öyrəndi. Sadəlövhün düzlüyü sübut olundu, hiyləgərin xəyanəti aşkara çıxdı. Qoca çəkdiyi əzab və qorxuya, oğlunun tutduğu bu rüsvayçılığa davam gətirə bilməyib oradaca öldü. Qazi hiyləgər şərikə layiq cəza verdikdən sonra atasının ölüsünü onun dalına yüklədib şəhərə göndərdi. Sadəlövh isə öz doğruluğu və düzlüyü sayəsində qızılları alıb evinə yollandı. Bu məsəli ona görə dedim ki, hiylənin sonunun kədərli və xəyanətin aqibətinin xətərli olduğunu biləsən... Ey Dimnə, sən isə əqli kəmlikdə,

ürəyi xəbislikdə, həris və nadanlıqla o dərəcəyə çatıbsan ki, dil onu təsvir etməkdə aciz, əql onu təsəvvür etməkdə gücsüzdür. Sənin məkr və hiylənin dosta verdiyi fayda göz qabağındadır. Lakin elə güman etmə ki, bunun ziyanı sənə dəyməyəcəkdir. Sən gül kolu kimi ikiüzlüsən, gülünü dərmək istəyənlərin əli tikanından qana boyanır. Sənin vəfandan fayda yoxdur. Sən ilan kimi ikidillisən, lakin ilan səndən yaxşıdır. Çünki sənin hər iki dilindən zəhər yağır. Doğru deyiblər ki, arx və çay suyu dənizə tökülənə qədər şirin olar; ailə – mərdimazar adam işə qarışana qədər möhkəm olar; qardaşlıq və dostluq məhəbbəti – ikiüzlü, xain və alçaq adamlar araya girənə qədər baqi qalar. Mən həmişə sənlə yaxın olmaqdan qorxurdum. Alimlərin sözləri tez-tez yadıma düşürdü. Onlar deyiblər ki, fisqü ficur törədənlər, rəzil və alçaq adamlar dost və qohum olsalar belə, yenə onlardan qaçmaq lazımdır. Rəzil və xain adamların dostluğu ilan tərbiyə etmək kimi bir şeydir. İlana sahibi nə qədər hörmət edib yaxşı qulluq etsə, fərqi yoxdur, yenə də xoş günlərin birində o, sahibinin işıqlı gününü qaranlıq gecəyə çevirər və öz vəfasızlığını büruzə verər. Zahirən bəzi xasiyyətlərinə görə pis görünsə də, yenə də ağıllı adamlarla dostluq etmək, onun əql və kamalından, bilik və təcrübəsindən istifadə etmək lazımdır. Xoşa gəlməyən nalayiq hərəkətlərindən isə qorunmaq olar. Lakin cahil və nadan adamlardan qaçmaq lazımdır. Çünki onlardan pislikdən başqa heç bir şey gözləmək olmaz. Onlarla dostluq etməyin nəticəsi peşmançılıq və rüsvayçılıq gətirər. Sən o adamlardansan ki, onların zəhərlədiyi havanın üfunətindən və təbiətlərinin fitnəkarlığından min fərsənglərlə[1] uzaqdan qaçmaq lazımdır.

---

[1] *Bir fərsəng – təqribən 6-7 kilometrdir.*

Səndən necə ümid və kəramət gözləmək olar ki, sənə hörmət və şöhrət qazandıran, səni hər yerdə əzizləyib yüksəklərə qaldıran, onun dövləti sayəsində göylərə meydan oxuduğun bir şahın başına bu oyunu açdın və verdiyi ənamlar qarşısında onu bu cür cəzalandırdın.

Şum üzündə qalmamış bir zərrə də şərmü həya.
Yoxdu qəlbində sənin bir damla da rəhmü vəfa.

Sənin işin bir tacirin əhvalatına oxşayır ki, o demişdir: «Siçan yüz batman[1] dəmir yeyən bir ölkədə çalağan 10 batman gələn bir uşağı aparsa, təəccüblü deyildir».

Dimnə soruşdu:

– O necə olmuşdur?

Rəvayət. Kəlilə dedi:

– Belə nəql edirlər ki, o qədər də dövlətli olmayan bir tacir bir gün səfərə çıxmaq istədi. Onun yüz batman dəmiri vardı. Aparıb dostlarından birinin evində əmanət qoydu və qayıdana qədər onu saxlamasını xahiş etdi. Lakin tacir səfərdən qayıdana kimi, dostu dəmiri satıb pullarını da xərclədi. Bir müddət keçdikdən sonra tacir gəlib dəmiri istədi. Dostu dedi: – Mən sənin dəmirini evin küncünə qoymuşdum, demə orada siçan yuvası var imiş. Bir vaxt xəbər tutdum ki, siçan tamamilə dəmiri yeyib qurtarıb. Tacir cavab verdi ki, sən doğru deyirsən, eşitmişəm ki, siçanın dəmirdən yaman xoşu gəlir və dəmir üçün siçanın dişlərindən daha dəhşətli heç bir şey yoxdur.

Ev sahibi sevindi və elə bildi ki, dostu doğrudan da, onun sözlərinə inanıb dəmirindən əl çəkmişdir. Ona görə dedi: – Bu günlük qal, mənim qonağım ol, uzaq səfərdən gəlibsən.

---

[1] *Batman – çəki vahididir. Müxtəlif yerlərdə, müxtəlif dövrlərdə birbirindən fərqlənmişdir. Şah batmanı, Təbriz batmanı və sairə vardır. Təxminən 4-8 kiloqrama bərabərdir.*

Tacir dedi:

– Sabah gələrəm.

Tacir küçəyə çıxarkən dostunun balaca oğluna rast gəldi və onu aparıb etibarlı bir yerdə gizlətdi. Sabahısı gün dostugilə gəldikdə onun bərk narahat olduğunu, oğlunu tapmaq üçün şəhərdə car çəkdirdiyini bildi və dedi: – Mən dünən sizdən çıxarkən bir çalağanın bir uşaq apardığını gördüm, bəlkə sənin oğlun imiş.

Dostu qışqıraraq dedi: – Sən nə üçün ağıla batmayan yalanlar danışırsan, çalağan da uşaq apararmı? Tacir gülüb dedi: – Siçan yüz batman dəmir yeyə bilən bir ölkədə çalağan on batman gələn bir uşağı aparsa, təəccüblü deyildir.

Dostu məsələnin nə yerdə olduğunu başa düşüb dedi:

– Siçan dəmiri yeməmişdir, uşağı gətir, dəmirini apar.

Bu məsəli ona görə dedim biləsən ki, şahın başına bu oyunu açan, gör başqalarının başına nələr gətirə bilər. Odur ki, bundan sonra heç kəs sənə inanıb etibar edə bilməz. Xeyirxahlıq meydanında at çapılarkən piyada qalan, vəfadan söhbət gedən məclislərdə şərməndə olub başını aşağı salan adamla dostluq etməkdən daha səmərəsiz heç bir şey ola bilməz. Anlamayana yaxşılıq eləməkdən, qulaq asmayana nəsihət söyləməkdən, ağzıboşa sirr verməkdən daha böyük səhv ola bilməz. Mənə gün kimi aydındır ki, sənin zülmət kimi qaranlıq işlərindən və dəhşətli xəyanətlərindən qaçmaq lazımdır. Çünki şər adamlarla dostluq etmək fəsad və düşmənçilik doğurar, xoşbəxtlik qapılarını adamın üzünə bağlı saxlar. Səhər nəsimi də dostluq kimidir. Güllük və çiçəklikdən əsdikdə ətir gətirər, kəsafət və nəcasət olan yerdən üfunət. Bilirəm ki, deyilənlər sənə ağır gəlir, çünki doğru söz acı olar, nadan və qəddar adamların xoşuna gəlməz.

Kəlilənin sözü bura çatdıqda Şətrəbanın artıq işi bitmişdi. Şir öküzün qan içində çapalayıb öldüyünü gördükdə hirsi bir az soyudu, sonra fikrə dalıb öz-özünə dedi: – Yazıq Şətrəba, sən nə qədər ağıllı, kamallı, fərasətli və şücaətli idin. Mən bilmirəm, düzmü iş tutmuşam, ya xəta etmişəm. Sənin haqqında deyilənlər nədir? Sədaqət naminə söylənən doğru, yoxsa xəyanət, qəsdən uydurulmuş bir iftira?! Hər halda bu, mənim üçün bir müsibət oldu. İndi nə təəssüf etməyin bir faydası var, nə də peşmançılığın.

Dimnə şirin kədərləndiyini gördükdə onun peşman olduğunu dərhal anladı. Kəlilənin sözünü yarımçıq qoyaraq şirin yanına gəldi və dedi: – Səni düşündürən nədir? Bu gündən daha xoşbəxt, daha məsud bir gün ola bilərmi? Şah qalib, şad və xuraman; düşmən məğlub, öz qanına qəltan. Şir dedi: – Şətrəbanın dostluğunu, səmimiliyini, elm və biliyini, cəsarət və şücaətini yadıma saldıqca ürəyim riqqət hissi ilə dolur, qəlbimi ələm və kədər bürüyür. Həqiqətən də, o, mənim ordumun qüdrətli arxası, qoşunlarımın vuran əli idi; o, rəqiblərimin gözünə batan bir xar[1], dostlarımın üzünə yaraşıq verən bir xal idi...

Dimnə dedi: – Bu nankor və qəddara ürəyiniz yanmasın, əldə etdiyiniz zəfər və qələbədən sevinib şadlanmaq, onu sizə üz vermiş xoşbəxtlik hesab etmək lazımdır. Çünki tale və səadət yalnız bu yollarla insana nəsib olur. Həyat üçün qorxulu olanları bağışlamaq ağıllı adamlara yaraşmaz. Padşahın düşmənləri üçün ən etibarlı zindan –qəbir, ən təsirli qamçı – qılıncdır. Tədbirli şahlar çox zaman dost olmadıqları adamları bacarıq və sədaqətlərinə görə öz yanına gətirib mənsəb sahibi

---

[1] *Xar – tikan.*

edər və əksinə, dost olduğu adamları bacarıqsızlıq və xəyanətlərinə görə öz yanından qovub cəzalandırar. Acı dərmanları faydasına görə atarlar. İş görmək, qılınc tutmaq üçün yarayan və əlin yaraşığı olan barmağı ilan çaldıqda bütün bədənin səlamətliyi xatirinə kəsib atar, əldən ayrılmasına könüllü razı olarlar.

Bu sözləri eşitdikdən sonra şir bir az sakitləşdi. Lakin sonra öküzün işini yoxladılar, Dimnənin öküzə böhtan və iftira dediyi, rəzil və alçaq işlərlə məşğul olduğu aşkara çıxıb sübut edildikdə, şir öküzün intiqamını ondan aldı. Məsəl var, deyərlər ki, nə əkərsən, onu da biçərsən. Hiylə və xəyanət ağacının barı müsibət və fəlakət olar...

Xain adamın yalanı nəticəsində iki dostun ayrılması haqqında rəvayət bundan ibarətdir.

DİMNƏNİN İŞİNİN YOXLANILMASI FƏSLİ

Rac Brəhmənə dedi: – Xain, yalançı haqqında dediyin dastanı eşitdim və onun nəticəsində həqiqətin necə yalana çevrildiyini, şirin yoldan çıxarılaraq əhdini pozduğunu, dostluğun düşmənçiliklə əvəz olunduğunu, ülfətin ədavətlə yer dəyişdiyini və bunların hamısının şahın sirlər xəzinədarı olan öküzün başında necə çatladığını bildim. İndi əgər meylin varsa, Dimnənin işinin aqibətini, onun şir və vəhşi heyvanlar qarşısında gətirdiyi bəhanələrin nədən ibarət olduğunu söylə. Söylə görüm, necə oldu ki, şir Dimnədən şübhələndi? Hansı yollarla onun xain olduğunu sübut etdi? Dimnə öz xəyanətini ört-basdır etmək üçün nə kimi üsullara əl atdı, nə kimi dəlillər gətirdi?

Brəhmən dedi: – Heç vaxt nahaq qan yerdə qalmaz, fitnə cəzasız buraxılmaz. Mən tarix kitablarında belə oxumu-

şam, elə ki, şir öküzü öldürüb, bir az qəzəbi soyudu, bu işdə tələsdiyindən peşman olub fikirləşməyə başladı:

Ağlı çaşdırdım, zənni itirdim,
Özüm-özümə zərər yetirdim...

Sonra Şərtəbaya verdiyi vədləri və onunla bir yerdə keçirdiyi xoş vaxtları xatırladıqca daha dərdindən kədərləndi və vicdan əzabı çəkməyə başladı. Şərtəba onun əshabələrinin ən sevimlisi və təbəələrinin ən istəklisi idi. Şir həmişə istəyirdi ki, Şətrəba haqqında rəvayətlər eşitsin, onun barəsində dastanlara qulaq assın. Ona görə ayrı-ayrı heyvanlarla gecələri tək oturub onların hekayə və nağıl söyləmələrini tələb edirdi. Bir dəfə pələng gecədən xeyli keçmiş şirin yanından çıxıb evlərinə gedərkən yolu Kəlilə və Dimnənin məskəninin yanından düşdü. Kəlilə üzünü Dimnəyə tutub öküzün başına gətirdiyi fəlakət üstə onu məzəmmət edirdi. Pələng dayanıb qulaq asmağa başladı. Kəlilə deyirdi:

– Çox təhlükəli iş tutubsan. İncə hiylə işlədib şirin verdiyi əhdi pozdurmağa müvəffəq oldun və bununla şaha qarşı böyük bir xəyanəti rəva gördün. İndi bu cinayətin hər an üstü açıla bilər. Onda sən nə deyə bilərsən? Vəhşi heyvanların heç biri səni müdafiə etməz, hamısı bir səslə sənin öldürülüb cəzalandırılmanı tələb edər. İndi sənin qonşuluğuna mənim ehtiyacım yoxdur, rədd ol buradan get və bundan sonra mənimlə görüşüb söhbət eləməyə can atma. Çünki mən sənin sir-sifətinə tamaşa etməkdən iyrənmişəm. Sənin vüsalın hicranından dəhşətlidir. Alimlər deyiblər ki, axmaq adamlardan nə qədər uzaq gəzsən, o qədər başın səlamət qalar...

Dimnə dedi:

Qəlbimi səndən alıb, səndən kəsərəm ülfət,
Bəs qəlbi kimə verib, sallam ona məhəbbət?

Bir də ki, keçmişə güzəşt deyərlər, olmuş işlər haqqında fikirləşməyin faydası yoxdur. Bu çürük düşüncələri başından çıxar. İndi şadlıq və əylənmək vaxtıdır, çünki düşmən məhv edilmiş, murada çatmaq yolu açılmış, arzuların çiçəklənən zamanı çatmışdır. Mən xəyanətin və cinayətin yaxşı iş olmadığını özüm də bilirəm. Lakin məni buna məcbur edən hərislik və şöhrətpərəstlik oldu.

Çalış hər vəchlə tap bir səadət,
Qoy sənə nə deyir desin cəmaət.

Pələng bu sözləri eşitcək şirin anasının yanına gedib dedi:

– Əgər gizlin saxlayacağına and içsən, sənə bəzi şeylər deyərəm. Şirin anası and içib söz verdikdən sonra pələng eşitdiklərini, Kəlilənin məzəmmət və Dimnənin etirafını ona danışdı.

Sabahısı gün şirin anası oğlunun görüşünə getdi. Onu çox qəmli və kədərli gördü, soruşdu: – Nə olub, yenə fikirlər dəryasına qərq olubsan?

Şir cavab verdi: – Şətrəbanı öldürməyim mənə yaman əzab verir, o, heç gözümün qabağından getmir, mənə etdiyi xidməti, göstərdiyi sədaqəti düşündükcə qəlbim od tutub yanır; ölkənin səlahi haqqında fikirləşərkən xeyirxah bir məsləhətçi, səmimi bir dost kimi həmişə onu xatırlayır, onun etdiyi yaxşılıqları, gözəl əxlaqını, yumşaq xasiyyətini xəyalımda canlandırır və indi onun yanımda olmadığına təəssüf edirəm. Nə qədər çalışıramsa, heç Şətrəbanı yadımdan çıxara bilmirəm...

Şirin anası dedi: – Heç kəsin dili insanın öz qəlbi kimi düz danışa bilməz. Şahın qəlbi Şətrəbanın günahsız olduğunu xəbər verir və hər dəqiqə yada salır ki, bu iş dərindən yoxlanılmadan və inandırıcı əsaslar olmadan həyata keçirilmişdir.

Aravuruşduran və xain adam özünü dost kimi göstərə bilmiş, Şətrəba haqqında iftira və böhtanlar demiş, uydurma əfsanələr düzəltmiş və onu şahın qulağına çatdırmışdır. İndi isə şahın əql və düşüncəsi öz işini görmüş, qəzəb və nəfsinə qalib gəlmiş, hər şeyi ölçüb biçmiş və nahayət, həqiqəti dərk etmişdir. Şəkk və şübhə qaranlığı içərisində şahın əqlinin nurundan daha etibarlı bir bələdçi ola bilməz. Çünki şahların dərrakəsi, qəzəb onlara üstün gəlmədiyi hallarda, fələyin qəlbini oxumaq, qeyblərin sirlərini kəşf etmək qüdrətinə malik olar və həqiqəti əks etdirən bir güzgüyə çevrilər:

Bir işə yanaşsan əgər ürəkdən,
Xəbərlər verərsən çərxi-fələkdən.

O da şübhəsizdir ki, Dimnə cahtələb, aravuruşduran və fitnəkardır. Söz bəzəməkdə, iftira söyləməkdə məharəti vardır. Bu, onun oturuşundan, duruşundan, danışığından və davranışından da aydın görünür. Mən onun həmişə belə yalanlar quraşdırdığını görürdüm. Lakin nə qədər ki, şahın xidmətində qulluq edir, bədnam olmasın deyə susurdum. Xüsusilə, bu son hadisə haqqında qəribə şeylər danışırlar. İndi ki, şahın öz qəlbinə şübhə dammışdır, onu gizlətməyinə dəyməz.

Şir dedi: – Mən öküzün işi haqqında çox fikirləşib elə bir ədavət və düşmənçilik tapmaq istədim ki, onu öldürdüyüm üçün başqaları qarşısında özümə haqq qazandırım. Lakin tapa bilmədim. Mən düşündükcə Şətrəba mənim gözümdə yaxşılaşır və onu öldürdüyümə daha çox peşman oluram. Bir də ki, o yazıq o qədər də ağılsız və acgöz deyildi ki, hərislik üstün gəlib onu axmaq fikirlərə düşməyə və mənə hücum etməyə vadar etsin. Mən də onun haqqında elə bir hörmətsizlik etməmişəm ki, narazılığa, ədavətə və ya nifrətə səbəb ola. Bütün bunları fikirləşdikdən sonra bu qərara gəlmişəm ki, bu işi də-

rindən yoxlayım, hərçənd iş-işdən keçib və indi bunu yoxlamağın Şətrəba üçün heç bir faydası yoxdur, lakin həqiqət ortaya çıxdıqda fitnəkar layiqi cəza alar və mənim vicdanım sakit olar, xalq qarşısında üzü qara olmaram...

Həqiqət və yalanı ortaya çıxarmağın, dost və düşməni tanımağın isə böyük faydası vardır. Sən bu barədə bir şey bilirsənsə və ya bir şey eşidibsənsə, onu mənə de.

Şirin anası dedi: – Eşitmişəm, lakin deyə bilmərəm. Çünki sənin yaxın adamlarından bəziləri bu sirri gizlin saxlamaq üçün mənə and içdiriblər. Andı pozmaq, sirri faş etmək isə namərdlikdir. Alimlər də bu fikirdədirlər ki, sirri demək olmaz, deyilsə, o, sirr olmaz.

Şir dedi: – Alimlərin müxtəlif fikirləri vardır. Onlar çox şeylər demişlər və onların dediklərini cürbəcür yozmaq olar. Məsələn: ağıllı adamlar belə hesab edirlər ki, alimlərin fikri necə məsləhətdirsə, yəni necə işin xeyrinədirsə, elə də şərh edilsin. Alimlərin belə bir sözü də var ki, xəyanət sirrini bilib deməyənlər xainlə şərikdirlər. Bəlkə bu xəbəri sənə deyən adam onu sənə söyləməklə öz yaxasını məsuliyyətdən kənara çəkmək, günahı öz boynundan atmaq və səni bu işə qarışdırmaq istəmişdir. İndi özün bil, bu dediklərimi nəzərə al və necə məsləhətdirsə, elə də et.

Şirin anası dedi: – Buyurduqların doğru və əqlə batandır. Lakin sirri deməyin iki böyük eybi vardır. Birincisi, mənə etimad etmiş adam mənimlə düşmən olacaqdır, ikincisi, bundan sonra heç kəs mənə inanmayacaqdır.

Şir dedi: – Sənin sözlərinin məntiqliyinə və səmimiliyinə irad tutmaq olmaz. Çünki əmanətə xəyanət günahdır. Heç mən özüm də rəva bilmərəm ki, sən bu xətadan başını qurtar-

maqla başqa bir xətaya düşəsən. O adamın adın demək istəmirsənsə, eybi yoxdur, heç olmasa ümumi şəkildə danış.

Şirin anası dedi: – Əfvin fəziləti və səxavətin şəni haqqında alimlərin nələr dediyi məşhurdur. Lakin bunlar o şeylər haqqında deyilib ki, onlar xalqa ziyan verməsin, fitnə və fəsad törətməsin. Amma xalqa ziyan, şaha zərər verən xain və fitnəkar adamların öz həddini aşmasına səbəb olan, düşmənlərin baş qaldırmasına yardım edən, sınaqdan çıxarılmış bir üsul, mötəbər bir düstur kimi ziyankarlıq əməliyyatında istifadə edilən şeylərdə rəhmdillik göstərmək, müqəssirləri əfv etmək olmaz. Belə hallarda intiqam və qisas vacibdir... Səni bu işə vadar edən Dimnə yalançı, fitnəkar və xaindir.

Şir dedi: – Bildim, qayıdıb öz yerinə gedə bilərsən.

Anası getdi. Şir fikrə daldı. Bir az keçdikdən sonra ordu başçılarını, sərkərdələri və anasını çağırtdırdı. Əmr etdi Dimnəni gətirsinlər. Dimnə içəri girdikdə Şir ona əhəmiyyət vermədi və özünü bir şey düşünürmüş kimi göstərdi:

Dimnə dedi: – Bəla qapıları açılmış, çarə yolları bağlanmışdır. Sonra üzünü dostlarından birinə çevirib yavaşca soruşdu:

– Nə olub, şah nə üçün belə fikrə gedib, sizin bura toplanmağınızın səbəbi nədir?

Şirin anası dedi: – Sənin işlərin şiri düşündürür. Sənin xəyanətinin üstü açılmış, şirin igid sədaqətli məşvərətçisi haqqında dediyin iftira və böhtan aşkar olmuşdur. İndi ola bilər ki, səni bir dəqiqə də səlamət qoymasın.

Dimnə dedi: – Ata-babalarımız dünya hadisələri haqqında elə hikmət yoxdur ki, deməmiş olsunlar və onları axtarıb tapmaq üçün biz zəhmət çəkək. Çoxdan deyiblər ki, adamın işi gətirməyəndə o, nə qədər ağıllı olsa və nə qədər çox fikir-

ləşib özünü fəlakətdən qurtarmaq istəsə o qədər tez bəlaya düşər. Şahlara xidmət edib səlamət qalmaq arzusunda olmaq, bədxah və şər adamların nəsihətini səadət açarı hesab etmək – su üzərində yazı yazmaq və tufanlı havada saman sovurmaq kimi şeydir. Şah qulluğunda doğru danışan, şahla dili bir, ilqarı bir olan adamın qorxusu da çox olar. Çünki şahın həm dostları, həm də düşmənləri belə adamın rəqibinə çevrilirlər: dostlar – həsəd, qibtə, şən və şövkət, mənsəb və dərəcə üzündən; düşmənlər – ölkəni idarə etmək və dövlət işlərində şaha yaxşı məsləhət vermək və ağıllı tədbir görmək üzündən. Buna görədir ki, həqiqəti dərk edən adamlar bu vəfasız dünyadan üz döndərir, onun eyş və işrətindən, kef və ləzzətindən əl çəkir, inziva və tənhalığı – insanlara qaynaşıb qarışmaqdan; xaliqə ibadət etməyi – məxluqa xidmət etməkdən üstün tuturlar. Çünki ibadətdə ədalətsizliyə yol verilməz. Orada yaxşılıq üstündə cəzalandırıb, ibadət müqabilində əzab verməzlər. İnsanların işi isə əksinədir. Burada hər şeyi bir-birilə qarışdırırlar. Bəzən caniləri sadiq, ürəkdən xidmət edən adamlar kimi qəbul edib mükafatlandırır, bəzən isə sadiq və xeyirxah adamları cəzalandırırlar. İnsanların fikri yanlışlı, işi nöqsanlı olur, onlar xeyir ilə şərə fərq qoymurlar. Yaxşı və xoşbəxt şah odur ki, onun tədbirləri həqiqətə yaxın, təhriflərə uzaq olsun. Daxili qorxu, zahiri ehtiyac xatirinə nahaq qan tökməsin. Padşahların ən bəyənilmiş xasiyyətlərindən biri odur ki, öz xidmətində olan adamların düzgünlüyünə və səmimiliyinə görə onları əzizləyib qayğısına qalsın. Şah özü yaxşı bilir, burada olanlar da təsdiq edə bilər ki, mənimlə öküz arasında elə bir narazılıq, toqquşma, köhnə ədavət və düşmənçilik yox idi ki, belə bir bədbəxtliyə səbəb olsun. Şətrəbanın elə bir vəzifəsi yox idi ki, ona qibtə edəm. Elə bir pislik etməmişdi ki, nifrətimə səbəb

ola. Mən bildiyimi şaha deyib öz vicdan borcumu yerinə yetirdim, şah mənim sözlərimin doğru olduğunu, iddialarımın düzgünlüyünü sınaqdan keçirdikdən sonra öz əqli və şəxsi iradəsi ilə bu işi görmüşdür. İndi bir çox fitnəkar və xain adamlar şahın düşmən və rəqibləri mənim bu səmimiliyimdən qorxuya düşüb əlbir olmuş və mənim qanımı axıtmaq qərarına gəlmişlər... Hər halda, güman etmirəm ki, mənim yaşamağım şahın narahatlığına səbəb ola bu xidmətlərim müqabilində mükafat olaraq qətlimə fərman verə.

Şir bu sözləri eşitdikdə dedi: – Dimnənin işini yoxlayıb qurtarana qədər onu qazilərin ixtiyarına verin. Çünki cəzalandırmaq lazım olan yerlərdə məsələ tamamilə aydınlaşdırılıb təqsir sübut edilməmiş, ehtimalı həqiqət hesab edib hökm çıxarmağa ədalət, insaf və vicdan yol vermir.

Dimnə dedi: – Hansı ədalətli və vicdanlı qazi padşahın əql və kamalından, ədalət və mərhəmətindən daha insaflı münsif ola bilər? Şahın verdiyi əmrə nə ruzigar etiraz edə bilər, nə çərxi fələk onu geri qaytara bilər.

Nə fərman verərsə böyük hökmdar,
İcraya hazırdır onu ruzigar.

Şah onu bilməlidir ki, şübhələri aradan qaldırmaq və həqiqəti ortaya çıxarmaq üçün tədqiqat aparıb ciddi-cəhd göstərməkdən daha düzgün bir yol ola bilməz və mən əminəm ki, bu iş layiq olduğu kimi yoxlanılsa, mən şahın qəzəbindən xilas olar, bəraət qazanaram. Səmimiyyətimin çoxluğu, sədaqətimin həddsizliyi və rəftarımın düzgünlüyü meydana çıxar. Lakin mənim bir xahişim vardır əmr edəsiniz ki, mənim işimi çox ciddi yoxlasınlar, çünki tam ciddiyyət göstərmədən və səy etmədən daşdan od almaq olmaz. Əgər mən özümdə bir günah bilsəydim, işimin belə ciddi yoxlanılmasını təkid etməzdim.

Mən arxayınam ki, bu təhqiqat mənim nə qədər sədaqətli olduğumu aşkara çıxaracaqdır. Ətri olan şeylər səpələndikdə onun qoxusu ətrafa daha tez yayılar. Mənim bu işdə balaca bir təqsirim olsaydı, fürsət var ikən qaçıb gedər, şahın xidmətində qalıb bu bəlanı gözləməzdim. Ümid edirəm mənim işim ədalətlə yoxlanılacaq, onda qərəz və üzgördülüyə yol verilməyəcəkdir. Xahiş edirəm, şah buyursun, işin gedişi haqqında hər gün ona məlumat versinlər. Şah qələbələr aynası, zəfərlər güzgüsü, dünyanın bəzəyi olan öz əql və kəmalı ilə onları götürqoy etsin. Bu zaman mənim haqqımda olan əsassız şübhələr aradan qalxar, öküzün öldürülməsində mənim heç bir günahım olmadığı aydınlaşar...

Axı mən nə üçün belə bir xəyanət etməli idim? Mən elə bir mövqe və mənsəb sahib deyiləm ki, qudurğanlıq edib daha böyük vəzifə tamahına və yüksək məqamlar həvəsinə düşəm. Nə qədər ki, mən şahın xidmətində qulluq edirəm, onun dünyada şöhrət tapmış ədalət və səxavəti nəticəsində ömrüm boyu bir parça çörəyim olacaq, mən həm yaşadığım müddətdə, həm də öldükdən sonra öz ümid əlimi şahın ətəyindən çəkməyəcəyəm...

Orada olanlardan biri dedi: – Dimnənin sözləri şahın daha böyük və daha əzəmətli olduğunu göstərmək üçün deyil, bəlkə bəlanı özündən uzaqlaşdırmaq üçündür.

Dimnə cavab verdi: – O kimdir mənim qəlbimi məndən daha yaxşı bilən? Mənim xeyrimi məndən daha artıq anlayan? Hər kəs zərurət vaxtı durub öz hüququnu müdafiə etməsə, başqaları onu müdafiə edərmi? Sənin sözlərin əqlinin kəmliyinə və nadanlığının çoxluğuna dəlalət edir. Elə güman etmə ki, şah sənin ona dediyin bu təhqir və söylədiyin bu uydurmanı başa düşmür. Şah bir az diqqət edib fikirləşsə, sənin hiyləgərliyin,

bu sözləri nə məqsədlə dediyin aşkar olar; xeyirxahlıq – bədxahlıqdan, yaxşılıq – pislikdən fərqləndirilər. Şahın əql və zəkası bir ömürlük işi bir gecədə görməyə, baxış və nəzəri bir ordunu tabe etməyə qadirdir...

Əgər şah günəşə salarsa nəzər,
Günəş də baş əyib, təzim eyləyər.

Şirin anası dedi: – Mən sənin əvvəlki məkr və hiylələrindən, xəyanət və cinayətlərindən daha çox indiki vəziyyətdə dediyin sözlərə və gətirdiyin məsələlərə təəccüb edirəm.

Dimnə dedi: – Əgər başa düşən və qulaq asan olsa, elə bura əsl söz demək və məsəl söyləmək vaxtıdır.

Şirin anası dedi: – Ey qəddar, sən hələ də məkr və hiylə ilə özünü qurtarmaq ümidindəsən?

Dimnə dedi: – Əgər bir adam yaxşını pisdən, xeyri şərdən ayıra bilsə, görər ki, mən vədə vəfa edib öz vicdani borcumu sədaqətlə yerinə yetirmişəm. Şah özü yaxşı bilir ki, heç bir xain onun qarşısında söz danışmağa cəsarət edə bilməz. İndi şah mənim haqqımda ədalətsizlik etsə, onun bir zərəri də şaha dəyər. İşi tələsik görən, xeyrini, zərərini başa düşməyən adamın vəziyyəti əcələ üzündən öz dostunu nökərdən ayıra bilməyən arvadın vəziyyətinə oxşar?

Şir soruşdu: – O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Belə nəql edirlər ki, Kəşmirdə Cəmiz adlı bir tacirin ay üzlü bir arvadı var imiş. Bu arvad o qədər gözəl imiş ki, hələ fələyin gözü belə bir camal görməmiş, insanın xəyalı belə bir təsvir yarada bilməmişdi: yanaqları qələbə günü tək parlaq, saçları hicran gecəsi kimi qara və uzun... Onların qonşuluğunda bütün dünyada şöhrət tapmış, şəkilləri ilə əqilləri valeh edən, vurduğu rənglərin təbiiliyi ilə düşüncələri heyrətə salan mahir bir rəssam yaşayırdı. Onunla

tacirin arvadı bir-birinə aşiq olmuşdular. Bir gün tacirin arvadı ona dedi: – Sən həmişə bizə gələndə qorxu çəkib gözləməli olursan, gah səslə, gah daş atıb çınqıl tullamaqla öz gəldiyini bildirirsən. Gərək biz sənin məharət və bacarığından, sənət və hünərindən istifadə edək. Elə bir şey yaratmaq lazımdır ki, o mənimlə sənin aranda şərti işarə olsun, səs eləyib hay-küy salmağa, daş atmağa, çınqıl tullamağa ehtiyac qalmasın.

Rəssam dedi: – Mən iki rəngli elə bir əba hazırlayaram ki, onun bir tərəfi qaranlıq gecədə ay kimi ağappaq işıq verər, o biri tərəfi isə aylı gecədə zənci saçı kimi şəvə tək parıldar. Sən onu görcək tez evdən çıxıb mənim yanıma gələrsən. Nökər onların bu söhbətini eşitdi, lakin onların bundan xəbəri olmadı.

Bu hadisədən bir neçə gün keçdi. Bir gün nökər rəssamın evdə olmadığından istifadə edərək həmin əbanı onun kənizindən birouz alıb arvadın yanına getdi və şəhvətini söndürdükdən sonra aparıb əbanı qaytardı. Bir az keçməmiş rəssam evinə gəldi, ürəyi məşuqəsini görmək istədiyi üçün əbanı götürüb arvadın yanına yollandı. Qadın onun qarşısına yüyürüb dedi: – Xeyir ola, ey mənim əzizim, getdiyin bir saat deyil, nə üçün geri qayıtdın?

Rəssam məsələnin nə yerdə olduğunu başa düşdü, kənizinə yaxşıca bir qulaqburması verdikdən sonra əbaya od vurub yandırdı.

Mən bu məsəli ona görə dedim ki, şah mənim işimdə tələsməsin və həqiqəti ortaya çıxarsın. Mən bu sözləri əzab veriləcəyindən təşvişə düşdüyüm və ya ölümdən qorxduğum üçün demirəm. Çünki ölüm arzu edilməz bir yuxu, xoşa gəlməz bir rahatlıq olsa da, hər halda ondan qaçıb qurtarmaq

mümkün deyildir. Tez-gec o gələcək. Artıq indiyə qədər də o, bir çox heyvanları kamına çəkmişdir.

Ölüm qarşısında nə edə bilər?
Olsa da şir güclü, tülkü hiyləgər?!.

Mənim min canım olsa, bilsəm ki, onların qurban verilməsi şahın xeyrinədir və şahın buna meyli vardır, bircə dəqiqə də onları əsirgəmərəm və beləliklə, hər iki dünyanın xoşbəxtliyini əldə etmiş olaram. Lakin şah bu işin aqibətini düşünməli və bir az ehtiyatlı davranmalıdır, çünki şah rəiyyətsiz ola bilməz. Ləyaqətli xidmətçiləri başqalarının iftira və böhtanlarına görə məhv etməyin eybi və zərəri var. Nə qədər dostlarını cox öldürsən, o qədər çox yalqızlaşarsan. Vəzifəyə münasib ləyaqətli və iş bacaran qullar həmişə ələ düşməz. Sədaqətli və inanılmış adamları tərbiyə etmək o qədər də asan deyildir. Hər gün sözü bir, ilqarı bir, sabitqədəm xidmətçi tapmaq olmaz. Halal süd əmmiş, sirdaş ola bilən, vəfalı və etibarlı nökərlər o qədər də çox deyildir.

İllər lazım, günəş çıxsın, əsli olan bir daşa,
Bədəşxanda lələ dönsün, ya Yəməndə daş-qaşa.

Şirin anası gördü ki, Dimnənin sözləri yavaş-yavaş orada olanlara təsir edir. Qorxdu ki, şah Dimnənin bu qızıl suyuna çəkilmiş bəhanələrinə və doğruluq donu geydirilmiş əfsanələrinə inanıb ondan əl çəksin. Çünki Dimnə söz deməkdə mahir, yağlı dil tökməkdə usta idi... Ona görə üzünü oğluna çevirib dedi: – Sən susursan, bu, düşmənin gətirdiyi bəhanələrə inandığına oxşayır. Odur ki, deyiblər: susmaq razılıq əlamətidir.

Sonra şirin anası hirslə yerindən durub getdi. Şir əmr etdi qazilər işi yoxlayıb həqiqəti ortaya çıxarana qədər Dimnəni zindana salsınlar.

Bundan sonra anası şirin yanına qayıdıb dedi: – Mən bu Dimnənin qəribə hiyləgər olduğu haqda çox eşitmişdim. Lakin şübhə edirdim. İndi isə onun dediyi bu yalanları, gətirdiyi bu tutarlı bəhanələri, özünü müdafiə üçün uydurduğu bu incə sübutları və nadir ibarələri gördükdə bütün şübhələrim zayil oldu. Şah ona danışmağa imkan versə, o, bir kəlmə ilə özünü bu girdabdan qurtara bilər. Ondan qisas almaq həm şahın, həm də ordunun böyük razılığına səbəb olar. Onu tez məhv etmək lazımdır, ona möhlət vermək olmaz.

Şir dedi: – Şahlar sarayına yaxın olan adamların işi qibtə, həsəd, düşmənçilik, ədavət, bir-birindən xəbərçilik və bir-birini pisləməkdən ibarətdir. Gecə-gündüz bir-birini güdür və bir-biri haqqında min bir əfsanə uydururlar. Kimin istedadı çoxdursa, onun haqqında bir o qədər çox şayiələr bəzəyirlər. Onun bədxahları daha bol, düşmənləri daha artıq, qibtə edənləri daha çox olur. Dimnənin mövqeyi və mənə yaxın olması ordu başçılarına ağır gəlir. İndi bilmirəm, bu işdə onların Dimnə haqqında olan fikir birliyi məni istədiklərindəndir, yoxsa Dimnəyə bəslədikləri ədavət və nifrətdən. Mən həqiqəti aşkara çıxarmayınca onu öldürməyi özümə rəva bilmirəm; çünki hissiyyata qapılıb nəfsə tabe olmaq əql və kəmala nöqsan gətirər və düzgün qərar çıxarmağa mane olar. Əgər hünər sahiblərini və iş bacaran adamları yalnız şübhə və ehtimal əsasında xain hesab edib öldürsəm, doğrudur, hirs soyuyar, ürək təskinlik tapar, lakin onun zərəri mənə dəyər, ölkə bundan ziyan çəkər...

Dimnəni zindana salıb ayaqlarına ağır kündələr vurduqdan sonra Kəlilənin qardaşlıq qanı cuşə gəldi, ona ürəyi yandı, köhnə dostluqlarını yadına salıb gizlincə onun yanına getdi.

Dimnəni o vəziyyətdə gördükdə ağlamağa başlayıb

dedi: – Qardaşım, mən sənin bu müsibət və möhnətinə necə dözə biləcəyəm, bundan sonra mənim yaşamağımın nə mənası, mən indi kiminlə yeyib-içəcək, kiminlə deyib-güləcəyəm? Şadlıq və qəmlərimi kiminlə bölüşəcəyəm?

Suya döndü ürəyimdə vuran qan,
Gözlərimdən axan susa qan oldu.
Bir od idim, yanıb külə çevrildim,
Tüstüm qalxıb göylərdə duman oldu.

İndi ki, iş gəlib bu yerə çatdı, mən sənə hər nə desəm, haqqım var. Çünki mən bunların hamısını əvvəldən görür və mümkün qədər sənə nəsihət verməyə çalışırdım. Lakin sən onlara əhəmiyyət vermirdin. Sənin nəzərində ən az qəbul edilən bir şey varsa, o da nəsihətdir. Əgər o səlamətlik və əmin-amanlıq vaxtı mən sənə kifayət qədər nəsihət edib məsləhət verməsə idim, bu gün sənlə birlikdə bu xəyanətdə iştirak etmiş olardım. Lakin sənin hərisliyin, xudpəsəndliyin əql və kəmalına, elm və biliyinə üstün gəldi. Mən sənə alimlərin dedikləri, «xain vaxtından əvvəl ölər» zərbi – məsəlini bir dəfə xatırlatmışdım. Bununla alimlər insanın qətlini nəzərdə tutmamışlar. Lakin elə əzab-əziyyətlər, elə təhqiredici hal və vəziyyətlər nəzərdə tutublar ki, o, ölümdən də pisdir. Məsələn sənin düşdüyün vəziyyət kimi. Hər halda, ölüm sənin bu halda yaşamağından yaxşıdır... Doğru deyiblər ki, dilini saxlasan, başın səlamət qalar.

Dil olsaydı öz qəlbinin sirdaşı,
Vurulmazdı dil sahibinin başı.

Dimnə dedi: – Sən həmişə haqq danışır və mənə düzgün məsləhətlər verirdin. Lakin insanı nəfsini saxlaya bilməyib, zərərli xörəkləri yeməyə məcbur edən qarınqululuq xəstəliyi kimi, tamahkarlıq, hərislik, mənsəbpərəstlik də

mənim əqlimi çaşdırır və sənin nəsihətlərinə qulaq asmağıma mane olurdu. Şad, rahat, düşmənsiz yaşamaq və arxayın, fikir çəkmədən xoş güzəran keçirməyə gəldikdə isə o tamamilə başqa məsələdir. Lakin ağa və nökər, şah və qul olan yerdə həmişə edam və cəza da olacaqdır. Bilirəm ki, bu bəla toxumunu mən özüm səpmişəm. Kim nə əkibsə, onu da biçəcəkdir. Lakin insan zəhərli ağac əkdiyini yalnız o zaman bilir ki, onun meyvəsini özünə yedirirlər. Görünür ki, indi etdiyim işlərin səmərəsini dərmək, dediyim sözlərin mükafatını almaq vaxtı çatmışdır. Lakin bütün bunlar hamısı bir tərəfə, sənin mənim üstümdə ittiham edilə bilmək qorxun bir tərəfə. Mən qorxuram ki, bizim sənlə köhnə dost və həmsöhbət olduğumuzu nəzərə alıb səni də ittiham edələr, sorğu-suala çəkərlər. Allah eləməsin, əgər belə bir iş olsa və sən mənim haqqımda bildiklərini ağzından qaçırsan, o zaman mən ikiqat əzab çəkməli olaram: bir tərəfdən mənim üstümdə səni narahat edib incitdiklərini bildikdə xəcalət məni öldürəcək, digər tərəfdən isə mənim xilas edilə biləcəyimə artıq ümid qalmayacaqdır. Sənin başqaları haqqında verdiyin şəhadət heç kəsdə şəkk doğurmursa, belə səmimi və dost olduğumuz halda mənim barəmdə dediyin sözlər necə şübhə oyada bilər?! İndi mənim nə vəziyyətdə olduğumu özün görürsən. Mürüvvət və mərhəmət vaxtı, təqsirlərdən keçmək, günahları bağışlamaq zamanıdır.

Yerim məzar kimi dar, əldə də güc qalmamış,
Göynəyimi cırmağa imkanım yoxdur mənim.
Qanlı göz yaşlarımdan laləyə dönmüş üzüm,
Döyülməkdən göyərmiş bənövşə tək bədənim.

Kəlilə cavab verdi: – Söylədiklərini eşitdim və nə demək istədiyini anladım. Alimlər deyiblər ki, heç kəs əzaba dözə bilməz, canını əziyyətdən qurtarmaq üçün yalan, doğru,

haqq, nahaq ağzına nə gəldi deyər. Mən sənə indiki vəziyyətdə heç bir çıxış yolu göstərə bilmərəm. Ən yaxşısı budur ki, birdəfəlik günahını boynuna alıb hər şeyi etiraf edəsən və beləliklə, heç olmasa, özünü o dünyanın əzab və əziyyətindən qurtarasan. Çünki, onsuz da, səni bu iş üstə öldürəcəklər.

Dimnə dedi: – Mən bu barədə fikirləşərəm, əgər belə bir qərara gəlsəm, sizin qulluği-şərifinizə ərz edərəm.

Belə bir cavab eşidən Kəlilə qəlbi incimiş, kədərli və qəmli halda evinə qayıtdı. Cürbəcür müsibət və bəlaların baş verə biləcəyini gözünün qabağına gətirdi. Yorğan-döşəyə yıxılıb ilan vurmuş kimi qıvrılmağa, sancılanmış kimi yerində çabalamağa başladı. Nəhayət, həmin gecə qarnı şişdi, nəfəsi kəsildi və əziz canı ilə vidalaşmalı oldu.

Dimnə ilə birlikdə həbsxanada bir yırtıcı heyvan da var idi. O, Kəlilə ilə Dimnənin söhbət etdikləri yerdən bir az aralı uzanıb yatmış idi. Kəlilə ilə Dimnənin söhbətinə ayılan bu heyvan onların dediklərinin hamısını eşitmiş, onların hamısını yadında saxlamış, lakin özünü yuxuluğa vuraraq səsinin çıxarmamışdı.

Sabahısı gün şirin anası yenə Dimnə haqqında söhbət salaraq dedi:

– Xain adamları əfv etmək sadiq adamları öldürmək deməkdir. Fitnəkar və riyakar adamları səlamət buraxmaq onlarla şərik olmaq deməkdir.

Şir əmr etdi qazilər Dimnənin işinin yoxlamağı sürətləndirsinlər. Onun xəyanətinin üstünü açmaq üçün əyan, əşraf, həm də qara camaat arasında sorğu-sual aparsınlar və eşitdiklərini hər gün şaha xəbər versinlər.

Sabahsı gün bütün qazilər toplandılar, car çəkib bütün camaatı yığdılar. Qazinin vəkili üzünü camaata çevirib bərkdən

dedi: – Şah əmr etmişdir ki, Dimnənin işi tezliklə yoxlanılıb başa çatdırılsın, həqiqətin necə olduğu meydana çıxarılaraq şübhələr zayil olsun və Dimnə haqqında əmr verilsin, lakin şah bu əmrin ədalətli olması və şahlara xas olan qəzəb və qəddarlıq kimi qələmə verilməməsi üçün xalq arasında sorğu-sual keçirməyi tapşırmışdır. İndi kim Dimnənin günahı haqqında nə bilirsə deməlidir. Bunun bir neçə faydası vardır:

Birinci, ədalətlə kömək etmək və həqiqəti ortaya çıxarmaq böyük savabdır; ikinci, yolun azmış, həddini aşmış bir adamın layiqincə cəzalanması xain adamlar üçün yaxşı bir ibrət dərsidir; üçüncü, riyakar və fitnəkar adamdan xilas olmaq, fisq və fəsadın kökünü kəsmək hamının rahat yaşamasına və xəyanətin aradan qaldırılmasına səbəb olar.

Vəkil sözünü deyib qurtardıqdan sonra aranı dərin bir sükut bürüdü. Hamı susurdu, heç kəs danışmaq istəmirdi. Çünki onlar üçün məsələ qaranlıq idi. Rəva görmürdülər ki, yalnız ehtimala əsasən hökm verilib qan tökülsün.

Dimnə vəziyyəti belə gördükdə üzünü camaata çevirib dedi:

– Mənim günahım olsaydı, sizin susmağınıza sevinərdim, lakin mən günahkar deyiləm, günahı olmayan adam haqqında da pis söz demək olmaz; o, ağıllı adamlar yanında təmizə çıxmış və bəraət qazanmış hesab edilər. Lakin dünya dağılmazdı ki, hər kəs öz ləyaqəti, elm və biliyi dairəsində mənim xeyrimə və düz adam olduğum haqda bir şey danışa idi. Hər sözün həm bu dünyada özünə görə mükafatı vardır, həm o dünyada. Hər deyilən söz bir adama həyat vermək və ya bir insanı məhv etmək üçün əsas ola bilər. Həqiqəti bilmədən yalnız ehtimala və gümana, fərziyyəyə və təxminə görə söz deyib məni təhlükə və tələf olmaq qarşısında qoyan hər kəs, kifayət

qədər məlumatı olmayan, dava-dərman tanımayan, xəstəlikləri bir-birindən ayıra bilməyən, müalicə üsullarını bir-birinə qarışdıran, insanın ruhi xüsusiyyətindən və bədən quruluşundan başı çıxmayan, lakin həkimlik iddiasında olan nadan adama bənzər.

Qazilər soruşdular: – O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Bir şəhərdə düzgün müalicə etməkdə, yaxşı dərman yazmaqda, xəstəlikləri doğru təyin etməkdə, xeyirli məsləhət verməkdə çox ağıllı və təcrübəli, nəfəsi İsa nəfəsi qədər təsirli, qədəmi Xizr qədəmi qədər uğurlu haziq bir həkim var idi. Bir gün fələk öz adəti üzrə verdiklərini geri almağa, onu insan üçün ən qiymətli nemət olan göz nurundan məhrum etməyə başladı. Onun gözünün işığı azalmağa üz qoydu, nəhayət, dünyanı görən gözləri kor oldu. Meydanı xali görən həyasız bir nadan, həkimlik iddiasına düşdü və çox keçmədən hər yerdə onun haqqında danışmağa başladılar.

Həmin şəhərin padşahının bir qızı var idi. Şah onu öz qardaşı oğluna ərə vermişdi. Hamiləlik vaxtı çatdı, sancı və ağrılar başladı. Təcrübə və müalicədə şöhrət tapmış kor həkimi çağırdılar. O, qadının ağrıları haqqında sorğu-sual etdi və o saat səbəbini bildi.

Dedi:

Bu arvada «Zəməhran» dərmanı lazımdır.

Dedilər: – Gərək siz hazırlayasınız. Dedi:

Mənim gözlərim görmür, gərək özünüz hazırlayasınız. Bu zaman həkimlik iddiası edən nadan araya soxulub dedi:

– Bu mənim işimdir, mən onu hazırlamağı bilirəm.

Şah onu yanına çağırıb əmr etdi ki, xəzinəyə gedib həmin dərmanı hazırlasın. O elmsiz və mərifətsiz adam heç bir

şey bilmədiyi halda işə girişdi, qəzadan öldürücü zəhər şüşəsi əlinə keçdi, onu başqa dərmanlara qarışdırıb qıza verdi. Qızın dərman içməsi ilə can verməsi bir oldu.

Qızın halına ürəyi yanan şah bunu gördükdə, həmin dərmandan şərbət hazırlatdırıb nadan həkimə içirtdi, o saat bədəni soyuyub gömgöy oldu.

Bu məsəli ona görə dedim, biləsiniz ki, ehtimala əsasən fikir söyləməyin, bir şey bilmədən işə girişməyin aqibəti fəlakət olar. Orada olanlardan biri dedi: – Hiyləgərliyi haqqında avam xalqdan soruşmağa ehtiyac olmayan xəbis və riyakarlığı əyan-əşrafa aydın olan bir bədbəxt varsa, o da bu Dimnədir ki, qəlbinin qaralığı, ürəyinin xainliyi, onun eybəcər və murdar üzündə olan əlamətlərdən də görünür.

Qazi soruşdu: – O əlamətlər hansılardır? Onları demək lazımdır ki, xalq da bilsin.

O şəxs cavab verdi: – Filosoflar deyiblər ki, hər kəsin qaşları bir-birindən aralı, sağ gözü sol gözündən xırda və qırpıq, burnu bir az sola doğru əyri, tük çıxan yerin hərəsində üç tük bitsə və belə adam yerə baxan olsa, o xəbis, fisqü-fəsad mənbəyi, hiylə və riyakarlıq nümunəsi, fitnə və xəyanət mərkəzi olar. Bu əlamətlərin hamısı Dimnədə vardır.

Dimnə dedi: – Allahın hökmü haqdır, onda heç bir səhv və xəta ola bilməz. Əgər sənin saydığın əlamətlər həqiqəti ortaya çıxarmaq üçün düzgün bir meyar, ədaləti bərpa etmək üçün doğru bir dəlil isə və yalnız ona əsasən doğru yalandan, haqq nahaqdan fərqlənirsə; o zaman insanların heç birini heç bir şeyin üstündə məsuliyyətə cəlb etmək olmaz; nə yaxşılıq üstündə mükafat vermək olar, nə də pislik üstündə cəza. Çünki insanlar allahın yaratdığı bu xüsusiyyətləri özündən dəf etmək qüdrətinə malik deyil. Beləliklə, xeyirxah adamlara hədiyyə

vermək, bədxah adamları cərimə etmək məsələsi bu hökmə görə aralıqdan qalxmalıdır. Əgər mən, allah eləməsin, dilim-ağzım qurusun, bu deyilən işləri görmüşəmsə, demək, bu əlamətlər məni buna məcbur edibdir. Bu əlamətləri allah yaratdığından mən onların cəzasını çəkməməliyəm. Onlar mənimlə bir yerdə yaranmışdır və onları məhv etmək mümkün deyildir. Belə olduqda siz onlara əsasən məni necə ittiham edə bilərsiniz? (Çünki siz beləliklə, allahı təqsirləndirmiş olursunuz.) Sən mənasız danışıb öz nadanlıq və avamlığını büruzə verdin, dolaşıq fikirlər söyləyərək başın çıxmadığı bir işə qarışdın və özünü biabır etdin.

Dimnə belə cavab verdikdən sonra hamı susdu və heç kəs danışmağa cəsarət etmədi.

Qazi əmr etdi, Dimnəni dustaqxanaya apardılar.

Kəlilənin Rüzbeh adlı bir dostu var idi. O, Dimnənin yanına gəlib Kəlilənin vəfat etdiyini ona xəbər verdi. Dimnə bunu eşitcək heyrətlənib təəccübləndi, kədərlənib təəssüfləndi, sonra dərindən bir ah çəkib gözlərindən sel kimi yaşlar axıtmağa başladı və dedi: – Hayıf səndən, ey mənim əziz dostum və məsləhətçi qardaşım.

Dimnə ahü-zar edir, nalə, şivən qoparır və mərsiyə əvəzinə bu şeri oxuyurdu:

Hiylə, kələk acizdir ölümün qarşısında,
Heç qurtaran olmuşmu yaxasını əcəldən?!
İndi ki, ölmək üçün doğulur hər bir insan,
Daha yaxşı olardı, doğulmazdı əzəldən.

Elə ki, bu sözləri deyib qurtardı, orada olanların hamısı qanlı göz yaşları axıtmağa və Dimnəyə təsəlli verməyə başladı.

Dimnə dedi: – heyf Kəlilədən. Mən ağır günlərimdə,

bədbəxt hadisələr baş verdikdə onunla dərdləşərdim. Böyük işlərdə, fikir deyib məsləhət görməkdə o mənim pənahım idi. Onun qəlbi dostlarının sirr yurdu, qardaşlarının məhrəmanə sözlər xəzinəsi idi. Fələk, bu sirləri ala bilməz, ruzigar o xəzinəyə yol tapa bilməzdi... İndi mənim güzəranımın nə rahatlığı, yaşayıb səlamət qalmağımın nə faydası. Əgər mənə üz vermiş bu müsibət günündə sən öz dostluq əlini uzadıb bura gəlməsə idin, mən ahü-zar içərisində özümü öldürərdim... Allaha çox şükür ki, sənin bura gəlməyin və sağ-səlamət olmağın bütün itkiləri əvəz edir. Gül gedibsə, gülab ki, buradadır. Kəlilənin vafatı ilə mənə dəyən zərər, sənin vücudunla aradan qaldırılır. Sən indi mənə Kəliləni əvəz edirsən, sən də indi mənə Kəlilə kimi dost və qardaşsan. İndi mənim səndən başqa heç kəsim yoxdur. Əlini uzat, məni qardaşlığa qəbul et.

Rüzbeh böyük bir sevinclə dedi: – Sənin bu iltifatına qarşı çox minnətdaram. Dostluq qədri bilən bütün təcrübəlilər sənlə həmsöhbət olub sirdaş olmağı özlərinə şərəf hesab edirlər.

Hünər sahibinin olan yoldaşı,
Çatar məqsədinə hər addım başı.

Kaş ki, mən bir işə yarayıb sənə xidmət göstərə biləydim.

Bir-birinin əlini sıxıb dost olacaqlarına and içdilər. Bundan sonra Dimnə dedi: – Filan yerdə Kəlilə ilə şərik bir xəzinə basdırmışıq, əgər zəhmət çəkib onu gətirsən əməyin əvəzsiz buraxılmaz. Rüzbeh Dimnənin dediyi yerə gedib verdiyi nişana əsasən xəzinəni gətirdi. Dimnə öz payını ayırıb, Kəliləyə düşən hissəni Rüzbehə verdi və tapşırdı ki, həmişə şahın yanında olsun və onun haqqında nə desələr, yadında saxlayıb ona çatdırsın.

Rüzbeh bu sirri Dimnə ölən günə qədər gizlin saxladı.

Sabahısı gün qazibaşı yığıncaqda olan əhvalatı şaha danışdı. Şir onu geri göndərib anasını yanına çağırtdı. Anası əhvalatın necə olduğunu eşitdikdə yaman narahat oldu və dedi:

– Qorxuram sərt danışam, şahın xoşuna gəlməyə. Düşündüklərimi deməmək isə şaha olan məhəbbət və sədaqəti, nəsihət və məsləhəti gizlətmək olar.

Şir dedi: – Məsləhət olan yerdə ehtiyat edib qorxmaq və öz fikrini gizlətmək olmaz. Sənin bütün dediklərin qəbul ediləcək və ona şəkk, şübhə ilə baxılmayacaqdır.

Şirin anası dedi: – Şah doğrunu yalandan ayıra bilmir, öz xeyrini ziyanından fərqləndirmir. Dimnə ona verilən bu fürsətdən istifadə edərək elə bir fitnə qaldıracaq ki, şahın əqli onun qarşısını almaqda aciz, qılınc onu yatırmağa gücsüz olacaqdır. Sonra hirslə yerindən durub getdi.

O biri gün Dimnəni gətirdilər, xalq toplaşdı, qazilər yığışdı və məhkəmə başlandı. Məhkəmə vəkili Dimnə haqqında ittihamnaməni oxudu.

Heç kəs danışmaq istəmədiyi üçün Baş qazi üzünü Dimnəyə çevirərək dedi: – Bura yığılanlar susmaqla sənə kömək etsələr də, ürəklərində sənin xəyanət etdiyinə inanırlar. Bu günah və təqsirlə sənin bu camaat içərisində yaşamağının nə faydası? İndi sənin üçün ən doğru yol budur ki, günahını boynuna alıb tövbə edəsən və beləliklə, heç olmasa, o dünyanın əziyyətindən həm özünü, həm də başqalarını xilas edəsən... Bunun sənə iki xeyri olar və dediklərin dünyada əbədi qalar: birinci – xəyanətini etiraf etməklə o dünyaya üzü ağ gedərsən və o dünyanı bu dünyadan üstün tutduğun meydana çıxar; ikinci – edilən sorğu-suallar zamanı verdiyin cavablar, gətirdiyin inandırıcı bəhanələrdə sənin nə qədər mahir bir söz ustası, bi-

likli bir natiq olduğun sübut edilmiş olar. Onu da bil ki, rüsvayçılıq ilə yaşamaqdansa, mərdliklə ölmək yaxşıdır.

Dimnə dedi: – Qazi öz ehtimalına və camaatın şübhəsinə görə aydın sübut, aşkar dəlil olmadan hökm çıxarmalıdır... Əgər sizdə belə bir şübhə varsa və hamı öz qəlbində mənim günahkar olduğum qərarına gəlibsə, hələ bu, mənim doğrudan da təqsirkar olduğum demək deyil. Çünki mən özüm özümü hamıdan yaxşı tanıyır və nə edib, nə etmədiyimi hamıdan yaxşı bilirəm. Öz bildiyin həqiqəti başqalarının fərziyyəsi xatirinə gizlətmək ağılsızlıq və insafsızlıq olar, heç buna qanun və şəriət də yol verməz. Əgər sizin fikrinizcə mənim, allah eləməsin, dilim-ağzım qurusun, öküzün ölümündə bir balaca təqsirim olubsa və onun üstündə bu qədər hay-küy qalxıb müxtəlif əqidələr irəli sürülürsə, bəs heç bir səbəb olmadan, heç bir günah iş görmədən öz qanımın axıdılmasına razı olsam, mənə nə deyərlər? Halbuki, heç kəsin mənim boynumda özüm qədər haqqı yoxdur, insanın öz canından daha əziz heç bir şey ola bilməz. Əgər ən dəyərsiz adamlar haqqında mənim vicdanım belə bir işə icazə vermirsə, onu özümə necə rəva görə bilərəm. Belə sözlərdən əl çək, əgər nəsihət vermək istəyirsən, xeyirli sözlər danış. Yox, əgər bu nəsihət deyil, xəyanətdirsə, ağıllı adamlar belə düşmənçilik etməz, çünki qazilərin sözü hökmdür, onların dediklərində səhv və xəta axtarılmaz. Bundan əlavə, sən həmişə doğru danışan və düz iş görən olubsan, indi bilmirəm, nədənsə, mənim bəxtimin tərsliyindənmi, yoxsa şəxsi qərəzlikdənmi bu işdə yanlış yol tutaraq məsələni birtərəfli həll etmək, bədxahların uydurmalarına və öz şəxsi zəninə əsasən hökm vermək, qərar çıxarmaq fikrinə düşübsən... Kim bilmədiyi şey haqqında şəhadət versə, qızıl quş saxlayan kişinin vəziyyətinə düşər.

Qazi dedi: – O necə olmuşdur?

Rəvayət. Dimnə dedi: – Mərzban adlı bir kişinin Bahariyə adlı ay üzlü, gül yanaqlı, ağ buxaqlı, çox gözəl və kəmallı, zərif hərəkətli, əli bərəkətli, yaraşıqlı və yapışıqlı, namuslu və iffətli, tərbiyəli və ismətli bir arvadı var idi... Həmin kişinin bir nökəri də var idi ki, çox həyasız və nankor idi. Nökər qızıl quş saxlamaqla məşğul olardı. Nökərin gözü o kişinin namuslu arvadına düşmüşdü. Çox əlləşdi ki, ələ gətirsin, bir şey çıxmadı, ümidi kəsildikdən, əli üzüldükdən sonra arvadı rüsvay etmək və beləliklə, qisas almaq fikrinə düşdü. Bir ovçudan iki tutuquşu alıb birinə: «Mən qapıçını ağanın gecə paltarında xanımla bir yerdə yatan görmüşəm», digərinə isə: «Mən artıq heç nə demirəm» sözlərini öyrətməyə başladı. Yeddi ay müddətində tutuquşları bu sözləri təkrar edib əzbərlədilər. Bir gün Mərzban öz dostları ilə oturub şərab içərkən nökər gətirib həmin quşları onun qarşısına qoydu, tutular öz adətləri üzrə Bəlxi dilində həmin iki cümləni dedilər. Mərzban Bəlxi dilini bilmədiyindən onların nə dediyini başa düşmədi, quşların səsi xoşuna gəldiyi üçün onları alıb arvadına verdi və tapşırdı ki, onlardan muğayat olsun.

Bir müddət keçdikdən sonra Bəlxdən Mərzbana qonaq gəldi, elə ki, yemək üstündən durub şərab məclisinə gəldilər, Mərzban quşlar saxlanan qəfəsi istədi, onları ortalığa qoydu. Tutular yenə adətləri üzrə həmin iki cümləni dedilər, qonaqlar başlarını aşağı saldılar, bir saata qədər sükut içərisində bir-birinə baxdılar. Nəhayət, Mərzbandan soruşdular:

– Sən bu quşların nə dediyini başa düşürsənmi?

Mərzban dedi: – Yox, dediklərini başa düşmürəm, ancaq səslərindən çox xoşum gəlir. Qonaqlardan ev yiyəsinə daha yaxın və daha məhrəm olanı sözlərin mənasını Mərzbana

söylədi və əlini şərabdan çəkərək dedi: – Bizim şəhərdə damarı boş, ayağı sürüşkən qadınların evində bir şey yemək adət deyil. Bu zaman nökər yerindən səslənərək dedi ki, mən də quşların dediyinə şahidəm, dəfələrlə görmüşəm.

Mərzban özündən çıxaraq arvadının öldürülməsini əmr etdi. Arvadı onun yanına bir adam göndərib dedi: – Məni öldürməyə tələsmə. Onsuz da mən sənin əlindəyəm, nə vaxt istəsən öldürə bilərsən. Tələsmək divlərə yaraşar. Əql və təcrübə sahibləri iş görməkdə, xüsusilə qan tökməkdə səbirli, əmr verib hökm çıxarmaqda təmkinli olmağı vacib bilərlər... Mənim işimi yoxlamaq lazımdır, əgər doğru çıxsa, bir an da vaxt itirməyib məni öldür. Bir də bəlxililərdən soruş, gör quşlar bu iki cümlədən başqa bir şey bilirlərmi? Əgər bilmirlərsə, demək, bu sözləri tutulara o həyasız nökər öyrətmişdir. Çünki vaxtilə o mənə söz atmış, dostluq büsatı qurmaq istəmiş, lakin oxu daşa dəymişdi. Görünür, indi qisas almaq fikrinə düşüb bu hiyləni qurmuşdur. Əgər quşlar həmin dildə başqa cümlələr bilsələr, demək, mən günahkaram və mənim qanım halaldır.

Mərzban arvadın qoyduğu şərtləri yerinə yetirdi. Məlum oldu ki, arvadı haqlıdır. Onun ölümündən əl çəkdi. Qızıl quş saxlayan nökəri yanına çağırtdı. Nökər yeni bir işin baş verdiyini düşünərək əlində qızıl quş, sevincək içəri girdi. Mərzbanın məsum və günahsız arvadı ondan soruşdu:

– Sən məni bu işləri edəndə görübsənmi?

Nökər dedi: – Bəli, görmüşəm.

Söz ağzından çıxmamışdı ki, qızıl quş dimdiyi ilə vurub nökərin gözlərini yerə tökdü.

Arvad dedi: – Görmədiyi şeyi gördüm deyən gözün cəzası budur...

Dimnə dedi: – Mən bu məsəli ona görə çəkdim biləsən

ki, bir şeyi bilmədən zorla ittiham etməyin həm bu dünyada, həm də o dünyada günahı çoxdur.

Bütün bu deyilənləri yazıb şirə göndərdilər. Şir onları anasına göstərdi. Anası oxuduqdan sonra dedi: – Şah sağ olsun, indi artıq mənim bu barədə deməyimin və məsləhət verməyimin faydası yoxdur. Çünki o kafir indi başqa üsullara əl atır. O, məkr və hiylə işlədərək şahı məhv etmək fikrinə düşmüşdür. Böhtan və iftiralara, təhdid və qorxutmalara keçmişdir. O indi elə fitnələr qaldırmaq istəyir ki, bütün işləri altüst etsin, şahın sadiq, igid və etibarlı vəzirinin başına gətirdiyi fəlakətlərdən daha ağır müsibətləri şahın öz başına gətirsin.

Bu söz şiri götürdü. O, dərin fikrə dalaraq hər şeyi ətraflı öyrənməyə başladı. Sonra üzünü anasına çevirib dedi:

– De görüm, o xəbəri sənə kim vermişdi, heç olmasa Dimnəni öldürmək üçün mənim əlimdə bir bəhanə olsun.

Şirin anası dedi: – Sirrini mənə etibar etmiş birisinin adını demək mənim üçün çox ağırdır. Belə olarsa, Dimnənin ölümü də məni sevindirməz. Mən necə günaha batıb əmanətə xəyanət edə bilərəm? Lakin sirr sahibindən soruşaram, icazə versə deyərəm. Şirin yanından çıxdı və pələngi öz yanına çağırıb dedi: – Şahın sənin haqqında etdiyi yaxşılıqlar, tərbiyənə sərf etdiyi əmək və qayğıkeşlik,sənə həm əvvəllər, həm də indi göstərdiyi mərhəmət və ehtiram hamıya məlumdur. Bunun nəticəsində əldə etdiyin şöhrət, mənsəb və dərəcə də göz qabağındadır. İndi gərək sən də bütün bu yaxşılıqların qarşısında öz borcunu yerinə yetirib Dimnə haqqında mənə dediyin sözləri şirin qarşısında təkrar edəsən. Beləliklə, məzlumların qələbəsinə, zalimlərin cəzalanmasına, nahaq öldürülmüş öküzün bəraət qazanmasına kömək etmiş olasan. Deyiblər ki, nahaq öldürülmüşlərin səbəbini bu dünyada giz-

lədənlər qiyamət günü özlərinə bəraət qazandıra bilməzlər. Şirin anası o qədər belə şeylərdən danışdı ki, axırda pələng yola gəlib dedi.: – Əgər mənim min canım olsa və onların hamısını şahın bir saatlıq rahatlığına qurban versəm, yenə də şahın mənə etdiyi yaxşılıqların əvəzini çıxa bilmərəm. Mən şah qarşısında bir qul kimi özümü təqsirkar hesab edirəm. Məndə o istedad və ləyaqət harada idi ki, tərif və təhsinə bais olsun. Mən kiməm ki, üzr gətirib şir qarşısında şəhadət verməkdən boyun qaçıram və şahın bədgümanlığına səbəb olam. İndi ki, iş bu məqama çatıb, mən şahın arzusuna əməl edib nə lazımsa hamısını yerinə yetirərəm. Sonra gəlib Kəlilə və Dimnədən nə eşitmişdisə, hamısını olduğu kimi şirin və heyvanların qarşısında nəql etdi. Bu söz ağızlara düşüb hər yerə yayıldıqda Dimnənin yaxınlığında həbsdə olan və Kəlilə ilə Dimnənin söhbətini eşitmiş yırtıcı heyvan da xəbər göndərib şaha çatdırdı ki, mən də şəhadət vermək istəyirəm. Şir əmr etdi, onu gətirdilər. O da həbsxanada eşitdiklərinin hamısını bir şahid sifəti ilə şaha danışdı. Ondan soruşdular: – Bəs nə üçün bunu həmin günü demədin? Cavab verdi ki, bir şahidliklə günah sübut edilib hökm çıxarıla bilməz. Ona görə də faydasız olaraq bir heyvanın incidilməsini özümə rəva bilmirdim. İndi isə şahid iki olduğu üçün Dimnə haqqında hökm çıxarmaq olar.

İki şahid tapıldığı üçün məhkəmə Dimnə haqqında hökm çıxarmağı mümkün hesab etdi. Bütün heyvanlar bir səslə bu qərara gəldilər ki, öküzün qisasını almaq üçün Dimnəni öldürmək lazımdır. Şah əmr etdi, Dimnənin əl-qolunu bağlayıb zindana salsınlar, ac və susuz saxlasınlar, əziyyət və işgəncə verib tənə vursunlar, təhqir etsinlər. Belə də etdilər. Dimnə həbsxanada ac və susuzluğundan öldü, hamıya sübut edildi ki, hiyləgər, xain, ikiüzlü və fitnəkarların aqibəti belə olar...

ANA ŞİR, ÇAQQAL VƏ OVÇU FƏSLİ

Rac dedi: – Şahlarla rəiyyətlər arasında baş verən əhvalatlara aid və ölkəni idarə edib işləri nizama salmaq xatirinə cəfa çəkmiş, xəyanətə rast gəlib zülm görmüş sadiq xidmətçiyə yenidən etimad olunmasına dair rəvayəti eşitdim... İndi elə bir dastan de ki, orada birisi öz canının qorxusundan, həyatını mühafizə etmək xatirinə başqalarına əziyyət verib, ziyan yetirməsin, ağıllı adamların məsləhətini xatırlayıb özünü çətin vəziyyətdən xilas etsin...

Brəhmən dedi: – Xeyirlə şərə, qazancla ziyana fərq qoya bilməyən axmaqlardan başqa heç kəs canlılara əzab verməyi özünə rəva görməz. Yalnız cahillər əməllərinin aqibətini düşünməyib hərəkətlərinin sonunu görə bilməzlər. Zülm örtüyü xeyirli işləri dərk etməyə mane olduğu kimi, cəhalət pərdəsi də xoşbəxtlikləri görməyə əngəl törədir. Ağıllı adam özünə rəva görmədiyi bir şeyi başqalarına necə rəva görə bilər?..

Pislik edib istərsən, ona əvəz, yaxşılıq,
Yamanlığın cəzası ola bilməz yaxşılıq.

Bir də bilmək lazımdır ki, hər pisliyin öz cəzası var. Pislik edən mütləq cəzasını çəkməlidir. Cəzanın təxirə düşməsindən qürrələnib arxayınlaşmaq olmaz: çünki zaman çox keçdikcə cəza vaxtı da o qədər çox yaxınlaşmış olar. Öz pis əməllərinin üstünü ört-basdır edib, hiylə işlədərək yaxşılıq paltarına geyindirə bilən, zahirdə özünü xalqa xeyirxah kimi tanıdıb təriflər qazanan adam əvvəl axır əməllərinin mükafatını görəcəkdir, nəhayət, batinin xəbisliyi tam şəkildə meydana çıxacaqdır. Belə adam yalnız cəzasını çəkdikdən sonra ibrət

dərsi alıb xeyirli işlərə meyl edə bilər. Ana şir, çaqqal və ovçu əfsanəsini buna misal göstərmək olar.

Rac soruşdu: – O necə olmuşdur?

Rəvayət. Brəhman dedi: – Belə rəvayət edirlər ki, bir ana şir öz iki balası ilə meşədə yaşayırdı... Ana şir bir gün ov ardınca gedərək meşədən çıxmalı oldu. Bir ovçu onun hər iki balasını öldürüb dərilərini soydu. Qayıdıb öz balalarını o kökdə yerə sərilmiş görən ana şirin naləsi asimana qalxdı. Ana şirin qonşuluğunda bir çaqqal yaşayırdı. Onun bu fəryadını eşidib yanına gəldi və soruşdu: – Nə olubdur? Ana şir əhvalatı danışdı. Çaqqal dedi: – Hər başlanğıcın bir sonu, hər ibtidanın bir intəhası vardır. Ömür ki, sona çatdı, əcəl gəldi, onun qarşısını almaq olmaz. Dünyanın işi belədir: hər kədərin ardınca bir sevinc, hər əyləncənin dalınca bir işgəncə gəlir. Atalar deyiblər ki, qəzanın işinə dözməkdən başqa çarə yoxdur.

Əzəldən bu cürə qurulmuş aləm:
Qəmdən sonra kefdir, kefdən sonra qəm.

Özünü öldürüb ah-fəğan qoparma, sakit ol və öz elədiklərini gözlərinin qabağına gətir... Sən başqalarına daha ağır zülmlər edibsən. Onlar da ağlayıb başlarına döymüş, lakin sonra çarəsiz qalaraq susmağa məcbur olmuşlar. Eşitməmisən ki, deyiblər: «Döymə qapımı, döyərlər qapını». Kim nə edibsə, o da qabağına çıxacaqdır. Atalar havayı deməyiblər ki: «Nə əkərsən, onu biçərsən». Əgər sən bu yırtıcılıq xasiyyətini buraxmasan, hələ çox belə müsibətlər görəcəksən. Sən axlaqını dəyişdirib başqalarını incitməkdən əl çəkməli, rahat yaşamaq istəyirsənsə, özündən zəiflərə əziyyət verməməlisən.

Ana şir dedi: – Qorxma, sözlərini açıq de, fikirlərini sübut etmək üçün dəlil göstər.

Çaqqal soruşdu: – Sənin neçə yaşın var?

Şir cavab verdi: – Yüz.

Çaqqal soruşdu: – Sən bu yüz ildə nə ilə dolanıbsan?

Şir cavab verdi: – Heyvanların və insanların ətilə.

Çaqqal dedi : – Yaxşı, illərlə ətini yeyib dolandığın bu heyvan və insanların ata-anaları yox idi? Ayrılıq və hicran dərdi onların əziz dostlarının qəlbinə od vurub, ürəklərinə dağ çəkmirdi? Əgər işin aqibətini fikirləşib qan tökməkdən əl çəksə idin, belə bir müsibət sənə üz verməzdi...

Şir bu sözləri eşitdikdə onların doğru olduğunu anladı. Üz vermiş bədbəxtliyin səbəbini dərk etdi, öz nalayiq hərəkətlərindən əl çəkdi, ət yeməyi tərk edib meyvələrlə dolanmağa başladı...

Çaqqal özünün ruzusu olan meyvələrin birdən çoxlu miqdarda azaldığını gördükdə bərk narahat oldu. Elə ki, onları yeyənin şir olduğunu bildi, dedi: – Yaxşı asan dolanmaq yolu tapdın, sənə gücü çatmayan heyvanların ruzusunu əlindən almağa başladın. Ağac özü sənin iştahana davam gətirməz, handa qalmış onun meyvələri ola. Vay ağacın, meyvələrin və onlarla dolananların halına! Bir az keçməz ki, hamısı məhv olar. Çünki onların yeməyinə böyük bir düşmən, qorxulu bir rəqib şərik çıxmışdır. Sənin zülmün canları təşvişə saldığı kimi, indi də ədalətin bədənləri titrədir. Hər iki halda xalq sənin sitəmindən xilas ola bilmir. İstəyirsən qan töküb ət ye, istəyirsən su içib ot...

Şir bu sözləri eşitdikdə meyvə yeməkdən də əl çəkib ibadət və pəhrizkarlığa başladı və öz-özünə dedi:

Nəyə lazım aylar, illər, qış, bahar,
Nəyə lazım abü atəş, xakü bad[1].

---

[1] *Ab, atəş, xak, bad – su, od, torpaq, külək – qədim Şərq fəlsəfəsinə görə bu dörd ünsür bütün varlıqların əsasını təşkil edirdi.*

Tərk elə bu aldadıcı aləmi,
O, gah evi bərbad edir, gah abad.
Müvəqqəti bu cahanda nə fərqi
Yaşadın sən min il, ya da bir saat.

İnsanlara əziyyət verib əməlinin aqibətini düşünməyən, yalnız özünə fəlakət üz verdikdən sonra səhvini anlayıb zülmdən əl çəkən adam haqqındakı əfsanə bundan ibarətdir.

İki balasının dərisi soyulub nəşi yerə uzadılana qədər qan içməkdən doymayan, başına belə bir hadisə gəldikdən sonra... bir daha əvvəlki peşəsinə qayıtmayan şirin timsalında adam nəzərdə tutulmuşdur. Arif adamlar, əlbəttə, bunu dərk edib ondan ibrət dərsi alar və hər iki dünyanın işini buna əsasən qurarlar. Özlərinə, öz övladlarına rəva görmədikləri şeyləri başqalarına da rəva görməzlər...

ZAHİD VƏ QONAQ FƏSLİ

Rac dedi: – Canlılara zülm edən, aqibəti olmayan, özünə bədbəxtlik üz verdikdən sonra tutduğu işdən peşman olub tövbə edən adam haqqındakı təmsilini eşitdim. İndi elə bir dastan de ki, orada öz peşəsini buraxıb başqa bir sənətdən yapışan adam təsvir edilsin. Sonra o, yeni sənətinin öhdəsindən gələ bilmədiyi üçün əvvəlki peşəsinə qayıtmaq istəsin, lakin bu mümkün olmasın, nə edəcəyini bilməyib tərəddüd içərisində avara qalsın.

Brəhmən dedi: – Hər işin öz adamı vardır. Kim öz bacardığı işdən əl çəkib öhdəsindən gələ bilmədiyi bir peşədən yapışsa, mütləq müvəffəqiyyətsizliyə uğrayıb rüsvay olar və sonrakı peşmançılıq fayda verməz. Yenidən öz sənətinə qayıtmasının da əhəmiyyəti olmaz. Hərçənd deyiblər: «Peşə yaddan

çıxmaz, lakin incəlikləri unudular». İnsan gərək öz sənətini möhkəm öyrənib ondan bərk yapışsın, hərdəmxəyal olub yeni-yeni arzu budaqlarına qonmasın, qönçələrinin gözəlliyinə yarpaqlarının təravətinə uymasın; çünki onların meyvələrinin şirin, bəhrələrinin ləzzətli olacağına ümid etmək olmaz... Buna misal olaraq zahid əhvalatını göstərmək olar.

Rac soruşdu: – O necə olmuşdur?

Rəvayət. Brəhmən dedi: – Belə nəql edirlər ki, Qinuc[1] adlı torpaqda bir mömin zahid yaşayırdı. Bir gün ona bir qonaq gəldi. Zahid qonağa hörmət etməyi lazım bilib sevincək onun qarşısına çıxdı, evə gətirdi. Qonaq başmaqlarını çıxaracaq, zahid qonağın haradan gəlib, hara getdiyini soruşdu.

Qonaq dedi: – Qəlbini gizlin saxlayan əsil aşiqlərin dedikləri sözlərə əsasən onların vəziyyətini bilmək olmaz. İxtiyarsız olaraq eşq yoluna qədəm qoyan, dostlarını razı salmaq arzusu ilə ürəyi çırpınan bir adamın nəsibi yalnız o olar ki, fəraq səhrasında o tərəf-bu tərəfə qaçıb avara dolansın, öz könlünün qibləsini axtarsın. Elə ki, bu qibləni tapdı, canını qurban verməkdən başqa çarəsi qalmaz. Mənim əhvalatım uzun, gedəcəyim yol nəhayətsiz, edəcəyim səfər isə saysızdır.

Onların başı söhbətdən ayıldıqdan sonra zahid əmr etdi bir az xurma gətirsinlər. Xurma gətirildi, hər ikisi yeməyə başladı.

Qonaq dedi: – Hərçənd bizim yerlərdə daha şirin və daha ləzzətli meyvələr var, xurma da bir az ağır və gec həzm olunandır, lakin çox dadlıdır; bizim vilayətlərdə də tapılsaydı, pis olmazdı.

---

[1] *Ərəb variantından ruscaya tərcümədə bu yerin adı «Karx» verilmişdir.*

Zahid dedi: – Bütün dediklərinə baxmayaraq adamın meyli çəkən şeyin varlığı yoxluğundan üstündür. Arzu edib istədiyinə çatmayanları xoşbəxt adlandırmaq olmaz; arzularla xoşbəxtliklər bir-birinin ardınca gələr. Əvvəlcə bir şey arzu edilər, sonra ona nail olduqda xoşbəxtlik sayılar. Yalnız birinci ilə kifayətlənib durmaq, yəni arzu ilə qənaətlənib çalışmamaq ağıllı hərəkət hesab edilə bilməz. Çünki vara qənaət deyiblər; yoxa nə qənaət. Heçə qane olmaq axmaqlığın çoxluğuna, iradənin yoxluğuna dəlalət edər.

Zahid arami dilində danışırdı. Bəlağətli səsi, hərarətli nəfəsi var idi. Onun ləhcəsi qonağın xoşuna gəldi, bu dili öyrənmək xəyalına düşdü. Əvvəlcə zahidə təşəkkür etdi, sonra dedi: – Allah bədnəzərdən saxlasın, nə gözəl ləhcəniz var; mən indiyə qədər nə belə fəsahətli bir şivə, nə belə bəlağətli bir cümlə eşitməmişəm.

Rəqibin sözlərinə gətirdi şəkk, əridi,
Çünki söz söyləməkdə dilin bir şəkər idi...

Səndən çox xahiş edirəm ki, bu dili mənə öyrədəsən. Mənim arzuma öz mürüvvətinə layiq əməl edəsən. Tanış olmadığın halda mənə bu qədər hörmət edib lütf göstəribsən, süfrə açıb qonaqlıq edibsən, indi isə biz sənlə duz-çörək kəsib dost olmuşuq. Mərhəmət edib bu istəyimi də həvəslə yerinə yetirsən, göstərdiyin kəramətin qiyməti daha da artar, mənim boynuma çox böyük bir minnət qoymuş olarsan.

Zahid dedi: – Qulluğunda hazıram. Bizim dili öyrənmək istədiyin üçün fəxr edirəm. Bu istək həqiqi, bu əzm qətidirsə, mən bu dili öyrətməkdə öz bilik, bacarıq və qüvvəmi əsirgəməyib heç bir şeyi sənə müzayiqə etməyəcəyəm.

Qonaq uzun müddət bu dili öyrənməklə məşğul oldu. Çoxlu vaxt sərf etdi, əziyyətlər çəkdi, məşəqqətlərə dözdü,

lakin bir şey çıxmadı. Bir gün zahid ona dedi: – Bu, çox çətin bir işdir.

Mənim kimi olmağa çalışma ki, olmazsan!
Mənim kimi bilməyə çalışma ki, bilməzsən.

Kim gücü çatmayan bir işdən yapışsa, əyninə gəlməyən paltar geyinsə, camaatı özünə güldürər. Kim ana dilini atıb əcdadlarının adət və ənənələrini, sənət və peşələrini tərgitsə, işi düz gətirməz...

Qonaq dedi: – Əcdadlarının zərərli və çirkin ədalətlərini təqlid etmək də nadanlıq və axmaqlıqdır. Fəzilət sahiblərinin bilik və sənətlərini öyrənmək isə əql və kamalın yetkinliyinə dəlalət edər...

Zahid dedi: – Mən öz borcumu yerinə yetirdim, nə lazım idisə, sənə dedim. İndi qorxuram ki, bu faydasız çalışmağın sonu kəklik yerişi öyrənmək istəyən qarğanın aqibəti kimi olsun.

Qonaq soruşdu: – O necə olmuşdur?

Rəvayət. Zahid dedi: – Belə nəql edirlər ki, bir gün bir qarğa bir kəkliyin yoldan keçdiyini gördü. Onun naz və qəmzə ilə getməsi qarğanın xoşuna gəldi. Hərəkətlərinin mütənasibliyi, dalını burcudaraq yanını basması, şux yerişi, şax duruşu onu heyran etdi. O da kəklik kimi yerimək istədi. Çox əlləşdi, hey kəkliyi yamsılamağa çalışdı, lakin bir şey çıxmadı. Kəklik kimi yeriməyi öyrənmədi, öz yerişini də yadırğadı. Bu məsəli ona görə dedim, biləsən ki, nahaq zəhmət çəkib yersiz qan-tər tökürsən, ana dilini yaddan çıxaracaq, arami dilini isə öyrənməyəcəksən. Deyiblər, insanların ən nadanı odur ki, özünün bacarmayacağı, ana-atalarının görmədiyi, bilmədiyi bir işdən yapışa, bu məsələdə xüsusi ilə padşahlar ehtiyatlı olub ağıllı tərpənməlidirlər. Ölkələr zəbt etmək istəyən, rəiyyətin güzə-

ranını yaxşılaşdırmaq arzusunda olan dostların tərbiyə, düşmənlərini darmadağın etmək fikrinə düşən hökmdar, bu cəhətdən çox ayıq və diqqətli olmalıdır. İstedadsız, iş bacarmayan ünsürlərin yüksək vəzifələrə soxulub böyük adamlarla oturmasına imkan verməməlidir. Dövlət işlərində, ölkə dolandırmaqda hər adamın öz yerini düzgün müəyyən edə bilmək ən böyük məharət, ən doğru siyasətdir. Bu cəhətə fikir verilməsə, gəda ilə şah, kiçik ilə böyük, yamanla yaxşı arasında fərq qoymaq olmaz. Elə ki, böyük-kiçiklik aradan götürüldü, istedadlı ilə istedadsıza fərq qoyulmadı, insanlar arasında müsavilik yaranar, bacarıqsız, alçaq və rəzil adamlar ortaya düşüb yüksək mövqeyə qalxmağa cəhd edər. Bu vəziyyət üstün gəlib qanun şəklinə düşsə, nə hökmdarlarda həşəmət qalar, nə şahlarda əzəmət. Bundan isə ölkəyə çox böyük zərərlər dəyər...

Öz peşəsini buraxıb başqa sənət öyrənmək istəyən və buna müvəffəq ola bilməyən adam haqqındakı rəvayət bundan ibarətdir...

Ağıllı adamlar bu rəvayətdən fayda götürüb ibrət almaq istəyirlərsə, onu kef üçün yox, həyatda əməl etmək üçün oxumalıdırlar.

ŞAHZADƏ VƏ ONUN YOLDAŞLARI FƏSLİ

Rac brəhmənə dedi: – Şahların xidmətçi seçməkdə necə hərəkət edib, alçaq, rəzil və nankor adamların vəzifəyə təyin edilməməsi üçün nə qədər ehtiyatlı olmaları haqqındakı təmsili eşitdim. İndi elə bir hekayə de ki, orada ağıllı, işbilən, xeyirxah, istedadlı bir adamın bəla zəncirində çırpınması, axmaq, iş bacarmayan nadan və cahil bir adamın cah-cəlala, yüksək

mövqeyə çataraq bütün dünyanın qibtəsinə səbəb olması təsvir edilsin. Nə birincinin əql və kamalı əlindən tutub qaldıra bilsin, nə ikincinin cəhli və axmaqlığı onun ayağından çəkib aşağılara endirə bilsin.

Gərdişi-dövrana bax, min arifi etmiş zəlil,
Dövri-çərxə sal nəzər, bir əbləhi etmiş vəkil.
Elm, alim məhv olur, aclıq çəkir,görmür həyat,
Cəhl, cahil kef edir, hər gün qurur eyşü-büsat.

Bela hallarda zərəri dəf edib mənfəət götürmək üçün nə kimi tədbir görmək olar? Brəhmən cavab verib dedi: – Əql bütün xoşbəxtliklərin əsası, bütün səadət qapılarının açarıdır. Bu nemət kimə qismət olsa, elm və helm onunla birlikdə birləşsə, o adam şən və şövkətə, cah-izzətə layiqdir. Lakin onun bu mövqeyə çatıb-çatmaması qəzanın əlindədir. Bir şahzadə Matron[1] şəhərinin darvazasında belə yazmışdı: «Əsl səadət taleyə bağlıdır, yerdə qalan nə varsa, hamısı heçdir». Bu barədə bir rəvayət də danışırlar.

Rac soruşdu: – O nə rəvayətdir?

Rəvayət. Belə nəql edirlər ki, bir gün dörd nəfər yolda bir-birinə rast gəlib dostlaşdılar. Bunlardan biri hərəkətlərindən böyüklük yağan, rəftarından, durub-oturuşundan hökmdarlıq əlaməti görünən şahzadə..., ikincisi-gözəl və ağıllı, kəmallı zadəgan oğlu..., üçüncüsü-ayıq, huşiyar, təcrübəli, bacarıqlı, iş bilən, düz düşünən, uzaq görən bir tacir oğlu..., dördüncüsü-güclü, əkin-biçin işlərindən başı çıxan, kənd təsərrüfatında xüsusi məharəti olan bir kəndli oğlu idi... Hər dördü qürbət vilayətdə çətin vəziyyətə düşmüş, aclıq, yoxsulluq onları əldən salmışdı. Bir gün şahzadə dedi:– Bu dünyanın bütün işləri qə-

[1] *Bəzi nüsxələrdə Matur, Mantur yazılmışdır.*

zanın əlindədir. Çalışmaq, özünü oda, suya vurmaqdan bir şey çıxmır. Yaxşısı budur ki, insan bu vəfasız dünyanın nemətlərini ələ gətirmək üçün öz əziz ömrünü hədərə sərf edib, öz qiymətli həyatını puç etməsin...

Qəddar dünya murdar bir leş kimidir,
Üzərinə min-min quzğun yol salar,
Biri caynaq vurub didər o birin,
Dimdikləyib o biri də can alar.
Didişərək məhv olarlar, nəhayət,
Aralıqda yenə murdar leş qalar.

Bir gün ərzində bəşəriyyətin heç bir şeyi artıb, əksilmir. Çəkilən zəhmət puç olub hədər gedir.

Zadəgan oğlu dedi: – Bütün xoşbəxtliyin səbəbi gözəllikdə və əsil-nəsəbdədir. Bunlarsız nə səadət olar, nə əmin-amanlıq. Nə izzü-nemət olar, nə mehribanlıq. Tacirin oğlu dedi: – Düzgün fikirləşib doğru tədbir tökmək hər şeydən üstündür. Büdrəyib yıxılanda, bədbəxtlik üz verəndə əqldən başqa heç nə insana kömək edə bilməz. Kəndli oğlu dedi: – Bütün işlər yalnız çalışmaq və səy göstərməklə yerinə yetirilə bilər. Zəhmət çəkib əmək sərf etmək insanları arzularına çatdırıb onlara sevinc və şadlıq libası geyindirər, qətiyyətlə işə girişib ciddiyyətlə fəaliyyət göstərənlər gec-tez öz məqsədlərinə çatarlar; müvəffəqiyyətsizliyə uğrayıb məğlub olduqda isə heç kim onları məzəmmət etməz...

Hər işdən ürəklə yapış, qorxma sən,
O iş baş tutmasa, sən üzürlüsən.
Məqsədə çatmaqçün vahimə boşdur,
Ölsən, bu ölümün özü də xoşdur.

Onlar Matron şəhərinə çatdıqda özlərini bir tərəfə verib dincəlmək üçün yer seçdilər. Sonra kəndli oğluna dedilər: –

Biz hamımız bərk yorulmuşuq, bütün ümidimiz sənin səy və cəhdinə, əmək və zəhmətinədir. Bu günlük yemək üçün bir şey tap, biz də sabah dincimizi aldıqdan sonra hərəmiz öz növbəmizdə bir kəsb dalınca gedib əvəzini çıxarıq.

Kəndli oğlu şəhərə yollanıb burada hansı işin daha xeyirli olduğunu soruşdu. Dedilər:– Odun yaxşı pula gedir. O saat dağa dırmaşıb şələ bağladı, şəhərə dönüb satdı, onun puluna yemək alıb geri qayıtdı. Şəhərin darvazasına çatdıqda ora yazdı: «Bir günlük əmək dörd adamın yeməyinə bərabərdir».

Sabahısı gün zədəgan oğluna dedilər: – Bu gün sən get öz gözəlliyin ilə bir şey qazan gətir, biz isə bir az da dincələk. Zadəgan oğlu öz-özünə fikirləşdi ki, mən heç bir iş bacarmıram, yoldaşlarımın yanına əliboş qayıtsam, biabır olaram. Gəlib şəhərə çatdı, qəmli halda bir ağaca dayanaraq nə edəcəyini fikirləşməyə başladı. Bu zaman oradan dövlətli bir qadın keçirdi. Onu görcək aşiq oldu və dedi: «İlahi,belə də gözəl bəşər olarmı?»

Elə ki, göz önündə məhəbbət şamı yandı,
Sinədə eşq atəşi od tutub alovlandı.
Yerində dona qaldı, getdi dərin xəyalə,
Heyran oldu o hüsnə, o qəddə, o cəmalə...

Sonra yanındakı kənizi çağırıb tədbir tökməsini tapşırdı. Kəniz zadəgan oğlunun yanına gəlib dedi: – Xanım buyurur, əgər o cavan oğlan zəhmət çəkib gözəl camalilə bir saatlığa bizim məclisimizin mizbanı olsa, xanıma əbədi bir həyat bəxş edər, özü isə zərər çəkməz.

Zadəgan oğlu cavab verib dedi: – Mən xanımın əmrinə hazıram.

Gedərəm mən sizə ey dilbəri Rey,
Tökərəm badəyə gülgün bir mey.

Alaram ətrini gül çöhrəndən,
Silərəm tərlərini peydər-pey.

Xülasə, onun evinə getdi və ürəyində belə dedi:

Girib ağuşuma o, bircə gecə olsa da ram,
Yeni bir Xizrə dönüb mən əbədiyyət taparam.

Bütün günü naz-nemət içərisində keçirdi. Öz vəzifəsini lazım olduğu kimi yerinə yetirdi. Axşam üstü qadın ona beş yüz dirəm mükafat verib yola saldı. O, bu pula yemək şeyləri alıb yoldaşlarının yanına gəldi, şəhərin darvazasına çatdıqda yazdı: «Gözəlliyin bir günlük qiyməti beş yüz dirəmdir».

Sabahısı gün tacir oğluna dedilər ki, bu gün sənin əql və bacarığının qonağı olacağıq. Tacir oğlu şəhərə hazırlaşırdı ki, müxtəlif mallarla dolu bir gəminin körpüdə dayandığını gördü. Ora getdi. Qiyməti ucuzlaşdırmaq məqsədi ilə şəhərin camaatı hələ heç nə almır və çənə vururdu. Tacir oğlu o saat danışaraq gəmidəki malların hamısını aldı və oradaca nəqd pula satdı. Yüz min dirəm qazanc götürdü. Yoldaşlarının arzularını yerinə yetirib geri qayıdarkən şəhərin darvazasına yazdı: «Ağlın bir günlük məhsulu yüz min dirəmdir».

O biri gün şahzadəyə dedilər: «Əgər bəxtin gətirib, taleyin yar olsa, bu gün bizim xərcimizi sən çəkməlisən». Şahzadə təvəkkülə bel bağlayıb şəhərə yollandı. Qəzadan o gün şəhərin əmiri ölmüşdü, camaat matəm içində idi. Şahzadə ətrafa baxa-baxa gəlib əmrin sarayının qapısında bir küncdə oturdu. Təziyədə iştirak etmədiyi üçün qapıçı onu danlayıb məzəmmət etdi. Ondan şübhələnməyə başladı. Əmirin cənazəsini apardıqdan sonra saray boşaldı, lakin şahzadə oturduğu yerdən tərpənmədi. Qapıçı onun hələ də orada oturduğunu gördükdə casus olduğunu güman edib həbsxanaya apardı.

Sabahısı gün əyan və əşraf toplaşıb ölkənin müqəddə-

ratını kimə tapşırmaq məsələsini müzakirəyə başladılar. Əmirin varisi yox idi. Bu barədə qızğın mübahisə meydana çıxdı, səslər ucalmağa başladı.

Bu zaman qapıçı dedi: – Səsinizi ucaltmayın, casus tutmuşam, yaxşı olmaz ki, o, sizin aranızda olan ixtilafdan xəbər tutsun. Sonra əhvalatı onlara danışdı. Hamısı yekdilliklə bu qərara gəldilər ki, onun kim olduğunu aydınlaşdırsınlar. Şahzadənin həbsxanadan çıxarıb gətirdilər. Onun kim olduğunu, haradan gəlib haraya getdiyini soruşdular. Şahzadə ağıllı cavablar verdi. Onun ayıq, huşiyar, cəsarətli və şücaətli olduğunu görən əyanlar şahzadənin anadan olduğu yer, əsil-nəsəbi ilə maraqlandılar.

Şahzadə dedi: – Elə ki, atam bu fani dünyadan əbədiyyət aləminə köçdü, qardaşım səltənəti zəbt etdi. Mən həyatımı qorumaq üçün vətəni buraxıb sizin ölkənizə gəldim, yersiz dava etməyi lazım bilmədim...

Orada olan tacirlər şahzadəni tanıdılar, onun əcdadının, ata-babalarının mal-dövlətindən, şən və şövkətindən söhbət açdılar. Əyan və əşraf şahzadənin gəlib bura çıxmasından çox sevindilər və dedilər:– O, bu şəhərin əmiri olmağa layiqdir. Vücudunda şah qanı var. Yəqin ölkə dolandırmaqda, ədalət və mərhəmətdə öz sələflərinə oxşar, onların yaxşı və xeyirli adətlərini burada da rəsmiyyətə salıb ənənə şəklinə keçirər...

O saat beyət edib onu özlərinə şah seçdilər. Çox asanlıqla məmləkət onun əlinə keçdi. Təvəkkül və qəza öz işini gördü.

O şəhərdə belə bir qayda var idi: kim şah seçilsə idi, birinci gün onu ağ filə mindirib bütün şəhəri gəzdirərdilər. Şahzadəni də filə mindirib şəhəri gəzdirməyə başladılar. Şahzadə darvazaya çatdıqda dostlarının yazılarını görüb əmr etdi, bu

sözləri də ora əlavə etsinlər: «Əmək, gözəllik, əql yalnız o zaman səmərə verə bilər ki, adamın bəxti ayaq üstə olsun. Çünki əsl səadət taleyə bağlıdır. Yerdə qalan nə varsa, hamısı heçdir. Mənim bir günlük taleyim bunun üçün hamıya misal ola bilər».

Sonra şah sarayına qayıdıb taxtda oturdu, dostlarını çağırtdırıb əql sahibini ölkənin vəziri etdi, məmləkətin bütün təsərrüfat və sənət işlərini əməyi sevib zəhməti tərifləyənə tapşırdı, gözələ isə çoxlu dövlət verdi, bu şəhərdən çıxıb getməsini məsləhət gördü və dedi:– Bu, ona görə lazımdır ki, qadınlar sənə məftun olmasınlar, ondan şər və fəsad törəməsin.

Sonra şəhərin alim və böyüklərini yığıb dedi:– Sizin içərinizdə bir çoxlarının məndən ağıllı, şücaətli, istedadlı, və bacarıqlı olduğunu bilirəm. Lakin qəzanın razılığı və ruzigarın meyli olmadan şahlığa çatmaq mümkün deyildir. Mənim dostlarımın hərəsinin bir üstünlüyü var idi. Onlar da bir şey ələ gətirmək ümidində idilər. Mən nə öz biliyimin gücünə inanırdım, nə də başqasının köməyinə bel bağlayırdım. Qardaşım məni atamın mülkündən qovandan sonra, mənim bu dərəcəyə çatacağım ağlıma belə gəlmirdi. Görünür doğru deyiblər:

Hər şey həddi ötəndə öz əksinə yönələr,
Qəm də həddi aşanda ürəyə şadlıq gələr...

Onların arasında çox səfər etmiş bir səyyah ayağa durub dedi: – Şahın buyurduqları ağıllı, təcrübəli, zəkalı, ədalətli hökmdarlara layiq olan sözlərdir. Ölkə dolandırmaq üçün elm və helmin vəhdətindən daha gözəl heç bir şey ola bilməz. Şahın bu sözlərlə nə demək istədiyi günəş kimi bizə aydındır... Allah da bilir ki, sənin bura gəlməyin bizim şəhərin əhalisinin xoşbəxtliyindəndir. Səni bizə tale özü göndərmişdir. O sözünü qurtardıqdan sonra bir başqası durub dedi: -Mən şahın fəzilə-

tindən başqa vaxt danışmaq istərdim... Lakin icazə verərsə, indi ona başıma gəlmiş elə bir hadisə nəql edərəm ki, heyran qalar. Şah əmr etdi ki, danışsın.

O dedi: – Bir zaman mən böyük adamlardan birisinin yanında xidmət edirdim. Elə ki, fələyin vəfasızlığını anlamağa başladım, bu köhnə dünyanın bir çox şahları məhv etdiyini, bir çox aşiqləri sərgərdan qoyduğunu gördüm... Öz-özümə dedim: – «Ey axmaq, gör sən dostluqda kimə etibar edirsən, minlərcə qüdrətli padşahın saraylarını viranə qoyub, şən və şövkətli hökmdarların barigahlarını xərabazarlığa çevirən, minlərlə misilsiz pəhləvanları məğlub edib, qürurlu cavanları dizi üstə çökdürən bu nankor fələyə. Vaxt az, yol uzun, ömür qısadır. Tez başına çarə qılıb axirət üçün bir gün ağla «.

Belə düşündükdən sonra ürəyim yüngülləşdi, könlüm açıldı, savab iş görmək qərarına gəldim. Bir gün bazarda bir ovçunun iki şinəbubbu quşu satdığını gördüm. Savab etmək üçün hər ikisini alıb əziyyətdən xilas etmək fikrinə düşdüm. Ovçu onlara iki dirəm qiymət qoydu. Mənim də elə vur-tut iki dirəmim var idi. Tərəddüd edirdim, hər iki dirhəmi birdən itirməyi ürəyim rəva bilmirdi, o iki quşa da yazığım gəlirdi. Nəhayət, «Allaha təvəkkül» deyib hər ikisini aldım, şəhərdən kənara aparıb bir meşədə buraxdım. Qalxıb ağacın başına qondular. Məni səsləyib təşəkkür etdilər və dedilər: – «İndi bizim sənə yaxşılıq etməyə başqa imkanımız yoxdur, lakin bu ağacın altında qızıl küpü var, qaz onu apar».

Mən onların sözünə təəccüb edib dedim: «Qəribə işdir, siz yerin altındakı küpü görürsünüz, amma o boyda ovçunu görə bilmirdiniz?!» Cavab verib dedilər: «Qəza üz verdikdə heç bir şeyi görmək olmur, əql çaşır, göz tutulur, qulaq eşitmir. Ona görə də qəza öz bildiyini edir».

Mən yeri qazıb küpü çıxartdım. İndi deyə bilərəm haradadır. Qoy şah əmr etsin, onu xəzinəyə aparsınlar. Mümkünsə, mənə də bir şey versinlər.

Şah dedi: – Yaxşılıq toxumu əkib, bəhrəsini götürübsən, heç bir şey lazım deyil, hamısını sənə bağışlayıram.

Brəhmən bu fəsli söyləyib qurtardıqdan sonra Rac sakit dayandı, artıq heç bir sual vermədi...

KİTABIN SONU

Racın susduğunu görən Brəhmən dedi: – İmkan daxilində mən şahın bütün suallarına cavab verib öz vəzifəmi yerinə yetirdim. İndi mənim bir xahişim var ki, şah kəramət göstərib bu kitab haqqında dərindən düşünsün və oradakı hikmətin gözəlliyinə öz təxəyyül və təfəkkürü ilə bir daha bəzək vursun, çünki hikmət və nəsihətin faydası yalnız onlardan çıxarılan nəticə və ibrət dərslərindədir…

Bu kitab hökmdarın əvvəlki şahlardan qat-qat üstün olduğunu, əql, zəka, fəzilət və hikmətdə onları vurub keçdiyini sübut etdi, şahın ömrünü min illərlə artırdı. Bu kitab şahın helminin çox, elminin kamil olduğunu bütün dünyaya göstərdi, onun adını əbədiləşdirdi, dövlətini aləmə tanıtdı. Sonra bu beyti əlavə etdi:

Hər sözün əvvəli və bir sonu var,
Sonsuzluq qoy olsun bizdən yadigar...

ƏMİR XOSROV DƏHLƏVİ



Əmir Xosrov Dəhləvi Nizami ədəbi məktəbinin ilk davamçısı və Hindistanda fars dilində yaranan ədəbiyyatın ən böyük nümayəndəsidir. Dəhləvi 1253-cü ildə Hindistanın Möminabad qəsəbəsində (bəzi mənbələrdə Dehli və Qurbənd şəhərlərində) anadan olmuşdur. Tarixi mənbələrdə onun bütöv halda adı belə gedir: Yəminəddin Əbülhəsən Əmir Xosrov Dəhləvi. Yəminəddin onun ləqəbi, Əbülhəsən adı, Əmir rütbəsi, Xosrov (hökmdar) təxəllüsü, Dəhləvi isə yaşadığı yerin adıdır. Laçın adlı türk qəbiləsinin başçısı olan atası Əmir Seyfəddin Mahmud Şəms Hindistana Orta Asiyadan köçmüşdür. Konkret olaraq onun hansı şəhərdən Hindistana gəlməsi ilə bağlı müxtəlif mülahizələr irəli sürülür. Tədqiqatlarda Mahmud Şəmsin buraya Keşdən (indiki Özbəkistan ərazisində yerləşən qədim ərazi), Çin Türküstanından, Bəlxdən, Qəznədən köçməsi barədə məlumatlara rast gəlmək mümkündür. Dəhləvinin atasının doğma yurdunu tərk etməsinin əsas səbəbi Çingiz xanın bu ərazilərə hücumu ilə bağlıdır. Mahmud Şəms 1261-ci ildə monqollara qarşı döyüşdə həlak olmuşdur. Atasının ölümündən sonra Dəhləvi ana babası İmadülmülkün himayəsində qalır. Onun ilk müəllimi Qazi ləqəbli Sədəddin Məhəmməd olmuşdur. İlk şeirlərini mədrə-

sədə oxuyarkən yazmışdır. Dövrün gözəl alimi və şeir bilicisi Xacə İzzəddinin imtahanından müvəffəqiyyətlə çıxmışdır. Əmir Xosrov Dəhləvi 1273-cü ildə Multan sultanının sarayına dəvət almışdır. Daha sonra xidmətini Dehli sultanının sarayında davam etdirmişdir. Dəhləvinin ən böyük ilk himayəçisi Dehli hökmdarı Müizəddin Keyqubad olmuşdur. Demək olar ki, saraylarda ömür sürmüş Ə.X. Dəhləvi ona verilmiş imtiyazlar sayəsində firəvan həyat yaşamışdır. Və bir-birini əvəz edən 7 Dehli sultanının hamiliyindən həm də yazıb-yaratmaq üçün istifadə etmişdir. «Xəzaneyi-amirə» əsərinin müəllifi Qulaməli xan Azad göstərir ki, Dəhləvi Sultan Qütbəddinin şərəfinə yazdığı «Doqquz göy» əsərinə görə sultandan mükafat olaraq bir fil ağırlığında qızıl almışdır.

Əmir Xosrov gənc yaşlarından Hindistan sufilərinin mürşidi Şeyx Nizaməddin Övliyanın (1236-1324) müridi olmuşdur. Şeyx öz şagirdini çox sevdiyindən belə deyirmiş: «İlahi məni bu türkün ürək yanğısına bağışla. Qiyamətdə əgər məndən soruşsalar ki, nə gətirmisən? Mən Xosrovu göstərərdim».

Caminin «Nəfəhatül-üns», Dövlətşah Səmərqəndinin «Təzkirətüş-şüəra», Rzaqulu xan Hidayətin «Riyazül-arifin» əsərlərində göstərilir ki, Şeyx Sədi Şirazi Dəhləvi ilə görüşmək məqsədi ilə Şirazdan Hindistana getmişdir.

Əmir Xosrov Dəhləvi 1325-ci ildə Dehlidə vəfat etmişdir. Mürşidi Şeyx Nizaməddin Övliyanın yanında dəfn olunmuşdur.

Ə.X.Dəhləvi zəngin yaradıcılıq irsinə sahibdir. Özünün dediyinə görə şeirlərinin sayı 500 min beytdən az, 400 min beytdən isə çox olmuşdur. Lirik şeirləri 5 divan şəklində tərtib olunmuşdur. «Uşaqlıq töhfəsi», «Ömrün ortası», «Kamalın

başlanğıcı», «Təmiz qalıq» və «Kamalın sonu» adlı 5 divanı şairin bütün şeirlərini əhatə edir. Dəhləvi lirikası Şərq poeziya ənənələrinin yüksək mənada davamı və inkişafı kimi əhəmiyyət kəsb edir. Lirik şeirin ən böyük ustadı M.Füzuli Dəhləvi poeziyasının yüksək məziyyətlərini «Qəlb dostu» əsərində belə qiymətləndirir: «Bu elmin banisi tək mən deyiləm. Onun bünövrəsi əvvəldən hind, Şirvan və Xorasan sənətkarları tərəfindən qoyulmuşdur. Evin üç sütunu Xosrov, Xaqani və Cami tərəfindən tikilmişdi. Mən isə Bağdaddan onun sütunlarını tamamlamağa səy etdim».

Dəhləvinin «Xəmsə»si N.Gəncəvi ənənəsinə cavab olaraq yazılmış ilk nəzirə hesab olunur. 35792 misradan ibarət olan bu poemaları Dəhləvi 3 ilə yazmışdır.

Bunların yazılma ardıcıllığı aşağıdakı kimidir:

1. «Mətlə-ül ənvar» («Nurların mənşəyi»)
2. «Şirin və Xosrov»
3. «Məcnun və Leyli»
4. «Ayineyi-İsgəndər» («İsgəndərin aynası»)
5. «Həşt behişt» («Səkkiz behişt»)

Bu əsərlər mövzu və ideya baxımından Nizami poemaları ilə səsləşsə də, forma və üslub baxımından fərqli təsir bağışlayır. Maraqlıdır ki, Dəhləvi məsnəvilərində şairin öz övladlarına nəsihəti yer almışdır. Belə ki, «Nurların mənşəyi»ndə qızı Məsturəyə, «Şirin və Xosrov»da oğlu Məsudə, «Məcnun və Leyli»də oğlu Eynəddin Xızra, «İsgəndərin aynası»nda oğlu Rüknəddinə, «Səkkiz behişt»də qızı Əfiqəyə ünvanlanmış nəsihətlərlə əsərin ümumi ideyası arasında müəyyən əlaqə axtarmaq mümkündür.

Nizami ənənəsinə cavab olaraq yazılmış poemalardan başqa Dəhləvi 5 orijinal poema da yazmışdır. «İki xoşbəxt pla-

netin birləşməsi» (1289), «Fəthlərin açarı» (1291), «Eşqiyyə» (1316), «Doqquz göy» (1318), «Toğluqnamə»(1320) adlı əsərlərində Dəhləvi dövrün, içtimai həyatın real təsvirlərini vermiş, eyni zamanda eşq macəralarının («Eşqiyyə») tərənnümünə xüsusi yer ayrılmışdır. Ə.X.Dəhləvinin zəngin yaradıcılıq irsi ona təkcə Hindistanda deyil, bütün Şərq dünyasında şöhrət gətirmişdir.

ŞİRİN VƏ XOSROV
(ixtisarla)

DASTANIN YAZILMASI HAQQINDA

İqbalım, taleyim gülən bir gecə...
Səadət Xosrova yar olmuş necə!
Bəxt xəzinədarı gəldi yanıma,
Müjdəsi nəşələr yaydı canıma.
Söylədi: «Hər sözü ey incə şair,
Nə əmrin, nə hökmün, de, mənə dair?
Qulunam, qəbul et, ərzim var sənə,
Uğurlu günümdə ugurlar sənə.
Əzəldən dostunam, parlaq günəşəm,
Sənə ilham vermək olubdur peşəm.
Yar oldum, şöhrətin düşdü cahana,
Fikir xəzinəni səpdin hər yana.
Öpdüm ayağından qul kimi indi,
Ol iki dünyanın hakimi indi.
Sözünlə fəth etdin bu dünyanı sən,
İndi o dünyanı fəth eyləyərsən.
Bəzə söz incinlə bütün dünyanı,
Gətirim tüğyana könül dəryanı.
Gülsün bəxt ulduzun coşğun təbindən,
Müştəriyə sevinc, müjdə verim mən.
Payla səxavətlə könül varını,
Açım Utaridin qulaqlarını.
İlham gəlininin yaxasını aç,
Ona nübar versin əkdiyin ağac.

Yoxsullar qoynuna inci tökəndə,
Göy xəzinəsinə yollanım mən də.
Darılma, dar günə çatar varın da,
Kimya gizlənibdir ovuclarında.
Su çarxın fırlanır, qaynayır quyun,
Qoy sirab eləsin təşnəni suyun.
Bir çeşmə suyunu ümmandan ala,
Bardaq deyildir ki, içsən, boşala.
Qazsan, yaralanar özü bulağın,
Su artar, açılsa gözü bulağın.
Qara su versə də qazdığın quyu,
Gözünü açmasan, çağlamaz suyu.
Düşür kəcəvədən, göstər gəlini,
Günəş məhəbbətlə sıxsın əlini.
Geysin qara atlas, geysin zərxara,
Əfsanə yaraşır o sehirkara.
Füsunkar gözündən şəfqət oxunsun,
Qoyma ki, hüsnünə nəzər toxunsun.
Gənclik təravəti daim solmasın,
Ömrü nakam cavan ömrü olmasın».
Eşitcək bunları bəxt pərisindən,
Onuntək ucaldım səmalara mən.
Cövlana gətirdim hünər quşunu,
Dağıtdım uyğulu könlün huşunu.
Gövhər mücrüsünün ağzını açdım,
Ürəkdən dodağa cəvahir saçdım.
Arzum qərq olsa da düşüncələrə,
Bilir ki, qadirəm sözdə nələrə.
Gövhərdən çıxmasa qulağa tana,
Gərək olacaqdır gövhərsatana.

Olmasa da yüksək dəyəri əgər,
Ağıllı insançın bir şeyə dəyər.
Yorub-usandırsa anlayan kəsi,
Mənasız deyildir bircə kəlməsi.
Yəqin ki, tapılar özüm ağılda,
Sevir əfsanə də, sevir nağıl da.
Kimin işi yoxdur xeyirlə, şərlə,
Keçirər gününü əfsanələrlə.
Dəvə şitillikdə nə yeyəsidir?
Tikan döşürərək gövşəyəsidir.
Hərənin dünyada bir cür zövqü var,
Kimi gözəl sevər, kimi də idbar.

EŞQİN QÜDRƏTİ HAQQINDA

Eşqsiz rahatlıq yoxdur cahanda,
Meylsiz dolanmaz fələk bir an da.
Eşqsiz yaşayan insan deyildir,
Eşqsiz bir vücud bir ovuc gildir.
Ağıldır, məsləkdir dünyanın şamı,
Aşiqi bunlardan çox sevir hamı.
Könlünü bağlasa pişiyə belə,
Bu iman deməkdir kişiyə elə.
Qəlbin pişiyə də uymasa əgər.
İtin qabağına atmağa dəyər.
Bir pişik eşqiylə yanmasan da sən,
Vəfalı olmağı itlərdən öyrən.
Bəlkə də aşiqlik bütpərəstlikdir,
Dünyaya uymamaq yalnız məstlikdir.

Eşqin bütpərəsti müqəddəs olar,
Eşqsiz itaət quru səs olar.
Bir hindli qadınca yoxmu hünərin?
Diri-diri yanır yolunda ərin.[1]
Çoxlu atəşpərəst bütə uymadı,
Mişarla bölündü, ağrı duymadı[2].
Həqiqi eşqdən söz salan dostum,
Eşqin nəştərilə yaralan, dostum.
İt səsi eşidib, özgə yol tutan,
Azarsız, bezarsız imandan utan.
Qumrunu uçurub buraxsan yalqız,
Bağa yox, qəfəsə meyl edər yalnız.
Göyərçin taysızsa, oyundan qalar,
Özünü buludlar qoynundan salar.
Dəysə ayağına daş-kəsək sənin,
Çətin ki, naləni tez kəsək sənin,
Məcazi olsa da, can ver sevgiyə,
Səadət ondadır, soruşma, niyə?
Həqiqət yoluna məcaz nur saçar,
Açar xəzinəni belə bir açar.

---

[1] *Qədim Hindistanda belə bir adət varmış ki, ər ölən zaman qadını yandırarmışlar. Bu adət ilk dəfə Sultan Mahmud Qəznəvi tərəfindən qadağan edilmişdir. Şair həmin adətə işarə edərək hindli qadının öz eşqinə sadiq qalaraq, əri öldükdən sonra odda yanmaqdan çəkinmədiyini göstərir və məhəbbət yolunda fədəkarlığı insan üçün ən ali keyfiyyət kimi qiymətləndirir.*

[2] *Rəvayətə görə Zəkəriyyə adlı bir peyğəmbər bütpərəstliyi qəbul etməkdən boyun qaçırıb, bir ağacın koğuşuna sığınmış, guya koğuş bitişərək onu gizlətmişdi. Lakin Zəkəriyyənin əbasının ətəyi çöldə qalmış, bütpərəstlər bunu görüb, onu ağacla birlikdə mişarlamışlar. Ehtimal ki, müəllif bu rəvayəti nəzərdə tutur.*

SULTAN MAHMUD VƏ AYAZ HEKAYƏTİ

Deyirlər, dünyadan köçdüyü zaman,
Sultan Mahmud adlı böyük hökmran
Ölüm zəhərini şərbət edəndə,
Ömür karvanını çəkib gedəndə,
Bir saray əyanı üz tutdu şaha:
«Ürəkdə arzunuz qalıbmı daha?
Yerinə yetirək arzunuzu biz,
Məzara getməsin son nisgiliniz...»
Göz yaşı tökərək dedi hökmdar:
«Bir anlıq qonağa iltifatın var.
Axır nisgilimi bilmək istəsən,
Eşit son arzumu, muradımı sən.
Son dəfə bir anlıq açsam gözümü,
Ayazıma tərəf çevir üzümü.
Baxım son nəfəsdə gizlicə ona,
Yetsin o dünyada qoy arzum sona...»
Tezcə çağırdılar dilbər sirdaşı,
Can verən aşiqə töksün göz yaşı.
Nazla divan tutar dünyaya Ayaz,
Başladı qəmzəyə, ədaya Ayaz.
Çatdı arzusuna bu zaman aşiq.
Tək bircə baxışla verdi can aşiq.
Sevgi-təlaş odu olsa da canda,
Səadət rəmzidir iki cahanda.
Bu yolda bir qapı açmaq məqamı,
Əldən düşmək nədir, baş qoyar hamı.
Sevgidə başından keçsə bir insan,
Olsun dərdli başım qoy ona qurban.

Saqi baş ağrısı versə də, nə qəm,
Bu dərdin haqqını ödəməliyəm!
İlahi, bu yerdə yol göstər mənə,
Bu yolla yetişim güllü gülşənə.
İçsəm bircə qurtum eşqin meyindən,
Nəşəsi ömürlük çıxmaz beyindən.

XOSROVUN OVLAQDA ŞİRİNƏ RAST GƏLMƏSİ

Rəssam ki, söhbəti rəsmdən saldı,
Sanki yaralı quş cələdə qaldı.
Şahı oda saldı sözü Şirinin,
Şirindi vüsalı, özü Şirinin.
Döndü tüğyan edən səmum yelinə,
Çapdı köhlənini Ərmən elinə.
Ərmən ölkəsinə kölgə salanda,
Ay kimi nurunu yaydı hər yanda.
Ovlağa çıxmışdı Şirin bu ara,
Oxu da, nazı da ölüm şikara.
Yayından nə təhər süzər oxları,
Pələngin alnına düzər oxları.
Söz yoxdu uğurlu bəxtə, iqbala,
Al günəş qovuşdu nurlu hilala.
Məhəbbət atəşi ürəkdə yandı,
Baxışlar od aldı, ürək də yandı.
Gözə-göz dayanıb, baxdı yara-yar,
Süzdü bir-birini oğrun baxışlar.
Oxları yağdıran, atan gözləri,
Şikartək al-qana batan özləri.

Dinmək istəsədə şah ilə pəri,
Elə bil heyrətdən dondu dilləri.
Şirin onu süzdü sükutlu anda,
Baxışdan qəlbinə doldu tikan da.
Çalışdı özünü tez alsın ələ,
Qatlaşmaq çətindi tufanlı selə.
Qəlbin cilovunu tapşırdı cana,
Ancaq eşqi gəldi yenə cövlana.
Ayırdı canından qəlbi birtəhər,
Ürək xilas oldu, yollandı kəhər.
Cəfaya dözümsüz bir halda getdi,
Xəyalı vüsalda, sevdada getdi.
Təqib edən halsız, gedəndə min naz,
Göyərçin dalınca şığıdı şahbaz.
Gözəl çəmənzara tərəf buruldu,
Bir çinar altında çadır quruldu,
İşarə eylədi öz kənizinə,
Güdüb, qəriblərin düşsün izinə.
Bir pəri qaçaraq onlara sarı,
Tapdı üzdən tanış yad adamları.
Üz tutub Şapura söylədi ki, şah
Günəş üzlü qızı eyləsin agah.
Söylədi kənizə Şapur bu ara:
«Sirrimiz deyilməz yad insanlara.
Dünya mələkəsi soruşsun özü,
Danışmaq, bizdədir aləmin sözü.
Kəniz gəlib, etdi xoş xəbərlə şad,
Lalətək açıldı qaməti şimşad.
Şapuru hüzura çağırdı bu dəm.
Üzündən nur seli yağırdı bu dəm.

Dedi ki, xoşladım sizintək kəsi,
Yanır üzünüzdə zəka şöləsi.
Sən kimsən? O kimdir? Yaraqlı halda
Neçin dolaşırsız bizim mahalda?
Ehtiram göstərdi Şapur gözələ,
Qılıqla alqışa başladı belə:
«Bəxt nuru alnında yanır, ey pəri,
Sirdaşın göydəki Zöhrə, Müştəri,
Şahlıq da, vüqar da veribdir baxtın,
Ömürlük var olsun tacınla taxtın.
Cavabı uzundu sorğu-sualın,
Olar başağrısı, pozular halın.
Gücüm, iqtidarım çatsa nəyə də,
Dəyər söyləməyə, eşitməyə də.
Dayanan atlıya nəzər yetir bir,
Qızıl köhlən üstə sərvə bənzəyir.
Sadə görünsə də gendən baxana,
Şöhrəti bəllidir bütün cahana.
Bir əcəm padşahı gedibdir bada,
Bu günəş nur saçır həmin səmada.
Səadət üz verib sizin bu yurda,
O əcəm günəşi qonaqdı burda.
Şahlar yaxşı bilir, var ehtişamı,
Xosrov Pərviz, – deyə tanıyır hamı...»
Şirin Xosrov adı eşidən zaman
Sındı iradəsi, sarsıldı yaman.
Maraqla dinlədi Şirin söhbəti,
Xosrov haqqındakı şirin söhbəti.
Götür-qoy elədi öz ürəyində,
Vüsal arzusuydu söz ürəyində.

Şah gələn yolları öpməyə hazır,
Yoluna incilər səpməyə hazır.
Tədbir bu məqamda işə yaradı,
Arzu sarayına açar aradı.
Niyyətin haradır, mənzilin ora,
Qismətin baxmayır tədbirə, zora,
Gətirsə taleyin, bəxt iqbalın da,
Ehtiyac tanımaz istiqbalın da,
Zəmi görəcəksə dən dolu sünbül,
Görməz dürr yağsa da bir dolu sünbül.
Var-dövlət dalınca düşmək əbəsdir,
Var özü nəsibsə, qismətin bəsdir.
Bəxtə birdən çatdı, bax, indi Şirin,
Uğurlu bəxtinə sevindi Şirin.
Çəkdi şah yanına onu qayəsi,
Günəş hüzuruna düşdü sayəsi.
Sürtdü üz-gözünü yollara mələk,
Öpdü üzəngini vəcdə gələrək.
Bu təzə ülfətə qəlbən yandı şah,
Eşq ilə yenidən havalandı şah.
Təmkinli saxladı hələ özünü,
Aldı ustalıqla ələ özünü.
Köhləndən yel kimi atıldı həmən,
Şümşad ayağını öpdü göy çəmən.
Günəşə baxdıqca qamaşdı gözü,
Dargözə dar çəkər belə yar özü.
Sevgidən yaranmış dünyaya düşdü,
Aşiq bu dünyada sevdaya düşdü.
Biri ilk baxışdan huşsuzca qalan,
Birisi heyrətdən sükuta dalan.

Üzlərdə eşq odu, gözdə xumarlıq,
Baxışlar öpüşər susanda varlıq.
Şirin heyranlıqdan əl çəkdi daha
Şirin iltifatla üz tutdu şaha:
«Yaradan bəxtimə əmindir, əmin,
Gülümə buludtək yağdı şəbnəmin.
Milçək qonsa batar şirin bəhməzə,
Zümrüd ovlamışam ov gəzə – gəzə .
Damlaya qovuşmaz tüğyanlı ümman,
Qarışqa yuvasın neylər Süleyman?
Günəş gizlənərmi kiçik zərrədə?
Bacada rəqs edər nurdan zərrə də.
Sarayın günəşi bizi yaxmaya,
Sala işığını zülmət daxmaya».
Xosrov dilə tutdu gözəl xanımı:
«Fələk viran qoyub xanimanımı.
Qəlbimi sarsıdan sonsuz kədərdir,
Sizi dərdə salmaq, məncə hədərdir.
İnsan insanlığı heç zaman atmaz,
Yükünü dostunun belinə çatmaz.
İşim var burada, unutma bunu,
Ruma uçururam dövlət quşunu.
Oradan şad-xürrəm qayıdan zaman,
İltifat etsəniz, olaram mehman...»
Şirin yalvardı ki: «Məni aldatma,
Qəlbimə hakimsən, naz-qəmzə satma.
Günəş ayağımı öpməyə enər,
Bir öpüş qıyınca, qarşımda sönər.
Öpüşlə yıxıldım ayaqlarına,
Belə mehribanlıq gəlir arına?»

Şəkər dodağını şah tutdu dilə,
Öpdü ayağını icazəsilə,
Sonra yalvarışla öydü yarını:
«Qəlbimə saçmısan peykanlarını.
Meylini döndərdi şah adım sənin,
Mənə ülfətini sınadım sənin.
Elə cəsarətim, qüdrətim hanı,
Tərk etmək istəyəm bu astananı?
Boynunda gəzdirər əsir zənciri,
Canımı sevdanın kəsir zənciri.
Balıqtək düşmüşəm atdığın tora,
Xosrov sənindədir aparsan hara.
Gəncliyin ilk eşqi yandıran olur,
Küləklə atəşi andıran olur».
Onlar bir-birinə könül açdılar,
Heyrətlə məhəbbət vidalaşdılar.
Xosrova: «Qalx, – dedi, dodağı püstə,
Səadət kölgəsi sal başım üstə».
Səba sığal çəkdi sərv ağacına,
Qırqovul qoşuldu fərə laçına.
Şirinin qəsrinə yollandı onlar,
İxtilat qatarlar sözü olanlar.
Şirin sarayına xəbər göndərdi,
Tale bizə mehman bir ər göndərdi.
Bildi Məhinbanu bu iqbal nədir,
Nurlu ay Ülkərin mənzilindədir.
Şahlar adətilə pişvaza durdu,
Səxavət göstərdi, ziyafət qurdu.
Hamı xidmətdədir... izdiham... haray...
Coşaraq qaynayır süslənmiş saray.

Əyanlar, əşrəflər hər yandan axdı,
Quruldu, bəzəndi hökmdar taxtı.
Ziyafət quruldu şahanə dəblə,
Alimlər əyləşdi təmkin-ədəblə.
Badələr – dodaqdan öpüş diləyən,
Səba yeli – ruha ətir çiləyən.
Camlar odlu meylə yandı əllərdə,
Öpdü ayaqları sürahi yerdə.
Saqi əldə cami naz satdı hər an,
O, meydən sərxoşdu, mey içən ondan.
Ucalıb – endikcə hər udun səsi,
Ağzı açıq qaldı şərab şüşəsi.
Nalə saldı candar aralı qəlbi,
İpək tellər tikdi yaralı qəlbi.
Şərab ördəkləri, atəş quşları?
Şadlıqdan ağlayır hey zarı – zarı[1].
Quş, turac, təşnəydi, – qan ağladı qan,
Atəş yanıb söndü göz yaşlarından.
Üzərlik tüstüsü qalxıb hara, bax,
Odlu nəğmələrə, oyunlara bax!
Dönüb yanan udun tüstüsü çətrə,

---

[1] *Ehtimal ki, şair qoqnos adlı Simurq, yaxud Zümrüd quşuna fars ədəbiyyatında «Mürği azərəfruz» (od qalayan quş) deyilməsini nəzərə alaraq, «Mürğani – atəş» (atəş quşları) ifadəsini poetik obraz kimi işlətmişdir. Əfsanəyə görə bu mifik quş min il yaşayır. Ömrü sona çatanda çırpı, şax – şəvəl yığıb, tonqal qalayaraq, özünü oda atıb yanır.*

«Bətani badə» (şərab ördəkləri) dedikdə müəllif ördək şəklində olan şərab sürahisini nəzərdə tutur. Xosrovun şərəfinə Məhinbanunun düzəltdiyi ziyafəti təsvir edən şair burada müxtəlif quşların fiqurlarından ibarət su və şərab qabları ilə məclisin bəzəndiyini söyləyir.

Göy kəcavəsini bələmiş ətrə.
Xosrov taxt üstündə bədrli aydı,
Mələyi ismətdə hilalı taydı.
Dodağı istəyir öpsün mehmanı,
Naz deyir: «Öpüşün yerini tanı».
İxtilat qatmağa yanır varlığı,
Lakin məhəl qoymur işvəkarlığı.
Biri tələşını gizlədir qəsdən,
Biri aşkar yalnız odlu həvəsdən.
İmkan da verməyir abırla, ismət,
Sevdadan yanana kim ola qismət.
Baxışlar baxışdan od alıb indi,
Ağıl heyranlıqdan mat qalıb indi.
Ehtiras kuzəsi daşdığı anlar,
Ürək qanlarını nuş edir onlar.
Çırpınan ürəklər sinəni sökür,
«Tələsmə!» deyərək ümid dil tökür.
Ehtiras üzəcək axır qəlbləri,
Sərxoşa döndərib, yaxır qəlbləri.
Səhərdən axşama məclis uzandı,
İçilən şərabın məzəsi candı.
Günəş gözlərini yumdu bu ara,
Cəmşid, Zöhhak kimi getdi məzara.[1]
Şaha elə gözəl yataq salındı,
Ulduzlu göylərdən atlas alındı.
Mey, noğul, dəm – dəstgah... büsata bir bax!
Kənizlər yanırlar Sürrəyasayaq.

---

[1] *Əfsanəyə görə Cəmşid Zöhhakla apardığı müharibədə məğlub olacağından qorxub gizlənmiş, 100 il keçdikdən sonra Zöhhak onu tapıb mişarla doğramışdır.*

Şah gəldi yatağa, xarabdı halı,
Başında süsənin fikri, xəyalı.
Gecə sübhə qədər gözü yoldaydı,
Taledən diləyi o nurlu aydı.
Dadlı nemətlərdən dadmadı birin,
Şirinsiz acıydı ağzında şirin.
Qəlbində tikanlar gül ətri üçün,
Gürzə xəznə gəzdi dürr xətri üçün.
Sənəm də yataqda yatmır tələşdan,
Sevdası huşunu alıbdı başdan.
Qan udur ismətin, abrın şərindən,
Utanıb, çəkinir kənizlərindən.
Həsrətdən yanırlar, vüsal uzaqdı,
Ayrılıq arada bir yanar dağdı.

XOSROVUN ÖZ EŞQİNDƏN ŞİRİNƏ SÖZ AÇMASI

Sübh çıxdı pərdədən aşiq ahınan,
Ahının oduyla isindi hər yan.
Gözəl Şirin yenə ziyafət qurdu,
Sağında, solunda dostlar oturdu.
Aşiqlər gəldilər fəğana yenə,
Döndü bağırları al qana yenə.
Udun iniltisi, saqinin meyi...
Ürəklər məstlikdən saldı gileyi.
Aşiqlər köksünü elə ötürdü,
Həya pərdəsini üzdən götürdü.
Sonsuz məhəbbətlə sevənlər dindi,
İlk gündən artıqdı ixtilat indi.

Abır gözləməkdən canı üzüblər,
Səbrə qatlaşaraq xeyli dözüblər.
Yağış aram – aram yağdı güllərə,
Get – gedə güclənib döndü sellərə.
Tüğyanlı tufanın qopdu harayı,
Sarsıldı özüldən varlıq sarayı.
Qazanlar istidən necə qaynadı,
Qapaqlar atılıb, yerdə oynadı.
Gecə könüllərə kədər saçıldı,
Ürəyin qıfılı sözlə açıldı.
Xosrovun gözündən qızıl qan axdı,
Bu qanlar bəlkə də bağrından axdı.
Söylədi Şirinə: «Gözümə nursan,
İnsafın yoxmudur, yaman məğrursan?!...
...Xosrov yalvarışla dil tökdü yenə,
And içib, önündə diz çökdü yenə:
«Yalnız getməlisən Xosrova ərə,
Yer yoxdu inkara, bəhanələrə».
Şirin dedi: «Eşqim gəlməyir dilə,
Çətin ki, cəvahir asan deşilə.
Baxma ki, sakitəm, yumşalmışam mən,
Sevda atəşindən od almışam mən.
Ahu deyiləm ki, havalanam da,
Şəhvətdən qabantək, ittək yanam da.
Bilirəm iradə, mətanət nədir,
Aşiqlik cilovu öz əlimdədir.
Dirilik suyunu iç desə yağı,
Ölsəm də içmərəm, sanaram ağı.
Çəkdi sənə sarı ehtiras, həvəs,
Birini sevməyə borcludur hər kəs.

Səni qoyub, könül vermərəm yada,
Xosrovdan yaxşısı varmı dünyada?
Günəşdən savayı yar anmaz hilal,
Ansa, gün yanında daranmaz hilal.
İlk eşqin andıdır qəlbimin sözü,
Sevgidən yaranıb dünyanın özü.
Yataq edənəcən məzarı Şirin,
Sevməz səndən özgə bir yarı Şirin.
Ruh söküb sinəmi, çıxsa bədəndən,
Sevgilin ayrılmaz yenə də səndən.
Girib gəzməyincə könül bağını,
Salmaram boynuma boyunbağını...»
Şah gördü peymanı, bu andı, əhdi,
Kam almaq qəsdinə olmadı cəhdi.
Süzdü yar hüsnünü, zülfün çətrini,
Doldurdu qəlbinə ənbər ətrini.

ŞAPURUN XOSROVA NƏSİHƏTİ VƏ ONDA ŞƏKƏRƏ RƏĞBƏT OYATMASI

Gövhər mücrüsündən inci paylayan,
Sözün şöhrətini ellərə yayan
Yazıb ki, şah düşdü yardan aralı,
Gəldi sarayına qəlbi yaralı.
Kövsərə həsrəti təşnə insandı,
İztirab oduyla sinəsi yandı.
Qəm – qüssə içində qaldı qəsrdə,
Bu günə düşməzdi əsir – yesir də.
Dərdi ixtiyarını əlindən aldı,

Darıxıb, meylini səhraya saldı.
Sakit, çox gözəldi küydən, haraydan,
Şikar həvəsiylə çıxdı saraydan.
Yanında qəlbinə yatan nökərlər...
Hər an hüzurunda boyun bükərlər.
Sirdaşı Şapur da gəzir yanında,
Onu ovudurdu qəmli anında.
Hikmətdən söz açır müdrik ər kimi,
Hekayət danışır nədimlər kimi.
Sehriylə müşküllər açandı Şapur,
Şah ovundurur haçandı Şapur:
«Dünya gərdişini qurandan bəri,
Dönüklük üstündə qurub işləri.
Gözü götürməyir insan şadlığı,
Bir qəlbin təlaşdan yox azadlığı.
Əməli saxtadır, cəhdi yalandır,
Yarı öz yarından ayrı salandır...»
Yenə də Xosrovun qaraldı qanı,
Söylədi: «Taleyin yoxdur amanı.
Bivəfa çıxmaqmış Şirinin qəsdi,
Onu sevən kəslə ülfəti kəsdi.
Şirindən çatmadıq bu acıya biz,
Onda günah yoxdur, bəxtimdir bais.
Nə səbəb axtarsan yaxşı – yamana,
Günah bəxtə düşər, töhmət zamana.
Günahkar deyildir Şirin burada,
Dönük bəxtim qoymur çatım murada,
Kuzədə, şüşədə qalmayıbsa mey,
Əbəsdir saqidən şikayət, giley.
Yağış yağmayıbsa bircə qətrə də,

Gülşən həsrət qalar gülə, ətrə də.
Elə ki, çırağın sönər evində,
Gözündə zülmətə dönər evin də.
Sən fitnəyə qarşı olsan da mətin,
Ürəklə bacarmaq çətindir, çətin.
Uzandı arada giley – şikayət,
Uzandı sevgidən söhbət, hekayət.
Şah qəlbi andırdı közü, ocağı,
Söndürdü Şapurun sözü ocağı.
Dolandı başında eşqin havası,
Gözəllər hüsnünün zövqü, səfası.
Şah dedi: «Aşiq var barı, cahanda,
Ola Şirin kimi yarı cahanda?!
Dünyaya gəldiyim ilk gündən bəri
Görmədim özütək füsunkar pəri...»
Mənalar canlandı Şapur sözündə:
«Beş şahdan birisən dünya üzündə.
Şirinin nəşəsi məlhəmdir indi,
Eşqi sənə candan daha şirindi.
Eşqin havasından qızsa gözün də,
Döşəmə atlaza dönər gözündə.
Qışda odla qızar canın, doğrusu,
Təşnəlik məqamı şirin didar su.
Aclıq hövsələni eyləyərsə dar,
Cevizin qərzəyi ağzında qaynar.
Fikrinə şərikəm, şübhəm də yoxdur,
Şirinin hüsnünə müştəri çoxdur.
Dünyanın bağında elə sərv hanı?
Pisləmək olarmı o cür insanı?
Gözündə yüz bütə dəysə də əgər,

O gözəl gözümdə min bütə dəyər.
İstər alim gəlsin, istərsə nadan,
Yaradan biləni bilər haradan?
Tanrıya and içim, vallah, min kərə,
Səbəbkar özüdür xeyirə, şərə.
Şirin ixtilatda, şirin söhbətdə,
Ülvi gözəllikdə, gözəl xislətdə,
Yer göylə, göy yerlə birləşsə belə,
Rast gəlmək çətindir elə gözələ.
Eşqi şah qəlbinə bir bəla olub.
Aləmin dərdinə mübtəla olub.
Biganə sanmıram özümü şaha,
Deyim tədbirimi, sözümü şaha.
Özünü ələ al, hökmdarsan sən,
Tacını, taxtını salma şöhrətdən.
İşimiz pozular, el bizə gülər,
Şahın əzabına kim dözə bilər?
Gümüş bədənliyçin halın yamandır,
Dəliyə dönmüsən, Allah amandır!
Ürəkdə coşdursan sevda közünü,
Eşq odu qarsalar ağlın gözünü.
Doqquz göy altında bataraq qəmə,
Dərdimiz dərd olar bütün aləmə.
Qəlbi əsir eylər məhəbbət, həvəs,
Özünü əsirə döndərmə əbəs.
Meylini düşmənə salan bir ürək
Əğyardan betərdir, deyildir ürək.
Düşmən düşməndir ki, səndən gen gəzər,
Dost kimi görünən düşməndən həzər.
Yarla əylənməyin qeydinə qalma.

Özünü alçaldıb, ayağa salma.
Səni ər etməyə yox qəsdi onun,
Önündə sınmağın əbəsdi onun.
O ki, yar olmayır bir hökmdara,
Qanmır şöhrət hara, zəlillik hara?
Göynətmə qövr edən dağla qəlbini,
Özgə gözəllərə bağla qəlbini.
Ürək zindandadır öz əməlinlə,
Yazığı zindandan çıxar əlinlə.
O gül fidanını gətirmə yada,
Nazlanan sərvlər çoxdur dünyada.
Canın sağ olarsa, saysızdır canan,
Gözəllər sərvətə uyur hər zaman.
Ülfətdə unutma iki çarəni,
Bu yol xilas edib hər biçarəni.
Vəfasız çıxarsa sevdiyin pəri,
Tərk edib, sevəsən özgə dilbəri.
Eşq odu aşiqi olsa yaxası,
Qurtarsın sevdadan gərək yaxası.
Eşqin zəncirini kim atsa əgər,
Dediyim bu iki tədbirə dəyər.
Bir fikir də gəlib aglıma hələ,
Səfər etməliyik başqa bir elə.
İsfahan elində bir ayüzlü var,
Rum, Çin gözəlləri qibləgah sanar.
Məftunu aşiqlər, adı da Şəkər,
Şirin şirinlikdə tək ona çəkər.
Onu sevənlərin yoxdur sayı da,
Yoxdur gözəllikdə əsla tayı da.
Narınc məmələri gün kimi yanar,

Ürəyə yaxındır, əldən də kənar.
Qapısı sevənə məhşər ayağı,
Kəsər kandarını dəlisayağı.
Dünyanın şahları hüsnünə mail,
Üzünə həsrətdi hər gəda, sail.
İstər hər hökmdar, hər ağa onu,
Gələr İsfahana almağa onu.
Hamı dərgahına qiblətək baxar,
Üstünə xəzinə çay kimi axar.
Canları, malları soyan Şəkərdir,
Hamını lüt – üryan qoyan Şəkərdir.
Gündüz naz sataraq, əda işlədər,
Aşiqə mey süzüb, noğul dişlədər.
Gecə mehman gözlər, o gələ bəlkə,
Günəş əvəzinə göndərər kölgə.[1]
Meylə elə sərxoş eyləyər səni,
Bal sanıb, içərsən acı sirkəni.
Uşaqtək aldadar tutaraq dilə,
Alar üzüyünü bircə əncilə.
Çatmaz vüsalına gecələr aşiq,
Kəniz qucağında gecələr aşiq.
İsmət beşiyində qayğısız yatar,
Yasəmən qoxlanar, şümşad naz satar.
Pula satılmadı, şahlar incidi,
Bir almaz görməmiş bakir incidi.
Belə bir gövhərə çoxdur xiridar,
Üzünü görməmiş yüz alanı var.

---

[1] *Bu beytdə Günəş – dedikdə Şəkər, kölgə dedikdə qaravaş nəzərdə tutulur. Yəni gecə qonağın yanına Şəkər özü getmir, qaravaşını göndirir.*

Şirinlə eşqindən el söz açandan,
Şəkər sevdanızı bilir haçandan.
Şahın sədaqəti bəllidir ona,
Yüz canla vurulub o nazlı sona.
Səni sevdiyini bilir el, şəhər.
Adın dilindədir hər axşam – səhər.
Tək sənə aşiqdir gözəllik ayı,
Kimsəyə yar olmaz səndən savayı.
Yoluna nur saçan parlaq iqbaldır,
Gecənin günəşi – nurlu hilaldır.
Kim deyir hər sevda şirin sevdadı,
Şəkər də şirindir, vardır öz dadı.
Gülabda şirinlik görməsən də sən,
Ağzın şirinlənər şirin – şəkərdən.
Üzüm suyunamı sərxoş təşnədir?
Şəkər qamışının suyu bəs nədir?
Gül yoxsa, müşk – ənbər ondan üstündür,
Gecənin qəlbində çıraq da gündür.
Salıb Şəkər eşqi kimi arzuya,
Düşüb ixtiyarsız şəkəri suya.
Canıdır eşqinə can atan ərin,
Şirinin yerinə olar Şəkərin...»
Bu söz şahda sevgi oyatdı həmən,
Şəkər vüsalına can atdı həmən.
Əlində ahular əsirə döndü,
Ovlağı tərk edib o, qəsrə döndü.
Sevda ürəyinin oldu hakimi,
Gecə oyaq qaldı səhərə kimi.

XOSROVUN ŞƏKƏRLƏ EVLƏNMƏSİ

Səhərin gəlini rübəndi açdı,
Günəş camalından gur şölə saçdı.
Şabaş yağdıraraq göy cilvələndi,
Yerə tabaq – tabaq gövhər ələndi.
Sultan yüz diləklə sevdi yarı da,
Əbədi ülfətdi məramları da.
Kahini gizlicə çağırtdırdı şah,
Zərdüşt adətilə bağlandı nigah.
Kahin başa vurdu evlənmək dəbin,
Murada yetirdi şahidsiz kəbin.[1]
Aşiq yar yanına – gərdəyə vardı,
Şəkər nəşəsilə tuti xumardı.
Elə bil sarmaşıq gülə büründü,
Xəzinə üstündə şahmar süründü.
Süfrənin neməti hardadır, harda?
Düzülüb halvalar, paxlavalar da.
Əlini əvvəlcə o, duza atdı,
Sonra süd götürüb, payına qatdı.
Şəkər də halvadan şirinlik umdu,
Uzun barmaqları halvaya cumdu.
Sədəfi xəznəyə atdı əjdaha,
Sədəf qətrə umdu yağışdan daha.

---

[1] *Adətən nigah bağlanan zaman evlənən tərəflərin mötəbər adamları şahidlik edir. Atəşpərəstlərin adətinə görə kəbin kəsiləndə kimsənin şahid olmasına ehtiyac yoxdur. Guya evlənmək zamanı zərdüştlərin müqəddəs saydıqları xeyir allahı Hürmüz, ay, günəş və ulduzlar bu izdivaca şahidlik edir. Şair burada Xosrovla Şəkərin Zərdüşt adəti ilə evlənməsinə işarə etmişdir.*

Gördü ki, şərbəti şirindi yaman,
Ona neçə damla su tökdü haman.
Canandan kam aldı Xosrov burada,
Qəlbi sakitləşdi, çatdı murada.
Sarıldı qoynuna yarın qolları,
Artıq başa vurdu uzaq yolları.
Şəkər gülabının şirindi dadı,
Şirin halvasını yada salmadı.[1]

XOSROVUN ŞƏKƏRLƏ EVLƏNMƏSİNDƏN ŞİRİNİN XƏBƏR TUTMASI VƏ SƏHRAYA ÇIXARAQ FƏRHADLA GÖRÜŞMƏSİ

Dünya görünməyir Şirin gözünə,
Xosrov başqa Şirin tapıb özünə.
Fələyin cəfası qəlbini sıxdı,
Uğursuz bəxtiylə savaşa çıxdı.
Bir dostdan, qəmxardan görməyir vəfa,
Ürək də bivəfa, yar da bivəfa.
Şahsa da könlündə mindi kədəri,
Bir dağdı köksündə indi kədəri.
Hər gecə qəlbini təklik dağladı,
Gecələr sübhədək zar – zar ağladı.
Yuxusuz qalmaqdan ay kimi soldu.
Küləklər vəfalı qasidi oldu.
Ürəyi fərraşa döndü arada,
Gözündə yer verdi ulduzlara da.

---

[1] *Beytin mənası : Xosrov Şəkərin eşqinə uyandan sonra Şirini unutdu.*

Nisgilli gecəylə açdı səhəri,
Gündüz də artırdı qəmi, qəhəri.
Qəmdən baş götürüb atını çapdı,
Dağlarda, düzlərdə təsəlli tapdı.
Şikar vura – vura, ov qova – qova,
Saldı öz meylini ovlağa, ova.
Qaranlıq düşəndə o, qəsrə döndü,
Yenə də xiffətdən əsirə döndü.
Dağ kimi azacıq uçdu dağ – düyün,
Bisütun dağına yollandı bir gün,
Səyirtdi atını o dağa sarı,
Köhlənin nalıyla kəsdi yolları.
Gördü arx çəkilib sal qayalardan,
Yol keçir ovulmuş çal qayalardan.
Daşlar cilalanıb bir zindan təki,
Ləçəkli güllərdir daş üstündəki.
Hamardır, büllurun saf şüşəsidir,
Çıxsa qarışqa da sürüşəsidir.
Valeh olub dedi: «Yaşa, sənətkar!
Gör, nə cila verib daşa sənətkar».
Hər arxa heyrətlə yetirdi maraq,
Süzdü incə – incə heyran qalaraq.
Dağcüssə köhləni Şirin çapanda,
Sataşdı gözünə dağı çapan da.
Sonsuz arzu ilə tələsdi Şirin,
Yanına keçməyə yol gəzdi Şirin.
Bir gözəl gənc gördü, şümşad qaməti,
Çapdığı dağlarda var iqaməti.
Qolunun hər biri bir polad sütun,
Tişəsi zərbindən əsir Bisütun.

Soruşdu: « De, necə çapdın bu dağı?
Tişəylə açmısan qızıl yatağı.
Bu nə möcüzədir, adın nədir bəs?
Yanında Ərjəngin sənəti əbəs!».
Bu səsi sənətkar eşidən zaman
Əhvalı pozuldu, tutuldu yaman.
Gördü bir hicablı bütdür dayanan,
Bulud arasında günəşdir yanan.
Ah çəkib dedi ki, Fərhaddır adım,
Göz qabağındadır öz istedadım.
Bu polad külüngüm daş yarır mənim,
Hər zərbəm bir dağı qoparır mənim.
Tişəmin gücünə əminəm, əmin,
Tükü dəlib keçər ucu tişəmin.
Səsin qulağıma gəlib çatanda,
Ağlımı, huşumu aldı bir anda.
Danışdım, sənətim, adım bilindi,
Mənə öz adını sən söylə indi».
Sənəm dedi: « Bunu çətin bacaram,
Bənd olma, uzundur mənim macəram.
İstəyim budur ki, əmrim ilə sən,
Dağları yararaq, bir arx çəkəsən.
Özün ol bu işdə mənə havadar,
Bilirsən nə qədər ehtiyacım var?
Ərmən dağlarında yurd salmışıq biz,
Qoyun – keçimizin sayı da hədsiz.
Başı sıldırımdır dağın hər yanda,
Hamı əzab çəkir süd daşıyanda.
Elə arx çəkəsən sən gərək burda,
Çətinlik çəkməyək, süd axa yurda.

Bu işi kim görər səndən savayı?
Özgənin zəhməti olar havayı.
Gücünün şahidi öz sənətindir.
Qüdrəti olana işmi çətindir?
Sanma ki, uşağım, ya da dəliyəm,
Sərxoş şir olsam da, dərrakəliyəm.
Zəkanın güzgüsü parlar hər zaman,
Daşı da döndərər aynaya insan».
O qüdrət sahibi söylədi belə:
«Çətin, zəhmət haqqım ölçüyə gələ.
Yaxşısı budur ki, sevdanı kəsək,
Nağdını buraxıb, nisyəmi gəzək?...»
O şəkər dodaqlı yenə də dindi:
«Nə var ətəyinə mən tökəm indi».
Fərhad vücudunu torpağa sərdi,
Öpdü qədəmini, açıldı dərdi:
«Ortaya məzəndə atmaq günahdır,
Sənəti qızıla satmaq günahdır.
Hər sənət dövlətlə ölçülsə əgər,
Gövhərin dəyəri saxsıya dəyər.
Can alan hüsnünlə sevdanı saldım,
Üzünə baxanda haqqımı aldım.
Hilal qaşdan qaldır pərdəni, görək,
Yenə havalansın havalı ürək...»
Sənəm gördü aşiq sinədağlıdır,
Şirinin özünə qəlbi bağlıdır,
İnsafı gözəli qoymadı bu an,
Zəkatı qaytarıb, ala yoxsuldan.
Nazla hicabını yuxarı çəkdi,
Belə bir gözələ hicab gərəkdi?

Qənirsiz gözəllik Fərhadı haman
Dünyadan ayırdı, sarsıtdı yaman.
Varlığı heyrətdən sanki talandı,
Qəlbində, bağrında qan laxtalandı.
Bu halda Şirinin səsi yüksəldi,
O, səsdən ayıldı, özünə gəldi.
Cəld qalxdı, işini atdı dağların,
Yollandı qəsrinə sevdalı yarın.
Fərhadı qabağa saldı dildarı,
Dağlardan endilər məqsədə sarı.

FƏRHADIN ÖZ EŞQİNİ ŞİRİNƏ BİLDİRMƏSİ

Söndü al günəşin odlu məşəli,
Gizləndi dağlarda Bədaxşan ləli.
Çağırdı Fərhadı yanına Şirin,
Onunla ixtilat şirindir, şirin.
Dağçapan gələndə, o nazlı sona,
İltifat, nəzakət göstərdi ona.
Çərəzi, məzəni süfrəyə düzdü,
Baxışlar şəkəri, nabatı süzdü.
Nemətə qərq edib süfrəni canan,
Mətbəxin süfrəsi yaqutla yanan
Bu büsat, təntənə layiqdir şaha.
Mümkünmü gəlməsin aşiq iştaha?
Nemət yeyildikcə, saqi bu ara
Şəraba, meyvəyə vermədi ara.
Yoxdu yar yanında Fərhadın tabı,
Qaldırdı başına acı şərabı.

Mey – məzə, sevişmək, bir də ki, xəlvət.
Bundan gözəl dövran tapılmaz əlbət.
Qonağın məstliyi Şirini açdı,
Qəlbinə hökm edib, sirrini açdı:
«Hünərin heyranlıq yaratdı məndə,
Fərasət, şücaət görmüşəm səndə.
Ürəyim deyir ki, sən şahsan elə,
Yoxdur yoxsulluqdan nişanən belə».
Arif oğlan dedi: «Bu bir xəyaldır,
Gədadan şah olar? Bu ki, mahaldır.
Çörəyi daşlardan çıxan gədanı,
Şahlarla yanaşı, de, tutan hanı?
Ehtiyac içində boğulanlar da,
Ruzini daşlardan çıxarar harda?
Dağlarda dolaşan mədən tapandır,
Mənimtək can üzüb, dağmı çapandır?
Bir yuva nəsibdir qarışqaya da,
İlanlı kahadır yerim qayada.
Hamı eyş – işrətdə, məstdir nəşədən,
Mənsə quyu qazıb, kankanlıq edən.
Toxucu, hörümçək əməldə birdir.
Hörümçək hördüyü torda əsirdir.
Taleyim salıbdır məni bu hala,
Gücüm necə çatsın bəxtə, iqbala?
Daşyeyən quşlar da yaşamaz dənlə,
Savaşa bilərmi ruziverənlə?
Yar sözü, tərifi yara şan deyil,
Gədaya şah adı yaraşan deyil.
Qürbətə atsa da qərib özünü,
Yaradan üstündən çəkməz gözünü.

İnsafla baxandır haqq xeyrə, şərə,
Məhəbbət gözüylə baxar hünərə.
Kimə ki, taleyi, bəxti yar olar,
Onun kərəmilə bəxtiyar olar».
Şirin gülüb dedi: «Çox qəribədir,
Gövhəri saxsıda gizləmək nədir?[1]
Sanma ki, qanmazam naşıyam, naşı,
Yaqut sanmamışam parlayan daşı.
Bilikdən, təlimdən deyiləm kənar,
Kamalın çırağı başımda yanar.
Söylə doğrusunu, əslini danış,
Yerini, yurdunu, nəslini danış».
Düzdən doğru cavab, doğru söz istə,
Fərhad çox düşündü doğru söz üstə.
Fikri doğru olar bəxtiyarların,
Verdi cavabını düz sözlə yarın:
«Atam Çin xaqanı, uludur əslim,
Səltənət sahibi olubdur nəslim.
Maninin, Ərjəngin sənət qüdrəti,
Mənə də sevdirdi böyük sənəti.
Bağlandım sənətə, dəyişdi yolum,
Dedim: onlar kimi sənətkar olum.
Sənətin sirrinə sərf etdim vaxtı,
Tamam unuduldu səltənət taxtı.
Sən demə, xaqana xəbər çatıbdır,
Oğlun səltənəti, tacı atıbdır...
Tişəylə daş yonur, qarışıb başı,

[1] *Yəni əslini, nəslini gizlədirsən, şah olduğunu danıb, özünü gəda kimi qələmə verirsən.*

Xaqan üzüyündən çox sevir daşı.
Uyubdur muncuğa, kəhrəbaya o,
Zümrüdü, yaqutu salmaz saya o,
Var – dövlət gedəndə, bəxt yatan zaman,
Dönər səfillərə bəxtiyar insan.
Kəndlinin taleyi elə ki, yatar,
Qoca zövcəsiylə ixtilat qatar.
Zərgərin zəhməti gedərsə əbəs,
Başmaqçı olmağa göstərər həvəs.
Atam sənətimdən narazı qaldı,
Külüngü biryolluq kökümdən çaldı.
Nə cəza qaldı ki, verməsin mənə,
Peşəmdən əlimi çəkmədim yenə.
Əzab verməkdən də usandı kişi,
Göz yaşı tökməkdən utandı kişi.
Həsrətlə ayırdı məni özündən,
Qürbətə qovdu ki, itim gözündən.
Nisgilli – nisgilli yola düzəldim,
Ölkəmi tərk edib bu yurda gəldim.
Daşlar naxışlayan bir sənətkaram,
Şahintək nə tapsam , deyildir haram.
Haçan şahlıq eşqi vardı başımda,
Qəlbimin qanıydı üzük qaşım da.
Tacsız daha çoxdur eşqim, sevincim,
Alnımın təridir taclara incim.
Qolumun gücüylə xəzinəm vardır,
Xəznə əjdahası öz qollarımdır.
Ov gəzmək aslana ormanda peşə,
Ov verər hər yanda aslana meşə.
Xəzinə namərdi başdan çıxarar,

Ər oğlu yaqutu daşdan çıxarar.
Nə oğrudan qorxum, nə keşikçidən,
Halal zəhmətimlə yaşayıram mən.
Azad sənətimlə tapmışam aram,
İxtişaş içində mən yaşamaram.
Elin şikayəti, şayiə, yalan,
Zəhləni aparan, abrını alan.
Ellər o insanı salırlar yada,
Ad – sanı, şöhrəti vardır dünyada.
İtkini arayıb, axtaran hanı?
Dəllal müftə almaz min qarışqanı!
Taleyin hökmüylə fərman sənindi,
Bəxtim ucalıbdır, göydəyəm indi.
Müdhiş qayalardan bir arx çəkim mən,
Oğlaq südə gəlsin uca göylərdən.
İş vaxtı qəlbimi qərq eylə nura,
Hüsnün əta etsin haqqı muzdura.
Hərlənib gələrsən hərdən oraya,
Günəş şölə saçar uzaqdan aya...»
Şirin gördü Fərhad vurulub yaman,
Aşiqə vədini bildirdi haman.
Gövhər arzusuyla o mədənqazan
Bu vədi almağa can verərdi, can.
Sevinib şadlandı bütün gecəni,
Vüsalla unutdu olub – keçəni.

ŞİRİNİN ƏMRİ İLƏ FƏRHADIN BİSÜTUN DAĞINDAN ARX ÇƏKMƏSİ

Səhər işığını aləmə saçdı,
Günün çeşməsindən süd arxı açdı.
Getdi igid Fərhad dağı çapmağa,
Polad dağ yeridi qayalı dağa.
Odlu külüngündən sal qaya yandı,
Hər güclü zərbindən bir arx yarandı.
Tişədə qığılcım alışdı, söndü,
Daşlar ovxalanıb sürməyə döndü.
Polad şimşək çaxdı daşın köksündə,
Od çaxdı, su axdı daşın köksündə.
Canan hünərini görüb, mat qaldı,
Qolunun qüvvəti yüz qat çoxaldı,
Bura seyrangahı oldu yarın da,
Gəlib dincəlirdi arx kənarında.
Gördükcə Fərhadın dağ yarmağını,
Heyrətdən dişlədi öz barmağını.
Verdiyi vədəyə əsirdi indi,
Vüsal vədəsinə qəlbi sevindi.
Görüb bəyənmişdi özü xəznəni.
Guya ki, görmürdü gözü xəznəni,
Gümüş qiymətinə yar alsa səni,
Hələ vermə ələ gümüş bədəni.
Sev, yoxla, sanma ki, yoxdur müştəri,
Qızılı almağa çoxdur müştəri.
Hərislik tapmasın heç vaxt cana yol,
Acgözlük eləmə, sən gözütox ol.

FƏRHADIN EŞQİNDƏN XOSROVUN XƏBƏR TUTMASI

Bu eşqin sədası gəzdi hər eldə,
Dolaşdı əfsanə ağızda, dildə.
Macəra ölkəyə, elə yayıldı,
Eşidib qəflətdən Xosrov ayıldı.
Yox imiş Şirinin vəfası şaha,
Eşqi Fərhaddadır, cəfası şaha.
Nədimlər sirr üçün düşdülər lova,
Nə vardı dedilər bir – bir Xosrova.
Şahın ürəyini bürüdü qubar,
Gülün dövrəsini almış idi xar.
Şirin zəhər qatdı şirin vüsala,
Çətin ki, Şəkərdən şirin kam ala.
Pozuldu nəşəsi, əsdi dodağı,
Qəzəbdən dişləri kəsdi dodağı.
Puç oldu işrəti, bəxtiyarlığı,
Qəmdən od içində yandı varlığı.
Kişitək qeyrətdən düşdü heyrətə,
Biganə olarmı kişi qeyrətə?
Kişi atsa əgər namusu, arı,
Verər naməhrəmə evində yarı.
Libas çöldə qalıb yellənsə əgər,
Kənardan oğruya «gəl, gəl» söyləyər,
Qırmısan incinin sapını niyə?
İnciyə sap olmaz nə ip, nə ciyə?
Bir donuz qızanda istər on qaban,
İki nər istəməz bir dişi aslan.
Kişi xoruz kimi, sahibsə hinə,

Özü xoruz olar öz fərəsinə.
Şah dözə bilmədi, itmişdi başı,
Tədbirə çağırdı dostu, sirdaşı:
«Kəsibdir peymanı, ilqarı Şirin,
Sevir məndən üstün bir yarı Şirin.
Bir çarə göstərin dərdimə indi,
Bu işdə tədbir də, söz də sizindi.
Şirinsiz qalmışdım, Şəkərə cumdum,
Şirinin dadını Şəkərdən umdum.
Bir turşluq görmüşdüm şirin yeməkdə,
İstidə ziyandı şəkər yemək də...»
Şahı ovutmağa Şapur atdı can:
«Könül arzusuyla qucaqlaşasan,
Taleyin nə dilək salsa yadına,
Niyyətə düşməmiş çat muradına.
İncitmə, çıxsa da yarın bivəfa,
Yoxdur gözəllərdə sədaqət, vəfa.
Sən sadiq çıxmadın öz dildarına,
Budur mükafatı yarın yarına.
Kimin süfrəsindən kəsmisən nemət,
Onu da süfrənə edərsən dəvət.
Sevin ki, suyunu içən də yoxdur,
Demək, təşnə deyil, gözü də toxdur...»
Şapurun söhbəti, qəsdi bilindi,
İndi Büzürgümid eyhamla dindi:
«Şahım, gərək baxta inansın kişi.
Çarpaşıq qurulub cahanın işi.
Ulduzlar da bilir ədavət nədir,
Hər şey bir – biriylə ədavətdədir.
Dünya vəfasızdır, salma heç saya,

Zülmət də nur kimi gərək dünyaya.
Gecə can verərsə gündüzə əgər,
Bayquş yarasaya vəfasız deyər.
Qaranlıq gecədən gündüz yaşınar,
Xoruzlar, qarğalar fələyi qınar.
Bayquş naləsiylə, qarğa gözüylə,
Məsumluq gəzdirər fələk özüylə.
Bu bağda hər quşun mütləq yeri var,
Bayquş da, qarğa da aşiyan qurar.
Kim ikiüzlüdür bəxtinə şaddır,
Zamanın gözüdür, əziz övladdır.
Bu ana hiyləgər, ikiüzlüdü,
Birüzlü övlada haramdır südü.
Olmaz səkil atın dayçası qara,
Şahmarın balası oxşar şahmara.
Yüz kəsdən birini bəyənərək biz,
Tanrı kərəmiylə yaranıb təmiz.
Bu bir həqiqətdir, ağlın da kəsər,
Yoxdur sədaqətdən kimsədə əsər.
Yardan gileylisən hər sözündə sən,
Əvvəlcə günahı gör özündə sən.
Günah üstə yarın saçını kəsmə,
Günah özündədir, özgədə gəzmə.
Eybsiz gözünü eybinə açar,
Sanma bir eybi də gözündən qaçar.
Özünü düşünən başını yordu,
Hüsnünə məftundu, eybinə kordu.
Oxatan düz olmaz istəsən yoxla,
İki ov vursa da o, bircə oxla.

Biri iki görər çəp nişan alan,
Yarı doğru çıxar, yarı da yalan.
Fikrin saf aynatək göstərsin səni,
Sərraf gözlərinlə yoxla sikkəni.
Görünsün yaxşıyla yaman aynada,
Dostun, sirdaşın da haman aynada...»
Şah dedi: «Söhbəti uzatma bəsdir,
Eybə ayna ilə baxmaq əbəsdir.
Bir ayna yaxşını göstərsə yaman,
Saf ayna deyilməz ona heç zaman.
Hər doğru görünən çıxmaz doğruya,
Hər əyri görünən əyridir, guya?
Mümkündür dünyada ağlına batan,
Varmı sonsuzluğun sonuna çatan?
Kim bilsə nə pislik gələcək ona,
Bədbəxtlik gətirməz gələcək ona.
Korluğu insanı quyuya atır,
Görərək düşürsə, qatırdır, qatır.
Başına gələnlər bəllidi şaha,
Yoxdu peşmanlığın faydası daha.
İndidən düşünək sabahkı günü,
Götürək ürəkdən dərdin yükünü...»
Bu oldu son sözü Büzürgümidin:
«Ağlınla güləcək arzun, ümidin.
Xatirə olaraq göndər bir kağız,
Qılıqla, gileylə eylə dil – ağız.
Cavab məktubunu oxuyarıq biz,
Şirinin fikrini tez duyarıq biz.
Cavabdan bilinər münasibəti,
Olar qərarımız o zaman qəti...»

Şah dedi: «Sözündə bir həqiqət var,
Onun cavabıdır müşkülə açar».
Mirzəni çağırıb, əmr etdi ona,
Ənbərlə bir məktub yazsın yarına.
Mirzə şah dilindən söhbəti açdı.
Durna lələyindən cəvahir saçdı.
Ağılla, tədbirlə tökdü yara dil,
Ədalət fərmanı yazdı elə bil.

XOSROVUN FƏRHADIN YANINA GETMƏSİ VƏ ONLARIN MÜBAHİSƏSİ

Şirin yuxusundan səhər oyandı,
Süd dolu piyalə əlində yandı.
Göyün gərdişiylə bulud söküldü,
Piyalə fırlandı, süd də töküldü.
Şah dedi: «Razıyam öz taleyimdən,
Bu gün süd arxına getməliyəm mən...»
Hakim libasını atdı yatağa,
Çoban paltarında yollandı dağa.
Soraqla dağları dağlara qatdı,
Tək-tənha Bisütun dağına çatdı.
Etdi heyranlıqla arxa tamaşa,
Min cila vurulmuş hər çopur daşa.
Sənətin ecazkar hüsnünə baxdı,
«Afərin» sözləri dilindən axdı.
Sənət abidəsi necə gözəldi,
Enib sənətkarın yanına gəldi.

Gördü bir cavandır, dağ cüssəsi var,
Nəcabət işığı üzündə parlar.
Sanki tunc heykəldir, dayanıbdır lal,
Bədirli ay idi, olubdur hilal.
Çəkdiyi bəlanı söylər gözləri,
Cəsədi sümükdür, bir də ki, dəri.
Toz-torpaq yaraşmır boya, cüssəyə,
Qan tərin içində batıb qüssəyə.
Dedi: «Peşən nədir? Vətənin hara?»
Dedi: «Bir aşiqəm, can qurban yara».
Dedi: «Aşiqliyə sübutun varmı?»
Dedi: «Dərdsiz aşiq bunu duyarmı?»
Dedi: «Eşqə görə alçalar aşiq».
Dedi: «Könül verib, dərd alar aşiq».
Dedi: «Eşq əhlinin hardadır qəlbi?»
Dedi: «Yar alıbdır, yardadır qəlbi».
Dedi: «Gözəllərin məsləki nədir?»
Dedi: «Aldatmaqdır, nazdır – qəmzədir».
Dedi: «Özgə nəyə var imkanları?»
Dedi: «Dərdə salıb, alar canları».
Dedi: «Acılıqda qəm yemək olmaz».
Dedi: «Şirin qəmə qəm demək olmaz».
Dedi: «Hicran salıb bu günə səni?»
Dedi: «Yar nisgili öldürüb məni».
Dedi: «Yaxın gəlib, şəfqət saçar yar?»
Dedi: «Ay nurunu uzaqdan saçar».
Dedi: «Unut, köçmə hələ həyatdan».
Dedi: «Ölüm xoşdur belə həyatdan».
Dedi: «Vüsal üstə can gedər bada»,
Dedi: «Eşqə görə can düşməz yada».

Dedi: «Atsan onu, taparsan yenə»,
Dedi: «Vəfasızlıq yaddır sevənə».
Dedi: «O, atəşdir, yaxar varlığı»,
Dedi: «Sevgi sevməz zülmkarlığı».
Dedi: «Haçan sönər bu eşq, həvəs də?»
Dedi: «Nə sağlıqda, nə son nəfəsdə».
Dedi: «Yar eşqindən gələr min qada»,
Dedi: «Duaçıyam o dünyada da».
Dedi: «Xəncərinə qurban gedər baş»,
Dedi: «Baş nədir ki, şaqqalasan kaş».
Dedi: «Gözdə qoyar eşqi muradı»,
Dedi: «Can verərəm dilimdə adı».
Dedi: «Qan tökərsə, günaha batmaz?»
Dedi: «Yar günahı üstünə atmaz».
Dedi: «Bəlkə gəldi yar sənə sarı?»
Dedi: «Kirpiklərim silər yolları».
Dedi: «Qədəm bassa əgər gözünə?»
Dedi: «Qəlbim «gəl, gəl» deyər özünə».
Dedi: «Onu görsən xoş röyada sən?»
Dedi: «Oyanmaram qiyamətəcən».
Dedi: «Heç bilirsən nədir xoş yuxu?»
Dedi: «Mənlə əkiz doğulmuş yuxu?!»
Dedi: «Dırnaq ilə desə – yon daşı!»
Dedi: «Hər kirpiyim yonar on daşı!»
Dedi: «Yarı atsan, var sənə həyat».
Dedi: «Yar canımdır, cansız nə həyat?»
Dedi: «Eşqə görə ölməlisən, bil!»
Dedi: «Aşiq bundan çəkinən deyil!»
Zamanın Darası etdikcə hədə,
Verdi cavabını aşiq yenə də.

Xosrov heyran qaldı məharətinə,
Yanıqlı aşiqin mətanətinə.
Qəmini dadıbsa kim məhəbbətin,
Sınaqdan çıxmasa, deyildir mətin.
Gördü ki, sadiqdir eşqə, ilqara,
Bütün varlığıyla bağlıdır yara.

ŞİRİNİN EŞQİ YOLUNDA FƏRHADIN ÖLÜMÜ

Zənci keşikçisi vardı Pərvizin,
Dilində pəltəklik, üz – gözündə kin.
Sanki cəhənnəmin öz ifritəsi,
Küllük qarğasıtək kəsməzdi səsi.
Göbəyi açıqdı, hövsələsi dar,
Gəyirib qusduqca bağları batar.
Qarnı qazan təki yanıb atəşə,
Ağzı borclu kimi, tanımaz nəşə.
Dodaq yumduğunu kimsə görməyib,
Dili bir dostuna müjdə verməyib.
İblis əməliylə min kələk qurar,
Fitnəyə hər zaman keşikçi durar.
Ağzı xeyir sözə açılan zaman
Yüz söyüş yağdırar üstünə haman.
Ayrılıq günündə istər sevinə,
Ölüm xəbərinlə qaçar evinə.
Çıxanda səfərə, ya da gəzməyə,
Kəsər kəndarını «vay» deyə – deyə.
Matəmə sevinən, yasda güləndir,
Toylarda başına kül tökülləndir.

Canına kimin ki, əzər ağacı,
Dili mişar kimi kəsər ağacı.
Daş ilə əzilər canı, başı da,
Canı polad kimi əzər daşı da.
Sanar hünər üstə göyərib bədən,
Bədəni gömgöydü qapaz – sillədən.
Pırtlaşıq bığları bitli, sirkəli,
Burun tükündən də bit tapar əli.
Özü itburnudur, Xərəngan adı.
Yırtıcı pələngdi, sümsük tuladı,
Fələk də səhvini sonra qanıbdır,
Alnı damğa ilə damğalanıbdır.
Şah tutdu ənama belə səfehi,
Axdı qucağına vədinin behi.
Sonra da söz açdı ədavətindən:
«Quyruqlu ulduztək söndür ayı sən».
O alçaq divanə cumdu, nə cumdu.
Divtək dağ oğlunun üstünə cumdu,
Bədbəxt başa vurdu uğursuz yolu,
Dili yalan dolu, gözü yaş dolu.
Daş üstə dayanıb, Fərhada baxdı,
Qara qəlbə qara fikirlər axdı.
Alov şölə çəkib, gəmirdi qəlbi.
Yumşalmaq bilmədi, dəmirdi qəlbi.
O alçaq özünü göstərdi avam,
Hiyləni, kələyi etdirdi davam.
Söylədi çobana uca səs ilə:
«Bu yazıq dağ çapır nə həvəs ilə?

Şirin bir həftədir yatır məzarda,
Yar canla əlləşir, gör, indi harda.
Bisütun bir yana, Qafı da çapa,
Elə bir incini çətin ki, tapa.
Dişlə göbəyini dəlsə də yerin,
Torpağa gömülüb, tapılmaz Şirin.
Heyhat, əcəl əldən alana, heyhat!
Qürbət eldə nakam qalana, heyhat!...»
Bu söhbət Fərhadı saldı təlaşa,
Varlığı şüşətək çalındı daşa.
Yalvardı: «Nə sözdür, salmısan, aman!
Canımı, ruhumu almısan, aman!...»
Daşürəkli namərd yenə də dindi:
«Müsibət içində müsibətindi.
Gəzdiyin cəvahir hanı, yox daha,
Cəsədə ağla ki, canı yox daha.
Axtardığın inci mədəndə yoxdur,
O cana ağla ki, bədəndə yoxdur.
Özünü zəhmətə salma havayı,
O arx çəkdirənin tutuldu vayı.
Atıldı torpağa gözəl əndamı,
Göz yaşı axıtdı qəbrinə hamı.
Cavanlıq bağında gözəl fidanı,
Sındırdı kökündən xəzan tufanı».
Elə ki, bu sözlər Fərhada çatdı,
Yaşamaq fikrini başından atdı.
Qəzəbdən başını çaxdı qayaya,
Qan arxı kükrəyib axdı qayaya.

Bu arx süd arxına axdı, calandı.
Dağın ürəyində qan laxtalandı.
Üzünü, gözünü qan – qubar sardı,
Qan torpaq içində fəryad qopardı:
«Ey tale, sən oldun amansız mənə,
Dərdlə ölüm yazdın dərmansız mənə.
Yarın matəmindən tökdüm qanımı.
Ayağı altında al bu canımı.
Heyhat, yar eşqindən ağlar ölürəm,
Qəlbimdə nisgillər, dağlar, ölürəm.
Deyirdim ölərəm öz qabağında,
O öldü, mən gəzim göz qabağında?
Madam ki, yar gedib soyuq məzara,
Sağ qalmaq yaramaz mənimtək yara.
Köçübdür dünyadan gözəlim daha,
Üzülsün dünyadan öz əlim daha.
Yar hanı, ovuda yarı qucunda,
Əbədi uyuyum ayaq ucunda.
Yolum heçlik yolu, yaşamaq əbəs,
Yetirər mənzilə ani bir nəfəs.
Can cana qovuşsun, sevinək, gülək,
Külümü külünə tez qat, ey külək!...»
Gündüzü gecəyə çevirdi bu an,
Bezdi şirin canı acı həyatdan.
Ağzında acılıq, dilində Şirin,
Ölümün şərbəti şirindi, şirin.
Şirin ləyən kimi, göz doldu qandan,
Şirin deyə – deyə can çıxdı candan.

XOSROVUN ŞİRİNLƏ EVLƏNMƏSİ

O mələksimanın min nazı vardı,
Vüsal şərabından məstdi, xumardı.
Yuxulu gözləri işvəyə aşiq,
Qıvrım hörükləri düşmüş dolaşıq.
Kimsə görməmişdi belə vaxtını,
Yıxdı sərxoşluğu ağlın taxtını.
Başı şah dizinə düşdü məstlikdən,
Çünki taqətsizdi bu sərməstlikdən.
Şirin yuxudaydı Şirin bu ara,
Şərəb bələnmişdi bal dodaqlara.
Bülbültək nəğməsi yetməzdi sona,
Məstliyi göz yaşı tökdürdü ona.
Gözünün yaşları dizinə axdı,
Hər odlu nəfəsi bir odlu ahdı.
Eşqin həyəcanı qəlbini dəldi,
Hicranı anaraq fəğana gəldi.
Şərab seli boğdu, bayıltdı onu,
Sonra da qəflətən ayıltdı onu.
Şah sərxoş olsa da, bəxti hüşyardı.
Arzuya çatmışdı, sirdaşı yardı.
Belə səadətdən kim kamiyabdı,
Çörək tapmasa da Əfrasiyabdı.
Uzandı yatağa o sərvin özü,
Yuxunun sehriylə bağlandı gözü.
Hamı çıxıb getdi, qalmadı mehman,
Qalan şahənşahdı, bir də ki, canan.
Sübhün nuru saldı şahı qorxuya,
Günəşin tasını atmışdı suya.

Eşqi ürəyində alovlanırdı,
Dilində tərənə... şamlar yanırdı...
Şirin şirinliklə nə deməmişdi?
Üzümü şəkərdə az yeməmişdi?
Sevimli dilbəri gecə bihaldı,
Tutduğu əmələ «mükafat» aldı...
Bir qoca nökəri vardı sənəmin.
Əyyaşlıq diviydi, lakin çox əmin,
Əsir qocalıqdan ayağı, əli,
Gülməz, qaraqabaq, uşaq hikkəli.
Özü kifirsə də, üzündə məzə,
Kiflənmiş çörəktək duzsuz, biməzə.
Sarılıq çəng kimi, damar bürüyüb,
Ağzı susuz qalıb, dişlər çürüyüb.
Heyvərə ağzından axar tüpürcək,
Ağzını, burnunu batırar milçək.
Qat kəsmiş fitnədir qırışmış üzü,
Başı aşılanmış dəridir, düzü!
Baxışı mənasız, bəbəyində qan,
Zığ dolu gözləri daim sulanan.
Tapılmaz üzündə bircə tük belə,
Kudu olmağına demirəm hələ.
Kafirlik papağı başda qazandır,
Sanki Dəyqanusdan qalıbdır andır.
Titrək əllərini qolçaqlar bəzər,
Köhnə başmaq təki qoltuqda gəzər.
Qarnı köklənməmiş bərbət sayağı,
Çürümüş çəlikdir iki ayağı.
Ayaq, baldırını kim qoymaz lağa,
Sanki ölmüş ilan, qaxac qurbağa.

Gülünc olduğunu kim görsə gülər,
Qəşş edib uğunar, gülməkdən ölər.
Şirin yatan yerə məhrəmdi kişi,
Milçək öldürməkdi həmişə işi.
Xosrovsuz yananda sənəmin canı,
Xırmançı gəzirdi sünbül xırmanı.
Haçan darıxanda o nazlı sona,
Gülüb – əylənərdi baxaraq ona.
Qoca uzanmışdı, lütdü əndamı.
Ayaqlar divanda «əlifin lam» ı.
Məstlikdən yatırdı, tər tökürdü üz,
Paçanın arası əl içitək düz.
Cəmşid birdən gördü divi, yasarı,
Gördü kölgə düşüb günəşə sarı.
İstədi yanında o yata yarın,
Məzəsi kefinə kef qata yarın.
Mazaqdan, məzədən durulsun qanı,
Bir görsün humayla qara qarğanı.
Sanki keçəl qaza şığıdı qartal,
Bir dərya bir çöpü qaldırdı dərhal.
Apardı idbarı ay batan yerə,
O gözəl tavusu vağa göstərə.
Sünbül yasəmənə yanaşdı bu an,
Xəlvətə çəkilib, baxdı kənardan.
Odun parçasıtək düşüb qaldı o,
Gül, ənbər ətrindən ətir aldı o.
Bir ağac yanaşı, qonşusa uda,
Ətrini udaraq, ud olar o da.
Pəri görmür divi, duymur kələyi?
İblis aldadarmı dilbər mələyi?

Ayüzlü açdı ki, xumar gözünü,
Sevdirsin nazıyla şaha özünü.
Gördü gözlənilməz pəstəha vardır,
Xəzinə üstündə əjdaha vardır.
Quş kimi sıçradı, etdi ustalıq,
Vağın dimdiyindən qurtardı balıq.
İfritə qorxutdu, bağrını yardı,
Cinli adam kimi fəğan qopardı.
Cəmşidə yetişdi pərinin səsi,
Günəşi bürüyür bulud kölgəsi.
Qaçıb ayüzlünü ağuşa çəkdi,
Divi qovaladı, başından əkdi.
Sənəm uçunurdu, tir – tir əsirdi,
Qılınc axtarırdı, xəncər gəzirdi.
Dedi: «Qaçan kimdi, gəlmişdi bura,
Zülmət niqabını atmışdı nura?
Atəş olmağım ki, bəlli çoxuna!
Kimin curəti var mənə toxuna?
Bu avam, divsifət kimdi görəsən?
Qüdrətsiz şeytanda cürətə bax sən!»
Şah bunu eşitcək öz dilbərindən,
Yorğun öküz kimi qalxdı yerindən.
Zarafat, ixtilat coşdu arada,
Şirin acılığı salmadı yada.
Qəzəb hökm elədi öz qəlbi şaha,
Günəş layiqmidir belə günaha?
Cənnət yer vermişdi həmin tikana,
Tovuz həqarətlə baxa ilana.
Şirin dodağından qənd yağa – yağa,
Başladı qəzəblə hirs soyumağa.

Yenə işrət qurdu, yenə sərxoşdu,
Camdakı mey kimi qəlbi də coşdu.
Gecə zülmətini boğdu al günəş,
Dan yeri söküldü, doğdu al günəş,
Nəsimdən titrədi çətri güllərin,
Aləmi bürüdü ətri güllərin.
Nazlana – nazlana çəmən qızları,
Sübhün şərabıyla məst etdi yarı.
Yenə məclis əhli işrətə daldı,
Yenə müğənninin səsi ucaldı.
Alov dilim – dilim, budu, ocaqda,
Əmliyin, maralın budu ocaqda.
Xoş ənbər qoxusu qalxdı manqaldan.
Hava ənbər ətri aldı bu haldan.
Tacını yan qoyub, şah batıb kefə,
Nökərlər yanında düzülüb səfə.
Arxada hörüyü zəncir sonalar,
Günəş camalları cana od salar.
Telləri müşk saçan o dişi ceyran.
Şahı öz ətrinə qoyubdur heyran.
Hər telin eşqindən söz açа – açа,
Xosrov sığal çəkir o qıvrım saça.
Gecə ayrılmışdı öz varlığından,
Danışır dünənki xumarlığından.
Pəri hələ məstdir, axır baxışlar,
Hər sözü ömürə ömür bağışlar.
Dedi şirinsözlü, şirindil qoçaq:
«Halva bişirərmi tüstülü ocaq?
Bəxtimə nəsibmiş belə azadlıq,

Cavanlıq nəşəsi, bu kef, bu şadlıq.
Xoşbəxtsən, kim deyər o binəsibdir,
Bu vüsal gecəsi sənə nəsibdir.
Qəlbini oxşayan gəlinin ollam,
Hürmüz əylənərək alar nəşə, kam.
Özümü sanardım biçilməz zəmi,
Vaxt gəldi, yetişdi biçinin dəmi».
Uzağı görsə də ağıllı insan,
Əməli cəzasız qalmaz heç zaman.
Çox vaxt çəyirtkəni ov sanar sərçə,
Özüsə qartala ovlanar sərçə.
Qırqovul dimdiklər çox qarışqanı,
Şahin caynağında çıxar öz canı.
Sanki kəyanların ziyafətiydi,
Öpən şah, naz satan öz afətiydi.
Hər gün iki tavuz süzdü yanaşı,
Al şərab nəhrində üzdü yanaşı.

ŞİRUYƏNİN XOSROVU ÖLDÜRÜB, ŞAHLIQ TAXTINA ÇIXMASI

Qələmi götürüb ilkin söz deyən,
Olub dastanını belə bəzəyən:
Şiruyə taxtın ki, sahibi oldu,
Zalımın qəlbinə kin – qəzəb doldu.
İki şah olarmı bir ölkədə bəs?
Biri var, başqası əbəsdir, əbəs!
Bir taxtda iki şah birdaş qurarmı?

Bir başda iki tac, deyin, durarmı?
Birini tovlayıb aldılar ələ,
Təzə şah köhnəni salsın əngələ.
Hərəm ağaları hey izlənildi,
Onların əliylə şah gizlənildi.
Kim tapsa, başını gətirsin gərək,
Tapmayıb, başını itirsin gərək.
Qorxulu fərmandan artdı tələşlar,
Səcdəyə əyildi salamat başlar.
Kim ki, axtarırdı, təşnəydi qana,
Pərvizin yerini dedilər ona.
Onlar bir gül üçün min gül əzdilər,
O solğun çiçəyi kolda gəzdilər.
Xosrovu didməyə, parçalamağa,
Hər yanda fərraşlar axışdı bağa.
Quyruqlu ulduzlar – günəşə yağı,
Pozuldu göylərin büsat növrağı.
Əvvəlcə qandalaq vurdular şaha,
Dəryada tapılar açarı daha.
Zəncirli buxov ki, vuruldu şirə,
Şir də qəzəblənib çəkdi bir nərə.
Şiruyə bu səsdə duydu ağrını,
Sanki öz xəncəri dəldi bağrını.
Fərraşlıq hökmündən qəlbində əsmək,
Başını kəsməkdi o sərvi kəsmək.
Xosrov hökmranlıq etdiyi zaman,
Birinin qətlinə vermişdi fərman.
Cəza alan şəxsin oğlu da çoxdu,
Biri qaniçəndi, ağlı da yoxdu.

Üzü qaralıqda qırdan qaradı,
Tanrı qəzəbindən Yəzdəkdi adı.
Xosrovu əzabdan «qurtarsın» deyə,
Cəlladlar qoşdular onu fitnəyə.
O gəldi Pərvizin bata qanına,
Qatildən qan ala ata qanına.
Şah gördü qanını tökən gəlibdir,
Sarayı özüldən sökən gəlibdir.
Dedi ki: «Gəlmisən can almaq üçün,
Atanın qanına qan almaq üçün.
Ata qanı üçün qanımdan doyma,
Mənim qanımı da oğlumda qoyma!»
Ölümün qorxusu şahı susdurdu,
Qatil o caninin qəsdinə durdu.
İti xəncərini soxdu ürəkdən,
Çıxdı xəncərinin ucu kürəkdən.
Baltaçı baltanı kökündən çaldı,
Şahlıq ağacını torpağa saldı.
İnsan beyni sökdü div pəncələri,
Susan bir insandı, uçan bir pəri.
Qatil qanı kəsən görcək yaradan,
Div kimi əlüstü çıxdı aradan.
Şirin həyəcanla yetişdi bu an,
Gördü qan selindən gül açıb hər yan.
Xəzan hökm eyləyir yazda varlığa,
Şümşad yıxılıbdır laləzarlığa.
Sarsıldı al – qanda görcək Pərvizi,
Başı havalandı, tutuldu dizi.
Şahın başı üstən xəncəri qapdı,
Elə bil təşnəydi, təşnə su tapdı.

Yanan qəlbi saldı közü bağrına,
Xəncərlə su səpdi özü bağrına.
Tutdu yarasıyla oyuq yaranı,
İsti qan ovutsun soyuq yaranı.
Eşqə vəfasını qanıyla yazdı,
Zülmün cəfasını qanıyla yazdı.
Budur, Şiruyəyə tez xəbər getdi.
İqbala çatmadı, fal hədər getdi.[1]
Düşmən qorxusundan ziyafət qurdu,
Şadlandı, dür səpdi şərab da vurdu.
Üzdə deyib – güldü, açılmış güldü,
Gizlində nisgilli şeyda bülbüldü.
Ağlar gözlərini qumquma sandı,
Dodağı gülsə də, ürəyi qandı.
Köçməyə çağırdı dostu, sirdaşı:
«Qanlı cəsədləri yusun göz yaşı.
İki sərv qoyulsun bircə məzara,
Torpaqla örtülsün qanlı məcara,
Şəhidlər əbədi yuxuya dalsın,
Məzarın üstündə türbə ucalsın...»
Durmadan getdilər fərman alanlar,
Bu əmri yerinə yetirdi onlar.
Gömüldü vüsala çatan aşiqlər,
Qucub bir – birini yatan aşiqlər.
Bir uca sərdabə ucaldı orda,
Göy rəngi göylərdən öc aldı orda.
Bəhramın qübbəsi çoxdan ad almış,
İndi qübbə altda məzarı qalmış.
Dovşan yuxusuna şah dalan zaman,

Bir pələng əcəltək verməmiş aman...[1]
Hər an bir təhlükə, nicat hanı bəs?
Bəla içindəydik, çaşbaşdır hər kəs.
Qəfildən od tutub yansa gəmimiz,
Dəryanın qoynunda yanmalıyıq biz.
İsti halqa üstə düşsə qarınca,
Yanar gücsüzlükdən o, qızarınca.
Fırtına qoynunda doğulub can da,
Bişməmiş saxsıdır coşğun ümmanda.
İslanıb sınarsa gil kuzə – bardaq,
Dəryanın dibindən necə çıxardaq?
Qızmış əjdahadır dəhşətdə fələk,
Qoyar insanları vəhşətdə fələk.
Heybətlə dayanıb daim pusquda,
Fürsət kimə düşsə happadan uda.
Bəladır dünyada qopardıqları,
Geri qayıtmayıb apardıqları.
Gücünə gücsüzük, hamı fağırdır,
Qaça da bilmirik, zəhmi ağırdır,
Bu qaşı vəsməli kaftardan həzər,

---

[1] *Sasanilər sülaləsinin 14-cü hökmdarı olmuş Bəhram 420-ci ildə hakimiyyət başına gəlib, 18 il hökmranlıq etmişdir. Rəvayətə görə Bəhramın şahlığı dövründə dörd il onun ölkəsində ölən olmamışdır. Yeddi planetin rəngində yeddiqübbəli möhtəşəm qəsri varmış ki, orada yeddi iqlimdən olan yeddi gözəl həftənin yeddi günündə yeddi əfsanə danışaraq onu əyləndirərmiş. O, gur ovunu çox sevdiyi üçün Bəhram Gur adıyla məşhur olmuşdur.*
Gur sözü eyni zamanda qəbir (gor) mənası daşıyır. Şərq ədəbiyyatında Bəhramın gur qova-qova bir mağaraya girib orada ölməsi haqqında fikrə çox təsadüf olunur. Əmir Xosrov Dəhləvinin yuxarıdakı beytlərinin məzmunu da həmin hadisə ilə əlaqədardır.

Saysız ər öldürüb, yenə ər gəzər.[1]
Kim ki, bu qarıdan sevgi duymadı,
Nəşəylə yaşadı, ona uymadı.
Acılıq dünyanın şərabındadı,
Nəşələn, xoş olsun şərabın dadı.
Yatma, könül, dolan fitnədən uzaq,
Hasarın – sinədir, əcəl – yalquzaq.
Qəza ki, xəncərlə qəsdinə durar,
Əvvəlcə ağılın başını vurar.
Çıxarar ağılın gözünü fələk,
Susdurar aqilin özünü fələk.
Kəsilsə bir evə bir yağı oğru,
Söndürər əvvəlcə çırağı oğru.
Şir ki, kənd içində adam parçalar,
Əvvəl keşikçini didərgin salar.
Cibkəsən əlini cibə dürtəcək,
Ağlın qulağına tiryək sürtəcək.
Çarə dərdə yarar ölümdən qabaq,

---

[1] *Şairin bu fikri bələ bir hədislə əlaqədardır. Guya Dünya bir gün başında əlvan rəngli çarşab bir əli qanlı, bir əli xınalı qoca qarı qiyafəsində İsanın gözlərinə görünür. İsa ondan soruşur:*
– Ey lənətə gəlmiş, belini niyə əymisən?
Dünya cavab verir:
– Fironu, Nəmrudu, Qarunu yola salmışam, yaşım çoxdur, qocalmışam.
– Bu kaftar vaxtında belə əlvan rəngli çarşab örtməyin nə mənası var?
– Özümü cavanlara sevdirib, onları aldatmaq üçün bu cür rəngbərəng çarşaba bürünmüşəm.
– Əlinə xına yaxmaqda məqsədin nədir?
– Təzə ərə getmişəm.
– Bəs əlinin biri niyə qanlıdır?
– Ərimi təzəcə öldürmüşəm.

Ölüm can alanda nə çarə tapaq?
Çoxları ölümə gəzdi bir çarə,
Əlacsız ölümlə öldü biçarə.
İskəndər aradı dirilik suyu,
Ölümə yaradı dirilik suyu?
Yollarda gördüyün bu tozlar ki, var,
Neçə Süleymanın külüdür onlar...
Gəda su içdiyi kasaya bax bir, –
Əfrasiyab şahın öz kəlləsidir.
Kuzəçi düzəldən bir oyuncağa,
Oyuncaq deyənlər çağadır, çağa.
Gildən düzəldilən insanlara bax,
Əvvəldə insandı o gil, o torpaq.
O dilsiz vücud da, bağlı çənə də,
İbrətdir, ibrətlə baxsan, sənə də.
Qəlbinə qulaq as, sən onu dinlə,
Eşit hər öyüdü həssas qəlbinlə.
İlahi, necə də arsızdır bəşər,
Bir anlıq ömr üçün yüz il əlləşər.
Nəfəsə bağlıdır canı insanın,
O çıxsa, həyatı hanı insanın?
Yüz il heyrətdədir insan olan kəs,
Axırda qisməti bir soyuq nəfəs.
Ölüm yelə bənzər təməli varmı?
Ağlı olan yelə bel bağlayarmı?
Madam ki uçacaq ömrün binası,
Gildən ev tikməyin varmı mənası?
Səfasız eyvanı kim salacaqdır,
Bir zaman sahibsiz boş qalacaqdır.
Kəsranın sarayı dururmu indi?

Özütək qəsri də acgöz yerindi.
Əbədi deyildir insanın özü,
Fələyə casusdur günəşin gözü.
Özünün çıraqdan ürəyi dağlı,
Fələksə oğrudur əli çıraqlı.
Daimi deyildir heç nə dünyada,
Heç nədir, heç nəyə dəyməz dünya da.
Ömrə əfsuslanmaq, acımaq nədi?
Bilirik ömrümüz deyil əbədi.
Məhz ona görədir dərd – nisgilimiz,
Həyatın qədrini bilməyirik biz.
Qəflətdən ayılsa özü insanın,
Daim açıq olar gözü insanın.
Yaşamaq, yaratmaq yoxsa bəşərdə,
Salar – hüşyarlıq da insanı dərdə.
İlahi, yazığıq, imdada çat sən,
Qafili qəflətdən daim oyat sən.

QİTƏLƏR

Öyməyə dəyərmi dünya malını. –
Nadanı eyləyər daim üzüağ,
Möhnətə sitayiş etməlisən sən, –
Alimdən bir an da olmayıb uzaq.

* * *

Çalış xürrəm yaşa, ey həris insan,
Qızıla bağlama amalını sən.
Vurdun var yığmaqla ömrünü başa,
Gorda yeyəcəksən o malını sən?!

* * *

Şeirlə yaşamaq hər şeyə dəyər,
Əsərim adımı daşıyacaqdır.
Cismani ölümü haqdır Xosrovun,
Şair Xosrov daim yaşıyacaqdır,

* * *

Alim biliyiylə olsa da üstün,
Qürur, lovğalığı yaxın buraxmaz.
Tavusun başında zərrin tacı var,
Min güzgü tutsan da, hüsnünə baxmaz.

* * *

Çatmaz səadətə ləyaqətsizlər,
Zamanə möhtacdır hünərli kəsə,
Hücrə bucağına günəş düşərdi,
Günəşin yolunu hücrə kəsməsə.

* * *

Hər iş yumuşaqlıqla düşər qaydaya,
Sərtliyə güvənmə, zəhlə tökəndir.
Doğru məsləhətdən üz döndərən kəs,
Peşmanlıq önündə boyun bükəndir,

İynənin yerini verməz ki, şəmşir,
Çünki iynə – tikən, şəmşir – sökəndir

* * *

Alçaq cahil qədər də sayan yoxdur alimi,
Xosrov, necə baxırsan, belə dünyaya indi?!!
İnsafdan da kənardır, mürvətdən də kənardır,
Dörd hərf ilə tay olub qətrə dəryaya indi.

* * *

Hamı comərd qoyar mərdin adını,
Əliacılıqda bil səxavəti.
Comərd səxavətlə tanınsın gərək,
Çoxunda tapılar dil səxavəti.

* * *

Nə ağıllı, nə də alim sayılarsan,
Yalan-palan toxusan da hər dəfə sən.
Hər pərdədə bir xal vuran çəngə bənzə,
Dönmə boş-boş danqıldayan bir dəfə sən,
Çərənləsən, söhbətinin yox faydası,
Sərt küləkdə ox vurmazsan hədəfə sən.

* * *

Atasız – dirilik tapar insanı,
Bakirə doğubdu Məryəm İsanı.
Müqəddəs anasız – doğulan vardır?
Nə bircə qız vardır, nə oğlan vardır.

RÜBAİLƏR

1

Eşqin şöləsindən kim yana bilməz,
Könlümüz könlünə bağlana bilməz.

Qəlbin yanmayıbsa bizdən uzaq ol,
Hər ürək eşq ilə dağlana bilməz.

2

Buluddan bağça-bağ büründü tülə,
Süd verdi buludun dayəsi gülə,
Zərifdir, incədir qorxuram sınar,
Düşsə buludların sayəsi gülə.

3

Zülfün kəməndini yenə yar atdı,
Gözümün yaşından bir çay yaratdı.
Xumar nərgizləri qılınc çəkərək,
Məni vuracaqdı, yaxşı ki, yatdı.

4

Gül, lalə gülüstan edib hər yanı,
Yoxdur dalğalanan bayrağın sanı.
O qədər udub ki, insanı torpaq,
Güllərə hopubdur bəşərin qanı.

5

Hamının həmdəmi sevdiyi yardır,
İşrəti, məclisi, büsatı vardır.
Kədər mən yazığın çöküb canına,
Həmdəmim, munisim dördcə divardır.

6

Dedim: «Bircə gecə yaxın gəl, mənə»,
Dedi: «Dağ çəkəcək həsrətim sənə».
Dedim ki: «əlindən bir ah çəkərəm».
Dedi: «Yüz ah çəksən, kar aşmaz yenə».

7

Nə tamah odunda yanan canım var,
Nə də hərislikdən coşan qanım var.
Bu cad, kəhriz suyu, guşə, bəsimdir,
İlahi, nə gözəl güzaranım var!

8

Zülmə, haqsızlığa uyub çoxları, –
Qəlbini məzlumun dəlib oxları.
Pərvanə yandıran şam da yanıbdır.
Acların naləsi tutub toxları.

9

O sənəm bilməz ki, sevir yar necə,
Onsuz sinəm olub qəlbə dar necə.
Ovçu çətin duyar ahu dərdini,
Ahu bilər qəlbi sızıldar necə.

10

Hər cəfan ölümdür yar, mənə görə,
Qıysan, ölüm nədir, sevənə görə?!
Ölsəm, məhəbbətin yaşadar məni,
Yaşasam, ölmərəm tək sənə görə.

11

Hüsnünə kölədir bu yarın sənin,
Aya çıxma deyir, rüxsarın sənin.
Yazıq kəklikləri salıb dağ-daşa, –
Yerişin, duruşun, rəftarın sənin.

12

Ey qönçə, bir gözəl belə gülməyib,
Dodağın sərsəri yelə gülməyib.
Ürəyin bağlıdır gülün şaxına,
Könlün gülüstansız hələ gülməyib.

13

Bülbül səhər-səhər elə zarıdı,
Gülün ürəyini şaxa sarıdı.
Oxşadı gülləri səhər nəsimi,
Nərgizi yatıran meh tumarıdı.

14

Həmişə mey olsun, məzəsi olsun,
Saqi əldə badə gəzəsi olsun.
Haçan gilimizdən düzəlsə kuzə,
O kuzə kaş şərab kuzəsi olsun.

15

Deyirlər görməyim, – zövq alasıyam,
Kor olum, – gözəllər mübtəlasıyam.
Gözümü tökməyə varmı ehtiyac?
Onlara baxmaqdan kor qalasıyam.

16

Güman yox baxtıma, malıma mənim,
Dönüb qəlbim, yarım zalıma mənim.
Bir deyil, qan saçan yüz göz gərəkdir,
Ağlaya dərdimə, halıma mənim.

RABİNDRANAT TAQOR



Rabindranat Taqor 7 may 1861-ci ildə Hindistanın Kəltüttə şəhərində mülkədar ailəsində anadan olmuşdur. O, ibtidai və orta təhsilini bu şəhərdə almışdır. Taqor ilk dəfə şeir yazmağa da, musiqi və rəssamlıq fəaliyyətinə də orta təhsil illərində başlamışdır. Erkən yaşlarından daha doğrusu, 1875-ci ildən başlayaraq onun şeirləri dövrü mətbuatda çap olunmağa başlamışdır. Onun «Dilənçi» adlı hekayəsi də bu dövrdə işıq üzü görmüşdür. 1877-ci ildə Taqor oxumaq üçün İngiltərəyə gedir. London Universitetinin hüquq fakültəsində təhsil almağa başlayır. İki illik təhsil dövründə ingilis ədəbiyyatı ilə yaxından tanışlığı onun ədəbiyyata olan meylini daha da artırmışdır. Bu səbəbdən Taqorun hüquqşünaslığa marağı azalır və o, qısa vaxtda bu sahədən uzaqlaşır. Onun «Axşam mahnıları» adlı ilk şeirlər kitabı 1881-ci ildə çapdan çıxır. XIX əsrin 90-cı illərindən başlayaraq Taqor bir sənət adamı kimi Hindistan sərhədlərini aşaraq beynəlxalq səviyyədə tanınmağa başlayır. O, 1913-cü ildə İngiltərə və Amerika səfər təəssüratları əsasında qələmə aldığı «Fəlakətzadələrin mahnısı» adlı şeirlər kitabına görə Nobel mükafatına layiq görülmüşdür. Qeyd edək ki, həmin kitabı ingilis dilinə Taqor özü tərcümə etmişdir. 1914-cü ildə İngiltərə hökuməti onu Ba-

ronet tituluna layiq görür. Lakin ingilis qoşunlarının Hindistanda aksiya keçirən dinc əhalini gülləbaran etməsinə etiraz olaraq Taqor bu tituldan imtina etmişdir. Taqor lirik sahədə olduğu kimi dramaturgiyada da böyük uğurlar qazanmışdır. «Raca», «Poçt», «İntiqam», «Mühafizəkarlıq qalası», «Azad edilən çay» və s. səhnə əsərləri ilə Taqor milli dramaturgiyanın inkişafına böyük təsir göstərmişdir.

Taqora ən böyük şöhrəti romanları qazandırmışdır. «Fəlakət», «Qora», «Ev və dünya», «Dağılan tifaq», «Üç nəsil», «Bibxa sahili» və digər romanları dil, ideya-məzmun və forma baxımından fərqlənir, hind ədəbiyyatında yeni ədəbi hadisə kimi dəyərləndirilirdi. Dünya şöhrətli Taqor sənət aləmində 1000-ə yaxın poema və şeir, 12 roman və povest, çoxsaylı hekayə və mahnı müəllifidir.

Taqor ictimai xadim kimi də böyük xidmətlər göstərmişdir. O, Cəvahirləl Nehru və Mahatma Qandi ilə birlikdə Hindistanın müstəqilliyi uğrunda mübarizənin ön sıralarında dayanmışdır. Taqor müstəmləkə əsarətində yaşayan xalqının azadlığa çıxmasını təhsil və mübarizədə görürdü. O, şəxsi vəsaiti hesabına Balpur şəhərində məktəb açmışdır. Sonralar bu məktəbin bazasında Beynəlxalq Universitet təsis edilmişdir.

Böyük ədib və ictimai xadim Rabindranat Taqor 1941-ci il avqustun 7-də vəfat etmişdir.

AÇILMIŞ SİRR

I

Cirakotlu Krişnoqopal Şorkar zəmindarlıq işlərini və ailə başçılığını böyük oğluna tapşırıb Benaresə getdi.

Buna bütün mahalın kasıbları yaman heyfsilənirdilər. Bizim zəmanəmizdə ikinci belə bir xeyirxah, ədalətli sahibkar tapmaq mümkün olan iş deyil.

Təzə zəmindar Bipinbihari, Krişnoqopalın oğlu isə müasir adam idi. Təhsil görmüşdü, elmi dərəcəsi vardı; o, saqqal qoyur, eynək taxırdı. Adamlardan gen gəzirdi. Tərbiyəsinə söz ola bilməzdi – nə papiros çəkir, nə də qumar oynayırdı. Sir-sifətdən də qəşəng idi. Ancaq xasiyyəti çox tünd idi. İcarədarlar bunu çox keçmədən hiss elədilər. Qoca sahibkar onlarla çox xoş rəftar eləyirdi. Təzə isə bircə paysanın da vaxtını keçməyə qoymurdu. Üstəlik də o, borcun vaxtını hətta bir gün uzatmağa da razı olmurdu.

Bipinbihari işlərin çox səliqəsiz aparıldığını aşkara çıxardı. Atası torpaqları brəhmənlərə paylamışdı, ancaq vergi almırdı. Kəndlilərin çoxu icarə haqqını bütünlüklə verməmişdilər.

Bipinbihari öz-özünə fikirləşirdi:

«Atam çox yumşaqlıq eləyib. Kim nə xahiş eləyibsə, sözünü yerə salmayıb. Mən buna son qoyacağam. – O özünü inandıraraq deyirdi: – Əvvələn, torpağın gəlirindən istifadə edib, heç bir iş görməyən adamlar kimə lazımdır. Onlara rəhm

eləmək yalnız avaraçılığı və tənbəlliyi yaymaq deməkdir. İkincisi də, indi hər şey əvvəlkinə nisbətən bahalaşıb, dolanmaq çətinləşib, əməlli-başlı adamların tələbatı isə qat-qat artıb. Adam ləyaqətdən düşməmək üçün üç-dörd dəfə çox xərcləməli olur. Pulu ağına-bozuna baxmadan ovuc-ovuc səpələmək, var-dövlətin axırına çıxmaq olmaz. Yavaş-yavaş əvvəllər paylanmışların yerini doldurmağa çalışmaq lazımdır. Bu mənim borcumdur».

Bipin dönmədən məqsədinin buyruğuna əməl edirdi. O, icarədarlardan atasının bağışladığı şeyləri aldı, çox keçmədən icarədarların əlində demək olar ki, heç bir şey qalmadı.

Benaresə bir-birinin ardınca məktublar gedirdi, bu məktublarda icarədarlar acı-acı öz talelərindən şikayətlənirdilər. Hətta bəziləri özləri Benaresə getmişdilər ki, ağlayıb Krişnoqopalın ayağına düşsünlər.

Keçmiş sahibkar oğluna yazdı ki, işləri elə aparmaq olmaz. Oğlu ona etiraz elədi. O, atasına yazdı ki: «Əvvəllər, gəlir çox yerdən gələn vaxt zəmindarlar və icarədarlar bir-birinə güzəştə gedirdilər. Təzə qanuna görə isə zəmindara yalnız vergi toplamaq, bir də ona çatacaq icarə haqqını bütünlüklə almaq qalır. – Bu onun yeganə gəlir mənbəyidir. Mən bundan artıq heç bir şey tələb eləmirəm. Biz icarə haqqından savayı heç bir şey almırıq, əgər xeyriyyəçiliyə başlasaq, onda var-yoxdan çıxarıq. Biz nə var-dövlətimizi, nə də ad-sanımızı saxlaya bilərik».

Bu cür ciddi, zamanın ruhuna uyğun dəyişikliklər əvvəlcə Krişnoqopalı yaman narahat elədi. Ancaq sonra o bu qənaətə gəldi ki, indiki zamanda necə hərəkət etmək lazım olduğunu müasir gənclər daha yaxşı bilirlər; özü də əvvəl olan şeylər, yəqin indi daha yaramır, o öz-özünə fikirləşdi: «Əgər

mən uzaqdan hər işə qarışmağa başlasam, onda oğlum deyər ki: «Gəl işlərini özün apar». Mənim isə bunu eləməyə halım yoxdur».

Ona görə də qoca bu qərara gəldi ki, ömrünün son günlərini ibadət eləməklə keçirsin.

II

Həyat isə öz qaydası ilə gedirdi. Bipinbihari bir xeyli məhkəmə çəkişmələri, münaqişələr qaldırıb, demək olar ki, işlərin hamısını udmuşdu.

İcarədarların əksəriyyətinin gözü qorxmuş və tabe olmuşdular. Yalnız təkcə Ozimuddin Bişşaş, Mirzə-bibinin oğlu ipə-sapa yatmaq bilmirdi.

Halbuki Bipinbihari hamıdan çox onun əlindən yanıqlı idi. Əgər atası bir brəhməni torpaq vergisindən azad eləsəydi, bunu o, bəlkə də birtəhər başa düşərdi, ancaq nəyə əsasən müsəlman ən gözəl torpaq sahəsindən istifadə edir və heç bir vergi vermirdi; bunu o, qətiyyən başa düşə bilmirdi.

Görünür, kənd məktəbini elliyin pulu ilə oxumuş bu müsəlman oğlu özünü bəxti gətirmiş adam hesab eləyirdi, ona görə də bu qərara gəlmişdi ki, heç kəslə hesablaşmasın.

Qoca sahibkar, Bişşaşın ailəsinə lap əzəldən çox hörmət eləyirdi. Bunu Bipin öz köhnə xidmətçilərindən eşitmişdi. Ancaq səbəbini onlar da bilmirdilər.

Görünür, kimsəsiz dul arvad qoca sahibkarın ürəyini yumşaltmış, kişinin bu bədbəxt qadına yazığı gəlmişdi. Ancaq müsəlman oğluna bu cür üstünlüklərin verilməsi Bipinə tamamilə yersiz görünürdü. Üstəlik də Bipin onların keçmişdə necə yoxsul, ehtiyac içərisində yaşadıqlarını görməmişdi; o yalnız bu ailənin getdikcə firavan dolandığını, onların özlərini nə isə

məğrur aparmalarını görürdü. Ona elə gəlirdi ki, müsəlmanlar vicdansızlıq eləyib, onun rəhimdil atasını aldatmış və var-dövlətinin bir hissəsini oğurlamışdılar.

Amma Ozimuddin də möhkəm oğlan idi.

O dedi:

– Mən ölərəm, ancaq haqqımdan bircə yol da keçmərəm.

Onunla Bipinin arasında mübarizə qızışdı. Anası Ozimuddini dilə tuturdu ki, adam zəmindarla mübahisə eləməz.

Arvad deyirdi:

– Biz onun səxavəti sayəsində bu vaxta kimi əməllibaşlı dolanmışıq, bizim borcumuz itaət eləməkdir. Heç olmasa bir az keç.

– Ana, sən heç nə bilmirsən, – deyə oğlu ona etiraz edirdi.

O, çəkişmələri bir-birinin ardınca uduzurdu, ancaq bu onu daha da inad atına mindirirdi. Ozimuddin əmlakını saxlamaq üçün əlindən gələni edirdi.

Bir gün Ozimuddinin anası Mirzə-bibi bir az tərəvəz götürüb xəlvətcə Bipin-babunun yanına getdi.

Qarı yazıq-yazıq Bipinə baxır, yavaşca əlini onu toxundurur, ürəyini almağa çalışırdı:

– Bipin-babu, sən bizim atamızsan, allah sənin dayağın olsun, Ozimi bədbəxt eləmə. Sən gərək belə iş tutmayasan. Mən oğlumun taleyini sənə tapşırıram. Ona kiçik qardaşın kimi, ağılsız, köməyə ehtiyacı olan bir adam kimi bax. Sənin bu qədər var-dövlətin bir zərrəsinin onun əlində olmasına heyfsilənmə.

Bipin fikirləşdi ki, qarı yəqin özünü onun ailəsinə soxmaq istəyir. Bu dərəcədə həyasızlıq onu yaman əsəbiləşdirdi.

O dedi:

– Sən arvadsan, heç nə bilmirsən, əgər bir sözünüz varsa, oğlunu göndər gəlsin mənim yanıma.

Beləliklə, Mirzə-bibi həm oğlundan, həm də yad adamdan eyni sözü eşitdi: «Sən heç nə bilmirsən». Onun daha gözünün yaşını silə-silə, ürəyində allahı çağıra-çağıra evə qayıtmaqdan savayı çarəsi yox idi.

III

İş cinayət məhkəməsindən dairə məhkəməsinə, oradan da ali məhkəməyə keçdi. Çəkişmə il yarım idi ki, davam edirdi. Nəhayət, Ozimuddin xirtdəyə kimi borca düşəndən sonra apellyasiya məhkəməsi işi qismən onun xeyrinə kəsdi.

Ancaq o, yaxasını təzəcə pələngdən – zəmindardan qurtarmışdı ki, timsahlar – borc verənlər üstünə hücum çəkdilər. Sələmçilər əllərinə yaxşı girəvə düşdüyünü duyub, vekselləri Ozimuddinin qabağına qoydular.

Sınıq çıxmış Ozimuddinin əmlakını satmaq üçün hərrac günü təyin edildi, hərrac bazar ertəsi və bazar günü olmalı idi.

Bazar çayın sahilində idi. Yağınlıq idi, çay yaman daşmışdı. Tacirlər harada gəldi – həm sahildə, həm də qayıqlarda alver edirdilər. Yaman səs-küy idi. Həmin ay bazara xüsusilə çox hind qozu və balıq gətirmişdilər.

Hərrac günü hava buludlu idi. Tacirlər yağış yağacağından ehtiyat etdikləri üçün bambuk çubuqlarından çardaq düzəltmişdilər.

Ozimuddin bazara ərzaq almağa gəlmişdi. Ancaq onun daha bircə paysası da yox idi, ona görə də bu gün ona heç kim nisyə şey vermirdi. O, bazara bir balta və bir də bir tunc sini gətirmişdi, istəyirdi ki, onları girov qoyub bir az pul alsın.

Bipin-babu axşamtərəfi gəzməyə çıxmışdı. Onu bir neçə nəfər əli dəyənəkli cangüdən müşayiət edirdi. Bazardakı səs-küy zəmindarın diqqətini cəlb elədi, o, bazarın girəcəyində dayanıb, gözətçilərdən onların işlərinin necə getdiyini soruşmağa başladı.

Ozimuddin düşmənini görüb, baltanı qaldırdı və pələng kimi Bipin-babunun üstünə atıldı. Ancaq yarıyolda onu tutdular, baltanı əlindən aldılar və dərhal polis idarəsinə verdilər. Bazarda yenə qızğın alver gedirdi.

Bu hadisənin baş verməsi Bipin-babunu sevindirdi. Təqib olunan təqib edənə əl qaldırmışdı. Bu cür əxlaq qaydalarını pozan və nəzakətsizlik edən adam möhkəm cəzalandırılmalıdır. İndi yaramaz haqqını alacaqdı.

Bipinin evinin qadınlar yaşayan hissəsində qadınların hiddətinin həddi-hüdudu yox idi.

Onlar deyirdilər:

– Siz bircə görün bu bic nə oyun çıxarır! – Onlara təskinlik verən yalnız bu idi ki, indi Ozimuddin əməlli-başlı cəzalandırılacaqdır.

Dul arvadın boşalmış daxması isə zülmət içində idi. Onun yeməyə heç nəyi yox idi. Dul arvad üçün dünyada ən böyük hadisə oğlunun həbs olunması idi. Başqaları bu əhvalatı artıq unutmuşdular – kimisi naharını eləmişdi, kimisi yatmışdı, kimisi də dincəlirdi. Bu gen dünyada elə bir adam yox idi ki, onun oğlunu müdafiə eləsin.

Qocalmış, sümükləri çıxmış arvad qaranlıq daxmada tək oturmuşdu. Onun qorxu düşmüş ürəyi dərin ümidsizliklə çırpınırdı.

IV

Bir neçə gün keçdi. Nəhayət hakimin müavini işi baxılmağa verdi. Bipin məhkəmədə şahid kimi çıxış etməli idi. Əvvəllər zəmindarlar heç vaxt şahidlər kürsüsünə çıxmazdılar. Ancaq Bipin ifadə verməyə razı olmuşdu.

Məhkəmə günü çatdı. Bipin məhkəməyə taxt-rəvanda gəldi. Onun başında çalma, cibində uzun zəncirli saat vardı.

Hakim böyük ehtiram əlaməti olaraq onu öz yanında əyləşdirdi. Məhkəmənin binası adamla ağzına kimi dolmuşdu. Camaat çoxdandı ki, belə gurultulu məhkəmə görməmişdi.

Məhkəmə iclası başlayanda cangüdənlərdən biri içəri girib Bipin-babunun qulağına nə isə dedi. Bipin-babu fikirli-fikirli: «Mən bir dəqiqəliyə çıxmalıyam», – dedi və küçəyə çıxdı.

Onun qoca atası ayaqyalın, yarıçılpaq halda banyan ağacının altında dayanmışdı. Onun əlində Vişnin adı olan təsbeh vardı. Sanki kişinin arıq vücudundan nur yağırdı. Üzündə sakitlik, xeyirxahlıq ifadəsi vardı.

Dar bayram paltarı geymiş Bipin çətinliklə ona təzim elədi. Bu zaman onun çalması gözünün üstünə sürüşdü, saat cibindən çıxdı. O, tələsik üst-başını düzəltdi və atasından xahiş elədi ki, yaxındakı otağa, vəkillərin otağına keçsin. Krişnoqopal etiraz elədi:

– Mən öz borcumu burada yerinə yetirəcəyəm.

Bipinin xidmətçiləri onların başına toplanmış adamları geriyə itələdilər.

Krişnoqopal dedi:

– Ozimuddin azad edilməlidir, özün də onun əlindən aldığın şeylərin hamısını ona qaytarmalısan.

Mat qalmış Bipin soruşdu:

– Siz Benaresdən bura ondan ötrü gəlmisiniz? Bu sizi niyə belə narahat eləyir?

– Oğlum, bunu bilməyinin nə xeyri var?

Bipin hələ də özünü haqlı sayırdı:

– Ata, mən neçə-neçə nadürüst adamları hər şeyi geri qaytarmağa məcbur eləmişəm, siz bunların heç birinə qarışmayıbsınız. Bəs indi niyə müsəlmanın dərdinə belə qalırsınız? İş çox dərinləşib. Əgər Ozimuddin azad olunsa və o hər şeyini geri alsa, camaat nə deyər?

Krişnoqopal bir qədər dinmədi.

O, tez-tez əsən barmaqları ilə təsbeh çevirə-çevirə, səsində bir qətiyyətsizlik dedi:

– Əgər lazım gəlsə, mən açıb bütün əhvalatı camaata danışaram. Ozimuddin sənin qardaşın və mənim oğlumdur.

Heyrətlənmiş Bipin həyəcanla soruşdu:

– Müsəlman?!

– Bəli, oğlum.

Bipin bir xeyli özünə gələ bilmədi.

Nəhayət o dedi:

– Biz bu barədə sonra danışarıq. Hələlik isə gəlin keçək içəri.

Krişnoqopal:

– Yox, – dedi. – Mən bu saat geri qayıdıram. Elə güman edirəm ki, borcunu yerinə yetirəcəksən.

O, oğluna xeyir-dua verdi və bütün bədəni əsə-əsə, göz yaşlarını zorla boğaraq getdi.

Bipin bilmirdi ki, necə eləsin, hakimə nə desin, buna görə də fikir onu götürmüşdü. O öz-özünə deyirdi: «Bu da mömin adamlar. Bunların hamısı onun nəticəsidir ki, əsas pri-

nsiplərə əməl olunmur». Sonra zəmindar bu qənaətə gəldi ki, təhsil və xasiyyət sarıdan o, atasından qat-qat yüksəkdə durur.

O, məhkəmə binasına qayıtdı və arıq, üzülmüş Ozimi gördü, onun dodaqlarının qanı qaçmış, qurumuşdu, gözlərindən od yağırdı. Üst-başı çirkli, cındır idi, başının üstünü iki nəfər əlisilahlı polis kəsdirmişdi. Belə bir adam Bipinin qardaşı idi!

Bipin hakimin müavini ilə dost idi. Gurultulu məhkəmə işi xətm olundu. Ozimin hər şeyini özünə qaytardılar. İşin belə dəyişməsinə hamı mat qalmışdı. Heç kim heç nə başa düşə bilmirdi.

Krişnoqopalın az müddətə gəlib-qayıtması xəbəri tezliklə hər yerə yayıldı. Şayiələr ağızdan-ağıza düşdü.

Bəsirətli vəkillər işin nə yerdə olduğunu başa düşdülər. Bu işlə hamıdan çox vəkil Ramtaron maraqlanırdı. O, Krişnoqopalın pulu ilə oxumuşdu, odur ki, indi şübhə onu götürmüşdü. Ramtaron öz-özünə fikirləşirdi: «Deməli, əgər əməlli-başlı qurdalasan, bütün möminlərin xeyirxahlıqlarının səbəbini tapmaq olar. Qoy onlar nə qədər kefləri istəyir, təsbeh çevirsinlər, ancaq onlar da mənim kimi yaramazdırlar. Fərq yalnız orasındadır ki, möminlər riyakardırlar, adi adamlar isə səmimi».

Ramtaron bu nəticəyə gəlmişdi ki, Krişnoqopalın hamıya yaxşı məlum olan xeyirxahlığı riyakarlıqdır; o elə bilirdi ki, bu nəticəyə gəlməklə çox çətin bir məsələni həll etmişdir.

Bu nəticə, – onun nə ağılla belə fikirləşdiyini deyə bilmərəm, – Ramtaronun minnətdarlıq yükünü xeyli yüngülləşdirdi. O arxayınlaşdı.

ÇARƏSİZ BƏDBƏXTLİK

Malikanə müdiri Giriş Boşunun evinin qadınlar yaşayan hissəsinə təzə qulluqçu götürmüşdülər. Qızın adı Pəri idi. O, uzaq yerdən gəlmişdi, özü də çox ciddi qanunlarla tərbiyə olunmuşdu. Odur ki, qoca naibin ona pis gözlə baxdığını hiss eləyən kimi ağlaya-ağlaya xanımın üstünə qaçdı.

Malikanə müdirinin arvadı ona məsləhət gördü ki, çıxıb bir başqa yerə getsin.

O dedi:

– Sən təmiz ailədənsən. Burada qalmasan yaxşıdır.

Arvad ərindən xəlvətcə Pəriyə bir azacıq pul verdi və onunla xudahafizləşdi.

Ancaq çıxıb getmək o qədər də asan iş deyildi: yol pulu çatmadı, buna görə də Pəri elə bu kənddə, brəhmən Xorihor Bhottoçarconun evinə işə girdi.

Brəhmənin ağıllı oğlanları atalarının bu hərəkətini bəyənmədilər, onlar dedilər:

– Ata, niyə bizə bədbəxtlik gətirirsən?

Xorihor cavab verdi:

– Bədbəxtlik özü kömək üçün mənə pənah gətirib. Mən bu qızı geri qaytara bilmərəm.

Çox keçmədən malikanə müdiri Giriş Boşu özü brəhmənin yanına gəldi və yerə kimi təzim eləyib dedi:

– Hörmətli Bhottoçarco, sən nə səbəbə mənim qulluqçumu aldadıb gətirmisən? Mən evdə onsuz ötüşə bilmərəm.

Xorihor hirsli-hirsli, bu barədə nə fikirləşdisə, açıb hamısını dedi. O özünə hörmət edirdi, buna görə də yalan danışa bilmirdi.

Naib ürəyində onu hirslənmiş qarışqa ilə müqayisə elədi və təntənə ilə onun ayağından torpaq götürüb çıxıb getdi.

Lakin bu əhvalatdan bir neçə gün sonra polislər Xorihorun evinə gəldilər. Xorihorun arvadının balışının altından malikanə müdirinin arvadının sırğalarını tapdılar. Qulluqçu Pərini oğurluqda təqsirləndirib həbsxanaya apardılar. Bhottoçarconun özünə gəldikdə isə o, kənddə çox böyük hörmət sahibi idi, buna görə də onu oğurlanmış şeyi gizlətməkdə təqsirləndirməyə cəsarət eləmədilər.

Xudahafizləşərkən naib yenə ev yiyəsinin ayağından torpaq götürdü.

Brəhmən başa düşdü ki, bədbəxt qız, o, qıza evində sığınacaq verdiyi üçün bəlaya düşmüşdür. Onun ürəyindən qara qanlar axırdı. Oğlanları isə dedilər ki, indi gərək o, torpağını satıb Kəlkətəyə köçsün.

– Bundan sonra burada yaşamaq çətin olacaq! – deyə onlar atalarını inandırmağa çalışırdılar.

Ancaq Xorihor dedi:

– Mən ata-baba torpağından gedə bilmərəm. Bədbəxtliyə gəldikdə o, adamı harada olsa tapacaqdır: qismətdən qaçmaq olmaz.

Çox keçmədən naib, onsuz da hədsiz ağır vergini artırmaq istədi. İcarədarlar üsyan qaldırdılar. Bu zaman naib ağasına xəbər verdi ki, icarədarları qızışdıran Xorihordur. Qəzəblənmiş zəmindar əmr elədi ki, Bhottoçarcoya nə yolla olursa olsun divan tutulmalıdır.

Bir şeyi də demək lazımdır ki, brəhmənin bütün torpağı məbəd sahəsi idi, ona görə də mülkədar torpağına heç bir qarışacağı yox idi. Bütün bunlara baxmayaraq, naib yenidən Xorihorun qapısına gəldi, yenidən onun ayağından torpaq götürdü və bildirdi ki, Xorihorun torpağı mülkədarın torpağının içinə girib, buna görə də o bu torpağı tərk etməlidir. Xorihor cavab

verdi ki, bu torpaq əzəldən onundur, o mənim ata-babama lap Brəhmən allahın özündən miras qalıb.

Nəhayət məhkəməyə ərizə gəldi ki, Xorihorun evinə bitişik torpaq zəmindarın torpağıdır. Xorihor bunu eşidəndə dedi ki, o, torpaqdan əl çəkməli olacaqdır.

– Qocalmışam, daha məhkəmə kürsüsünə çıxa bilmərəm.

İndi də oğlanları razılaşmadılar.

– Əgər torpağı əlimizdən versək, bəs onda biz evdə necə dolanacağıq?

Ata-baba torpağını əldən verməmək üçün Xorihor məhkəməyə getməli oldu. Brəhmən ayaqlarını çox çətinliklə sürüyə-sürüyə, dizləri əsə-əsə şahidlər kürsüsünə qalxdı.

Hakim Noboqopal-babu, qocanın şəhadətinə əsasən işə xitam verdi. Bu münasibətlə Xorihorun icarədarları yığışıb kənddə şənlik eləmək istəyirdilər, ancaq Xorihor tez onları fikirlərindən daşındırdı.

Bir neçə müddətdən sonra isə naib yenə onun qapısına gəldi və çox ehtiramla Bhottoçarconun ayağından torpaq götürdü. O, apellyasiya şikayəti vermişdi.

Vəkillər Xorihordan pul almaqdan imtina elədilər. Onlar brəhməni inandırırdılar ki, o bu işi qətiyyən uduza bilməz. Onlar deyirdilər: «Məgər heç elə iş ola bilər ki, ağ birdən dönüb qara olsun?!» Xorihor arxayınlaşıb evində oturdu.

Ancaq bir gün naibin kontoru tərəfdən təbil səsi eşidildi. Naibin evində keçi kəsdilər və Kalipuca bayramı başlandı. Nə hadisə baş vermişdi? Bhottoçarcoya dedilər ki, işə yenidən baxılarkən işi zəmindar udmuşdur.

Xorihor ümidsizlik içərisində özünü vəkilin yanına yetirdi.

– Boşonto-babu, bəs niyə belə oldu? İndi mən nə edəcəyəm?

Ancaq Boşonto-babu Xorihora yalnız əhvalatın belə şəkil almasına kömək edən sirri danışa bilərdi. Apellyasiya ərizəsinə baxan hakim bir vaxtlar hakim Noboqopalla çəkişirmiş. O zaman onlar ikisi də eyni vəzifədəymişlər, buna görə də həmin hakim Noboqopala heç bir pislik eləyə bilmirmiş. İndi o, baş hakim olduğundan dərhal Noboqopalın hökmünü ləğv etmiş və tamam başqa qərar çıxarmışdır. «Siz bax, buna görə uduzmusunuz!» – deyə vəkil sözünü qurtardı.

– Yaxşı, ali məhkəməyə apellyasiya şikayəti vermək olmaz? – deyə Xorihor dilxor-dilxor soruşdu. Ancaq Boşonto-babu dedi ki, hakim onun şahidlərinin ifadələrini şübhə altına almış, zəmindarın şahidlərinin ifadələrini isə doğru hesab etmişdir. Ali məhkəmədə isə şahidlərin ifadələrini yoxlamayacaqlar.

Qoca gözləri yaşarmış halda soruşdu:

– Bəs indi mən necə edim?

Ancaq vəkil ona nə deyə bilərdi?

Ertəsi gün Giriş Boşu yanında bir neçə adam brəhmənin qapısına gəldi və ehtiramla onun ayağından torpaq götürdü. O hələ ömründə heç bir zaman belə ehtiramlı olmamışdı! Xudahafizləşərkən naib dərindən köksünü ötürüb dedi:

– Adi insanların əlindən nə gələr? Hər şey allahın iradəsindən asılıdır!

DƏFTƏR

Uma elə ki, yazmağı öyrəndi, daha tamam cızığından çıxdı. Qız bütün otaqların divarlarını kömürlə əyri-üyrü xətlə yazırdı: «Su axır», «yarpaq tərpənir».

O, gəlinlərinin balışının altından bir «Xordaşın sirri» kitabı tapıb hər səhifəsində karandaşla yazdı: «Qara su, qırmızı çiçək».

Adətən ev adamlarının istifadə etdikləri təzə təqvimdə Uma bütün ulduzları cızmaqaralamışdı.

O, atasının məxaric kitabında da müxtəlif haqq-hesabların üstündən yazmışdı: «Kim oxumağı və yazmağı bacarır, o, faytonda gəzir».

Bir müddət heç kim onun bu yaradıcılığının qabağında durmadı, ancaq bir dəfə Uma yaman əngələ düşdü.

Onun sir-sifətdən çox çirkin olan böyük qardaşı Qobindolel qəzetlərə məqalə yazırdı. Onunla söhbət elədikdən sonra qohumlarının və tanışlarının heç birinin şübhəsi qalmırdı ki, o, mütəfəkkir adamdır. Doğrudan da bu cəhətdən onu təqsirləndirmək olmazdı. Ancaq əvəzində o, qəzetlərə məqalələr yazır və onun fikri əksər benqal oxucularının fikri ilə düz gəlirdi.

Bir dəfə Qobindolel eşitdi ki, Avropa alimləri anatomiya sahəsində çox ciddi səhv eləyiblər, o, məntiqə əl atmadan, yalnız ilhamın gücü ilə çox gözəl bir məqalə yazdı, məqalədə həmin alimləri rüsvay elədi.

Günorta vaxtı, ev adamlarının hamısı çöldə-bayırda olan vaxt Uma mürəkkəblə həmin məqalənin üstündə yazdı: «Qopal çox yaxşı oğlandır, hər nə versələr, onu yeyir».

Mən heç inanmıram ki, qız Qopal yazanda Qobindolelin oxucularını nəzərdə tutmuşdu, ancaq qardaşının qəzəbinin həddi-hüdudu yox idi. O, əvvəlcə Umanı əzişdirdi, sonra onun

yazı şeylərini – çox adi, lakin böyük çətinliklə tapılmış şeylərini: balaca karandaş qırığını, tamam mürəkkəbə batmış ucu sınıq perosunu əlindən aldı. İncimiş qız əməlli-başlı başa düşə bilmirdi ki, onu nə üçün belə möhkəm tənbeh edirlər, ona görə də otağın bir küncündə oturub, yanıqlı-yanıqlı ağlayırdı.

Qobindolel ürəyinin tikanını çıxarandan sonra Umanın şeylərini özünə qaytardı. Üstəlik də bir qədər peşman olduğundan və qızın könlünü almaq istədiyindən, ona çox gözəl, cızıqlı bir dəftər bağışladı.

O vaxt Umanın yeddi yaşı vardı. Qız bu dəftəri çox möhkəm saxlayırdı – gecələr balıncının altına, gündüzlər isə qoynuna qoyurdu.

Vaxt oldu, Umanın saçlarını kiçik hörüklərə ayırdılar və qulluqçunun qabağına salıb kənd qız məktəbinə göndərdilər; o, yenə də dəftərindən ayrılmadı. Umanın yaşıdlarının bəziləri ona yazmağı bacardığına görə həsəd aparır, bəziləri təəccüb edir, bəzilərində isə bu, ona qarşı düşmənçilik oyadırdı.

Elə birinci dərs ilində Uma səylə dəftərində yazdı: «Bütün quşlar civildəşir, səhər açıldı».

O, yataq otağında döşəmənin üstündə oturub əlləri ilə dəftərin üstünü örtərək yazır və yazdıqlarını ucadan, uzadauzada oxuyurdu. Bu qayda ilə dəftərə xeyli poeziya və nəsr nümunələri toplanmışdı.

Dərs ilinin ikinci ili dəftərdə sərbəst mövzuda, nə əvvəli, nə də axırı olmasa da, çox qısa, lakin mühüm yazılar peyda oldu. Onların bəzilərini misal gətirməyə dəyər.

Pələng və vağ hekayəsindən sonra bir cümlə yazılmışdı: «Mən Coşini çox sevirəm». – Bu cümləni nə «Kothamala»da, nə də başqa müasir benqal kitablarının birində tapmaq olar.

Elə güman eləməyin ki, mən sizə məhəbbət macərası

danışmağa hazırlaşıram. Coşi on bir, yaxud on iki yaşında oğlan-zad deyil, o, qoca qulluqçudur, bütöv adı Coşodadır.

Ancaq təkcə bu cümləyə əsaslanıb qızın Coşiyə necə münasibət bəsləməsi barədə düzgün mühakimə yürütmək olmaz. Əgər birisi bu əhvalatın müfəssəl tarixini yazmaq istəsə, o, dəftərdə ikicə səhifədən sonra yuxarıdakı sözlərlə daban-dabana zidd bir yazı tapacaqdır.

Özü də bu, yalnız indi danışdığımız əhvalata aid deyil! Umanın yazılarında addımbaşı ziddiyyətlərə rast gəlirsən. Məsələn, bir yerdə yazılmışdır: «Mən Xoşidən ömürlük küsmüşəm» (Xorihorondan yox, məktəb rəfiqəsi Xoridəşidən). Bir qədər sonra başqa bir yazıya rast gəlirsən, bu yazıdan tamamilə aydın olur ki, bütün dünyada Xoridən etibarlı rəfiqə tapılmaz.

Bir il də keçdi, qızın doqquz yaşı tamam oldu. Bir gün evdən fleyta səsi gəldi: Umaya toy eləmək vaxtı çatmışdı.

Adaxlının adı Perimohon idi, o, Qobindoləlin ədəbi yaradıcılıq üzrə köməkçisi idi. Cavanlığına, bəzi şeyləri öyrənməsinə baxmayaraq, yeni ideyalar onun beyninə girmirdi. Buna görə kənd camaatı Perimohonu yaman tərifləyirdi. Qobindolel onu təqlid etmək istədi, ancaq bu sahədə o qədər də böyük müvəffəqiyyət qazana bilmədi.

Uma Benaresdən gətirilmiş sari geydi, balaca üzünə örpək saldı, hönkürə-hönkürə ər evinə yollandı.

Anası ona xeyir-dua verib yola salanda dedi:

– Gözümün işığı, qayınananın sözünə bax, evdə hər işi elə, başlıcası isə nə oxu, nə də yaz!

Qobindolel isə əlavə elədi:

– Bax, orada divarları qaralama ha, ora sən deyən evlərdən deyil. Bir də heç vaxt Perimohonun kağızlarını yazma.

Bu sözlərdən qızın ürəyi sıxıldı. O başa düşdü ki, getdiyi evdə heç kim onun səhvini bağışlamayacaqdır; üstəlik də Uma bu evdə nəyin səhv, nəyin günah və nəyin qəbahət sayıldığını başa düşənə kimi illər keçəcək.

Həmin gün bütün səhər fleytanın səsi kəsilmədi, lakin yer üzündə heç olmasa tək bircə nəfər elə adam vardımı ki, o, bu Benaresdən gətirilmiş sari geymiş, bəzək-düzək taxmış, üzünə örtük salmış balaca qızın səksəkə ilə çırpınan ürəyindən nələr keçdiyini əməlli-başlı başa düşə bilsin? – Mən buna inana bilmirəm.

Coşi də Uma ilə getdi. Belə qərara gəlmişdilər ki, o, bir neçə gün qızın yanında, qayınananın evində qalsın.

Mehriban Coşi çox götür-qoydan sonra dəftəri də özü ilə apardı. Bu dəftər ata evinin bir hissəsi, doğma evlərində keçirdiyi azacıq günlərdən xoş xatirə idi, o, ata-anasının onu əzizlədikləri günlərin qısaca tarixçəsi idi. Bu dəftər Umanın körpə çağlarında ərə verildiyi vaxt, onun uşaqlıq təbiətinə bu qədər yaraşan azadlığın çox cüzi hissəsi idi.

Ər evində ilk günlər Uma heç bir şey yazmırdı – buna vaxt yox idi. Bir neçə gündən sonra Coşi geri qayıtdı.

Elə həmin gün Uma yataq otağının qapısını bağladı, dəftərini dəmir sandıqçadan çıxarıb ağlaya-ağlaya yazdı: «Coşi getdi evimizə, mən də anamın yanına gedəcəyəm».

İndi onun «Çarupatha» və «Bodhodoyya»dan hekayə üzü köçürməyə vaxtı yox idi. Həm də mənə elə gəlir ki, heç buna həvəsi də olmazdı. Buna görə də daha qızın qısa qeydlərinin arasında uzun fasilələr olmurdu. Yuxarıda göstərdiyimiz sətirdən sonra bir başqa yazı gəlirdi: «Əgər dadam məni evimizə aparsa, mən bir də heç vaxt onun kağızlarını korlamayacağam».

Umanın atası istəyirmiş ki, qızı hərdən evlərinə qonaq gəlsin, ancaq deyirlər ki, Qobindoləl və Perimohon buna etiraz ediblər.

Qobindoləl deyib ki, Uma gərək ərinə hörmət eləməyi öyrənsin, əgər onu ərinin evindən evimizə gətirsək, ata nəvazişini yenidən yadına salsaq, onda bu, Umaya yalnız mane olar. Qobindoləl bu məsələyə dair istehza və öyüd-nəsihətlərlə dolu elə gözəl bir məqalə yazdı ki, onun həmfikir oxucularının heç birində bu məqalədə dərin hikmət olduğuna şübhə qalmadı. Uma bunu adamlardan eşidib dəftərinə belə yazdı: «Dada, qarşında diz çökürəm, məni evimizə apar, bir də heç vaxt səni hirsləndirmərəm».

Bir dəfə Uma qapını daldan bağlayıb, öz otağında oturmuşdu, dəftərinə nə isə sadə, mənasız sözlər yazırdı. Onun hər şeylə maraqlanan çox yetik baldızı Tilokomoncori öz-özünə fikirləşdi: «Bir baxım görüm bou-didi qapını niyə bağlayır? Orada nə iş görür?»

Qız qapının deşiyindən baxıb gördü ki, Uma oturub yazı yazır, o bunu görəndə çox təəccüb elədi. Hələ indiyə kimi heç bir zaman Sarasvati onların evlərinin qadınlar yaşayan hissəsinə belə xəlvətcə girə bilməmişdi.

Onun kiçik bacısı Konokomoncori də qapıya yaxınlaşdı, o da içəri baxmağa başladı.

Onun ardınca lap kiçik bacıları da gəldi, onun adı Ononkomoncori idi.

O, barmaqları üstə qalxıb birtəhər deşikdən içəri baxdı və çox gülməli bir şey gördü.

Uma oturub yazı yazırdı, birdən qapının dalından üç tanış pıçıltı, sonra da gülüşmə eşidildi. Uma dərhal işin nə yerdə olduğunu başa düşdü və tez dəftəri sarisinin altına soxub,

utandığından və qorxusundan özünü itirmiş halda başını yatağın içinə soxdu.

Perimohon bu əhvalatdan xəbər tutanda möhkəm fikrə getdi. Vay o gündən ki, qadın elm öyrənməyə başlaya! Sonra povestlər, onların da ardınca romanlar yazmağa başlayacaq, bəs onda evin işini kimi görəcəkdir?

Çox dərin götür-qoydan sonra o, çox ibrətamiz nəticələrə gəldi. Müqəddəs nikah ittifaqı kişi və qadın qüvvələrinin birləşməsindən törəyir. Əgər bilik qadın qüvvəsini zəiflətsə, onda qadında kişi qüvvəsi artıqlıq təşkil etməyə başlayır. Sonra: iki kişi amilinin toqquşması elə dağıdıcı qüvvə olur ki, bu, ailəni dağıda bilər, deməli, qadın dul qalar. Hələ indiyə kimi heç kim bu orijinallıqda nəzəriyyə söyləyə bilməmişdi!

Axşam Perimohon Umanın yanına gəlib onu əməllibaşlı danladı, bu zaman o, üstəlik qızı ələ də saldı.

– İndi bircə şamla sifariş eləməyin qalır! Sonra isə mənim arvadım karandaşı qulağının dalına qoyub kontora gedəcək!

Uma onun danışdıqlarını yaxşı başa düşmürdü. O, Perimohonun məqalələrini heç vaxt oxumamışdı, ona görə də yumor hissi hələ kifayət qədər onda inkişaf eləməmişdi. Ancaq Umanın kefi yaman pozuldu, o, az qalırdı ağlasın.

Bu söhbətdən sonra o, uzun müddət heç bir şey yazmadı.

Lakin bir dəfə payız vaxtı bir dilənçi qadın onların pəncərələrinin altında Aqomoninin mahnısını oxudu. Uma üzünü pəncərənin barmaqlığına söykəyib, dinməzcə mahnıya qulaq asırdı. O, tək idi, payız günəşi işıq saçırdı, birdən Uma uşaqlığını xatırladı. Üstəlik də qız Aqomoninin mahnısını eşidəndə daha özünü saxlaya bilmədi.

Uma mahnı oxuya bilmirdi, lakin yazmağı, oxumağı öyrəndiyi gündən belə bir vərdiş eləmişdi: eşitdiyi mahnıları yazırdı. Bu zaman mahnı oxumağı bacarmaması ona o qədər də ağır gəlmirdi.

Dilənçi pəncərənin altında oxuyurdu:

Deyir yoldan ötən: «Umanın anası,
Bax, budur o itmiş ulduzun sənin!»
Ana kraliça sevindiyindən
Az qala lap dəli olmuşdu o dəm.
«Hardasan, hardasan, ey mənim Umam? –
Deyir kraliça və ağlayır o:
– Gəl mənim yanıma, ey Umam, gəl, gəl!
Gəl otur dizimin üstündə, balam!»
Qızcığaz qolunu açaraq bu an
Qucur anasının boynunu incik,
Söyləyir astadan: «Bəs nə vaxt məni
Sən öz evimizə aparacaqsan?»

Umanın ürəyi dərdlə doldu, gözləri yaşardı. O, xəlvətcə dilənçi qadını içəri çağırıb qapını bağladı və hərfləri səylə yan-yana düzə-düzə mahnını dəftərinə köçürməyə başladı.

Ancaq Tilokomoncori, Konokomoncori və Ononkomoncori qapının deşiyindən bunların hamısını görürdülər. Onlar çəpik çalıb qışqırdılar:

– Bou-didi, biz sənin nə iş tutduğunu görürük!

Uma tez qapını açıb otaqdan çıxdı və yazıq-yazıq onlara yalvarmağa başladı:

– Bunu heç kimə deməyin, ayaqlarınızın altında ölüm! Bir də belə iş tutmaram, daha heç vaxt yazı yazmaram!

Bu vaxt Uma hiss elədi ki, Tilokomoncori əlini onun

dəftərinə tərəf uzatmaq istəyir. Qız dəftəri sinəsinə basıb qaçdı.

Baldızlar istədilər ki, dəftəri zorla alsınlar, ancaq nə qədər çalışdılarsa, bir şey çıxmadı. Onlar ağıllı qardaşlarını köməyə çağırmalı oldular. Perimohon gəlib təşər-təşər çarpayının üstündə oturdu.

O, zəhmli-zəhmli dedi:

– Dəftəri ver bura! – Lakin əmrinin yerinə yetirilmədiyini görüb, boğazına ikiqat güc verdi:

– Sənə dedim ki, dəftəri ver bura!

Qız dəftəri sinəsinə sıxıb yazıq-yazıq ərinin üzünə baxırdı. Uma Perimohonun dəftəri almaq üçün yerindən qalxdığını görəndə dəftəri yerə atdı və özü də əlləri ilə üzünü tutub döşəməyə sərildi.

Perimohon dəftəri götürüb orada yazılanların hamısını ucadan oxumağa başladı. Hər cümlədən sonra Uma döşəməyə daha möhkəm qısılırdı, Perimohonun oxuduqlarına qulaq asan üç qız isə gülməkdən qəşş edirdilər.

Uma bir də dəftərinin üzünü görmədi.

Perimohonun da tikanlı sözlərlə dolu dəftəri vardı. Lakin təəssüf ki, elə bir adam yox idi ki, bunu onun əlindən alsın və cırıb tullasın.

HƏYAT

İstəyirəm ölümü gətirməyib heç yada,
İnsanlarla yaşayım, mən bu xoşbəxt dünyada.
Bəlkə məskənim oldu nurlu qalın meşəlik,
Ürəklərdə özümə yer tapdım həmişəlik.
Canlı oyunları var, hərəkətdədir həyat.
Hicran, vüsal, sevincdir, kədərdir bu kainat.

Nəğməmin ruhu olsun fəlakət, bəxtiyarlıq,
Əbədi şöhrət verər onda mənə bu varlıq.
Əsrlərcə yaşaya bilməsəm də gəliniz
Ömrü başa namusla, dəyanətlə vuraq biz.
Mahnılarda mən ancaq deməliyəm sözümü,
Mahnı çiçəklərində canladaram özümü.
İnsanlar fərəh ilə əl atsın bu güllərə,
Soldularmı, sözüm yox, onda atsınlar yerə.

MAHNININ NƏFƏSİ

Yenidən gəlmiş dilə, bir zamanlar susan ney,
Bahar don geyinibdir, göy meşəyə əsən meh
Canandan xəbər verir, yada düşür o pəri,
Xatirimə salıram ən qədim nəğmələri.
Mahnılar deyib gedir, uzağa Qanqın suyu,
Gülüşlər dalğalanır, yenə də sahil boyu,
Yenə, keçən arzular ürəyimi dindirir,
Onlar mənim qəlbimi qızdırır, isindirir.
Bu dünya dedikləri, gözəl çiçək taxtıdır,
Sanıram ki, o taxta oturmağın vaxtıdır.
Budur qaranlıqlara sönməz işıq saçan kəs,
Budur mayda süzülən, şəfəq kimi axan səs
Baxış var, görünməyir, gözlər, göz qapaqları,
Öpüş var, bəs hardadır, yarımın dodaqları?

NİYƏ?

Ah nə üçün ney belə ürək yandırır, yaxır,
Şəfqətlə, ehtirasla könül üzülür, axır?
Dərk eləyə bilmirəm, dodaq sirri nədəndir,
Cavanların qəlbini bu qədər titrədəndir?

Ah niyə ehtirasla ağuş istəyir bədən,
Könül qara gözlərin cumur dalınca nədən?
Ürək utandığından soyuq daşa dönsə də,
Ani yorğunluq bəzən əbədi görünsə də,
Yaxın olmaq istərik düşən zaman uzağa.
Kədərlənir qəlbimiz bu dəm düşüb fəraqa.
Bihuşluq istəyirik, belə kama çatırıq.
Bu gün sevdiyimizi, sabah səhər atırıq.
Eyləyirik insanın qəlbini bir oyuncaq,
Oynayırıq onunla amansızca biz ancaq.

ƏLLƏR

Qollar sarmaşmaq istər, söylə kim bilmir bunu:
İzhar eləməz onlar, məhəbbət arzusunu.
Qəmli təkrar eləyər, «getmə, dostum, dur dayan»,
Etiraf edib kimə bu sözləri, hər zaman
Qəlbin dərinliyindən gələn bu kəlmələri
Bu titrək əllər yazır qəlbə nə vaxtdan bəri.
Deməyirəm ki, onlar insanı çox yandırır,
Şəfqətlə, hərəkətlə qəlbi həyəcanlandırır.
Gəncliyin çələngini əsla vurmayıb daşa,
Onu alıb bu başdan, qoyur başqa bir başa.
Həyat döyüntüsünü cavan qəlbin, uyurlar
Götürüb ayaqların düz altına qoyurlar.
Əziz dost! Məhəbbətin nurlu çırağı yansın,
Qolların ömrüm boyu qoy boynuma dolansın.

ŞÜBHƏ ÇULĞALAYIRKƏN

Sevirsən, yox, bilmirəm, qalmayıbdır məndə tab,
Qorxuram, dinməyirəm.
Axtarıram hey sənin gözlərində bir cavab
Tapar könlüm deyirəm.
Gecə-gündüz bilmirəm, sürünürəm dalınca,
Şükr edirəm iqbala.
Gülümsəyib sən mənə bir an nəzər salınca,
Düşürəm haldan-hala.

Sevirsən, yox, bilmirəm, necə öyrənim bunu,
İtirmişəm başımı,
Öz halıma yanmayım necə günlər uzunu,
Tökməyim göz yaşımı.
Gah qorxuram ki, bezəm, gah qürurlu oluram;
Təngəyəm öz-özümdən.
Tellərinə bircə gül taxmağa bağ yoluram
Gəzirəm çəmən-çəmən.

Sevirsən, sevməyirsən, bilməyirəm, mən ancaq
Bil əbədi sevirəm.
Fəlakətin də xoşdur, köksümdə yanan ocaq
Sönür qoy sönsün nə qəm.
Əmr elə, mərd-mərdana olsun əbədi rahat
Həyəcanlı ürəyim.

Eşqimə səndən cavab gözləyirəm hər saat.
Budur, dilim, diləyim.
Nə toy gülü istədin, nə göz yaşı, nə şəfqət
İstəmirsən neyləyim.

Səni isindirmədi ehtiraslı hərarət,
Yanmadın açıq deyim.
Dodaqlarım yanqılı, ürəyim acdan da ac,
Eləməyirsən çara;

Ah bircə yol desəydin sevirəm mən naəlac
Onda mən bəxtiqara
Görərdim ki, yer üzü büründü işıqlara.
Güldü insanlar bütün
Sənin səxavətindən onda yetişib vara,
Xəzinə tapardım o gün.
Paylardım yoxsullara, yetimlərə, deyərdim,
Artıq kama çatmışam.

Sevməyirsən axı sən, dağdan böyükdü dərdim,
Özümü aldatmışam.
Eşqimi tapdalamaz, salmazdın ayaqlara
Sevsəydin əgər məni.
Əlində başqa teldi, vüsal hara, mən hara,
Çulğayır kədər məni.
Alıb azadlığımı qəlbimə vursan da ox,
Söylə, sevirsən ya yox?

ANA BENQALİYA

Ey ana Benqaliya, çalış ki, oğulların
Mömin olsun, heç zaman doğru yoldan çıxmasın.
Saxlama, doğma evin divarları onların
Elə et ki, qəlbini bircə gün də sıxmasın.
Çətin yolla getməyi onlara yaxşı öyrət,
Atdıqları addıma mane olma bir kərə.

Daşıyırsan dünyanın önündə məsuliyyət.
Yaxşı ilə, pis ilə girsinlər döyüşlərə.
Onlar ki, tərbiyənlə böyüyür bu gün sənin,
Övladıdır vətənin.
Sən bu gəncləri ancaq
Etmə əbədi uşaq.
Evdən məhrum eylə ki, yaşamasınlar rahat,
Onlara sərt üzünü çalış göstərsin həyat.
Onlar sakitdir xeyli.
Çıxart gəl başlarından, Benqaliya, bu meyli,
Böyütmüsən onları zəhmətin bəlli çoxdur,
Lakin aralarında mübarizləri yoxdur.

YELKƏNLİ QAYIQ

Verib ixtiyarına qayığın mən özümü,
Baxırdım sahillərə zilləyərək gözümü.
Tarlalarla ağaclar qalır xeyli uzaqda;
Yox olur solda, sağda.
Evlər gözdən itirdi qarışıq bir dəstə tək,
Dayaz yerlər, qayalar ötür gözdən itərək.
Sanki göstərilirdi gözbağlıca oyunu,
Hər şey ötüb keçirdi, görürdüm mən də bunu.
Hər şey gözüm önündə bir xəyala dönürdü,
Fırçanın yaratdığı tablo tez görünürdü.
Sonra həmən mənzərə silinirdi lövhədən,
Sürətlə yollanıram mindiyim qayıqda mən
Əbədiyyətə doğru,
Qədim bir oyundu bu.
Əsrlərdən-əsrə bu oyun təkrar olur,
Elə ki, bir yenilik anlaşılır, duyulur.

Anlaşmanın sonunda böyük yolda, yaxşı bil,
Sonra da sanki hər şey olurdu aydın şəkil.
Mənasızdır o şey ki, daima qalır geri.
Deyirdim unutmaram xəyal olmuş illəri.
Silindi yaddaşımdan, lakin o keçən aləm,
Çıxarılıb ürəkdən atıldı o kədər, qəm.
Yeni sahil görünür, aydınlaşır cizgilər.
Qayıq yollanıb gedir, köpüklənir ləpələr.
Gedir gah əyri-üyrü, süzür ox kimi dümdüz
Yollanır gecə, gündüz.
Onun belə üzməsi qəlbə hərəkət verir,
Bu hərəkət insana zövq verir, ləzzət verir.
Gizli bir ağrı dəxi duyur, hiss edirəm mən.
Xoşallanır ürəyim bu uçuş, bu enmədən.
Avarlar qalxır, düşür, işləyirlər yol boyu,
Dalğaları döyərək yarırlar coşqun suyu.
Ağac dəstəklər avar yerinə təmas edir.
Həyat qayğımız da qabağa gedir, gedir.
Avarlar gecə vaxtı enərək düşür yana
Hərəkətdən gəliblər elə bil onlar cana,
Uzaq yol zəvvarları, – yeriş etdi qaranlıq –
Daha bir-birlərini görməyəcəklər artıq.
Suların qucağında hərəkət edir qayıq,
Əbədi bir ümmanın qoynuna gedir qayıq.
Sonsuz göy sularına gedir vermədən ara,
O yerdə ki, ulduzlar enir mavi sulara.

MİSİR ƏDƏBİYYATI

- QƏDİM POEZİYA NÜMUNƏLƏRİ
- QƏDİM NƏSR NÜMUNƏLƏRİ
- FATİMƏ NAOOT



QƏDİM POEZİYA NÜMUNƏLƏRİ

ÖLÜMÜN ÖYÜLMƏSİ

Siz ey xeyirxah ruhlar, doqquz Helilopol allahı!
Eşidin «Tanrıların atasına» tərifi.
Onun rütbəsi üçün qəlbi ləkəsiz idi,
Əbədiyyət şəhrində o ölməz allah idi,
Qəbirlərə baş çəkib, düşünürsüz burada,
Yatanların baxşını.
Sərdaba daşlarının divarına yazılmış
Nəğmələr bilirəm ki,
Əbədiyyat yerinə bu həyat tərifənir.
Şöhrətsizdir deyirlər niyə qəbir dünyası –
Bir dünya ki heç onun qorxusu, hürküsü yox.
Dedişmədən iyrənib, sakitcə dincəlirlər.
Qohum, dost qorxusu yox, düşmənçilik nə gəzir,
Əcdadlarınız orda qədimlərdən uyuyur.
Misirdə doğulanlar gedəcək, qalmayacaq –
Əbədiyyət şəhrində yer hazırdır hamıya.
Dünyada qonağıq biz – bu çoxmu uzanacaq?
Sakit ötüb-keçəcək bu zaman yuxu kimi.
Ömrün qürub düzündə qonağı qarşılayıb
«Xoş gəldin» deyəcəklər

NİLİN ÖYÜLMƏSİ

1

Alqış sənə, Xapi!
Sən bu torpağa gəldin.
Gəldin ki, canlansın Misir,
Axını gizlidir, qaranlıq kimi olur,
Günün günorta çağı xidmətçiləri öyəndə onu,

O, Ranın yaratdığı tarlaları suvarır,
Suvarır ki, hər kola həyat versin.

O, səhranı, qurunu da suvarır,
Göydən düşən şeh də onun şehidir.

O, torpağı sevir,
Nepranı idarə edir,
O, rövnəq verir Ptanın sənətinə.

2

Balıqların yiyəsi – onları sahillərə çatdıran
Yox olur, buğda yığanların başı üstündə
Uçuşan quşlar yoxdur.
Onun barmaqları zəifləyəndə, qapananda burun pə-
rələri
Hamı yoxsullaşır.
Bu zamanlar tanrıların göyləri də qısırlaşar,
Qırılar yığın-yığın adamlar.

3

Bəla bürüyəndə, bədbəxtlik basanda Yer üzünü
Qırılır uşaq da, böyük də.
O yaxınlaşanda adamlar bir yerə toplaşır.
Onu canlandıranda Xnum.
O peyda olanda – Yer üzü gülür,
Sevinir bütün varlıqlar.
Qəhqəhə çəkir bütün əzaları,
Gülürlər bütün dişləri ağarıncayadək.

4

Hər cür nemət yetirən, bol yeməklər yiyəsi,
Gözəlliklər yaradan!
Güc-bərəkət yiyəsi, xoş duyğular oyadan.
Odur – sevinc gətirən,
Odur – sürülər üçün çəmində ot bitirən,
Odur – ona verilən qurbanları yad edən.
O harda olur-olsun:
Ya qaranlıq dünyada, ya Göydə, ya da Yerdə

Saxlayır hökmü altda o hər iki torpağı.
Anbarları doldurur, taxıldan tığlar vurur.
Yoxsullara əl tutur, onlara nemət verir.

5

Bütün ağaclara çiçək bəxş edən,
Xətri istəyənlərin hamısı üçün
Bol-bol ağac bitirən.
Öz qüdrətilə gəmilər yaratdıran,
Tişəsiz, daşyonansız

Abidlər yaradan.
Sirli, gözəgörünməz,
Nə xidmətçi saxlayır, nə də ki, vergiyığan.
Onun sirri açılmaz.
Heç kəs bilmir haradan, hansı yerlərdən gəlir.
Yazıları oxusan, yenə tapa bilməzsən gəldiyi kahaları.

6

Heç bir binaya sığmaz sənin bol nemətlərin.
Heç kəsə öz fikrini hökm etmək gərək deyil.
Səninlə fəxr edirlər gənclər də, uşaqlar da.
Sənə səcdə edirlər böyük hökmdar kimi.
Sənin öz qanunların heç bir zaman dəyişməz.
Çıxarsan həm Aşağı, həm Yuxarı Misirdə.
Hamı sənin suyunu içər, gözünə təpər,
Çalışırsan çoxalsın dünyanın gözəlliyi.

7

Carçı sənin hünərlərini öyəndə,
Şadlıq üzə çıxır, könüllər gülür.
Timsahlar boğazdır, Neyt doğmağa başlar,
Gözəldir sənin Heliopolunun Doqquz Allahı.
Tarlada cücərənlər boy atır-könlü toxdur.
Bol məhsul adamlara güc verir, qüvvət verir.
Kimi doyuzdurur, kimini şənləndirir,
Götürür ortalıqdan hər dedini-qodunu,
Pay verənin başının üstə nəzarətçi yox.
Adamlar özü bilir hər şeyin ölçüsünü.

8

Zülmətləri dağıdıb, aləmi nurlandıran.
Bol-bol sürüsü olan,
Bitməz qüdrət yiyəsi.
Sağlar içində onu tanımayan tapılmaz,
Səhər min bir həvəslə tarlaya qədəm qoyan.
Axşamlarsa tarlanı sevərək əzizləyən
Adamlara elə bir qabiliyyət verir ki,
yerinə yetirsinlər onun istəklərini.
Ptanın dostu olan,
Onunla bir çalışan,
Aşağı Misirdəki nə varsa hamısını,
Müqəddəs yazıları icad edən – yaradan,

9

Şırıltılı nitqinlə axırsan yerin təkinə,
Sevimli bir aləmdən ayrılıb gəlirsən sən.
Sənin hirsin tutanda yoxa çıxar balıqlar,
Adamlar həsrət ilə bol suyunu gözləyir,
Onda miskin görünür varlı da yoxsul kimi.
Hərə bir alət qapıb onda cumur tarlaya.
Heç kimsə öz dostunu yaddan çıxarmır onda.
Əyninə köynək üçün onda parça tapılmır,
Varlı uşaqları da qalır bəzək-düzəksiz.
Gecələr şırıltını eşidənlər də olmaz.
Sözlərdə öncəki tək yaxşı sərinlik olmur.
Sevincdən ətir yaxır bədəninə adamlar,
Elə ki, su gurlaşır, çoxalmağa başlayır.

10

Adamların həsrətində olduğu həqiqətin təsdiqi
Bu deyimdədir: Cavabını alanadək
Hazır vəziyyətdə ol».
Onda Nil barəsində söz deyər Böyük Yaşıl dəniz.
Varlılar da gedərlər yoxsulların dalınca.
Nepra yol göstərər dirilər.
Allahlarsa ona tərif deyərlər.
Əllərin qəlibə gümüş tökərsən
Qızılı xatırladır.
Taxıl məhsul verəndə
Heç kəs lazurit yemir.

11

Sənincün dinir arfa,
Səni alqışlayırlar.
Gənclərin, uşaqların sənilə sevinirlər.
O sərvət gətirəndə
Torpaqlar da bəzənir.
Buraya adamların faydası gətirir onu,
Özünün yığın-yığın sürülərini sevən,
Hamilə olanların qəlbinə həyat verir.

12

Sən şəhərə ayaq basanda
Gözəl şeylər yiyəsi şənlik edir, sevinir.
Yoxsul deyir: «Olsaydı mənim həyat çiçəyim».
Yer üzünün hər şeyi bir-biriylə bağlıdır,
Bütün otlar verilir onun övladlarına.
Əgər xörək yeyənlər onu unudurlarsa,

İtər evdən bərəkət,
Dünya bəlaya düşər.

13

Ey Xapi, sən gələn tək
Qurbanlar gətirirlər,
Gətirirlər kəsməyə səninçün öküzləri,
Quşları da səninçün bəsləyib kökəldirlər.
Səninçün səhradan şirləri ovlayırlar,
Sənə bəxş eyləyirlər çox gözəl hədiyyələr.
Necə ki Xapiyə qurban verilir,
O cür də verirlər hər bir allaha
İlahi ətirlər, öküz, mal-heyvan
Çoxlu quş, bir də od.

Çox kahalar qazıb Xapi Fivada
Ancaq o, dünyada ad çıxarmayıb.

14

Allahın adını çağırır adam
Qorxanda hökmündən qadir hakimin,
Yalvarırlar çiçək açsın hər iki sahil.
Çiçək aç, çiçəklən di, Xapi.
Adamlara, heyvanlara can verən
Düzlərin nemətlərilə.
Çiçək aç di!
Çiçək aç, çiçəklən di, Xapi,
Çiçəklən, çiçəklən, ey payı gözəl.

Uğurla başa çatdırılıb dünyada
İki evin gümüşü-katib Kaqabunun əliylə.

İLAHƏYƏ

Sən, ey, iri addımlarla yeriyən,
Yolları ulduz kimi, zümrüd, firuzə səpən.
Sən çiçək kimi gözəlləşəndə
Mən də çiçək açıram canlı bitkilər kimi.

SƏHƏR GÜNƏŞİNƏ

Gözəlim görünür Günəşin gəmisində,-
Ra sevir onu.
Gündüz gəmisi tək qüdrətlidir o, -
Ra sevir onu.
Ra çıxıb ki, baxsın gözəlliyinə, -
Ra sevir onu.

QƏDİM NƏSR NÜMUNƏLƏRİ

GƏMİ QƏZASINA UĞRAMIŞIN NAĞILI

[1] Ləyaqətli «yol yoldaşı» dedi: «Qoy sakit olsun
[2] ürəyin sənin, ey aramızda birinci olan, zira çatmışıq artıq çar
mənzilinə, verilib
[3] sahilə ağac gürz,
[4] Yanalma payası yerə çalınıb, burun burazı
[5] quruya atılıb. Allaha minnətdarlıq və mədhlər eşidilir,
[6] hərə öz yoldaşını qucaqlayır.
[7] Bizim adamlar sağ-salamat qayıdıblar, dəstəmizdə
[8] itki yoxdur. Biz çatmışıq
[9] Uauat ölkəsinə və Senmut adasına
[10] ötüb keçmişik. Və budur qayıtmışıq
[11] sakitcə. Ölkəmizə çatmışıq.
[12] Eşit məni, aramızda birinci olan,– mən əlavə
[13] heç nə artırmıram: dəstəmaz al və barmaqlarına
[14] su tök. Və
[15] səndən bir şey soruşulanda cavab ver. Çarla
[16] danışanda özünü ələ al,
[17] gərəyincə cavab ver, çaşma, zira insanın qurtuluşu –
[18] öz ağzındadır, çünki söz
[19] mərhəmət oyadır.
[20] Ancaq, öz ürəyinin istəyincə hərəkət elə, çünki
[21] səni yola gətirmək üzüntülü məsələdir. Yaxşısı
[22] budur, danışım sənə öz başıma

23 gələnləri də. Mən getmişdim
24 çarın mədənlərinə.
25 Dənizə tərəf endim, gördüm gəmini:
26 yüz iyirmi dirsək uzunu və qırx dirsək enində
27 və yüz iyirmi seçmə dənizçi vardı orda
28 Misirdən. Onlar boylanıb
29 göyəmi baxırlar, yerəmi baxırlar – şirdən də çox
30 qorxubilməzdir. Onlar tufan olacağını
31 qabaqcadan, qasırğanı
32 başlamamış xəbər verirlər. Budur tufan qopdu,
33 onda biz dənizdəydik, yelkənlə
34 üzüb quruya çata bilmədik.
35 Budur, külək getdikcə coşur, dalğaların hündürlüyü
36 səkkiz dirsək qədər. Budur, dor ağacı qopub düşdü
37 dalğaların üstünə və gəmi
38 məhv oldu və dənizçilərdən heç kim
39 sağ qalmadı. Təkcə məni atmışdı
40 dənizin dalğası adaya.
41 Üç gün kimsəsizlikdə qaldım, yalnız
42 ürəyim idi həyanım. Uzanmışdım
43 ağac
44 cəngəlliyində, kölgələrin
45 ağuşunda. Sonradan ayağa qalxdım
46 ki, ağzıma qoymağa bir şey axtarım,
47 əncir tapdım,
48 üzüm və hər cür gözəl tərəvəz və
49 firon ənciri meyvələri, və
50 sanki insan əliylə yetişdirilmiş xiyar, balıq və
51 quşlar tapdım. Və elə bir təam olmadı
52 ki, orada tapılmasın. Və beləliklə

[53] yeyib doydum, əlimdə nə
[54] qalmışdısa, yerə qoydum. Burğu kəsdim,
[55] od əldə elədim və
[56] allahlara odlu qurban verdim. Birdən
[57] ildırım səsi eşitdim. Düşün –
[58] düm ki, bu, dənizin
[59] dalğalarıdır. Ağaclar çatlayırdı,
[60] yer titrəyirdi.
[61] Üzümü açanda gördüm ki, bu
[62] mənə tərəf yaxınlaşan bir ilandır.
[63] Onun uzunluğu otuz dirsəkdi. Saqqalı – iki
[64] dirsəkdən çox olardı. Axçası –
[65] qızıldan, qaşları lazuritdəndi.
[66] Bədəni yuxarıya əyilmiş.
[67] O mənim qarşımda ağzını ayırdı, mənsə
[68] yerə sərələndim.
[69] O mənə dedi: « Səni buraya kim gətirib, səni kim gətirib, körpə?
[70] Kim gətirib səni? Əgər yubansan
[71] onun adını mənə deməkdə, özündən küs,
[72] külə dönməyin dadını görəcəksən,
[73] yoxa çıxacaqsan və səni heç kim görməyəcək.»
[74] Mən ona cavab verdim: «Bax sən mənimlə danışırsan, mənsə başa düşmürəm.
[75] Qarşında yerə sərilmişəm.» Və
[76] mən qorxudan bayılmışdım. Onda məni ağzına götürüb
[77] apardı
[78] öz kahasına, yerə qoydu
[79] sağ-salamat, ancaq mən
[80] zədəsizdim, əzalarım bədənimdən qoparılmamışdı.

[81] o, ağzını məndən yana çevirdi, mənsə
[82] kahada onun qarşısında yerə sərələnmişdim.
[83] o mənə dedi: «Səni buraya kim gətirib, kim gətirib səni,
[84] körpə? Səni bu adaya, sahili dalğalar olan
[85] dənizin ortasına kim gətirib?»
[86] Ona cavab verdim,
[87]əllərimi hörmətlə
[88] çarpazlayıb ona belə dedim:
[89] «Çarın elçisi kimi
[90] mədənə yola düşmüşdüm
[91] bir gəmidə ki,
[92] uzunluğu yüz iyirmi, eni qırx dirsək,
[93] yüz iyirmi seçmə misirli
[94] dənizçiylə.
[95] Onlar boylanıb göyəmi baxırlar, yerəmi baxırlar,
[96] onların ürəyi şirdən daha çox qorxubilməzdir.
[97] Onlar tufan olacağını qabaqcadan,
[98] qasırğanı başlamamış xəbər verirlər.
[99] Bir-birindən cəsur ürəkli,
[100] qolu qüvvətliydilər. Və aralarında
[101] ləyaqətsizi yox idi. Və birdən tufan
[102] qopdu, onda biz dənizdəydik,
[103] yelkənlə üzüb sahilə çata bilmədik.
[104] Külək getdikcə şiddətlənir, dalğalar
[105] səkkiz dirsək hündürlüyünə qalxırdı. Birdən dor ağacı
[106] qopub düşdü dalğaya və gəmimiz məhv oldu,
[107] heç kəs salamat qalmadı,
[108] məndən başqa. Budur mən də sənin yanındayam.
[109] Mən bu adaya atılmışam
[110] dənizin dalğalarıyla».

111 O mənə dedi: «Qorxma, qorxma,
112 körpə, qorxudan üzünü gizlətmə burda,
113 mənim qarşımda. Bax, allah sənə
114 ömür bəxş edib, səni Buka adasına çıxarıb.
115 Bu adada olmayan şey yoxdur,
116 ada hər cür nemətlə doludur.
117 Bax sən bu adada aybaay,
118 dörd ay – ta o vaxtadək
119 yaşayacaqsan ki,
120 çar məskənindən gəmi gələcək,
121 gəmidə adamlar – sənin tanışların gələcəklər.
122 Sən onlarla çar məskəninə qayıdıb
123 öz şəhərində öləcəksən.
124 Nağılçı keçmiş müsibətlərə necə sevinirdi, çünki əzablar ötüb keçmişdi!
125 Bax mən sənə bu adada baş vermiş hadisələrdən danışaram.
126 Mən orada öz qardaşlarım və uşaqlarımla yaşayırdım,
127 biz yetmiş beş ilan idik.
128 Mənim uşaqlarım və qardaşlarımla, dua ilə
129 əldə etdiyim kiçik qızımı saymasaq. Bir gün ulduz düşüb
130 onları yandırdı. Bu, o vaxt baş vermişdi ki, mən orada –
131 onların arasında deyildim. Mən onların hamısını
132 yanmış cəsədlər topasında tapanda az qaldım öləm. Əgər güclüsənsə, ürəyini toxtat, zira
133 sən hələ uşaqlarını qucaqlayacaq, öləcəksən
134 arvadını, evini görəcəksən – hər şeydən gözəli də budur.
135 Sən çar mənzilinə çatacaqsan və orada
136 özünə babların arasında olacaqsan». Mən
137 yerə sərələnib, üzümü torpağa
138 sürtərək ona belə dedim:

139 «Sənin böyüklüyün barədə çara danışaram – qoy bilsin
140 sənin böyüklüyünü. Mənim vasitəçiliyimlə çar sənə elə ətirli otlar – bulaqotu, xekenu
141 nudenb, xesant və məbəd buxuru göndərəcək ki,
142 Bütün allahları bunlarla rəhmə gətirirlər. Mən burada baş verənlər haqqında xəbər çatdıraram ona,
143 sənin gücünü görüb
144 ölkə Şurası qarşısında təriflərlər səni. Mən sənə – odda qızartmaq üçün qurbanlıq
145 danalar gətirərəm. Mən sənə qurbanlıq quşlar
146 gətirərəm. Mənim vasitəçiliyimlə sənə gəmilər göndərilər–
147 Misirin ən yaxşı nemətləriylə dolu – insanları sevən allaha,
148 adamların tanımadığı uzaq ölkədəki tanrıya göndərildiyi kimi».
149 Mən belə deyəndə o mənə güldü, çünki mən boş şey danışırdım.
150 O mənə dedi: «Sən mirra ilə zəngin deyilsən, buxurun yiyəsi kimi doğulmamısan.
151 Mənsə Puntun hökmdarıyam və onun bütün ətirli bitkiləri mənimdir.
152 Sən xekenu barədə dedin – xekenu ilə zəngindir bu ada.
153 Bu adadan ayrıldıqdan sonra isə heç vaxt
154 onu bir də görməyəcəksən, çünki «ada suya dönəcək». Haqqında
155 qabaqcadan onun mənə xəbər verdiyi kimi gəldi.
156 Mən uca bir ağaca dırmaşdım və çar evindən olan öz tanışlarımı gördüm,
157 ilana bunu deməyə getdim. Gördüm ki, o artıq hər şeyi bilir.
158 Və o mənə dedi: «Əlvida, əlvida, körpə, öz evində

159 uşaqlarınla görüş, mənim adımı öz şəhərində şöhrətləndir – mənim səndən
160 istədiyim də elə budur.»
161 Əllərimi hörmətlə çarpazlayıb onun qarşısında yerə sərildim.
162 O mənə mirra,
163 bulaqotu, nudenb, xesant yüklərini, vəsmə,
164 zürafə quyruğu, böyük bir qalaq buxur, fil dişləri,
165 ov itləri, meymunlar və çoxlu başqa gözəl nemətlər bağışladı.
166 Bunların hamısını gəmiyə yükləyib, yenə yerə sərildim
167 ki, ona tərif yağdırım. Onda o mənə dedi: «Çar mənzilinə
168 iki aya çatacaqsan. Uşaqlarını qucaqlayacaqsan
169 və çar mənzilində cavanlaşacaq və orada dəfn olunacaqsan.» Onda mən sahilə tərəf,
170 gəminin dayandığı səmtə endim və gəmidəki
171 adamları səslədim. Və bu adanın hökmdarına təriflər yağdırdım,
172 gəmidəki dənizçilər də eləcə. Biz şimala,
173 çar mənzilinə doğru yola düşdük. Çatdıq biz çar mən –
174 zilinə iki aydan sonra – ilanın qabaqcadan dediyi vaxt. O vaxt mən çarın qarşısında dayandım.
175 və həmin adadan gətirdiyim bəxşişləri ona verdim.
176 Onda çar ölkə Şurası qarşısında məni tərifledi və
177 mən «çarın yol yoldaşı» adına layiq görülüb
178 tabelikdəki adamlar tərəfindən
179 mükafatlandırıldım.
180 Bax beləcə mən xoşbəxtliklə yan aldım torpağa – bəxtimə
181 düşən bütün sınaqlardan çıxdıqdan sonra. Və budur, sən məni görürsən. İndi dinlə məni,

[182] çünki adamları diqqətlə dinləmək yaxşı şeydir.»
[183] O mənə dedi: «Biclik eləmə,
[184] dost! Quşa sübh çağı
[185] su verən kimdir
[186] səhər-səhər onu kəsməzdən qabaq?» Bu iş əvvəldən
[187] axıra çatdırılıb – barmaqları öyrəncəli
[188] yazarın – Amenin oğlu Amenaanın yazısında yazılmış şəkildə tapıldığı kimi, -
[189] qoy o sağ, salamat və sağlam olsun.

MƏHKUM OLUNMUŞ ŞAHZADƏ

4.[1] Bir çar haqqında danışıb deyirlər ki, onun oğlu yox idi, o öz torpağının allahlarına yalvarıb oğul istəyirdi (...)
4.[2] Allahlar buyurdular ki, onun oğlu olsun, çar arvadıyla bir gecə yatdı, arvadı (...) uşağı qaldı.
4.[3] Vaxt-vədə tamam olanda o, bir oğlan doğdu. Xatxor ilahələri yığışdılar ki, onun taleyini qabaqcadan xəbər versinlər. Onlar dedilər:
4.[4] «Onu ya timsah öldürəcək, ya ilan, ya da it». Körpəyə baxmaq üçün ayrılmış adamlar bunu eşidib əlahəzrətə,-
4.[5] qoy o yaşasın, xatadan uzaq və salamat olsun! – çatdırdılar. Onda əlahəzrət, – qoy o yaşasın, xatadan uzaq və salamat olsun! – qəlbən küskünləşib kədərləndi. Və onda əlahəzrət – qoy yaşasın, xatadan uzaq və salamat olsun!– əmr etdi ki, səhrada bir daş ev tikilsin,
4.[6] içərisi adamla və çar, – qoy o yaşasın, xatadan uzaq və salamat olsun! – sarayındakı hər cür gözəl şeylərlə doldu-

rulsun ki, onun oğlu həmin evdə yaşayıb eşiyə çıxmasın. Budur,

4.[7] oğlan böyüdü, bir dəfə evin damına qalxdı, yolda bir adam və onun arxa tərəfində də bir it gördü.

4.[8] Bu vaxt şahzadə yanındakı qulluqçuya dedi: «Yolda adamın dalınca hərəkət edən nədir elə?»

4.[9] Qulluqçu dedi: « İtdir.» Şahzadə dedi: «Qoy mənə də bir eləsini gətirsinlər.» Onda qulluqçu

4.[10] bu barədə əlahəzrətə, – qoy o yaşasın, xatadan uzaq və salamat olsun! – xəbər verməyə getdi. Onda əlahəzrət, – qoy o yaşasın, xatadan uzaq və salamat olsun! – dedi: «Ona balaca bir küçük çatdırılsın ki, uşağın qəlbinə dəyməsin.»

4.[11] Günlər ötdü, şahzadə bədəncə tamam yetkinləşdi

4.[12] və atasına dedi: «Bir yana çıxmadan, bir küncə qapılıb qalmaqdan nə çıxar? Onsuz da taleyim qarğayıb məni. Qoy mənə imkan versinlər ki,

4.[13] allahın buyruğu gəlməmiş, öz qəlbimin istəyiylə hərəkət eləyim!»

5.[1] Onda onun üçün cəng arabası qoşdular, onu hər cür yaraqla təchiz etdilər, xidmətinə qulluqçular verib doğu sahilinə keçirtdilər.

5.[2] Və ona dedilər: «Qəlbinin istəyiylə yola düş!» onun iti də yanındaydı. O, ürəyinin istəyiylə səhraya yola düşdü və ən yaxşı səhra quşlarıyla qidalanırdı.

5.[3] O gedib Naxarina hökmdarının mülklərinə çatdı. Naxarina hökmdarınınsa bir qızdan başqa

5.[4] övladı yox idi. Bu qız üçün ev tikilmişdi, onun pəncərələri yerdən

5.[5] yeddi dirsək hündür idi. Naxarina hökmdarı buyruq verib

Suriya torpaqlarının bütün hakimlərinin oğullarını çağırtdırıb onlara dedi:

5.6 « Kim hoppanmaqla mənim qızımın pəncərəsinə çatarsa, qızım onun arvadı olacaq».

5.7 Əbəs cəhdlərə bir çox günlər getdi, bir gün yaxınlıqdan cəng arabasında bir oğlan keçirdi. Hakim –

5.8 lərin oğulları onu öz otaqlarına apardılar, onun

5.9 atlarına yem verdilər və ona əllərindən gələni elədilər – canına ətirli yağ sürtdülər, ayaqlarına sarğı qoydular, nökərlərinə

5.10 çörək verdilər. Söhbət əsnasında ona dedilər: «Gözəl oğlan,

5.11 haradan gəlirsən?» Oğlan onlara dedi: «Mən Misir torpağından bir döyüşçünün oğluyam.

5.12 Anam ölmüşdü. Atam ayrı arvad aldı. Analığım mənə nifrət eləyirdi, mən onun əlindən qaçmışam.» Onlar

5.13 oğlanı qucaqlayıb öpdülər. Bundan sonra çoxlu günlər ötdü. Oğlan hakim uşaqlarına dedi:

5.14 «Siz nə edirsiniz...» «... üç ay qabaq. Biz də elə o vaxtdan bəri hoppanırıq.

6.1 Kim hoppanıb pəncərəyə çatsa, Naxarina hökmdarı

6.2 öz qızını ona verəcək.» Oğlan onlara dedi: «Ayaqlarım ağrımasaydı, mən də sizinlə birlikdə

6.3 hoppanmağa gedərdim.» Onlar hər günkü kimi hoppanmağa getdilər, gənc oğlansa

6.4 aralıda dayanıb baxırdı. Hökmdarın qızının gözü ona sataşdı,

6.5 bundan sonra oğlan o biri oğlanlar kimi hoppanmağa getdi. Hoppanıb pəncərəyə çatdı.

6.6 Hökmdarın qızı onu öpüb

6.[7] qucaqladı. Hökmdara xəbər göndərdilər. Ona dedilər: «Bir adam sənin qızının pəncərəsinə qədər
6.[8] hoppandı.» Hökmdarsa soruşdu: «O hansı hakimin oğludur?» Ona dedilər:
6.[9] «O hansı bir döyüşçününsə oğludur, Misir torpağında öz analığından qaçmışdır.» Onda
6.[10] Naxarina hökmdarı qəzəbləndi. O dedi: «Doğurdanmı
6.[11] mən öz qızımı bir Misir qaçqınına verəcəyəm?! Qoy rədd olub getsin o burdan! « oğlana xəbər verdilər: «Çıx get hardan gəlmisən ora.»
6.[12] Onda hökmdarın qızı gənc oğlanı qucaqlayıb allaha and içib dedi: «Ra-Xoraxti allah əbədi olan kimi, əgər
6.[13] bu oğlanı məndən alsalar, heç nə yeməyəcəyəm, su içməyəcəyəm, o saatca öləcəyəm.»
6.[14] Onda onun bütün dediklərini atasına çatdırmağa getdilər, atası əmr etdi adamlar göndərilsin ki, gənci
6.[15] yerindəcə öldürsünlər. Qız isə göndərilənlərə dedi: «Ra-Xoraxti allah əbədi olan kimi, əgər onu öldürsələr, gün batan təki mən də öləcəyəm.
6.[16] Ondan sonra tək bircə an da sağ qalmayacağam.» Onda bu barədə onun atasına məlumat verməyə yollandılar, o isə əmr etdi ki,
7.[1] gənc oğlanı onun qızıyla birlikdə gətirsinlər. Onda gənc oğlan [...] hökmdarın qızı atasının
7.[2] yanına gedən zaman [...] hökmdar onu qucaqlayıb öpdü. Və ona dedi: «Özün barədə danış –
7.[3] sən mənə oğul əvəzisən.» Gənc oğlan hökmdara dedi: « Mən Misir torpağından bir döyüşçünün
7.[4] oğluyam. Anam ölmüşdü. Atam ayrı arvad aldı, o mənə nif-

rət bəslədi, mən də qaçdım.» Hökmdar öz qızını ona ərə verdi. O ona tarla

7.[5] və ev, eləcə də mal-qara və hər cür başqa nemətlər verdi. Budur, həmin vaxtdan bir çox günlər keçdi,

7.[6] gənc oğlan arvadına dedi: «Mən üç taleyə məhkumam-timsaha, ilana, itə.» Arvadı ona dedi: «Əmr et

7.[7] itini öldürsünlər.» O, arvadına dedi: «Kiçik vaxtından götürüb saxladığım iti öldürməyi əmr edə bilmərəm.»

7.[8] O vaxtdan bəri arvad ərini bərk-bərk qorqanır, onu evdən tək çıxmağa qoymurdu.

7.[9] Gənc oğlan Misir torpağından gəldiyi həmincə gün [...] üçün, onun

7.[10] talelərindən biri olan [...] timsah hovuz ətrafında [...]

7.[11] [...] göründü. Ancaq həmincə hovuzda azman bir su cini də vardı. Cin qoymurdu ki, timsah

7.[12] sudan çıxsın, timsah isə imkan vermirdi ki, cin ondan aralansın.

7.[13] Gün qalxanda tutaşıb çarpışıb vuruşdular, düz üç ay hər gün beləcə vuruşdular.

7.[14] Budur, günlər axıb keçdi, oğlan taxta çıxdı ki, öz evində şən bir gün keçirtsin. Axşam küləyi susandan sonra isə

7.[15] oğlan öz çarpayısına uzandı və onu yuxu apardı. Onda

8.[1] qablardan birini [...] ilə doldurdu, o birini pivə ilə. Bu vaxt ilan öz yuvasından

8.[2] sürünüb çıxdı ki, çalsın oğlanı. Arvadı yanında oturmuşdu, yatmamışdı. Birdən [...]

8.[3] [...] ilan. O içib, dəmlənib yuxuladı, qarnının altı üstünə çıxdı. Bu vaxt onun ərini oyatdılar [...]

8.[5] O, ərinə dedi: « Bir bax, allahın talelərindən birini sənin ixtiyarına verib. O səni bundan sonra da qoruyacaq.»

8.[6] Oğlan Raya qurbanlar verdi, onu və onun qüdrətini hər cür öydü. Daha bir neçə gün keçdikdən sonra
8.[7] oğlan gəzməyə çıxdı [...] öz torpağında [...]
8.[8] İti də dalınca düşdü. Birdən it dil açdı [...]
8.[9] [...] oğlan itin yanından qaçmağa üz qoydu və hovuza yaxınlaşdı. O [...] düşdü.
8.[10] Timsah onu həmin su cini olan yerdəcə tutdu.
8.[11] Timsah ona dedi: «Mən səni izləyən taleyinəm. Budur, düz üç aydır
8.[12] su ciniylə vuruşuram. İndiysə mən səni buraxıram [...]
8.[13] [...] su cinini öldür.» [...]
8.[14] Yer üzü işıqlaşıb ertəsi gün gələndə [...] gəldi.

FATİMƏ NAOOT

KOR

Qəflətən o, görə bildi
Dolaşıq əməliyyatı tələsik yerinə yetirəndən
sonra
Daha çox cinayət poeziyasını etməyə nail
oldu.

O, rəqs eləyəndə
dedi ki,
ürək dünyəvi həyatdan artıq ola bilər
Əgər tor qişadan azad edilərsə…

O, savadsız idi
Onun üzündə ağrı

Mətni korladı
Qələm əyildi
hekayəni tamamlamadı.

Buna görə də
Yaddaşı qurudulan fikir
Mənasızdı.

Nə vaxt ki onun gözü görməyə
başladı
Nəfəs almadan, tünd zalda
Çay, üçün hazırlanan
Stola yaxınlaşdı.

İki kölgə
Bir işıqlandırma hadisəsi
Və kölgələr anlamaq üçün
Oxumaq üçün oyandılar.

Tamamilə heyrətləndirilən
Dərsi tamamlaya bilmədi.

Mütaliə gözləri tələb edir
Gözləri görəndə
Ancaq kitabları tapmadı.

KƏND İDİOTU

Mən ağlayan kimi özümü hiss edirəm
Mən həqiqətən bilirəm
Qız küçələrdə uduzdu.
O yoldan keçənlərin təbəssümləri ilə özünü
doldurur
Bilir, istehza
Və rəhm
Onun döşünə pişik balası kimi sıxır.
Və küçələri pinti saçı ilə gəzir

Onun cibindən
Paxla damcıları
Çörəyin quru qabığı şıxır
O uddu
Onun gülməyi itirdiyi dişlər
Ona, yüksək hərarəti demək üçün heç bir ana
malik deyildi.

O tamamilə təkdir
Ailəsiz
Dostlarsız
Və adamlar onu sevmir
O oxuyur
Qüsurlara baxmayaraq
Şeirləri elan edə bilmir
Kim ki öldü
Quru çörəkdən
Ümidlər əl çəkdi ürəkdən.
Niyə adamlar onu sevmir?
Nəhayət, o ağlamaqdan fikirləşir
Bəli
Kənd idiotu ağlamaq kimi özünü yaxşı hiss
edir
Sizin yanınızda.
Siz onu söymürsünüz.
Siz onun ombasına baxmırsınız
Onun yubkası yuxarı qalxanda
Soyuq havada...

LİVAN ƏDƏBİYYATI

- CÜBRAN XƏLİL CÜBRAN
- MİXAİL NUAYMƏ
- ƏMİR ƏR-REYHANİ
- SÜHEYL İDRİS
- MİŞEL SÜLEYMAN



CÜBRAN XƏLİL CÜBRAN

XX əsr ərəb ədəbiyyatının təşəkkülündə əhəmiyyətli rol oynamış Cübran Xəlil Cübran 1883-cü ildə Livanın Bşarra kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndində almışdır. 1895-ci ildə 12 yaşlı Cübran ailəsi ilə birlikdə Amerikanın Boston şəhərinə köçür. Lakin sonralar yenidən Livana qayıdır və Beyrutda «Mədrəsət əl-hikmət» məktəbində təhsil alır. Qısa zamanda bir-birinin ardınca onun anası, bacısı və qardaşı vəfat edir. O, 1908-ci ildə Parisə gedir və incəsənət institutunda oxumağa başlayır. 1911-ci ildə Cübran yenidən Amerikaya qayıdır. Əvvəl Bostonda, sonradan Nyu-Yorkda yaşayır. 1911-ci ildə «Çəmənlər gəlinləri» adlı ilk hekayələr məcmuəsi çapdan çıxır. 1912-ci ildə Cübran Xəlil «Qırılmış qanadlar» povestini tamamlayır. Əsərdə müəllif öz qəhrəmanı Səlmanın həyatı timsalında köhnəlmiş adət-ənənələrə, sərt anti-insan mühitinə, köləliyə, qadın hüquqsuzluğuna, insan məhrumiyyətlərinin törətdiyi fəsadlara kəskin etiraz etmiş, mühitin real səhnələrini canlandıra bilmişdir.

Cübran Xəlil 1920-ci ildə Nyu-Yorkda mühacir ərəb yazıçıları birliyi olan «Qələmlər birliyi»nin sədri seçilir. Bu dövrdə o, Amerikada yaşayan M.Nüaymə, Əbu Mada, Nədra

Həddad və başqa mühacir yazıçılarla yaradıcılıq əlaqələrini genişləndirir. 1924-cü ildə ingilis dilində yazdığı «Peyğəmbər» əsəri ilə yazıçı öz ideyalarının geniş şəkildə yayılmasını təmin edir. Vətənə, insanlara, bəşəriyyətə sevgi və məhəbbət hissləri önə çəkilən bu əsərdə müəllifin insanların azad, bərabər yaşamaq arzuları, onların vətəndaşlıq duyğu və qürurları və s. məsələlər haqqında düşüncələri yer tapır.

C.Xəlil «Banlı Marta», «Divanə Yuhənna», «Hanili Varda», «Qəbirlərin fəryadı», «Allahsız Xəlil», «Qərib adam», «Yer allahları» və s. kimi çoxsaylı əsərləri ilə yeni ərəb ədəbiyyatının inkişafına töhfələr vermişdir. C.Xəlil 1931-ci ildə Nyu-Yorkda vəfat etmiş və cənazəsi Bşarraya gətirilmişdir.

QIRILMIŞ QANADLAR

Proloq

Məhəbbət sehrli parıltısı ilə gözümü açanda və odlu-alovlu barmaqları ilə ilk dəfə varlığıma toxunanda mənim 18 yaşım var idi. Səlma Kəramə gözəlliyi ilə mənim ruhumu oyandıran, ülvi hisslər aləminə qanadlandıran ilk qadın oldu. Günlər yuxu kimi keçirdi, gecələr gəlin kimi bəzənirdi.

Səlma Kəramə öz gözəlliyi ilə mənə gözəlliyə ibadət etməyi öyrətdi, məhəbbətin bütün şıltaqlıqlarını açıb göstərdi. Ülvi həyat qəsidəsinin ilk beytini qulağıma pıçıldayan o oldu.

Hansı gənc öz yeniyetməlik çağlarını, gənclik qayğısızlığının nəzakətlə öz yerini qorxunc oyanışa verməsini, cazibəsi ilə yaralamasını, şirinliyi ilə ölümə məhkum etməsini xatırlamır ki?!... Bizlərdən kim o qəribə anlar üçün xiffət çəkib, köks ötürməyib ki?! Elə bir şey ki, qəflətən yaranarkən bir də görürsən bütün varlığın alt-üst olmuş, için oyanmış, genişlənmişdir: gizliliyin bütün acılığı ilə şirin olan həyəcanlar varlığını büsbütün bürümüşdür. Ehtiras, göz yaşları və yuxusuz gecələri özündə gizlədən bu anlar necə də əziz və arzu ediləndir.

Səlma hər bir gəncin gözünə ömrünün bahar çağında qayğısız olduğu vaxtlarda görünür; onun yalnızlığına şeriyyət dolu bir məna qazandırır, tənha gündüzlərini sevinc və nəşəyə qərq edir, səssiz gecələrini nəğmələrlə bəzəyir.

Məhəbbət Səlmanın dodaqları ilə varlığımın qulaqlarına pıçıldayanda mən hələ ətraf mühitin təsirindən, kitablardan və

səfərlərdən aldığım təəssüratlardan oyanmamışdım. Səlmanın qarşımda nur məbədi kimi dayandığını görüncəyədək həyatım Adəmin cənnətdəki rahat və sakit həyatı kimi cansız, tənha və mənasız idi. Səlma Kəramə sirlər və cazibəliklərlə dolu bu qəlbin Həvvasıdır; ona bu vücudun mahiyyətini anladan, onu bu xəyallar qarşısına bir güzgü kimi qoyan birisidir. Həvva öz istəyi ilə Adəmi cənnətdən çıxardı, o da dinməz-söyləməz onun iradəsinə tabe oldu. Səlma Kəramə isə məni özünün cazibədarlığı və mənim razılığımla məhəbbətin və saflığın hökm sürdüyü cənnətə apardı. Lakin ilk bəşər övladının başına gələn mənim də başıma gəldi. Onu cənnətdən qovan odlu qılınc tiyəsinin gözqamaşdırıcı parıltısından belə vahimələndiyim iti qılınca bənzəyirdi; əmrə xilaf çıxmadan, xeyir və şər meyvəsini dadmadan məni eşq cənnətindən uzaqlaşdırdı.

Bu gün öz ayaqları ilə o günlərin izlərini silən acılı illər artıq arxada qalıb. Məndə o gözəl röyadan heç nə qalmayıb; başımın üzərini görünməz qanadları ilə alaraq içimdə hüznlü ahlar doğuran, göz bəbəklərimdən qüssə və kədər yaşları axıdan acı xatirələrdən başqa heç nə...və Səlma... Mavi üfüqlər arxasında gözdən itərək qəlbimi parçalayan əzabverici dərddən və sərv ağaclarının kölgəsindəki mərmər qəbirdən başqa heç nə qoyub getməyən gözəl, şirin və zərif Səlma... Qəbirlərin qoruduğu səssizlik İlahinin tabutun qaranlığında gizlətdiyi sirri, ölmüş bədən ünsürlərinin hopduğu budaqlar öz quruluğu ilə quyuda gizli qalanları açıqlığa qovuşdura bilməsə də, o qəbir və bu qəlb Səlma Kəramənin var olmasından bəhs etmək üçün qalan yeganə şeylərdir. Danışan bu qəlbin üzüntüsü və acısıdır. Onlar qara mürəkkəbin damcıları ilə birgə kağıza axaraq faciəyə bənzər məhəbbət, gözəllik və ölüm kabuslarının olduğu dünyaya işıq saçır.

Ey, mənim bütün Beyruta səpələnmiş dostlarım! Əgər şam ağacı meşəsinə yaxın qəbiristanlığın yanından keçsəniz, səssizcə ora daxil olun! Asta gedin ki, ayaq səsləriniz yaş torpağın altında uyuyan qəbir sakinlərini narahat etməsin! Ehtiramla Səlmanın qəbrinin yanında ayaq saxlayın və onun cismini qucan torpağa mənim əvəzimdən salamımı yetirin! Sonra dərin bir köks ötürərək məni xatırlayın və öz-özlüyünüzdə deyin: «Budur, tale oyunlarının uzaq sahillərə sürgün etdiyi o gəncin arzuları burada dəfn olunmuşdur. Onun ümidləri burada gizlənmiş, nəşəsi burada qaçmışdır. Onun göz yaşları burada sel kimi axmış, dodaqlarından təbəssümü burada itmişdir. Bu lal qəbiristanlıqda sərv və söyüd ağacları ilə birgə onun kədəri də boy atır. Hər gecə bu qəbrin üzərində onun xatirələrlə pərvazlanan, yalnızlıq kölgələri ilə birgə kədər və hüzn ağıları oxuyan, hələ dünən həyatın səsləndirdiyi həzin bir nəğmə olan, bu gün isə torpağın köksündə bəslədiyi susqun bir sirrə çevrilən gəncliyinə göz yaşı axıdan ruhu budaqlarla birgə qanad çalır».

Ey, gəncliyimin dostları, qəlblərinizi ram edən qadınlarla sizə and verirəm! Bəlkə, bu unudulmuş qəbirə qoyacağınız çiçəklər solğun qızılgül yarpaqları arasından səhərin axıtdığı ümid damcıları olacaq?!

Lal nisgil

Sizlər, ey insanlar, şəkillərə baxıb yada saldıqca fərəhləndiyiniz, ötüb-keçdi deyə kədərləndiyiniz gəncliyinizin ilk çağlarını xatırlayırsınızmı? Mən onu həbsxana divarlarından və qandalların ağırlığından azad olmuş biri kimi xatırlayıram. Sizlər uşaqlıqla gənclik arasında keçən bu illəri qızıl dövr adlandırırsınız. Elə bir dövr ki, o, zəmanənin çətinliklərinə is-

tehza edir, qayğıların və tələşların başı üzərindən üfunətli bataqlıqdan keçərək düzənlik və çəmənliyə doğru uçuşan arılar kimi qanad çalır. Mən isə gənclik illərini qəlbimdə sakin olub hər küncündə fırtına qoparan və hər vurduqca daha da güclənən gizli və lal işgəncə dövründən savayı başqa bir şey adlandırmaya bilmərəm. Elə bir fırtına ki, qəlbi tərk edib idrak aləminə çıxmağa macal tapmamış məhəbbət oraya daxil olaraq qapısının kilidini açdı və onun hər guşəsini işığa qərq etdi. Məhəbbət mənim dilimi çözərək danışdırdı, göz qapaqlarımı cırmaqlayaraq ağlatdı, boğazımı yararaq dərindən ah çəkdirdi və şikayət etdirdi.

Sizlər, ey insanlar, oyunlarınızın şahidi olan, paklığınızın pıçıltılarını eşidən meydanları, parkları, çəmənlikləri, küçələrin döngələrini xatırlayırsınızmı? Mən də Livanın şimalında yerləşən bu gözəl məkanları xatırlayıram. O sehrli vadiləri, vüqarla və əzəmətlə göyə ucalan o dağları görməmək üçün gözlərimi yumuram, o qanov və arxların şırıltısını, budaqların zərif xışıltısını eşitməmək üçün qulaqlarımı tıxayıram. Anasının zərif əlləri və isti ağuşu üçün köks ötürən körpə tək mən də indi bu gözəllikləri xatırladıqca dərin köks ötürürəm. Lakin bu hisslər gəncliyimin zülmətinə həbs olub qalmış ruhuma əzab verir. Qəfəsinin barmaqlıqları arasından açıq səmada azad süzən durna dəstəsini görüb iztirab çəkən qartal kimi bu hisslər də köksümü ağrılı-acılı düşüncələrlə eləcə dolduraraq karıxmış və bir-birinə dolaşmış barmaqları ilə qəlbimin ətrafına üzüntüdən və ümidsizlikdən tor hörür. Kədərimin əsl səbəbindən bixəbər olduğumdan ümidsiz halda geri dönməmək üçün səhraya getmədim[1]. Pərişanlığımın mahiyyətinə varmadığım-

[1] *«Səhraya getmək» – öz fikirləri ilə baş-başa qalmaq, guşənişinliyə çəkilərək öz hissləri ilə təkbaşına qalmaq anlamına gəlir.*

dan getdikcə güclənən bu öldürücü sıxıntını hiss etməmək üçün axşam günəş şüaları ilə al-əlvan rənglərə boyanmış buludları seyr etmədim. İçimə çökən üzüntünün nədən yarandığını bilmədiyimdən üzülməmək üçün qaratoyuğun cikkiltisini və arxın şırıltısını eşitmədim.

Deyirlər ki, kütbeyinlik tənhalığın beşiyidir, tənhalıq isə rahatlığın yatağıdır. Bu, ölü doğulan və yer üzərində cansız və ruhsuz cəsəd kimi yaşayanlara aiddir. Lakin kor kütbeyinlik mütərəqqi hisslərlə yanaşı gələrsə, onda bu cür kütlük ölümdən daha betər, cəhənnəm əzabından daha acı olar. Çox hiss edib az bilən həssas bir gənc günəş qarşısında ən yazıq, ən bədbəxt məxluqdur. Çünki o, iki əks qüvvənin arasında durur: gizli qüvvə onu buludlarla əhatə edərək yuxular və xülyalar pərdəsi arxasından kainatın gözəlliklərini göstərir. Zahiri qüvvə isə onu yerə zəncirləməklə bəsirət gözünə örtü çəkir, qorxmuş və pərişan halda zülmət qaranlıqda tərk edir.

Kədərin ipək tək zərif təması və güclü əsəbləri var. O, qəlbləri zərif əllərində sıxaraq onları tənhalığa məhkum edir. Tənhalıq kədərin olduğu kimi bütün mənəvi halların da həmdəmidir. Onlarla[1] üz-üzə dayanmış gənc yatağından çıxıb zərif meh qarşısında tir-tir əsən, qəlbini dan yerinin ilk işıltılarına açan, axşamın kölgəsi düşərkən yarpaqlarını büzən ağ zanbağı xatırladır. Əgər bu gəncin fikrini məşğul edəcək əyləncəsi, arzu və istəklərini bölüşə biləcəyi həmdəmləri, dostları olmasa, həyat onun üçün künclərində hörümçək torundan başqa bir şey görməyəcəyi, dib-köşələrində sürünən həşəratların xışıltısından başqa heç nə eşitməyəcəyi dar bir məhbəsə çevrilər.

Gənclik illərimi bürüyən kədərə gəlincə, o, mənim var-

[1] *Tənhalıq və kədər nəzərdə tutulur.*

lığıma, ruhuma o qədər hakim olmuşdu ki, nə əlavə məşğuliyyətə, nə də ki əyləncəyə ehtiyacım qalmışdı. Dostlarda da kəsirim yox idi, çünki hara gedirdimsə orada çox sayda dost tapırdım. Bu, sadəcə, könlümə xas təbii bir xəstəlik növü idi ki, mənə yalnızlığı və tənhalığı sevdirmişdi, ruhumda əyləncə və macəralara meyli öldürmüşdü. Çiyinlərimdən asılan gənclik qanadlarımı qıraraq məni varlığın qarşısında iki dağ arasında yerləşən və öz sükutunda hüznü, kölgələrin əksini, buludların al-əlvan rəng qarışığını, yarpaqların naxışını əks etdirən, lakin dənizə çıxacaq bir dənə də qolu olmayan kiçik göl kimi aciz etmişdi.

18 yaşım tamam oluncayadək həyatım beləcə keçdi. Bu illər dağın zirvəsində qərar tutan keçmişimdən idi. O illər məni bu dünya ilə qarşı-qarşıya qoydu, bəşər övladlarının keçdikləri yolları, meyl və istəklərinin dolaşıqlığını, qarşılaşdıqları çətinliklərin sonunu, qayda-qanunların, adət-ənənələrin çürüklüyünü mənə göstərdi.

O il mən ikinci dəfə doğuldum. Kədərin hamilə qalmadığı, üzüntünün doğuzdurmadığı, məhəbbətin şirin yuxular yatağına uzandırmadığı bir insanın həyatı varlıq kitabında boş ağ səhifəni xatırladır.

O il səma məleykəsinin gözəl qadın gözləri ilə mənə baxdığını gördüm. O gözlərdə yaralı insanın sinəsi üstdə qaçışaraq çığırıb-bağırışan cəhənnəm iblislərini sezdim. Həyatın gözəllikləri və pisliklərində mələikə və şeytanları görməyi bacarmayan bir kimsənin qəlbi elmdən, ruhu isə hissdən məhrumdur.

Fələyin əli

Qəribəliklərlə dolu o ilin bahar çağında mən Beyrutda idim. Aprel ayı idi; çiçəklər açmış, otlar cücərmişdi. Şəhərin parkları al-əlvan rəngə boyanmışdı. Sanki yer göylərə öz sirrini bəyan etmişdi. Evlərin arasında boy atan alma və badam ağacları ətirli bəyaz libaslarını geyərək öz görkəmləri ilə huriləri xatırladırdı. Sanki təbiət onları şer və xəyal övladları üçün gəlin göndərmişdi.

Bahar hər yerdə gözəldir, lakin o, Suriyada[1] daha gözəldir... Bahar dərk olunmaz İlahinin ruhudur. O, dünyanı sürətlə dolaşır, Suriyaya gəlib çatdıqda isə sürətini yavaşıyır, arxaya dönərək səmada dolaşan şahların, peyğəmbərlərin ruhları ilə söhbətləşir, yəhudilərin Tövrat mətnli külçələri ilə Süleymanın ölməz şərqilərini oxuyur, Livanın həmişəyaşıl sidr ağacları ilə onun əzəmətli keçmişi haqda xatirələrə dalır.

Beyrutda bahar digər fəsillərdən daha gözəl keçir. Qışın palçığını, yayın toz-torpağını təmizləyən bahar çağı birincinin leysan yağışları ilə ikincinin dözülməz istisi arasında gələrək kiçik gölməçələrin suları ilə yuyunan, sonra isə qurulanmaq üçün günəş şüaları altında sahilə uzanan gözəl qızı xatırladır.

Aprelin xoş, bihuşedici nəfəsinin duyulduğu, utancaq təbəssümünün ətrafa saçıldığı o günlərin birində səs-küydən uzaq bir yerdə yaşayan dostumun ziyarətinə getdim. Söhbətləşib gələcək arzu və məqsədlərimizin sözdə planını cızarkən 50-60 yaşlarında yaşlı bir adam içəri daxil oldu. Sadə qiyafəsi və qabarıq üz cizgiləri onun ləyaqət və vüqarından xəbər verirdi. Mən hörmət əlaməti olaraq ayağa qalxdım. Salamlaşıb

---

[1] *Livan və Suriya XX əsrin əvvəllərində Fransa mandatlığı altında olan Böyük Livan dövlətinin tərkibinə daxil idi. Onların arasında sərhəd yox idi.*

əl tutuşmamışdan öncə dostum onu mənə təqdim etdi: «Gələn Faris əfəndi Kəramədir»[1]. Sonra tərifləyici bir əda ilə adımı çəkərək məni tanıtdı. Şeyx gözlərini məndən çəkmədən bir anlıq barmaqlarının ucunu qar tək dümağ tellərinin tökküldüyü iri alnına sürtdü. Sanki bununla çoxdan bəri unudulmuş bir şeyi xatırlamağa çalışırdı. Sonra xoş bir təbəssümlə dedi:

– Sən mənim köhnə, əziz dostumun oğlusan! Bizim gəncliyimiz bir yerdə keçib. Sevincimin həddi-hüdudu yoxdur. Sənin simanda atanı yenidən görmək necə də xoşdur!

Şeyxin sözlərindən çox təsirləndim. Güclü tufanın gəlişindən azacıq əvvəl sərçənin təbii instinkti onu qorunmaq üçün öz yuvasına sığınmağa sövq etdiyi kimi məni də ona əminliklə yaxınlaşdıran xəfif bir cazibə hiss etdim. Biz əyləşəndə şeyx Kəramə gənclik xatirələrinə dalaraq atamla keçirdiyi günləri, dostluq hekayətlərini rəvayət etməyə başladı, zamanın qəlbində kəfənə bükdüyü, sinəsində qəbir qazdığı ötüb keçmiş illərin hadisələrini nəql etdi... Yaşlılar xəyalən gənclik illərinə qayıdarkən doğulduğu torpağın xiffətini çəkirlərmiş kimi o günlərin də həsrətini çəkirlər; gənclik hekayətlərini danışarkən, sanki ən gözəl qəsidələrini söyləyirlərmiş kimi şairliyə meyl edir, ötüb-getmiş keçmişlərinin küncündə bir ruh, bir xəyal kimi yaşayırlar. Çünki bu gün onlar üçün keçicidir, o geri dönmür. Gələcək isə onların gözündə yoxluğun tüstüsünə və qəbir zülmətinə bürünmüşdür.

Hekayət və xatirələrlə keçən bir saatdan sonra ağacların kölgəsi otluğun üzərindən çəkildikdə Faris Kəramə getmək üçün ayağa qalxdı. Vidalaşmaq üçün ona yaxınlaşdıqda sağ əlilə əlimi sıxıb, sol əlini isə çiynimə qoyub dedi:

---

[1] *Bundan sonra: Şeyx.*

– Mən 20 ildən bəri atanı görmürəm. Lakin mən çox istərdim ki, bu uzun ayrılığı sənin bizə sıx-sıx ziyarətinlə tarazlayam.

Mən atasının dostuna qarşı övladın etməli olduğu şəkildə təşəkkürümü bildirib, razılıq əlaməti olaraq baş əydim.

Faris Kəramə çıxıb getdikdən sonra dostum sanki xəbərdarlığa bənzər bir əda ilə dedi:

– Mən Beyrutda elə bir adam tanımıram ki, var-dövlət onu bu qədər fəzilətli, fəzilət isə bu qədər zəngin etsin. O, elə azsaylı insanlardandır ki, onlar heç kimə əziyyət vermədən bu dünyaya gəlir və bu dünyadan gedirlər. Lakin bu adamlar çox vaxt aciz və zavallı olurlar, çünki onlar insanların məkrindən və fitnə-fəsadından qoruyacaq fəndlərdən xəbərsizdirlər... Faris Kəramənin yeganə övladı olan qızı onunla birgə şəhər kənarında gözəl və dəbdəbəli bir evdə yaşayır. O da atası ilə eyni xislətdədir: gözəlliyi və naz-qəmzəsi ilə ad çıxaran qızlardan deyil. O da bədbəxt olub miskin həyat yaşayacaq, çünki atasının hədsiz var-dövləti onu böyük və qaranlıq bir uçurumun kənarına sürükləyir.

Dostum son sözlərini dərin üzüntü və təəssüflə tələffüz etdi. Sonra sözünə davam edərək dedi:

– Faris Kəramə geniş ürəkli, alicənab və ləyaqətli bir insandır. Lakin eyni zamanda çox zəif iradəlidir. Bu, onu insanların riyakarlığına göz yummağa, lal-dinməz onların istəklərinə boyun əyməyə sövq edir. Onun qızı mənən daha güclü, daha bacarıqlı olsa da, dinməz-söyləməz atasının zəif iradəsinə uyğunlaşmağa çalışır. Bu, ata ilə qızının həyatında var olan gizli bir sirdir ki, onu yalnız tamahla riyakarlığı, hiyləgərliklə xəbisliyi özündə birləşdirən bir kəs bilir; o da İncilin kölgəsində pis, çirkin əməllər yürüdərək onları insanlara fəzilət kimi

göstərən arxiyepiskopdur. O, dinlər və məzhəblər ölkəsində din başçısıdır. Canlı, cansız hər kəs ondan qorxur. Qoyun sürüsü qəssabın bıçağı altında boyun bükdüyü kimi onun önündə də eləcə diz çökür, səcdə edirlər. Bu arxiyepiskopun bir qardaşı oğlu var ki ilanlar və əqrəblər mağaralara və gölməçələrə meyl etdiyi kimi onun da daxili pislik və fitnə-fəsadla qaynaşır. Çox keçməz ki, bu günlərdə arxiyepiskop özünün keşiş qiyafəsini geyərək solunda qardaşı oğlu, sağında isə Faris Kəramənin qızının başına günaha batmış əlləri ilə evlilik əklili qoyacaq, kahin duaları və tilsim zəncirləri ilə saf və təmiz bir bədəni murdar bir cəsədə qandallayacaq, çürük şəriət qanunlarının əlilə səmavi ruhu cisimdə boğacaq, səhərin işıq saçan qəlbini gecənin zülmət dolu köksünə sıxacaq. Faris Kəramə və onun qızı haqda sənə deyəcəklərim hələlik bu qədər. Bundan artıq bir şey deməyə məni məcbur etmə, çünki müsibətin xatırlanması onu yaxınlaşdırır, eynilə ölüm xofu ölümü yaxınlaşdıran kimi.

Dostum üzünü çevirib, pəncərədən boylandı. Sanki səmanın ənginliklərində gündüzlərin və gecələrin sirlərinə cavab tapmağa çalışırdı. Elə bu an mən də yerimdən qalxdım. Vidalaşmaq üçün əlini sıxanda dedim:

– Sabah Faris Kəraməni ziyarət edəcəyəm. Bir tərəfdən söz verdiyim üçün, digər tərəfdən atamla olan dostluğunun xatirələrinə hörmət duyduğu üçün.

Bu sözləri deyərkən dostum bir anlıq heyrətdən donub qaldı, üz cizgiləri birdən dəyişdi. Sanki mənim dediyim bu sayca az və bəsit sözlər ona yeni və möhtəşəm fikirlər aşıladı. Sonra uzun-uzadı qəribə baxışlarla – ruhların belə bilmədiklərini onların daxilinə nüfuz edərək görən bir peyğəmbər baxışı ilə – gözlərimin içinə baxdı. Bu baxışlarda eyni zamanda

həm sevgi, həm qorxu, həm də təəssüf var idi. Dodaqları azacıq titrəsə də o, heç nə demədi.

Dostumdan ayrılıb pərişan halda qapıya doğru getdim. Arxama çönüb baxdıqda bu qəribə baxışların hələ də məni izlədiyini gördüm. Mənasını anlaya bilmədiyim bu baxışlar məni kəmiyyət və ölçülər aləmindən qopararaq, könüllərin baxışlarla anlaşdığı, ruhların qarşılıqlı anlaşma ilə ucaldığı ali insanlar dünyasına qaldırdı.

Böyük bir evin kandarında

Bir neçə gündən sonra yalnızlıqdan usandıqda, gözlərim cansıxıcı kitabları vərəqləməkdən yorulduqda, araba çağırıb, Faris Kəramənin evinə sarı yollandım. Camaatın gəzişdiyi şam ağacı meşəliyinə çatdıqda arabaçı atın ağzını əsas yoldan çevirib, söyüd ağaclarının kölgə saldığı, yol boyu yamyaşıl otlarla, üzüm tənəkləri ilə, yaqut tək qıpqırmızı, zümrüdə oxşar gömgöy, qızıla çalan sapsarı dilçəkləri ilə gülümsəyən aprel çiçəkləri ilə döşənmiş cığırla yortma çaparaq bir neçə dəqiqəyə böyük bir evin qabağında dayandı. Ətrafda yeganə olan bu ev göz baxdıqca uzanan, hər tərəfində iri ağacların qolboyun olduğu, havasını yasəmən və qızılgüllərin xoş ətrə bürüdüyü böyük və gözəl bir bağla əhatə olunmuşdu.

Bağda bir-iki addım atmışdım ki, Faris Kəramə məni qarşılamaq üçün evin kandarına çıxdı. Sanki bu yalqız və uzaq bir yerdə arabanın səs-küyü onu mənim gəlişimdən xəbərdar etmişdi. Şeyx gülərüzlüklə məni salamlayıb içəri dəvət etdi. Övladı üçün darıxmış ata nəzərləri ilə məni süzərək yanında oturtdu, keçmişim, gələcək məqsədlərim barədə ətraflı sorğusual etdi. Mən onun suallarını anlaşıqlı bir dildə, xəyal dalğa-

ları gəncləri mübarizə və savaşla dolu əmək sahillərinə atmamışdan öncə oxuduqları arzu və istək nəğmələri tərzində cavablandırırdım... Gəncləri göyün yeddinci qatına uçuran gəncliyin lələkli qanadları şerdən, mayası təxəyyüldəndir. Onlar kainatı buludlar arxasından göy qurşağı rənglərinə boyanmış al-əlvan işıqlara qərq olmuş görürlər, həyatın rəşadət və qəhrəmanlıq nəğmələri oxuduğunu eşidirlər. Lakin ağır sınaqların və təcrübələrin güclü qasırğası bu şairanə qanadları dərhal qırır və onları gerçək dünyaya, reallığa endirir. Gerçəkliksə elə qəribə güzgüdür ki, insan burada özünü cılız və eybəcər görür.

Elə bu an qapının məxmər pərdəsi arxasından ağ zərif ipəkdən paltar geymiş gənc bir qız boylandı. O, asta addımlarla mənə yaxınlaşdı. Mən ayağa qalxdım. Şeyx də mənimlə birgə qalxaraq yaxınlaşan qızı təqdim etdi: «Bu, mənim qızım Səlmadır». Sonra adımı çəkərək əlavə etdi: «Bu da məndən uzun zamandır ayrı düşən köhnə dostumdur. Qayıdıb, qarşıma oğlunun surətində çıxıb. Mən onu çoxdan idi görmürdüm, indi gördüm». Gənc qız azacıq mənə yaxınlaşaraq, diqqətlə gözlərimin içinə baxdı. Sanki onlardan mənim məramımı öyrənməyə və bu məkana gəlişimin əsil səbəbini soruşmağa çalışırdı. Sonra ağ zanbaq vadisini xatırladan ağappaq incə və zərif əlləri ilə əlimi sıxdı. Əllərimiz bir-birinə toxunarkən yeni və qəribə bir hiss keçirdim. Bu, bədii bir fikrin ilk öncə yazıçı xəyalında yaranmasına bənzər bir şey idi.

Biz üçümüz də səssizcə əyləşdik. Elə bil, Səlmanın gəlişi ilə otağa sükut və qorxu aşılayan ülvi bir ruh daxil oldu. Sanki onun özü də bunu hiss etdi. Üzünü mənə tərəf çevirib gülərək soruşdu:

– Çox vaxt atamın mənə atanız haqda danışdıqları

əvvəl-axır onların gənclik hekayətləri ilə bitir. Əgər sizin atanız bu olanları sizə danışsaydı, bəlkə də bizim aramızdakı bu ilk görüş baş tutmazdı.

Qızının sözlərindən şeyxin üzü güldü. O, xoş bir əda ilə dedi:

– Səlma arzu və istəklərində çox həssas bir qızdır. O, xəyal aləmində uçur, hər şeyin könül dünyasında baş verdiyinə inanır.

Faris Kəramə tam bir maraq və hədsiz mehribanlıqla yenidən mənimlə söhbətə başladı: sanki məndə qeyri-adi və sehrli bir sirr aşkar etmişdi. Bu sirr onu xatirələrinin qanadlarında ötüb-keçən günlərin baharına qaytarırdı.

Bu yaşlı adam mənə sanki gənclik xəyalını görürmüş kimi, mən isə ona gələcək halıma baxırammış kimi baxırdım. O, mənə elə baxırdı ki, sanki hündür, qollu-budaqlı, bar-bəhərli qocaman ağac mövsümün gəlişi ilə təzəcə əkilmiş yarıcanlı, həyata nabələd, gücsüz balaca ağacın başı üzərini almışdır; ömrün yayına və qışına tab gətirmiş, taleyin zərbələri və tufanları qarşısında sınmamış gövdəsi qalın, kökü möhkəm olan yaşlı ağac və təkcə baharını yaşayan, yalnız səhərin zərif mehi qarşısında titrəyən balaca, cılız bir ağac... Səlma isə səssizcə gah mənə, gah da atasına baxır, bizim üzümüzdən həyat hekayəsinin ilk və son fəslini oxuyurdu.

O günorta beləcə bu bağın və çəmənliyin əhatəsində köks ötürməklə keçdi. Günəş batarkən önünə sərilən Livanın alnına qondurduğu sarı öpüşün izləri də onunla birgə qeybə çəkildi. Faris Kəramə isə vəcdlə hələ də mənə gənclik hekayətlərini danışmaqda davam edir, məni də rəngdən-rəngə salaraq gənclik macəralarımı vəsf etməyə sövq edirdi. Səlma isə pəncərənin yanında oturub hüznlü gözləri ilə lal-dinməz bizə

baxırdı. O nə tərpənir, nə bizim söhbətimizi dinləyir, nə də ki danışırdı. Sanki bilirdi ki, gözəlliyin ilahi bir dili var. O, dodaqların və dilin danışdığı hecalardan və səslərdən yaranır. Bütün bəşəri nəğmələri özündə cəm edən əbədi bir dil... Bu nəğmələri səssiz hisslər və susqun duyğular bəstələyir: sakit bir göl kiçik çayların səsləndirdiyi şərqiləri sulara gömərək onları əbədi sükuta qərq etdiyi kimi. Gözəllik elə bir sirdir ki, onun dilini yalnız ruhlarımız dərk edir; ondan sevinərək cuşa gəlir, onun qanadlarında pərvaz edirlər. Fikirlərimiz onun qarşısında özünü itirir, çaşıb qalır. Sözlərlə onu məhdudlaşdırmağa, çərçivəyə salmağa çalışsan da, buna nail ola bilməzsən. Gözəllik gözlərdən qorxaraq gizlənən elə bir cərəyandır ki, görənin hissləri ilə görünənin həqiqiliyi arasında dalğalanır. Həqiqi gözəllik ali nəfsin saçdığı elə bir nurdur ki, cismin zahirini işığa qərq edir. Sanki həyat yerin təkindən fışqıraraq üzə çıxır, güllər al-əlvan rənglərə bürünür, xoş qoxularla ətirlənir. Gözəllik kişi ilə qadın arasında tam anlaşmadır; bir sözlə doğulur, bir sözlə də ölür. O, bütün şövqlər içərisində ən ali şövqdür. Bu, bizim məhəbbət adlandırdığımız daxili bir cazibədir. Görəsən, bu axşam qonaqlığında mənim ruhum Səlmanın ruhunu anlaya bilmişdirmi, günəşin altında onun ən gözəl qadın olduğunu dərk etməyə məni vadar etmişdirmi? Yoxsa, bu, gerçək olmayan kölgələri və surətləri xəyal etməyə məni sövq edən gənclik çılğınlığından başqa bir şey deyil?! Bəlkə də gənclik məni kor edib və mən Səlmanın gözlərində o işıq dolu qığılcımı, dodaqlarında o lətafəti, qəddində o zərifliyi xəyal edirəm?! Bəlkə də o, mənim gözlərimi açaraq məhəbbətin sevincini və kədərini göstərən o işığın, o lətafətin, o zərifliyin özüdür?! Bilmirəm, amma bir şeyi dəqiq bilirəm ki, bu anadək keçirmədiyim bir hiss keçirirdim: qəlbimə gizlicə so-

xulan tamamilə yeni bir hiss. Bu, fəlakətdən öncə ruhun ay işığı altında pərvaz etməsinə bənzəyir. Varlıq o ali ruhun[1] iradəsi ilə zühur etdiyi və məhv olduğu kimi bu hissdən də mənim həm səadətim, həm də bədbəxtliyim doğuldu.

Məni ilk dəfə Səlma ilə görüşdürən bu an beləcə keçdi. Göylər arzu etdi ki, məhəbbət alayında azad yürümək üçün məni hələ qəflətdə ikən həyəcanın və yeni hisslərin əsarətindən qurtarsın. Məhəbbət bu dünyada azad olan tək şeydir. Çünki o, nəfsi bəşər qanunlarının və adət-ənənələrinin əli çatmadığı, təbiət hökmlərinin və qaydalarının idarə etmək iqtidarında olmadığı bir məqama ucaldır.

Mən getmək üçün ayağa qalxdıqda Faris Kəramə mənə yaxınlaşaraq, səmimiliyin duyulduğu həzin və iniltili səslə dedi:

– İndi sən artıq bu evin yolunu-izini bilirsən. Gərək ki, bura elə bir inamla gələsən, sanki atan evinə gəlirsən. Məni atan, Səlmanı isə bacın bil!

Sonra qızına tərəf çevrilərək ondan: «Elə deyilmi, Səlma?» – deyə soruşdu. Səlma da razılıq əlaməti olaraq başını ehmalca tərpətdi və gözlərini mənə dikərək köhnə dostu ilə qarşılaşan zavallı bir qərib kimi baxdı.

Faris Kəramənin dediyi sözlər məni məhəbbət taxtı önündə duran qızına yaxınlaşdıran ilk gözəl nəğmə idi. O, sonu ağı ilə bitən səmavi şərqilərin ilk bəndi idi. O, ruhlarımızın cəsarət tapdığı, bizləri oda və işığa yaxınlaşdıran bir qüvvə idi. O, elə bir qab idi ki, ondan həm zəhər, həm də bal içirdik.

Mən çıxdım, şeyx də mənimlə birgə çıxaraq bağın darvazasına qədər ötürdü. Onlarla vidalaşaraq, evə getdim. Susuz

---

[1] *Allaha işarədir.*

birisi dodaqlarını su ilə dolu qədəhə yaxınlaşdırarkən qəlbi necə çırpınırsa, mənim qəlbim də eləcə çırpınırdı.

Bəyaz şölə

Aprel ötüb keçdi. Mən Faris Kəraməgilə gedir, Səlma ilə görüşürdüm. Bu bağda onun qarşısında oturaraq gözəlliyinə tamaşa edir, ona verilən bu bəxşişdən[1] heyrətlənir, hüznünün səssizliyini dinləyir, məni ona doğru cəzb edən gizli bir əlin olduğunu hiss edirdim. Hər ziyarətim onun gözəlliyinin yeni-yeni üfüqlərini mənə açır, ruhuna xas ülvi sirləri üzə çıxarırdı. O, mənim gözümdə hər sətrini oxuduğum, sözlərini əzbərlədiyim, nəğmələrini tərənnüm etdiyim, oxuyub başa çatdıra bilmədiyim bir kitab kimi idi.

İlahi tərəfindən həm ruh gözəlliyi, həm də cismani gözəllik bəxş edilmiş bir qadın zahiri və batini bir həqiqətdir ki, onu yalnız məhəbbətlə anlamaq, yalnız saflıqla toxunmaq olar. Onu vəsf etmək istədikdə bizim baxışlarımızdan qaçıb heyrət və çaşqınlıq dumanı arxasında gizlənir.

Səlma Kəramə həm cismani, həm də ruh gözəlliyinə malik idi. Tanımayan birisinə onu necə vəsf etmək olar axı?! Ölümün pəncəsi ilə savaşan bir kəs bülbülün cəh-cəhi, qızılgüllərin pıçıltısı, kiçik gölməçələrin köks ötürməsi haqda düşünə bilərmi?! Məgər ağır qandallara zəncirlənmiş dustaq səhər çağı vıyıltı qoparan yelə çata bilərmi?! Məgər susmaq söz söyləməkdən daha ağır deyilmi?! Görəsən, Səlmanın canlı surətini qızılı cizgilərlə çəkə bilməsəm, xəyalını kamil sözlərlə ifadə edə bilməmək qorxusu mənə mane ola bilərmi?!

---

[1] *Gözəlliyə işarədir.*

Əgər göylər bildirçin və manna[1] yağdırmırsa, ac yolçu məcburən yavan çörək yeməli olur.

Səlma arıq bədən quruluşunda olub, ipəkdən olan ağ donunda pəncərədən içəri düşən ay işığına bənzəyirdi. Onun ağır, təmkinli davranışı İsfahan havasını xatırladırdı. Qulağa xoş gələn şirin və aradabir ahlarla kəsilən bəm səsi al qırmızı dodaqları arasından elə süzülürdü ki, sanki meh əsdikcə güllərin taclarından tökülən şeh damcılarıdır. Onun çöhrəsi isə... Kim Səlma Kəraməni təsvir edə bilər ki?! Hansı sözlərlə onun hüznlü, mülayim, şəffaf, duvaq çəkilməyən tutqun çöhrəsini vəsf edə bilərik?! Ruhuna xas sirləri hər an aşkara çıxaran və mənim gözlərimlə ona baxanlara bu aləmdən çox uzaq bir aləmi xatırladan cizgilər haqda hansı dildə danışa bilərik ki?!

Səlmanın çöhrəsinə xas gözəllik insanların gözəllik haqda dedikləri ilə bir araya sığmır. O, bir yuxu, bir röya, ülvi bir fikir kimi qəribə və qeyri-adidir; müqayisəedilməz, ölçülməz, rəssam fırçası ilə cilalanmayan, heykəltəraşın mərmər qəlibinə sığmayan bir gözəllikdir. Səlmanın gözəlliyi onun qızılı tellərində deyil, onun varlığını bürümüş saflığındadır. Onun iri gözləri sanki iki nur çeşməsidir. Qızılgül ləçəkləri kimi alqırmızı dodaqları elə bil balla islanmışdır. Fil sümüyünə bənzər ağappaq boynu azacıq önə əyilmişdir. Səlmanın gözəlliyi onun mükəmməl bədən quruluşunda deyil, yerlə sonsuzluq arasında parlayan bəyaz şöləyə bənzər ruhunun heysiyyətində, ləyaqətindədir. Səlmanın gözəlliyi bənzərini əbədi və ölməz qəsidələrdə, rəsm və nəğmələrdə vəsf etdiyimiz poetik aliliyin bir növüdür. Böyük istedad sahiblərinin ruhları əlçatmaz

---

[1] *Manna – Tövratdakı dini əfsanələrə görə səhrada dolaşan israillilərə göydən tökülən azuqədir.*

yüksəkliklərə ucalsa da, onlar bədbəxtdirlər, çünki daim göz yaşı dəryasına qərq olurlar.

Səlma az danışan, çox düşünən birisi idi. Lakin onun səssizliyinin özündə də bir sehr var idi. O, bir musiqi tək qarşıda oturanı uzaq xəyallar aləminə aparır, onu öz qəlbinin döyüntülərini eşitməyə, gözləri qarşısında canlanan fikir və hisslərinin xəyalını görməyə vadar edirdi.

Onun xilqəti və davranışına xas cəhət dərin və üzücü bir kədərinin olması idi. Bu hüzn onun qeyri-adi və ürkək cismani gözəlliyini daha da qabardan əxlaqi və daxili bir örtü idi. Səhərin sıx dumanı arxasından çiçək açmış ağacın kölgəsi boylandığı kimi onun ruhunun şöləsi də eləcə bu gözəgörünməz örtünün sapları arasından işıq saçırdı. Bu hüzn bizim ruhlarımız arasında bir bağlılıq üzə çıxardı. Hər ikimiz qarşı tərəfin üzündəkiləri oxuyur, qəlbindəkiləri hiss edir, içində gizli qalanların əks-sədasını eşidirdik. Sanki İlahi bizi bir-birimizin yarısı olaraq yaratmışdı; bir-birinə saf və möhkəm tellərlə bağlanan, bir-birinə qovuşduqda tam və kamil bir insan olan, bir-birindən ayrıldıqda isə sanki ruhundan bir parça qopmuş kimi hiss edən iki yarı.

İztirab çəkən kədərli ruh onunla eyni hissləri bölüşən, eyni duyğuları paylaşan başqa ruhla qovuşduqda rahatlıq tapır, eynilə vətənindən uzaq düşmüş iki qərib insan qarşılaşıb dostlaşan kimi. Hüzn və kədərin çəkdirdiyi iztirabların bir-birinə yaxınlaşdırdığı qəlbləri sevinc və şadyanalığın gözqamaşdırıcı nəşəsi ayırmaq iqtidarında deyil. Könülləri bir-birinə qovuşduran hüzn bağı sevinc bağından daha güclüdür. Göz yaşları ilə durulanan məhəbbət öz paklıq və gözəlliyini əbədi olaraq qoruyub saxlayır.

Fırtına

Bir neçə gündən sonra Faris Kəramə məni öz evində axşam yeməyinə dəvət etdi. Mən təklifi qəbul edib onlara getdim. Göylərin Səlmanın əlilə yedirəcəyi bu ülvi çörəyi dadmağa səbirsizlənirdim. Ürəklərimizin ağzı ilə yeyəcəyimiz bu mənəvi çörək bizi daha da acdıracaqdı. Bu sehrli çörəyi dadan ərəb əsilli Qeys[1], italyan Dante, yunanlı Safonun içləri alışıb-yanmış, ürəkləri param-parça olmuşdu. İlahinin öpüşün şirinliyini, göz yaşlarının acılığını qataraq yoğurduğu bu çörək sayıq və həssas könüllərin onu dadarkən sevinmələri, təsirindən əziyyət çəkmələri üçün hazırlanmışdı.

Evə çatanda Səlmanın bağın bir küncündə taxta skamyada oturduğunu gördüm. O, başını ağacın gövdəsinə söykəmişdi. Geydiyi bəyaz ətəyi ilə bu məkanı qoruyan pərilərdən biri kimi görünürdü. Mən səssizcə ona yaxınlaşıb, yanında oturdum. Səlmanın önündə müqəddəs odun qarşısında oturaraq sitayiş edən bir kahin kimi idim. Bir söz demək istədim, dilim dolaşdı, dodaqlarım qurudu. Danışmamağa qərar verdim və susdum! Çünki dərin hisslər o qədər sonsuz və tükənməzdir ki, onları dar qəliblərə, məhdud sözlərə sığdırdıqda sanki öz ülviliyindən bir şey itirmiş olur. Hiss edirdim ki, Səlma bu səssizlikdə qəlbimin aramsız döyüntülərini dinləyir, gözlərimdə tir-tir əsən ruhumun əksini müşahidə edirdi.

Bir qədər sonra Faris Kəramə bağa çıxaraq, məni salamlamaq üçün bizə doğru addımladı. Adəti üzrə əlini uzadaraq, sanki qızı ilə mənim ruhlarımızı bir-birinə qovuşduran bu gizli sirrə xeyir-dua verirmiş kimi əlimi sıxdı və gülümsəyərək dedi:

---

[1] *Məcnun*

– Xoş gəldin, oğlum, gəlin keçək süfrə arxasına!

Biz ayağa qalxaraq onun ardınca evə daxil olduq. Səlma sürməli göz qapaqları altından şiveli və qıyqacı baxışları ilə mənə baxdı. Sanki atasının mənə xitabən dediyi «oğlum» sözü onun daxilində yeni və şirin hisslər doğurdu. Ana öz uşağına sarılıb oxşayan kimi məni də onun sevgisi bürüdü.

Biz hamımız süfrə arxasına oturduq. Yeyib-içdik, xeyli söhbətləşdik. Bu otaqda oturub çeşidli yeməkləri, növbənöv şərabları dadarkən ruhlarımız bizlərdən xəbərsiz bu gerçək aləmdən çox uzaq bir aləmdə dolaşırdı – mənim gələcəkdə də bu evə gəlməmi xəyal edərək, gerçəkliyin qorxu və dəhşətinə sinə gərməyə hazır olduğumu hiss edərək xəyal aləmində pərvaz edirdi. Müxtəlif dünyagörüşlü, həyatdan fərqli istəkləri olan üç insanın ruhları qəlblərinin məhəbbət və dostluqla ittifaqı sayəsində bir-biri ilə razılığa gəlmişdi. Günahsız və gücsüz üç insan çox şey hiss edir, lakin az şey bilirdi. Bu, könül meydanında qərar tutan faciədir.

Adlı-sanlı, nüfuz sahibi olan yaşlı Kəramə – o, qızını çox sevirdi. Onun səadətindən başqa heç nə bu həyatda onun üçün dəyərli deyildi -, yaxından-uzaqdan bələd olduğu bədbəxtlik və ya xoşbəxtlik gətirəcək gələcəyinə gözlərini zilləmiş 20 yaşında gənc qız və hələ həyatın acısını-şirinini dadmamış, qanadlarını açaraq təzəcə uçmağa hazırlaşan, lakin gücsüz olduğundan göyə qalxa bilməyərək arzu və xəyal dünyasında qalan gənc bir oğlan. Üç nəfər göylərin gözünü zillədiyi, gecənin səssizliyinin çökdüyü şəhərdən uzaq bir evdə, gözəl süfrə arxasında əyləşmişdilər. Qədər isə onların boşqablarının və qədəhlərinin dibində zəhər və sür-sümük gizlətmişdir.

Yeməyi qurtarmamışdıq ki, xadimələrdən biri otağa daxil olaraq, Faris Kəraməni səslədi:

– Qapıda duran bir adam sizinlə görüşmək istəyir, ağam!

Şeyx soruşdu:

– Kimdir o adam?

Xadimə:

– Deyəsən, arxiyepiskopun nökəridir, – deyə cavab verdi.

Bir neçə dəqiqəlik sükutdan sonra Faris Kəramə Səlmaya tərəf dönərək nə kimi sirlər gizlətdiyini görmək üçün göyün üzünə diqqətlə baxan peyğəmbər baxışı ilə qızının gözünün içinə baxdı. Sonra xadiməyə dedi:

– Onu içəri dəvət et!

Xadimə otaqdan çıxdı və azacıq sonra bığları iki yana daranmış, baftalı libas geymiş bir kişi içəri daxil oldu. O, baş əyərək salamlaşdı və Faris Kəraməyə müraciət edərək dedi:

– Arxiyepiskop əlahəzrətləri məni şəxsi arabasında sizin yanınıza göndərərək hüzuruna gəlməyinizi rica etdi. Belə ki, sizinlə çox mühüm bir məsələ barəsində danışmaq istəyir.

Şeyx dikəldi. Bir anda üzündəki təbəssüm itdi, qaşları çatıldı, dərin düşüncələrə dalmış dalğın bir hal aldı. Sonra mənə yaxınlaşaraq, doğma və qayğıkeş bir səslə dedi:

– Rica edirəm, mən gələnədək burada qal! Səlma sənə yoldaş olar, söhbətləri ilə gecənin tələşını uzaqlaşdırar, könül nəğmələri ilə təkliyin və yalnızlığın acısını unutdurar.

Sonra gülümsəməkdə davam edərək qızına sarı döndü və: – Elə deyilmi, Səlma? – dedi. Qızı razılıq əlaməti olaraq başını ehmalca silkələdi. Utandığından yanaqları azacıq qızardı. Ney nəğməsinə oxşar mülayim səsilə cavab verdi:

– Mən öz tərəfimdən əlimdən gələni edəcəyəm ki, qonağımızın könlü şad olsun, ata!

Şeyx gələn qonağın müşayiətində çıxdı. Səlma pəncərənin qabağında durub gözlərini yola dikdi. Araba zülmət örtüyü arxasında gözdən itənədək, təkərlərin səsi ta uzaqdan eşidilənədək, at nallarının çaqqıltısı kəsilib ortaya həzin bir sükut dolanadək gözlərini pəncərədən ayırmadı. Sonra qarşıma keçib üzlüyü yaşıl ipəkdən olan kresloda oturdu. O, bəmbəyaz paltarı ilə yaşıllıq içində səhər mehinin oyadaraq oxşadığı ağ zanbağı xatırladırdı.

Göylər istədi ki, biz Səlma ilə ağacların keşik çəkdiyi, səssizliyin çökdüyü, hər küncündə məhəbbət, paklıq və gözəllik xəyallarının dolaşdığı yalnız və uzaq bir evdə gecə vaxtı xəlvətə çəkilək.

Dəqiqələr keçirdi. Hər ikimiz çaşqın və fikirli halda susur, hər ikimiz qarşı tərəfin ilk olaraq sözə başlamasını gözləyirdik. Məgər sevən könüllər arasında qarşılıqlı anlaşmanı ifadə edəcək sözlər varmı?! Dil və dodaqların çıxardığı elə səs və ya söz varmı ki ağıl və qəlbləri bir-birinə yaxınlaşdırsın?! Məgər ağızda yaranan, səs tellərinin titrəməsi ilə saflaşan ali bir səs varmı?! Məgər könüllərin işığını, qəlblərin pıçıltısını bir-birinə ötürən səssizlik deyilmi?! Məgər bədənlərimizin darısqal zindana sığmadığını hiss edərək, bu dünyanın uzaq bir sürgün yeri olduğunu yəqin edərək, bizi özümüzdən ayıraraq sonsuz, ucsuz-bucaqsız ruhlar aləminə ucaldan, ali mələklərə yaxınlaşdıran səssizlik deyilmi?!

Səlma qəlbinin aynası olan saf və təmiz gözləri ilə mənə baxdı və sirli bir rahatlıqla dedi:

– Gəlin, bağa çıxaq, ağacların kölgəsində oturub dağın arxasından boylanan aya tamaşa edək!

Mən itaətkarcasına ayağa qalxdım və sanki etiraz edirəmmiş kimi dedim:

– Səlma, ay bağı öz nuruna qərq edincəyədək burada qalıb gözləmək yaxşı olmazdımı? İndi zülmət qaranlıq ağacların və çiçəklərin üzərinə örtü çəkmişdir: biz bu qaranlıqda heç nə görməyəcəyik.

O cavab verdi:

– Zülmət ağacların və çiçəklərin gözünü bağlasa da, o, qəlblərdəki eşqin gözünü bağlaya bilməz.

Səlma bu sözləri qəribə bir ahənglə tələffüz etdi. Sonra gözlərini qaçırdaraq pəncərəyə sarı boylandı. Mən bir anlıq susdum. Onun dediyi sözləri başımda çək-çevir edərək, onların xəyal yox, gerçək olduğunu yəqin etdim. Səlma gözlərini mənə zilləyərək diqqətlə gözümün içinə baxdı. Sanki dediklərindən peşman olmuş kimi gözlərinin sehri ilə sözlərini geri qaytarmağa çalışdı. Lakin bu gözlərin sehri o sözləri nəinki geri qaytardı, əksinə, köksümün dərinliklərinə gömülüb ömrümün sonunadək hisslərimlə birgə coşacaq qəlbimdə silinməyəcək aydın və dərin iz qoydu.

Bu dünyada hər şey gözəl və əzəmətli olub insanın daxilində bir fikir və ya bir hissdən doğur. Bu gün keçmiş nəsillərin gördükləri böyük işlər əvvəllər bir insanın ağlında gizli yaranan bir fikir və ya bir qadının qəlbində yaranan zərif bir hiss olub... Qanı su yerinə axıdan, azadlığa bir İlahi kimi ibadət etməyə sövq edən əzəmətli müharibələr və savaşlar minlərlə insanın arasında yaşayan bir fərdin beyin qırışlarında yaranan xəyali bir fikrin nəticəsidir. Hökumətləri devirən, bütöv bir məmləkəti xaraba qoyan qanlı və amansız müharibələr bir insanın başında dolaşan bir ideyadan doğur. Bəşəriyyətin yaşam

tərzini dəyişən ali təlim ətrafındakılardan öz istedad və qabiliyyəti ilə fərqlənən bir insanın hisslərindən doğan bir şövqdür.

Bir fikirlə nəhəng ehramlar ucaldıldı. Bir hiss Troyanı yerlə-yeksan etməyə qadir oldu. Bir ideya İslamın əzəmətini bütün dünyaya yaydı. Bir sözlə İsgəndəriyyə kitabxanası yandırılaraq kül edildi.

Bir fikir gecənin səssizliyində qapını döyərək səni ya ləyaqətə, ya da dəliliyə sövq edər. Qadının bir qıyqacı baxışı səni insanların ya ən xoşbəxti, ya da ən bədbəxti edər. Bir insanın ağzından çıxan tək kəlmə səni ya kasıbçılıqdan zənginliyə, ya da zənginlikdən kasıbçılığa sürükləyər... Səlma Kəramənin o sakit gecədə dediyi bir söz məni keçmişimlə gələcəyim arasında sanki dənizin dibi ilə göyün qatları arasında ilişib-qalmış bir gəmi tək çıxılmazlığa saldı. İçdən gələn tək bir söz məni gənclik mürgüsündən və süstlükdən oyatdı. Günlərim həyat və ölümün birgə addımladığı məhəbbət meydanına doğru yeni yola qədəm qoydu.

Biz bağa çıxdıq. Ağaclar arasında gəzişdikcə xəfif meh zərif barmaqları ilə üzümüzü oxşayırdı, ayaqlarımız altında qalan çiçək və otların qamətini dikəldərək xəfifcə yellədirdi. Yasəmən ağacına yaxınlaşdıqda səssizcə taxta skamyada oturub təbiətin nəfəs aldığını duyur, örtüyü arxasından gizlicə bizə baxan göyün maraqlı nəzərləri qarşısında qəlbimizin gizli qalan sirlərini dərindən köks ötürmənin ləzzətini duyaraq kəşf etməyə çalışırdıq.

Ay Sanin dağı[1] arxasından boylanaraq, dərə-təpəni, sahili öz nuruna qərq etmişdi. Vadinin ətəyində salınmış kənd

---

[1] *Livan dağları silsiləsində hündürlüyünə görə ikinci ən böyük zirvə (2628 m.).*

sanki heç nədən yaranmış kimi üzə çıxmışdı. Livan bu gümüşü şölənin altında qolu üstünə dirsəklənərək uzanmış bir gənci xatırladırdı; bədən üzvlərini zərif örtü altında gizlətməyə çalışsa da, üstü açıq qalmışdır. Livan Qərb şairlərinin təsvirində Davud və Süleyman peyğəmbərlərin gedişi ilə öz gerçəkliyini itirmiş xəyali bir məkan kimi canlanır. Elə bir yer ki, Adəm və Həvvanın Yerə enməsi ilə cənnət bağlarının qapıları bağlandığı kimi o da sanki görünməz olmuşdur. O, dağ adı yox, poetik bir sözdür: könülə aid hissləri vəsf edən bir söz. Livan deyərkən ağıla dərhal xoş ətir və buxurun yayıldığı düyü plantasiyaları, mərmər və misdən olan qürur və əzəmətlə ucalan qüllələr, vadilər və tərk edilmiş obalarda yüyürən ceyran sürüləri gəlir. Bu gecə Livan mənim gözümə oyanışdan oyanışa gələn yuxuya bənzər xəyali poetik fikir kimi görünürdü. Bəzən hisslərimiz dəyişərkən bir çox şeylər gözümüzə başqa rəng və görkəmdə görünür. Heç bir sehr və gözəlliyə malik olmayan şeylər duyduqlarımızdan dolayı daxilimizdə bizə çox cəzbedici və sehrli gəlir.

Səlma üzünü mənə sarı çevirdi. Onun çöhrəsi, boynu və bilərkləri ay işığına qərq olmuşdu. O, bu aylı gecədə möbidin barmaqları ilə fil sümüyündən yonduğu məhəbbət və gözəllik ilahəsi olan İştarı[1] xatırladırdı. O dedi:

---

[1] *Yunanca adı Astarta. e.ə. XIV əsrə aid qədim yazılarda Aşerat, Aştart, İştar kimi çəkilir. Bu ad Finikiya mədəniyyətindən şumer-akkad panteonu vasitəsilə əxz edilmişdir. Onunla bağlı ayinlər indiki İsrailin ərazisində hələ e.ə. X-VIII əsrlərdə geniş hal almışdır. İştar (müqəddəs ana, həyat verən) – bütün allahların anası, hər şeyin yaradıcısı olan günəş allahı olan Ranın qızı hesab olunurdu. Həyat və məhəbbət bəxş edən ilahə kimi ona səcdə edilir, şərəfinə ayin və etiqad mərasimləri təşkil olunurdu. Onun adı müqəddəs İncildə tez-tez çəkilir. İştara ibadət Fələstin, Misir,*

– Niyə susursan? Nədən mənə öz keçmişin barədə danışmırsan?

Onun işıq saçan gözlərinə baxdım. Dilim topuq vura-vura ona cavab verdim. Dodaqları iflic olmuş, nitqi tutulmuş lal kimiydim:

– Mən buraya gələndən danışıram. Məgər sən məni eşitmədin? Bağa çıxdıqdan bəri söylədiklərimi duymadın? Çiçəklərin pıçıltısını, səssizliyin nəğməsini eşidən könül ruhumun fəryadını, qəlbimin döyüntülərini eşitməyə bilməz.

O, əlilə üzünü örtüb, qırıq səslə dedi:

– Səni duydum...hə, duydum... Gecənin içindən qopan çılğın fəryad səsini, gündüzün qəlbini dəlib keçən sürətli döyüntüləri eşitdim.

Mən tələsik cavab verdim. Hər şeyi unutmuşdum – keçmişimi, həyatımı, varlığımı, özümü... Səlmadan başqa heç nə bilmək istəmədiyimə əmin idim. Onun varlığından başqa heç nə hiss etmirdim.

– Mən də səni duydum, Səlma! Göy qatlarının köklədiyi və bir təması ilə yeri-göyü silkələdəcək yanıqlı, ürkək və eyni zamanda əzəmətli bir nəğmə eşitdim.

Səlma gözlərini qapadı. Onun al-qırmızı dodaqlarında kədərli təbəssümün kölgəsi göründü. O, xəfifcə pıçıldadı:

– Mən indi bildim ki, göylərdən daha uca, dənizlərdən

Kiçik Asiya, Yunanıstanda qiksosların axını dövründə (e.ə. 1567—1320-ci illərdə) geniş hal almışdır. Ellinizm dövründə İştar əlində zanbaq və ya ilanla çılpaq şəkildə, yaxud əlində qılınc atın üstündə təsvir olunurdu. Süleymanın dövründə onun şərəfinə çox sayda məbədlər tikilmişdir. Lakin e.ə.13-cü əsrdən sonra Bel-Marduk panteonun baş allahı hesab edildikdən sonra İştarın ali obrazı kiçildilmişdir. İoşıyaxunun hakimiyyəti dövründə isə onun şərəfinə təşkil olunan etiqad mərasimləri və ibadətlər qadağan edilmiş, adına ucaldılan məbədlər dağıdılmışdır.

daha dərin, həyatdan, ölümdən, zamandan daha güclü bir şey var. Mən dünən bilmədiyim və heç xəyal belə etmədiyim bir şeyin varlığına artıq əmin oldum.

Bu andan etibarən Səlma Kəramə mənə dostdan daha yaxın, bacıdan daha doğma, sevgilidən daha əziz oldu. O, ağlımı başdan alan ali bir fikir, qəlbimə dolan zərif bir hiss, ruhuma sığınan gözəl və şirin bir yuxu idi.

Məhəbbətin uzunmüddətli tanışlıqdan və davamlı yoldaşlıqdan doğduğunu iddia edən insanlar necə də cahildirlər. Həqiqi məhəbbət ruhların qarşılıqlı anlaşmasından doğulur. Əgər o, ilk anda yaranmırsa, nə sonrakı, nə də daha sonrakı anlarda yaranır.

Səlma başını çevirib Sanin dağının başı səmanın quyruğuna dəydiyi yerə – uzaq üfüqə sarı baxdı və dedi:

– Dünənədək sən mənə qardaş kimi idin, sakitcə yaxınlaşaraq atamın hüzurunda yanına əyləşdiyim bir qardaş. İndi isə mən qardaş-bacı əlaqəsindən daha güclü və daha şirin olan bir şeyin olduğunu hiss edirəm. Mən heç bir əlaqəyə oxşamayan qəribə və anlaşılmaz bir hiss keçirirəm; qəlbimə həm kədər, həm də sevinc aşılayan güclü, qorxulu və eyni zamanda ləziz və şirin bir hiss...

Mən dedim:

– Məgər bizi qorxudan, içimizə işlədikcə tir-tir əsdiyimiz bu hiss ayın yer, yerin günəş, günəş və onun əhatəsində olanların[1] Allah-taala ətrafında dövr etdiyi ümumi qanunauyğunluğun bir parçası deyilmi?!

Səlma əlini ehmalca başıma toxundurarаq zərif barmaq-

---

[1] *Günəş sistemi - ulduzlar, planetlər və digər göy cisimləri, bir sözlə, qalaktika nəzərdə tutulur.*

ları ilə saçımı oxşamağa başladı. Ay sanki bütün gözəlliyi ilə onun üzündə əks olunmuşdur. Yanaqlarına axan göz yaşları nərgiz gülünün yarpaqları üzərində bərq vuran şeh damcılarını xatırladırdı. O dedi:

– Bəşər övladından kim bizim hekayətimizi doğrulaya bilər?! Kim təsdiqləyə bilər ki, biz günəşin batması ilə ayın çıxmasına təsadüf edən bir anda bütün maneələri dəf edərək şübhə ilə yəqinlik arasında olan keçidi qət etmişik?! Onlardan kim inana bilər ki, bizi ilk dəfə görüşdürən aprel ayı bizi ən ülvi həyatın qüdsiyyətinə inandırıb?!

O, bu sözləri deyərkən yana əyilmiş başımı oxşamaqda davam edirdi. Əgər mənə bu an seçim etməyi söyləsəydilər, saçımı oxşayan zərif əllərini nə şahlıq tacına, nə də zəfər nişanəsi olan dəfnə budağına dəyişərdim.

Mən dedim:

– İnsanlar bizim hekayətimizə inanmazlar, çünki məhəbbətin fəsillərin köməyi olmadan cücərən və boy atan bir çiçək olduğundan bixəbərdirlər. Doğrudanmı, bizi ilk görüşdürən aprel ayıdır?! Doğrudanmı, o, bizi ən ülvi həyatın qüdsiyyətinə inandıran andır?! Məgər doğuşumuz bizi gündüzlərin və gecələrin əsiri etməmişdən öncə Allah-taala ruhlarımızı öz əlilə birləşdirməmişdirmi?! Səlma, insanın həyatı ana bətnində başlamadığı kimi qəbirdə də sona yetmir. Ulduzların şöləsi və ay işığı ilə dolu bu kainat dərrakəyə söykənən cisimlərdən və məhəbbətdən ilhamlanan ruhlardan təcrid deyil.

Səlma ehmalca əlini başımdan çəkdi. Əlini çəkdiyi saç ayrımında yaranan cərəyan dalğaları gecənin zərif mehi əsdikcə daha da güclənir, saçımın hər telini dalğalandıraraq hərəkətə gətirirdi. Bıçaq altına uzanmış günahsız qurbanlıq

xeyir-dua istəyirmiş kimi mən də itaətkar nəzərlərlə ona baxaraq, əlini ehmalca götürüb alışıb-yanan dodaqlarıma qoydum. Səssiz, hərarətli və lal bir ehtirasla onları uzun-uzadı öpdüm. Elə bir öpüş ki, hərarəti ilə bəşər övladının qəlbində olan bütün hissləri şam tək əridir, şirinliyi ilə ilahi nəfsə xas saflıq oyadır.

Bizim üçün bu bir saatın hər dəqiqəsi məhəbbət və ehtiras dolu bir il kimi keçdi. Ağacların və çiçəklərin əhatəsində ətrafımızı gecənin səssizliyi bürümüşdü, üzərimizə sanki ayın şöləsi çilənmişdi. İnsana məhəbbət gerçəkliyindən başqa hər şeyi unutduran bu vəziyyətdə qalmaqda davam edəcəkdik ki, bizə sarı sürətlə çapan atların nal səsini və araba təkərlərinin çaqqıltısını eşitdik və dərhal bu şirin bihuşluqdan ayıldıq. Qəfləti oyanış bizi yuxular aləmindən oyadaraq gerçək aləmə endirdi. Biz çaşqınlıqla bədbəxtliyin arasında dayanmışdıq. Səlmanın atası arxiyepiskopun evindən qayıdırdı. Ağacların arasından onun gəldiyini gördük. Araba bağın girəcəyində dayandı. Faris Kəramə arabadan enərək, azacıq önə əyilmiş başını silkələyə-silkələyə bizə sarı gəldi. Şeyx sanki ağır yük daşıyırmış kimi üzgün və yorğun görünürdü. O, Səlmaya yaxınlaşaraq, hər iki əlini onun çiyninə qoydu, nurunu getdikcə itirən zəifləmiş gözlərindən qızının surətinin itəcəyindən qorxurmuş kimi nəzərlərini çəkmədən uzun-uzadı onun üzünə baxdı. Elə bu an qırışıq yanaqlarında göz damcıları parladı. Dodaqlarına hüznlü bir təbəssüm çökdü, yoğun və tutqun bir səslə dedi:

– O il yaxındır, Səlma! Atanın qollarından çıxaraq başqa insanın qollarına atılacağın il yaxınlaşır. Bu gün-sabah sən bu yalqız evdən çıxaraq, böyük dünyanın geniş meydanına atılacaqsan. O il artıq çox yaxındır. Bu bağ sənin ayaq izlərinə,

asta addımlarına həsrət qalacaq. Atan sənə yadlaşacaq, səndən uzaq düşəcək. Artıq qədər öz sözünü deyib, Səlma! Göylər sənə öz xeyir-duasını versin, səni hifz etsin, qızım!

Səlma bu sözləri eşidər-eşitməz bənizi saraldı, üz cizgiləri dəyişdi. Sanki qarşısında ölüm kabusu görürmüş kimi baxışları donub-qaldı. Sonra hönkür-hönkür ağladı. Ovçu gülləsinə tuş gəlmiş köməksiz sərçə kimi narahat halda çırpınmağa başladı. Üzgün halda taqətsiz düşərək yerə yıxıldı və aramsız hıçqırıqlarla kəsilən səslə bağırdı:

– Sən nə danışırsan? Nəyi nəzərdə tutursan? Məni hara yollayırsan, ata?

Səlma gözlərini çəkmədən atasına baxırdı. Sanki sərt və iti baxışları ilə onun qəlbində gizli qalanları yox etməyə çalışırdı. Qəbir çığırtılarına oxşar ölü səssizliklə keçən bu ağır dəqiqələrdən sonra Səlma köks ötürərək dedi:

– İndi anladım... Hər şeyi başa düşdüm. Arxiyepiskop dəmir barmaqlıqlardan qanadı qırılmış quş üçün qəfəs toxuyub? Ata, bu, sənin arzundur?

Faris Kəramə nə içini çəkdi, nə də ki Səlmanın sualına cavab verdi. Qolundan tutub onu içəri apardı. Təəssüf onun pərişan üzünə kölgə salmışdı. Mən ağacların arasında təktənha qaldım. Yel xəzan yarpaqları ilə oynadığı kimi çaşqınlıq da mənim hisslərimlə eləcə oynayırdı.

Onların arxasınca evə daxil oldum. Məsələnin nə yerdə olduğunu maraqla öyrənməyə çalışan çağırılmamış qonaq kimi görünməmək üçün şeyxin əlini sıxaraq vidalaşdım. Sönmüş ulduzun göy qübbəsində ən parlaq ulduza baxdığı kimi son dəfə Səlmaya baxdım. Sonra qeyri-iradi olaraq evdən çıxıb getdim. Bağın ayağına çatmışdım ki, şeyxin arxadan məni səslədiyini eşidib ayaq saxladım. Arxaya döndükdə onun mənə sarı gəl-

diyini gördüm. Mənə yaxınlaşıb əlimi tutdu. Titrək səsi ilə dedi:

– Bağışla, oğlum, sənin də gecəni korladım. Heyf ki, xoş başlayan bu günümüz sonunda göz yaşları ilə bitdi. Lakin sən həmişə mənim yanıma gələcəksən, elə deyilmi? Hüzn və kədər dolu qocalıqdan başqa heç nəyin qalmadığı bu məkanda məni ziyarət edəcəksən, eləmi? Səhər axşamla qarşılaşmaq istəməyən kimi təravətli gənclik də solmuş qocalığı görməməzlikdən gəlir. Sən isə, inanıram ki, atanla keçirdiyimiz gənclik günlərini xatırlatmam üçün məni ziyarət edəcək və hələ də məni öz övladlarından biri hesab edən həyatda olub-bitənlər barədə xəbərdar edəcəksən, elə deyilmi? Məgər Səlma çıxıb getdikdən sonra yaşayış yerindən çox-çox uzaq olan bu evdə tək-tənha qaldıqda məni ziyarət etməyəcəksən?

Şeyx son sözlərini astadan, qırıq-qırıq tələffüz etdi. Sakitcə onun əlini götürüb sıxdıqda göz qapaqlarından axan isti göz yaşlarının əlimə damdığını hiss etdim. İçimdən bir ürpərti keçdi. Oğulun ataya duyduğu isti, doğma, eyni zamanda kədərli şeylər hiss etdim. Bu hiss içimdə var-gəl edərək təngnəfəslik kimi qırtlağadək qalxdı, sonra üzüntü olub qəlbimin dərinliklərinə gömüldü. Şeyx başını qaldıranda gördü ki, onun göz yaşları mənimkinə qarışıb. O, başını azacıq önə əyərək islaq dodaqları ilə alnımdan öpdü. Sonra üzünü qapıya sarı çevirərək dedi:

– Gecən xeyrə qalsın, oğlum, gecən xeyrə!

Faris Kəramənin qırışıq yanağında bir damla göz yaşı parladı. Bu göz yaşı gənclərin məhəbbət yolunda axıtdıqları aramsız göz yaşlarından daha təsirli idi. Gənclərin axıtdıqları göz yaşları aşıb-daşan qəlblərinin naləsi, fəğanıdır. Qocaların göz yaşları isə onların gözlərində əks olunan ömrün fəzilətlə-

rinin, zəif, taqətdən düşmüş bədənlərində qalan həyatın qalıqlarıdır. Gənclərin gözlərindəki yaşlar qızılgül ləçəkləri üzərindəki şeh damcıları kimidir. Qocaların yanaqlarındakı yaşlar isə payızın saralmış xəzan yarpaqları kimidir; külək əsdikcə hər tərəfə səpələnən, ömrün qışı yaxınlaşdıqca isə gözdən itən xəzan yarpaqları...

Faris Kəramə qapının kandarında gözdən itdikdən sonra mən buranı tərk etdim. Səlmanın səsi hələ də qulağımda cingildəyirdi. Onun gözəlliyi bir kölgə kimi gözümün önündə getgəl edirdi. Atasının tökdüyü göz yaşları ilə islanmış əlim yavaş-yavaş quruyurdu. Adəm cənnətdən çıxıb getdiyi kimi mən də eləcə bu məkanı tərk etdim. Lakin bu qəlbin Həvvası bütün dünyanı cənnət etmək üçün yanımda yox idi...

Gedərkən hiss etdim ki, ikinci dəfə doğulduğum bu gecədə ölümün əsil siması, ilk dəfə olaraq, bütün aydınlığı ilə üzə çıxdı.

Günəş öz hərarəti ilə həyat verdiyi kimi eyni hərarətlə də öldürürdü.

Od gölü

İnsanın zülmət gecədə gizli etdiyi bir şey gün işığında onu ələ verir. Səssizlikdə dodaqlarımızın pıçıldadığı sözlər bizdən xəbərsiz hər kəsin danışdığı ümumi söhbətə çevrilir. Evimizin künclərində gizlətməyə çalışdığımız xırda, balaca işlər səhərisi böyüyərək, küçələrin tinləri və döngələrində insanların ağzında çeynənilir.

Beləcə, gecənin kabusları arxiyepiskop Bulis Qalib ilə Faris Kəramənin görüşünün əsil məramını ortaya çıxardı. Onların danışdıqları səma qatlarından enərək şəhər məhəllələrinə yayıldı. Söhbətin bir ucu mənim də qulağıma çatdı. Arxiyepis-

kop bu aylı gecədə Faris Kəramə ilə kasıb-kusubun, yurdsuz-yuvasızların işləri barədə danışmaq və yaxud yetim-yesirlərin, dul qalmışların halından agah etmək üçün görüşməmişdi. Səlmanı qardaşı oğlu Mənsur bəy Qalibə istəsin deyə, dalınca şəxsi arabasını və adamını belə göndərmişdi.

Faris Kəramə zəngin idi və onun qızı Səlmadan başqa varisi yox idi. Arxiyepiskop onu qardaşı oğluna məhz bu səbəbdən seçmişdi. Nə Səlmanın gözəlliyi, nə də ismət və ləyaqəti onu maraqlandırırdı. Səlma böyük var-dövlətin tək varisi idi. Mənsur bəy bu mirasın köməkliyi ilə özünün gələcəyini təmin edə biləcək və Səlmanın böyük əmlakı sayəsində şərəf sahibləri arasında ali yer tutaraq, cəmiyyətdə böyük nüfuz sahibi olacaqdı.

Şərqdəki din başçıları əldə etdikləri nüfuz və hakimiyyətlə kifayətlənmir, doğmaları və qohum-əqrəbalarını xalqın ağası, onun gücünün və əmlakının idarəçisi, istismarçısı etmək üçün əllərindən gələni edirlər. Əmirin hakimiyyəti ölümündən sonra miras kimi ilk oğluna keçir. Din başçısının nüfuzu isə hələ həyatda ikən yoluxucu xəstəlik kimi ya qardaşına, yaxud qardaşı oğluna keçir. Xristianların rahibi, müsəlmanların imamı, brahmanların kahinində də eynilə bu cür olur. Onlar dəniz ilanları kimi bir neçə əlləri ilə qurbanlarından yapışaraq, sayagəlməz ağızları ilə onların qanını sorurlar.

Arxiyepiskop Faris Kəramədən qızını istədikdə, o, cavabını yalnız dərin sükuta daldıqdan və göz yaşı axıtdıqdan sonra verə bildi. Hansı ataya qızından ayrılmaq asandır ki; hətta o, qonşu evə və ya əmirin qəsrinə gəlin getsə belə?! Təbiət qanunları uşaq ikən oynadığı, gənc ikən təlim-tərbiyə verdiyi, yetkinləşərkən həmdəm olduğu qızından ayırarkən hansı atanın içi param-parça olmur ki?! Qızının ərə getməsini görən va-

lideynlərin üzüntüsü oğul evləndirərkən yaşadıqları sevincə bərabərdir. Çünki oğul evlənərkən ailə yeni üzv qazanır. Qız ərə gedərkən isə doğma və əziz bir üzvünü itirmiş olur. Şeyx arxiyepiskopun təklifinə məcburən razılıq verməli oldu, onun iradəsinə zorla boyun əydi. Qəlbində isə o, bu evliliyə qarşı idi. O, arxiyepiskopun qardaşı oğlu Mənsur bəylə artıq qarşılaşmışdı və camaatın onun barəsində söylədiklərindən xəbərdar idi. Onun alçaq xislətli, tamahkar və əxlaqsız olmasını bilirdi. Lakin hansı xristian Suriyada din başçısına qarşı çıxa və buna rəğmən möminlər arasında hörmət və nüfuz sahibi olaraq qalmaqda davam edə bilər ki?! Şərqdə din başçısının sözündən çıxan hansı insana kəramət sahibi kimi hörmət edilir?! Məgər belə insanın gözünə mil çəkib iki dəlikdən çıxarmazlarmı?! Əllərini şil edib qılıncla doğram-doğram etməzlərmi?! Tutaq ki, şeyx arxiyepiskopun təklifinə rədd cavabı verdi və ona qarşı çıxmaq iqtidarında oldu. Bəs bu təqdirdə onun qızı Səlmanın etibarı, ad-sanı şübhə altına alınmazdımı?! O, dedi-qodu hədəfi olmazdımı?! Səlmanın təmiz, pak adı murdar ağızlarda və dillərdə çeynənməzdimi?! Məgər çaqqallara görə yuxarıda asılan üzümlərin hamısı turş deyilmi?![1]

Tale oyunlarına tuş gələn Səlma Kəramə fələyin məngənəsində sıxılaraq bədbəxt Şərq qadınlarının sırasına qatıldı. Çiçəklərin xoş ətrinin yayıldığı və ayın şöləsi ilə işıqlanmış səmada məhəbbətin pak və ağappaq qanadlarında ilk dəfə pərvaz edərkən bu zərif və alicənab ruh tora düşdü.

Bir çox yerlərdə ataların var-dövləti övladlarının bəd-

---

[1] *«Pişiyin əli ətə çatmayanda deyər iylənmişdir» məsəlinin ekvivalentidir.*

bəxtliyinə gətirib çıxarır. Atanın alın təri ilə qazandığı, ananın qənaət etməklə yığdığı çox sayda var-dövlət varislər üçün dar və qaranlıq bir məhbəsə çevrilir. İnsanların etiqad etdiyi dinar şəklində olan bu qüdrətli şah ruhlara əziyyət verən, qəlbləri öldürən qorxunc bir şeytandır. Səlma Kəramə öz cinsində olan digər qızlar kimi atasının sərvətinin və nişanlısının tamahının qurbanı olmuşdu. Faris Kəramə zəngin olmasaydı, bəlkə də Səlma bu gün sağ olar və bizim qədər günəş işığından doya-doya ləzzət alardı.

Bir həftə keçdi. Axşamlar Səlmanın eşqi yanımda otu-raraq, qulağıma səadət nəğməsi zümzümə edir, səhərlər isə həyatın mənasını anlamaq və varlığın sirlərinə bələd olmaq üçün məni yuxudan oyandırırdı. Ülvi məhəbbət həsəd nə ol-duğunu bilmir, çünki o, zəngindir. O, bədəni incitmir, çünki ruhun daxilindədir. Çılğın ehtiras, güclü istək ruhu əminlik his-sinə bürüyür. Məhəbbətə susamaq qəlbi məmnunluq hissi ilə doldurur. Hiss ehtiras doğurur, lakin, o, coşdurmur. Ağlımı baş-dan çıxaran bu cazibə məni hər yeri əmin-amanlıq, səadət və rifah içində, həyatı isə şirin bir yuxu kimi görməyə vadar edirdi.

Səhərlər çöldə-düzdə gəzişərkən təbiətin oyanışında sonsuzluğun rəmzini görürdüm. Dənizin sahilində oturarkən dalğaların əbədiyyət nəğməsini eşidirdim. Küçədə dolaşarkən piyadaların üzündə, iş görənlərin hərəkətlərində həyatın gö-zəlliklərini, xalqın sevinc və məmnunluğunu oxuyurdum. O günlər bir kölgə kimi keçib getdi, bir duman kimi çəkilərək yox oldu. O günlərdən mənə qalan yalnız acı xatirələr oldu. Baharın gözəlliyini, təbiətin oyanışını görən o gözlər tufanın qəzəbindən, qışın fəlakətindən başqa bir daha heç nəyə baxa bilmədi. Dalğaların nəğmələrini dinləyən qulaqlar iniltili fər-

yad səsləri və acı nalələrdən başqa bir daha heç nə eşitmədi. Bəşəriyyətin yaratdıqları və sivilizasiyanın əzəməti qarşısında ürkək dayanmış könül fəqirin bədbəxtliyi, rəzilin faciəsindən başqa bir daha heç nə duymadı. Sevgi dolu günlər necə də gözəl, ondan doğan arzular necə də şirindir! Hüznlü gecələr necə də acı, onun qorxuları necə də çoxdur!

Həftə sonu bir axşam hisslərimin qanadında pərvazlanaraq Səlma Kəraməgilə getdim. O, könüllərin ona səcdə etməsi, qəlblərin müticəsinə onun qarşısında diz çökməsi üçün gözəlliyin öz əli ilə tökdüyü, məhəbbətin ilahiləşdirdiyi bir büt idi. Mənzilə çatanda və bu səssiz bağa daxil olduqda ağlımı başdan alan və məni özünə doğru cəzb edərək gerçək aləmdən uzaqlaşdıran, savaş və döyüşdən uzaq sehrli aləmə yavaş-yavaş yaxınlaşdıran güclü bir qüvvənin varlığını hiss etdim. Göylərin röyalar dünyasına çəkib apardığı sufi kimi mən də gözümü açıb özümü bir-birini qucmuş ağaclar və güllərin arasında dolaşan gördüm. Evin qapısı önündə ikən ətrafıma nəzər saldım. Səlmanı yasəmən ağacı altındakı skamyada oturan gördüm. O skamya ki, bir həftə bundan öncə o sirli gecədə İlahi bizi gecənin qaranlığında gizlətmişdir və o gecəni mənim həm səadətimin, həm də bədbəxtliyimin başlanğıcı etmişdi. Mən səssizcə ona yaxınlaşdım. Sanki gəlməmişdən öncə mənim gələcəyimdən xəbərdarmış kimi nə hərəkət etdi, nə də ki danışdı. Yanında oturduqda gözlərini gözümün içinə dikdi. Bir anlıq baxışları gözlərimdə donub qaldı. Sonra dərindən köks ötürərək, gündüzün son işıltılarının gecənin ilk toranlığına qovuşduğu uzaqdan sayrışan axşam şəfəqinə doğru üzünü çevirdi. Könüllərimizi görünməz ruhların cərgəsinə qatan bu sehrli sükutla dolu səssizlikdə soyuq və titrək əlləri

ilə əlimi sıxdı, heç bir söz deməyə taqəti olmayan ac zavallı tək təngnəfəs olmuş bir səslə dedi:

– Mənə bax, dostum, üzümə diqqətlə bax! Nəzərlərini çəkmədən məndən eşitmək istədiklərini ondan kəlmə-kəlmə oxu, cavab axtardığın suallara onda cavab ara! Gözlərimə bax, sevgilim!... Onlara diqqətlə bax, qardaşım!

Mən onun üzünə baxdım, uzun-uzadı baxdım. Bu keçən bir neçə gün ərzində dodaqları gülümsəyən, qaratoyuğun qanadları tək pərvaz edən təbəssüm qonmuş iri gözləri batmış və donuqlaşmış, elə bil kədər və üzüntü kölgəsi ilə sürmələnmişdir. Dünənə kimi ağ zanbaq ləçəkləri kimi günəşin doğuşundan fərəhlənən bu qız sanki solmuş, çöhrəsinə ümidsizlik kölgəsi düşmüşdür. Al qızılgül kimi qıpqırmızı dodaqlar göyərmiş, şirinliyi getmişdir: payızın xəzan yarpaqlarına qatdığı solmuş qızılgüllər kimi qupquru qurumuşdur. Fil sümüyü tək bəmbəyaz, dimdik boynu azacıq önə əyilmişdir, sanki başının ağırlığını daşımağa artıq taqəti yox idi. Səlmanın üz cizgilərində baş verən bu dəyişikliklərin hamısını gördüm, lakin o, mənim nəzərimdə hələ də bütün əzəmət və gözəlliyini saxlayan ay işığı ilə qurşanmış zərif duman kimi idi. İnsanın daxili aləminin sirlərini üzə çıxaran cizgilər sirlər nə qədər ağrılı-acılı olsa da, simaya özünəməxsus bir gözəllik və məlahət bəxş edir. Susmaqla könlün sirlərini və ürəkdə gizli qalanları çatdıra bilməyən üz cizgiləri hətta mütənasib olsa belə, gözəl deyil. Büllur şərabın rəngindən al-qırmızı rəngə boyanmayanadək badəyə meylimiz qaçmır. Səlma Kəramə o axşam canın şirinliyi ilə həyat acısının qarışığından çəkilən xalis şərabla dolu badəni xatırladırdı. O, özü də bilmədən Şərq qadınlarını təmsil edirdi: boynunu alçaq və rəzil ərlərinin boyunduruğu altına salmaq üçün doğma ata ocağını tərk edən Şərq qadınla-

rını... Elə bir qadın ki, qayğıkeş anasının əlini yalnız qəddar və amansız qayınanasının hökmü altında yaşamaq üçün buraxmalı olur.

Mən Səlmaya qırıq könlünün iniltisini duyaraqdan, acısını birgə susaraq, düşünərək, hiss edərək yaşayaraqdan gözümü çəkmədən baxırdım. Qəflətdən oyandığımda elə bir hiss gəldi ki, sanki zaman durmuş, ətrafda olan hər şey, bütün varlıq gözlərdən gizlənərək yox olmuşdur. Mən isə hələ də içimin dərinliklərinə dikilən iri qara gözlərdən savayı heç nə görmürdüm, əllərimi bərk-bərk sıxan titrək və soyuq əllərdən başqa heç nə hiss etmirdim. Səlmanın səsi məni bu bihuşluqdan oyatdı. O, astadan pıçıldadı:

– İndi gəl danışaq, dostum! Nə qədər ki, gələcəyin qorxu və dəhşəti bizi sarımayıb, onu təsvir etməyə çalışaq! Atam məzaradək mənə yoldaş olacaq adamın evinə gedib: göylərin mənim dünyaya gəlməmə səbəb kimi göndərdiyi insan yerin mənim gələcək günlərimin ağası kimi seçdiyi adamın evinə gedib. Elə indi, bu an şəhərin göbəyində gəncliyin həmdəmi olmuş qoca bundan sonra qalmış illərin rəfiqi olacaq gənclə görüşür. Bu gecə atam və nişanlım toy günü barədə razılığa gələcəklər. Bu an necə də qəribədir, onun təsiri necə də güclüdür! Keçən həftə buna oxşar gecələrin birində, yasəmənlərin kölgəsində məhəbbət ilk dəfə ruhuma hakim olduğu bir vaxtda tale gələcəyimin hekayəsinin ilk kəlməsini arxiyepiskop Bulis Qalibin evində cızdı. Elə indi, bu an atam və nişanlım birgə oturaraq, bizim evlilik əklilimizi hörürlər. Səni yanımda əyləşən görürəm, ac və qorxunc ilanın bulaq başında gözətlədiyi ürkək halda çapalayan yazıq quşcuğaz tək mənə sarı qanad çaldığını hiss edirəm. Bu gecə necə də şahanə və əzəmətli bir gecədir, onun sirləri necə də dərindir.

Mənə elə gəlirdi ki, ümidsizlik zalımcasına əllərini uzadaraq sevgimizin boğazını üzməyə və onu hələ körpəliyində boğub öldürməyə çalışır. Mən Səlmanın dediklərinə cavab olaraq söylədim:

– O quşcuğaz susuzluqdan üzülüb heysiz düşənədək və ya ilan onun başını üzüb parça-parça edənədək bulaq başında qanad çalmağa davam edəcək.

O, pərişan halda dedi: səsi gümüş sim tək titrəyirdi:

– Yox, yox, dostum! Qoy bu quşcuğaz sağ qalsın, qoy bülbül axşamadək cəh-cəh vursun! Bahar fəsli qurtaranadək, dünyanın sonu gələnədək, zaman bitənədək... Onu susdurma! Onun səsi məni yaşadır. Onun qanadlarını qırma! Onların çırpıntısı qəlbimdəki zülmət dumanını dağıdır.

Mən köks ötürərək pıçıldadım:

– Şövq atəşi onu[1] yaxaraq kül edib, qorxu onu öldürüb.

O, dərhal cavab verdi: sözlər onun titrək dodaqları arasından ard-arda tökülürdü:

– Ruhun yanğısı söndürülməyəcək qədər böyük bir yanğıdır. Canın qorxusu bədənin rahatlığından daha əziz və arzu ediləndir... Məni dinlə, əziz dostum, məni yaxşı dinlə! Mən indi heç nə bilmədiyim həyatın kandarında dayanıram. Mən yıxılmaqdan qorxaraq əli ilə divarlardan tutub gedən kor kimiyəm. Mən elə bir kənizəm ki, atasının var-dövləti onu qul alverçilərinin əlinə salıb və onu qul alıcılarından biri alıb. Mən tanımadığım bu adamı sevmirəm. Sən özün bilirsən ki, məhəbbət və nabələdlik bir araya sığmır. Lakin mən əvvəl-axır onun məhəbbətinə alışacağam. Ona tabe olacaq, ona xidmət edəcək və onu xoşbəxt etməyə çalışacağam. Güclü kişiyə zəif

---

[1] *Quş*

qadının təhəmmül edə biləcəyi qədər tab gətirəcəyəm. Sən isə hələ ömrünün baharını yaşayırsan. Həyat sənin qarşına hər tərəfi gül-çiçəklə döşənmiş geniş bir yol açıb. Sən dünya meydanına qəlbini bir məşəl tək daşıyaraq üzü ağ çıxacaqsan. Sən daha dərindən düşünüb-daşınacaq, daha doğru və qəti addım atacaqsan! Sən adını həyat səhifəsi üzərinə yazacaqsan, çünki sən kişisən! Sən ağa kimi yaşayacaqsan, çünki atanın fəqirliyi səni qul etməyəcək. Onun olan-qalan var-dövləti səni qızları alıb-satan qul alverçilərinin əlinə düşürməyəcək. Sən çox sayda qızlar içərisindən özünün seçdiyin qızla ailə həyatı quracaqsan. O, sənin evində qərar tutmamışdan öncə qəlbində yerini tutacaq, gecə və gündüzünü paylaşmamışdan öncə fikirlərinlə həmrəy olacaq.

O, nəfəsini dərirmiş kimi bir anlıq susdu, sonra sözünə davam edərək dedi:

– Görəsən, səni şərəf sahiblərinin, məni isə öz vəzifələrini icra etməyə məcbur olan qadınların cərgəsinə qatan həyat yolu burada ayrılır?! Görəsən, bu gözəl yuxu burada bitəcək, bu şirin gerçəklik yox olub gedəcək?! Məgər gurultu qaratoyuğun nəğməsini bu cür batırır?! Külək qızılgülün ləçəklərini qopararaq ətrafa belə səpələyir?! Şərab qədəhləri ayaqlar altında qalaraq belə çilik-çilik olur? Görəsən, bu gecənin ayın qarşısında bizləri görüşdürməsi və yasəmən kollarının kölgəsində ruhlarımızı qovuşdurması bir ilğım idi?! Ulduzlara doğru qanad çalarkən ona görə belə tələsdik ki, qanadlarımız tez qırılsın və biz uçuruma yuvarlanaq?! Yoxsa, məhəbbət bizi yuxuda ikən qəflətdə yaxaladı və qəzəblə oyadaraq cəzalandırmaq istədi?! Bəlkə, ruhlarımız bizi param-parça etməsi və vadinin lap dərin uçurumuna yuvarlaması üçün gecənin xəfif mehini coşdurarak güclü tufan qopardı?! Biz Allahın əmrinə

qarşı çıxmadıq, məhəbbət meyvəsini dadmadıq. Elə isə, bu cənnətdən necə qovula bilərik?! [1]

Biz qəsd planı işləməmişik, əlbir olub cinayət törətməmişik, üsyan qaldırmamışıq. Nədən cəhənnəmə atılaq ki? Yox, yox, min kərə yox! Bizi qovuşduran dəqiqələr zamanlar içərisində ən böyüyüdür. Könüllərimizi, ruhlarımızı işıqlandıran şölə zülmətdən daha güclüdür. Əgər bu coşqun dənizin üzərindən qalxan şiddətli qasırğa bizi ayırarsa, dalğalar bu səssiz sahildə bizi yenidən qovuşduracaq. Əgər bu həyat bizi öldürərsə, o ölüm bizi yenidən dirildəcək.

Qadın ürəyi zaman keçsə belə dəyişmir, fəsillər ötdükcə haldan-hala keçmir. Qadın ürəyi uzun müddət mübarizə aparsa da, ölmür. Qadın ürəyi insanların savaş və qırğın meydanı kimi seçdiyi yeri xatırladır; ağaclarını qırdıqları, meşələrini yandırdıqları, qalalarını qana boyadıqları, torpağına sümük və kəllələr basdırdıqları bir yer. Lakin o, ömrünün sonunadək sakit, səssiz və əmin qalmaqda davam edir. Dövrlər bir-birini əvəz etsə də, bahar baharlığında, payız payızlığında qalır... İndi artıq iş işdən keçib, biz nə etməliyik? Söylə, biz nə etməliyik? Nə vaxt ayrılıb, nə zaman görüşməliyik? Bəlkə, biz məhəbbəti gecə ilə gələn, sabahla gedən qərib bir qonaq hesab edirik?! Bəlkə, bizə elə gəlir ki, bu dəyərli və əvəzedilməz bir hiss qısamüddətli mürgünün bizə göstərdiyi, sonra gerçəkliyin bizdən gizlətdiyi şirin bir yuxudur?! Bəlkə də biz düşünürük ki, bu həftə bitmək bilməyən oyanışla müşayiət olunan məstedici və valehedici bir andır?!... Başını qaldır, sevgilim! Qaldır ki, gözlərini görüm! Dodaqlarını aç ki, səsini eşidim! Danış, mənimlə söhbət et, məni hər şeydən agah et! Tufan gözəl günlərimizin

---

[1] *Quran-Kərimdə Adəm və Həvva hekayətinə işarədir.*

gəmisini batırdıqdan sonra sən hələ də məni xatırlayacaqsanmı? Gecənin səssizliyində qanadlarımın çırpıntısını eşidəcəksənmi? Üzünə və boynuna zərif təmasımı hiss edəcəksənmi? Ağrı ilə çoxalan, yanğı ilə dərinləşən ahımı duyacaqsanmı? Gecənin kölgələri ilə gələn, səhərin dumanı ilə çəkilən xəyalımı görəcəksənmi? Söylə, sevgilim, söylə, səndən sonra mənə nə olacaq? Axı, sən mənim gözlərimin nuru, qulaqlarımın nəğməsi, ruhumun qanadlarıydın. Bundan sonra mənə nə olacaq?

Mən cavab verdim; qəlbimin param-parça olmuş qırıntıları gözlərimə səpələnmişdi:

– Mən sənin olacağam, Səlma, məni görmək istədiyin kimi olacağam!

O dedi:

– İstəyirəm ki, məni sevəsən, son günlərimədək sevəsən. Özünün qəmgin fikirlərini sevən şair kimi sevəsən. İstəyirəm ki, məni xatırlayasan. İçməmişdən öncə lal çeşmədə öz əksini görən yolçu kimi, dünyaya göz açmamış bətnində ölən körpəsini xatırlayan ana kimi xatırlayasan. İstəyirəm ki, məni düşünəsən. Əfv etməmişdən öncə can verən məhbusu düşünən ədalətli şah kimi düşünəsən. İstəyirəm ki, mənə qardaş, dost, həmdəm olasan. İstəyirəm ki, atamı tez-tez ziyarət edəsən, təkliyində ona təsəlli verəsən. Çünki mən nə qədər yaxın olsam da, onu tərk edəcəyəm və ondan uzaq olacağam.

Mən dedim:

– Mən bütün bunları edəcəyəm, Səlma! Ruhunu ruhumla bəsləyəcək, qəlbimi gözəl camalının məskəni, sinəmi üzüntünün qəbri edəcəyəm. Mən səni sevəcəyəm, Səlma, çöllərin baharı sevdiyi kimi sevəcəyəm. Günəşin istisi ilə bəslənən güllərin, çiçəklərin həyatını səndə yaşadacağam. Kəndin

kilsə zəngləri vadidə əks-səda verən kimi mən də adını eləcə təkrar-təkrar bağıracağam. Sahil dalğaların hekayətini dinləyən kimi mən də sənin könül hekayətini dinləyəcəyəm... Mən səni daim xatırlayacağam, Səlma! Doğma vətənindən uzaq düşmüş tənha və yalqız qərib tək, ləziz yeməyə həsrət qalmış ac və zavallı fəqir tək, keçmiş şan-şöhrətini arzu edən taxtdan devrilmiş şah tək, azadlıqda olduğu anları xatırlayan zavallı, biçarə dustaq tək xatırlayacağam. Səni düşünəcəyəm! Zəhmətə qatlaşan kəndli hörük-hörük sünbüllərin boy atmasını, məhsulunun bol olmasını, çoban yaşıl otlaq və şirinsulu bulağın olmasını düşünən kimi mən də səni eləcə düşünəcəyəm.

Mən danışırdım. Səlma isə gözlərini gecənin zülmət qaranlığına zilləyərək arabir dərindən köks ötürürdü. Onun qəlbinin döyüntüləri gah sürətlənir, gah da yavaşıyırdı. Sinəsi dəniz dalğaları kimi gah qalxır, gah da enirdi. Sonra üzünü mənə sarı çevirib dedi:

– Sabah gerçəklik xəyal, oyanış isə yuxu olacaq. Həsrət çəkənə xəyalı qucmaq bəs edərmi? Susuz olan yanğısını yuxudakı bulaqda söndürə bilərmi?

Mən ona cavab verdim:

– Sabah tale səni mehribanlıq və əmin-amanlığın hökm sürdüyü ailənin ağuşuna atacaq, məni isə dünyanın qətl və mübarizə dolu meydanına sürükləyəcək. Sən camalının gözəlliyindən, ruhunun paklığından məsud olacaq bir insanın evinə qədəm qoyacaq, mənsə günlərin üzüntüsü ilə əziyyət verdiyi, kabusları ilə qorxuya saldığı bir yerə sığınacağam. Sən həyata, mənsə yoxluğa, sən insanların, dostların arasına, mən isə yalnızlığa, tənhalığa... Mən məhəbbəti ölüm kölgəsinin düşdüyü vadidə ucaldaraq, ona ibadət edəcəyəm. Mən məhəbbəti özümə həmsöhbət edəcəyəm, bir müğənni tək onu dinləyəcə-

yəm, bir şərab kimi onu içəcəyəm, bir libas kimi onu geyəcəyəm. Şəfəq göy üzünə saçıldıqda məhəbbət məni yuxudan oyadacaq və məni uzaq çöllərə aparacaq. Günorta çağı o, məni ağacların kölgə saldığı yerə götürəcək və mən günəşin yandırıcı istisindən qorunmaq üçün sərçələrlə birgə orada daldalanacağam. Axşam günəşin batdığı yerə gətirib, təbiətin işıqla vidalaşma nəğməsini dinlədəcək və insana rahatlıq aşılayan səmada dolaşan kölgələri göstərəcək. Gecə isə məni isti ağuşuna alaraq qucacaq və mən şair və aşiqlərin ruhlarının sakin olduğu ülvi bir dünyada sakit və rahat bir yuxuya dalacağam. Bahar çağı mən təbiəti seyrə çıxacağam, məhəbbət də mənim yanımda olacaq. Biz təpələr və yamaclar arasında nəğmə deyə-deyə yol boyu bənövşə və qızılgül bitirən həyatın izi ilə gedəcəyik, nərgiz və zanbaq kasalarından yağış suyu içəcəyik. Yayda mən və məhəbbət başımızı saman tayına söykəyərək otun üzərində yatacağıq, ay və ulduzların keşik çəkdiyi göy səma isə bizim yorğanımız olacaq. Payızda biz üzümlüyə gedəcəyik və üzüm çəkilən çənlərin yanında oturaraq ağacların qızılı libaslarını çıxardığını izləyəcəyik. İsti sahillərə dəstə-dəstə uçuşan quşlara tamaşa edəcəyik. Qışda isə mən və məhəbbət isti ocaq başında oturaraq ulu babalarımızın müxtəlif millətlər haqda ağızdan-ağıza ötürdükləri hekayətlərini dinləyəcəyik. Gəncliyimdə məhəbbət mənim tərbiyəçim, yol göstərənim, yetkinliyimdə köməkçim, qocalığımda isə munisim olacaq. Məhəbbət ömrümün sonunadək mənimlə olacaq, Səlma, ölüm məni haqlayanadək, Allah bizi qovuşduranadək...

İçimin dərinliklərindən fəryad qoparan kəlmələr elə güclü hayqırırdı ki, sanki qığılcımları ətrafa saçılan, sonra isə bu bağın qaranlığında gözdən itən bir məşəl idi. Səlma məni diqqətlə dinləyir, göz yaşları isə damla-damla gözlərindən

tökülürdü. Sanki onlar sözlərimə damcıları ilə cavab verən dodaqları idi.

Məhəbbətin qanad taxmadığı kimsələr bu sehrli dünyanı görmək üçün buludlar üzərinə qalxa bilmirlər. Elə bir dünya ki, onun səmasında bu kədərli dəqiqələrdə Səlmanın və mənim ruhlarımız həm sevincdən, həm də ağrıdan uçuşurdu. Məhəbbətin ardınca getməyən kimsələr o danışarkən onu duymazlar belə. Bu hekayə onlar üçün qələmə alınmayıb. Hərgah onlar bu azacıq səhifələrdəki mənaları dərk edib anlasalar da, mürəkkəbdən libas geyməmiş və vərəqdə yerini tutmamış sətirarası kölgə və xəyalları görmək iqtidarında deyillər. Lakin hansı bəşər övladı ilk badəsində məhəbbət şərabını dadmayıb ki?! Hansı könül hisslər, arzular və sirlərlə dolu qapısı kilidli qəlbdə ucaldılmış nur saçan büt qarşısında ürkək və pərişan durmayıb ki?! Səhər hansı çiçəyin yarpaqları üzərinə şeh damcıları damızdırmayıb ki?! Hansı çay yolunu azaraq dənizə tərəf axmayıb ki?!

O an Səlma başını qaldırdı. Ulduzların sayrışdığı səmaya doğru əllərini uzadaraq fəryad etdi; onun gözləri ağlamaqdan şişmiş, dodaqları isə tir-tir əsirdi. Saralmış bənizində məzlum qadının çəkdiyi bütün əzab-əziyyət, şikayət və ümidsizlik əks olunmuşdur. O hayqırdı:

– Ey, rəbbim! Qadın nə edib ki, sənin qəzəbinə tuş gəlib? Nə günah işlədib ki, sənin qəzəbin onu ömrünün sonunadək qarabaqara izləyir? O, necə bir dəhşətli günah işlədib ki, onu cəzalandırmağının sonu yoxdur? Rəbbim, sən güclüsən, o isə zəifdir. Onda, bəs nədən cəfa və iztirab çəkdirməklə onu məhv edirsən? Rəbbim, sən əzəmətlisən, o isə sənin ərşin ətrafında sürünən aciz bir bəndədir. Niyə ayaqların altında onu tapdalayırsan? Sən çovğunsan, o isə qarşında qal-

xan toz dumanıdır. Nədən onu qar dənəcikləri kimi ətrafa səpələyirsən? Sən nəhəngsən, o isə zavallıdır. Nədən onunla savaşırsan? Sən hər şeyi görən və bilənsən. O isə yolunu azmış biçarə kordur. Nədən onu məhvə sürükləyirsən? Sən onu məhəbbətdən yaratdın, bəs niyə məhəbbətlə öldürürsən? Bir əlinlə yüksəldirsən, digəri ilə nədən məhvə sürükləyirsən? O, cahildir, onu necə qaldırıb, necə endirdiyini anlamır. Onun dodaqlarını həyat mehi ilə oxşayıb, qəlbinə ölüm toxumları səpirsən. Səadət yolunda onu piyada yürüdürsən, atlı ikən onu ovlayıb tələyə salmaq üçün bədbəxtlik göndərirsən. Onun səs tellərində fərəh nəğməsi səsləndirirsən, sonra dodaqlarını qüssə ilə kilidləyir, dilini kədərlə düyünləyirsən. Görünməz barmaqlarınla onun ağrılarını xəfiflədib xoşagələn edirsən. Görünən barmaqlarınla isə onun nəşəsini qaralayırsan. Onun yatağında rahatlıq və salamatlıq gizlədirsən, yatağının başında isə keşik çəkməyə qorxu və qayğını qoyursan. Öz iradənlə onda şövq və ehtiras oyadırsan, iradənlə də bu ehtirasda eyib və zəlalət doğurursan. Öz istəyinlə ona yaratdıqlarının gözəlliyini göstərirsən, istəyinlə də yaxşılığa və gözəlliyə olan sevgisinə qıyır, fəlakətə sürükləyirsən. Şəriətinlə ruhunu gözəl bədənlə qovuşdurdun, hökmünlə isə bədənini həqarət və rüsvayçılıq aləti etdin. Sən ona ölümü həyat badəsində, həyatı isə ölüm badəsində daddırırsan. Göz yaşları ilə onu saflaşdırır, göz yaşları ilə də günaha batırırsan. Sən onun qarnını ər çörəyi ilə doyuzdurursan, sonra hər tikəsini burnundan gətirirsən. Sən, sən, rəbbim, mənim gözlərimi məhəbbət üçün açdın, məhəbbət naminə də yumdun. Sən məni dodaqlarınla öpdün, güclü əlinlə isə şillələdin. Sən mənim qəlbimdə ağ qızılgül bitirdin, lakin bu qızılgülü tikanlı və iynəli etdin. Sən mənim bu günümü sevdiyim bir gəncin ruhuna və tanımadığım bir insa-

nın bədəninə qandalladın. Mənim günlərimi artıq yazmışsan. Kömək et, bu ölüm-dirim savaşında güclü olum! Yardım et, ömrümün sonunadək saflığımı və əminliyimi qoruyub saxlayım! Qoy hər şey sənin iradənlə olsun! Adın daim mübarək olsun!

Səlma susdu, lakin onun üz cizgiləri hələ də danışmaqda davam edirdi. O, başını azacıq önə əyib, əllərini yanına salladı. Gövdəsi süst düşdü. Sanki həyat gücü onu tərk etdi. Donuq nəzərləri zamanın ayaqları altında quruyaraq yox olması üçün şiddətli küləyin qoparıb uçuruma yuvarladığı körpə budaq kimiydi. Səlma bumbuz olmuş əlləri ilə od tutub yanan əllərimi götürərək zərif barmaqları ilə gözlərimə və dodağıma sığal çəkdi. Mən sözlərimlə ona təsəlli vermək istədim. Lakin düşündüm ki, susmaq təsəlli verməkdən və şəfqət göstərməkdən daha yaxşıdır. Utancaq halda susdum. Susarkən ürək döyüntülərimi eşidirdim, mənə elə gəlirdi ki, onlar hisslərimlə oyun oynayır. Ürəyim sanki ağzıma gəlmişdi[1], özüm-özümdən qorxmağa başladım.

Biz qalan bütün gecəni bir söz belə söyləməyib susduq. Çünki cəfa artdıqca insan lal olur. Zəlzələdən sonra təkcə baş daşları qalmış iki tənha qəbir kimi hərəkətsiz qalaraq dərin sükuta daldıq. Heç birimiz digərinin danışmağını istəmirdi, çünki qəlbimizin bağları o qədər zəifləmişdi ki, danışmadan köks ötürmələr onları qırmağa kifayət idi.

Gecə yarı oldu. Səssizliyin dəhşəti getdikcə çoxalırdı. Sanin dağı arxasından bədirlənmiş ay boylandı. Skamyalara əksi düşən ay qəbirin ətrafına sancılmış balaca şamlar kimi parlaq ulduzlar arasında meyit üzü kimi solğun və donuq

---

[1] *«Ürəyim düşdü» ifadəsinin dilimizdə ekvivalenti hesab oluna bilər.*

görünürdü. Livan illərin belini bükdüyü, kədərin heykəlini diz üstə çökdürdüyü, gecəni keşik çəkməklə keçirən, sübh çağını taxtdan salınmış şah tək qəsrinin xarabalıqları arasında uçmuş taxtının yanında oturaraq gözləyən Lut peyğəmbəri xatırladırdı. Zamanın və hadisələrin bir-birini əvəzləməsi ilə dağlar, ağaclar və çaylar onun görkəmini dəyişmişdi: düşüncələr və fikirlərin dəyişməsi ilə insanın üz cizgiləri dəyişdiyi kimi. Gündüzlər xəfif mehin oynadığı və çay qırağına gözəl gəlin tək dikilən ağ qovaq ağacları axşamlar ətrafa yayılan duman sütunları kimi boy verirdi. Günortalar tale oyunlarına məhəl qoymadan Zöhrə[1] boyunca düzülən və nəhəngləri xatırladan böyük qayalıqlar gecələr zavallı fəqir tək nəm torpaq üzərində uzanır, üzərini isə açıq səma örtürdü. Səhərlər yapışqan bal kimi bərq vuran və əbədiyyət nəğməsi oxuyan kiçik çayların axşamlar vadinin təpələri arasında fışqıran sel kimi göz yaşlarına qərq olunduğunu düşünür, körpəsini itirmiş ana tək ağlayaraq fəryad qopardığını duyurduq. Bir həftə boyunca bütün əzəməti və cah-cəlallı əlvan görkəmi ilə qarşımızda canlanan Livan ayın bədirləndiyi və könlün məmnun olduğu o gecə göy üzündə sərgərdan dolaşan paralanmış balaca ay və sinədə sürətlə çırpınan zəif qəlb qarşısında pərişan və üzgün görünürdü.

Biz vidalaşmaq üçün ayağa qalxdıq. Aramızda iki böyük kölgə – məhəbbət və kədər dayanmışdı. Biri öz qanadları ilə başımızın üzərini almış, digəri isə caynaqları ilə boğazımızdan yapışmışdı. Biri dəhşət və qorxu içərisində göz yaşlarına boğularaq ağlayır, digəri isə istehza ilə acı-acı gülümsəyirdi. Səl-

---

[1] *Zöhrə və yaxud Venera – Günəş sistemində ən parlaq üç ulduzdan biridir.*

manın əlini götürüb xeyir-dua almaq üçün dodaqlarıma yaxınlaşdırdıqda mənə sarı dönərək, alnımdan öpdü. Sonra skamyaya halsız düşərək gözlərini yumdu və astadan pıçıldadı:

– Rəhm et, rəbbim, qırılmış qanadlara güc ver!

Səlmadan ayrılıb bağdan çıxıb getdikdə hiss etdim ki, gölün üzərini alan çiskin kimi mənim də hissiyyatım üzərinə sıx toxunmuş bir duvaq çəkilib. Gedərkən mənə elə gəlirdi ki, yol boyu düzülən ağacların kölgələri önümdə hərəkət edir. Sanki məni qorxutmaq üçün yerin deşiyindən çıxmışlar. Ayın zəif işıltısı budaqlar arasından elə sayrışırdı ki, sanki göydə uçuşan cinlərin ruhlarının lələk taxaraq sinəmə tuşladığı dümdüz oxlardır. Zülmət qaranlıq özünün ağır qara əllərini çiynimə qoymuş kimi üzərimə bir ağırlıq çökmüşdür. Bütün varlıq, həyatın mənası, ruhun sirləri böyüyərək vahimə aşılayırdı. Dünyanın gözəlliyini, kainatın möhtəşəmliyini mənə göstərən şölə içimi yaxıb-yandıran, ruhumu öz tüstüsünə boğan bir atəşə çevrilmişdir. Yaranış səslərinin müşayiəti ilə ilahi bir musiqi tək səslənən nəğmə bu saatda aslanın qorxunc nəriltisi, cəhənnəmin ürpədici çığırtısı kimi vahiməli səslənirdi.

Mən mənzilimə çatdım. Ovçu tərəfindən vurularaq sinəsini dəlmiş oxla çəpərin dibinə düşüb qalan yaralı quş kimi bihuş halda çarpayıya yıxıldım. Ağlım qorxunc gerçəkliklə kabuslu yuxu arasında uçuşurdu. Ruhum bu iki hal arasında çırpınaraq Səlmanın sözlərini təkrarlayırdı: «Rəhm et, rəbbim, qırılmış qanadlara güc ver!»

Ölüm yatağında

Bu günümüzə xas evlilik gənc oğlanların gənc qızların ataları ilə birgə gördükləri gülməli və eyni zamanda ağlamalı bir ticarətdir. Bir çox məmləkətlərdə oğlanlar evlilikdən xeyir

götürürlər, atalar isə daim ziyana uğrayırlar. Mal kimi bir evdən digərinə köçürülən gənc qızlar öz gözəlliklərində qalsalar da, vaxt gəlir köhnəlmiş əşya kimi evin bir küncündə tədrici ölümə məhkum olurlar.

Bu günümüzün şəhər mühiti qadının dünyagörüşü baxımından inkişafına müəyyən dərəcədə təkan versə də, kişinin istəklərinə uyğunlaşmaq məcburiyyətində qalması onun iztirablarını artırır. Əgər keçmişdə qadın xoşbəxt kəniz idisə, bu günümüzdə o, bədbəxt xanımdır. Dünən o, gündüz işığında gəzən kor idisə, indi gecənin zülmətində yol axtaran gözlüdür. Əvvəllər o, gözəl olsa da, gözəlliyinin fərqinə varmırdı. Öz məsumluğu ilə üstün, öz zəifliyi ilə güclü idi. Bu gün isə o, səthi idrakı ilə necə də çirkindir. Öz zəkası ilə qəlbindən necə də uzaqdır. Görəsən, elə bir gün gələcək ki, qadında gözəllik elmiliklə, kamillik üstünlüklə, zəif cisim güclü ruhla birləşsin? Mənəvi tərəqqi insana bir yuxu kimi gəlir. Kamala yaxınlaşma ləng başlanğıc olsa da, realdır. Əgər qadın bir şeydə yüksəlir, başqa bir şeydə geriləyirsə, bu ona görədir ki, dağın zirvəsinə aparan yolda hər addımbaşı oğruların pusquları və canavar mağaraları var. Qış yuxusundan təzəcə oyanmağa başlayan, keçmiş və gələcək nəsillərin torpağını ovcunda sıxan, öz istəkləri və arzuları ilə qərib olan bu dağın ətəyində yerləşən şəhər öz varlığı ilə gələcəyin qızını təmsil edən qadınından xali deyildi. Səlma Kəramə Beyrutda Şərq qadınlarının rəmzi idi, lakin o da öz zamanını haqlaya bilməyən çoxları kimi bu günümüzün qurbanı olmuşdur. Çay axınının yuyub-apardığı Zöhrə kimi o da həyat yolunda uçuruma doğru sürüklənmişdir.

Mənsur bəy Qalib Səlma ilə evləndi. Onlar Beyrutun girəcəyində dəniz sahilində zəngin və kübar ailələrin sakin olduğu dəbdəbəli bir evdə qərar tutdular. Faris Kəramə isə öz

sürüsü ilə tək qalan çoban kimi bağ və bostanla əhatələnmiş yalqız evində tənhalığa çəkildi. Toy günü, sevinc dolu gecələr keçib getdi. Döyüş qəhrəmanları uzaq səhrada çox sayda ölü qoyub getdikləri kimi, bal ayı da beləcə keçərək arxasında iztirab və zəhər dolu aylar qoydu...

Şərq toylarının təmtərağı və dəbdəbəsi gənc qız və oğlanları qartal kimi buludlaradək yüksəldir, sonra dəyirman daşı kimi dənizin dibinə atır. O, qumsaldakı ayaq izlərinə bənzəyir: dalğa yumamış getmir.

Yaz keçdi, ardınca yay gəldi, sonra payız fəsli yetişdi. Mənim Səlmaya duyduğum sevgi yeniyetmə çağlarında gözəl qadına vurulmuş bir gəncin ehtiras hissinin güclənərək səhrada yaşayan anasının ruhunu ilahiləşdirib ona səcdə edən yetim bir gəncin koranə ibadəti halına gəlmişdir. Bütün varlığımı ələ alan məhəbbət özündən başqa heç nəyi görməyən kor üzüntüyə çevrilmişdir. Gözlərimdən yaşlar axıdan bu şövq indi qəlbimdən qan damızdırırdı. İçimə dolan bu ehtirasın fəryadı ruhumun göylər qarşısında səadət məbədi kimi Səlmaya, qibtə mənbəyi kimi həyat yoldaşına və etimad mənbəyi kimi atasına lal ibadəti idi. Lakin nahaqdan mənim canım yanır, yalvarır və ibadət edirdim. Çünki Səlmanın bədbəxtliyi yalnız ölümün çarə ola biləcəyi könül xəstəliyi idi. Onun yoldaşı həyatın bəxş etdiklərini yorulmadan əldə etməyə can atan, heç nə ilə qane olmayan, daim onun olmayana tamah salan və beləliklə də, ömürlərinin axırına kimi öz tamahlarının əsiri olan kəslərdən idi. Mən nahaqdan Faris Kəraməyə rahatlıq arzulayırdım. Kürəkəni qızı ilə evləndikdən və hədsiz var-dövlətinə yiyələndikdən sonra onu nəinki unutdu və tərk etdi, hətta qalan sərvətinə sahiblənmək üçün gecə-gündüz ölməyini diləyirdi.

Mənsur bəy öz əmisi arxiyepiskop Bulus Qalibi xatır-

ladırdı: onun əxlaqına oxşar bir əxlaqa sahib idi. Özü də onun kiçildilmiş surəti idi. Onlar arasında yeganə fərq riyakarlıqla alçaqlıq arasında olan fərq kimi idi. Arxiyepiskop Bulus Qalib öz istəklərini bənövşəyi keşiş əbası altında məharətlə pərdələyirdi. O, özünün hədsiz tamahını boynundan asdığı qızıl xaçla bəsləyirdi. Qardaşı oğluna gəlincə, o, bunu açıq-aydın, özü də zor gücünə edirdi.

Arxiyepiskop səhərlər kilsəyə gedir və günortayadək yetim, məzlum və sadəlövh insanların nəzir-niyazlarını yığmaqla məşğul olurdu. Mənsur bəyə gəlincə, o, məzlumlardan yığılan bu pulların hesabına kef sürərək əylənir, ətrafındakı havanı özünün murdar nəfəsi ilə korlayırdı. Hər bazar günü Bulus Qalib mehrab qarşısına keçərək, öz moizələrində möminləri onun öyüdlərinə qulaq verməyə, ölkəsinin siyasi həyatında aktiv iştirak etməyə, vətəni üçün yararlı olmağa səsləyirdi. Qardaşı oğlu isə bütün gününü əmisinin vəzifəli şəxslər və zadəganlar arasındakı nüfuzundan istifadə edərək onların yanında qulluğa girirdi. Arxiyepiskop gecə örtüyü altında gizlicə iş görən oğru, qardaşı oğlu isə gündüz işığında sinəsinə döyə-döyə gəzən dələduz və fırıldaqçı idi. Sürü canavarın köpək dişindən və qəssabın iti bıçağından məhv olduğu kimi camaat da oğrularla dələduzların əlində məhv olub gedirdi. Şərq millətləri yalançı, fırıldaqçı və düşkün xislətli insanlara təslim olmuşdu. Onlar geri çəkilmək istədikdə uçuruma yuvarlanırdılar. Fələk isə onların üzərindən keçərək ayaqları altında əzib məhv edirdi. Eynilə dülgər qabları dəmir çəkiclər altında əzilən kimi. Görəsən, məni kitabımın bu səhifələrini məzlum və biçarə insanlar haqda sözlərlə doldurmağa nə vadar edir?! Axı mən bu səhifələri bədbəxt və zavallı bir qadının hekayətini yazmaq, məhəbbətin nəşə daddırmadan

üzüntüsü ilə sillə vurduğu incik və yaralı qəlbin xəyallarını təsvir etmək üçün ayırmışam. Nədən məzlum xalqımı düşünəndə gözlərim dolur? Halbuki həyatın qucmadan ölümün ağuşuna atdığı o zavallı və gücsüz qadının yaşadıqlarını xatırladıqca gözlərimdə yaşlar quruyur, donub qalıram. Məgər bu zəif qadın məzlum xalqın rəmzi deyilmi?! Könlünün istəkləri ilə bədəninə vurulan qandallar arasında çırpınan bu qadın hakimlər və din adamlarının əli altında əzilən əzabkeş xalq kimidir. Məgər gözəl gənc qızla birgə qəbirin zülmətinə gömülən gizli hisslər və həyəcanlar insanların həyatını torpağa gömən qasırğa kimi deyilmi?! Xalqın içərisindən çıxan qadın ətrafa yayılan çıraq işığı kimidir. Əgər yağı kifayət qədərsə, şöləsi az ola bilərmi?!

* * *

Payız günləri gəlib keçdi. Fırtına dəniz köpükləri ilə oynadığı kimi külək də eləcə ağacları soyunduraraq saralmış yarpaqları ilə oynayırdı. Nəhayət, hönkür-hönkür ağlayan qış gəldi. Mən onda Beyrutda idim. Arzularımdan başqa həmdəmim yox idi. Onlar bəzən məni göylərə qaldıraraq ta ulduzlaradək yüksəldir, bəzənsə qəlbimə endirərək yerin təkinə gömürdü. Yaralı ceyran dəstəsindən ayrı düşüb sağalana və ya ölənədək öz sığınacağından çıxmadığı kimi üzgün qəlb də eləcə rahatlığı yalnızlıqda, hər kəsdən uzaqlaşaraq tənhalığa çəkilməkdə görür. O gün eşitdim ki, Faris Kəramə xəstələnib. Yalnızlığımı tərk edərək onu yoxlamağa getdim. Yol boyu qurğuşun rəngdə olan yarpaqlarında yağış damcılarının bərq vurduğu zeytun ağacları düzülmüş kimsəsiz xiyabandan piyada keçərək, nəhayət, şeyxin evinə çatdım. Ətrafın səssizliyini pozan minik arabalarının qulaqbatırıcı səs-küyündən uzaqlaş-

maq üçün bu yolu seçdim. İçəri daxil olanda onu taqətsiz halda çarpayıda uzanan gördüm. Onun bənizi solğun və saralmış idi. Gözləri sanki çuxura düşmüşdü. Onlar ağrı və iztirab kölgələrinin dolaşdığı qaranlıq və dərin bir quyunu xatırladırdı. Dünənədək mehribanlığın və nəşənin ünvanı olan cizgilər büzüşmüş, tutqunlaşmışdır. Onlar xəstəliyin qəribə və dolaşıq sətirlər yazdığı əzilmiş vərəqi xatırladırdı. Həmişə qayğıkeşcəsinə sıxılan o iri və güclü əllər o qədər arıqlamışdır ki, dərinin altından görünən sümüklər zərif meh qarşısında tir-tir əsən yarpaqsız budaqları xatırladırdı. Şeyxə yaxınlaşıb halını sorduqda rəngi qaçmış üzünü mənə sarı çevirdi. Onun qurumuş titrək dodaqlarında hüzn dolu gülüşün kölgəsi göründü. Divarın o tayından gələn xəyaldan qorxurmuş kimi astadan dilləndi:

– Get, oğlum, o biri otağa get! Səlmanın göz yaşlarını sil! Onu sakitləşdir! Sonra qayıt gəl və yanımda otur!...

Mən üzbəüz otağa girdikdə Səlmanı çox da böyük olmayan divanda uzanan gördüm. Başını qolları arasına almış, üzünü divanın qoltuğuna söykəmişdi. Atası hönkürtüsünü eşitməsin deyə, hıçqırtısını boğmağa çalışırdı. Mən yavaşca ona yaxınlaşdım. Yarı köks ötürməyə, yarı pıçıltıya bənzər bir səslə adını çəkdim. O, kabus görürmüş kimi narahat halda tərpəndi. Arxaya dönərək yerində dikəldi. Sanki bu an burada həqiqi olmasına inanmadığı röyalar aləmindən gəlmə bir xəyal görürmüş kimi donuq gözləri ilə mənə baxdı. Ortalığa çökən dərin sükutdan sonra onun sehrli təəssüratı ilə ilahi meydən xumarlandığımız o ana qayıtdıq. Səlma barmaqlarının ucu ilə göz yaşlarını silərək həzin-həzin dedi:

– Görürsən, günlər necə dəyişdi?! Görürsən, fələk bizləri yolumuzdan necə azdırdı?! Biz dəhşət doğuran uçuruma doğru sürətlə yuvarlanırıq. Bahar bu məkanda bizi məhəbbətlə

sarmışdır. İndi isə həmin bu məkanda qış bizi ölüm yatağı ətrafına toplayıb. Bu günorta çağı necə də gözəldir, bu gecə necə də zülmət qaranlıqdır.

O, bu kəlmələri söyləyərkən özünə hakim ola bilmirdi: sözləri hıçqırtı ilə kəsilirdi. Sonra əli ilə üzünü örtdü. Sanki istəmədiyi halda keçmiş onun gözləri qarşısında canlanmışdı. Əlimlə onun saçlarını oxşayaraq dedim:

– Gəl, Səlma, gəl, qasırğanın önündə qaya tək dimdik duraq! Gəl, düşmən qılıncına arxa çevirməyib şanlı ordu tək sinə gərək! Əgər məğlub olsaq da, şəhid kimi ölək! Qalib gəlsək, qəhrəman kimi yaşayaq!... Nəfsin çətinliklər və maneələr qarşısında mətanətlə çəkdiyi iztirablar firavan və sakit həyat naminə geri çəkilməkdən daha şərəflidir. Kəpənəyin qanadını yandıran çırağın ətrafında pərvaz etməsi onun sağ qalmaq naminə qaranlıq yuvasında əbədi qalmasından daha alidir. Qışın ayazına tab gətirməyən toxum torpağa basdırılsa da, boy atmır, aprelin gəlişi ilə cücərmir. Gəl, Səlma, iri və iti addımlarla bu qorxulu yolda addımlayaq! Qayalıqlar arasına atılmış insan kəllələrini, tikanlıqlar arasında sürünən ilanları və gürzələri görməmək üçün başımızı günəşə doğru qaldıraraq, dik tutaq! Əgər qorxu yarı yolda bizi saxlayarsa, gecə kabuslarının və kölgələrinin arxamızla acı-acı istehza etdiyini eşitmiş olarıq. Əgər biz qorxmadan dağın başına qalxarıqsa, göyün bütün ruhları bizi zəfər marşı ilə müşayiət edər və biz qalib gələrik... Özünə gəl, Səlma, göz yaşlarını sil və üzünə çökmüş bu üzüntünü gizlət! Qalx, gedək, atanın yanında oturaq! Onun həyatı sənin həyatındır, onun dərmanı sənin təbəssümündür.

O, mənə şəfqət və qayğıkeş dolu nəzərlərlə baxaraq dedi:

– Sən məndən səbir və dözüm tələb edirsən, gözlərində

isə inamsızlıq və ümidsizlik parlayır. Məgər ac və səfil birisi öz çörəyini başqa zavallıya verərmi?! Xəstə birisi çox ehtiyacı olduğu halda öz dərmanını başqa xəstəyə verərmi?!

Səlma ayağa qalxdı. Önümdən keçərək atasının otağına sarı boylandı. Biz xəstə şeyxin yatağına yaxınlaşıb, yanında əyləşdik. Səlma üzünə yalançı təbəssüm maskası taxaraq gülümsünürdü. Sanki bununla sakitləşdiyini söyləməyə çalışırdı. Şeyx də öz növbəsində özünü ələ alıb, daha sağlam və güclü olduğunu göstərirdi. Hər ikisi digərinin iztirabını hiss edir, gücsüz olduğunu bilirdi; bir-birinin qəlb yanğısını duyur, fəryadını, hayqırtısını eşidirdi. Hər ikisi eyni halda idilər: bir-birini səssizliklə məhv edirdilər.

Ağır xəstə olan ata qızının bədbəxtliyini görə-görə gün-gündən əriyib gedirdi. Sevimli övladı isə atasının xəstəliyindən get-gedə solurdu. Köçüb gedən və ümidini itirmiş iki can ölüm və məhəbbət qarşısında bir-birini qucan iki can kimiydi. Mən də onların arasında həm öz duyduqlarımdan, həm də onların yaşadıqlarından dolayı iztirab çəkirdim. Şeyx selin yerlə yeksan etdiyi köhnə bir daxmanı, qızı orağın biçdiyi zanbağı, gənc oğlan isə qarın altında boynunu bükən zəif və cılız tingi xatırladırdı. Biz hamımız fələyin əlində oynatdığı oyuncağa bənzəyirdik. Qəzavü-qədər öz əli ilə bu üçlüyü birləşdirdi, öz əli ilə də boğub öldürdü.

Şeyx qımıldanaraq yorğanın altında qalan arıq, büzüşmüş əllərini Səlmaya doğru uzatdı. Ata qəlbinə xas şəfqət və canıyananlıqla, köksünü dələn ağrı və acı dolu bir səslə dilləndi:

– Əlini əlimin üstünə qoy, Səlma!

Səlma əlini uzatdı. O, ehmalca onun əlini sıxaraq dedi:

– Mən yaşadığım həyatdan doymuşam, övladım! Mən

çox uzun bir ömür sürdüm və həyatın bəxş etdiyi hər bir şeydən ləzzət aldım. Uşaq ikən kəpənək qovaladım. Gənc ikən məhəbbətlə qarşılaşdım. Yaşlı ikən isə var-dövlət yığdım. Bütün bu çağlarda mən xoşbəxt və məsud oldum. Səlma, sən ananı üç yaşında olarkən itirdin. Anan mənə özündən sonra dəyərli bir xəzinə – səni qoyub getdi. Sən aypara tək tez böyüyüb boya-başa çatdın. Lal axan su çəlləyində ulduzların parlaq surəti əks olunduğu kimi sənin çöhrəndə də ananın cizgiləri eləcə əks olunub. Zərif və nazik örtü altından qızıl zinət əşyaları bərq vurduğu kimi ananın xilqəti və xasiyyəti də sənin davranış və sözlərində əksini tapıb. Qızım, təsəlli olsun deyə söyləyim ki, sən də anan tək gözəl və müdriksən!... Mən artıq yuxulayan ölümün qanadları arasına aldığı yaşı ötmüş qayğısız qocayam. Əmin edirəm ki, sənin həyatda kamil bir qadın olmağını görmək üçün indiyədək həyatda qalmışam. Ölsəm belə, sənin üçün həmişə sağ qalacağımı düşünmək məni sevindirir. Mən bu gün getməsəm də, sabah və ya başqa bir gün mütləq gedəcəyəm. Çünki günlərimiz topa-topa tökülərək günəşin önünə sərilən payız yarpaqları kimidir. Əgər dəqiqələr məni əbədiyyətə qovuşdurmağa tələsirsə, bu ondandır ki, ruhum ananla qovuşmağa can atır...

O, son sözlərini şirin həsrət və arzu dolu nəğmə tək tələffüz etdi. Onun kədərli və tutqun üzünə körpə gözlərinə xas şölə saçıldı. Sonra əlini uzadaraq yatağının baş ucundakı dolabçadan qızılı çərçivəyə salınmış, küncü barmaq izləri ilə azacıq əzilmiş, dodağa toxundurmaqdan kənarlarının naxışı silinmiş köhnə və balaca bir şəkil çıxardı. Gözlərini rəsmdən ayırmadan dedi:

– Mənə yaxın gəl, Səlma, yaxın gəl, övladım! Qoy ana-

nın şəklini sənə göstərim. Yaxın gəl və onun vərəqdəki kölgəsinə bax!

Səlma göz yaşlarını silərək atasına yaxınlaşdı. Göz yaşları arasından şəkil tutqun görünürdü. Sanki güzgüdə öz siması, üz cizgiləri əks olunurmuş kimi rəsmə uzun-uzadı, diqqətlə baxdı. Sonra onu dodaqlarına yaxınlaşdırdı. Rəsmi dərin ehtiras və hərarətlə təkrar-təkrar öpərək hönkürdü:

– Ana, ana, anacan!

Sanki çərçivədəki surəti özünün hərarətli nəfəsi ilə diriltməyə çalışırmış kimi rəsmi göz yaşları ilə islanmış titrək dodaqlarına toxundurarak təkrar-təkrar bu sözləri hayqırdı.

Bəşər övladının tələffüz etdiyi ən şirin söz «ana» kəlməsidir. Ən gözəl xitab isə «anam, anacan!» – dır. Sözün özü kiçik olmasına baxmayaraq, özündə ümid, məhəbbət, rəğbət, insan qəlbinə xas zəriflik, qayğıkeşlik, lətafət kimi ən gözəl hissləri ehtiva etməsi ilə böyükdür. Ana – bu dünyada hər şeydir. O, kədərli anında təsəlli, ümidsizliyində ümid, acizliyində güc, qüvvət, mehribanlıq, riqqət, şəfqət, bağışlanma mənbəyidir. Anasını itirən bir kəs başını söykəyəcək sinəni, ona xeyir-dua verəcək əli, onu qoruyacaq gözü itirmiş kimi olur...

Təbiətdə hər bir şey analığı şərtləndirir və ondan bəhs edir. Günəş Yerin anasıdır. Onu öz hərarəti ilə yemləyir, işığı ilə bəsləyir. Axşamlar belə dəniz dalğalarının nəğməsi, çayların şırıltısı, quşların cikkiltisi ilə yuxuya dalanadək onu tərk etmir. Yer doğurduğu, bəslədiyi, sonra isə döşündən ayırdığı ağacların və çiçəklərin anasıdır. Onlar isə öz növbəsində dadlı məhsulların və canlı toxumların anası olur. Bütün kainatda hər şeyin anası isə məhəbbət və gözəlliklə dolu əbədi və əzəli ruhdur[1].

---

[1] *Allaha işarədir.*

Səlma anasını tanımamışdı. Çünki anası o, körpə ikən vəfat etmişdi. Anasının rəsmini görüncə, ona «anacan!» – deyə səslənincə çox təsirləndi. O, bunu edərkən bütün varqüvvəsini topladı. Çünki «ana» kəlməsi bizim qəlbimizdə Yerin qəlbində gizli olan nüvə tək çox dərindədir. Qızılgülün köksünü yararaq aydın və yağışlı gündə ətrafa yayılan gözəl ətir kimi o da bizim dodaqlarımız arasından kədərli və sevincli anlarımızda eləcə çıxır.

Səlma rəsmə diqqətlə baxır, hərarət və acgözlüklə öpür, tövşüyən sinəsinə sıxaraq dərindən köks ötürür, hər ahı ilə öz gücündən bir parça da itirirdi. Əgər onun arıq və zəif bədənində həyat eşqi güclü olmasaydı, o, çoxdan xəstə atasının çarpayısına yıxılmış olardı. Şeyx əlini qızının başına qoyub dedi:

– Qızım, mən sənə ananın kağız parçası üzərindəki xəyalını göstərdim, indi isə izn ver, onun sözlərini çatdırım!

Budaqlar arasından ana sərçənin qanadlarının pırıltısını eşitcək yuvasında cikkildəşən bala sərçə kimi Səlma da eləcə başını qaldırdı. İtaətkarcasına atasına baxdı. Sanki onun bütün varlığı diqqətlə baxan məsum gözlərə və eşidən qulaqlara çevrilmişdi. Atası sözünə davam edərək dedi:

– Anan yaşlı atasını itirəndə sən südəmər körpə idi. O, bu itkidən çox üzülmüşdü. Hisslərinə hakim olaraq soyuqqanlılıqla ağladı. Onun qəbrinin yanından ayrılar-ayrılmaz həmin bu otaqda yanıma gələrək, əlimi yalnız ona xas sakit bir əda ilə götürüb dedi: «Atam öldü, Faris, mənə səndən başqa heç kəs qalmadı. Bu da mənim təskinliyimdir. Qəlb özünün dolubdaşmış hissləri ilə budaqlarının hərəsi bir tərəfə şaxələnmiş sidr ağacını xatırladır. Əgər sidr ağacı güclü bir budağını itirərsə, acı çəkər, amma ölməz. Onun həyat gücü qonşu budağa keçər. Qırılmış budağın yerinə təzə, cavan budaqlar yetişər, onlar boy atıb ucalar».

Bu, ananın atası ölərkən söylədikləridir, qızım! Bu, həm də ölümün cəsədimi rahat qəbirə uzadacağı və ruhumun Allahın hüzuruna çağırılacağı anda mənim söyləməli olduqlarımdır. Səlma çətinliklə cavab verdi:

– Anam atasını itirəndə ona sən qaldın. Bəs mən səni itirsəm, ata, mənə kim qalacaq? Onun atası öldü və o, etibar edəcəyi alicənab və sevəcən ərinin himayəsinə sığındı. Atası öldü, amma körpə başını sinəsinə söykədiyi, boynunu qolları arasında qucduğu körpəsi qaldı. Bəs səndən sonra mənə kim qalacaq, ata? Sən mənim həm atam, həm anam, bu günümün rəfiqi, gələcəyimin tərbiyəçisisən! Sən gedəndən sonra yerini kim tutacaq, səni kim əvəz edəcək?!

Səlma nəmli gözlərini mənə sarı çevirdi. Sağ əli ilə köynəyimin ucundan yapışaraq dedi:

– Ata, mənim bu dostdan başqa heç kimim yoxdur. Əgər sən məni tərk etsən, ondan başqa heç kəsim qalmayacaq. O, məni təsəlli edə biləcəkmi? Axı onun özü də üzgündür! Məgər qırıq qəlb digər qırıq qəlbə təskinlik verə bilərmi?! Göyərçin qırıq qanadla uça bilmədiyi kimi dərdli qadın da qonşusunun kədərinə qarşı səbirli ola bilmir. O, mənim sirdaşımdır, lakin onun çiyinlərinə o qədər dərd yükləmişəm ki, beli bükülüb. Göz yaşlarımla gözlərini o qədər deşmişəm ki, zülmət qaranlıqdan başqa heç nə görməz olub. O, mənim qardaşımdır. Mən onu çox sevirəm. O da məni bir bacı kimi çox sevir. O, başqa qardaşlar kimi mənim dərdimə şərik olsa da, onu yüngülləşdirmək iqtidarında deyil. O, sadəcə göz yaşı axıtmaqla mənə yardımçı olur. Göz yaşlarım getdikcə daha acı olur, qəlbimin yanğısı səngimək bilmir.

Səlmaya qulaq asdıqca hisslərim coşur, bağrım çatlayırdı. Mənə elə gəlirdi ki, indi ürəyim yerindən çıxacaq. Şeyx qızına baxır, onun üzülmüş bədəni isə yavaş-yavaş yastıqdan

yorğanın altına sürüşürdü. Onun ağır nəfəsi küləyin titrətdiyi fənər işığı kimi əsirdi. O, qollarını açaraq astadan dilləndi:

– Qoy rahat gedim, qızım! Gözlərim buludlar arxasından saçılan işıqdan elə qamaşıb ki, bir daha öz qaranlıq yuvalarına geri dönmək istəmir. Qoy uçum gedim! Bu, qəfəsin dəmir barmaqlıqları mənim qanadlarımı qırıb... Anan məni çağırır, Səlma, məni saxlama, qızım!... Gör, meh necə də ruhu oxşayır. Dənizin üzərini alan duman çəkilir, gəmilər yelkənlərini açıb səfərə çıxmağa hazırlaşır. Onları saxlama, məni onların sükanı arxasından uzaqlaşdırma! Qoy bədənim həyatdan köçmüşlərinki kimi rahat uyusun! Qoy ruhum oyansın, çünki dan yeri artıq sökülüb, yuxular tükənib... Ruhumu ruhunla öp!... Ümid və intizar dolu bir qayğıkeşliklə məni öp: kədərinin acısından bir qətrə də olsun üstümə axıtma! Otlar və çiçəklər hüznünün acısını dadmaq istəməzlər. Qüssə yaşlarını əlimin üzərinə tökmə! Onlar qəbrimin üzərində tikanlar bitirəcək! Ələm dolu ahınla alnımda sətirlər yazma! Səhərin zərif mehi onu oxuyacaq və sümüklərimin külünü özü ilə yaşıl çəmənliyə aparmayacaq! Qızım, mən səni həyatda ikən sevdim, öldükdən sonra da sevməkdə davam edəcəyəm! Ruhum səni qorumaq üçün daim yanında olacaq.

Şeyx sözlərini bitirər-bitirməz üzünü mənə sarı çevirdi. Onun göz qapaqları artıq yavaş-yavaş örtülürdü. Mən onun gözlərinin yerində kül rəngində iki xətdən başqa bir şey görmürdüm. O dedi, – səssizlik onun sözlərinə sirayət etmişdi:

– Sənə gəlincə, oğlum! Səlmaya qardaş ol, necə ki, mənə oğul oldun! Onun ən çox ehtiyacı olduğu anlarda yanında ol! Sonunadək ona vəfalı dost kimi qal! Onu üzülməyə qoyma, çünki ölülərin arxasınca yas saxlamaq keçmiş nəsillərin ən böyük yanlışlığıdır. Onun qulaqlarına xoş, ürəkaçan sözlər pıçılda, onu təsəlli et! Qol-qanad, ürək-dirək ver!... Atandan

soruş, gör, məni xatırlayırmı? Soruş və o, sənə gənc ikən bizi buludlaradək uçurdan birgə keçirdiyimiz günlərdən danışacaq. Ona de ki, mən onu həyatımın son dəqiqələrində oğlunun şəxsində daha çox sevdim...

O, bir anlıq susdu. Onun sözləri sanki otağın divarlarında əks-səda verirdi. Sonra Səlmaya və mənə eyni anda baxaraq astadan pıçıldadı:

– Həkim çağırmayın! Qoymayın ki, özünün həbləri ilə mənim dustaqlığımı daha da uzatsın. Çünki əsarət günləri artıq keçdi, ruhum azadlıq tələb edir. Yatağımın yanına rahib də çağırmayın! Çünki əgər kafirəmsə, onun moizələri onsuz da günahlarımı əfv etdirməyəcək. Yox, əgər möminəmsə, cənnətə düşməyimi tezləşdirməyəcək. Münəccimlər ulduzların seyrini dəyişə bilmədikləri kimi bəşər övladının istəkləri də Allahın iradəsini dəyişmək iqtidarında deyil. Mən öləndən sonra həkimlər və rahiblər istədiklərini edə bilərlər. Dərya dəryalığında qalır. Gəmi isə sahilə yan alanadək üzməyində davam edir...

* * *

O dəhşətli günün gecəyarısı Faris Kəramə çuxura düşmüş gözlərini zülmətə açdı. Sonuncu dəfə gözlərini geniş açaraq yatağı yanında dizi üstə çökmüş Səlmaya baxdı. O, söz demək istədi, lakin ölüm onun səsini udmuşdu. Bu sözlər onun dodaqları arasından sürətli təngnəfəs kimi çıxdı:

– Budur, artıq gecə keçdi, sabah gəldi... Səlma!... Səlma!...

Bunu demişdi ki, başı yana düşdü, üzü avazıdı, dodaqlarında xəfif təbəssümlə ruhunu tapşırdı. Səlma əlini uzadıb atasının əlinə toxundurdu. O, buz kimi idi. Başını qaldırıb ona baxdı. Ölüm üzünə duvaq çəkmişdi. Həyat sanki Səlmanın bədənində donub qalmışdı, göz bəbəyində yaşlar qurumuşdu. O,

nə hərəkət edir, nə çığırır, nə də ki köks ötürürdü. O, cansız heykəl kimi donuq gözləri ilə gözünü ayırmadan ona baxmaqda davam edirdi. Birdən əli-qolu boşalıb yanına düşdü; yaş paltarın qatları əzilən kimi o da əzgin halda yerə düşdü, alnını yerə söykəyib astadan tələffüz etdi:

– Rəhm et, Allahım! Qırılmış qanadlara güc ver!

* * *

Faris Kəramə vəfat etdi. Onun ruhu əbədiyyətə qovuşdu, bədəni isə torpağa qayıtdı. Mənsur bəy onun bütün vardövlətinə sahibləndi. Gözləri qarşısında dəhşət və qorxu püskürən həyata bir faciə kimi baxan Səlma hələ də öz bədbəxtliyinin əsiri idi. Mən isə arzularımla tələşlarım arasında yolumu azmışdım. Günlər və gecələr məni yırtıcı quşlar öz qurbanını izləyən kimi izləyirdi. Fələyin diz çökdürdüyü kimsələrdən bir ibrət alım deyə özümü kitab səhifələri arasında unutmağa çalışsam da, keçmiş nəsillərin dövrünə qayıtmaq üçün səyahətnamələri və macəra kitablarını oxuyaraq yaşadıqlarımı unutmağa cəhd etsəm də, bunların heç birinin faydası olmadı. Əksinə bununla daha da ocağa yağ atırdım. Çünki bu nəsillərin alayında kabusdan savayı bir şey görə bilmədim. Millətlərin ifasında ağıdan başqa bir şey eşitmədim. Mənə görə Əyyubun kitabı Davudun tütəyindən daha gözəldir, İeremiyanın[1] fəryadı Süleymanın nəğməsindən daha xoşagələn-

---

[1] *Əhdi-ətiqin dörd peyğəmbərindən ikincisi. Onun peyğəmbərlik fəaliyyəti yəhudi çarı İosinin hakimiyyətinin 13-cü ildönümünə təsadüf edir. İeremiya Hz. İsanın sələflərindən hesab olunur. Onun həyat və yaradıcılığı «Peyğəmbər İeremiyanın kitabı» əsərində əks olunmuşdur. O, bütpərəstliyə qarşı inadla mübarizə aparırdı. Lakin insanlar onun peyğəmbərliyinə inanmırdılar və onu ictimai asayişi pozan qiyamçı hesab edirdilər. İeremiya kafirlikdə ittiham etdiyi yəhudilər tərəfindən daş-qalaq edilərək öldürülmüşdür.*

dir. Bərməkilərin acısı məndə Abbasilərin əzəmətindən daha güclü təəssürat oyadıb. İbn Züreyqin qəsidələri Xəyyamın rübailərindən daha təsirlidir. Hamlet faciəsi avropalıların yazdıqlarından mənim qəlbimə daha yaxındır.

Ümidsizlik gözlərimizin nurunu apardı və biz qorxunc kölgələrdən başqa heç nə görə bilmədik. Kədər qulaqlarımızı batırdı və biz narahat qəlbimizin döyüntülərindən başqa heç nə eşidə bilmədik.

İştar və İsanın önündə

Beyrutun ətrafı boyu uzanan yüksəkliklər və düzənliklər arasında Livanın ta qurtaracağında qədim dövrlərə aid kiçik bir məbəd tapdım. Bu ibadətgah zeytun, söyüd və badam ağacları arasında ucalan sıldırımın düz göbəyində salınmışdır. Araba yolundan yarım mil uzaqlıqda olmasına baxmayaraq, qədim xarabalıq və abidə sevənlərdən çox azı onun yerini bilə bilərdi. Suriyada olan bir çox şeylər kimi bu məbəd də etinasızlıq örtüyü arxasında gözlərdən uzaq qalmışdır. Sanki bu etinasızlıq məbədi arxeoloqlardan gizlədərək onu sevgililərin, tənha adamların ziyarətgahına, üzgün və qırıq könüllərin xəlvəti yerinə çevirmişdir. Bu müdhiş və sirli məbədə daxil olarkən onun şərq divarında freska görmək olardı. Dəlillər onun Finikiya abidəsi olduğunu açıq-aydın sübut edirdi. Zamanın barmaqları qayalıqda yonulmuş bu abidənin bəzi izlərini silmiş, fəsillər onun üzərini al-əlvan rəngə boyamışdır. Bu, gözəllik və məhəbbət ilahəsi olan İştarın heykəli idi. O, özünün əzəmətli taxtında oturmuş, yeddi çılpaq qız isə onu əhatə etmişdilər. Onlardan biri əlində məşəl, digəri lira[1], üçüncüsü bu-

[1] *Simli musiqi aləti*

xurdan, dördüncüsü şərab üçün dəsti, beşincisi qızılgül budağı, altıncısı dəfnə yarpağından çələng, yeddincisi isə yay və ox tuturdu. Onların hamısı İştara baxırdı: üzlərində itaətkarlıq cizgiləri parlayırdı. İkinci divarda daha yeni dövrə aid freska var idi. O, daha çox çarmıxa çəkilmiş İsa Məsihi xatırladırdı. Onun yanında kədərli Məryəm ana və ağlayan iki qadın dururdu. Bu, Bizans abidəsi idi. Üslubu və məzmunu onun miladi təqvimi ilə V-VI əsrlərə aid olduğunu deməyə əsas verirdi. Məbədin qərb divarında isə iki dairəvi sütun var idi. Alaqaranlıq düşəndə günəş şüası onları dəlib keçərək hər iki surətə əksini salırdı; elə təsəvvür yaranırdı ki, sanki onlar qızıl suyuna çəkilmişdir.

Məbədin ortasında dördkünclü mərmər daşı var idi. Onun yanlarını qədim tərzdə tökülmüş naxışlar bəzəyirdi. Onların bəzisi daşlaşmış qan kütləsi altında itib-batmışdır. Görünür, qədim xalqlar öz qurbanlarını bu daşların üzərinə qoyur, onların üzərinə şərab, yağ və ətir tökürdülər.

Bu balaca məbəddə insanın nəfəsini kəsən həzin sükutdan və ilahi sirləri bütün çılpaqlığı ilə üzə çıxaran sehrli əzəmətdən savayı heç nə yox idi. O sirlər ki, keçmiş nəsillərin gəlişindən, xalqların bir haldan digərinə, bir dindən başqasına keçməsindən susaraq, danışmadan xəbər verirdi. Burada şair bu dünyadan çox uzaq bambaşqa bir dünyaya meyl edir. Filosof o qənaətə gəlir ki, insan ilahi bir məxluqdur; o, görmədiyi bir şeyi hiss edir, hisslərinin aşıladığı şeyi xəyal edir, öz hisslərini rəmzlərlə ifadə edir. Bu rəmzlər əslində onun könlündə gizli və qaranlıq qalan şeylərin olduğuna dəlalət edir. Onun xəyalları sözlərdə, nəğmələrdə, rəsmlərdə və heykəllərdə təcəssüm olunur. Onlar öz şəkli etibarilə insanın həyatdakı ən müqəddəs arzularını və ölümdən sonrakı ən gözəl istəklərini əks etdirir.

Bu gözdən uzaq məbədin qarşısında mən Səlma Kəramə ilə ayda bir dəfə görüşürdüm. Biz saatlarla bu qəribə freskalara tamaşa edir, gurultulu zəng səsləri altında çarmıxa çəkilmiş bəşər övladları barədə düşünür, xəyalımızda burada sakin olan, eşqə düşən, İştarın simasında gözəlliyə ibadət edən, onun heykəli önündə buxur yandıran, ona qurban kimi kəsdikləri heyvanlara xoş qoxulu ətirlər vuran finikiyalı gənc qız və oğlanların xəyallarını təsəvvürümüzdə canlandırırdıq. Torpaq onların hamısını udmuşdur. İndi günlərin əbədiyyət qarşısında təkrarladığı adlarından başqa heç nə qalmayıb.

Məni Səlma ilə görüşdürən o anlar barədə bir söz belə yazmaq necə də çətindir. Bu ülvi anlar özündə həm həzz, həm acı, həm sevinc, həm kədər, həm ümid, həm də ümidsizlik ehtiva edir; insanı insan, həyatı sonsuz tapmaca edən hər bir şey. Onları xatırlamaq, eşq və hüzn övladlarına yadigar qoyacağım o xatirələrdən hər hansı birini aciz sözlərlə vəsf etmək mənim üçün necə də çətindir.

Biz keçmişimizin sədasına səs verərək bu günümüzün nə gətirəcəyini gözləyir, gələcəyimizdən qorxaraq bu qədim məbəddə xəlvətə çəkilir, arxamızı divara söykəyərək girəcəyində otururduq. Sonra hər birimiz qəlbində olan peşmanlıq və üzüntüdən, çəkdiyi cəfa və həsrətdən şikayətlənərək içimizin dərinliklərinə gömülənləri yavaş-yavaş aşkara çıxarır, ümid kasamızda olan bütün xoş xülyaları və şirin arzuları önümüzə sərərək bir-birimizə təsəlli verir, qorxunu özümüzdən uzaqlaşdırır, göz yaşlarımızı silir, bir-birimizi seyr etməkdən həzz alır, özümüzdən və ruhun istəklərindən başqa hər şeydən uzaqlaşaraq, məhəbbət və sevincdən savayı hər şeyi unudaraq gülümsəyir, sonra qucaqlaşaraq çılğın məhəbbət və dəlisov ehtiras qarşısında mum tək əriyirdik. Səlma saç ayrımımı xilqə-

tinə xas hədsiz saflığı və zərifliyi ilə öpür, qəlbimi sevgi nuru ilə doldururdu. Mən onun zərif ağ barmaqlarının ucunu dodaqlarımla isladarkən o, gözlərini yumur, fil sümüyünə bənzər ağappaq zərif boynunu azacıq önə əyir, dan yeri sökülərkən təpələrin üzərini almış şəfəqin ilk işıltısı kimi yanaqları xəfif qırmızıya boyanırdı. Sonra biz susur və uzun-uzadı dan yerinin sökülməsini, Günbatanın portağalı işıqları ilə al-əlvan rəngə boyanmış buludları seyr edirdik. Bizim görüşlərimiz təkcə hisslərimizi paylaşmaqdan, şikayətlərimizi bildirməkdən ibarət deyildi. Özümüz də fərqinə varmadan ümumi şeylərdən söhbət edir, bu qəribə aləmin işləri barədə fikir və rəylərimizi bölüşür, oxuduğumuz kitabların mənfi və müsbət cəhətlərini, xəyali obrazları və ictimai məzmunu barədə fikir mübadiləsi edirdik. Səlma qadının cəmiyyətdəki yeri, keçmiş nəsillərin onun əxlaqına, arzu və istəklərinə təsiri, eləcə də bu günümüzdə evlilik münasibətləri, onun zərərləri və fəsadları barədə danışırdı. Xatırlayıram, söhbətlərinin birində o demişdi:

– Yazıçılar və şairlər qadın gerçəkliyini dərk etməyə çalışırlar, lakin onlar qadın qəlbinin sirlərini, içində gizli qalanları anlamırlar. Çünki onlar qadına ya şəhvət pərdəsi arxasından tamaşa edir, onun bədən formasından başqa bir şey görmürlər, yaxud ona böyüdücü altında baxır, mütilik və acizlikdən savayı heç nə tapa bilmirlər.

Bir dəfə Səlma məbədin divarına həkk olunmuş rəsmləri əli ilə göstərərək dedi:

– Bu qayalıqların qəlbində insanlar iki rəmz nəqş etmişlər. Bu naxışlarda qadın istəklərinin başlıca mahiyyəti öz əksini tapıb; qadın qəlbinin məhəbbət ilə hüzn, geri çəkilmə ilə qurbanvermə, taxtında əyləşən İştar ilə xaçın qarşısında diz çökən Məryəm arasında növbələşən gizli sirləri üzə çıxır...

Kişi şərəf, əzəmət və ad-san satın alır, onun dəyərini ödəyən isə qadın olur.

Bizim gizli görüşməmizi Allah-taaladan və bu seyranlıqda dəstə-dəstə uçuşan quşlardan başqa heç kəs bilmirdi. Səlma Paşa bağı deyilən yerə araba ilə gəlir, sonra tələsmədən asta addımlarla kimsəsiz keçidlərdən keçərək bu balaca ibadətgaha çatır, öz kölgəsinə söykənərək üzündə əks olunan əminlik və arxayınlıqla içəri daxil olur və məni – aclıqdan və susuzluqdan doğan şövq ilə, hədsiz intizar və həsrətlə onun yolunu gözləyəni – görürdü.

Biz seyrçi gözlərdən heç qorxmurduq, vicdan əzabı duymurduq. Çünki nəfs odla saflaşıb göz yaşı ilə yuyunarsa, camaatın əxlaqsızlıq və rüsvayçılıq adlandırdığı şeydən daha üstün olar, adət-ənənələrin, şəriət qaydalarının insan qəlbinin hisslərinə vurduğu qandallardan azad olar və Allahın ərşi qarşında başı dik durar.

Bəşər cəmiyyəti 70 əsr çürük qaydaların əsarətində olub, ilkin əbədi və ülvi qanunların mənasını dərk etməyə qadir olmayıb. İnsanın gözləri zəif yanan şam işığına alışıb, o, heç vaxt günəş işığına düz baxa bilməyib. Keçmiş nəsillər xəstəliklərini və dərdlərini sonrakı nəsillərə miras qoyub gediblər. Bu, o qədər adiləşib ki, bəşər övladına xas bir cəhət halını alıb. İnsanlar artıq ona xəstəlik və ya azar kimi baxmırlar, onu Allah-taala tərəfindən Adəm övladına nazil olan təbii, xilqəti bir keyfiyyət hesab edirlər. Əgər onların arasında bu keyfiyyətdən xali olan birisi zühur edərsə, onu mənəvi kamillikdən məhrum qüsurlu biri zənn edərlər.

Başqa bir kişi ilə görüşmək üçün qanuni ərinin evindən çıxdığına görə Səlma Kəraməni məzəmmət edənlər olarsa belə, onlar xəstə düşüncəli kəslərdir. Çünki onlar sağlam

düşüncəliləri qanun pozucuları, qürur sahiblərini isə qiyamçı hesab edirlər. Onlar gəlib-keçənlərin ayaqları altında qalmaqdan ehtiyat edərək gün işığına çıxmaqdan qorxan və yalnız gecənin zülmət qaranlığında sürünən həşəratlar kimidirlər.

Həbsxana barmaqlıqlarını qırmaq iqtidarında olan, lakin bunu edə bilməyən məzlum birisi qorxaqdır. Səlma Kəramə azadlığa çıxa bilməyən zavallı bir məhbus idi. Məgər o, həbsxananın kiçik pəncərəsindən yamyaşıl bağçaya baxdığına görə qınanılmalıdırmı?! Məgər əzəmətli heykəllər və müqəddəs İştarın önündə mənim yanımda oturmaq üçün Mənsur bəy Qalibin evindən çıxıb gəldiyinə görə xəyanətkarmı hesab edilməlidir?! İnsanlar nə istəyirlərsə, desinlər! Səlma insanların ruhunu batıran gölməçələri keçərək, canavarların ulaşmasının, ilanların fışıltısının eşidilmədiyi bir aləmə gəlib çıxmışdı. İnsanlar mənim haqda necə istəyirlərsə, elə düşünsünlər! Ölümlə üzbəüz dayanan ruhu oğruların dəhşət doğuran simaları qorxutmur. Başı üzərində qılıncların çarpazladığını görən, ayaqları altından axan qanlı çaylardan keçən döyüşçü küçə uşaqlarının ona tuşladığı daşlara məhəl qoymur.

Qurban

İyunun sonlarında sahildə havanın hərarəti yüksəldiyindən camaat yaylaqlara üz tuturdu. Mən özümü Səlma ilə görüşə hazırlayaraq adəti üzrə o məbədə getdim. Əlimdə o zamanlar, hətta indinin özündə də ruhumu oxşayan Əndəlus müvəşşəhlərinin[1] toplandığı balaca şer kitabçası var idi.

Mən məbədə vaxtında çatdım. Yolun kənarında söyüd

---

[1] *Yeddi beytdən ibarət olan müvəşşəh (hərfən: bəzədilmiş, sarğıya bürünmüş) İspaniyada meydana gəlmişdir və musiqi sədaları altında oxumaq üçün nəzərdə tutulan şer forması idi. Müvəşşəhlərdə məhəbbət, qadın gözəlliyi, şərab məclisləri, təbiət tərənnüm edilirdi.*

və limon ağaclarının arasında münasib bir yerdə oturub, arabir əlimdəki kitabçanı vərəqləyir, vəzninin axıcılığı və quruluşunun mükəmməlliyi ilə ürəkləri riqqətə gətirən bu müvəşşəhlərdən ən seçkin beytləri astadan zümzümə edirdim. Bu şerlərdə Qərnata, Kordova və Sevilya ilə vidalaşarkən arzu və istəkləri ilə dolu ruhlarını qoyub getmiş əzəmətli məliklərin, süvarilərin və şahların xatirəsi canlanır. İndi onlar gözlərində yaş, qəlblərində nisgil fələyin örtüyü altında gözdən itmişlər.

Bir neçə saatdan sonra başımı qaldırdıqda Səlmanın arıq və düz qamətinin qaraltısını gördüm. Dik yerişi ilə sıx toxunmuş ağacların arasından onların kölgəsinə söykənərək mənə sarı gəlirdi. Sanki özündə bütün dünyanın yorğunluğunu və qayğısını daşıyırmış kimi bir halı var idi. Məbədin darvazasına çatdı və yanımda əyləşdi. Onun iri qara gözlərinə nəzər saldıqda onlarda mənə yad olan yeni mənalar və sirlər oxudum. Sanki onlar insanı ehtiyatlı və diqqətli olmağa səsləyir, onda öyrənmək və bilmək həvəsi oyadırdı.

Səlma mənim ağlımda var-gəl edən sualları oxuyurmuş kimi zənlərim və təxminlərim arasında gedən mübarizəni daha artıq uzatmayıb, əli ilə saçıma sığal çəkdi və dedi:

– Mənə yaxın gəl, sevgilim, yaxın gəl! Qoy səni nəfəsimin istisi ilə qızdırım! Bizi əbədi olaraq ayıran anlar artıq yaxınlaşır.

Mən çaşqın halda soruşdum:

– Sən nəyi nəzərdə tutursan, Səlma! Hansı qüvvə bizi əbədi olaraq ayıra bilər ki?

O cavab verdi:

– Bizi dünən ayıran və bu gün ayıracaq kor qüvvə. O qüvvə ki, bəşər qanunlarını əsas tərcüman kimi götürərək həyat qulunun əli ilə bizim aramıza sarsılmaz və aşılmaz bir

sədd çəkmişdir. O qüvvə ki, şeytanları xalqın ruhunun valiləri etmişdir. O qüvvə ki, məni sümüklərdən və insan kəllələrindən tikilmiş o evdən çıxmağa qoymur.

Mən:

– Olmaya ərin bizim görüşməmizdən xəbərdar olub və sən onun qəzəblənəcəyindən, intiqam alacağından qorxursan?

O:

– Mənim ərim mənə heç fikir belə vermir. O, günlərimin necə keçdiyindən xəbərsizdi. Onun başı düşkün qızlara qarışıb. O qızlar ki, ehtiyac üzündən qana və göz yaşlarına bulaşmış bir parça çörəyə görə qul bazarlarına sürüklənirlər. Ətirlənib, sürmələnib bədənlərini satmağa məcbur olurlar.

Mən:

– Bəs onda sənin bu məbədə gəlmənə və Allahın hüzurunda və keçmiş nəsillərin kölgəsi önündə mənim yanımda oturmana nə mane olur? Yoxsa, sən artıq qəlbimdə gizli olanları sezməkdən bezmisən?

Onun gözləri doldu:

– Yox, sevgilim! Əsla! Ruhum səndən ayrılmaq istərmi? Sən onun parasısan! Gözlərim sənə baxmaqdan yorularmı? Sən onların nurusan! Əgər qəzavü-qədər məni boyunduruq altında ağır qandallar və zəncirlərlə həyatın ağır və keçilməz maneələrindən keçməyə məhkum etmişsə, mən necə razı ola bilərəm ki, sənin taleyin də mənimki kimi olsun?!

Dedim:

– Danış, Səlma, məni hər şeydən agah et! Məni bu müəmma içərisində itib-batmağa qoyma!

Dedi:

– Mən sənə hər şeyi deyə bilmərəm. Çünki acıların lal etdiyi dil danışa bilmir. Kədər və qüssənin qıfıl vurduğu do-

daqlar hərəkət etmək iqtidarında deyil. Mən təkcə onu deyə bilərəm ki, sənə görə çox qorxuram. Qorxuram ki, mənə quyu qazmış insanların tələsinə düşəsən.

Mən:

– Sən nə demək istəyirsən? Səlma, mənə görə ehtiyat etdiyin o kəslər kimlərdir?

O, üzünü əli ilə örtərək təşviş içində köks ötürdü. Bir qədər tərəddüd etdikdən sonra dedi:

– Arxiyepiskop Bulus Qalib mənə qazdığı qəbirdən ayda bir dəfə çıxdığımdan xəbərdar olub.

Mən:

– O bilir ki, sən mənimlə burada görüşürsən?

O:

– Əgər bunu bilsəydi, indi məni yanında oturan görməzdin. Lakin şübhələr onun ürəyinə artıq yol açıb, zənlər və gümanlar fikrini yanıldır. O, məni izləmək üçün casus göndərib, nökərinə məni addımbaaddım izləməsi üçün sərəncam verib. Artıq yaşadığım evdə belə, getdiyim yollarda məni diqqətlə izləyən gözlərin, işarə edilən barmaqların, fikirlərimin pıçıltısını eşidən qulaqların olduğunu hiss edirəm.

O bir anlıq susdu. Gözlərindən axan yaşlar yanaqlarını islatdı. Sonra sözünə davam edərək dedi:

– Mən özümə görə qorxmuram. İslanmışın yağışdan nə qorxusu?! Mən sənə görə ehtiyat edirəm. Sən məndən fərqli olaraq onların qurduğu tələyə düşməmək üçün azadsan: gün işığı kimi azad. Onlar öz caynaqlarını boğazına sancıb səni boğacaqlar. Köpək dişləri ilə səni param-parça edəcəklər. Mən fələyin oyunundan qorxmuram. Çünki köksüm onun tuşladığı oxların nişangahıdır. Lakin sənə görə çox ehtiyat edirəm. Gələcək bütün sevinci və şərafəti ilə səni gözləyir. Sən hələ

ömrünün baharını yaşayırsan. Dağın zirvəsinə aparan yolda ilanların ayağını sancmasını və səni yolundan etməsini istəməzdim.

Mən:

– Gündüzlər ilanların sancmadığı, gecələr azğın canavarların parçalamadığı kimsələr gecə və gündüzlərlə aldadılmaqda davam edirlər. Məni dinlə, Səlma, məni yaxşı dinlə! Məgər kiçik insanlardan və onların qoyduqları qaydalardan qorunmaq üçün önümüzdə ayrılıqdan savayı başqa yol yoxdur? Məgər məhəbbət, həyat və azadlıq yolları önümüzə sədd çəkib? Məgər qulların istəklərinə boyun əyməkdən başqa əlimizdən heç nə gəlmir?

O, ümidsizlik və iztirabla dolu bir əda ilə cavab verdi:

– Bizim ayrılmaqdan və vidalaşmaqdan savayı başqa yolumuz yoxdur.

Səlma əlini götürdü. Ruhum təlatüm içində tir-tir əsirdi. Gəncliyimin şöləsindən qalxan duman ətrafa yayılmışdı. Mən həyəcan içərisində söyləndim:

– Biz indiyədək insanların şıltaqlıqlarına boyun əymişik, Səlma!... Bizi qovuşduran o andan indiyədək korların əlində alətə çevrilmişik və onların bütlərinə ibadət etməyə məcbur olmuşuq. Mən səni tanıyandan bəri biz baş keşiş Bulus Qalibin əlində bir kəndir kimiyik; o, bizlə istədiyi kimi oynayır, arzu etdiyi kimi atıb-tutur. Qəbir bizi çeynəyənədək, torpaq bizi udanadək onun daxili zülmətini görə-görə bilərəkdən ondan asılı qalmaqda davam edəcəyik? Məgər Allah-taala ölümün ayaqları altında qalaq deyə ruhumuzu həyat mehi ilə oxşayıb? Yoxsa istibdad üzərimizə kölgə salsın deyə azadlıq bəxş edib? Daxilindəki atəşi söndürən əl onu alışdıran Allaha görə günahkardır. Haqsızlığa göz yuman, zülmə qarşı üsyan etməyən, sa-

vaşmayan birisi haqqa qarşı mübarizə aparanlarla müttəfiq, günahsız insanların qanını axıdanlarla əlbirdir. Mən səni sevdim, Səlma, sən də məni. Məhəbbət elə bir qiymətli xəzinədir ki, Allah-taala onu yalnız böyük və həssas qəlb sahiblərinə bəxş edir. Məgər biz xəzinəmizi donuzxanaya atmalıyıq ki, onu burunları ilə qurcalasınlar, ayaqları altında tapdalasınlar? Bizim qarşımızda qəribəliklər və gözəlliklərlə dolu geniş bir aləm var. Nədən biz arxiyepiskop və onun əlaltılarının qazdığı bu dar quyuda yaşamalıyıq? Bizim önümüzdə həyat var, lakin onda azadlıq yoxdur. Azadlıqda isə nə səadət, nə də ki həzz var. Nədən biz boynumuzu bükən bu boyunduruqdan qurtulmuruq, nədən daha əmin və rahat addımlarla yolumuza davam etmirik? Dur, Səlma, dur! Bu balaca məbəddən çıxıb, qüdrətli Allahın hüzuruna doğru addımlayaq. Gəl, bu ölkədən çıxıb gedək! Buradakı köləlik və əsarətdən uzaqlaşıb, oğruların əlinin çatmadığı, iblislərin ağır nəfəsinin toxuna bilməyəcəyi uzaq bir yerə gedək! Gəl, gecənin zülmət örtüyünə bürünərək sahilə tələsək və bizi uzaqlara aparacaq gəmiyə minək, anlayış və paklıqla dolu bir həyatı salamlayaq! Orada zəhərli ilanların nəfəsi bizə toxuna bilməyəcək, yırtıcı heyvanlar ayaqları ilə bizi tapdalamayacaq! Tərəddüd etmə, Səlma! Bu dəqiqələr şahların tacından daha qiymətli, mələklərin ruhundan daha alidir. Qalx, bizi bu susuz və cansız səhradan gül-çiçəklə döşənmiş çəmənliyə aparacaq o məşəlin ardınca gedək!

O, başını silkələdi. Onun gözləri bu ibadətgahın səmasında görünməz bir nöqtəyə zillənmişdi. Onun dodaqlarında xəfif və həzin bir təbəssüm yarandı. Bu təbəssüm onun daxilindəki acı və iztirabın xəbərçisi idi. Səlma astadan pıçıldadı:

– Yox, yox, sevgilim! Göylər mənim əlimə sirkə və zəhərlə dolu bir qədəh verib. Dibində gizli sirlərin olduğunu gör-

məyim deyə onu aramla yox, bir nəfəsə başıma çəkmişəm. Sevgi, firavanlıq və rifahla dolu o yeni həyata gəlincə, mən ona layiq deyiləm. Onun zövqü-səfasını çəkmək üçün kifayət qədər güclü deyiləm. Qırıq qanadlı quş qayalıqlardan, sıldırımlardan axsayaraq keçir: o, səmada qanad çalmaqda gücsüzdür. Kül rəngində gözlər ətrafına zəif nəzərlərlə baxır. O, hər tərəfə yayılmış işığa açıq nəzərlərlə baxmaqda çətinlik çəkir. Mənə səadətdən dəm vurma! Onun xatırlanması mənə eynilə bədbəxtliyin xatırlanması kimi acı verir. Mənə rahat həyatı təsvir etmə! Onun kölgəsi məni sağalmaz bir dərd kimi qorxudur... Mənə bax! Mənə bax ki, Allahın köksümün kül ocağında qaladığı o ilahi, müqəddəs şöləni görüm!... Sən bilirsən, mən səni ana körpəsini sevdiyi kimi sevirəm. Bu məhəbbət mənə səni hətta özümdən belə qorumağı öyrətdi. Bu, eşq qığılcımı ilə alışan saf və təmiz bir duyğudur; sənilə dünyanın sonuna kimi getməkdən çəkindirən, sənin insanların çirkin dedi-qodularından, alçaq tənələrindən uzaq, təhlükəsiz və əmin bir yerdə əsil azad bir insan kimi yaşaman üçün öz arzularımı və istəklərimi boğmağa təhrik edən bir duyğu... Məhdud məhəbbət sevgiliyə sahiblənməni tələb edir. Sonsuz məhəbbət isə onun özündən başqa heç nə istəmir. Gəncliyin oyanışı ilə qəfləti arasındakı bir vaxtda yetişən məhəbbət sevgili ilə görüşlə kifayətlənir, vüsalla qane olur, qucaqlamaqla, öpməklə çoxalır. Sonsuzluğun köksündə doğulan və gecənin düşməsi ilə ölən məhəbbət isə əbədiyyətdən savayı heç nə ilə qane olmur, ölməzlikdən başqa heç nə ilə kifayətlənmir, İlahidən başqa heç nədən çəkinmir... Mən dünən biləndə ki, arxiyepiskop Bulus Qalib qardaşı oğlunun evindən çıxmama mane olmağa çalışır, ailə həyatı qurduğumdan bəri daddığım yeganə həzdən məni məhrum etmək istəyir, otağımın pəncə-

rəsi önündə durub dənizə sarı boylandım; dənizin o tayındakı geniş ölkə, mənəvi azadlıq və şəxsi istiqlaliyyət barədə düşünməyə başladım. Özümü sənin yanında, ruhunun hərarəti ilə qızınan xəyal etdim. Lakin məzlum qadınların ürəyini fərəhləndirən, onları azadlıq və hürriyyət kölgəsində yaşamaq üçün çürük və geridə qalmış adət-ənənələrə qarşı çıxmağa vadar edən bu şirin xəyallar mənim ağlıma gələr-gəlməz özümü cılız və aciz hiss etdim. Anladım ki, sevgimiz zəif və gücsüzdür. O, günəşin önündə durmaq iqtidarında deyil. Bu anda mən taxtından salınmış məlik, var-dövlətini itirmiş zəngin kimi ağladım. Lakin dərhal göz yaşları arasında üzünü, mənə zillənmiş gözlərini xəyalıma gətirdim, mənə dəfələrlə dediyin sözləri xatırladım: «Səlma, gəl, köksümüzə qılınc ucluqları dayayan düşmənlərimizə mətinliklə sinə gərək! Məğlub olarıqsa, şəhidlər kimi ölək, qalib gələriksə, qəhrəmanlar kimi yaşayaq! Çünki nəfsin çətinliklər və əngəllər qarşısında öz sarsılmazlığı ilə əziyyətə qatlaşması əmin-amanlıq və rifah naminə geri çəkilməkdən daha şərəflidir»... Sən bu sözləri mənə ölüm atamın yatağı ətrafında qanad çalarkən demişdin, sevgilim! Dünən kədər öz qanadları ilə başımın üzərini aldıqda bu sözləri xatırladım. O sözlərdən qanadlandım, cəsarətləndim, gücləndim. Hiss etdim ki, mən həbsxana zülmətində çətinliklərə məhəl qoymayan, kədəri və qüssəni cılızlaşdıran mənəvi azadlığa bənzər bir azadlığa sahibəm. Sevgimizin dəniz kimi dərin, ulduzlar qədər əlçatmaz, səma tək geniş olduğunu gördüm. Mən bu gün sənin yanına gələrkən yorğun və üzgün qəlbimdə yeni bir qüvvə oyanmışdı. Elə bir qüvvə ki, daha böyük amallar uğrunda böyük şeyləri qurban vermək iqtidarındadır; insanlar arasında böyük nüfuz və şöhrət sahibi olmağın, onların satqınlığından və xainliyindən qurtulmağın

üçün sənin yanında olacaq səadətimi qurban verəcəyim kimi... Dünən bu məkana gələrkən ayaqlarımdan sanki ağır qandallar sallanırdı. Bu gün isə özümdə o qandalları qıracaq və yolumu qısaldacaq gücü hiss etdim. Qabaqlar qorxulu gecə kabusu kimi gəlirdim, indi isə qurban vermənin zəruriliyini anlayır, acılarımın dəyərini bilir, sevdiyim insanı axmaq və alçaq xislətli kəslərdən qorumaq istəyirəm. Əvvəllər sənin yanında qorxaq və ürkək bir kölgə kimi otururdum, indi isə gəlmişəm ki, müqəddəs İştarın və çarmıxa çəkilmiş İsanın önündə sənə həqiqətləri açıb göstərim. Mən kölgədə boy atan ağacam. Gün işığını udmaq üçün bu gün qol-budaq atmışam... Gəldim ki, sənin lə vidalaşam, sevgilim! Qoy ayrılığımız da məhəbbətimiz kimi əzəmətli və möhtəşəm olsun! Qoy parıltısı daha güclü olsun deyə qızılı əridən alov kimi ayrılığımız da eləcə hərarətli olsun!

Səlma mənə bir söz deməyə və ya etiraz etməyə belə macal vermədi. Sadəcə gözlərimə baxdı. Gözləri elə parlayırdı ki, şöləsi bir anda bütün varlığımı bürüdü. Çöhrəsində vüqar və əzəmət nişanələri ilə susqunluğu və itaətkarlığı təlqin edən əsil məleykəni xatırladırdı. Sonra bu anadək vəd etdiklərini unutmuş kimi qollarıma atıldı. Zərif əlləri ilə boynumu qucdu, dodaqlarını yaxınlaşdıraraq uzun, ehtiraslı və yaxıcı bir öpüşlə məni öpdü. Sanki həyat bədənimdə oyandı, içimdə yatmış gizli duyğularım cuşa gəldi. «Mən» adlandırdığım bu varlıq Səlmanın qəlbini daşlaşdıran, özünü isə qurban verməyə təhrik edən ülvi qanunlar qarşısında susmaq üçün bütün dünyaya meydan oxuyaraq üsyan etdi.

* * *

Günəş batdı. Onun son şüaları vadidən və bağlardan çəkiləndə Səlma səksəkəli halda qəflətdən oyandı. Məbədin ortasında duraraq uzun-uzadı onun divarlarına, künclərinə baxdı. Sanki beləcə gözünün nurunu onun rəsmlərinə, naxışlarına axıtmağa çalışırdı. Sonra ayaq saxlayaraq itaətkarcasına İsanın surəti qarşısında dayandı. Onun qana bulaşmış ayaqlarını təkrar-təkrar öpərək astadan pıçıldadı:

– Budur, mən İştarın zövq və səfasından imtina edərək, sənin xaçını seçirəm, ey həzrəti İsa! Başıma qalibiyyət rəmzi olan dəfnə budağından tac yox, tikanlı tac qoyuram. Gözəl ətirlərlə yox, göz yaşlarım və qanımla yuyunuram. Şərab və kövsər[1] üçün hazırlanmış qədəhdə sirkə və zəhər içirəm. Məni zəiflikləri olan mömin ardıcıllarının sırasına qəbul et, çəkdikləri acılardan, qəlblərindəki ələm və qüssədən məmnun qalan seçilmişlərinin müşayiətində Qolqofa(ya)[2] doğru yönəlt!

Sonra ayağa qalxaraq mənə tərəf döndü və dedi:

– Artıq kabusların dolaşdığı zülmət çökmüş bu qaranlıq mağaraya sevinc qayıdacaq. Mənə acıma, sevgilim! Allahın kölgəsi ilə bir dəfə belə qarşılaşmış ruhu iblislərin qaraltısı qorxuda bilməz. Baş mələkləri[3] bir göz qırpımında görmüş gözü bu dünyanın ağrı-acısı yuma bilməz.

Səlma əynindəki ipək paltarın içində büzüşərək məbəddən çıxdı. Röyalar aləmində yolunu azmış kimi pərişan və fikirli halda məni tərk etdi. Elə bir aləm ki, İlahi öz taxtında

---

[1] *Cənnətdəki bulağın adı*

[2] *Qolqofa (arami dilindən tərcümədə «kəllə») – İsa peyğəmbərin çarmıxa çəkildiyi çox da böyük olmayan qayalıq. Xristianlığın iki ən mühüm ziyarətgahından biri. Belə bir rəvayət də var ki, burada Adəm peyğəmbər dəfn olunmuşdur.*

[3] *Çox güman yazıçı burada Hz. Cəbrayıl və Hz. Əzrailə işarə edir.*

oturaraq mələklərə bəşər övladının işləri ilə məşğul olmağı tapşırır, ruhları həyatın faciəsinə doğru sürükləyir, xəyal gəlinlərinə sevgi, hüzn və əbədiyyət nəğmələri oxutdurur. Mən bu bihuşluqdan ayılanda gecənin zülmət dalğaları artıq hər yeri basmışdı. Mən isə bu çəmənlikdə dolaşaraq qeyri-ixtiyari Səlmanın dediyi hər sözü, hər kəlməni öz-özlüyümdə təkrar edir, onun hər hərəkətini, duruşunu, üz cizgilərini, əlinin hərarətli təmasını xatirəmdə canlandırırdım. O, mənə ayrılığın gerçək səbəbini izah etsə də, ayrılıqdan sonra çökəcək yalnızlığın dəhşəti, həsrət acısı fikirlərimi büsbütün dondurmuşdu, qəlbimin döyüntüləri zəifləmişdi. Mən onda ilk dəfə anladım ki, insan azad doğulsa da, əvvəl-axır atalarının, babalarının qoyduğu amansız qanunların köləsinə çevrilir. Biz qəzavü-qədəri ilahi bir sirr zənn etsək də, bu günümüz keçmişdə baş verənlərdən asılıdır. Sabah isə bu günün istəklərinə tabedir. O gecədən bu anadək Səlmanı həyatın əvəzinə ölümü seçməyə təhrik edən mənəvi qanunlar barədə dəfələrlə düşünmüşəm. Neçə dəfə özünü qurban verməklə etdiyi fədakarlığı bəşər qanunlarına qarşı mübarizə aparan qiyamçıların əldə etdiyi səadətlə qarşı-qarşı qoyub, hansının daha möhtəşəm və gözəl olduğunu anlamağa çalışmışam. Lakin indi mən bir həqiqəti aydın dərk edirəm ki, vəfa bütün işləri yaxşı və şərəfli edir. Səlma Kəramənin sədaqəti humanist, etiqadının həqiqiliyi isə gerçək idi.

Xilaskar

Səlmanın evliliyindən beş il keçsə də bu evlilikdən uşaq dünyaya gəlmirdi. Körpənin varlığı Səlma ilə yoldaşı arasında mənəvi bağ ola bilərdi. Şəfəq gecə ilə gündüzü qovuşduran kimi onun gülüşü də bu iki bir-birinə zidd insanı eləcə yaxınlaşdıra bilərdi. Qısır qadın hər yerdə danlaq yiyəsi olur, qına-

nılır. Çünki «mənlik» əksər kişilərə həyatın onların övladlarının bədənində davam etməsi təsəvvürünü aşılayır. Onlar arzu edirlər ki, nəsillər yer üzündə əbədi yaşasın.

Maddiyyata bağlı insanlar sonsuz qadına elə gözlə baxırlar, sanki onda gizli sui-qəsd sezirlər. Ona nifrət edir, tərk edirlər. Hətta onun ölümünü arzulayırlar. Sanki qısır qadın yoldaşının ölümünü istəyən xain düşməndir. Mənsur Qalib torpaq kimi maddi, polad kimi qaba, qəbiristanlıq kimi acgöz və tamahkar birisi idi. O, oğluna öz adını, varını-dövlətini miras qoyub getmək istəyirdi. Övladında biçarə Səlmaya qarşı nifrət oyadıb, gözəlliklərini cəhənnəm qüsurları kimi qələmə verməyə çalışacaqdı. Mağarada yetişən ağac bar verməz. Səlma Kəramə həyatın kölgəsində yaşayırdı, bu səbəbdən uşaq töhfə verə bilmirdi. Bülbül balalarına əsarəti miras qoymasın deyə qəfəsdə yuva qurmur. Səlma Kəramə bədbəxtliyin məhbusu idi. Göylər onun həyatını əsirlərə belə qismət etməmişdi. Vadinin gülləri günəşin hərarəti və təbiətin sevgisi ilə boy atır. İnsan övladı isə məhəbbət və riqqətin birgə yetişdirdiyi çiçəkdir.

Səlma Kəramə Beyrutun girəcəyində, dəniz sahilində yerləşən bu cah-cəlallı, dəbdəbəli evdə riqqətin, hərarətin və sevginin nəfəsini heç duymamışdır. Lakin bununla yanaşı, o, gecənin səssizliyində itaətkarcasına Allaha yalvararaq ondan balaca çəhrayı barmaqları ilə göz yaşlarını siləcək və gözlərinin nuru ilə qəlbindəki ölüm kabusunu yox edəcək körpə bəxş etməsini diləyirdi. Səlma əlini göylərə qaldırıb o qədər dua etmişdi ki, bütün səma onun dua və yalvarışları ilə dolmuşdu. O qədər kömək deyə hayqırmışdı ki, fəryadı buludlaradək yüksəlmişdi. Nəhayət, göylər onun yalvarışlarını eşitdi. Onun bətnində şirinlik və cazibədarlıqla köklənən bir nəğmə oya-

naraq, beş il evlilikdən sonra onu ana olmağa hazırladı: rüsvayçılığı və üzüqaralığı bir anda sildi. Mağarada bitən ağac bar vermək üçün çiçək açdı. Qəfəsə salınmış bülbül qanadının ləələklərindən yuva qurmağa başladı. Ayaqlar altında qırıq-qırıq olmuş ud şərqdən əsən xəfif külək salamat qalmış dillərini səsləndirsin deyə onun əsdiyi yerə qoyuldu. Zavallı Səlma göylərin hədiyyəsini qəbul etmək üçün zəncirlərlə qandallanmış qollarını açaraq uzatdı. Həyatda əzəli qanunların sonsuz qadına analıq duyğusunu yaşatdırması qədər böyük səadət yoxdur. Bahar oyanarkən nə qədər gözəllik varsa, dan yeri sökülərkən nə qədər nəşə varsa, hamısı qadının bətnində toplanır. Allah qadını əvvəl ondan məhrum edir, sonra isə bəxş edir. Heç bir işıq bətnin zülmətinə həbs olub qalmış döl tək işıltılı və parlaq ola bilməz.

Aprel qayalıqlar və təpələrdən keçərək elə bir zamanda yetişdi ki, Səlmanın yeni sabahının doğulması üçün keçmiş günləri artıq ölmək üzrə idi. Sanki təbiət onun razılığını alıb öz çiçəklərini əkməyə başlamışdı, hərarəti ilə otların və çiçəklərin körpə cücərtilərini bəsləyirdi.

İntizar dolu aylar keçdi. Yolçu səhər ulduzlarının doğuşunu gözləyən kimi Səlma də eləcə hamiləlikdən azad olmağı gözləyirdi. O, gələcəyinə göz yaşları arxasından baxırdı və onu məstedici qədər gözəl görürdü. Artıq çoxdan bəri idi ki, qaranlıq şeylər göz yaşları içərisində parlaq və işıltılı görünürdü.

Beyrutun girəcəyindəki evlərin arasında kabusların dolaşdığı bir gecədə Səlma doğuş sancılarından yatağa düşmüşdü. Həyat və ölüm onun çarpayısı önündə çarpışırdı. Həkim və mama bu dünyaya gələcək yeni qonağı qarşılamaq üçün hazır durmuşdular. Yolda sanki piyadaların hərəkəti da-

yanmışdı, küçəyə səssizlik çökmüşdü. Dəniz dalğalarının nəğməsi səngimişdir. Bu məhəllədə Mənsur bəy Qalibin evinin pəncərəsindən eşidilən kəskin çığırtı səslərindən başqa heç nə eşidilmirdi... Həyatın həyatdan qopmasından doğan çığırtılar... Məhrumiyyət və yoxluq məkanında sağ qalmanın bağırtısı... Sonsuz və sarsılmaz güclərin səssizliyi qarşısında insanın azacıq gücünün hayqırtısı... Həyat və ölüm kimi iki müstəbidin ayaqlarına düşən aciz və köməksiz Səlmanın fəryadı...

Dan yeri sökülində Səlma oğlan uşağı dünyaya gətirdi. Körpənin çığırtısını eşitdikdə ağrıdan yumulmuş gözlərini açdı və ətrafına göz gəzdirdi. Otağın bir küncündə övladının nəşə saçan üzünü gördü...Yenidən ətrafına nəzər saldı. Yatağının başında həyat və ölüm çarpışırdı. Yenidən gözlərini yumaraq uca səslə bağırdı: «Oğlum!».

Mamaça uşağı ipəkdən olan qumaşa bükərək, anasının yanına qoydu. Həkim isə hələ də üzgün halda Səlmaya baxır və arabir başını yellədirdi.

Sevinc nəğməsi bəzi qonşuları oyatdı. Gecə paltarında olmalarına baxmayaraq, atanı oğlu olması münasibətilə təbrik etmək üçün Mənsur bəygilə gəldilər. Həkim isə hüznlü gözlərlə anaya və uşağa baxmaqda davam edirdi.

Nökərlər hövlnak Mənsur bəyin yanına qaçaraq, onu varisinin dünyaya gəlməsi xəbəri ilə müjdələdilər. Mənsur bəy sevincək olub onları hədiyyələrlə mükafatlandırdı. Həkim isə qüssə dolu nəzərlərlə Səlmaya və oğluna baxmaqda davam edirdi.

Günəş batanda Səlma oğlunu döşünə yaxınlaşdırdı. O, ilk dəfə gözlərini açaraq anasının gözlərinin içinə baxdı. Sonra göz qapaqları get-gedə örtülərək əbədi olaraq yumuldu. Həkim

Səlmaya yaxınlaşaraq, qolları arasından uşağı götürdü. Onun yanaqlarında iki damla yaş göründü. O, astadan pıçıldadı:

– O, gedən bir qonaqdır!

Uşaq öldü... Dəhlizdə isə çox sayda məhəllə sakinləri, qonşular Mənsur bəyin sevincinə şərik olur, övladına uzun ömür arzusu ilə badə qaldırırdılar. Yazıq Səlma uzun-uzadı həkimə baxdı və: «Uşağımı mənə verin! Verin onu bağrıma basım!»– deyə bağırdı. Sonra yenidən ətrafına göz gəzdirdi. Yatağının başında hələ də bir-birilə savaşan həyat və ölümün kölgəsini gördü.

Uşaq öldü... Onun gəlişindən sevinənlərin əlindəki qədəhlər isə dolub-boşalırdı. O, şəfəqlə doğuldu, günəşin batması ilə öldü. Hansı bəşər övladı zamanı müqayisə etmək iqtidarındadır ki? Kim günəşin zühuru ilə batması arasında keçən anın millətlərin yaranması ilə onların yox olması arasında keçən dövrdən daha qısa olduğunu iddia edə bilər ki?

O, bir fikir kimi doğuldu, kölgə kimi gizləndi, ötürülən köks kimi öldü. Səlma Kəramə analıq hissini dadsa da bu hiss onu xoşbəxt etmək, qəlbindən ölümün əlini çəkmək üçün çox sürmədi.

Həyat çox qısadır. Gecənin bitməsi ilə başlayır, səhərin doğuşu ilə sona yetir. O, zülmətin axıtdığı və işığın təması ilə silinən şeh damcısı kimidir.

Əzəli bəşər qanunları bir söz deyir, sonra onu söylədiyinə görə təəssüflənir və yenidən əbədi səssizliyə gömürlər... Dənizin qabarması ilə sahilə çıxan mirvari onun çəkilməsi ilə yenidən dərinliklərə qərq olur... Zanbaq həyat yatağından çıxmamış ölümün ayaqları altında əzilərək məhv olur...

Səlma əziz qonağın gəlişini intizarla gözləyirdi. Lakin o, gəlməmiş getdi. Qapının dəstəyini açmamış gözdən itdi...

Döl uşağa çevrilməmiş torpağa çevrildi – bu insan həyatı xalqların, günəşlərin, ayların, ulduzların həyatından başqa bir şey deyil.

Səlma gözlərini həkimə zilləyərək imdad diləyən bir yaralı tək həsrətlə köks ötürdü və çığıraraq dedi:

– Mənə oğlumu verin! Oğlumu verin, onu bağrıma basım, qollarımda qucum!... Uşağımı verin, ona süd verim!

Həkim üzgün halda başını aşağı saldı. Qüssə onun dilini lal etmişdi:

– Xanım, sizin uşağınız öldü. Özünüzü ələ alın və səbir edin ki, bundan sonra yaşaya biləsiniz!

Səlma ucadan bağırdı. Sonra azacıq sakitləşərək, sevinc və nəşə dolu təbəssümlə gülümsündü. Sanki bilmədiyi bir şeydən xəbərdar olmuş kimi çöhrəsi işıq saçdı. Astadan dilləndi:

– Uşağımın cəsədini mənə verin, onun meyitini yanıma qoyun!

Həkim uşağın meyitini onun qolları arasına qoydu. O, uşağı bərk-bərk sinəsinə basdı. Üzünü divara sarı çevirərək dedi:

– Sən gəldin ki, məni özünlə aparasan, oğlum? Gəldin ki, mənə sahilə aparan yolu göstərəsən? Mən hazıram, oğlum! Önümdə gedərək, mənə yol göstər! Gəl, bu qaranlıq, kabus dolu mağaradan çıxıb gedək!

Bir neçə dəqiqədən sonra günəş işığı pəncərənin pərdəsi arasından içəri daxil olaraq analıq əzəmətinin keşik çəkdiyi, ölümün qanadları ilə kölgə saldığı yataqda uzanmış cansız meyitlərin üzərinə düşdü. Həkim ağlayaraq otaqdan çıxdı. Böyük zala daxil olanda çığırtı səslərindən heyrətlənmiş qonaqlar yerlərindəcə donub qalmışdılar. Mənsur bəyə gəlincə,

o, nə bağırdı, nə köks ötürdü, nə göz yaşı axıtdı, nə də ki bir söz söylədi. O, əlində şərab qədəhi ilə müqəvva kimi yerindəcə donub qalmışdı.

* * *

Səhəri gün Səlmaya ağ gəlinlik geyindirərək, kəfənə bükdülər və ağ xovla bəzədilmiş tabuta uzatdılar. Uşağı isə qumaşa bükərək anasının qolları arasına qoydular. Onun tabutu anasının qolları, qəbri isə anasının cansız soyuq sinəsi oldu.

Cəsədləri eyni tabuta qoyaraq, savaşanların sinəsində çarpan ürək döyüntüləri kimi öldürücü bir səssizliklə basdırılacaq yerə doğru götürdülər. Mən də Səlmanı son mənzilə yola salanların sırasında idim. Nə mən onları tanıyır, nə də ki onlar mənim kim olduğumu və gəlişimin səbəbini bilirdilər.

Qəbiristanlığa çatanda arxiyepiskop Bulus Qalib dua oxumaq və ağı demək üçün tabutun yanında durdu. Etinasızlıq və laqeydlik yağan qaşqabaqlı sərt üzlü kahinlər arxiyepiskopun yanında duraraq onunla birgə ağı deyir, dua oxuyurdular.

Tabutu qazılmış xəndəyə salanda ayaq üstə duranlardan biri astadan dilləndi:

– Mən ilk dəfə görürəm ki, iki cəsədi eyni tabuta qoysunlar.

Digəri dedi:

– Sanki körpəsi dünyaya gəldi ki, onu ərinin zülmündən və qəddarlığından qurtarmaq üçün özü ilə aparsın.

Yanında duran başqa birisi dilləndi:

– Mənsur bəyə baxın! O, şüşə tək soyuq və laqeyd nəzərlərlə göy üzünə elə baxır ki, sanki bir gündə itirdiyi arvadı və uşağı deyil.

Digər bir seyrçi deyilənləri təsdiqləyərək dedi:

– Sabah əmisi onu daha zəngin və daha sağlam bir qızla evləndirəcək.

Kahinlər qəbir qazılanadək dua oxumaqda və ağı deməkdə davam etdilər. Sonra gələnlər bir-bir arxiyepiskopa və qardaşı oğluna yaxınlaşaraq ona səbir diləyir, təskinedici sözlərlə ürək-dirək verir, başsağlıqlarını bildirirdilər. Mən isə qəbirin yanında tək tənha dayanmışdım. Heç kəs mənim müsibətimə şərik olmur, mənə təskinlik vermirdi. Sanki Səlma və onun körpəsi mənə ən yaxın insanlar deyildilər.

Gələnlər getdilər. Qəbirqazan yeni qazılmış qəbirin yanında durmuşdu. Onun əlində bel və kürək var idi. Mən ona yaxınlaşaraq soruşdum:

– Siz Faris Kəramənin qəbrinin hansı olduğunu xatırlamırsınız?

O, uzun-uzadı mənə baxdı. Sonra Səlmanın qəbrinə işarə edərək dedi:

– Bu qəbirdə qızı atasının sinəsi üstdə uzadılmışdır. Qızının sinəsi üstdə isə övladı uzanmışdır. Mən bu bellə onların hamısının üzərinə torpaq tökəcəyəm.

Mən pərişan halda dedim:

– Qardaş, bu xəndəkdə həm də mənim qəlbim dəfn olunub. Allah qoluna qüvvət versin!

Sərv ağacları arasında olan qəbirin üzəri torpaqla örtüldükdən sonra mənim də səbrim tükəndi, dizlərim boşaldı. Səlmanın qəbrinin üzərinə yıxılaraq, hönkür-hönkür ağladım...

PEYĞƏMBƏR

Gəminin gəlməsi

Seçilmiş və sevilən, öz gününün səhəri əl-Mustafa on iki il Orfales şəhərində onu geriyə, doğulduğu adaya qaytaracaq gəmisinin gəlməsini gözləyirdi. Və on ikinci ildə, sentyabr ayının yeddisində – biçin ayında o, qala divarlarından bayırda, bir təpənin başına çıxaraq dənizə sarı boylandı və dumanla bərabər yaxınlaşan gəmini gördü.

Ürəyinin qapıları taybatay açıldı və onun sevinci dənizdən çox uzaqlara uçdu. O, gözlərini qapadı və qəlbinin sakitliyində dua etdi.

Lakin təpəni enincə qüssə onu haqladı və o, ürəyində fikirləşdi:

«İndi mən qüssələnmədən və könül rahatlığı ilə necə gedim? Yox, ruhumu yaralamadan tərk edə bilməyəcəm mən bu şəhəri.

Uzun, çox uzun idi bu divarlar arasında keçirdiyim ağrılı günlər, tənhalıq dolu gecələr. Kim öz ağrısından və tənhalığından asanlıqla ayrıla bilir ki?

Bu küçələrə ruhumun çoxlu damlalarını səpələmişəm və bu təpələrin arasında həsrətimin çoxlu uşaqları dolaşır. Ayağı yalın, başı açıq; və mən onları ağrısız tərk edə bilmərəm.

Bu gün mən libasımı soyunmuram; yox, dərimi soyuram, öz əllərimlə.

Arxada düşüncələri deyil, aclıq və susuzluqdan incəlmiş ürəyimi qoyub gedirəm.

Lakin daha dözə bilmirəm.

Hamını özünə doğru səsləyən dəniz məni də çağırır və mən gəmiyə minməliyəm.

Qalmaq. Həyat saatlarının gecə uzunu yanmasına baxmayaraq, donmaq, buz bağlamaq və palçığın içində bərkimək deməkdir.

Burda qalanları necə həvəslə götürərdim özümlə. Lakin bu mümkünmü?

Səs ona qanad vermiş dil və dodağa artıq dözə bilmir. İndi o, özü, efir axtarışına çıxmalıdır, tək-tənha.

Qartal da öz yuvasını qayalarda qoyub günəşə sarı tək uçur».

Təpənin ətəyinə çatınca, o, bir daha dənizə sarı boylandı və gəmisinin limana yaxınlaşdığını gördü; gəminin göyərtəsində dənizçilər, – onun doğma torpağının adamları – durmuşdular.

Onun qəlbi qışqırıb onlara dedi:

«Mənim qədim anamın uşaqları, qabarmalar üstə çapanlar.

Yuxularımda neçə dəfə üzüb gəlibsiniz. İndi isə mən ayıq ikən gəlmisiniz və bu, mənim ən dərin yuxumdur.

Mən getməyə hazıram və həsrətimin bütün yelkənləri açıq halda küləyi gözləyir.

Yalnız bir daha köksümü ötürüm, bu sakit havada bir daha buraları məhəbbətlə seyr edim. Sonra isə mən sizinləyəm, dənizçilər arasında dənizçi.

Sən isə, geniş dəniz, yuxulu ana, çaylar və arxlar üçün yeganə rahatlıq və azadlıq məkanı, bu çay daha bir döngə burularaq açıqlıqda nəğməsini bir də oxuyacaq və mən sənə qovuşacam, sonsuz damla sonsuz okeana qatılan kimi».

Gedərkən o, uzaqdan öz tarla və üzümlüklərini tərk edib şəhər darvazalarına doğru tələsən kişi və qadınları gördü.

O, onların səslərini eşidirdi; onun adını çağırır, bir tarla-

dan o birinə qışqıraraq onun gəmisinin gəldiyini xəbər verirdilər.

O, öz-özünə dedi:

«Görəsən, ayrılıq günü görüş günü ola biləcəkmi?

Deyiləcəkmi ki, mənim qürubum, əslində, mənim səhərim idi?

Kotanını şumun içində qoyub gələnə və ya şərab presinin çarxını buraxıb gələnə mən nə verə biləcəm?

Mənim ürəyim bol meyvə gətirmiş bir ağaca dönə biləcəkmi ki, mən o meyvələri dərib adamları qonaq edim?

Arzularım necə, bulaq kimi çağlayacaqmı ki, gələnlərin piyalələrini doldura bilim?

Mən bir arfayammı ki, Qüdrət Sahibinin əli toxunsun, ya bir neyəmmi ki, nəfəsi içimdən keçsin?

Mən sükut axtarıcısıyam və görəsən, bu sükutda hansı xəzinəni tapmışam ki, indi onu inamla paylaşa biləm?

Əgər bu gün mənim biçin günümdürsə, görəsən, hansı unudulmuş fəsillərdə, hansı tarlalarda səpin səpmişəm?

Əgər bu, doğrudan da, mənim çıraq qaldıracaq saatımdırsa, onun içində alışacaq alov mənimki deyil.

Mən öz çırağımı boş və sönük qaldıracam

Gecənin gözətçisi özü çırağımı yağla dolduracaq və o da alışdıracaq».

* * *

O, bunları sözlərlə dedi. Lakin çox şey isə deyilməmiş qaldı ürəyində. Çünki özünün ən dərin sirrini ifadə etməkdə aciz idi.

Şəhərə girəndə, bütün camaat onu qarşılamağa çıxdı. Onlar bir ağızla onu çağırırdılar.

Şəhərin ağsaqqalları qabağa çıxaraq söylədilər:

«Tərk etmə bizi hələ.

Bizim alatoranlığımızın gündüzü oldun və sənin gənclinin bizə arzulamaq üçün arzular bəxş etdi.

Aramızda nə qərib, nə də qonaqsan; bizim oğlumuzsan, əzizimizsən.

Hələ nurunu itirməyib üzünə həsrət gözlərimiz».

Kahin və kahinələr də ona söylədilər:

«Qoyma dənizin dalğaları bizi ayırsın, aramızda keçirdiyin illər bir xatirəyə dönsün.

Bizim aramızda bir ruh kimi gəzirdin, kölgən isə üzümüzə işıq kimi düşürdü.

Səni çox sevirdik. Lakin dilsiz və ağızsız idi bizim sevgimiz, pərdə ilə örtülmüşdü.

İndi isə o, var gücü ilə səni çağırır və bütün aşkarlığı ilə qarşında görünəcək.

Həmişə belə olub məhəbbət ayrılıq saatınadək öz dərinliyini tanıya bilmir».

Digərləri də gəldilər və yalvardılar ona. Lakin o, cavab vermədi onlara. O, yalnız başını aşağı saldı və yaxında dayananlar onun göz yaşlarının sinəsinə necə düşdüyünün şahidi oldular.

O da, camaat da məbədin qarşısındakı böyük meydana yollandılar.

Orada səcdəgahdan əl-Mitra adlı bir qadın çıxdı. O, görücü idi.

Əl-Mustafa bu qadına hədsiz şəfqətlə baxdı, çünki bu, məhz həmin qadın idi ki, onun şəhərə gəldiyi bircə gün olmasına baxmayaraq hamıdan əvvəl onu tanımış və ona iman gətirmişdi. Qadın onu salamlayaraq dedi:

«Allahın Peyğəmbəri, əlçatmazın axtarışlarında sən uzun müddət öz gəmin üçün uzaq üfüqlər aradın.

İndi isə budur, sənin gəmin gəlmişdir və sən getməlisən.

Yaddaşında qalan torpaq və ali istəklərinin məkanı üçün çəkdiyin həsrət çox böyükdür və nə bizim sevgimiz sənin əl-qolunu bağlaya bilər, nə də bizim ehtiyaclarımız səni bu yoldan saxlaya bilər.

Səndən yalnız bircə istəyimiz var. Nə qədər ki, bizi tərk etməmisən danış bizimlə və öz həqiqətindən bizə də bəxş et.

Biz onu uşaqlarımıza ötürərik, onlar da öz uşaqlarına və o itməyəcək.

Öz tənhalığında sən bizim günlərimizin axarını müşahidə etmisən, öz oyaqlığında isə bizim yuxumuzun ağlamağını və gülməyini dinləmisən.

Odur ki, indi özümüzü göstər bizə, doğumla ölüm arasında olanlardan sənə nə açılıbsa hər şeyi danış bizə».

O cavab verdi:

«Orfalesin camaatı, mən qəlblərinizi hələ də riqqətə gətirən şeydən başqa nədən danışa bilərəm ki»?

Məhəbbət

Onda əl-Mitra dedi: «Məhəbbətdən danış bizə».

O, başını qaldırıb camaata baxdı. Camaatın üzərinə sükut çökdü.

O, uca səslə söylədi:

«Məhəbbət sizi nə zaman çağırsa, gedin onun arxasınca,

Baxmayın ki, yolları ağır və sərtdir.

Onun qanadları sizi ağuşuna alanda, müqavimət göstərməyin.

Baxmayın ki, qanadlarının arasında gizlənmiş qılınc sizi yaralaya bilər.

O, sizinlə danışan zaman inanın ona.

Baxmayın ki, şimal küləyi bağı viran qoyan kimi, onun səsi sizin arzularınızı darmadağın edə bilər.

Axı, məhəbbət başınıza tac qoydugu kimi, həm də çarmıxa çəkir.

Sizi böyütdüyü kimi, budayır da.

O, sizin zirvələrinizə yüksələrək günəşin şəfəqləri altında titrəşən ən zərif budaqlarınızı əzizləyir.

O, həm də sizin torpağa sığınmaq istəyən, köklərinizə doğru enir və onları titrədir.

Taxıl dərzləri kimi o sizi özündə toplayıb bağlayır.

Aşkarlanmanız üçün sizi üyüdür

Sizi qabıqdan ayırmaq üçün ələyir.

Ağarana qədər sürtür.

Yumşalanadək yoğurur.

Sonra sizi müqəddəs oda tapşırır ki, Allahın müqəddəs ziyafətində müqəddəs çörək ola biləsiniz.

Bütün bunları məhəbbət sizin başınıza ona görə gətirəcək ki, siz öz ürəyinizin sirrini dərk edəsiniz və bu biliklə Həyatın ürəyinin bir hissəsinə çevrilə biləsiniz.

Lakin əgər siz qorxaqcasına məhəbbətin yalnız sakitliyini və ləzzətini axtaracaqsınızsa, onda yaxşı olar ki, öz çılpaqlığınızı örtüb məhəbbətin xırmanından uzaqlaşasınız.

Elə bir fəsilsiz dünyaya ki, orada güləcəksiniz, amma tam gülüşünüzlə yox. Ağlayacaqsınız, amma gözüdolusu yox.

Məhəbbət özündən başqa heç nə vermir. Özündən başqa da heç nəyi geri almır.

Məhəbbət heç nəyə sahib deyil. Heç kimin də ona sahib olması mümkün deyil.

Zira, məhəbbət üçün məhəbbət bəsdir.

Əgər sevirsinizsə, deməyin ki, «Allah mənim ürəyimdədir». Daha düzgün olar ki, deyəsiniz: «Mən Allahın ürəyindəyəm».

Düşünməyin ki, məhəbbətə yol göstərə bilərsiniz,

Əgər sizi buna layiqli bilsə, o özü sizə yol göstərəcəkdir.

Məhəbbətin özünü gerçəkləşdirməkdən başqa heç bir arzusu yoxdur,

Lakin əgər siz sevirsinizsə və sizin hansısa arzularınız olmalıdırsa, qoy, sizin arzularınız bunlar olsun:

Ərimək və gecəyə öz nəğməsini oxuyan çay kimi axıb getmək.

Şəfqətin çoxluğundan ağrı hiss etmək.

Eşqi dərk etməyimizdən yaralanmaq.

Razılıq və sevinc hissi ilə qanına qəltan olmaq.

Səhərlər qanadlanmış ürəklə məhəbətin daha bir gününə görə şükranlıqlarını ifadə etmək; günorta saatında dincəlmək və eşqin ekstazını sezmək;

Qürub vaxtı evə minnətdarlıq duyğusu ilə qayıtmaq;

Sonra isə ürəyinizdə sevdiklərinizə üçün dua, dodaqlarınızda şükranlıq nəğməsi ilə yuxulamaq».

Nikah

Sonra yenidən əl-Mitra dilləndi və soruşdu: «Bəs nikah nə olan şeydir, ustad?»

O belə cavab verdi:

«Siz birlikdə doğulmusunuz və həmişə də birlikdə olacaqsınız.

Ölümün ağ qanadları günlərinizi pərən-pərən salanda da siz birlikdə olacaqsınız.

Bəli, hətta Allahın sükuta qərq olmuş yaddaşında da siz birlikdə olacaqsınız.

Lakin bu bərabərliyinizdə, qoyun, bəzi məsafələr qalsın.

Qoyun, cənnətin rüzgarları aranızda rəqs edə bilsinlər.

Bir-birinizi sevin, lakin məhəbbəti boyunduruğa çevirməyin.

Yaxşı olar ki, o, qəlblərinizin sahilləri arasında dalğalanan bir dəniz olsun.

Bir-birinizin camlarınızı doldurun, lakin bir camdan içməyin.

Bir-birinizlə çörəyinizi bölüşün, lakin bir tikədən yeməyin.

Birlikdə nəğmə oxuyun, rəqs edin və sevinin, lakin bir-birinizin ayrılığını pozmayın.

Udun simləri kimi. Onlar ayrı-ayrı olsalar da, bir musiqinin sədaları altında titrəşirlər.

Ürəklərinizi verin bir-birinizə, amma tutub saxlamağa yox.

Zira, yalnız Həyatın əlinə yerləşə bilər ürəkləriniz.

Yanaşı durun, lakin çox da yaxın yox.

Axı, məbədin sütunları da aralı dururlar,

Palıdla sərv isə bir-birinin kölgəsində bitmirlər».

Uşaqlar

Qucağında uşaq tutmuş bir qadın söylədi: «Uşaqlardan danış bizə».

Əl-Mustafa dedi:

«Sizin uşaqlar – sizin uşaqlarınız deyil.

Onlar Həyatın özünün özünə qarşı həsrətinin oğul və qızlarıdır.

Onlar sizin vasitənizlə gəlir, lakin sizdən gəlmirlər,

Sizinlə olmaqlarına baxmayaraq, sizə məxsus deyillər.

Siz onlara öz məhəbbətinizi verə bilərsiniz, amma öz fikirlərinizi yox.

Zira, onların öz fikirləri var.

Siz onların bədənlərinə sığınacaq verə bilərsiniz, amma ruhlarına yox.

Zira, onların ruhları sabahkı gündə sığınacaq tapmışdır, siz ora heç xəyalınızda belə gedə bilməzsiniz.

Siz onlar kimi olmağa can ata bilərsiniz, lakin onları özünüzə oxşatmağa çalışmamalısınız.

Axı, həyat geriyə axmır və dünəndə ləngimir.

Siz bir yaysınız ki, uşaqlarınız canlı oxlar təki sizdən irəliyə atılmışlar.

Nişançı sonsuzluq yolunda nişanını görür və O, sizi Öz qüdrəti ilə elə gərir ki, oxlar sürətlə və uzağa uça bilsinlər.

Qoy, sizin, Nişançı əlinə tabeliyiniz xoşbəxtlik gətirsin.

Zira, O, uçan oxu sevdiyi kimi, tərpənməz yayı da sevir».

Vermək

Onda varlı adam dedi : «Verməkdən danış bizə».

O, cavab verdi:

«Malınızdan verəndə, siz yalnız cüzi bir hissəni verirsiniz.

Özünüzdən verəndə isə həqiqətən vermiş olursunuz.

Zira, sizin malınız sabahkı günün qorxusundan yığıb saxladığınız şey-şüydən başqa nədir axı?

Bəs Sabah? İz saxlamayan qumda sümük basdıran və

zəvvarların arxasına düşüb müqəddəs şəhərə yollanan çox ehtiyatlı bir itə nə gətirə bilər ki, sabah?

Ehtiyac qorxusu özü bir ehtiyac deyilmi?

Susuzluq qorxusu quyularınızı ağzınacan yanğı ilə doldurmaqdan yaranmayıbmı?

Elələri var ki, malik olduqları çoxdan azını verirlər və bunu tanınmaq üçün eləyirlər. Onların gizli niyyətləri onların bəxşişlərini puça çevirir.

Lakin elələri də var ki, aza malikdirlər və onun hamısını verirlər.

Onlar həyata, həyatın səxavətinə inananlardır, gətirənlərdir və onların xəzinəsi heç zaman boşalmır.

Onlar o kəslərdir ki, sevinclə verirlər və sevinc onların mükafatı olur.

Elələri də var ki, ağrı ilə verirlər və bu ağrı onların vəftizi Xaç suyuna salınma olur.

Elələri də var ki, verirlər və bu zaman nə ağrı bilir, nə sevinc axtarırlar, nə də yaxşılıq etdiklərinin fərqində olurlar.

Onların verməyi, bax, o vadidəki mərsinin ətrini fəzaya yayması kimidir.

Allah belələrinin əlləri ilə danışır və onların gözləri ilə yer üzünə gülümsünür.

İstəyənə vermək yaxşı işdir, lakin istəməyənə anlayaraq vermək daha yaxşı işdir.

Səxavətli üçün ehtiyacı olanı aramaq sadəcə verməkdən daha böyük sevincdir.

Məgər elə bir şey varmı ki, onu özünüzdə saxlaya biləsiniz?

Nəyiniz varsa bir gün alınacaq.

Odur ki, indi verin, vermək mövsümünü varislərinizin öhdəsinə buraxmağa nə lüzum?

* * *

Çox vaxt deyirsiniz: «Mən verərdim, amma layiqli birisinə.»

Amma nə bağınızdakı ağaclar, nə də çəmənlərinizdəki sürülər belə demirlər.

Onlar verirlər ki, yaşaya bilsinlər, çünki verməmək onlarçün ölüm deməkdir.

Həqiqətən, öz gündüzlərini və gecələrini almağa layiq bilinən, sizdən də qalan hər şeyi almağa layiqdir.

Həyat okeanından içməyə layiq bilinmişdir, sizin kiçik arxınızdan öz camını doldurmağa layiqdir, əlbəttə.

Sizdən kömək almaq cəsarətindən, inamından və hətta mərhəmətindən də böyük layiqlilik varmı?

Axı, siz kimsiniz ki, insanlar sizin qarşınızda öz ürəklərini açmalı, vüqarlarını ayaqlarınızın altına sərməlidirlər ki, onların çılpaq mahiyyətlərinə baxıb layiqliklərini müəyyənləşdirə biləsiniz?

Birinci özünüzə baxın, verməyə və vermə aləti olmağa layiqsinizmi?

Zira, həqiqətdə, həyata verən həyatın özüdür, siz isə, özünüzü verən sayanlar, şahiddən başqa bir şey deyilsiniz.

Siz alanlar – və həqiqətdə hamınız alansınız – üzərinizə minnət yükünü götürməyin ki, nə özünüzün, nə də verənin boynuna boyunduruq keçirməyəsiniz.

Yaxşısı budur, verənlə bir yerdə, onun hədiyyəsi ilə qanadlanın göylərə.

Zira, öz borcun barədə çox düşünmək, anası məhsuldar

torpaq və atası Tanrı olanın ürəyinin səxavətinə şübhə etmək deməkdir».

Yemək və içmək

Sonra qoca bir karvansaraçı dilləndi: «Bizə yemək-içməkdən danış».

O dedi:

«Kaş ki, siz torpağın ətri hesabına yaşaya və bitki kimi işıqla qidalana biləydiniz.

Lakin bir halda ki, siz yeməkdən ötrü öldürməyə, susuzluğunuzu yatırtmaqdan ötrü körpələrin südünü oğurlamağa məcbursunuz, onda bunu elə edin ki, qoy, səcdəyə bənzəsin.

Qoy, süfrəniz müqəddəs qurbangah yeri olsun. Burada meşənin günahsız və təmiz varlıqları insanın daxilində yaşayan daha təmiz və daha məsum olana qurban verilsin.

Heyvanı öldürəndə ürəyinizdə deyin:

«Səni öldürən qüvvə ilə mən də öldürüləcəyəm və məni də yeyəcəklər.

Çünki, səni mənim əlimə təslim edən qanun məni daha qüdrətli Ələ təslim edəcəkdir.

Sənin və mənim qanım ilahi ağacın köklərini qidalandıran şirədən başqa bir şey deyil.»

Almanı dişləyəndə, ürəyinizdə ona deyin:

«Sənin toxumların mənim bədənimdə yaşayacaq,

Sənin sabahkı çiçəklərin mənim ürəyimdə açacaqdır.

Sənin ətrin mənim nəfəsim olacaq,

Keçən hər fəsilə biz birlikdə sevinəcəyik.»

Payızda üzümlüklərinizdən üzümü şərab presi üçün yığanda ürəyinizdə deyin:

«Əslində mən də üzümlüyəm və mənim də meyvələrim

beləcə şərab presinə yığılacaq cavan şərab kimi, məni də əbədiyyət küplərində gizləyəcəklər.»

Qışda bu şərabı açanda, ürəyinizdə hər bir qədəh üçün nəğməniz olsun;

Nəğmələrinizdə ötən payız günlərini, üzümlüyü və şərab presini bir daha xatırlayın».

Zəhmət

Sonra əkinçi dilləndi: «Bizə zəhmətdən danış».

O belə söylədi:

«Siz torpaqla və torpağın qəlbi ilə bərabər olmaq üçün işləyirsiniz.

Zira, bekar olmaq – fəsillərə yadlaşmaq, sonsuzluğa doğru möhtəşəm və vüqarlı itaətkarlıqla yeriyən həyat axınından ayrılıb itmək deməkdir.

Siz işləyəndə saatların pıçıltısını ürəyində musiqiyə çevirən neyə dönürsünüz.

Ətrafdakılar səs-səsə verib oxuduğu zaman, sizlərdən kim lal və səssiz-səmirsiz bir qamış olmağa razı olar?

Sizə həmişə deyiblər ki, iş – cəhənnəm əzabıdır, fiziki əmək isə – fəlakətdir.

Lakin mən sizə deyirəm ki, siz işləyəndə, torpağın ən ali istəyini həyata keçirmiş olursunuz.

Bu, sizin əzəli öhdəçiliyinizdir.

Zəhmətə qatlaşmaqla siz həqiqətən həyatı sevmiş olursunuz.

Zəhmət dolayısı ilə sevmək – həyatın ən gizli sirlərinə varmaq deməkdir.

Lakin siz ağrıya görə doğuluşu xəstəlik, bədəni çalışdır-

mağı isə alnınıza yazılmış lənət sayırsınızsa, onda mən deyirəm ki, alın yazısını məhz alın təri ilə yumaq mümkündür.

Sizə deyiblər ki, həyat – zülmətdir və öz yorğunluğunuzda digər yorğunların dediklərini əks-səda kimi təkrarlayırsınız.

Mən isə deyirəm ki, həyat həqiqətən də zülmətdir,

Əgər orda heç bir cəhd yoxdursa.

Hər hansı cəhd biliksiz kordur.

Hər hansı bilik də zəhmətsiz mənasızdır.

Əgər məhəbbət yoxdursa zəhmət də puçdur.

Yalnız məhəbbətlə işləyəndə siz özünüzü özünüzlə, digərləri ilə və Allahla bağlamış olursunuz.

Bəs məhəbbətlə işləmək nə deməkdir?

Bu, ürəklə əyirilən saplarla paltarı elə toxumaqdır ki, sanki onu sevgiliniz geyinəcəkdir.

Bu, evi elə bir hisslə tikməkdir ki, sanki onun içində sevgiliniz yaşayacaqdır.

Bu, toxumları elə şəfqətlə səpmək və məhsulu elə sevinclə yığmaqdır ki, sanki sevgiliniz yeyəcək bu meyvələri.

Bu, yaratdığınız hər bir əşyanı öz ruhunuzla doldurmaq,

bütün müqəddəslərin ətrafınızda duraraq sizi müşahidə etdiyini bilmək deməkdir.

Çox vaxt eşidirəm ki, yuxulu-yuxulu belə danışırsınız:

«Mərmərlə işləyən öz qəlbinin formasını daşda tapan torpağı şumlayan sadə əkinçidən daha yüksəkdir.

Göy qurşağını kətana köçürə bilən bizim ayaqlarımız üçün çarıq toxuyandan daha artıqdır.»

Lakin mən sizə deyirəm, özü də yuxulu yox, günorta ayıqlığında.

Külək kiçicik bir otla nəhəng palıddan daha az nəzakətlə danışmır.

Həqiqətən o kəs böyükdür ki, küləyin səsini məhəbbətindən şirinləşmiş nəğməyə çevirə bilir.

Zəhmət – görünən məhəbbətdir.

Əgər məhəbbətlə işləyə bilmirsinizsə və iş sizdə ikrah yaradırsa, yaxşı olar ki, işi dayandırasınız və məbədin qapılarının ağzında oturub sevinclə işləyənlərdən sədəqə istəyəsiniz.

Zira, çörəyi biganəliklə bişirirsinizsə, deməli, dadsız çörək bişirirsiniz, insanın aclığını da doyurmaz.

Üzümü də narazılıqla sıxırsınızsa, sizin narazılığınız zəhər olub şərabınıza qarışacaq.

Siz lap mələk kimi oxusanız belə, əgər oxumağınızda eşq yoxdursa, yalnız gündüzün və gecənin səsini batırmış olursunuz».

Sevinc və kədər

Daha sonra bir qadın dilləndi: «Sevinc və Kədərdən danış bizə».

O, cavab verdi:

«Sizin sevinciniz üzündən maskası düşmüş kədərinizdir.

O quyudan ki, sizin gülüşünüz yüksəlir, onu dəfələrlə doldurmusunuz göz yaşlarınızla.

Və başqa cür də necə ola bilər axı?

Kədər içinizi nə qədər dərin qazıbsa, varlığınız bir o qədər sevinc tuta bilər.

İçinə şərab süzdüyünüz piyalə, həmin o piyalə deyilmi ki, dulusçu sobasında bişirilib əvvəlcə?

Məgər ruhunuzu oxşayan bu ud, həmin o ağac deyilmi ki, əvvəlcə bıçaqlarla oyulub?

Sevinəndə ürəyinizin dərinliyinə boylanın və onda görərsiniz ki, sizə indi sevinc gətirən əvvəl sizi kədərləndirərdi.

Kədərlənəndə yenə ürəyinizin dərinliyinə boylanın və görəcəksiniz ki, əslində indi yasını tutduğunuz əvvəl sizin heyrət mənbəyiniz idi.

Bəziləriniz: «Sevinc kədərdən artıqdır,» digərləriniz isə: «Yox, kədər daha böyükdür,»– deyəcək.

Lakin mən sizə deyirəm: onları ayırmaq olmaz.

Onlar birlikdə gəlirlər. Əgər biri indi səninlə süfrə başındadırsa, əmin ol ki, digəri çarpayında dincəlir.

Həqiqətdə siz tərəzinin oxu kimisiniz – öz kədəriniz və sevinciniz arasında. Yalnız boş olanda sakitləşir, tarazlıqda olursunuz.

Hər dəfə Xəzinədar öz qızıl-gümüşünü sizdə çəkmək istəyəndə, sizin sevinc və kədəriniz qalxır-düşür».

Evlər

Bir bənna qabağa çıxaraq söylədi: «Evlərdən danış bizə».

O, belə cavab verdi:

«Şəhər divarları arasında ev tikəndə təsəvvür edin ki, vəhşi təbiətin ortasında bir alaçıq tikirsiniz.

Daxilinizdəki qərib yolçu alatoranlıqda evini axtaranda onu tapa bilsin.

Eviniz sizin genişlənmiş bədəninizdir.

O, günəş altında böyüyür və gecənin sakitliyində uyuyur. Əlbəttə, onun da öz yuxuları var.

Elə bilirsiniz, eviniz yuxu görmür? Yuxularında şəhəri tərk edərək meşəliyə, yaxud təpənin başına səyahət etmir?

Kaş ki, yığa biləydim evlərinizi ovcuma. Onda mən bir səpinçi kimi səpələyərdim onları meşələrə, düzlərə.

Onda vadilər sizin küçələriniz, yaşıl cığırlar isə xiyabanlarınız olardı. Siz bir-birinizi üzümlüklərin arasında axtarardınız və gələndə paltarlarınızda torpağın qoxusunu gətirərdiniz.

Amma bunun vaxtı hələ gəlib çatmamışdır.

Əcdadlarınız qorxularından bir-birlərinə çox sıx yaxınlaşmışlar.

Bu qorxu hələ bir müddət çəkəcək. Bu qala divarları hələ bir müddət də ocaqlarınızı çəmənlərinizdən ayıracaq.

Deyin mənə, ey Orfalesin camaatı, bu evlərdə nəyiniz var? Bağlı qapılar arxasında qoruduğunuz nədir axı?

Orda qüdrətinizin nişanəsi olan sülh və sakitlik varmı?

Orda xatirələriniz – insan idrakının zirvələrini bir-birinə bağlayan sayrışan tağlar – varmı?

Orda elə bir gözəllik varmı ki, taxtadan və daşdan düzəldilmiş əşyalardan ayırıb ürəyi müqəddəs dağa doğru yönləndirsin?

Deyin görüm, bütün bunlar evlərinizdə varmı?

Yoxsa siz ancaq rahatlığa və rahatlıq hərisliyinə maliksiniz? Bu, gizlincə evinizə qonaq kimi daxil olur, sonra ona yiyələnir və nəhayət, ağasına çevrilir.

Hə, o, bir heyvan təlimçisinə çevrilərək, qarmaq və qamçı ilə sizin ən böyük ehtiraslarınızı özünə ram edir.

Əlləri ipək kimi olsa da, onun ürəyi dəmirdəndir.

O, sizi ona görə yuxuya verir ki, çarpayınızın başında durub cisminizin ləyaqətini ələ sala bilsin.

O, sizin sağlam hisslərinizə rişxənd edərək onları saxsı qablar kimi qanqallığa tullayır, mənasızlaşdırır.

Beləcə, rahatlıq həvəsi qəlbin qüdrətini məhv edərək onun dəfnində irişə-irişə addımlayır.

Lakin sizə – fəzanın övladlarına, yuxularında belə dincəlməyənlərə – nə tələyə düşmək, nə də əhliləşmək yarayar.

Lövbər yox, dor ağacı olmalıdır sizin eviniz.

O, yaranı gizləyəcək parıltılı lent yox, gözləri qoruyan göz qapağı olmalıdır.

Qapıdan keçə bilmək üçün qanadlarınızı yığmayın, tavana dəyməsin deyə başınızı aşağı əyməyin, divarlar çatlayıb dağılacaq deyə nəfəs almaqdan qorxmayın.

Ölülərin dirilər üçün yaratdığı məzarlıqda yaşamaq sizə yaraşmaz.

Necə gözəl və zəngin olsa belə eviniz, o nə sizin sirrinizi gizləyə biləcək, nə də həsrətinizə sığınacaq olacaq.

Zira, daxilinizdəki sonsuzluq qapıları səhər dumanından, pəncərələri isə nəğmələrdən və gecənin sakitliyindən ibarət göy sarayına sığa bilər yalnız».

Geyim

Toxucu: «Bizimlə Geyim barədə danış»,– dedi.

O, cavab verdi:

«Geyiminiz sizin gözəlliyinizin çox hissəsini örtür, lakin sizdəki eybəcərliyi gizlədə bilmir.

Hərçənd ki, libaslarınızda sirr saxlamaq azadlığı axtarırsınız, ancaq siz onlarda boyunduruq və zəncir də tapa bilərsiniz.

Yaxşı olardı ki, günəşi və küləyi daha çox dərinizlə qarşılayaydınız, nəinki paltarınızla.

Axı, həyatın nəfəsi gün işığında, həyatın əli isə küləkdədir.

Bəzilərniz deyir: «Məgər geydiyimiz paltarı şimal küləyi özü toxumayıbmı?»

Bəli, mən də deyirəm – bu, şimal küləyi idi.

Amma onun toxucu dəzgahı – həya, ipləri isə ərköyünlüyünüz idi.

İşini bitirəndən sonra o sizə gülürdü meşədə.

Unutmayın ki, utancaqlıq natəmizlərin gözündən qorunmaq üçün qalxandır.

Natəmizlər qalmayanda, utancaqlıq ağılın əsarətindən və aldanışından başqa nə olacaq ki?

Unutmayın ki, torpaq sizin yalın ayaqlarınızın təmasından həzz alır, küləklərsə saçlarınızla oynamaq həsrətindədir».

Alış-veriş

Bir tacir söylədi: «Alış-verişdən danış bizə».

O, belə cavab verdi:

«Torpaq öz meyvələrini sizin üçün yetişdirir, lakin siz təkcə öz əllərinizi doldurmağı öyrənmisinizsə onlardan bəhrələnə bilməyəcəksiniz.

Çünki yalnız torpağın nemətlərinin mübadiləsində siz bolluq tapa bilər və ehtiyaclarınızı ödəyərsiniz.

Lakin bu mübadilə məhəbbət və ədalətlə həyata keçirilmirsə, o, bəzilərinizi hərisliyə, digərlərinizi isə aclığa gətirib çıxaracaq.

Siz – dənizin, tarlaların və üzümlüklərin zəhmətkeşləri – bazarda toxucularla, dulusçularla və ədvaçılarla görüşəndə, yerin Ruhunu çağırın, gəlib dursun aranızda, tərəzilərinizi və haqq-hesabınızı işıqlandırsın.

İmkan verməyin ki, sizin sövdələşmələrinizdə avaralar, iş əvəzinə boşboğazlıq satanlar iştirak etsinlər.

Belələrinə deyin: «Gedək bizimlə tarlaya, yaxud çıxın qardaşlarınızla dənizə və siz də tor atın;

Torpaq da, dəniz də bizə qarşı olduğu kimi, sizə də səxavətli olacaqdır.»

Əgər müğənnilər, rəqqaslar və ney çalanlar gəlsələr onların da nemətlərindən alın.

Zira, onlar da meyvə və ətir yığanlardırlar. Gətirdikləri yuxulardan toxunsa da, ruhunuza qida və geyimdir.

Bazarı tərk etməzdən əvvəl diqqət edin ki, heç kim evinə əliboş yollanmasın.

Əgər içinizdəki ən balacanın da ehtiyacları ödənməyibsə, yerin Ruhu küləyin altında rahat yata bilməyəcək».

Cinayət və Cəza

Sonra şəhərin hakimlərindən biri qarşıya çıxaraq dedi: «Bizə Cinayət və Cəzadan danış».

O, belə cavab verdi:

«Ruhunuz rüzgar qabağına düşüb avaralanmağa gedəndə,

siz tənha və müdafiəsiz olanda, başqalarına və dolayısı ilə özünüzə zülm etmiş olursunuz.

Etdiyiniz bu zülmə görədir ki, müqəddəsliyin qapısını döyərək bir müddət unudulmuş kimi gözləməyə məcbursunuz.

Sizin ilahi mənliyiniz bir okean kimidir,

O, əsla çirkləndirilə bilməz.

O, bir efir kimi yalnız qanadı olanları yüksəyə qaldırır.

Hətta sizin ilahi mənliyinizin günəşə də bənzəri var;

O nə köstəbək yolları tanıyar, nə ilan deşiyi axtarar.

Lakin ilahi mənliyiniz içinizdə yalnız deyildir.

İçinizdə insani çox şey var, lakin bir çox şey hələ də insanlaşmasını gözləyir.

O, bir biçimsiz cırtdan kimidir, duman içində yuxulu-yuxulu öz oyanışını arayır.

İndi içinizdəki insandan danışmaq istəyirəm.

Zira, cinayətin və cinayətə görə cəzanın nə olduğunu bilən içinizdəki ilahi məniniz, yaxud yuxulu cırtdan deyil, məhz odur.

Tez-tez eşitmişəm bunu sizdən,

Zülm etmiş adam haqqında elə danışırsınız ki,

guya o sizlərdən birisi olmayıb, dünyanıza soxulmuş bir yaddır.

Mən isə deyirəm: müqəddəs və mömin olan, daxilinizdəki alilikdən yüksəyə qalxa bilmədiyi kimi, eləcə zalım və zəif olan da, həmçinin, daxilinizdə gəzdirdiyiniz alçaqlıqdan aşağı enə bilməz.

Bir yarpaq bütövlükdə ağacın səssiz razılığı olmadan sarala bilmədiyi kimi, sizin hamınızın buna gizli razılığınız olmasa zalım da öz pis əməlini eləyə bilməz.

Sanki bir izdiham kimisiniz, birlikdə yeriyirsiniz öz ilahi mənliyinizə doğru.

Siz həm yol, həm də yolçularsınız.

Əgər biriniz yıxılırsa, o, arxadan gələni ayaq altdakı daşdan xəbərdar etmək üçün yıxılır.

Lakin yıxılan, həm də, qabaqda gedənlərə görə yıxılmış olur; ayaqdan möhkəm və iti olmaqlarına baxmayaraq, o daşı yoldan götürməmişlər.

Bir söz də deyəcəm, ürəyinizə ağırlıq gətirəcək olsa belə:

Öldürülənin öz ölümündə təqsiri yox deyil.

Soyulanın soyğuna məruz qalanda günahı yox deyil.

Zalımın zülmündə möminin də günahı vardır.

Xatakar pis iş tutanda əlləri təmiz olan da təmiz qalmır.

Bəli, çox zaman məhkum zərərçəkmişin qurbanı olur.

Çox zaman da məhkum olunmuş günahlandırılmayan və mühakimə edilməyənin yükünü daşımış olur.

Siz haqlını haqsızdan və yaxşını pisdən seçə bilmirsiniz.

Zira, ağ sapla qara sap birlikdə toxunan kimi onlar günəşin qarşısında birgə dayanmışlar.

Qara sap qırılır, toxucu bütün parçanı gözdən keçirməli, dəzgahı da yoxlamalıdır.

Əgər aranızda birisi öz xəyanətkar arvadını məhkəməyə çəkmiş olsa, qoy, onda ərin də ürəyini tərəzidə çəksinlər. Ölçsünlər dəqiqliklə onun ruhunu.

Qoy, incidəni şallaqlayacaq adam əvvəlcə incidilmişin ruhuna da boylansın.

Aranızdan bir kimsə haqq naminə şər ağacını baltalamağa qalxıbsa, qoy, onun köklərinə də diqqətlə baxsın.

Həqiqətən də, o, xeyir və şər, bəhrəli-bəhərsiz bütün kökləri yerin səssiz-səmirsiz ürəyində bir-birinə sarmaşmış halda görəcəkdir.

Siz, ədalətli olmalı olan hakimlər, əlləri təmiz, ruh isə oğru olana nə hökm çıxaracaqsınız?

Bəs əlləri ilə qatil, ruhu ilə zülmün qurbanı olana hansı cəzanı layiq biləcəksiniz?

Davranışında yalançı və qəddar olan, lakin özü də incidilmiş və alçaldılmış birisini necə təqib edərdiniz?

Bəs çəkdiyi peşmançılığı artıq çoxdan xatasını üstələdiyi birisini necə mühakimə edərsiniz?

Məgər sizin xidmət etdiyiniz ədalət məhkəməsinin əsl hədəfi elə peşmançılıq deyilmi?

Hər bir halda, siz nə günahsıza peşmanlıq çəkdirmək, nə

də günahkarın ürəyindəki peşmanlığı ordan çıxarıb atmaq gücündə deyilsiniz.

O, gecələr çağrılmadan gəlir. Gəlir ki, insanlar oyanıb özlərinə baxa bilsinlər.

Ey ədaləti anlamalı olan kimsələr, əgər bütün işlərə gün işığında baxmasanız bunu necə edə bilərsiniz?

Yalnız o zaman anlayacaqsınız ki, ayaq üstə olan və yıxılan – əslində öz cırtdan mənliyinin gecəsi ilə ilahi mənliyinin gündüzü arasındakı alatoranlıqda gəzişən eyni insandır.

Məbədin guşə daşı təməldə duran ən altdakı daşdan heç də yüksəkdə deyil».

Qanunlar

Sonra bir hüquqşünas soruşdu: «Ustad, bizim qanunlar barədə nə deyərdin?»

O, cavab verdi:

Qanun qoymaqdan xoşunuz gəlir. Lakin onları pozanda daha çox həzz alırsınız.

Okean sahilində oynayan uşaqlar kimisiniz, inadla qum qalaları ucaldırsınız ki, sonra gülərək onları uçurasınız.

Amma başınız bu qum qalalarını tikməyə qarışıq ikən, okean sahilə bir xeyli qum yenə gətirir.

Siz onları dağıdıb uçuranda, okean da sizə qoşularaq gülür.

Həqiqətən, okean həmişə məsumlarla birgə gülür.

Bəs o kəslərə nə deyəsən ki, onlar üçün həyat okeanı, insanın yaratdığı qanunlar isə qum qalalarını xatırlatmır.

O kəslərə ki, onlar üçün həyat qaya, qanunlar isə külüngdür, istədikləri kimi çapırlar həyatı.

Onlara nə deyəsən?

Neyləyəsən rəqqaslara nifrət edən topala?

Neyləyəsən öz boyunduruğuna vurğun öküzə ki, meşədəki sığın və maralı avara və sərgərdan sayır?

Bəs toya hamıdan tez gələn, yeyib, içib yorulan, evinə gedəndə isə bütün şənlikləri zorakılıq, bütün şənlənənləri isə qanun pozucuları adlandırana nə deyəsən?

Nə deyə bilərəm ki, mən belələri haqqında?

Onlar da gün işığının altında durublar, amma arxaları günəşə doğrudur.

Onlar yalnız öz kölgələrini görə bilirlər və onların kölgələri onlar üçün qanundur.

Günəş bir kölgə istehsalçısından savayı nədir onlar üçün?

Məgər qanunları tanımaq, əyilib yerdəki kölgələri izləməkdən başqa bir şeydirmi? Amma sizi, üzü günəşə doğru yeriyənləri, yerə çəkilmiş hansısa şəkillər saxlaya bilərmi?

Siz, küləklə birgə səyahət edənlər, hansı yelqovan sizə yol göstərə bilər ki? Əgər siz boyunduruğunuzu qırarkən başqasının dustaqxanasının qapısına toxunmamısınızsa insanın yaratdığı hansı qanunlar sizin əl-qolunuzu bağlaya bilər?

Əgər rəqs edərkən, başqasının dəmir zəncirlərinə ilişmirsinizsə hansı qanundan qorxacaqsınız?

Əgər siz libasınızı cırarkən onu bir kimsənin cığırına tullamamısınızsa kim sizi məhkəməyə çəkə bilər?

Orfalesin camaatı, siz dəfin səsini ala, udun simlərini boşalda bilərsiniz, bəs torağayı kim susdura bilər»?

Azadlıq

Natiq dilləndi: «Bizə azadlıqdan danış».

O, dedi:

«Şəhər qapılarında və ocaqlarınızın başında, sizin öz aza-

dlığınız qarşısında necə əyilib, səcdə etdiyinizi görmüşəm; eyni ilə qullar öz zülmkarı qarşısında beləcə alçalır və onu öyürlər; baxmayaraq ki, o onları öldürməkdə davam edir.

Hə, məbədin meşəliyində və qalanın kölgəsində aranızda ən azad sayılanları azadlığı boyunduruq və qandal kimi geyinərək daşıdıqlarını görmüşəm.

Ürəyim qan ağlayır içimdə. Zira, siz o zaman azad ola bilərsiniz ki, hətta azadlığı axtarmaq arzusunun özü belə sizin üçün artıq bir yükə çevriləcək və siz azadlıq haqqında bir məqsəd və həyatın mənası haqqında danışırmış kimi danışmayacaqsınız.

Siz o zaman həqiqətən azad olacaqsınız ki, günləriniz qayğısız, gecələriniz isə ehtiyac və qüssədən uzaq olacaq.

O zaman ki, bütün bunlar həyatınızı saranda belə, siz çılpaq və bağlanmamış halda onların üzərinə yüksələ biləcəksiniz.

İdrakınızın səhərində öz günorta saatınızın ətrafına doladığınız zəncirləri qırmasanız öz gecə və gündüzləriniz üzərinə necə yüksələ bilərsiniz?

Əslində sizin azadlıq adlandırdığınız – zəncirlərin ən möhkəmidir, hərçənd ki, onun halqaları günəşdə parıldayır və gözlərinizi qamaşdırır.

Azad olmaq üçün qırıb atmaq istədiklériniz məgər sizin mənliyinizin parçaları deyilmi?

Əgər ləğv etmək istədiyiniz ədalətsiz qanundursa, bu qanunu özünüz öz əllərinizlə yazmısınız öz alnınıza.

Hüquq kitablarınızı yandırmaqla silə bilməzsiniz onu; hakimlərinizin alnından da yuya bilməyəcəksiniz onu, lap bütöv bir dənizi onların üstünə töksəniz belə.

Əgər taxtdan salmaq istədiyiniz despotdursa, əvvəlcə baxın, görün içinizdə onun üçün ucaltdığınız taxt hələ dururmu?

Zira, azad və vüqarlıları tiran necə idarə edə bilər, əgər onların azadlığında bir tiranlıq və vüqarlarında bir ayıb olmasa?

Əgər canınızı qurtarmaq istədiyiniz qayğıdırsa, bilin ki, onu sizə sırımayıblar – özünüz seçmisiniz.

Əgər qovmaq istədiyiniz qorxudursa, o sizin ürəyinizdə oturub, qorxudanın əlində deyil.

Həqiqətən, varlığınızda hər şey yarı qucaqlaşmış halda daim hərəkətdədir; arzuladığınız və qorxduğunuz, ikrah etdiyiniz və sevdiyiniz, təqib etdiyiniz və uzaq qaçdığınız.

Bütün bunlar içinizdə işıq və kölgə kimi cüt gəzişirlər.

Kölgə ağararaq yox olanda, sönməkdə olan işıq başqa bir işığın kölgəsinə çevrilir.

Beləcə sizin azadlığınız da qandallarını itirəndə, daha böyük azadlığın qandallarına çevrilir».

Ağıl və Ehtiras

Yenidən məbədin kahinəsi dilləndi və söylədi: «Bizimlə Ağıl və Ehtiras barədə danış».

O belə cavab verdi:

«Çox zaman qəlbiniz döyüş meydanını xatırladır; ağıl və dərrakəniz ehtiras və meyllərinizə qarşı müharibə aparırlar bu meydanda.

Kaş, mən sizin qəlbinizdə sülh yarada biləydim, sizin hissələriniz arasındakı qarşıdurma və rəqabəti vəhdət və harmoniyaya çevirəydim!

Lakin mən bunu necə edə bilərəm, əgər siz özünüz öz

daxilinizdə sülh yaratmasanız və bir-birinizi və hər bir hissənizi sevməsəniz?

Sizin ağlınız və ehtirasınız – dənizdə üzən ruhunuzun sükanı və yelkənləridir.

Əgər sizin yelkənləriniz cırılmış və ya sükanınız qırılmışsa, siz yalnız axına düşüb hara gəldi gedərsiniz, yaxud dənizin ortasında hərəkətsiz qalarsınız.

Zira, təkbaşına idarə edən ağıl məhdudlaşdırıcı qüvvə, nəzarətdən çıxan ehtiras isə özünü yandırıb külə döndərən alovdur.

Odur ki, qoyun, ruhunuz ağlınızı ehtiras səviyyəsinə yüksəltsin ki, o, nəğmə oxuya bilsin; qoyun, ruhunuz ehtirasınızı ağılla istiqamətləndirsin ki, ehtiras hər gün dirilərək yaşaya bilsin; və simurq quşu kimi öz külünün içindən pərvazlansın.

İstərdim ki, düşüncə və istəklərinizə evinizin iki ən əziz qonağı kimi yanaşasınız; yəqin ki, qonağın birini digərindən üstün tutmazsınız;

Zira, birinə aşırı diqqətli olan kəs, hər ikisinin sevgi və etibarını itirmiş olur.

Təpələr arasında, ağ qovaqların kölgəsində oturaraq uzaqdakı çöl və çəmənlərin sakitliyini və əmin-amanlığını bölüşərkən icazə verin, ürəyiniz öz sükutunda söyləsin: «Allah ağılda dincəlir».

Lakin tufan qopub qüvvətli külək meşəni silkələyəndə, ildırım və şimşəklər göylərin əzəmətindən xəbər gətirəndə, icazə verin, ürəyiniz öz həyəcanında dillənsin: «Allah ehtirasda hərəkət edir».

Bir halda ki, siz İlahi aləmin nəfəsi və İlahi meşənin yarpaqlarısınız, onda siz də ağılda dincəlib ehtirasda hərəkət edin.

Ağrı

Bir qadın dilləndi: «Ağrıdan danış bizə».

O dedi:

«Sizin ağrınız – idrakınızın qabığının sındırılmasıdır.

Meyvə çəyirdəyinin içini işığa çıxarmaq üçün onu sındırmaq lazım olduğu kimi, siz də ağrını yaşamalısınız.

Əgər ürəyiniz gündəlik həyatınızın möcüzələrinə təəccüblənmək qabiliyyətini saxlaya bilsəydi, onda ağrı sizə sevincdən az maraqlı görünməyəcəkdi;

Siz ürəyinizin mövsümlərini zəmilərinizin üzərindən keçən fəsillər kimi qəbul edərdiniz.

Sakitcə aləmi öz kədərinizin qışından müşahidə edərdiniz.

Ağrının çoxunu özünüz seçmisiniz.

Bu bir acı dərmandır ki, onun vasitəsi ilə Loğman sizin xəstə mənliyinizi sağaldır.

Odur ki, Loğmana etibar edin və onun dərmanını sükut və itəatkarlıqla için.

Zira, onun əli ağır və sərt olsa da, Görünməzin qayğıkeş əli ilə istiqamətləndirilir.

Sizə uzatdığı piyalə dodaqlarınızı yandırsa da, o, Dulusçunun müqəddəs göz yaşları ilə isladılmış palçıqdan düzəldilmişdir».

Özünüdərk

Bir kişi dilləndi: «Özünüdərkdən danış bizə».

O belə cavab verdi:

«Sizin ürəkləriniz öz sükutunda gündüz və gecələrin sirrini bilir.

Lakin qulaqlarınız ürəklərinizin bildiyini eşitmək həsrətindədir.

Həmişə fikirlərinizdə bildiyinizi sözlərdə də tanımaq istərdiniz.

Arzularınızın çılpaq bədəninə barmaqlarınızla toxunmaq istərdiniz.

Bu, yaxşıdır.

Ruhunuzun gizli bulağı qaynamalı və şırıltı ilə dənizə doğru axmalıdır; onda sonsuz dərinliyinizin xəzinəsi gözləriniz önünə açılacaq.

Naməlum xəzinənizi tərəzidə çəkməyə can atmayın; biliyinizin dərinliyini xətkeşlə ölçməyə çalışmayın.

Zira, Məniniz sərhədsiz və ölçüsüz bir dənizdir.

Deməyin: «Mən Həqiqəti tapmışam», yaxşı olar deyəsiniz: «Mən bir həqiqət tapmışam».

Deməyin: «Mən ruhun yolunu tapmışam».

Yaxşı olar deyəsiniz: «Mən mənim yolumla gedən ruha rast gəlmişəm».

Zira, ruh bütün yollardan istifadə edir.

Ruh yalnız bir istiqamətdə hərəkət etmir və qamış kimi bitmir.

Sonsuz ləçəkli şanagüllə kimi açılır ruh».

Müəllimlik

Sonra bir müəllim söylədi: «Bizə Müəllimlikdən danış».

O dedi:

«Heç kim sizə biliyinizin səhərində mürgülü şəkildə artıq mövcud olandan başqa bir şey aça bilməz.

Məbədin kölgəsində, tələbələrinin müşayəti ilə gedən

müəllim öz müdrikliyi ilə deyil, inamı və eşqi ilə bölüşür əslində.

Əgər o doğrudan da müdrikdirsə, onda o sizi öz müdrikliyinin kandarından keçirməyə çalışmayacaq, əksinə, sizi öz ağlınızın qapısına gətirəcəkdir.

Astronom kosmosu necə anladığından danışacaq, amma sizə öz anlamını verə bilməyəcək.

Musiqiçi sizə bütün fəzanı dolduracaq ritmi oxuya bilər, lakin o sizə nə bu ritmi tuta biləcək qulaq və nə bu ritmi təkrarlayacaq səs vermək iqtidarındadır.

Rəqəmlər elminə vaqif olan da sizə yalnız çəki və ölçülər dünyasından danışa bilər, sizi ora sala bilməz.

Zira, bir adamın idrakının qanadları başqasına borc verilə bilməz.

Hər biriniz Allahın biliyində ayrıca dayandığınız kimi, Allahı tanımaqda və yeri anlamaqda da hər biriniz öz ayrılığını pozmamalıdır».

Dostluq

Bir gənc xahiş elədi: «Dostluqdan danış bizə».

Əl-Mustafa belə cavab verdi:

«Sizin dostunuz sizin gerçəkləşən ehtiyaclarınızdır.

O, sizin məhəbbətlə əkdiyiniz və məhsulunu minnətdarlıqla yığdığınız tarlanızdır.O, sizin süfrəniz və sizin ocağınızdır. Çünki siz onun yanına öz aclığınızla gəlir və onda sakitlik axtarırsınız.

Dostunuz fikrini sizinlə bölüşəndə, özlüyünüzdə «yox» deməyə çəkinməyin, «hə»ni isə içinizdə saxlamayın.

O susanda belə ürəyinizdə onu dinləməkdə davam edin.

Zira, dostluqda bütün fikirlər, bütün arzular, bütün ümid-

lər səs-küyü sevməyən bir sevinc içində sözsüz doğulur və paylaşılır.

Dostunuzdan ayrı düşəndə kədərlənməyin;

Zira, onda ən çox sevdiyiniz onun yoxluğunda daha aydın bilinir, alpinistə dağ düzənlikdən daha yaxşı göründüyü kimi.

Qoyun, dostluqda ruhani dərinləşmədən savayı heç bir təmənnanız olmasın.

Zira, öz sehrinin açılmasından savayı başqa bir şeydə də marağı olan məhəbbət – məhəbbət deyil, təhərsiz atılmış tordur ki, ona yalnız faydasız şeylər düşə bilər.

Qoyun, sizdə ən yaxşı şey – dostunuz üçün olsun.

Əgər o sizin dənizinizin çəkilməsini bilməlidirsə, qoyun, o həm də sizin qabarmanızı tanısın.

Zira, nəyinizə lazımdır sizə o dost ki, onu yalnız vaxtınızı öldürmək üçün arayırsınız.

Onu yalnız vaxtınızı yaşamaq üçün arayın!

Zira, dost sizin ehtiyaclarınızı ödəmək üçündür, daxilinizdəki boşluğu doldurmaq üçün yox.

Qoyun, gülüş və paylaşılan sevinclər dostluğunuzu şirinləşdirsin.

Zira, xırdalıqların şehində ürək öz səhərini açır və təravətləndirir».

Nitq

Sonra alim dedi: «Nitqdən danış».

O belə cavab verdi:

«Siz fikirlərinizlə düz gəlməyəndə danışmağa başlayırsınız.

Daha ürəyinizin tənhalığına sığmayanda, dodaqlarınıza

köçür, orada yaşamaq istəyirsiniz və bu zaman səs də yalnız əyləncə və oyun olur. Söhbətlərinizin çoxunda fikir yarıölü haldadır.

Zira, fikir azad bir quşdur, söz qəfəsində qanadlarını gərsə də, uça bilmir.

Aranızda elələri var ki, tənhalığın qorxusundan çoxdanışan birisini axtarır.

Tənhalığın sükutunda gözləri qarşısında onların çılpaq mahiyyətləri açılır; onlar isə qaçırlar bu məqamdan.

Elələri də var ki, söhbətin gedişində özləri də bilmədən, anlamadıqları həqiqəti aşkarlamış olurlar.

Lakin elələri də var ki, həqiqəti sözlərlə ifadə etməsələr də özlərində daşıyırlar.

Belələrinin köksündə ritmik sükutla ruh yaşayır.

Yolda, yaxud bazarda dostunuzla rastlaşanda, qoyun, dodaqlarınızı tərpədən və dilinizi yönəldən ruhunuz olsun.

Qoyun, səsinizin səsi onun qulağının qulağı ilə söhbətləşsin.

Zira, onun qəlbi şərabın dadını yadda saxlayan kimi sizin ürəyinizin həqiqətini qoruyub saxlayacaqdır.

Şərabın rəngi belə unudulanda, qabını da tapmaq artıq mümkün deyil».

Zaman

Astronom soruşdu: «Ustad, bəs zaman necə?»

O, cavab verdi:

«Siz zamanı – ölçüsüz olanı və ölçüyə gəlməyəni ölçmək istəyirsiniz.

Siz öz davranışınızı və hətta ruhunuzu saatlara və fəsillərə uyğunlaşdırmaq, tabe etdirmək istəyirsiniz.

Zamandan çay düzəltmək və onun sahilində oturub onun axınına tamaşa etmək istəyirsiniz.

Buna baxmayaraq, sizdəki zamansız olan həyatın zamansızlığını dərk edir.

Bilir ki, dünən bu günün xatirəsi, sabah isə bu günün arzusudur.

Daxilinizdə nəğmə oxuyan və düşünən hələ də ulduzları fəzaya səpələyən o ilk anda yaşamaqdadır.

Aranızda kim hiss eləmir ki, onun sevgisinin gücü sonsuzdur?

Kim eyni zamanda hiss eləmir ki, sonsuz olmağına baxmayaraq, məhəbbət onun varlığının mərkəzində cəmlənmişdir; aşiqanə fikir və əməllərin ardıcıllığı kimi uzanıb getmir.

Məgər zaman məhəbbətlə bərabər deyilmi, bölünməz və ölçüyəgəlməz?

Lakin əgər öz düşüncələrinizdə zamanı fəsillərlə ölçmə-lisinizsə, qoy, onda hər fəsil bütün digər fəsilləri də özündə birləşdirmiş olsun.

Qoy, bu gün dünəni yaddaş, gələcəyi isə həsrət vasitəsi ilə bağrına bassın!»

Xeyir və Şər

Şəhərin ağsaqqallarından biri soruşdu: «Xeyir və Şərdən danış bizə».

O, cavab verdi:

«Mən sizdəki xeyirdən danışa bilərəm, şərdən deyil.

Zira, şər öz aclıq və susuzluğundan əziyyət çəkən xeyirdən başqa nədir ki?

Həqiqətən, xeyir ac olanda qidanı hətta qaranlıq mağara-

larda belə axtarmağa hazırdır. O, susuzluqdan yananda iylənmiş sudan belə içməyə çəkinməz.

Siz özünüzlə vəhdətdə olanda xeyirsiniz.

Lakin özünüzlə vəhdətdə olmayanda da, sizə şər demək olmaz.

Zira, bölünmüş ev hələ oğru yuvası demək deyil, sadəcə bölünmüş evdir.

Sükansız gəminin də təhlükəli adalar arasında məqsədsiz şəkildə üzməsi hələ onun batması demək deyil.

Siz özünüzdən verməyə hazır olanda xeyirsiniz.

Lakin özünüz üçün fayda gəzəndə belə şər deyilsiniz.

Zira, siz fayda gəzəndə torpağın dərinliyinə işləyən və onun döşünü əmən köklərdən başqa bir şey deyilsiniz.

Əlbəttə, meyvə kökə deməyəcək: «Mənim kimi ol; yetişmiş və şirəli, daim öz bolluğu ilə bölüşən».

Zira, meyvə üçün vermək bir tələbat olduğu kimi, kök üçün də almaq elə bir tələbatdır.

Ayıq danışanda siz xeyirsiniz.

Lakin yuxulu-yuxulu boşboğazlıq edəndə də siz şər deyilsiniz.

Zira, hətta kəkələmək belə dilinizi möhkəmləndirə bilər.

Öz məqsədinə doğru inamlı addımlarla yeriyəndə siz xeyirsiniz.

Lakin ona doğru axsaya-axsaya gedəndə də siz şər deyilsiniz.

Çünki hətta axsayanlar belə geriyə getmirlər.

Lakin, ey güclü və sürətlilər, diqqətli olun ki, şikəst yanında xeyirxahlıq edirmişsiniz kimi axsamayasınız.

Sonsuz üsullarla siz – xeyirsiniz, lakin xeyir olmayanda belə şər deyilsiniz siz.

Sadəcə bir qədər astagəl və tənbəlsiniz.

Heyf ki, marallar tısbağalara cəldlik öyrədə bilməzlər.

Sizin böyük Məninizə doğru həsrətinizdə böyük xeyir vardır. Bu həsrət hamınıza xasdır.

Lakin bəzilərinizdə bu həsrət dənizə doğru tələsən və özü ilə qayaların sirlərini və meşənin nəğmələrini aparan gur seli xatırladır.

Bəzilərinizdə isə bu, zəif arx kimidir. Döngə və dalanlarda azan və dənizə yetişməmiş tükənən arx.

Lakin qoy, həsrəti güclü olan həsrəti zəif olana deməsin: «Sən niyə belə ləng və tərəddüdlüsən?»

Zira, əsl xeyirxah adam çılpaqdan: «Sənin paltarın hardadı ki?», yaxud evsizdən «Nə oldu sənin evinə?» – deyə soruşmaz».

Dua

Sonra kahinə xahiş elədi: «Bizə Duadan danış».

Cavabında o söylədi:

«Siz dərddə və möhnətdə olanda dua edirsiniz;

Kaş ki, siz sevinc və bolluq içində olanda da dua edə biləydiniz.

Zira, dua sizin canlı efirə yayılmanızdır.

Əgər qəlbinizin zülmətini fəzaya boşaltmaqda bir yüngüllük tapırsınızsa, ürəyinizin şəfəqini saçmaqda da böyük sevinc vardır sizin üçün.

Ruhunuz sizi duaya çağıranda göz yaşlarınızı saxlaya bilmirsinizsə, ağlamağınıza baxmayaraq, o sizi haylamaqda davam etməlidir. Ta göz yaşınız gülüşə çevrilənə qədər.

Dua edəndə siz göyə yüksəlir və sizinlə eyni saatda dua

edənlərlə görüşürsünüz. Elə kəslərlə ki, onlarla duadan qeyri bir məqamda görüşmək mümkünsüzdür.

Bu səbəbdən də, bu görünməz məbədə yalnız vəcd və şirin ünsiyyət üçün girin.

Zira, bu məbədə xahiş üçün girsəniz, heç nə almayacaqsınız.

Siz ora özünüzü alçaltmaq üçün girsəniz, yüksəlməyəcəksiniz.

Siz ora hətta başqasına xeyir istəmək üçün girsəniz belə eşidilməyəcəksiniz.

Kifayətdir ki, siz bu görünməz məbədə daxil olasınız.

Mən sizə sözlərlə dua etməyi öyrədə bilmərəm.

Allah özü sizin dilinizlə danışmayınca, eşidilməyəcəksiniz.

Mən sizə dənizlərin, meşələrin və dağların dualarını da öyrədə bilmərəm.

Lakin siz – dağların, meşələrin və dənizlərin övladları – onların dualarını öz ürəklərinizdə tapa bilərsiniz.

Gecənin sakitliyinə qulaq kəsilsəniz, bu sükut içrə onların nə dediyini eşidərsiniz:

«İlahi, bizim qanadlı Mənimizin yaradıcısı! İçimizdə hökm edən Sənin iradəndir.

İçimizdə arzulayan Sənin arzundur.

Sənin hökmünlə Sənə məxsus gecələrimiz Sənə məxsus gündüzlərə çevrilirlər.

Biz Səndən heç nə istəyə bilmərik, zira, ehtiyaclarımız içimizdə hələ doğulmamışdan qabaq Sən onlardan xəbərdarsan:

Bizim ehtiyacımız Sən özünsən və özünü bizə daha çox bəxş etməklə bizə hər şeyi vermiş olursan».

Həzz

Sonra şəhərə ildə bir dəfə gələn zahid irəli çıxaraq: «Həzzdən danış bizə», – deyə söylədi.

O belə cavab verdi:

«Həzz azadlığın nəğməsi olsa da, azadlığın özü deyil.

O, sizin arzularınızın çiçəklənməsidir, meyvəsi deyil.

O, yüksəkliyi çağıran dərinlikdir, dərinliyin özü deyil.

O, qəfəsə salınmışın qanadlarını gərməsi olsa da, sonsuz fəza demək deyil.

Hə, həqiqətən, həzz azadlıq nəğməsidir.

Əgər siz onu bütün ürəyinizlə oxusanız mən sevinərəm; lakin bu oxumada ürəyinizin itirilməsini heç istəməzdim.

Bəzi cavanlarınız həzzi elə axtarırlar ki, sanki o, hər şeydir; hamınız onları danlayır, mühakimə edirsiniz.

Mən isə onları nə mühakimə edər, nə də danlayardım. Qoy, axtarsınlar.

Zira, tapacaqları təkcə həzz olmayacaqdır.

Onlar yeddi bacıdır və ən balacası belə həzdən daha gözəldir.

Məgər yeri qazıb kök axtaran və nəticədə xəzinə tapan birisi haqqında heç eşitməmisinizmi?

Yaşlılardan bəziləri həzzi sərxoşluq anında buraxılan səhvlər kimi peşmanlıqla xatırlayırlar.

Lakin peşmanlıq ağılın dumanlandırılmasıdır, cəzalandırılması deyil.

Yaxşı olardı ki, onlar həzzlərini yayın məhsulunu xatırladıqları kimi, minnətdarlıqla xatırlayaydılar.

Lakin peşmanlıq onlara yüngüllük gətirirsə, qoy, olsun.

Aranızda elələri də var ki, axtarmaq üçün o qədər gənc, xatirələrə qapılmaq üçün isə hələ o qədər qoca deyillər.

Onlar axtarış və xatırlamadan qorxaraq bütün həzzlərdən yan qaçırlar ki, ruhu incitməmiş və təhqir etməmiş olsunlar.

Amma hətta onların bu imtinası belə onlara həzz gətirir.

Beləcə, əsən əlləri ilə kök axtarmaqlarına baxmayaraq, onlar da xəzinə tapmış olurlar.

Amma soruşuram sizdən, ruhu kim təhqir edə bilər ki?

Bülbül gecənin sakitliyini, yaxud işıldaböcək ulduzu təhqir edə bilərmi?

Sizin alovunuz və tüstünüz küləyə ağırlıq gətirə bilərmi?

Yoxsa, düşünürsünüz, ruh bir gölməçədir ki, onu bir çöplə həyəcanlandıra bilərsiniz?

Çox zaman həzzdən imtina etməklə, siz arzularınızı yalnız varlığınızın dərin guşələrinə sıxışdırmış olursunuz.

Kim bilir, bəlkə bu gün əldən çıxan sabahkı gününü gözləyir?

Hətta sizin bədəniniz belə öz qanuni haqqını bilir, Onu aldada bilməzsiniz.

Bədəniniz isə qəlbinizin arfasıdır.

Onda şirin musiqi, yaxud nizamsız səslər çalmaq artıq sizin işinizdir.

İndi ürəyinizdə soruşursunuz: «Bəs həzzdə nəyin yaxşı, nəyin pis olduğunu necə bilək?»

Gedin öz çəmənlərinizə və bağlarınıza. Görün ki, arıya güldən bal yığmaq həzz verir.

Gülə də arıya balını vermək həzz verir.

Zira, arı üçün gül bir həyat məbəyidir.

Gül üçün də arı bir məhəbbət elçisidir.

Hər ikisi – həm arı, həm də gül üçün – həzz vermək və həzz almaq bir tələbat və bir vəcddir.

Orfalesin camaatı, öz həzzlərinizdə güllərə və arılara bənzəyin».

Gözəllik

Şair söylədi: «Bizimlə Gözəllikdən danış».

O, cavab verdi:

«Harada axtaracaq və necə tapacaqsınız Gözəlliyi, əgər o özü sizin həm yolunuz və həm də bələdçiniz olmasa?

Siz onun haqqında necə danışa bilərsiniz, əgər o özü sizin nitqinizin toxucusu olmasa?

Kədərlilər və incimişlər deyəcəklər: «Gözəllik – xeyirxah və mehribandır.

Sanki bir gənc ana kimi, o, öz hüsnündən bir qədər utanmış halda aramızda gəzişir».

Çılğınlar deyəcəklər: «Yox, gözəllik qorxulu və qüdrətlidir.

Sanki bir fırtınadır o; ayaqlarımızın altındakı yeri və başımızın üstündəki göyü silkələyir».

Yorulmuş və əldən düşmüşlər deyəcəklər: «Gözəllik bir şirin pıçıltıya bənzəyir. Bizim ruhumuzda danışır o. Onun səsi bizim sükutumuz qarşısında geri çəkilir, zəif işıq kölgə qarşısında qorxudan əsən kimi».

Dəcəllərsə deyəcək: «Biz onu dağlarda qışqıran gördük.

Onun qışqırığıyla birlikdə ayaq səsləri, qanadların çırpılması və şirlərin nəriltisi də gəlirdi».

Gecə şəhərin nəzarətçiləri deyəcək: «Gözəllik sübh şəfəqləri ilə birlikdə Şərqdən yüksələcək».

Günorta zəhmətkeşlər və yolçular deyəcək: «Biz onun qürub pəncərəsindən yerə necə əyildiyinin şahidi olmuşuq».

Qışda qara düşmüşlər deyəcək: «O, yazda, təpədən-təpəyə qonaraq gələcəkdir».

Yayın istisində məhsul dərənlər deyəcəklər: «Biz onu payız yarpaqları ilə oynayan görmüşük, saçlarında da qar vardı».

Bütün bunları siz gözəllik haqqında söylədiniz.

Əslində isə siz ödənməmiş ehtiyaclarınızdan danışırdınız.

Zira, gözəllik ehtiyac deyil, vəcddir.

O, nə susuzluqdan yanan dodaq, nə də irəliyə uzadılmış boş əldir.

Alovlanmış ürək və sehrlənmiş qəlbdir gözəllik.

Bu, sizin görmək istədiyiniz surət və ya eşitmək istədiyiniz nəğmə deyil.

Elə surətdir ki, gözlərinizi yumanda belə onu görməyə bilmirsiniz və elə nəğmədir ki, qulaqlarınızı bağlasanız da, onu eşitməkdə davam edəcəksiniz.

Bu, qartımış ağac qabığının arxasındakı şirə və caynaqlara birləşmiş qanad da deyil.

Əbədi çiçəklənən bağdır, əbədi uçuşan mələklər topasıdır gözəllik.

Orfalesin camaatı, gözəllik müqəddəs üzündən niqabını götürmüş həyatdır.

Lakin həyat da sizsiniz, niqab da siz.

Gözəllik özünə güzgüdə baxan əbədiyyətdir.

Əbədiyyət də sizsiniz, güzgü də siz.

Din

Qoca bir kahin dedi: «Dindən danış bizə».

O söylədi:

«Məgər gün ərzində mənim başqa bir şeydən danışdığım oldumu?

Məgər bütün əməllər və düşüncələr, eləcə də əməl və düşüncə olmayanlar, əlinizlə daş yonanda, yaxud toxucu dəzgahını işlədəndə belə qəlbinizdə çağlayan heyrət və təəccübün özü din deyilmi?

Kim öz inamını əməllərindən, əqidəsini məşğuliyyətindən ayıra bilər?

Kim öz saatlarını qarşısına düzüb söyləyə bilər:

«Bu, Allah üçün, bu isə mənim üçün; bu, ruhum, bax, bu isə bədənim üçün?»

Sizin bütün saatlarınız qanadlarınızdır, fəzanı yaran, sizi özünüzdən özünüzə aparan.

Əxlaqını dəbdəbəli libas kimi geyinən kəs çılpaq qalsaydı, daha yaxşı olardı.

Külək və günəş onun dərisinə zərər verməzdi.

Davranışını etikayla müəyyənləşdirən kəs öz bülbülünü qəfəsə salmış olur sanki.

Ən azad nəğmə belə dəmir barmaqlıqlardan və məftillərdən keçə bilməz.

O kəs üçün ki, səcdə açıldığı kimi də bağlana bilən bir pəncərədir, o kəs hələ ruhunun mənzilinə yetişməmişdir; zira, o mənzilin pəncərələri sübhdən sübhə qədər açıq olur.

Sizin gündəlik həyatınız sizin məbədiniz və sizin dininizdir.

Ona nə vaxt daxil olsanız, özünüzlə hər şeyinizi götürün.

Götürün özünüzlə kotanınızı və şeypurunuzu, çəkicinizi və udunuzu götürün.

Bütün o şeyləri ki, zərurət, yaxud heyrət üçün yaratmısınız.

Zira, dualarınızda nə uğurlarınızdan yüksəyə qalxa bilər, nə də uğursuzluğunuzdan aşağı enə bilərsiniz.

Özünüzlə bütün insanları da götürün.

Zira, səcdənizdə nə onların ümidlərindən yüksəyə uça biləcək, nə də özünüzü onların ümidsizliyindən aşağı endirə biləcəksiniz.

Əgər siz Allahı dərk etmiş olsaydınız, tapmaca tapmağa ehtiyac qalmayacaqdı.

Yetər ki, ətrafınıza boylanasınız və O-nun uşaqlarınızla necə oynadığının şahidi olacaqsınız.

Baxın fəzaya: Onun buludlar üzərində yeridiyini, əllərini şimşəklərdə uzadaraq yağışlarla yağdığını görərsiniz.

Onun çiçəklərdə gülümsəməyini, sonra isə boy ataraq ağaclarda sizə əl etməsini görərsiniz».

Ölüm

Sonra əl-Mitra dilləndi: «İndi isə Ölüm barədə danışmağını istəyirik».

Əl-Mustafa dedi:

«Ölümün sirrini bilmək istəyirsiniz.

Onu həyatın ürəyində axtarmırsınızsa harda tapa bilərsiniz?

Gündüzləri kor olan, gecə gözlü bayquş işığın sirri üzərindəki pərdəni qaldıra bilməz.

Əgər həqiqətən ölümün ruhunu görmək istəyirsinizsə, ürəyinizi həyatın bədəninə geniş açın.

Zira, həyatla ölüm birdir, çayla dəniz bir olan kimi.

Ümid və arzularınızın dərinliyində qeybin lal biliyi yatmaqdadır;

Qar altında uyuyan toxumlar təki, ürəyiniz yuxusunda baharı görür.

Yuxularınıza inanın, əbədiyyətin qapıları gizlənib onlarda.

Sizin ölüm qorxunuz bir çobanın sultan qarşısında əsməsinə bənzəyir; o zaman ki, sultan əlini onu şərəfləndirmək üçün uzatmışdır artıq.

Məgər çobanın əsməsində üzərində sultan təmasını gəzdirəcəyindən dolayı bir sevinc hiss olunmurmu?

Məgər o, daha çox öz əsməsi barədə düşünmürmü?

Zira, ölmək küləyin qarşısında çılpaq dayanmaq və günəşdə ərimək deyil, bəs nədir?

Nəfəsin kəsilməsi nəfəsin öz narahat qabarma və çəkilmələrindən azad olması, qalxması, genişlənməsi və Allahı qayğısız şəkildə axtara bilməsi demək deyilmi?

Yalnız sükut çayından su içdikdə həqiqətən nəğmə oxuyacaqsınız. Yalnız dağın zirvəsinə çatanda həqiqi yüksəlişiniz başlayacaqdır.

Cisminizi torpaq özünə istəyəndə həqiqi rəqsinizi oynayacaqsız».

Vidalaşma

Budur, axşam düşdü.

Görücü əl-Mitra söylədi: «Eşq olsun bu günə, bu yerə və sənin danışan ruhuna!»

O cavab verdi: «Məgər danışan mən idim? Məgər mən həm də dinləyən deyildimmi?»

Sonra o, məbədin pilləkanları ilə endi və bütün xalq da onun arxasınca yollandı. O öz gəmisinə yetişib göyərtəyə qalxdı.

Üzünü xalqa tutub səsini ucaltdı:

«Orfalesin camaatı, külək sizi tərk etməyimi tələb edir.

Külək qədər tələsməsəm də, getməliyəm.

Biz, daima tənha yollar axtaran yolçular, heç zaman yeni günü dünənin qurtardığı yerdən başlamırıq; səhər şəfəqləri bizi heç zaman qürubun bizi tərk etdiyi yerdə tapmayacaqdır.

Hətta yer yuxuda olanda belə, biz yol gedirik.

İnadkar bitkinin toxumlarıyıq biz. Və elə ki, yetkinliyə çatırıq, ürəklərimiz dolub daşır, külək alıb aparır bizi və səpələyir hər yana.

Günlərim qısa oldu mənim, aranızda keçirdiyim, sizə söylədiyim sözlər isə daha qısa idi.

Lakin səsim daha qulaqlarınızda səslənməyəcək və eşqim xatirənizdən silinən bir zamanda mən yenidən qayıdacağam.

Daha zəngin bir ürəklə və ruha yaxın bir nəfəslə danışacam onda.

Hə, dənizin qabarması ilə qayıdacam mən.

Baxmayaraq ki, ölüm məni gizləyə və böyük sükut məni öz ağuşuna ala bilər, anlamağınız üçün yollar axtaracam.

Boşuna axtarmayacam mən.

Əgər danışdıqlarımdan nəsə həqiqətdirsə, bu həqiqət daha aydın səs və sözlərlə, fikirlərinizə daha yaxın bir şəkildə aşkarlanacaqdır.

Mən küləklə gedəcəm, Orfalesin camaatı, amma boşluğa düşməyəcəm.

Əgər bu gün sizin ehtiyaclarınız ödənməyəcək və mənim eşqim nakam qalacaqsa, qoy, onda o, bir vəd olaraq qalsın gələn günə qədər.

İnsanın ehtiyacları dəyişir, amma eşqi dəyişmir. Və o, eşqindən gözləyir ehtiyaclarının ödənməsini.

Odur ki, bilin, böyük sükutun içindən qayıdacam mən».

«Səhər şəfəqləri ilə əriyən və çəməndə şeh qoyub gedən duman buludlarda yığılaraq yağış olub yerə yağır.

Dumana oxşarım vardı mənim.

Gecənin sakitliyində sizin küçələrinizi dolaşırdım və ruhum evlərinizə daxil olurdu.

Ürəyinizin döyüntüsü ürəyimdə, nəfəsiniz üzümdə idi. Və mən sizin hamınızı tanıyırdım.

Hə, mən həm sizin sevincinizə, həm də ağrınıza şərik idim. Və siz yuxulayanda sizin yuxularınız mənim yuxularım olurdu.

Çox zaman aranızda dağlar qoynunda göl kimi idim mən.

Zirvələrinizi, əyri-üyrü yamaclarınızı və hətta gəlib keçən fikir və arzu sürülərinizi əks etdirirdim özümdə.

Uşaqlarınızın gülüşü bir arx, gənclərinizin həsrəti bir çay olub sükutuma dolurdular.

Mənim dərinliyimə yetişəndə belə bu arx və çaylar oxumaqlarını kəsmirdilər.

Lakin nə isə gülüşdən şirin və həsrətdən böyük bir şey gəldi mənə.

Bu, sizdəki sonsuzluq idi;

Bir azman insan ki, siz onun yalnız hüceyrə və əzələlərini təşkil edirsiniz;

O kəs ki, onun nəğməsində sizin oxumağınız yalnız səssiz bir həyəcanı xatırladır.

Məhz bu azmanın daxilində siz azmansınız.

Beləcə, onu seyr edərək, mən sizi gördüm və sevdim.

Zira, məhəbbətin yetişə biləcəyi hansı məsafələr yoxdur ki, bu azman fəzada?

Hansı görüntülər, hansı inhizarlar və hansı xəyallar bu uçuşdan uzağa apara bilər?

Sizdəki bu azman sanki alma boyda çiçəklərlə bəzənmiş nəhəng palıdı xatırladır.

Onun qüdrəti sizi torpağa bağlayır, onun ətri sizi fəzaya yüksəldir və onun sarsılmazlığı ilə ölümsüzsünüz siz.

Sizə deyiblər ki, siz bir zəncir kimisiniz və bu zəncirin ən zəif halqası kimi zəifsiniz.

Lakin bu, həqiqətin yalnız yarısıdır. Siz həm də ən möhkəm halqa təki möhkəmsiniz.

Sizi əməllərinizin ən xırdası ilə qiymətləndirmək, okeanın gücünü onun köpüyünün zərifliyi ilə ölçmək kimi bir şeydir.

Sizi sizin uğursuzluqlarınıza görə mühakimə etmək, fəsilləri dəyişkənlikdə ittham etmək deməkdir.

Bəli, siz okean kimisiniz.

Sahillərinizdə dayaza oturmuş ağır gəmilər qabarmanı gözləyərkən siz okean olsanız belə, öz qabarmanızı tələsdirə bilməzsiniz.

Fəsillərə də bənzəriniz var sizin.

Hərçənd ki, qışda öz baharınızı inkar etmiş olursunuz.

İçinizdə uyuyan yazınız yuxuda gülümsünür və qətiyyən incimir bundan.

Düşünməyin ki, bunları söylədim ki, bir-birinizə deyəsiniz: «O, bizi yüksək qiymətləndirirdi. O, bizdə ancaq yaxşını görürdü».

Mən sizin fikirdə, düşüncələrdə bildiyinizi sözlərlə ifadə edirəm yalnız.

Sözdə ifadə olunan bilik sözsüz yaşayan biliyin kölgəsi deyilmi?

Sizin fikirlərlə mənim sözlərim möhürlənmiş yaddaşın dalğalarıdır.

O yaddaşda sizin ötən günlərinizin və yerin hələ nə bizi, nə özünü tanımadığı qədim günlərin və yerin çaşqınlığa qərq olduğu gecələrin xatirələri saxlanılır.

Müdrik insanlar sizə öz müdrikliklərindən verməyə gəlirdilər. Mənsə sizin müdrikliyinizi almağa gəlmişəm:

Mən müdriklikdən daha böyük olanı tapdım.

Bu, sizdə get-gedə coşan alovlu ruhdur.

Onun daim artmasından xəbərsiz olan sizlər günlərinizin solmasına heyfslənirsiniz yalnız.

Bu, məzardan qorxan bədəndə həyat arayan həyatdır.

Burda məzar nə gəzir?

Bu dağlar və düzlər beşik və pillədir.

Əcdadlarınızın uyuduğu çöllərin yanından hər dəfə keçəndə diqqətlə baxın. Və siz özünüzü və uşaqlarınızı orada yallı gedən görərsiniz.

Həqiqətən, çox zaman özünüzdən xəbərsiz şənlənirsiniz siz.

Başqaları gəlirdi sizə qızıl vəd edir və bu, sizin imanınıza çevrilirdi. Əvəzində siz onlara yalnız var-dövlət, hakimiyyət və şöhrət verdiniz.

Mən sizə vəd olunandan az verdim, lakin böyük səxavət gördüm sizdən.

Siz mənə daha böyük bir həyat həsrəti verdiniz.

Həqiqətən, insan üçün onun bütün amallarını qurumuş dodaqlara, bütün həyatını isə – tükənməyən bulağa çevirən hədiyyədən böyük hədiyyə ola bilməz.

Mənim şərəfim və mükafatım ondadır ki, nə zaman bu

bulağa su içmək üçün yaxınlaşsam, onun – dirilik suyunun – özünün susuzluqdan yandığını görürəm.

Mən onu içdikcə, o da məni içmiş olur.

Bəzilər iniz məni sizin hədiyyələrinizi götürmək üçün çox qürurlu və çəkinən sayır.

Bəli, maaşa işləmək üçün mən çox qürurluyam, amma hədiyyələrçün yox.

Hərçənd ki, siz məni öz süfrənizin başına əyləşdirə bildiyiniz halda, mən moruqla dolanırdım təpələr arasında;

Siz məni öz evinizdə saxlamağa şad olduğunuz halda, mən məbədin dəhlizində yatırdım.

Məgər mənim gecə və gündüzlərimə göstərdiyiniz qayğıdan mənim yeməyim şirinləşməmişdimi? Və o səbəbdən də sirli görüntülərə bələnməmişdimi yuxularım?

Siz özünüz də bilmədən çox şey verirsiniz.

Buna görə xeyir-duam üstünüzdədir.

Həqiqətən, özünə güzgüdə baxmağı sevən xeyir daşa çevrilir.

Özünü öyən yaxşılıq lənət doğmuş olur.

Bəzilər iniz məni yalquzaq adlandırır və öz tənhalığından sərməst olmuş hesab edirdi.

Siz deyirdiniz: «O, meşədəki ağaclarla məsləhətləşir, insanlarla yox.

Təpələrin başında tənha oturaraq şəhərimizə baxır».

Bu doğrudur ki, mən təpələrə dırmaşır və gözdən uzaq yerlərdə gəzirdim.

Mən yüksəyə qalxmasam və uzağa getməsəydim sizi necə görə bilərdim?

Uzaq olmadan, həqiqətən yaxın olmaq mümkündürmü?

Bəzilər iniz isə fikirlərini sözsüz bildirirdilər mənə:

«Ey Qərib, Qərib, ey əlçatmaz yüksəkliklərin vurğunu, nə üçün qartalların yuva qurduğu zirvələrdə yaşayırsan axı?

Niyə mümkünsüzü arzulayırsan?

Hansı fırtınanı öz toruna keçirmək istəyirsən?

Hansı əcaib quşu tutmaqdır məqsədin?

Gəl, bizə qoşul.

Aşağı en və bizim çörəyimizlə aclığını doyur bizim şərabımızla yatırt susuzluğunu».

Qəlblərinin tənhalığında deyirdilər onlar bu şeyləri;

Lakin onların tənhalığı daha dərin olsaydı, onlar bilərdilər ki, mən yalnız sizin sevincinizin və ağrınızın sirrini axtarır, yalnız sizin göylərdə gəzən böyük məninizi ovlamaq istəyirdim.

Lakin ovçunun özü də ov idi;

Zira, oxlarımın çoxu öz sinəmi tapmaq üçün yayımı tərk edirdi.

Uçan, həm də sürünürdü;

Ona görə ki, qanadlarımı günəşdə gərəndə, onların kölgəsi yerə tısbağa kimi düşürdü.

Mən, həm imanlı, həm də şübhəli idim.

Zira, tez-tez barmağımı yaramın üstünə qoyurdum ki, sizə daha çox inanım və daha yaxşı tanıyım sizi.

Bu inam və bu biliklə də deyirəm:

Siz öz bədəninizin əsiri deyilsiniz və evlərə, yaxud tarlalarınıza bağlanmamısınız.

Sizin məniniz dağlardan yüksəkdə yaşayır, küləklərlə səyahət edir.

O, günəşdə qızınmaq üçün bayıra çıxan və özünü gizləmək üçün qaranlıqda yer eşən bir məxluq deyil.

O, nəsə azad bir şeydir, ruhdur, yeri saran və efirdə hərəkət edən.

Əgər bu sözlər anlaşılmazdırsa, onları aydınlaşdırmağa çalışmayın.

Bütün şeylərin əvvəli qarışıq və dumanlıdır, amma sonu yox.

Mən çox şad olaram, məni bir başlanğıc kimi xatırlasanız.

Həyat və bütün canlılar dumanlıqda yaranırlar, kristalda yox.

Kim bilir, bəlkə kristal durulmuş dumandır elə?

İstərdim ki, məni xatırlayanda yadınıza salasınız:

Sizdə sizə ən zəif və qarışıq görünən ən güclü və aydın olandır.

Məgər sümüklərinizi qaldıran və onları bərkidən nəfəsiniz olmadımı?

Məgər indi xatırlaya bilmədiyiniz yuxu qurmayıbmı şəhərinizi? Gördüyünüz bu cah-cəlalı o yaratmayıbmı?

Əgər siz, o nəfəsin qabarmalarını görə bilsəydiniz, gözünüzə başqa heç nə görünməyəcəkdi.

Əgər siz, o yuxunun pıçıltısını eşidə bilsəydiniz, başqa səslər qulağınıza yetişə bilməyəcəkdi.

Lakin siz nə eşidir, nə də görürsünüz. Və bu da yaxşıdır.

Gözlərinizi örtən pərdəni elə onu toxumuş əllər də qaldıracaqdır.

Qulaqlarınıza girmiş o palçığı da, onu qarışdıran barmaqlar çıxaracaqdır.

Bax, onda siz görəcəksiniz.

Bax, onda eşidəcəksiniz.

Lakin əsla korluğu tanımış olduğunuza görə heyfslənmə-

yəcəksiniz və bir vaxtlar kar olduğunuza görə də peşmançılıq çəkməyəcəksiniz. Zira, həmin gün bütün şeylərin gizli mətləbləri açılacaqdır sizə.

Siz işığa şükür etdiyiniz kimi qaranlığa da şükürlər söyləyəcəksiniz.»

Bunları söyləyərək o, ətrafına baxdı və gəminin kapitanının sükanın yanında duraraq gah küləklə dolu yelkənlərə, gah da uzaqlara nəzər saldığını gördü.

O dedi:

«Gəminin kapitanı səbirli, çox səbirlidir.

Külək əsir və yelkənlər də çırpınır.

Hətta sükan belə istiqamət istəyir.

Bunlara baxmayaraq, kapitanım sakitcə susmağımı gözləyir.

Böyük dənizlərin xorunu dinləmiş bu dənizçilər də səbirlə dinlədilər məni. Az qalıb gözləmələrinə. Mən hazıram.

Çay dənizə yetişdi artıq və ulu ana oğlunu öz bağrına basır indi.

Əlvida, Orfalesin camaatı.

Bugün öz sonuna yaxınlaşdı artıq.

O, su zanbağı sabahkı gün qarşısında yumulan təki sağollaşır bizimlə.

Bizə burda verilənləri qorumalıyıq.

Əgər bütün bunlar az olmuş olsa, yenə bir yerə yığışar və birlikdə uzadarıq əllərimizi Verənə doğru.

Unutmayın ki, mən qayıdacağam sizin yanınıza.

Bir az keçsin və mənim həsrətim yeni bədən üçün bir qədər toz və bir qədər köpük yığacaqdır.

Bir az da keçsin, küləkdə bir an dincəlim və başqa bir qadın doğacaqdır məni.

Əlvida, Orfales camaatı və sizinlə keçirdiyim gəncliyim. Yuxuda görüşdüyümüz sanki dünən idi.

Siz nəğmə oxuyurdunuz mənə mənim tənhalığımda, mənsə qala ucaldırdım göydə həsrətinizdən.

Lakin budur, yuxu gözümüzdən qaçmış, yuxular bitmiş və gün çıxmışdır artıq.

Gün günorta olmuş, yarıoyaqlığımız aydın sabaha çevrilmişdir və biz ayrılmalıyıq.

Əgər yaddaşın alatoranlığında bir daha görüşəsi olsaq, yenə söhbətləşərik və siz mənə daha dərin bir nəğmə oxuyarsınız.

Əgər əllərimiz başqa bir yuxuda yenidən görüşərsə, yeni bir imarət ucaldarıq göylərdə.»

Bunları söyləyərək o, dənizçilərə işarə verdi.

Onlar ləngimədən lövbəri qaldırdılar, gəmini sahilə bağlayan ipləri açaraq Şərqə doğru istiqamət aldılar.

Camaatdan vahid bir ürəkdən ayrılan təki bir qışqırıq qopdu. Nəhəng şeypurun səsi kimi bu səs alatoranlığa yüksələrək dənizin üzərinə yayıldı.

Yalnız əl-Mitra susurdu. Gəmi dumanda gözdən itənədək ötürdü onu gözləri ilə.

Camaat dağılandan sonra da o, sahildə tək tənha dayanıb ürəyində onun sözlərini təkrarlayırdı:

«Bir az da keçsin, küləkdə bir an dincəlim və başqa bir qadın doğacaqdır məni».

MİXAİL NÜAYMƏ



Mixail ibn Yusif Nüaymə 1889-cu il 22 noyabr tarixində Livanın Biskinti qəsəbəsində anadan olmuşdur. Ağır maddi ehtiyac ailə başçısı Yusifi işləmək üçün Amerikaya getməyə məcbur etmişdi. Mixail Nüaymə ibtidai təhsilini Livanın xristian dininə mənsub əhalisini savadlandırmaq məqsədi ilə Rusiya Fələstin cəmiyyətinin Biskintidə açdığı məktəbdə almışdır. Bu məktəbdə təminat pulsuz olmuş, dərslər rus və ərəb dillərində aparılmışdır. İbtidai təhsilini başa vurduqdan sonra Nüaymə Nazaret müəllimlər seminariyasına daxil olur. Burada da tədris dili ərəb və rus dilləri idi. Nüaymə rus dilini yaxşı öyrəndiyindən rus ədəbiyyatının nəhəngləri olan Tolstoy və Dostoyevski yaradıcılığı ilə tanış ola bilmişdir. Rus ədəbiyyatı və mədəniyyəti ilə tanışlıq onda Rusiyaya getmək həvəsini artırmışdır. 1906-cı ildə onun Rusiyaya getmək arzusu reallaşır. Rusiya Fələstin cəmiyyəti Nüayməni oxumaq məqsədi ilə Poltava ruhani seminariyasına göndərir. Seminariyada oxuduğu zamanlar rus dilində şeir yazır. O, tələbə ixtişaşlarında iştirak etdiyinə görə seminariyadan bir il müddətinə xaric edilir. 1911-ci ildə seminariyanı bitirərək Livana qayıdır. 1913-cü ildə Vaşinqton Universitetinin hüquq fakültəsinə daxil olur. 1916-cı ildə Turgenevin

«Atalar və oğullar» romanının təsiri ilə özünün eyni adlı pyesini yazır. Elə həmin ildə Nyu-Yorkda rus konsulluğunda katib köməkçisi vəzifəsində işləyir. Nüaymə 1917-ci ildə «Arkaşın xatirələri» adlı povest yazır. O, 1918-ci ilin may ayında Amerika ordusunda xidmətə başlayır və bu ordu birləşmələri tərkibində Fransaya gəlir. 1919-cu ildə Nüaymə Nyu-Yorka qayıdır. 1925-ci ildə «Ququ quşlu saat» hekayəsini yazır. 1932-ci ildə o, dostu İskəndər əl-Yazıçı ilə birlikdə Livana qayıdır. Nüaymə 1934-cu ildə Cübran Xəlilin həyat və yaradıcılığı haqqında kitab yazır və 1949-cü ildə bu əsəri ingilis dilinə tərcümə edir. 1956-cı ildə Nüaymə Sovet İttifaqına gəlmişdir. Bu ölkəyə onun ikinci dəfə gəlişi 1962-ci ilə təsadüf edir. 1959-60-cı illərdə yazıçı uşaqlıq, gənclik və qocalıq dövrlərini əhatə edən 3 hissəli memuar yazır. O, 1963-cü ildə onun «Sonuncu gün» romanı, 1967-ci ildə isə «Yova» dramı çap olunmuşdur. Mixail Nüaymə 1988-ci ildə vəfat etmişdir.

«QU-QU» SAAT

1922-ci ilin may ayında bir məktub almışam. Müəllifinin kim olduğunu bilmirəm. Ancaq zərfin üzərindəki möhürdən müəyyən edirəm ki, o, Livanın kiçik bir kəndindən göndərilmişdir. Bu qəribə məktubu diqqətlə oxuduqdan sonra mən bütün məsuliyyəti öz üzərimə götürüb, onu mətbuatda dərc etdirirəm:

Dünən bizim kənddə bir nəfər vəfat etmişdi. Kəndin bütün əhalisi, böyükdən kiçiyədək, hamı onu məzara yola salırdı. Şərq və Qərb kilsələrinin rahibləri də burada iştirak edirdilər. Mərhumun qəbrinə hərə bir ovuc torpaq atdı. Torpaq dəfn iştirakçılarının göz yaşları ilə islanmışdı.

Deyirlər dahi o kəsdir ki, böyük kitablar yazır, gözəl şerlər yaradır, heykəllər ucaldır, bəşəriyyət üçün ixtiralar edir. Məhrum isə bu peşələrin heç birinin sahibi deyildi. Bununla belə o, dahi idi və qəlbimizdə dahi olaraq da qalacaqdır. Nə üçün? Ona görə ki, o, dünyada özünü itirib, sonra yenidən tapa bilmişdi. O, «qu-qu» saatı ilə mübarizə aparmış və qalib gəlmişdi. «Qu-qu» saatı ilə mübarizədə qalib gələn şəxs isə dahidir.

Həmin şəxs bizim kəndə iki il bundan əvvəl gəlmişdi. O, heç kəsi tanımırdı. İndiyə kimi bu adam barədə məndən başqa kimsə bir şey bilmir.

Biz livanlıyıq və Livan kəndlilərinin qanun-qaydalarını yaxşı bilirik. Livan kəndlisi qapısını heç kəsin üzünə bağlamaz

və bir tikə çörəyini heç kəsdən əsirgəməz. Ancaq onlar adamı sorğu-suala tutmağı çox sevirlər. Kimsən? Nəçisən? Hardansan? Niyə? və s.

Yuxarıda haqqında danışdığımız adamın kəndə gəldiyi günün səhəri artıq hamı bilirdi ki, o, amerikalıdır, adı da Tomasdır. Həmçinin öyrənmişdilər ki, o, Livanda anadan olmuş, uşaqlaq və gənclik illərinin bir hissəsini Livanda keçirmiş, sonra isə vətənini tərk edib Amerikaya getmişdir. Orada iyirmi il çalışıb, bütün qüvvəsini itirəndən sonra yenidən Livana qayıtmış, bizim kəndi özünə məskən seçmişdir.

Mən onu ilk dəfə görəndə gözlərində bir cazibə hiss etdim, elə bil ki, o, deyirdi: «Dostum, gəl yanıma!». Onun əzəmətli cüssəsi isə sanki bunun əksini söyləyirdi: «Mənə yaxınlaşma!».

Onunla tanış oldum, dostlaşdıq. O öz qəlbini mənə açdı. Dünyanın hər yerində insanlara bir ad qoyur və həmin adla da onu çağırırlar. Ancaq Livan kəndlilərində adamları ləqəbləri ilə çağırmağı sevirlər. Onun adı mister Tomas idi, amma bu ad onun sahibi haqqında heç bir şey bildirmirdi. O, insandakı bütün müsbət cəhətlərin – sevgi, dostluq, ədalət, alicənablıq, fədakarlıq, iltifat və sairənin məcmuu demək idi.

Bəli, kəndin sakinləri mister Toması belə adlandırırdılar. Əbu Maarifin kəndə gəldiyindən bir neçə həftə keçməmişdi ki, hamı onu sevməyə başladı. O, bizim yoldaşımız, əzizimiz, sirdaşımız, məsləhət verənimiz və təbibimiz oldu. Nə üçün hamı onu belə sevdi? Ona görə ki, Əbu Maarif kəndə qayıtdıqdan sonra heç kəs öz vətənini tərk etmədi. Heç kəs mühacirətə getmədi və kimsə daha belə fikrə düşmədi. O bizə başa saldı ki, vətənsiz həyat yoxdur. Əgər insan öz vətən torpağını sevməyi bacarmırsa, yad torpağını da sevə bilməz.

Əbu Maarifin dediyi sözlər mənim yadımdadır. Onlardan bir neçəsini sizə söyləmək istəyirəm: «Torpaq səni geyindirir, yedirdir. Sən paltardan və yeməkdən imtina edə bilərsənmi? İnsanı yedirdən bir mənbə olmalıdır, bu, torpaqdır. Sən torpağa bir buğda əksən, o, əvəzində sənə onunu qaytarar. Torpaqda elə bir ətir var ki, sən onu heç bir ətriyyat mağazasından ala bilməzsən».

Bizim cəmiyyətdə insan insanın quludur. Yalnız torpaqla işi olan kəs azaddır, çünki torpaq insanı istismar və qul etmir.

Torpağın üzərində tikan da, qızılgül də, buğda da, alaq da bitir. Torpaq bundan utanmır, ancaq insanlar öz tikanlarından və alaqlarından utanırlar, onları bir-birindən gizlətməyə, aşkar etməməyə çalışırlar. Düzlüyü torpaqdan öyrənin!

Mən bir dəfə iki şəxslə rastlaşdım. Bunların biri pul yığır, digəri isə buğda əkirdi. Aclıq idi, çoxlu pul yığmış şəxs diz üstə çökərək, bütün pullarını əkinçiyə təklif edir, əvəzində buğda istəyirdi. Əkinçi isə ona belə dedi: Sən vaxtilə öz bəhrəndən razı idin, mən də öz bəhrəmnən razıyam».

Sən Əbu Maarifin necə gözəl danışdığını eşitməmisən. O, bütün bunları xitabət kürsüsündən təntənəli yığıncaqlarda deyil, tarlada, zəmidə, üzümlükdə danışırdı. Onun əlində torpaq alətləri olurdu. Mən onun bizim paltarları geyməsini çox xoşlayırdım.

Əbu Maarifin xəyalı gözlərim önündə canlananda ağlayırdım. İndi də gözümdən yaş damlası məktubun üzərinə düşür. Qorxuram ki, Əbu Maarifin dediklərini başa düşməyəsən. Çünki sən məhəbbətdən doğan göz yaşlarının nə olduğunu bilmirsən, torpağın dilini başa düşmürsən. Əbu Maarif isə bunları bilirdi.

Bir dəfə biz bir yerdə olduğumuz zaman Əbu Maarif dedi:

– Qulaq as, qulaq as! Bir şey eşidirsənmi?

– Eşidirəm.

– Nə eşidirsən?

– Qu-qu... Bu quşdur, oxuyur, biz ona «qu-qu» quşu deyirik. O, yazda uçub bizim yerlərə gəlir.

Birdən Əbu Maarifin əhvalı dəyişdi. Səbəbini bilmədim. O dedi:

– Qulaq as, mən sənə «Qu-qu» əhvalatını danışım.

– Biri var idi, biri yox idi. Keçmiş zamanlarda bir livanlı ər-arvad var idi. Kişi fəllah idi və onlar alın təri ilə bir parça çörək tapıb dolanırdılar. Həttar adlı yeganə oğulları vardı. Qonşuluqda bir dul kişi yaşayırdı. Onun da Zümrüd adlı bircə qızı var idi. Kəndin bütün adamları deyirdilər ki, Həttar və Zümrüd bir-biri üçün doğulmuşlar.

Deyirlər məhəbbətin gözü kordur. Ancaq bu, düz deyil. Məhəbbət hər şeyi görür və hər şey ona gözəl görünür. Məhəbbət həyatın əsasıdır. Adam başqasını sevəndə, o, sevgilisinin ancaq yaxşı cəhətlərini görür. İnsan məhəbbətin neçə olduğunu dərk etməyə başlayanda isə həyatı dərk edir. Həttarla Zümrüd də bir-birini dəlicəsinə sevirdi.

1900-cü il idi. Həttarın və Zümrüdün valideynləri paska bayramından sonra onların toyunu etmək fikrində idilər. Elə bu günlərdə Faris Heybər adlı bir livanlı Amerikadan bizim kəndə qayıtdı. Faris hamıya Qərbin möcüzələrindən danışırdı. O, «qu-qu» saatından da danışdı.

Sən heç ömründə belə saat görməmisən. Vaxtı «qu-qu» quşu xəbər verir. Əgər saat 12-dirsə, saatın yuxarı hissəsində

olan kiçik qapı açılır, «qu-qu» quşu çıxır və 12 dəfə «qu-qu» edir, sonra təzədən yerinə qayıdır və qapı örtülür.

Həttar və Zümrüd də bu möcüzəli saat haqqında eşitmişdilər. Zümrüd heyrət içində idi. O, Faris Heybərin evində asılmış bu saatı görməyə can atırdı...

Toy günü Zümrüd öz nişanlısını atıb Farislə qaçdı.

Həttar təhqir olunmuşdu. O öz-özünə deyirdi: «Utan, Həttar, Faris kimi bir adam nişanlını əlindən aldı, səni təhqir etdi, «qu-qu» saatı sənə üstün gəldi. O, hansı ölkədir ki, orada bu cür qəribə şeylər düzəldirlər?».

Doğma vətən torpağı onun gözü önündə qaraldı, Həttar da Amerikaya getdi...

Amerikada Həttar elə ilk günlərdən başa düşdü ki, bu ölkənin açarı puldur, həmin açara malik olmayan və onu əldə etmək üçün çarpışmayan şəxs bu ölkədə dolana bilməz. Həttar da bu açarı əldə etmək üçün bütün varlığı ilə çalışmağa başladı. Lakin Həttarın qazancı – Amerika möcüzələri ilə tanışlıq oldu, onun sirlərini öyrəndi və «qu-qu» saatını gördü.

Gözlənilmədən, Həttarın qarşısında səadət və qazanc qapıları açıldı və o, böyük bir ticarət şirkətinin sabihi oldu. Həttarın ilk aldığı şey «qu-qu» saatı oldu. Çox keçmədi ki, o varlandı. «Qu-qu» saatı onun otaqlarından ən böyüyünün divarından asılmışdı.

Həttar, Amerikada doğulmuş, əsli isə suriyalı olan Əlisə adlı bir qızla evləndi.

Xoşbəxtlik gözlənilmədən gəldiyi kimi gözlənilmədən də gedir. Toydan sonra Həttar həmişə həyəcan keçirir, doğma vətən torpağını tez-tez xatırlayırdı. Baş vermiş bir hadisədən sonra Həttar elə bil ki, yenidən ayıldı.

Əlisə təkid edirdi ki, Həttar «qu-qu» saatını divardan çı-

xarsın. Çünki bu cür saatlar artıq dəbdən düşmüşdü və evin görünüşünü korlayırdı.

Həttar, arvadı Əlisəni sevmirdi və buna görə də onun hər bir sözü, tələbi onu əsəbiləşdirirdi. Bu dəfə də o, əsəbi halda qışqırdı:

– Elə mən özüm də kəndçi babayam. İndi isə ticarətdən başqa heç nədən başım çıxmır. Yalnız bir dil bilirəm, bu da pulun dilidir.

Sonra o özlüyündə fikirləşdi: «Sən indi kimsən, Həttar? Vaxtilə kəndinizdə sən də bir adam idin, atan, anan səni sevirdi, həmyerlilərin sənə hörmət edirdilər. Bir parça torpağın var idi. Bəs indi kimsən? Bu nəhəng cəhənnəm maşınının kiçik, nəzərə çarpmayan, gərəksiz bir vinti. Burada nəyin sahibi olmusan? Barı bir dil öyrəndin, təzə ölkə ilə tanış oldunmu? Yox, sən cahilsən, nə valideynlərini, nə Zümrüdü xoşbəxt etmədin».

Həttar Zümrüdü yadına saldı və çox qüssələndi. Görəsən, Zümrüd indi hardadır, necə yaşayır? Belə çətin anlarda Həttar xidmətçi qadının yanına gedərdi. Xidmətçi suriyalı bir qarı idi. Neçə illərdən bəri idi ki, Amerikada yaşayırdı. O, Həttarın iztirablarını başa düşür, dərdinə yanır, onu doğma övladı kimi əzizləyir, təskinlik verirdi.

Bir gün axşam Həttar öz arvadı və amerikalı dostları ilə birlikdə restoranda oturmuşdu. Xidmətçi Həttara yaxınlaşıb bir məktub verdi və dedi:

– Məktub pəncərənin qarşısında duran qadındandır.

Həttar məktubu açıb oxumağa başladı, rəngi qaçdı... Ayağa qalxıb pəncərənin yanında onu gözləyən qadına yaxınlaşdı. Onlar nə haqda isə danışdılar. Həttar vizit vərəqini qadına verdi.

Həttar öz yerinə qayıdanda arvadı və dostları getməyə hazırlaşırdılar. Bütün yolu heç kəs danışmadı. Evə çatan kimi arvadı əsəbi halda bildirdi ki, o, daha Həttarla yaşamayacaqdır, dostları da Əlisəyə haqq qazandırıb Həttarı məzəmmət elədilər.

Bu vaxt qapının zəngi çalındı. Həttarın restoranda görüb danışdığı qadın qonaq otağına girdi. Onun əynində ucuz parçadan tikilmiş nimdaş iş paltarı var idi. Əlisə qadını görən kimi qışqırdı. Həttar daşa dönmüş kimi yerində kiridi. Əlisənin qışqırığına xidmətçi qadın Səidə gəldi. Naməlum qadın təəccüb və tələaş içərisində Əlisəyə yaxınlaşdı və ona nə isə demək istədi. Əlisə var qüvvəsi ilə onu kənara itələyərək: – «Mənə yaxın durma, əlini mənə vurma!» – dedi və qonşu otaqda olan amerikalı dostları ilə evdən çıxıb getdi.

Nimdaş paltar geymiş qadının gözləri qaraldı. O, müvazinətini itirib Səidənin qolları arasına düşdü, onlar ikisi də yerə yıxıldı.

Həttar özünü itirmişdi, nə edəcəyini bilmirdi. Budur, bu evdə onun üçün ən əziz adam olan, ona qədim Suriyanı xatırladan Səidə döşəmə üzərinə sərilib hərəkətsiz qalmışdı. Səidənin yanında isə evsiz-eşiksiz yoxsul bir qadın taqətsiz halda dayanmışdı. Bu qadın vaxtilə öz doğma yurdunda ətirli qızılgül qədər incə və sevimli idi. Burada isə o, nə ətrini, nə də rəngini qoruyub saxlaya bilmişdi. Bu qadın indi beş uşaq anasıdır. Onun əri heç yerdə işləmir, əyyaşlıq edir, əlinə pul düşəndə qumar oynayır, ayrı bir məşğuliyyəti yoxdur.

Bəs Əlisə kimdir? O, həyatın yaraşığını pozan qəribə bir məxluqdur.

Həttar, bəs sən özün kimsən? Xoşbəxtsənmi? Həttarın gözü qarşısında doğma yurdu canlanmağa başladı. Bir anlığa

ona elə gəldi ki, vətən torpağında yaşayır, işləyir, oxuyan quşların səsini eşidir.

O, xəyaldan ayrıldı. Bir tərəfdə ölüm, o biri tərəfdə ümidsizlik gördü. Zəhlə tökən uğultular yenə onun qulaqlarında səsləndi. Həttara elə gəldi ki, bu şəhər minlərlə çarxı olan böyük bir qüllədir. Çarxlar ağlasığmaz bir sürətlə fırlanır, sərnişinləri daşıyır. Bu sərnişinlər cahil və avaralardır, maşın onları hara aparırsa, ora gedirlər. Qüllənin lap başında Həttar böyük bir saat görürdü, saatın yuxarısında nəhəng bir quş «ququ» oxuyurdu. Sərnişinlər isə pıçıltı ilə deyirdilər: «Bu, «ququ» saatıdır».

Həttar Səidənin hərəkətsiz bədəninə tərəf əyilərək, naməlum qadına dedi:

– Zümrüd, mənə kömək et!

Onlar birlikdə Səidəni otaqdan çıxartdılar...

Əbu-Maarif bu yerdə hekayəni dayandırdı. Bir qədərdən sonra dedi:

Bu da «Qu-qu» saatının əhvalatı. Bu hekayəni sənə danışan adamın özü isə Həttardır.

İNSAN VƏ QUŞ

Bu qara xəbər tezliklə bütün kəndə yayıldı. Kiçikdən böyüyə kimi hamı bu haqda danışırdı. Mərhum, ata-ananın yeganə oğlu idi. Qatil isə on üç yaşlı bir oğlan uşağı. Onun özündən başqa üç qardaşı, bir bacısı vardı. Valideynləri isə kəndin hörmətli və iqtidarlı adamlarındandı.

Qatili tanıyanlar, onun vəhşi hərəkətlərindən elə danışırdılar ki, sanki bu hadisənin baş verəcəyini qabaqcadan bilmişlər.

Qonşulardan biri deyirdi:

– Əbu Asəf, yadındamı? Mən çoxdan deyirdim ki, onun əlindən axırda bir xata çıxacaq.

O birisi əlavə edirdi:

– Mən həmişə deyirdim ki, bu uşaq ata-anası üçün bir dərddir. Valideynləri isə yaxşı adamlardır.

Başqa bir qonşu qadın isə rəfiqəsinə pıçıldayırdı.

– Bu oğlan elə anadan olandan bədbəxtlik gətirdi.

– Hə, hə – deyə o biri qadın cavab verdi. Onun əməllərindən yer-göy də qan ağlayırdı.

Bu söhbətlərin axırı onunla qurtarırdı ki, danışanlar ölən oğlana heyfsilənir, ata-anasına isə yazıqları gəlirdi.

Haqqında danışılan qatil əcayib bir uşaq idi. Bəzən ona baxanda adama elə gəlirdi ki, qarşında bir mələkə durub. Bəzən də o, alçaqboy, boynuyoğun şeytana dönür, qısa barmaqlı böyük əlləri ilə öz yaşıdının ayaqlarını asanlıqla yerdən üzürdü. Çoxları onunla yarışmaq istəmiş, lakin müvəffəqiyyətsizliyə uğramışdı.

Onun başının quruluşu çox qəribə idi. Başı, ağzı aşağı çevrilmiş kuzəyə oxşayırdı. Saçları kirpinin iynələri kimi çox cod, üzünün dərisi qaraydı. Balaca qulaqları vardı. Gözləri isə xırda, yumru və zil qara idi. Çox bərkdən güləndə gözləri qıyılırdı.

Valideynləri və müəllimləri onun əlindən zara gəlmişdi. Nə atasına, nə də anasına tabe olurdu. Evdə istədiyini edir, bacıları, qardaşları ilə dalaşırdı. Məktəbdə müəllimləri də incidib təngə gətirirdi.

Bəzən valideynləri və müəllimləri lap cana gəldikdə ağaca əl atırdılar. O, isə heç «uf» da demədən əlini sinəsində çarpazlayar, bədənini qabağa verərək qışqırardı: «Vur, vur, bir az da vur!».

Ancaq ona özünün ürəyinə yatan iş tapşırsaydılar, canla-başla yerinə yetirər, sevdiyi işə can yandırardı.

Məktəbdə, o, qrammatika və hesab dərslərini sevməzdi. Heyvanların və quşların həyatını öyrənməyə böyük həvəsi vardı. Ağacdan və adi kağızdan elə gözəl şeylər düzəldirdi ki, hamı heyran olurdu. Bir dəfə o, ağacdan bir quş düzəltmişdi. Lap canlı quşa oxşayırdı.

Ona bədxasiyyət də demək olmazdı. Çünki yalan danış-mazdı. Ancaq başa düşmək olmurdu ki, nə vaxt zarafat edir, nə vaxt ciddi danışır. Bəzən o, harın öküzə dönür, bəzən də quzu kimi sakit olurdu. Hərdən ürəyi daş kimi bərk, hərdən isə mum kimi yumşaq olurdu.

Deyirlər ki, bir dəfə o, gölün kənarında əlində ip tutmuş bir oğlan görür. Ondan nə etmək istədiyini soruşur. Oğlan cavab verir ki, pişiyi suda boğmaq istəyir. O, bunu eşitdikdə boynuna ip bağlanmış pişiyi oğlanın əlindən alır. İpi tez pişiyin boynundan açıb oğlanın boynuna bağlayır. Sonra onu suya itə-ləyib deyir: «Hə necədir? Suda boğulmaq yaxşıdırmı? Xoşuna gəlirmi?».

Yaxşı ki, bu vaxt gölün yanından bir nəfər keçirmiş. Həmin adam oğlanı xilas edir.

Bir dəfə də, o, yolda bir dostuna rast gəlir. Dostu əlində quş yuvası aparırmış. Onun içərisində yumurtadan təzəcə çıx-mış beş ətcə bala varmış. Dostunu məcbur edir ki, geri qayıtsın və yuvanı balalarla birlikdə aldığı yerə qoysun. Oğlan yuvanı budağa qoyub düşdükdən sonra o, ağacdan bir çubuq qoparıb, dəcəli yaxşıca kötəkləyir və deyir: «İndi get anana de ki, yu-vada balaları narahat edən və onların analarını incidən axmaq-ların axırı belə olur».

* * *

Bir dəfə o, isitmə xəstəliyinə tutulur. Vəziyyəti elə ağırlaşır ki, valideynləri narahat olub həkim çağırırlar. Nəhayət, onun möhkəm bədəni xəstəliyə üstün gəlir və tədricən sağalmağa başlayır. Halı yaxşılaşır, həkim ona ət yeməyə icazə vermir. Anasının ağlına gəlir ki, oğluna quş əti yedirtsin. O, güman edir ki, oğlu onun bu nəvazişindən sevinəcək və uzun müddət ac qalmış xəstə uşaq əti məmnuniyyətlə yeyəcək. Lakin süfrə açılanda, o dəli kimi yerindən sıçramış, boş qabı tullayaraq qışqırmışdı:

– Kim sizə icazə verib ki, onu öldürəsiniz? Günahsız bir quşu!

Atası güclə onu yatağına uzandırmışdı. O, hönkür-hönkür ağlayıb, bütün bədəni tir-tir əsirmiş. Anası çox qorxmuş, heç bir söz deyə bilməmiş, yerindəcə donub qalmışdı. Bu hadisədən sonra oğlanın vəziyyəti yenidən pisləşir. O, anasından xahiş edir ki, çarpayısını pəncərənin qabağına çəksin. Buradan o, təbiəti seyr etmək istəyirdi. Çarpayısından quşları seyr edir və özünü xoşbəxt sayırdı. Quşların arasında Əbülhənna quşu da var idi. Oğlan onu əli ilə çağırırdı:

– Gəl, mənim yanıma, gəl, məndən qorxma. Mən səni çox istəyirəm. Gəl yanıma!

Bir neçə gündən sonra onlar dostlaşdılar. Quş otağın pəncərəsinə, oradan da onun yatağına, əlinə qonurdu. Oğlan quşu yedizdirir və getdikcə özünü yaxşı hiss edirdi.

Bir dəfə o, çarpayıda oturub uzaqdan quşu seyr edirdi. Birdən güllə səsi eşitdi. Əbülhənna quşu yerə düşdü. Oğlan o saat yatağından qalxdı, bayıra qaçıb quşa güllə atanı tapdı, sonra yaxasından tutub yerə yıxdı. Yerdən bir daş götürüb onun

başına vurmağa başladı. Oğlan qışqırırdı: «Götür onu, götür onu. Sən onu öldürmək və yemək üçün dünyaya gəlməmisən!».

Oğlanı evə huşunu itirmiş halda gətirdilər. Qızdırması qalxmış, əhvalı yenə də pisləşmişdi. Günlər keçsə də o, gözünü açmır, həyatla ölüm arasında kəskin çarpışma gedirdi. Məhkəmə onun sağalmasını gözləyir, o, isə hələ də huşsuz halda uzanıb sayıqlayırdı:

– Götür onu! Götür onu! Sən onu öldürmək və yemək üçün dünyaya gəlməmisən.

BUZ ƏRİYƏCƏK

Dirhəm, arvadın və balaca uşaqlarının yuxuya getdiklərini görüb, qapını kilidlədi, lampanı söndürüb yatağına uzandı və gecə duasını oxumağa başladı. Dirhəmin duası həmişə belə qısa olardı: «Ya Allah, mərhəmətini bizdən əsirgəmə və bizi özgələrə möhtac etmə!».

Ancaq köhnə ilin son gecəsi Dirhəm özünün gündəlik duasına bəzi əlavələr də edərdi. O, allaha yalvarardı ki, bu il əmin-amanlıq, hamı, onun ailəsi və bütün dünya üçün sülh ili olsun.

Dirhəm adi fəhləydi, özünü və ailəsini dolandırmaq üçün yalnız qollarının qüvvəsinə və kətməninə ümid bağlayırdı. Dirhəm istəyirdi ki, onun övladları da böyüyəndə ataları kimi kətmənlə işləyib öz qoca valideynlərini saxlaya bilsin.

Dirhəmin bir istəyi də vardı. Ancaq bununçün allaha dua etməyə cürəti çatmırdı. Dirzəm allahdan sevimli arvadına şəfa diləmək istəyirdi. Axı, bütün qonşuların həsəd apardığı, gözəl, ağıllı, ev işlərinin öhdəsindən yaxşı gələn, ürəyiyumşaq arvadı

keçən il ilki öldükdən sonra əsbə xəstəliyinə tutulmuşdu. Bəzən o, bir neçə gün daldabal susar, heç bir iş görməzdi. Belə vaxtlarda ya öz-özü ilə danışar, ya da allahı və bütün dünyanı ən acı sözlərlə lənətləyərdi. Sonra yenə vəziyyəti yaxşılaşardı.

Evdə Dirhəmin rahatlığı yox idi. Getdikcə onu fikir götürür, xəyalı dumanlanırdı. Yeni ildə o, heç uşaqlarına hədiyyə də ala bilməyəcəkdi. Ancaq sabah uşaqları üçün heç olmazsa bir qədər ət alacağına ümid edirdi. «Bayramlar ancaq dövlətlilər üçündür… Biz isə…» Dirhəm fikrini tamamlamamış yuxuya getdi.

Gecəyarı Dirhəm yuxudan oyandı, elə bil onun ayağı bir parça buza dönmüşdü. Görəsən bir neçə saatın ərzində şaxta belə şiddətlənib? Dirhəm qalxıb yorğan-döşəyində oturdu. O, qapının açıq olduğunu görüb daha da təəccübləndi. Qap taybatay açıq idi, səma görünürdü, sayrışan ulduzlar elə bil ona göz vururdu. Külək otaqda çövlan edir, ustündəki yorğanı yellədirdi. Bəlkə o, yatanda qapını açıq qoymuşdur? Yox, Dirhəmin yaxşı yadındadır ki, yatmamışdan qabaq qapını kilidlədi. Bəlkə arvadı həyətə çıxmış və qapını örtməyi unutmuşdur?

– Zəhra!.. Zəhra!..

Cavab gəlmədi. Dirhəm yerindən qalxdı, qapını örtdü və lampanı yandırdı. O, uşaqlarının yatağına yaxınlaşdı. Yorğan onların üstündən düşmüş, yalın ayaqları donmuşdu. Lakin uşaqlar şirin-şirin yatmışdılar. Zəhranın yatağı isə boş idi.

Dirhəm uşaqların üstünü örtdü, şaşqın halda bir qədər dayanıb durdu, nə edəcəyini bilmədi. Bəlkə Zəhra qəbir üstə getmişdir? Ancaq artıq bir il idi ki, o, qəbiristanlığa getmirdi, bir də azı o, qaranlıqdan qorxurdu. Bayırda şaxta qılınc kimi kəsirdi. Evdə elə bir yer yox idi ki, Zəhra orada gizlənə bilsin.

Bəs Zəhra haradadır? Bəlkə onu şeytan oğurlamışdır? Ola

bilər… Mümkündür… Ancaq nə olur-olsun, Zəhranı tapmaq lazımdır.

Dirhəm lampanı götürüb qapıya yaxınlaşdı, qapını aralayan kimi külək lampanı söndürdü. Dirhəm lampanı yerə qoydu, başını çölə çıxarıb üç ağız «Zəhra» deyə qışqırdı. Səs verən olmadı. Dirhəm zülmət qaranlıqla irəlilədi. Birdən qarşıda alov gördü. Od onun evinin dalındakı təpənin altında yanırdı. Burada bir varlı yayda bostanlarını sulamaq üçün böyük su anbarı tikdirmişdi. O, yalnız bir dəfə burada donmuş suyun üzərində xizək ilə sürüşən qızla oğlan görmüşdü. Onlar da gündüz sürüşürdülər, gecə burada kimin nə işi var? Bəlkə kimsə yeni ili ocaq işığında, buz üzərində xizəklə sürüşə-sürüşə qarşılamaq istəyir? İlahi, yəqin ki, bu, gənclərin növbəti əyləncəsidir. Sağlıqla sürüşsünlər, allah onlara qüvvət versin.

* * *

Dirhəm bir qədər də qabağa getdi, o, su anbarına yaxınlaşdı. Bayaqdan uzaqdan görünən ocaq indi onun qarşısında idi. Ocağın yanında dayanmış, pərişan saçları çiyninə tökülmüş bir qadın qolları ilə nə isə əsəbi hərəkətlər edir, yanına yığdığı odunları bir-bir tonqala atırdı. İlk baxışda Dirhəmə elə gəldi ki, şeytandır, sonra o, arvadını tanıdı. Elə bil Dirhəmi ildırım vurdu, yerindəcə donub qaldı, bütün bədəni titrədi. Nəhayət özünü ələ alıb heyrətlə qışqırdı:

– Zəhra, nə edirsən?

Zəhra cavab verməyə tələsmir, tonqalla odunlar arasında o tərəf – bu tərəfə gəzişirdi. Nəhayət:

– Mən allahın qəlbini isidirəm, – deyə Zəhra dilləndi.

İndi yeni il gələcək. Mən istəmirəm o, donmuş, buz bağlamış ürəklə gəlsin.

– Sən nə bilirsən ki, yeni il donmuş ürəklə gələcək?

– Mənim də qəlbim buz bağlayıb, torpağın da, göyün də… Məgər görmürsən, yerin üzü buzla necə örtülüdür? Göyə bax: gör o necə şaxta ilə nəfəs alır... Torpaq da… qayalar da… çay da… ağaclar da… ulduzlar da… hər tərəf buzdur. İnsanlar buza dönmüşlər. Bir dünyada ki, hər şey buz bağlamışdır, yeni il necə isti qəlblə gələ bilər?! Yeni ili isitmək lazımdır.

– Sən öz ocağınla yerin, göylərin buzlarını, insanların şəlbindəki buzları əridə bilməzsən.

– Bəli, bəli, bir odun mən yandırsam, bir odun sən yandırsan, hərə bir odun yandırsa, torpağı, göyü, insanların qəlbini qızdıra bilərik. Mən buza nifrət edirəm, mən istəmirəm ki, insan əllərinin, qollarının, gözlərinin və qəlblərinin buza döndüyü bir dünyada yaşayım. Hərə bir qədər öz hərarəti ilə havanı qızdırsa, bütün buzlar əriyər.

Yenidən şaxta vurar, hər yer buz bağlayar.

– Şaxta vurar, bir də yenidən tonqal qalayarıq…

Mən bir odun, sən bir odun, hərə bir odun atar, tonqal alovlanar. Buzlar əriyər. Əgər biz – mən, sən, yer üzünün bütün adamları – bir az hərarətli olsaq, bütün dünya qızınar.

– Axı, sonra yenə tonqal yanıb külə dönəcək.

– Kül buzdan yaxşıdır. Küldə istilik var. İnsan hərarətdən yaranmışdır. Əgər yer üzündə istilik olsa, onun sakinlərinin də qəlbi isinər. Hərarətli qəlbə malik insanların isə yeni illəri də isti olar.

Yeni ilin qəlbə nə dəxli var?

– İl ürəklərdə yaranır, ürəklərdə də ölür. O insanların ki, qəlbi paxllıq, xəsislik, riyakarlıq, acgözlüklə donmuşdur, on-

ların ili də insanları müharibə, aclıq, zülm və ölümlə hədələyir. Belələri bütün il boyu «Qoy yeni il hamıya xoşbəxtlik gətirsin» desələr də, bunun heç bir faydası yoxdur. O insanların ki, qəlbi məhəbbət, xeyirxahlıq, səxavət, düzlüklə isinmişdir, onların ili də əmin-amanlıqla, rahatlıq və bolluqla isinəcəkdir. Onlar xoşbəxt olacaq və bir-birinə ürəkdən «yeni iliniz mübarək» deyəcəklər.

– Zəhra, Zəhra, ağlını başına yığ, evə qayıt. Sən kainatı necə isidə bilərsən, sən zamanı necə dəyişə bilərsən? Bu qədər buzu əridəcək odun harada vardır? Sən özünü, balalarını və evini isitmək üçün odun tapa bilmirsən. Gedək, mənimlə gedək.

– «Sən get, mənə bir az odun gətir. Lap azca. Mən yer üzünü qızdıracağam, mən gələn yeni ilin qəlbini qızdıracağam, mən övladımızın qəbrini isidəcəyəm. Bir odun mən, bir odun sən qoysan, tonqal alovlanar… Gətir, torpaqda yatan oğlumuzun xatirinə gətir. Mənim qəlbim onun üçün çırpınır. İlk övladımız çox az yaşadı, o, həyatın ləzzətini görmədi. O, indii buzla örtülmüş torpağın altında uzanmışdır. Bu, cinayətdir… cinayət…

Zəhranın gözlərindən yaş axır, bədəni yarpaq kimi əsirdi. Sonra o, ocağa lap yaxınlaşdı. Dirhəm tez qolundan tutub onu tonqaldan uzaqlaşdırdı. Bir qədər ləngitsəydi, Zəhranın paltarı alışacaq, kainatı isitmək kimi sadəlövh bir fikrin qurbanı olacaqdı. Dirhəm hiss etdi ki, Zəhra yavaş-yavaş özünə gəlir. O, arvadının qolundan tutdu, evlərinə tərəf addımladılar. Su anbarının kənarına təzəcə çatmışdılar ki, tonqalın istisindən buz parçalandı, tonqal suda qərq oldu. Suyun üzərindən göyə buxar qalxdı. Dirhəm allaha şükür edirdi ki, özü və xəstə arvadı öl-

ümdən xilas oldular. Fikirləşdi ki, yəqin allahın onların uşaqlarına rəhmi gəldi.

Yol boyu onlar danışmırdılar. Zəhra ərinin qolundan tutub sürüşə-sürüşə buzun üzəri ilə yeriyirdi.

Onlar evə yaxınlaşanda zəng səsləri eşidilirdi. Ətrafı hay-küy, çalıb-oxumaq səsi bürümüşdü. Zəhra soruşdu:

– Biz haradayıq?

– Evimizə gedirik.

– Bəs bu nə zəng səsidir?

– Yeni ilin gəlməsini xəbər verirlər.

– Yeni il?.. Axı mən gördüm yeni il suya batdı. Bəlkə bu yuxu idi?

Dirhəm gülə-gülə dedi:

-Bir odun mən ataram, bir odun sən atarsan, hərə bir odun atar, buz da əriyər.

– Deyəsən bütün bunları mənə yuxuda mələklər deyirdilər: mən bir odun, sən bir odun… buz da əriyər. Sən uşuqlara təzə çəkmə alacaqsan? Axı, yeni ildir.

EY DƏNİZ

Yorulmadınmı, bir irəli çalxanırsan,
bir geri,
nə istəyirsən?
Hara gedirsən duracaq bilmədən?
Sanki sən də mənim kimi
iki könüllüsən; kölə və azad.
Biri qaçmaq istəyir o birindən,
amma qaçmaq imkansız!

Söylə, ey dəniz!
Səndə həm xoş,
həm bəd niyyətmi var?

Sükunətində güvənmi var,
dalğalarında ürkəklikmi?
Qabarman asan, çəkilişin çətin,
Alçalışın zillət, yüksəlişin qürurmu?
Səssizliyində hüzün, coşqunda
müjdəmi var?

Söylə, ey dəniz,
Səndə həm xoş,
həm bəd niyyətmi var?

Durdum, gecə zil-qara,
dəniz bir irəli, bir geri,
nə dəniz cavab verdi mənə,
nə torpaq.
Gecə ağarmağa başlayanda,
və dan yeri sökülənde,
bir çay zümzüməsi gəldi qulağıma:
kainat bükülmə və açılmadır
insanlar içində yaxşılar da var, pislər də
dənizdə də qabarma və çəkilmə var!

QOVĞA

Qəlbimə bir şeytan girdi
və bir mələk gördü orada.
Göz açıb qapayıncayadək

bir qovğa başladı aralarında.
İkisi də bu ev mənimdir deyir.
Mən onlara şahidlik edirəm
və hərəkətə gəlirəm
Tanrımdan soraraq.
Kainatda başqa Tanrı varmı?
Onunmu əli yaratdı qəlbimi,
yoxsa Sənin əlinmi?
Bu günədək özümü
şübhə və çaşqınlıq içində gördüm
qəlbimdəki məlunmu,
yoxsa bir mələkmi, bilmirəm.

İNSANLARI GÖRƏNDƏ

İnsanları görəndə,
Bir atəş yandırmışdılar
Cəhaləti yaxmaq üçün.
Bir taxt, bir heykəl qurmuşdular,
Sitayişçün biliyə.
İnancımı qoydum ovcuma,
Dedim: budur, mənim biliyim,
Yüksəldin onu!

Axmaq ağlımı atəşə çəkdim,
Dedim: budur mənim cəhalətim,
Yox edin onu!

Ağlımı taxtlarına oturtdular,
İnancımı yaxdılar, heç acımadan.

İnsanları görəndə
Bir çarmıx tikdilər
Gərmək üçün yalanı.
Bir tac qoydular,
Hökmdar etmək üçün həqiqəti.

İçimdə nə varsa qoydum ortaya.
Dedim: budur mənim yalanım,
Mismarlayın onu!

Sevinclə göstərdim qəlbimi,
Dedim: budur mənim həqiqətim,
Tac qoyun başına.

Qəlbimi mismarladılar!
Mənliyimi tanrılaşdırdılar!

YAXŞILIQ VƏ PİSLİK

Qəribədir,
Yuxumda eşitdim
Bir mələyin bir şeytana səsləndiyini:

Bəli, bəli əziz qardaşım.
Sənin cənnətin var ola bilərdimi mənim
cəhənnəmim olmasaydı?
Biz ekizik, bizdə eyni deyilmi
əbədilik və yox olmağın sirri,

ikimiz də eyni cövhərdən yaradılma-
dıqmı?
Hamı qardaşını unutsa da sən unudar-
sanmı?
Başını aşağı əydi nurun oğlu,
Keçmiş xatirələrini düşünərək,
Gözləri yaşla doldu əyilərkən,
Atəşin oğluna sarılıb əhf diləyəndə.
Bəli, bəli əziz qardaşım,
Sənin atəşindən yarandı mənim
cənnətim.
İkisi də uçdu yanaşı,
Daldılar sis pərdəsinin arxasına.

ƏMİR ƏR-REYHANİ

Əmin ər-Reyhani yeni keyfiyyətli ərəb ədəbiyyatının inkişafında misilsiz xidmət göstərmiş simalardan biridir. O, 1876– ci il noyabrın 24-də Livanın Fureyk kəndində yoxsul ailədə anadan olmuşdur. İlk təhsilini Fureyk kilsəsində Huri əl-Qərimdən almışdır. 1888-ci ildə fransız məktəbində təhsilə başlaması onun fransız, o cümlədən Avropa mədəniyyəti ilə tanışlığında böyük rol oynayır. Lakin ağır maddi ehtiyac onun təhsilini yarımçıq qoyması ilə nəticələnir. Əmin ər-Reyhani çörək pulu ardınca atasının mühacirətdə olduğu Amerikaya gedir, əmisinin işlətdiyi kontorda çalışmalı olur. 1897– ci ildə Ər-Reyhani Kolumbiya universitetinin hüquq fakültəsinə daxil olur. Amerika ümidlərinin boşa çıxması və ər-Reyhaninin vətən həsrəti onu yenidən Livana gətirir. 1898-ci ildə Beyruta gələrək orta məktəbdə ingilis dili müəllimi işləyir. Bir müddət Livanda qalsa da, yenidən Amerikaya qayıdır. Ər-Reyhani bədii yaradıcılığa ingilis dilində yazdığı «Xalid» povesti ilə başlamışdır. 1992-ci ildə onun I Dünya müharibəsi dövründə reallaşdıra bilmədiyi Ərəb ölkələrinə səyahəti başlayır. Səyahətdə əsas məqsəd ərəb dünyası, onun tarixi və mədəniyyəti ilə yaxından tanış olmaq idi. Reyhaninin ərəb ölkələri sırasında ilk tanışlığı Livandan başlayır. Sonra o, İraqı, Misiri, Yəməni və s. yerləri gəzir. Əhməd Şauqi, Maarif ər-Rusafi, əz-Zəhavi, əl-Cəvahi kimi görkəmli şəxsiyyətlərlə görüşür. 1923-cü ildə

Reyhani doğma kəndi Fureykə qayıdır. Burada o, «Ərəb hökmdarları», «Yeni Nəcdin tarixi», «İraqın qəlbi», «Livanın qəlbi», «Siz şairlərsiniz» və s. əsərlər yazmış, ərəb dünyasının problemlərini əks etdirmişdir.

1936-ci ildə Reyhani bütün Livanı piyada gəzir. Onun axırıncı səfəri Mərakeşə olur. Əmir ər– Reyhani 1940-cı ilin payızında vəfat etmişdir.

Sufi nəğməsi

Mənim qəlbim tarladır, Sənin üçün səpmişəm,
Sənin üçün suvarılır, yığılır.
Mənim qəlbim evdir, Sənin üçün açmışam
Sənin üçün havalanır, tozlanır, təmizlənir.
Mənim qəlbim xalçadır, Sənin üçün sərilib,
Sənin üçün üzərində rəqs edilir, dua oxunur, yatılır.
Mənim qəlbim mirvaridir, Sənin üçün düzmüşəm,
Sənin üçün taxılır, sındırılır, qorunur.
Mənim qəlbim sehrli şeylərin yatağıdır –
Sehrli xalılar, badələr, üzüklər –
Sənin üçün bu xəzinə ta uzaqdan,
Ta Dərindən gətirilir.

Uzaqların Allahı, bizi dinlə

(şeirdən parçalar)

I

Uzaqların Allahı, bizi dinlə –
Dinlə bizi, bu gün bizə yol göstər.
Sənin heç vaxt bizə yaxın olmayan addımların
Çarpışmaların toz-dumanında itib.
Sənin həmişə danışmış uca müqəddəslərinin
Diqqətdə saxlanılan sözləri laldır.
Onların işığı söndürülüb; onların işarətinə
Şübhə yaranıb, fikir ayrılığına, müəmmaya düşüb,
Uzaqların Allahı heç vaxt insan olmayıb.

Hələ zindanda olsa da, o, elə azaddır ki,
Öz ulduzu ilə meydan oxuyur,
Özünü keçmişdən də, səndən də ayırır.
Ancaq ruhlarımız sındırılsa da,
Yenə, həmən səni arayır;
Biz Sənə güvənirik, Allah,
Sənin ayətin səhraya, əhdin günəşə dönsə də.
Uzaqlar daim bizi çağırır –
Uzaqlar xəyallarla örtülüb;
Biz gəlirik başımıza nə gəlsə də,
Sənin bizdəki, əmanətin bizi qoruyur.
Biz gəlirik; tez-tez dəyişsək də
İstiqamətimiz qorxunun qapılarınadır.
Biz heç vaxt keçmişə, səhvlərə baxmırıq,
Heç vaxt yolumuzdan peşman deyilik.
Uzaqların Allahı, bizi dinlə –
Dinlə bizi, bu gün bizə yol göstər.

Yağışın nəğməsi

Allah rəhmandır, Allah mehribandır,
Onun qəlbi yerin göz yaşlarında qorunub saxlanır.
O, tufanların, atəşlərin
İstəklərini bir-birinə calayır.
Quraqlıq, səmum, onların bütün gücü,
Onun qüssəsinin kölgələri sürətlə yayılaraq
ah çəkir: –
Yağış yağır, yağış yağır.

Allah rəhimdir, Allah şəfqətlidir,

Səhra Onun qədəmlərindən gül açır,
O, atəşi aramla sərinlədir,
Dağları qucaqlayır.
Qumların ağırlığı altında inildəyən mağaralar
Onun əllərindən axıb tökülən səxavətdən
çaşıb qalıblar: –
Yağış yağır, yağış yağır!

Allah görəndir, Allah müdrikdir,
Ona şükür deyən palma daşdan bitəcək,
Çöllərdəki maral,
Gildəki fidan,
Yuvadakı quş, tufandakı qağayı
Bəxtəvər-bəxtəvər oxuyur, salam, Allah, salam!
Yağış yağır, yağış yağır!

Allah qüdrətlidir, Allah böyükdür,
Onun əlləri bütün şeylərə can verir
O, müdafiələri yandırır,
Buludları silkələyir.
Torpağın ölümü yeni həyatla mükafatlanır: –
Torpağın sümükləri bəxtəvərdi, xoşbəxtdi: –
Yağış yağır, yağış yağır!

Su və güllər

Bu, güllərdir, Sevgilim,
Bu, güllərdir.
Gəl, bu gün ürəklərimizi
Çiçəklərin ətrafına düzək

Gəl, yolumuzdan azmayaq
Uzaqdakı ilğımdan;
Bu, yaşıllıqdır, yaşıllıqda
Sevgi gizlənir.

Bu, bahardır, Sevgilim,
Bu, bahardır.
Gəl, dincələk, yuva quraq
Baharınca yanında;
Gəl, yorucu axtarışı artıq kəsək,
Şükürlərin uca dağları üçün.
Bu, sudur, suda
Xeyir-dua oxunur.

Mistiklərin nəğməsi

Biz sehrlərin dumanından qalxmışıq,
Sirlərin kainatından keçmişik,
Aşiqlərin məkanına girmişik.
O kəslər ki, cəhətləri dan ulduzu tək hilallanıb
O kəslər ki, bədənləri yeni ay tək incədir.
Sanki qab içində bədəndir,
Könül bu qabda
Bulağın aydın səsidir,
Dağların gül ətirli nəfəsidir.

Sənin üçün gəldik
Dənizdən bir qab halında;
Sənin üçün gəldik, alçalmıştək,
Ancaq rəhminlə dolmuşuq.

Sözün xətrinə rəqs edirik
Alovların üstündə, ülgücün tiyəsində
Düşüncəmiz ölüm deyil, bizim üçün
Dənizin köpüyünün işığıdır.

Biz həqiqətə, biz günəşə doğmayıq,
Bütün zənginliyin sonsuz mənbəyi,
Biz birik
Dünyanın tapmacaları və möcüzələrilə.
Ancaq nə dünyanın, nə günəşin nəfəsi var
Çox çəkmir Ölümlü məkanda
Bizim ayaqqabının tozu bizi aldadır, biz bilirik –
Biz uzaqlardan vəfamızı göstərməyə gəlmişik.
Ona, bizi Vəhdət bağçasının
Qapısında gözləyənə bizim doymaq üçün güclü
istəyimizi
Biz Həqiqəti çatdıracağıq
Biz sirrin pərdəsini açacağıq;
Soyunmaq üçün gəlmişik, şeh kimi
Meh kimi, tufan kimi biz gəldik,
Soyunduq, tikanlıqdan, çəmənlikdən keçdik
Biz danışdıq, biz yazdıq.
Bizim paltarlar Ağlın odunda yandı,
Karla korun mübahisə etdiyi dünyada.
Biz – Həqiqətik.
Səmalardayıq,
Sirlər kainatından göndərilmişik.
Biz – Həqiqətik.
Səmalardayıq,
Biz sehrlərin dumanından qalxmışıq.

II

Gündüzün işığında, gecənin uzduzlarında biz
görürük,
Rəbbimizin üzünü, qoca səyyahın ayaqlarını;
Küləyin nəfəsini, şimşəyin səsini
eşidirik,
Xanəndənin naləsini, peyğəmbərin lirik
tərənnümünü
Onlarsız, biz heyf ki, lalıq.
Neyi, dəfi eşitsək də.
Ancaq görüntü həqiqətdir,
Allah, Allah!
Onlar maviyə bürünüb,
Allah, Allah!
Şehdə-şəbnəmdə islanıb,
Allah, Allah!

Sənaiyə salam olsun, könüllərin mehtabı,
Məqsədə aparan bələdçi, yol.
Əttara salam olsun, müşk ətirli sözlərilə
Nəğmə deyən quşların vəziri.
Ərəbiyə salam olsun, Həqiqətin dilinə,
Peyğəmbərin həqiqətdə gözünə.
Rabiəyə salam olsun, Kainatın könlünə,
Nəğməkarların, peyğəmbərlərin sevgilisinə;
Allahın ayaqları altındakı parıltını
Qarşılamaq üçün qalxan gül qönçəsinə.
Qəzaliyə salam olsun, nur toxucusuna
Nur üçün qanad düzəldənə.

Həllaca salam olsun, ilahi dalğıca,
Onun inciləri hər balıqqulağını bəzəyir,
Onun qanı «Ənə'l-Həqq» sözlərinin
Daim parlaması üçün bir güvəndir.
Bütün salamlar Cəlaləddin Rumiyə olsun.
Hər pərdəni cırıb atan Mevlana,
Onu küləyə verən, heç vaxt ayıq olmayan,
Heç vaxt meyxanədə olmasa da;
Daim – tez-tez – yalqız qalıb –
Allahın taxtı önündə rəqs edən.
Təbriziyə salam olsun, Nəğməkara
Yasəmənlə, süsənlə, qaymaqçiçəyi ilə qida verən
Onunla vaxt keçirən, könlünü dəvət eyləyən
Öz Dəftərinə bir kəlmə də yazmayan.
Fəridə salam olsun, yaralı aşiq,
Romantik Günəşin qəlbi,
Üzümlüyün könülü – sıxmaqdır,
Bunu hər diqqətli üzümçü bilir.
İlahi meyxanənin sakinləri
Saqi, badə və şərabdır.

Ancaq görüntü həqiqətdir,
Allah, Allah!
Onlar maviyə bürünüb,
Allah, Allah!
Şehdə-şəbnəmdə islanıb,
Allah, Allah!

III

…
Nə aypara, nə də xaçdı səcdəgahımız,
Nə Budda, nə Xristədir dualarımız,
Nə İslama, nə Yəhudiyə yox inkarımız,
  Biz azadıq.

Nə İran, nə Hinddənik,
Nə ərəb, nə sinddənik,
  Biz azadıq.

Nə şərqli, nə qərbli,
Sərhəd tanımayan sinəli,
  Biz azadıq.

Biz tozdan, şehdən yaranmamışıq,
Biz yerdən, göydən olmamışıq,
  Biz azadıq.

Biz odla, köpüklə yoğrulmamışıq,
Nə günəşi, nə dəryanı ev sanmamışıq,
Nə mələklə, nə cırtdanla doğmalaşmamışıq,
  Biz azadıq.

SÜHEYL İDRİS

Süheyl İdris 1925-ci ildə Beyrut şəhərində anadan olmuşdur. O, XX əsr Livan ədəbiyyatında orijinal üsluba malik nasir və romançı kimi tanınmışdır. Süheyl İdris orta və ali təhsilini Beyrutda almışdır. 1954-cü ildə Sarbon Universitetində doktorluq müdafiəsi etmişdir. O, yenidən doğma Beyruta gəlmiş və taleyini bu şəhərlə bağlamışdır. Süheyl İdris bədii yaradıcılıqla yanaşı, tərcüməçilik, lüğət tərtibi, teatr araşdırmaları və s. fəaliyyəti ilə də məşğul olmuşdur. İndiyə qədər 12 kitabı çap olunmuşdur. O, Beyrutda çıxan «Ədəbiyyat» dərgisinin baş redaktorudur. Hazırda oğlu ilə bərabər bu dərginin çapını davam etdirir.

AZADLIQ

Qarşıda, lap onun qabağında bir əsgər gedirdi. Ona elə gəlirdi ki, nəhəng əsgər çəkməsi bu saat onu tapdayıb əzəcək. O, bu çəkmələrdən başqa bir şey görmürdü, ona görə ki, özündə deyildi, yarısərsəm halda idi.

Bu vəziyyət onda bir neçə gün idi ki, davam edirdi. Mürgüləyəndə, yaxud yuxuya gedəndə yenə də qarşısında addımlayan əsgər peyda olur və addımlarının səsi və ayaqqabılarının tappıltısı eşidilirdi.

O, yarısərsəm halda idi. Bu ayaqlar hər şeyin qabağını tutmuşdu, geniş səhranı da, səmanı da, üfüqü də.

Örtülən göz qapaqlarını güclə də olsa açıb baxdıqca onu daim təqib edən bu ayaqlar yoxa çıxır, qaranlıqda əriyirdi. O dəqiqə də ayaqqabıların ahəngdar və yeknəsəq səsi kəsilir, eşidilmirdi. O, bilirdi ki, tamam yorulub haldan düşənə kimi bu səs onun başında çəkic zərbəsitək səslənəcəkdir.

O, otağa girdikdə, Səlva dedi:

– Elə indi, bu saat sənin qohumun Atif getdi. O, sənin üçün Parisdən qadağan olunmuş jurnallar gətirib.

O, səbirsizliklə əlini uzatdı, jurnalları götürmək istədi, birdən ilan çalmış kimi əlini geri çəkdi, tərəddüd etdi, lakin nəzərləri Səlvanın gözlərinə sataşanda fikirləşdi ki, hər halda jurnalları götürsə yaxşıdır.

Sonra dedi ki, xarici mətbuatın zəhərli təbliğatla dolu olmasına baxmayaraq, yenə də ölkəmizdə baş verən hadisələri

bizim öz qəzetlərimizə nisbətən ədalətlə və qərəzsiz şərh edirlər. Ancaq onun əlləri yenə də hərəkətsiz idi, onlar elə bil cansız və yad bir cismə dönmüşdü.

Səlva ona yaxınlaşdı, iri zərfdən bir jurnal çıxarıb üçüncü səhifəsini açdı.

– Bura bax.

O, sanki qurumuş əlini qaldırıb, uzadılmış jurnalı götürməli oldu. Uzun müddət təəccüblə baxdı: qadınların əllərində tutduqları tüfəng və avtomat lülələrinə zillənmiş dəhşətlə dolu gözlərə, çöhrələrə baxdı.

Səlva dedi:

– Oxu gör şəklin altında nə yazılmışdır.

O oxumadı, hərəkətsiz dayanaraq Səlvanın düz gözlərinin içinə baxdı. Səlva üzünü yana çevirdi və pıçıldadı:

– Bəli, bu da onların arvadlarıdır…

O, başa düşdü ki, Səlvanın təsəlliyə nə qədər ehtiyacı var və üzr istəyirmiş kimi arvadını qucaqladı. Səlva da ona qısıldı. O bilirdi ki, indi Səlvanın gözlərində həmişəki sakit yalvarışı oxuyacaq. Bu gözlər yenə ondan xahiş edəcək ki, özünü qorusun, Səlvanı və uşaqları qorusun, göydən yerə ensin, hər şeyi unutsun, heç olmasa, özünü laqeyd göstərsin.

– Sən nə üçün mənə bu şəkli göstərdin?

Səlva cavab vermədi. Məgər unutmaq olar?

Bu şəkil və şahidlər olmasaydılar ba vermiş o dəhşətli hadisəni unutmaq olardımı? Səlva, nə üçün adamı belə ürək yaralayan şəkillərə baxmağa məcbur edirsən?

Fikrini yayındırmaq uçün o, stolun üstündəki sənədləri araşdırmağa başladı. Lakin birdən başa düşdü ki, artıq heç ona əzab verən fikirləri dağıda bilməyəcək. Səlva elə bil onun qəlbindən keçənləri oxudu və dedi:

– Bəlkə, biz çıxıb gedək? Yoxsa sənin yenə də işlərin var?

Çiyinlərini çəkərək o, Atifin gətirdiyi təzə jurnalları götürdü və portfelinə qoydu. Onlar evdən birlikdə çıxdılar.

Maşında, rulun arxasında oturduqda o, soruşdu:

– Hara gedək?

– Bilmirəm, hara istəyirsən – deyə Səlva cavab verdi və tez əlavə etdi: – Gəl dəniz kənarına çıxaq. O, dinməzcə rulu döndərdi. Sahildə maşından düşdülər. O, dəmir məhəccərlərə söykənib, sinə dolu nəfəs aldı və dalğın nəzərlərlə dənizə baxdı. Dəniz sanki tərsinə çevrilmiş səmaya bənzəyirdi.

O, burada da jurnalda dərc olunmuş şəkli xatırladı. Yazıqlar indi sərhada, al günəşin altındadırlar. Burada dənizin sahilində lap yaxından dərk edirsən ki, ölüm onlar üçün səadət və qurtuluşdur. Sən isə bir qorxaq ziyalısan, sahildə dayanıb dənizdən, havadan və sərinlikdən həzz alırsan.

Səlvanın səsi onu xəyaldan ayırdı:

– Qayıtmaq vaxtıdır. Bir azdan uşaqlar məktəbdən gələcəklər. O fikirləşdi ki, uşaqları haqqında heç düşünmür. Ancaq indi, bir neçə dəqiqədən sonra uşaqlarını bağrına basacaq, onları öpüb, qucaqlayacaqdır. Əgər bacarsa…

O, yatağa uzanıb qohumunun gətirdiyi qadağan olunmuş fransız jurnallarını vərəqləyəndə, yenə həmin şəkli gördü.

* * *

O, ətrafına baxdı, qum təpələrindən başqa heç bir şey görünmürdü. Bir az bundan qabaq isə buralarda çoxlu ağac və evlər var idi. İndi isə qarşıda yalnız yanmış torpaq görünürdü, nə bir ağac, nə də bir ev vardı.

O, başa düşdü ki, azmışdır, bilmirdi ki, maşını hansı tə-

rəfdə saxlayıb. «Nəhayət mən təkəm» deyə o, böyük bir rahatlıq hiss etdi, sevindi. Mən bu səhraya tək gəldim, lakin mən də səhranı keçən yüzlərlə, minlərlə, on minlərlə adama qoşulacağam. Səhranı Həsən keçən kimi keçəcəyəm, mən də səhrada adlarını bilmədiyim, lakin şəkillərini qadağan olunmuş jurnalda gördüyüm adamlar kimi addımdayacağam…».

Məmnun halda o, şəhərdən uzaqlaşmağa başladı. Sol çiynindən kiçik su qabı asmış, əlində tranzistor radioqəbuledicisi tutmuşdu. Özünü ən xoşbəxt adam hesab edərək, uzaq və anlaşılmaz bir aləmə ayaq basırdı. Bu aləm ədalət və istiqlaliyyət uğrunda mübarizə aləmi idi.

«Ucsuz-bucaqsız səhrada qara nöqtəyə bənzər tənha adam, mən sənin yanına gəlirəm. Gəlirəm ki, sənin tənhalığına təsəlli olum, sənin dərdinə şərik olum. Gəlirəm ki, səhranın ucsuz-bucaqsız səması altında sənin paklığına qərq olum…».

O, qabağa addımlayırdı, günəşin isti şüaları alnını və yanaqlarını qızdırırdı. Səhər saat doqquz olmasına baxmayaraq, günəş olduqca qızmar idi. Onun yadına düşdü ki, cəmi bir saat əvvəl, uşaqlar məktəbə gedəndən sonra Səlvanı yola saldı. «Məni bağışla, Səlva! Mən səni aldatdım. «Poçta gedib indi qayıdacağam» dedim, mən yalan danışdım».

O, bir həftə bundan əvvəl Həsənin ailəsindən aldığı məktubu xatırladı. Məktubda deyilirdi ki, Həsənin anası nigarançılıqdan əldən düşmüş, ağlını itirmək dərəcəsinə çatmışdır.

«Həsən, sən elə bilirsən ki, mən sənlə bu kiçik dünyanın yollarının birində rastlaşacağam və sənə axırıncı dəfə sizdə olduğum zaman söhbət etdiyim qohumların haqqında danışacağam? Mən sənin oğlunu qucağıma götürdüm, onun gözlərinə baxarkən dedim: «Bu, Həsənin gözləridir». Sənin anan göz yaşlarını gizlədərək tir-tir əsirdi. Səbirli arvadının yanaqların-

dan göz yaşları axırdı. Mənim qollarım yoruldu, oğlunu yerə qoyaraq dedim: «Onu saxlamağa Həsənin qüvvətli qolları lazımdır». İndi sən haradasan, əlində nə tutmusan?

O diksindi. Olmaya jurnaldakı o şəkildə Həsən də var idi?

Bu fikir onu dəhşətə gətirdi. O, su qabını açdı, bir-iki qurtum su içdi. Birdən gözü əlindəki qəbulediciyə sataşdı. O, radioqəbuledici apardığını heç hiss də etməmişdi. Cihazı qurdu, xəbərlər verilir, mahnı oxunur, musiqi çalınırdı. Səslər, həyat səsləri… Onu ümidsizlik bürüdü.

* * *

Mənim naməlum dostlarım, sizlərdən hər biriniz özünüzlə bu cür radioqəbuledici gəzdirirsiniz. Bu qəbuledicilər sizi xarici aləmlə birləşdirir. Siz özünüz tələb etdiniz ki, sizin haqqınızda danışsınlar: haradasınız, bu uzaq və şərəfli səfərinizdə nə əldə etdiyiniz barədə məlumat versinlər. Onlar bizə xəbər verdilər ki, düşmən təyyarələri payız yarpaqları kimi yerə səpələnir. Ağzında ölüm gətirən qaraquşa bənzəyən bu təyyarələr sizin başınızın üzərində hərlənib sizi addımbaaddım geri çəkilməyə məcbur etmişdir. Siz onları sinəniz, əllériniz, gölərinizlə qarşılayır, sonra ən yaxın dostunuzu belə unudaraq nizamsız halda geri çəkilirdiniz. Siz göz işlədikcə gedirdiniz! Bilirdiniz ki, bu yol naməlum, çətin və uzaqdır. Siz bilirdiniz ki, qoynunuza sıxdığınız bu balaca radioqəbuledicilər sizə evinizin yolunu göstərməyəcək, hərə öz evini ayaqlarının, gözlərinin, əllərinin, bəlkə də dırnaqlarının köməyi ilə tapacaqdır. Dırnaqları işə salmaq üçün isə əllər azad olmalıdır. Əllərinizi məşğul edən bu gərəksiz cihazları bacardıqca uzağa tullayın, irəliyə yol açın!

* * *

O, radioqəbuledicini söndürməmiş kənara tulladı. Yəqin ki, saatlar, bəlkə də günlər keçəcək, ancaq radioqəbuledici səhrada elə hey bağıracaq, nəhayət səhra onu susduracaqdır.

«Ey, bu böyük səhrada qara nöqtə kimi görünən tənha şəxs, doğrudurmu ki, sən üç gün susuzluqdan yana-yana yol getmiş, nəhayət su içmək üçün quyunun üzərinə əyilərkən ölmüşsən? Mən bu kiçik səhramda sənin susuzluğuna şərik oluram. Zavallı dostum, məni öz yanına çağır, mənim mehtərimi götür, o, qüvvətini yenidən sənə qaytarar. Sən görəcəksən ki, quyunun suyu qurumuşdur, mehtərimdəki su ilə dodaqlarını isladar və mənim olduğum vadiyə gələrsən…».

Birdən o özündə bir yüngüllük və sərbəstlik hiss etdi, köynəyini çıxarıb sinəsini günəşin qızmar şüaları altına tutdu və öz-özünə dedi:

– Bax, indi mənim üçün də əsil işgəncə başlanacaq.

* * *

Başı ağrıyırdı. Əlini qaldırıb başının ağrıyan yerinə toxundurmaq istədikdə əli alnına qoyulmuş yaş dəsmala dəydi.

Tanış bir səs eşitdi.

– Deyəsən oyandı…

Gözlərini açdı, ətrafda dayanmış adamların sifətləri ona tanış gəlirdi.

Sonra astadan pıçıldadı:

– Mənə nə olmuşdur? Mən haradayam?

Səlva ona cavab verdi:

– Narahat olma. Bir az qızdırman var. Bir neçə gündən sonra evimizə gedəcəksən.

O, yenə gözlərini yumdu və öz kiçik səyahəti haqqında fikirləşməyə başladı. Kimsə onun əlindən tutdu: «Yazıq Səlva! Ona nə qədər əziyyət verirəm! Mənim başqa əlacım yox idi».

O, Səlvadan heç olmazsa nəzərləri ilə üzr istəmək üçün gözlərini açdı. Səlva yenə məzlum-məzlum ona baxırdı. O gülümsündü, Səlva o saat dedi:

– Allaha şükür! Sən nə üçün belə etdin?

Yenə göz qapaqlarını örtdü. Gözünün qarşısına yenə həmin əsgər gəldi. İndi o, qarşıda deyil, onunla yanbayan yeriyirdi. O, əsgərdən dala qalmamağa çalışırdı. Əsgərlə bir addımlamaq, hətta ondan qabağa keçib, ona yol açmaq istəyirdi. O bilirdi ki, əsgəri ötə bilməsə də, ondan dala qalmamalıdır. Öz-özünə dedi: əgər əsgərdən dala qalsam tale məndən üz çevirər. Onunla birlikdə getməli, birlikdə yıxılmalı, birlikdə də ayağa qalxmalıyam…

O, gözlərini yumaraq uzanmışdı. Yanında isə onun və onu tapan sürücü haqqında söhbət gedirdi. Danışırdılar ki, sürücü onu yolun kənarında huşunu itirmiş halda tapmış və xəstəxanaya gətirmişdir.

Ona elə gəldi ki, Səlva həddən artıq çox danışır. Ancaq Səlva susduqda arvadının səsini yenidən eşitmək istədi. Soruşdu:

– Uşaqlar necədir?

Səlva pıçıltı ilə cavab Verdi:

– Kiçiyi elə hey ağlayır…

O gözləyirdi, lakin Səlva daha hes bir söz demədi. O fikirləşir ki, bəzən qadınlar həddən artıq susurlar və yenə soruşdu:

– Nə üçün onlar bura gəlmirlər?

– Mən istəmirəm ki, uşaqlar sənin yanmış sifətini görsünlər.

Onun dodaqlarına acı təbəssüm qondu. Boş şeydir! Bəs bombalardan yanan və eybəcərləşən sifətlər?..

Bir qədər keçdikdən sonra Səlva dedi:

– Hə yaxşı ki, siz qayıtdınız?

O, təəccüblə Səlvaya baxdı. Səlva sözünü aydınlaşdırdı.

– Həsən də qayıtmışdır.

Onu kədərlə qarışıq bir sevinc bürüdü. Yenə gözlərini yumdu. Onun bu kiçik səfərini Həsənin mühüm və vacib səfəri ilə müqayisə etmək olmazdı. Buna baxmayaraq o, bir qədər rahatlaşmışdı. Çünki bu uzun və çətin yolda Həsənin keçirdiyi iztirabları cismən və ruhən hiss edə bilmişdi.

Səlva Həsənin səfərindən elə danışırdı ki, elə bil o, məktub oxuyurdu. Məktub uzun idi. Ona elə gəldi ki, «məktub» səhrada keçirdiyi o əzablı günlər kimi uzundur. Səhrada o, sinəsini günəşin qızmar şüaları altına tutaraq öz günahını yumaq istəyirdi. «Məktub» sona yetdi, elə tez qurtardı ki, o, hətta təəccübləndi. «Məktubda» dirçəlişə və azadlığa doğru çağırışdan başqa heç bir şey yox idi.

MİŞEL SÜLEYMAN

Müasir Livan ədəbiyyatının tanınmış nümayəndəsi Mişel Süleyman 1931-ci ildə anadan olmuşdur. 40-a yaxın kitabı çap olunmuşdur. «Gündüz xülyaları» epopeyasının, «Bu mənim qanımdır, için» melodramının, o cümlədən çoxsaylı şeir, poema və simfoniyaların müəllifidir. 15 il Beyrutda nəşr olunan «Əl-Təriq» jurnalının baş redaktoru olmuşdur. Uzun müddət Livan Yazıçılar Birliyinə rəhbərlik etmişdir.

Mişel Süleymanın tərcüməçilik fəaliyyəti də təqdirəlayiqdir. Ərəb oxucuları onun tərcümələri vasitəsilə Qorkinin, Şoloxovun, Ş.Rəşidovun, N.Hikmətin və digər sənətkarların yaradıcılıq nümunələri ilə yaxından tanış olmuşlar. Mişel Süleyman 1977-ci ildə Bakıya gəlmişdir. Onun Azərbaycan yazıçı və şairləri ilə geniş yaradıcılıq əlaqələri olmuşdur.

Ərəb həyatı gerçəklikləri, onun ictimai-siyasi problemləri M.Süleyman yaradıcılığının konkret hədəfi olmuşdur. «Mühacir quş», «Xalqın qüdrəti» və bu kimi onlarla digər şeirlərində Mişel Süleyman insanların vətən gerçəkliklərini, azadlıq duyğularını, mübarizə ruhunu tərənnüm etmişdir. Mişel Süleyman poeziyasında lirik tərz olduqca güclüdür. Lirika onun yaradıcılığında hiss və duyğuların özünəməxsus ifadəsində əksini tapmış və sənətinə olan marağı artıra bilmişdir.

XALQIN QÜDRƏTİ

Köpürəndə dalğalar dənizi görmüsənmi?
Bozaranda suların bənizi görmüsənmi?
Təlatümdə fırtına quşunu görmüsənmi?
Çırpanda dalğalara döşünü, görmüsənmi?
Bəli, xalq da belədir!
Gəriləndə əsəbi
Dəryaları oynadır onun kini, qəzəbi.
O gəlir təlatümə, kükrəyir tufan kimi,
Rahat olmur, tikanlar üstə oturan kimi.
Öz qanıyla uçurur zülm evini təməldən.
Gecənin zülməti də bu müqəddəs əməldən,
Bu qandan işıqlanır, əriyir gilə-gilə,
Bu, o zaman olur ki,
Zalımın zülmü çatıb son həddə, son mənzilə.
Yox, dözmək olmaz daha!
Siz ey zalımlar, bilin, xalq yenilməz Allahdır,
Səcdə edin Allaha!

İŞIQ VƏ DUMAN ARASINDA BİR AN

Fabriklərin ahlarından
Doğan
Bir an —
Ağır bir an!
Küçələrin toxlarıyla

Axan bir an —
Ağır bir an!
Zəhmət, əzab bahasına —
Təkcə bir an!
Dönüb ömrün mənasına —
Təkcə bir an!
O an mənim boğazımı
Acışdıran tüstü kimi.
O an məndən uzaq qaçır,
Qaçır səbr şüasının özü kimi.
Səhər-axşam, gecəyarı
məni alır qucağına
coşan xəyal dalğaları.
O dalğalar
Ümid adlı sahilləri öpür, öpür.
Tərəddüdlü anlarıma
Qətiyyətlə işıq səpir.
O — yolunu azma — deyir, —
yerdə, göydə gülüşü var!
Məni erkən oyadır ki, —
Gözlərimlə görüşü var!

ÜSYANKAR HÜZN

Könlün xatirələr məzarlığında
Bu gün dəfn edirəm şəhidlərimi.
Küləklər söyləyir: «Məhv oldu onlar!» —
Mən buna baxıram əfsanə kimi.
Yox, yox, mən onları görürəm yenə
Vətən torpağında bir əsgər kimi.

Odun, alovların içindən çıxan
Od yeyən, od içən Səməndər kimi.
Onların xisləti — oda təşnəlik,
Bir az da Simurğa bənzəyir onlar.
Yuxuya getmirlər bircə an belə,
Daim oyaqdırlar, daim intizar.
Müdam gözüaçıq, müdam uçuşda,
Müdam ovxarlayır dimdiklərini.
Dərir dan yerinin şəfəqlərini -
Boyasın səhərin çiçəklərini.

ŞƏHİD

Qabındaca daşa dönmüş mürəkkəb,
Hərfləri tanımayan iki göz.
Uzaq-uzaq üfüqlərə açılmış
Şüşələri sınıq-sınıq pəncərə,
Yaşıl otlar arasında özünə
Yuva quran haçaquyruq qaranquş.
Dövr etdiyi göy dammarı partladıb
Torpaq üstə ləkə olmuş qara qan.
Bir körpə ki, anasının bətnini
Həmişəlik məskən edir özünə.
Lal gecədə bir qışqırıq, bir haray,
Bar-bəhərli ağacları sulayan
Odlu, günəş hərarətli yağışlar.
Tarix olmuş rəvayətdən səhifə.
Ümidlə nur ilğımına can atan
Ac-yalavac, yalınayaq uşaqlar.
Al şəfəqin qanı ilə boyanmış

Soyuq polad — soyuq qılınc tiyəsi.
Gözləyəndə zülm evindən od, alov -
Ordan qəfil qara tüstü çıxması.

Belə vaxtda
Sükut açır dilini.
Qanadlanır qayalar da, daşlar da.
Gözlərin də qartal kimi, şir kimi
Görürsən ki, caynağı var, dişi var…

CƏNNƏT QUŞU

Qız əlini uzatdı, ovcunda qənd var idi,
Ac quşa: — Götür, – dedi, – ye, ağzın dada gəlsin.
Quş ürküb uçdu getdi.
Aclıqdan ahar idi.
O, necə pərvaz etsin, qanad çalsın, yüksəlsin?
Yenə qayıtdı yerə.
O qıza söylədim mən:
— Axı nə fayda vardır bu qanadlardan sənə?
O quşu sənə tərəf çəkir ovcundakı dən,
Elə ki, yedi, doydu
Uçub gedəcək yenə.
Bax, mənim ürəyim də həmin ac quşa bənzər,
Qanad çalır dövrəndə, nə susur, nə dincəlir.
Ona nə dən gərəkdir, nə də bu uca göylər,
O, eşqin təşnəsidir, eşqi salama gəlir.
O xoşlayır uçmağı tək sənin göylərində,
Cənnət çiçəklərinin orda rayihəsi var.
Qucsam mərmər belini,

Odlu öpüşlərimə
Səni qərq edə bilsəm qəlbim odu soyuyar…
Dodağının atəşi alovludur günəşdən,
Günəşin özünü də yandırar bu hərarət.
Sevgilim, ovcundakı o qəndi yeyib gedən
O köçəri quşamı bağlamısan məhəbbət?
Cavab verdi sevgilim: — Cənnət olsa da aləm,
Axan çay sevir ancaq öz qumlu sahilini,
Mən də onu sevirəm…

İRAQ ƏDƏBİYYATI

- SAHİB CAMAL
- ƏBDÜL VAHAB ƏL-BAYATİ
- ƏLİ ƏL-HİLLİ
- YUSİF ƏL-SAİĞ
- HƏSƏP ƏL-ŞEYX CƏFƏR
- SAMİ MEHDİ
- MƏHƏMMƏD ƏL-BƏDRİ



SAHİB CAMAL

YUSİF

Uşaqcığaz lap kiçik yaşlarından qaradinməz və qaşqabaqlı idi. Bəzən adamlar onu lal və kar hesab edirdilər. Lakin heç kəs güman etməzdi ki, bu qaradinməzliyin arxasında böyük cəsur və mərhəmətli bir ürək gizlənir. Hərdənbir anası ona baxaraq kədərlə düşünərdi: «Başqalarının uşaqlarına baxanda adamın ürəyi açılır, zirək və şəndirlər, amma bu...».

Yusifin qara gözlərində arabir üsyankarlıq və qəzəb qığılcımları parlayır, bu isə ananı narahat edərdi: «Görəsən onu sahibkarın evində döymürlər ki?».

Ancaq bir dəfə adətinin əksinə olaraq Yusif evə çox şad və sevincək gəldi. Bu, Marseldən sahibinin yanına gəlmiş qızılı saçlı tələbə Janettanın ona bir əlifba kitabı, dəftər və qələm bağışlayıb, onunla məşğul olmağı vəd etdiyi zaman olmuşdu.

Yalan nə deyim, o vaxt Janetta Yusifin üzündə bir təbəssüm belə görməmişdi. O, heç bir söz demədi, ancaq geniş açılmış gözlərilə qıza baxdı və fikirləşdi: «Deməli belə... Görünür, hamınız pis deyilsiniz. Sizin aranızda da yaxşı və xeyirxah adamlar olur. Görəsən mən də dövlətli uşaqları kimi oxuyub yazacağammı? Görəsən bu doğrudurmu? Yusifin gözləri yaşardı, çətin eşidiləcək səslə – «Çox sağ olun, xanım qız!» – deyib qulaqlarına qədər qızardı.

Janetta cənab Bernarın evində qonaq olduğu müddətdə

anladı ki, bütün əmrləri yerinə yetirən bu səssiz-səmirsiz körpə, heç nə fransız sahibkarlarının təsəvvür etdikləri kimi tənbəl, bacarıqsız və qorxaq deyildir, onun qəlbində qarşısıalınmaz bir üsyankarlıq ruhu qaynayır və o bütün fransızlara, o cümlədən cənab Bernarın ailəsinə də nifrət edir. Janetta bütün qəlbi ilə onun bu hisslərinə tərəfdar idi.

Yusif sevincini bölüşmək üçün icazə alıb həmin gecə anasının yanına gəldi. Anası on dörd yaşlı oğlunu ömründə birinci dəfə idi ki, belə həyəcanlı və son dərəcə şad görürdü. Yusifin gözlərindən qığılcım yağır, dişləri gözqamaşdırıcı bir tərzdə parıldayırdı. O, nəfəsi tutula-tutula Janetta haqqında bacardıqca tez, heç bir şeyi unutmadan, heç nəyi ötürmədən hamısını danışmağa tələsirdi. Anaya elə gəldi ki, oğlunu daim təqib edən, onun üzündən təbəssümü qovan sirli qüvvəni kiminsə sehirli əli vurub dağıtmışdır.

Həmin gecə ana yatağa həmişəkindən gec uzandı, ancaq yenə yata bilmədi. Oğlu haqqında fikirləşdi. Yusif də yatmamışdı. Çürümüş dirəkləri arasından torpaq tökülən alçaq tavana baxaraq, o, Janettanın sözlərini və hədiyyələrini xatırlayırdı. Doğrudanmı o, düz deyir, görən vədinə əməl edəcəkmi?!

– Ana, sən necə fikirləşirsən, Janetta mənə oxumaq öyrədəcəkmi? deyə Yusif birdən anasına müraciət etdi.

– Əlbəttə, istəsə öyrədər, lakin bu sənin çalışmağından da çox asılıdır, oğul!

– Ana, mən var qüvvəmlə çalışacağam. Ancaq qorxuram ki, sahibkar oxumağıma icazə verməsin.

– Hə, oğlum cənab Bernarın ailəsindən mərhəmət gözləmə. Mən bilirəm ki, sən onların çox zülmünə dözürsən, ancaq mənə heç bir şey demirsən, danışmırsan. Eləmi?..

– Elədir ana, elədir ki, var – deyə Yusif kədərli səslə cavab verdi.

Doğrudan da o, nə cür kötəklərə, hansı cəzalara dözməli olmurdu? Hamı görürdü ki, onunla necə amansız rəftar edirlər. Tutarlı bir səbəb olsaydı, yenə dərd yarı idi. Heç bir şeyin üstündə incidirdilər. Yusif:

– Qoyub qaçacağam! Bu ailədən zəhləm gedir – dedi və uzun sükutdan sonra əlavə etdi:

– Janetta da onları sevmir. Tətil zamanı onların yanına gəldiyinə heyifsilənir.

– Bəli, indi sən böyümüsən, oğlum, güclü olmusan... Hər bir sahibkar, istər fransız, istərsə əlcəzairli səni işə götürər.

– Ana, məni onların evinə apardığın günü xatırlayırsanmı?.. Dəhşətli tufan idi, göy guruldayır, ildırım çaxırdı. Mən getmək istəmirdim. Qorxurdum. Sən hələ məni döydün də...

Ana dərindən köksünü ötürdü. Oğlunun səsində bir inciklik və məzəmmət duydu.

– Hamısı yadımdadı, oğlum! – deyə ağlamaqdan özünü güclə saxlayan ana sözünə davam etdi:

– Mənim başqa əlacım yox idi. Evdə yeməyə bir şey qalmamışdı. Amma vicdanla demək lazımdır ki, cənab Bernar da onda indiki kimi deyildi. Ərəblərin çoxu ondan kömək umur, onu bir cəsur vəkil kimi tərifləyirdilər. Elə ki, dövlətləndi, prokuror oldu, cəllada çevrildi... Eh, günahsız adamlara etdiyi zülm üçün ondan da intiqam alacaqlar, amansız intiqam!

– Mən ürəkdən onlara kömək edərdim.

– Yox, oğul, sən hələ kiçiksən. Belə şeylər haqqında fikirləşmə.

– Yəqin cənab Bernar onlardan çox qorxur, elədirmi, ana?

– Necə də qorxmasın, oğul. Axı, o qatildir.

– Ana, paraşütçülər də qatildirlər?

– Bəli, oğlum, əgər onlar günahsız insanları öldürürlərsə, deməli, qatildirlər.

– Axı, onları generallar, sahibkarlar məcbur edir – deyə Yusif ehtiyatla etiraz etdi.

Ana həyəcanla yerindən qalxdı.

– Sən nə deyirsən? İnsan ağılsız yırtıcı deyil ki, fikirləşmədən hamının üstünə cumsun. Allah ona bütün hərəkətlərini izləmək üçün ağıl, göz və qulaq vermişdir. Kim olursa-olsun, əsgər ya general, onun günahsız adamları öldürməyə haqqı yoxdur. Başa düşürsənmi? Bu, böyük günahdır.

Ana nəfəsini çətinliklə alaraq sözünə davam etdi:

– Sən artıq balaca uşaq deyilsən, özün fikirləş, paraşütçülər nə haqla bizim evlərimizi yandırırlar, oğul və qızlarımızı dar ağacından asırlar? Ancaq onun üçün ki, bizim xalq daha dilsiz-ağılsız heyvan olmaq və cənab Bernar kimilərə vəfalı it kimi qulluq etmək istəmir?

O, səsini kəsdi və nə haqda isə uzun müddət düşündü. Sonra gözlənilmədən möhkəm düyünlənmiş yumruqlarını əsəbi halda havada silkələyərək qəzəblə qışqırdı:

– Sənin ədalətin bəs hanı? Bütün insanlar dünyaya pak gəlirlər. Bəs necə olur ki, birisi kəfən pulu belə qoymadan acından ölür, başqası isə dövlətinin çoxluğundan azğınlıq edir? Nə vaxt elə bir zaman gələcək ki, insanlar sabahkı gün üçün qorxu çəkməyəcəklər? Sən özün şahid oldun ki, bizim ailəmizin başçısı işin ağırlığına tab gətirməyib öldü. Heç olmasa oğ-

luna rəhm et, o, mənim bircə balamdır. Həyatımda yeganə ümidimdir, yeganə sevincimdir. Ana bərkdən hönkürdü.

Yusif anasının üstünə atıldı. Ağlaya-ağlaya onu sakitləşdirməyə başladı.

– Ana, ağlama, mən cənab Bernarın yanından gedəcəyəm... Ağlama, ana. Səndən xahiş edirəm, ağlama, bəsdir...

Ancaq bu təsəllilər faydasız idi. Ana özünü ələ ala bilmirdi. Göz yaşları sel kimi axıb onu boğurdu. Anasının boynunu qucaqlayaraq diz üstdə oturan Yusif başını anasının çiyninə dayadı. Bir azdan hər ikisi sakitləşdi. Yusif üzünü anasının dizi üstə qoyub yuxuya getdi. Ana isə sübhə qədər gözünü yummadı.

Xoruzlar banladı. Uzaqdan keçən karvanın zınqırov səsləri gecənin sükutunu pozur, məscidin minarəsindən gələn əzan səsini külək ətrafa yayırdı. Yenidən işə qayıtmağa məcbur olan Yusif başını anasının dizi üstündən qaldırdı, onu qucaqlayıb öpərək asta addımlarla evdən çıxdı.

Sübh tezdən olsa da Yusif dərhal işə başladı: hər yeri silib-süpürdü, ağanın eyvanı qabağındakı gülləri suladı.

...Yusif ilə söhbətindən sonra Janetta cürbəcür bəhanələrlə bir-iki saatlığa Yusifi ev işlərindən ayırıb şəhər kənarına aparır, ona oxumaq və yazmaq öyrədir, başqa xalqlar və ölkələr haqqında danışırdı. Nəhayət bir gün o, oğlanın əlində yağa bulaşmış və çirkli bir qəzet parçası gördü. Fransız dilində idi. Yusif çətinliklə və astadan oxuyurdu: «Müharibə ancaq kapitalist və bankirlərin mənafeyinə uyğundur. Fransız fəhlələri və Əlcəzair fəllahlarına müharibə lazım deyil. Onlar qardaşlıq və dostluq istəyirlər. Fransız əsgərləri evə qayıtmalı. Əlcəzair və fransız xalqları arasında sülh işinə xidmət etməlidirlər». Janetta təəccüblənərək onu bərkdən oxumağa məcbur etdi və

Yusif ifadələri bir-birinin ardınca düzgün tələffüz etdikcə ondan soruşdu ki, oxuduqlarının mənasını anlayırmı? Yusif isə gülümsünərək başı ilə onun dediklərini təsdiq etdi:

– Bəli, başa düşürəm, hamısını başa düşürəm. Mənim anam da deyir ki, insanlar bir-birinə düşmənçilik etməməlidirlər, dostcasına yaşamalıdırlar.

Payız təzəcə başlamışdı. Janetta Marselə qayıtmalı idi, çünki onun tətil müddəti qurtarırdı. Körpüdə Janettanı yola salan dostları arasında Yusif də vardı. Janetta evdə «Yusif şeyləri aparmağa kömək edəcək» deyərək onu da buraya gətirmişdi. Qız Yusifin kədərlə ona necə baxdığını gördü. Onun baxışları sanki deyirdi: «Getmə, Janetta. Sən mənə kömək etdin. Məni ayıltdın, gözümü açdın. Səndən ayrılmaq çox çətindir. Sən öz xeyirxah məsləhətlərinlə mənə kömək etdin, Janetta!».

Janetta ümidverici bir səslə ona dedi:

– Yusif, mən sənə məktub yazacağam!

– Mən onları səbirsizliklə gözləyəcəyəm!

Qız Yusifi kənara çəkib pıçıldadı:

– Sabah gənclərin nümayişi olacaqdır. Sən mütləq orada iştirak et və cənab Bernarın yanından getməyə çalış!

– Yaxşı, xanım. Elə də edərəm...

Nəhayət, gəmi sahildən uzaqlaşdı. Janetta uzun müddət gəminin kənarında dayanaraq güllü dəsmalını yellətdi. Gəmi getdikcə sahildən uzaqlaşırdı. Körpü boşaldı. Hamı bürküdən qorunmaq üçün evə tələsirdi. Ancaq Yusif yerindən tərpənmirdi. O, yaşarmış gözlərini uzaqlaşan gəmidən çəkmirdi.

Ertəsi gün axşamüstü hava sərinləşəndən sonra Əlcəzairin küçələri minlərlə əlcəzairli və fransız gənclərlə dolu idi. Gənc oğlan və qızlar bir-birinin əlindən tutaraq şən mahnılar

oxuya-oxuya Bernarın evinin qabağından keçirdilər. Yusif fikirləşmədən onlara qoşuldu. Gözləri sevincdən parlayırdı. O da səsini bu gənclərin səsinə qataraq qışqırırdı: «Əl-cə-za-irə a-zad-lıq! Dost-luq». Nümayişçilər dəniz kənarından keçərək hökumət meydanına çıxdılar. Onlar orada məscidin yaxınlığında məşəllər yandırıb üzərində sülh rəmzi olan ağ göyərçin çəkilmiş şarları havaya buraxdılar. Bir fransız gənc Yusifə yaşıl rəngli bir şar uzatdı ki, o öz əli ilə onu havaya buraxsın. Yüngül qaz ilə doldurulmuş yekə şar yırğalanaraq getdikcə yuxarı qalxmağa başladı... Axşama yaxın nümayişçilər dağıldı və hərə öz işinə qayıtdı.

Yusif də evə yollandı. Ərəblərin məhəlləsinə yaxınlaşanda qürub vaxtı idi. Birdən fransızlara məxsus bir təcili yardım maşını vıyıltı ilə onun yanından keçib meydandakı məscidin yanında dayandı. Orada bir dəstə əlcəzairli müsəlman durub içəri girmək üçün ayaqqabılarını çıxarırdılar. Sonradan baş verən hadisə Yusifi dəhşətə gətirdi. Birdən maşının qırmızı xaçlı dəmir qapıları açıldı, hərbi geyimli iki fransız avtomobilin içindən tələsik bir pulemyot çıxartdı... Qucağında balaca qız məscidin qabağından keçən bir əlcəzairli qadın yıxıldı. Nə baş verdiyini anlamayıb balaca uşaq anasına tərəf dartındı, ancaq elə bu an pulemyot gülləsi onu da yerə sərdi.

Yusif «Qatillər!» deyib dəhşətli bir səslə bağırdı və əlləri ilə qulaqlarını tutaraq evə, anasının yanına qaçmağa başladı, bütün gecəni o, vahimə içərisində keçirtdi. Anası işin nə yerdə olduğunu anlamayaraq onu əzizləyir, öpür və sakitləşdirmək üçün əlindən gələni edirdi. Ancaq Yusif bir ifadəni dalbadal təkrar edirdi: «Onlar qatildirlər! Mən bilirəm onların düşərgəsi hardadır. Mən oranı yandıracağam. Hamısını bir

nəfər kimi oda yaxacağam, hamısını! Qoy bu cəlladlar bizim ölkədə cəzalarına çatsınlar! Qoy hamısı məhv olsun!».

Səhər tezdən anası Yusifi qonşuya tapşıraraq işə getdi. O getdikdən sonra isə Yusif durub sahibkarın evinə qaçdı, köhnə yorğanların pambığını kisəyə doldurdu, sonra qaraja girdi, oradan benzin götürdü, onu pambığın üstünə tökdü, xəlvətcə sivişib həyətdən çıxdı və şəhərin kənarında paraşütçülərin hərbi düşərgəsi yerləşən yerə – dəniz qırağına cumdu. Tikanlı məftildən çəkilmiş hasara çataraq pambıq kisəsini onun üstündən o taya atdı, sonra özü məftilin paslanmış tikanları arasından sürünüb keçdi və yaşıl kolların arası ilə gizlənə-gizlənə baraklara doğru irəliləyərək benzinlə islanmış pambığı ətrafa səpməyə başladı. Kisə boşalandan sonra o, hasara tərəf geri qayıtdı, cırıq şalvarının cibindən bir kibrit qutusu çıxartlı və gur səslə dedi:

– Bizim Əlcəzair uğrunda!

O, yanan kibrit çöpünü pambığa atdı. Alov ilan kimi qıvrılaraq baraklara tərəf süründü.

Yusif:

– Qoy sizin vəhşi ürəkləriniz külə dönsün! – deyə həyəcanlı gözləri ilə güclənən alova baxdı. – Hamınızı qıracağam! Bütün düşərgəni də...

Əsgərlər tüstü əlindən yuvalarından çıxan heyvanlar kimi qorxu içərisində qəzəblə bağıraraq baraklardan bayıra sıçradılar. Güllə səsləri eşidildi. Birinci güllə Yusifin ürəyini dəlib keçdi. Buna baxmayaraq əsgərlər arası kəsilmədən ona atəş açırdılar. Bir qədər sonra onlar sakitləşərək, Yusifin qana qərq olmuş cəsədinə sevinə-sevinə baxdılar.

Axşam anası bütün qonşuları gəzib Yusifi axtardı. Cənab Bernarın evinə də getdi. O, evə qayıdıb, bütün gecəni

qapının ağzında oturdu və kədərli gözlərini yollara dikdi, oğlunu gözlədi. O ağlaya-ağlaya pıçıldadı:

– Hardasan, oğlum? Hardasan, mənim əziz Yusifim?

Yalnız üçüncü günün axşamı biz Yusifin meyitini dəniz qırağında tapdıq. Dənizin ilıq ləpələri qayğıkeş ana kimi onun yaralarının qanını yuyurdu...

Bizim balaca qaradinməz əlcəzairli balamız belə öldü... İndi biz qatilləri bağışlayıb susa bilərikmi?

ƏBDÜL VAHAB ƏL-BAYATİ

Əbdül Vahab əl-Bayati 1926-cı ildə Bağdad yaxınlığında yerləşən kənddə anadan olmuşdur. İbtidai və orta məktəbi Bağdad şəhərində bitirmişdir. O, Bağdad Universiteti Ədəbiyyat fakültəsinin ingilis dili bölümündə təhsil almışdır. 1950-ci ildə universiteti bitirmiş və əmək fəaliyyətinə başlamışdır. Əbdül Vahab əl-Bayati uzun müddət Moskva, Madrid, Paris və bir sıra ərəb ölkələrində fəaliyyət göstərən İraq mədəniyyət mərkəzlərində çalışmışdır. 1990-cı illərdə İraq rejiminə müxalif mövqedə dayandığı üçün vətəndaşlıqdan xaric edilmişdir. Buna görə ömrünün son illərini Şam şəhərində yaşamışdır. Əbdül Vahab əl-Bayati 1999-cu ildə vəfat etmişdir və vəsiyyətinə əsasən Şamda Məhyəddin əl-Ərəbi məzarlığında dəfn olunmuşdur. Əbdül Vahab əl-Bayati çağdaş İraq ədəbiyyatının inkişafında əhəmiyyətli rol oynamışdır.

YAĞIŞ

Yağış, yuyacaq
Pəncərəmi,
Günəş açacaq bizim üçün
Yenə o yolu.
Avropanın gecəsində
Tez oyanacayıq.
Uzun yuxumuzdan
Qatar gətirəcək.
Bizim üçün ərməğanlar,
Qar və çiçək ölkəsindən.
Amma qatar keçdi getdi,
Mən yatarkən, sevgilim.

KÜLƏKLƏ KÜL

On gecədir ki,
Müsibət çəkirəm.
Bu öldürücü kədərin
Belinə minirəm.
Bədənimin tikələrini parçalayıb
Yandırdılar.
Külünü küləyə
Sovurdular.
Dəftərimin vərəqlərini
Qapdılar
Və ilhamımı söndürdülər.
Hərfləri palçığa buladılar,
Qanımı paltarlarıma buladılar,
Budur, mən paltarsızam,
Bu od və külək kimi azadam.

Mən əbədiyyətə qədər azadam.
Ey yaz yağışının damlaları,
Ey kimsənin geri dönmədiyi şəhər,
Qiyamətdə görüşərik.
Sən bədənimin tarıyla oynama,
Mənim bədənim
Kül meşəsində
Gübrə oldu.

Meşə böyüyəcək
Ey məni qucaqlayan,
Ey sevgilim,
Ağaclar böyüyəcək,
Biz işıqlar heykəlində
Sabahdan sonra görüşəcəyik.
Lampada yağ
Qurumaz,
Görüş anımız da batmaz,
Yara sağalmaz,
Toxumlar çürüməz.

BƏSRƏ

Sadə adamların adəti kimi
Qəhrəmanlığa və fədakarlığa
Layiq olurdu...
Damladırdı
Tarixdən bir möcüzə,
Bir qələbə işarələri.
Hər dövrdə
Şairlər və alimlər şəhəri

Ərəb üzü ilə
İstilaçılara qarşı durdu.
Bol bəhrəli
Xurma ağacı ilə
Və axan çayı ilə.
Şəhidlər meracında
Hər zaman ki azuqə idi
Cavanlığının
Və qurucu bəşərin
Qəhrəmanlığının
Sirli şeiri idi…
Dənizin aynasında
Saçlarının telləri
Pəncərə və uçan bir quş
Və iki güldü.

Zaman və məkan,
Əlifba və əruzun sürgünündə
Mənəm müsafir.
Dilim işığınla yarpaqlandı,
Və məhəbbət qəndilləri oldu,
Çiçəkləndi.
Könüllərin evi oldu,
Zaman da bağça oldu.
Dəniz də bağçanın və zamanın
Güzgüsü oldu.

ƏLİ ƏL-HİLLİ

Əli əl-Hilli 1930-cu ildə Nəcəfdə anadan olmuşdur. 1952-ci ildə Bağdad Universitetinin hüquq fakültəsini bitirmişdir. Uzun müddət İraq Mədəniyyət Nazirliyində çalışmışdır. 1990-2003-cü illərdə sənətdən uzaqlaşmış və siyasətlə məşğul olmuşdur. Əli əl-Hillinin «Cəzair insanı» (1958), «Dərbədərlər» (1970), «Bir qərib» (1970), «Eşq və qurşun» (1979) və s. adlı 68 şeir kitabı çap olunmuşdur.

DAŞKƏNDƏ MƏKTUB

Gündüzün dodağından,
Çayların axınından,
Xalqımın görüşündən,
Sizə verdim qəlbimi—
Yadigar qalsın sizə.

Sizin üçün mahnımı
Oxudum sevgi ilə.
Aydınlığa, bolluğa
Qoxusu çöllər dolu
Ey dostların dəstəsi.

Xurmaların boyunda
Gözəl sulu «Dəclə»dən,
Göyərçinin səsindən,
Dəvəçi nəğməsindən,
«Fərat»ın da şövqündən,
Ey dostların dəstəsi,
Sizin üçün sevgimi
Oxudum sevgi ilə.

Daşkənd qəlbin içində
Qarabuğdayı gəlin.
Xeyirxahlıq yayılıb
İşıqların içində.
Su kimi axıb gedir,
Bakirə bir mahnıdır.

Onun gözəl toyunda
Sağlığıma siz için.
Ürəyimdə yaşayın,
Ey gözəl dostlar, bu gün.

YUSİF ƏL-SAİĞ

Yusif Neaum əl-Saiğ 1933-cü ildə Mosulda anadan olmuşdur. Orta məktəbi 1955-ci ildə Mosulda bitirmişdir. Ali təhsilini Bağdad Universitetində almışdır. Əvvəl müəllim, sonra isə jurnalist kimi fəaliyyət göstərmişdir.

«Malik bin əl Reybin etirafları» (1973), «Dörd almanın kraliçası» (1976), «Müəllim şeir kitablarını yayımladı» (1985) şeir kitablarının, o cümlədən roman və elmi araşdırmaların müəllifidir. Yusif əl-Saiğ 2005-ci ildə Suriyada vəfat etmiş, «Qəriblər» qəbristanlığında dəfn edilmişdir.

QAN ÇİÇƏYİ

Külək
Bir zərrə İraqın torpağından
Alıb
Səhər vaxtı
Şəhidlərin yarası üstünə
Atdı.
Yara
Sevinc və kədərdən
Nəfəs aldı.
Kənarında
Bir zərrə
İraq torpağı.
Və bir qan çiçəyi buraxaraq
Göz qapaqlarını yumdu.
Yara da qapandı.

ZƏFƏR ƏTRİ

İki gündən bəri
Döngəmizi
Naməlum bir qoxu dolaşır.
Bu qoxu
Doğumdan sonra
Ananın körpəsindən gələn
Bir qoxu kimidir.
Ya da
Sevginin yorğunluğundan qalan
Bir qoxudur.

Bu baharmı,
Sevgimi,
Yoxsa
İntizarın həsrətidir?

Ey naməlum qoxu,
İki gecədən bəri
Sevincim cəzb edir məni.
Pəncərəmin şüşəsindəki
Dumanın üstündə
Bir çiçək şəklini çəkir,
Sonra silir.
Barmaqlarını qoxlayır,
Gedərək

Əlləri ilə
Mənə sevdiyini
Anladır.
Ya da
Gecə-gündüz
Torpaqdan,
Sudan,
Xalqdan,
Yüksələn
Zəfər istəyidir.

Elə isə
Bu baharmı,
Sevgidirmi?

HƏSƏP ƏL-ŞEYX CƏFƏR

Həsəp əl-Şeyx Cəfər 1941-ci ildə İraqın cənubunda yerləşən İmarə şəhərinin yaxınlığındakı kəndlərdən birində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra təhsilini Moskvada davam etdirmişdir. 1966-cı ildə Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir. İraq milli azadlıq hərəkatına qoşulduğu üçün 1967-ci ildə həbs edilmişdir. İraq radio və televiziyasında çalışmış, qəzetçilik fəaliyyəti ilə məşğul olmuşdur. «Allahın xurma ağacı» (1966), «Sumerli xanımı ziyarət» (1974) və s. şeir kitabları çapdan çıxmışdır. Həsəp əl-Şeyx Cəfər tərcümə müəllifi kimi də tanınmışdır. O, Mayakovskinin, A.Blokun, R.Həmzətovun, A.Axmetovun şeirlərini ərəb dilinə tərcümə etmişdir.

İTMİŞ VADİ

Ey dodağa gedən
yolu itirən öpüş.
Ey düzənliklərdə
yeriyən bulud,
qurumuş çiçək
intizardadır.
Qurumuş yarpaq,
reyhan
və qoxulu ot
intizardadır.

Sən məni səhralarda
qurumaq üçün
tərk etdin,
sən məni tərk etdin.

Gözləməkdən yanıram,
öz külümün içini
axtarıram.

Külümü külək sovurur
çöllərə.
Sənin gözlərinin kölgəsində
üzüm şehlə yaşlanmadı.
Sənin əllərində
gözlərim uyqu
dadmadı.

SAMİ MEHDİ

Sami Mehdi 1940-cı ildə Bağdadda anadan olmuşdur. Bağdad Universitetinin iqtisadiyyat fakultəsini bitirmişdir. Səddam Hüseyn rejiminin rəsmi qəzeti olan «Əl-Cumhiriyyə»nin baş redaktoru, radio-televiziya şirkətinin baş direktoru işləmişdir. «Müsibət külü» (1966), «Aşiq kralın əsərləri» (1971), «Yox olmuş kağızlar» (1985) və s. adlı şeir kitabları çap olunmuşdur.

QARALTI

Bir adammı, iki adammı keçdi?
Torpaq «bir» dedi,
Boğulan «iki» dedi.
Keçən isə,
Yolda itən bir qaraltıdan başqa
Bir şey deyilsə,
Sən kimdən şübhələndin
İnsanlığı düşündüyün anda.

Bu da iki hekayədir:
Birisinin nə qədər
Əzablı olduğundan
Sən anlayarsan.
O birisinə də
İki şahid əhəmiyyət verməz.

GİZLİLİKLƏR

Səssizcə böyüyür gizli sirlər
Axıb gedər
Onu qorxu tutmaz
Və heç unudulmaz
Gizli tufandır
Gizli sirlər.

Coşarkən arzu kimi
Coşdurur ruhu.
Dinərkən də dindirir ruhu.
Ah… nə ağırdı bədənimin üzvləri,
Nə yavaşdı addımlarım.
Mən tanrıya daşıyıram gizli sirlərimi.
İki qapının arasında
Ümidsiz qalıram,
Ölürəm.

MƏHƏMMƏD ƏL-BƏDRİ

Məhəmməd əl-Bədri 1937-ci ildə İraqın Bədrə qəsəbəsində anadan olmuşdur. Uzun müddət ədəbiyyat və mədəniyyət sahəsində çalışmışdır. İraq ədəbiyyatçılarının çap etdirdiyi dərginin baş redaktoru olmuşdur. Çoxsaylı tərcümələr müəllifi kimi tanınır. İraq Yazıçılar Birliyi sədrinin müavini olmuşdur.

Məhəmməd əl-Bədri 2007-ci ildə vəfat etmişdir.

İŞARƏLƏR

Bir qəsidənin kölgəsində
Qısa bir yuxuya daldım.
Qəsidənin sözləri
Oldu yastığım.
Səhər günəş doğanda
Nəfəslərə kədər
Və yaralara döndü.
Qələm qəzəbləndi,
Və etiraz etdi.
Kağızlar işi saxladı
Gözlənilmədən
Qorxulu bir sel gəldi.
Dalğaları qapqara idi,
Barmaqları alov idi,
Qələm açdı qollarını
Qəsidəni qovdu ürəyinə
Sözlər isə
Birər ulduz olub
Göyə doğru çəkildilər.
Ümidlər zirvəsində
İşıq saçan
Lampalar kimi
Göründülər.
Mən isə bir arx və bir rəsm

Və bir də
Acıları, kədərləri
Əks etdirmək üün
Bir ayna oldum.

ŞƏHİD

Bu dağların üfüqündə
Bütün mövsüm boyunca.
Hər gün şəfəqlə birlikdə
Çayın şırıltısı kimi
Yaşıllığa və parıltıya
Bürünmüş bir şey gəlir.
Həyata işıq saçır.
Dedim:
Bu,
Şəhidlərin qanlarından
Yaranan
Parıltı dolu kiçik çaylardır.
Vətən üçün
Namazını qılar,
İşıq saçan şamlar kimi
Bahar mövsümünün
Gəlişinə axar.

İRAQ-TÜRKMAN ƏDƏBİYYATI

- ƏBDÜLLƏTİF BƏNDƏROĞLU
- NƏSRİN ƏRBİL
- SALAH NÖVRƏS
- MEHMET MEHDİ BAYAT



ƏBDÜLLƏTİF BƏNDƏROĞLU



İraq-türkman ədəbiyyatının görkəmli nümayəndəsi Əbdüllətif Bəndəroğlu 1937-ci ildə Kərkük elinin Tuzxurmatı qəsəbəsində anadan olmuşdur. O, orta təhsilini Kərkükdə tamamlamışdır. Siyasi fəaliyyətinə görə 1956-cı ildə neft şirkətləri üçün kadr hazırlayan məktəbdən xaric edilmişdir. Bundan sonra memarlıq peşəsinə yiyələnmişdir. Siyasi təqiblərə məruz qaldığı üçün 1964-cü ildən sonra Yunanıstan və Bolqarıstanda mühacirət həyatı yaşamışdır. Sofiya şəhərində türkcə çıxan qəzet və jurnallarda əsərləri çap olunmuş və əldə etdiyi qonorar hesabına yaşamışdır. O, 1965-ci ildə İraqa qayıtmış və ictimai-siyasi fəaliyyətini genişləndirmişdir. 1970-ci ildə «Yurd» qəzetini çıxarmaqla ərəb dünyasında türkün tarixi, ədəbiyyatı və mədəniyyətinin kütləvi təbliğatına imkanlar yaratmışdır. 1999-cu ildə bir sıra vəzifələrdə çalışdığına görə «Yurd» qəzetindəki rəhbərlik fəaliyyətini dayandırmışdır. Lakin 2002-ci ildə «Yurd» qəzetinin baş redaktoru vəfat etdiyi üçün Ə.Bəndəroğlu 2003-cü ilə qədər yenidən bu qəzetin çapına rəhbərlik etmişdir. Ə.Bəndəroğlu 2008-ci il fevralın 2-də Omanda ürək əməliyyatı zamanı vəfat etmişdir.

Ə.Bəndəroğlu bədii və elmi əsərlərdən ibarət 36 kitabın

müəllifidir. «Günəş şərqisi» (1969), «Yurd torpağı» (1971), «Gur-gur baba» (1973), «Şərq insanları» (1975), «Qərənfil» (1977), «Yolun sonunadək» (2002), «Gecənin qanayan yarası» (2003) və s. kitabları Bəndəroğlunun poeziya uğurlarından xəbər verir. 1972-ci ildə İraq neftinin milliləşdirilməsi münasibətilə Ə.Bəndəroğlunun yazmış olduğu «Gur-gur baba» poeması dahi Azərbaycan şairi M.Şəhriyarın «Heydərbabaya salam» poemasına nəzirə kimi əhəmiyyətlidir.

Ə.Bəndəroğlu eyni zamanda bir tədqiqatçı olaraq Azərbaycan və Kərkük ədəbiyyatı problemlərini («Türkmən şairi Füzuli Bayatlı», «İmadəddin Nəsimi əl-Bağdadi», «İraq-Türkman ədəbiyyatı yolunda bir addım», «Azərbaycan şeiri», «Ata sözlərimiz») araşdırmış, mühüm elmi qənaətlər əldə etmişdir. Onu da qeyd edək ki, Ə.Bəndəroğlunun Azərbaycanla sıx əlaqələri olmuşdur. Bu əlaqələrin qurulmasında, möhkəmlənməsində və davamlı olmasında Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi prof. Qəzənfər Paşayev böyük xidmətlər göstərmişdir.

ÖZ DİLİM

Sən bütün şeylərdən
Fərqlisən,
Sən analarımızın südündəki
Bəyazlıqsan.

Sən,
göylərdən,
torpaqlardan,
sudan
Daha parlaqsan.
Sən, varlığımızsan,
Biz də sənlə varıq.
Varlığımız isə
Səndən doğan
Və sönməyən
Bir qığılcımdır.
Çünki sən sənsən,
Çünki sən varsan.

QIZ QALASI

Qız qalası —
Ulu tarix nişanəsi.
İnsandakı güc nəğməsi,
Azərbaycan tərənəsi —

Qız qalası.

Qız qalası
Aslanların yuvasıdır,
Şahinlərin uçuşudur,
İgidlərin qanadıdır.
Qız qalası! -
Azərbaycan qızlarının
Gözəlliyi səndə gizli,
Mərdlikləri səndə bəlli.
Tarix boyu
baş əyməyən
insanların
Hünərisən,
gövdəsisən,
əllərisən,
dillərisən.
Qız qalası,
Qız qalası
bir gəl dilə,
anlat bizə
keçmişləri.

Qız qalası,
Qız qalası!

Səsimə bir səs verginən,
İnsandakı güc nəğməsi,
Azərbaycan təranəsi
Qız qalası!

ÜÇ DAMLA YAĞIŞ

Bir parça bulud,
Bu buluddan
Üç damla düşdü.
Damlanın biri
Anamın ovcuna,
Biri də
Mənim ovcuma,
O biri də
Torpağımıza.
Anamın ovcuna düşən
Mənim gözyaşımdı.
Mənim ovcuma düşən,
Sevgilimin göz yaşıdı.
Torpağımıza düşən,
Tarixin qanlı bıçağından axan
Qanımızdı.
Və uzun illərin boyunca
Qarşımızda damarlanan
Əzabımızdı.
Anam
Göz yaşını içdi.
Məni hər bəladan
Qorusun deyə
Mən göz yaşımı içdim.
Sevgilimi kimsə
Qapmasın deyə.
Torpaq isə
Baharı gözləyirdi,

Yeni lalələr
Göyərtsin deyə.

DÜŞÜNCƏDƏ YAŞAMAQ

Yaralı qanadlarını
Qaranlığa vuran
Quşları
Köç edərkən gördüm.
Gecədən sonra
Doğan
Gün işığında
Var olmağı
Gözlədim.
Bir çəyirdəyin
Torpaqda
Yenicə çatladığını
Öyrəndim.
Torpaq ananın
Üstünə damlayan
Göz yaşlarında
Tarixin qanlı hadisələrinə
Bələd oldum.
Və hər şeyin cövhəri ilə
Yaşamağa doğru
Yönəlmək istədim.
İndi də yaşayıram
Bu düşüncədə.

GUR – GUR BABA

Bu poema İraq xalqının milli azadlıq mübarizəsini əks etdirməklə yanaşı bütün dünya xalqlarının, o cümlədən Fələstin, Vyetnam, Laos, Kampuççi və Afrika xalqlarının mübarizəsinə həsr olunmuşdur. Poema 1972-ci ildə İraqda neftin milliləşdirilməsi münasibətilə qələmə alınmışdır.

I

Gur – gur baba[1], vaxtı gəldi, bir gurla,
Atəş saçıb yurdumuzu bir nurla.
Yax kinləri ürəklərdə o qorla.
Aydınlat tez qaranlığı, hər yanı,
Sil gözlərdən sisləri həm dumanı.

Gur – gur baba, atəşini yan burax,
Ölənlərçün sevgi gətir, san burax,
Heç ölməyən tarix boyu şan burax,
Oğuz oğlu oğuzları[2] sal yada,
Bir dostunu gəl satma sən min yada.

Gur – gur baba, çağlar boyu çağlarsan,
Neçün dostun ciyərini dağlarsan,
Atəşinlə dörd dövrəni bağlarsan,
Yetər artıq bu vurmaq, bu dağlamaq,
Bitişməyən yaraları bağlamaq.

---

[1] *Gur-gur baba – İraqın tanınmış neft şəhəri olan Kərkükdə, əzəldən bəri yanan atəşin adına xalq Gur– gur baba adına vermişdir (İzahlar müəllifə məxsusdur).*

[2] *Oğuz – tarixin anlatdığına görə İraq türkləri oğuz sülaləsindəndir.*

Dağlar kimi dərdim vardır çəkilməz,
Şimşək çaxsa, sellər əssə sökülməz,
Yanan ürək param – parça tikilməz,
Gur – gur baba, saç atəşi, yad yansın;
Uyqularda olanlarmız oyansın.

Gur – gur baba, bir çağrı ver durmadan;
Al qələmi, məhkəməni qurmadan
Yaz dərdimi sorğuların sormadan,
Çeşid – çeşid xəstəliklər bizdədir,
Kin qablayan ürəklər də gözdədir.

Anlaşmazlıq işimizdir, karımız,
Yavaş – yavaş qeyb olunar varımız.
Heç ummadan tərsə dönər zərimiz.
İgidlik də, erkəklik də bizdədir
Gur – gur baba, qor ürək də sizdədir.

II

«Qartal baba» [1], bizim eldən keçəndə,
İnsan qədri bilənləri seçəndə,
Sənin neftli bulağından içəndə,
Biz də gedib ondan suyu içərdik,
Dağ-daşları yorulmadan keçərdik.

Xəstələrmiz «Qoturca»ya[2] gedərlər,
Sevinc dolu şənlikləri edərlər,
Murad olsa, borclarını ödərlər.

---

[1] *Qartal baba – Kərkük şəhərində bir türbənin adı.*
[2] *Qoturca – Tuzxurmatı qəsəbəsinin dolaylarında olan bulaq suyunun adıdır.*

Biz də doğru insanlarıq, ey baba,
Bu uğurda yananlarıq, ey baba.

Kəndlərmizdə məzarlar var, insan var,
Çağlar boyu adətlərə iman var.
Xalq uğrunda ölənlər var, yanan var.
Murtaz Əli[1], dağlar dağa əkləmə,
Dağın çoxdur, dağlar mənə yükləmə.

İmam Qasim[2], İmam Abbas[3] ocağı,
Qucaqlayıb bizləri hər bucağı,
Babamızdan qalan yurddur qucağı,
Atın oynat, işdə «cırıd[4]» meydanı,
Tez – tez gəzdir damarlarda al qanı.

Bahar gəlir xoryat[5] səsi ucalır,
Ağacın da dərdi olsa incəlir,
Gənc könüllər yavaş – yavaş qocalır,
«Soltan Saqi[5]» gəlin qızla bəzənir,
Oğlanları şən könüllə düzənir.

Zülm evini yaxar sənin ocağın,
Sevgi verər, sevinc saçar qucağın.
Ana evi, ata evi bucağın

---

[1] *Murtaz Əli – Tuxurmatıda uca bir dağın və o dağın başında olan bir məzarın adı.*
[2] *İmam Qasim – Kərkükdə məhəllə adı.*
[3] *İmam Abbas – Kərkükdə məhəllə adı.*
[4] *Cırıd (cıdır meydanı) burada: Kərkükdə bir məhəllə adı.*
[5] *Xoyrat – Azərbaycan ədəbiyyatında bayatı adlanarkən, iraq türkmən ədəbiyyatında xoyrat adlanır.*
[5] *Soltan Saqi – Kərkükdə bir məzarın adıdır.*

Gur – gur baba, «Gavur bağı[1]« bizimdir
Şəhid düşən igid Şakir[2] bizimdir.

III

Gur – gur baba, Heydər baba ağladı,
Şəhriyarın[3] yarasını bağladı.
Daşa dönən ürəkləri dağladı.
Sən də bir az Təbriz üçün yan, baba
Qan qardaşı, qan qusuruq, qan, baba.

Təbriz yolu buludlarla qaplandı,
Sellər gəldi, girdablarla dolandı.
Təbriz türkü al qanına bulandı.
Çək qılıncın, qoş atını quş kimi;
Hürriyyətin dad dadını quş kimi.

Təbriz kimi Şəhriyarın gözləri
Qana döndü, qan fışqırdı sözləri.
Uşaqların sarı – sarı üzləri...
Heydər baba,Gur – gur baba izləri
Oyadacaq yuxulardan bizləri!

Gur – gur baba, sönməz sənin ocağın,
Qaranlıqda pırıl – pırıl çırağın.
Ver əlini, tut sözümə qulağın:

---

[1] *Gavur bağı – Kərkükdə bir bağın adıdır. 1946 – cı ildə neft işçilərinin bu bağda ingilislərə qarşı apardığı mübarizə, İraq tarixində görkəmli bir yer tutmaqdadır.*

[2] *Şakir – 1946 – cı ildə şəhid düşən ilk neft ışçilərinin gerçək bir qəhrəmanıdır.*

[3] *Şəhriyar – «Heydərbabaya salam» əsərinin müəllifi (Məhəmməd-hüseyn Şəhriyar Təbrizi).*

Alovunu gecə – gündüz saç bizə,
Salam göndər Şəhriyara Təbrizə.

IV

Gur – gur baba, neft bulağın dələydim,
Gözlərindən axan yaşı siləydim,
Sirr saxlayan sözlərini biləydim,
Şimşəklərin düyümlərin açardım.
Parça – parça atəşinə saçardım.

Gur – gur baba, bax dünyaya, gör bu gün,
Məzlumların hallarını sor bu gün,
Bizim kimi öz nəfsini yor bu gün,
Aclıq çəkən kimsələrlə dərdləş gəl,
Yorğun – arğın insanlarla birləş gəl.

İnsanların dostluğuna inandıq,
Kərəm kimi alovlandıq da yandıq.
Bu yolda da çətinliyə qapandıq.
Gur – gur baba, bir çox yerdə savaş var.
Sarğı gətir, çapıq gəl də, yara sar.

Gur – gur baba, bir çox günlər sayardıq,
Həm xalqların dostluğunu duyardıq,
Müstəmləkə əleyhinə yayardıq,
İndi yenə o fikir, o yoldayıq,
Bükülməyən, qırılmayan qoldayıq.

V

Fələstinin çöllərini dolan dur,
Bax ətrafa çadırları dolandır.
Körpələrçün beşik gətir, yataq qur.
Gör halları, çörək yoxdur yeməyə;
Qalmadı güc sözlükdən söz deməyə.

Gur – gur baba, uzaq yeri az keçmə,
Vyetnamın savaşını yaz, keçmə.
Qaranlığı parçala da, vaz keçmə.
Qurtuluşdan qopan sirri unutma,
Boğulsan da bir tikanlı gül tutma.

Kampuççidə qanlı sellər axarkən,
Qurtuluşun şimşəkləri çaxarkən,
İstismarın köklərini yaxarkən,
Gur – gur baba, sən də bizdən salam et.
Bizi düşün, hürriyyəti tamam et.

Şəfəq sökür, olur 1May bayramı,
Gur – gur baba, səndə tapdım çaramı!
Heç olacaq müstəmləkə dramı,
Gur – gur baba, Afrikanı bir dolan,
Zəncilərin hallarını ol soran.

VI

Gur – gur baba, kəndlilərin unutma,
Kənddən gələn insanları durutma.
Sözü söylə, damağını qurutma.

Kənddən əsər varlığımız, şanımız,
Kənd içindən doğubdur vicdanımız.

Kəndli oldu, inam verdin sən bizə,
Yol aradıq getmək üçün ulduza.
Qanad açdıq günəş kimi gündüzə.
Gur – gur baba, verimlidir torpağın,
Qaranlığı aydınladır çırağın.

VII

Dərdlərimi eşit – eşit, bir dayan,
Atəşin gör, alovumla bir də yan,
Gur –gur baba, uzaq getmə, düşmə yan,
Çoxları var sənin kimi yanmışlar,
Atəşi də su yerinə sanmışlar.

VIII

Dil açarkən, açdım anam yanımda,
İlk söz gəzdi damarımda, qanımda,
Hala gəzər ürəyimdə, canımda;
Gur – gur baba, ana dilin unutmam,
Xalq yolundan başqa bir yol heç tutmam.

Yurdla xalqın varlıqları satılmaz,
Şirin gözə heç bir tikan batılmaz,
Bu sevgiyə heç bir sevgi qatılmaz,
Gün görmüşəm bu yurdumun bağında,
Günəş doğan tarlasında, dağında.

Günəş görən tarlaları görsəydim
Hər dərdlinin dərdini bir sorsaydım,
İldırımın gümüş kimi vursaydım,
Mən də sənin atəşinlə yanardım,
Şanla dolu tarixləri anardım.

IX

Gur – gur baba, uzun illər boyunca,
Dadlı günlər heç görmədik doyunca,
Müstəmləkə dərimizi soyunca
Torpağından axan altun qan oldu,
Bağçadakı güllərimiz həm soldu.

Bu neftinə həsrət olan, ey baba,
Övladından uzaq qalan, ey baba,
Atəşimizdən atəş alan, ey baba!
Bir ildırım olmalısan bu gün də
Atəş – atəş qalmalısan bu gün də!

Eşqin sənin ürəklərə dolaydı,
Hər kəs yenə istəyini bulaydı,
Hər bir evdə sevinc, şənlik olaydı.
Gözümüzün işığı da səndədir.
Anamızın beşiyi də səndədir.

Müstəmləkə qol – qanadı bağlarkən,
Bağrımızı, gözümüzü dağlarkən;
Xalqımız da yetim kimi ağlarkən

Təmmuz gəldi, həcirlər də qırıldı,
Hər bir kəsə həyat haqqı verildi.

Hər ingilis dayağını dayardı,
Yavaş – yavaş dərimizi soyardı,
Varımıza əllərini qoyardı,
Öz yurdumuz qara altun saçarkən,
Quyuları işçilərmiz saçarkən.

X

Bir bax İraqın çöhrəsinə, qanına;
Milliləşmə can veribdir canına.
Hər kəs bu gün göz tikibdir şanına.
Gur – gur baba, sən də işdə bir gözsən,
Sionizmi yaxmaq üçün bir gözsən.

Bağdad, iyun, 1972

NƏSRİN ƏRBİL



Çağdaş Türkman ədəbiyyatının öncül qadın şairi Nəsrin Ərbil 1939-cu ildə Kərkükün Ərbil qəsəbəsində dünyaya gəlmişdir. Ədəbiyyata gəlişində atasının təsiri böyük olmuşdur. İlk şeirini 1957-ci ildə yazmışdır. Sərbəst vəzndə yazdığı şeirlər sayca üstünlük təşkil edir. Alman və ingilis dillərini bildiyi üçün Avropa ədəbiyyatı ilə yaxından tanış olmuşdur. «Hər şey sevgi üçün» şeirinə görə Amerikada keçirilən şeir müsabiqəsində birinci yeri qazanmışdır. Nəsrin Ərbil şeir yazmaqla yanaşı, rəssamlıq sənəti ilə də məşğul olmuşdur. «Dəniz rö-yası» (1969), «İki şəhər» (1998), «Gələcəyim» (2004) və s. adlı şeirlər kitabı çapdan çıxmışdır.

İki şehir

İki şehir bilirim
Candan bağlı
Yürekten dağlı
Bir «Altınkörpüyle»
Kalpleri bağlı
Biri mavilikler içinde
Öbürünün yanar uyukları
Geceler onları boğmazsa
Güneşli günlere varacaktır
Görecekler ümitli ışıkların
Doğuşunu
Şafakla beraber
Silinecek acılar
Kurtulacak iki şehir
Serap ümitlere koşmaktan

Şey

«Bir şeyler söyle» derdin
«Her hangi bir şey»
Benimse söylemek istediğim
Birçox şeyler vardı
Şimdi o şeyler
Tek şeyde toplanıyor
O şey öyle bir şey ki
Şey gibi

Dertli kuşlar

Ey rüzgarların esiri yaşıyan kuşlar
Geldiğiniz yerler güzel olmalı
Hazin nağmelerinizde gariplik var
Derdini taşıyan derdimi taşıyan
Siz
Üzüm dolu bağlardan geldiniz
Hurma dalı avutmadı sizi
Yarım kalan hatıralarımdan
Yeşil bir masal uzanır
Mavi bir çocuk gülümser
Meçhul yollara
Bir gemi yelken açar
Ve şimdi esmer bir güneş doğarken
Esmer havalar üzerine
Güç oluyor yaşamak
Her bekleyişten uzak
Hayal mı olacak
Hilal dolu gecelerden beklediklerimiz
Sey ey Azeri kuşum
Eski günlerden kalma ümitlerim
Git vazgeç de gelme de
Unut deme

Kerkük şehitlerine

Sen Cennet kapısını müjdeleyen şehidim
Sen yakın geleceği aydınlatan ümidim
Kahraman Cahit korkma ırkının devamı var
Sana bütün dostların ananın selamı var

Anarken Kasımları sızlamada her yanım
İntikam hırsıyla coşup hep taşmada kanım
Sinende Atalarım İhsanlarım yatarken
Kerkük geçemem senden bende nabzın atarken
Senin uğrunda cvana fedayı bileceğiz
Senin için savaşıp senin için öleceğiz
Kanlı eller vururken mert kalpli mert Osmanı
Yazmıştı şehitliği alnına temiz kanı
Emelin duvağına gelincikler bezendi
Şehitler ona şahit Cennete ilk girendi
Baharı bitirmeyen Nihat cık hasret oldu
Er Nihat Şehit Nihat hep allara büründü
Son lahza annesiydi Cihatına sarılan
Kan mıydı çiçek miydi genç göğsünde açılan
Salah diyor «Ben gittim Kerküküm sen bir yaşa»
Selam olsun kanımdan bütün asil kardeşe
Ey Kerkükün uğrunda varsın bütün kanım aksın
Sen benimsin daima benimle kalacaksın
Kerkükün Kerkükün vatn Kerkükün
Sinende şehitler yatan Kerkükün

Sönmesin ocağımız

Atam yurdu kurarken ayırmış mıydı bizi
Kırmış mıydı bağları kopmayan ülkemizi
Niye her taraf sessiz niye bir şey diyen yok
Niye gözlerin uzak susuşun zehirli ok
Köyler iller konaklar art arta ekleniyor
Bize buradayım diyen gür sesin bekleniyor
Canavar pençelerden gölgemizi sakladık

Gizlice kalbimizi kalbine adakladık
Vurulmasın çay kuşum özgür kumrularımız
Elletmem toprağımı onunla ağır taşım
Ciğerimi dolduran yeni havanla yüksek başım
Perde perde yükselen sesim seninle özgür
Ey gençlik yabanları yurdumdan dışarı sür
Kavuşsun yar eline elimiz atağımız
Tütsün bacalarımız, sönmesin ocağımız
Tütsün, tütsün yükselsin karışsın toroslara
Benzesin düğünümüz on dokuz Mayıslara
Doğunca yüzümüze yıllar beklenen şafak
Sert adımlarla bir gün titreyince bu toprak
Kırarım bentlerimi kükreyen lodos gibi
Müjdelerim doğuşu otuz Ağustos gibi

SALAH NÖVRƏS



Müasir İraq-türkman ədəbiyyatının tanınmış şairi Salah Növrəs 1941-ci ildə Kərkükün Müsəlla məhəlləsində anadan olmuşdur. 1961-ci ildə Kərkük Müəllimlər İnstitutunu bitirmişdir. 1970-ci ilə qədər Kərkükdə bədən tərbiyəsi müəllimi işləmişdir. 1987-ci ildə təqaüdə çıxdığına görə bu sənətdən uzaqlaşmışdır. Salah Növrəs siyasi fəaliyyətilə əlaqədar təqib olunduğu üçün 1995-ci ildə İraqdan getmək məcburiyyətində qalmışdır. O, əvvəlcə Türkiyəyə, sonra isə Avstraliyaya getmişdir. Hazırda Avstraliyada yaradıcılıq fəaliyyətini davam etdirir. Salah Növrəs bədii yaradıcılığa gənc yaşlarından başlamışdır. O, şeirdə sadəliyi təbliğ etmiş, yeni şeir hərəkatının fəal üzvlərindən biri olmuşdur. 1969-cu ildə doğuş zamanı həyat yoldaşı vəfat etmişdir. Bu itki onun yaradıcılığında kədər motivi yaratmışdır. «Aynada zaman» (1972), «Uzaqdan gəlirəm» (1980), «Üç yerli pyes» (1987), «Pəncərə» (1989) və s. şeir və dram əsərlərindən ibarət kitabların müəllifidir.

DÜNYA GÖZƏLİ

Madam sənsən mənə hər şeydən yaxın,
Bir an belə məni unutma saqın.
Məni sərməst edən sənin bu eşqin,
Dünya durduqca dur, dünya gözəli.

İnan mənə, artıq inan, mələyim,
Sənin üçün açmış könül çiçəyim,
Artıq sənin olsun arzum, diləyim,
Dünya durduqca dur, dünya gözəli.

Desəm ki, canımın cananısan sən,
İnan ən möhtəşəm cahanısan sən,
Eşqin məndə güclü imkanısan sən,
Dünya durduqca dur, dünya gözəli.

KÖŞKÜMÜZ

Atam təməli qurdu,
Divarları mən yapdım,
Tavan oğluma qaldı.

Zər qaldı, bəzək qaldı,
Gül qaldı, çiçək qaldı,
Bal verən pətək qaldı.

MEHMET MEHDİ BAYAT

Mehmet Mehdi Bayat 1952-ci ildə Kərkük elinin Tuzxurmatı qəsəbəsində anadan olmuşdur. Tuzxurmatıda orta məktəbi bitirdikdən sonra Bağdad Universitetinin Ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1975-ci ildə Bağdad Universitetini bitirmişdir. 1975-1991-ci illərdə Tuzxurmatıda müəllim işləmişdir. Bir müddət İranın Ərdəbil Universitetində ərəb dili və ədəbiyyatından dərs demişdir. Səddam Hüseyn hakimiyyətinə müxalif olduğu üçün təqiblərlə üzləşmiş və pedaqoji fəaliyyətinə qadağa qoyulmuşdur. 2004-cü il İraqda siyasi rejimin dəyişməsindən sonra yenidən pedaqoji fəaliyyətini davam etdirməyə başlamışdır.

İlk şeirini orta məktəbdə oxuyarkən yazmışdır. Heca, əruz və sərbəst vəznlərdə yazdığı əsərlərinin İraq-türkman ədəbiyyatının inkişafına böyük təsiri olmuşdur. M.Şəhriyarın «Heydərbabaya salam» poemasından təsirlənərək «Kaytaz baba» əsərini yazmışdır. Mehmet Bayatın İraqda yayımlanan «Yurd», «Qardaşlıq», «Türkman eli» və s. türkdilli dərgilərin fəaliyyətində xidmətləri vardır. «Kaytaz baba» (1979), «Əski Tuzxurmatıda xoyrat sənəti» (2003), «Atımı gemledim» (2007) və s. kitabları çapdan çıxmışdır. O, elmi fəaliyyət ilə də məşğuldur. «Məhəmmədhüseyn Şəhriyar və İraq-türkman şeiri» mövzusunda (elmi rəhbəri prof. Elman Quliyev) namizədlik dissertasiyası yazmışdır.

KAYTAZ BABA
(ixtisarla)

Kaytaz baba seher gözün açanda
Karanlıklar korkusundan kaçanda
Aydın güneş altun saçın saçanda
Hayran ollam güler hüsnün görende
Ay buluttan ahvalını soranda

Kaytaz baba gözün tekin akaydım
Gül çiçeğe güler yüzle bakaydım
Sevinç gülü mors yakana takaydım
Sana gelen menim tekin dost olsun
Senin dostun adın gibi üst olsun

Kaytaz baba yolum sana geç düştü
Dertli gönlüm coştu haddini aştı
Çarpan yürek deniz tekin kan coştu
Seni gördüm tutğun gönlüm açıldı
Gamli yüze aydın güller saçıldı

Kaytaz baba ana yurdu sendedi
Milletinin derdi dağı mendedi
Düşünmek aramsızlığ ondadı
Hak gelende üzün oyza dönderi
Düz kimseye günde lanet gönderi

Kaytaz baba yıldırımlar çakaydı
Gözlerimiz hak yoluna bakaydı
Dağıntılık aramızdan kalkaydı

Ağaç kimin bir bağlama olaydık
Dertlerimiz duyup çare bulaydık

Kaytaz baba hep insanlar barıştı
Yakşılığa boyun eğdi çalıştı
Mefkureler ataş gibi alıştı
Kaytaz baba sen ol bize bir dalda
Kumru tekin öten bizliğ bir dalda

Kaytaz baba sögmemişim kimseni
Suçsuz yere dögmemişem kimseni
Dimesinler men ögmüşem kimseni
Hak oğrunca dögü başim özümün
İnsan oğlu içindedi sözümün

Kaytaz baba aksu çayı akanda
Yüksek yerden tuz gençleri bakanda
Her çoşanda inci yakut takanda
Deli seller ordan bana el eyler
Susuzuyam bana çaylar ne eyler

Bu diyardı şiirin taze gülşeni
Füzulinin rüzgar açan meskeni
Yiğitlerin at oynağı meydeni
Hasta sesler şiiri derde çalıptı
Füzulinin ancak adı kalıptı

Yiğit babam köy ğireti kavardı
Düşmanları şehrimizden kovardı
Öğütleri canımızı avardı

Mescitlerin meclislerin başıydı
Yetimlerin gözlerinin yaşıydı

Bir gedeydim çayımızın üzüne
Gözüm koyup yaş tökeydim gözüne
Kulak asıp akan bulak sözüne
Bulak diyer bütün suyum seninçin
Değirmençi yarı gönder menimçin
Güneş saçın dağ başına serende
Nazik eller navruz gülün derende
Dertli aşık dilberine erende
Senin sevgin nazik kalbim sarardı
Gözüm seni kiprik çalmaz arardı

Akşam üstü kara naxır gelende
İnek sesi her köşeye dolanda
Uşağlarda gelmeğini bilende
Bizde birden tüklerindən yolardık
Bir top edib birbirmize çalardık

İnsan olan cevherini itirmez
Az ömrünü boş boş yere bitirmez
Hiç kimseye kader zillet getirmez
Babam diyer taş yağmurdan ıslanmaz
Nanca kalsa altun yerde paslanmaz

Kaytaz baba sana destan yazmışım
Muhabbetin yüreğimde kazmışım
Gülşeninden gül topluyub gezmişim
Toprağından ilham alıp üregim
Eğilmiyip çelik oluğ bileğim

KARABAĞ ŞİKESTESİ

Kadan alım dilberim, başına da dolanım
Gün doğmadan derdine, pervane tek ben yanım
Yüz yerden yaralısan, ey sevgili cananım
Gün gelir şafak söker turnalar katar katar
O kurumuş bağlarda bülbüller bir de öter

Silkin silkin er gibi, ışık saç güneş gibi
Gir meydana baş yüksek, kükreyen Aslan gibi
Kahreyle düşmanları, görün halka xan gibi
Yürü yürü durmadan, dağıt düşman evini
Kaydeyle zaferleri, hep dostların sevini

Sanma birde kardeşim, daha döner çaldıran
Şimdi birdir milletin, zulmetleri yandıran
Geçti artık o demler, sizi bizden ayıran
Ey yaralı Karabağ aç yarayı bu bağdan
Bülbül ötsün, Gül açsın, su şakırsın bu dağdan

Sen bizimle o kadar damardaki kan gibi
Çok yakınsın sevgilim, bu tendeki can gibi
Vicdanımız içinde şeref gibi şan gibi
Doğacak kanlı şafak, zamanımız gebedir
Yurt üstüne parlayan o beyaz tan bak nedir?

Fuzuliler elinden yeni bir gün doğacak
Şafak renkli yiğitler, karanlığı boğacak
Düşmanların muhakkak kahrolup ve olacak
Yeni güneş Karabağ her yerde ışık saçar
Onda gelir Fuzuli sizlere derdin açar

Bayrağı dik göklere azadelik günüdür
Topla halkın başına Hürriyet düğünüdür
Toprağında düşmanın İnşalAllah sonudur
Haykır düşman gözüne Allah adı falındı
Göreceksin zaferin sür düdüğü çalındı

BEN NERDEYİM VATAN ORADA

Bir kızıl elma gibi bölündü yüreğim ikiye, eşit
Bir parçası orada kaldı, orada iken
Dertli, coşgun, yaralı ora gibi
Emanet bıraktım, ev, eşik, çocuklara
Otekiyi sakladım kendime
Çırpıniyor bir kanatsız kuş gibi
göğsümde
Gönülden gönüle yol variken
Bir yüreğin iki parçasına ne dersin
ne diyeceksin!!
İşte öyle bir olay içinde yaşıyorum
Şimdi çevreyi saran nazlı bir hilal içindeyim
Al şafaktaki Süslü yıldızı kucaklıyor
Güzelik her yerde
Suda, havada, millette
Çevre, yem yeşil, ilk bahardır
yaz mevsiminde
Karlı dağlar bulutlar içinde
Çeşmeden akan sular
Gözyaşları gibi temizdir
O meltemli serin yeller, ipek saç gibi
Yüzüme el sürüyor
Millet ise
Bir kültür kaynağı olan

Erdemli memleketin milletidir
Hava, su gibi güzeldir
Burada ne dedi kodu
ne de nifak var
Kimse kimseyi kıskanamaz
Ben yoksulum sen varlısın diyen yok
Ne kimse kimseyi çiğner ne de kınar
Ne de alaylar
Buranın sözlüğünde.. yalan yoktur
Herkes serbest, her yön özgür
Ne yaparsın yap sadece
kimseye dokunma
Burası bam başka..
kendi başına bir dünya
Şaşa kaldım iki parçalı yüreğimin
elinden
İki sevgili gibi
birbirilerine kavuşmak istiyorlar
anlattığım bu güzelliği isteriken ben
yel yelkenin tersine esiyor buna rağmen
yürek parçası düz doğru
çolum çocuğa
işkence, üzüntüye gidiyor
yüreğin iki parçası
gelin gövey gibi
birbirlerine sarılıp
yaralı yurdumu saran karanlığı
kucaklıyıp
ben neredeyim vatan orada
umuzumda taşıyorum ben onu
şarkısını okuyorlar

GÜL HANIM

Nazık hanım gül hanım
Şeker sözlü bal hanım
Sarışındır güzeldir
Sanki örtmüş şal hanım

Güzeldir kokun senin
Ceylan bakışın senin
Aydın ettin dünyamı
O beyaz düşün senin

Bir duygusal annesin
Dudaklarda hendesin
Bam başka bir dünyasın
söyle bana sen nesin

temizdir çeşme gibi
durudu ayna gibi
sevilir kuşlar gibi
o hanım Tanco hanım

Bilkentin yığnağıdır
Toplumun sığnağıdır
kitaplara sığmayan
Bir bilim kaynağıdır

Gecelere bedirdir
Bilimlere nezirdirdir
Bir erdemli hanımsa
liderlikte bir erdi

ƏLCƏZAİR ƏDƏBİYYATI

MƏHƏMMƏD DİB



MƏHƏMMƏD DİB

HASİN DERMƏK

– Ah, Axır ki, gəlib çıxdın! Emalatxanada hər şey öz qaydasındadırmı?

– Bəli, ağa, həmişə olduğu kimi. Siz bu gün özünüzü necə hiss edirsiniz?

– Əl çək! Bu haqda danışmağa dəyməz. Səhhətim artıq məni maraqlandırmır.

Rosli toxucu fəhlə idi. Ağanın bu sözünə o gülümsündü. Rosli ağası üçün bazarlıqdan yenicə qayıtmışdı. O, artıq uşaq deyildi, iyirmi beş, iyirmi altı yaşı vardı, ancaq yenə də ağanın buyruqçusu idi.

Hasin Dermək gülümsündü.

– Təzə nə xəbər var? Danış görək.

Heç bir şey. Mahnıda oxunan kimi, bu gün də dünənki kimidir...

– Ay bic.

Rosli gülümsündü, çiyinlərini əyən ağır bazar sumkasını yerə qoymaq üsün mətbəxə keçdi.

Həyətə qayıtdıqda Hasin Dermək ona dedi:

– Gəl otur! Bir stəkan çay içə bilərsən.

Dermək üzərinə iki döşək və mavi ipək üzlü qu tükü kimi yüngül yorğan salınmış yataqda uzanmışdı. Üstünə saldığı ağ mələfədən onun tosqun bədəninin cizgiləri görünürdü. Yanındakı xalçada üstündə mis podnos, qəhvədən və stəkan qoyulmuş alçaq stol var idi. Ağa əli ilə Rosliyə oturmaq üçün kənardakı taxtda yer göstərdi. O, ağanın dəvətini qəbul edib

taxta yaxınlaşdı. Yerə salınmış əlvan naxışlı gözəl İran xalısına ayaq basmazdan əvvəl Rosli ayaqqabılarını çıxartdı.

Hər gün səhər bu səhnə təkrar olunurdu. Ağa öz xoşhallığını gizlətmir, dirsəklənib qurtum-qurtum çay içir və gözaltı Rosliyə baxırdı. Roslini görən kimi elə bil Dermək yeni qüvvə gəlirdi. Roslinin simasında o, ürəyinə yatan həmsöhbət tapmışdı.

Dermək yastığa söykənib, çay stəkanını əlində tutmuşdu. O fikirləşir, başını yırğalayır, yenidən çay içirdi.

Deyəsən fikirlər Dermək rahatlıq vermirdi. Dözə bilməyib dedi:

– Rosli, bilirsən mən nə fikirləşirəm?

Rosli hələ içib qurtarmadığı çayını kənara qoydu.

– Yox.

– Həyatda nə isə bir dəyişiklik olmalıdır. Bu dəyişiklik də, şübhəsiz, xeyir gətirəcək.

Roslinin gözləri gülümsünürdü. Ağanın əvvəllər onu tamamilə çaşdıran açıq danışıqlarına o, artıq alışmışdı.

Dermək sözünə davam etdi:

– Həyat bir tələdir – bu sözləri qətiyyətlə deməyindən görünürdü ki, o, çoxdan bu fikirdədir. – Əsil tələdir.

O susdu, sonra qəmli-qəmli əlavə etdi:

– Görəsən, bu mümkündürmü?

Rosli öz-özlüyündə fikirləşirdi: «Nə qəribə adamdır! Bu ki xoşbəxt adamdır. Bilmirəm niyə belə ürəyini qısır?» Ucadan isə dedi:

– Həyat belədir də...

Düzü o, heç özü də başa düşmürdü ki, bu sözlərlə nə demək istəyirdi. Yəqin ağasını sakitləşdirmək istəyirdi.

Dermək dedi:

– Hamı belə fikirləşir? İyirmi il ərzində mənim səhhə-

tim xeyli yaxşılaşıb. Baş verən hadisələrlə əlaqədar kədərlənməyimə baxmayaraq elə indi də gümrahlaşmaqdayam. İndi mənim iki emalatxanam var, hərəsində də bir dujin toxucu dəzgahı. Ancaq nə edəsən ki, mənim fəxr etdiyim bu qələbə də tələdən başqa bir şey deyil!

Rosli sahibkara qulaq asır, heç bir söz demirdi. Əgər Derməki bürüyən daimi qüssə olmasaydı, bütün bu işlər onu bu qədər həyəcanlandırmazdı. Bu gün deyəsən o, xüsusilə həyəcanlı idi.

Həyət mavi rəngli hasarla əhatə olunmuşdu. Kənarlarında reyhan kolları əkilmiş hovuzdan axan suyun xəfif şırıltısı eşidilirdi. Günəş şüaları suda əks olunaraq bütün həyəti işıqlandırırdı. Bu Roslini rahatlandırır, başındakı bütün fikirləri dağıdırdı. Səhər mehi onu xumarlandırırdı.

Hasin Dermək soruşdu:

– Bəs sənin bu işlərdən başın çıxırmı?

Rosli birdən ayılmış kimi, dərindən ah çəkdi, şaşqınlıqla dedi:

– Başım çıxır, ancaq mən sizinlə razı deyiləm.

– Buna bir bax! Nə üçün? Bir başa sal görüm.

Rosli təəcüblə ağasına baxdı:

– Mənim başqa fikirlərim var.

– Başqa fikirlərin! Bu hansı fikirlərdir? Tez ol, danış! Bir işə bax! Bunun başqa fikirləri var!

Birdən yaxalanmış toxucu nədən başlayacağını bilməyərək fikrə getdi, onun susmasından narazı qalan ağa qışqırdı:

– Tez ol, de! Gəl mübahisə edək! Nə üçün birdən susdun.

Rosli həvəssiz danışmağa başladı:

– Yaxşı, ancaq mən mübahisə edə bilmərəm. Mənə elə

gəlir ki, mübahisə qarşılıqlı anlaşılmanı bir qədər çətinləşdirir.

– Deməli, sənin fikrincə insanlar arasında anlaşılmazlıqdan başqa bir şey yoxdur?

– Yox, bir o qədər də yox. Əslinə qalsa mən heç bilmirəm.

– Bəs onda sən nəyi nəzərdə tuturdun?

– Mən deyirəm ki, həqiqəti bilmək üçün mübahisə etmək axmaqlıqdır.

Özünü itirmiş Hasin Dermək cavab üçün söz tapa bilmir və əsəbi halda gülürdü. Rosli də nəzakət xatirinə gülümsündü. Ağa çay qaşığını götürüb hirslə podnosu döyəcləməyə başladı.

Qulluqçu Tetmə qaşığın səsini eşidən kimi otağın astanasında göründü. Bu qadının gözəl sifəti, xüsusilə onun sürmə ilə haşiyələnmiş iri ala gözləri həmişə Roslinin heyrətə gətirirdi. Dermək üçün isə onun gəlişi qəzəbini soyutmağa bir bəhanə oldu.

– Səni kim çağırdı? Nə üçün sənə aid olmayan işə həmişə burnunu soxursan?

– Mən elə bildim ki, bir şey lazımdır.

Tetmə çıxıb getdi. Dermək isə donquldanırdı:

– Sən özünü çox sadəlövh göstərirsən. Sənə elə gəlir ki, dünyada hamı həqiqəti başa düşür. Səhv edirsən! Əgər həqiqət naminə yaşamaq istəyirsənsə, pencəyini, ayaqqabılarını çıxart, əbaya bürün, boynunu əy və rəzil mənliyinlə səni yaradanın qarşısında dayan!.. Onda baxarıq camaat sənin haqqında nə deyəcək.

Dermənin girdə sifəti qırışlarla örtülmüşdü. Həddən artıq həyəcanlanmaq onu yormuşdu. Dermək yastığa söykəndi. Onda özünə və ümumiyyətlə bütün dünyaya qarşı bir şəfqət

hissi oyanmışdı, boğazı qəhərləndi. Gözlərini yumaraq sözünə davam etdi:

– İnsan ağılsızdır, ona görə də həmişə əzab çəkəcək.

Bir dəqiqə keçdikdən sonra o, gözlərini açdı, dərindən köks ötürdü.

– Dediklərimə görə məndən incimə. Həqiqəti dərk etmək az adama müyəssər olur. Ah, yaşamaq – bu nə qədər qəliz bir şeydir…

Dermək yerində dirsəkləndi.

– Boşboğazlara qulaq asma! Onlar səni məhv edərlər. Sən hələ cavansan. Həyatın acılarını görməmisən, qəlbin hələ daşa dönməmişdir. Ümid etmə ki, bundan sonra həyat sənin lə və sənin kimilərlə ədalətlə rəftar edəcək!..

Onun nəzərləri sanki qığılcım saçırdı. Dermək ürəyini boşaldıb, yenidən taxtına uzandı. Elə bil ki, heçliyin dərinliklərinə qərq olurdu. Sifətinin cizgiləri yumşalır, gərginliyi azalırdı. Rosli də onu danışdırmırdı.

Hasin Dermək yenə öz sükutunu pozdu, ancaq indi onun səsi elə bil ki, çox uzaqlardan gəlirdi. O, soruşdu:

– Bizimlə nahar edəcəksənmi?

– Böyük məmnuniyyətlə.

Dermək nəzərlərini göyə dikib uzanmışdı. O mülayim bir səslə dedi:

– Tetmə! Tetmə! Rosli bizimlə nahar etməyə qalır.

Qadın «çox gözəl»! – deyib o biri otağa keçdi.

Yenə də onların sükutunu yalnız hovuzdan axan suyun şırıltısı pozurdu. Rosli yenidən rahatlıq hiss edir, ötən dəqiqələr ona çox uzun görünürdü. Elə bil vaxt, zaman yox olmuşdur, dünyanı tərk etmişdir. Heç bir şey yoxdur… yalnız xəfif yay mehi havada qanad çalırdı.

Birdən haradansa həyətə dalaşan iki sərçə uçub gəldi. Civilti qopdu, yolunmuş tüklər göyə qalxdı…

Dermək onları görmək üçün bir qədər qalxdı və ürəkdən güldü:

– Ah, lənətə gəlmişlər, gör nə dalaşırlar! Lap təəccüblüdür.

Dermək sə sindən hürkmüş quşlar havaya qalxaraq birbirini dimdikləyə-dimdikləyə damın üstündən uçub gözdən itdilər. Dermək sol böyrü üstə çevrildi, gülümsündü və yorğun halda dedi:

– Yığ, yığ, sonra da buna görə həmişə əzab çək? Nə axmaqlıqdır?!

Rosli razılıq işarəsi olaraq başını tərpətdi.

Dermək narahatlıqla qurdalanır, arxası üstə çevrilir, sürüşmüş yastıqları düzəldirdi. O, dərindən nəfəs alırdı. Onu təngə gətirən şişman gövdəsi birdən zəifləyib boşaldı.

O öz-özünə pıçıldadı:

– Rahatlıq.

Roslinin ürəyi sancdı, ancaq özünə təskinlik verdi: «Mənə nə olub, məni ki, ölüm izləmir». Sonra suyun səsinə qulaq asdı, yenə də yay səhərinin sehrinə qərq oldu.

– Deməli, necə oldu? – deyə Dermək xeyli fasilədən sonra sözünə davam etdi. Sən deyirsən ki, camaat bizi qarət etməyə hazırlaşır, ya mən səni düz başa düşmədim?

Onun bu sualında istehza duyulurdu.

– Gərək hər şey ədalətlə bölünsün, – deyə Rosli tərəddüdlə cavab verdi.

– Sən elə hesab edirsən ki…

– Camaat belə düşünür.

– Düzdür, hamı narazıdır.

Hasin Dermək xeyli susdu. Birdən o, qətiyyətlə dedi:

– Yox! Camaat sənin dediyin məsələlərdən narazı deyil. Yox, başqa şeydən narazıdır! Mən bunu hiss edirəm! Tamam başqa şeydən! Ancaq nədən, bax bunu mən bilmirəm. Lakin əminəm ki, başqa şeydən narazıdır!

O, yenidən susdu, ancaq hiss olunurdu ki, nə isə fikirləşir. Baxışlarında bir anlaşılmazlıq duyulurdu. Üzündə dərin qırışlar əmələ gəlmişdi.

Ağa üzərindən yük götürülmüş kimi sakit-sakit nəfəs alırdı. Deyəsən o yuxulayırdı.

Bir qədər keçdikdən sonra o, yavaş-yavaş, lakin bütün kəlmələri aydın tələffüz edərək dedi:

– Deyəsən mən ölürəm. Sonra Rosliyə diqqətlə baxdı və davam etdi:

– Biz hamımız hər gün bir azca ölürük. Lakin mən indi başqa bir şey hiss edirəm, başa düşürsən, başqa şey! Qəribədir. Bu nə isə yanğına bənzər bir şeydir.

Dermək yenə tədriclə öz fikirlərinə qərq olmağa başladı, Kim bilir, bəlkə də yuxulayırdı.

– Görəsən qəribə nədir? – deyə Rosli düşünürdü. – Ölmək, yoxsa ölümü hiss etmək?

O, yüngüllüklə köks ötürdü. Su, çiçəklər, günəş şüası… Nə cazibədar rahatlıqdır!

Tetmənin qəmli gözləri Hasin Dermək dikilmişdi. Dermək ehmalca addımlayaraq qranlığa bürünmüş həyətin bir küncündən o biri küncünə addımlayırdı. Sonra qapıya tərəf getdi, onu açdı, küçəyə çıxdı. Dermək geri dönmək istədi, lakin sanki qara bir qüvvə onu haqladı və arxadan itələdi.

«Neçə ay olar ki, küçəyə çıxmırdım» – deyə düşünürdü.

Onun ayağında çust vardı, köynəyinin üstündən çiyninə plaş salmışdı. Yoldan keçənlər də heç ondan yaxşı geyinməmişdir. O, zülmət qaranlıqda irəliləyirdi. O, ağır-ağır addım-

layır bürküdən nəfəsi təngiyir, başı gicəllənirdi. Hər şey – şəhərin işıqları, əyri-üyrü küçələri və uçuq-sökük evlər onun başına hərlənirdi.

O irəliləyirdi. Birdən uzun bir hasarın alçaq və ağır darvazası qarşısında dayandı. Plaşının cibini axtarmağa başladı. Açarını çıxartdı, qapını açdı. Burnuna üfunətli və tanış bir iy gəldi. O, bu hava ilə dərindən nəfəs aldı və hər şeyi – xəstəliyini, qəm və qüssəsini unutdu.

Dermək aşağıya – zirzəmiyə düşdü. Döşəməyə çatdıqda heç bir şey görmədən irəliyə addımladı. Ətrafından kif iyi gəlirdi. O, daha bir addım atıb əlini qabağa uzatdı və toxucu dəzgahına toxundu. Tarım çəkilmiş sapları sığallamağa başladı. Saplar gərilmiş əsəb telləri kimi titrədi. Əlini uzadıb bir barmağı ilə dəzgahı işə saldı. Sakit və boğuq bir uğultu eşidildi. O biri toxucu dəzgahları da sanki onun əlinin hərəkətini gözləyirdi. Onlar sahibini tanıyırmış kimi asanlıqla işə düşdü. Sonra Dermək o biri əlində tutduğu qabın ağzını açdı, içərisindəkini yerə boşaltdı, o saat kəskin bir qoxu ətrafı bürüdü. Dermək bir kibrit yandırdı, qutunun üstündən parlaq bir xətt şığıyıb söndü. İkinci, üçüncü, dördüncü kibrit də yanmadı. O, hövsələsini itirib bir neçə kibrit dənəsini alışdırdı. Birdən hər tərəfi alov bürüdü.

Dermək dar pillələrlə tez yuxarı qalxıb açarı geri burdu və indi az qala tanımadığı küçələrlə geri qaçmağa başladı.

… O, Tetməni heykəl kimi sakit vəziyyətdə gördü. Tetmə ayağa durdu, onu taxtına ötürdü və pıçıldadı:

– Yat, dincəl.

Dermək laqeydcəsinə əlini yellətdi. Tetmə plaşı onun çiynindən götürdü və getdi. Dermək sağ böyrü ustə uzandı, başını yastığa qoyub dərin bir ah çəkdi və gözlərini əbədilik yumdu.

İORDANİYA ƏDƏBİYYATI

MACİD ZEYYİB ĞƏNƏMA



MACİD ZEYYİB ĞƏNƏMA

NÖVBƏYƏ DAYANMAQ

Səhərin parlaq şəfəqi üfüqdə sanki inqilab bayrağı kimi dalğalanırdı. Sərçələr də zülmətin dağılmasından fərəhlə cingildəşir, sübh şəfəqini sevinclə qarşılayırdılar. Riyad qardaşı Əhmədlə düşərgənin yaxınlığındakı təpənin üstündə oturub sübh şəfəqinin üfüqdən necə doğmasını izləyirdi. Onlar üç ildən bəri Fələstin müqavimət hərəkatına qoşulan və bir neçə gün əvvəl Cənubi Livanda sionist düşmənlərlə vuruşarkən həlak olan qardaşları Zəyyadı xatırladılar…

Riyad ətrafına göz gəzdirdi, xəyalında qardaşı Zəyyadla bu təpənin üstündə keçirdiyi anları canlandırdı. Bir qədər sonra Əhmədə tərəf çevrilib dedi:

– O bu təpəni çox sevərdi, üfüqdən doğan səhər şəfəqini müşahidə etmək, quşların şən civiltisinə qulaq asmaq üçün tez-tez bu təpəyə gələrdi… O, vətənə qayıtmağı arzulayırdı. Böyük ehtiras, həm də kövrək bir kədər hissi ilə vətəndə doğacaq sübh şəfəqindən söz açar, öz-özünə suallar verərdi… «Nə vaxt onu görəcəyik? Görən o necə olacaq?.. Yəqin ki, onun gözəlliyi vəsfə gəlməyəcək… Yəqin ki, onun parlaqlığının misli-bərabəri olmayacaq».

Əhməd:

– O, vətəni inqilab ehtiraslı bir məhəbbətlə sevirdi. O, «Tale bizi tüfəng kölgəsində yaşamağa məcbur edib. Birləşmiş

MİllətlərTəşkilatının sənəd və qərarlarına arxalanıb sülhün təmin olunacağına inanan kəs kölgəni qucaqlayan adama bənzər. Adam gərək ömrünün son anına, ideyası uğrunda əzabla öldürülməsinə qədər tüfəng gəzdirib onun kölgəsində yaşaya… Gərək onu tüfəngi qucaqlayıb sinəsinə basmış halda tapalar. Sanki o, bundan ayrılmaq istəmir, hətta əzabla öldürülüb, vətənə gedən yolu işıqlandran bir ulduza çevrildikdən sonra belə… Həyat və sevincdən xoş xəbər verən xatirəyə çevrildikdən sonra belə…» fikrini dönə-dönə təkrar etməkdən yorulmazdı.

Sakitcə qardaşına qulaq asan Riyadan çöhrəsini qəmqüssə dumanı bürüdü. Xəyalında dərd-ələm siqlətli xatirələr baş qaldırdı. Sonra, sanki öz-özünə danışırmış kimi, pıçıltılı bir səslə sözə başladı:

– Deyirlər ki, insan tənha və arzusuz yaşaya bilmir. O, həmişə yeni arzulardan söz açır, bu arzularla yaşayır və onların qanadında pərvazlanır… Bəlkə də, bu, başqaları üçün belədir. Mənim üçün isə bu fikir doğru deyil… daha dəqiq desəm, qardaşım Zəyyadın müqavimət sıralarında daxil olduğu, sonra isə onun ölüm xəbərini aldığım gündən keçən üç il müddəti üçün bu fikir qəbul ediləsi deyil.

Əhməd:

– Nə dediyini anlamadım.

Riyad cavabında:

– Mən onunla getməli idim. Amma bunu etmədim. Mən onunla razılaşmayıb, onu tərk etdim. O, tək getdi. Mən ayrılığı seçdim. Bu ayrılığın qoynunda yaşayıb həyatımda ilk dəfə onun nə demək olduğunu dərk etdim… Çox təəssüflənir və haçansa bir gün onunla rastlaşacağımdan qorxurdum. Geri çəkilməmin, tərəddüd etməmin zəiflik əlaməti olması haqqında

filosofluq etməyə çalışırdım. Lakin özümə bəraət qazandırmağa heç bir əsasım yox idi.

Müqavimət hərəkatı haqqında hey fikirləşir, fikirləşirdim. Elə güman edirdim ki, fikirləşmənin özü də xeyirli bir işdir. Elə güman edirdim ki, müqavimət hərəkatı haqqında mücərrəd fikirlə, müqavimətin özü arasında heç bir fərq yoxdur… Lakin dərk etmirdim ki, xeyirli iş haqqında yalnız fikirləşmək kifayət deyildir…

Onun ölüm xəbəri gəldi. Bu vaxt qəlbimdə kədərin tüğyan etdiyini, onu möhəm sıxdığını hiss etdim və anladım ki, mən nə qədər eqoist və qorxaq imişəm.

Bu, həqiqətdir, qardaşım… Özü də elə bir həqiqət ki, onu nə inkar edə bilərəm, nə də ona inanmaya bilərəm. Bu həqiqəti etiraf etdiyim halda, axı, nə üçün də onu inkar edim, ona inanmayım?

Axı, necə ola bilər ki, həqiqətin bizə aydın olmasından utanmayaq, lakin onu başqalarının bilməsindən utanaq?

Əhməd söhbəti başqa bir istiqamətə yönəltməyə çalışaraq dedi:

– Onlar öz haqq işi uğrunda çarpışanları – müqavimət hərəkatının iştirakçılarını viranedici cinayətkarlar adlandırırlar. Bəs bu sionist quldurlar özlərinə görəsən nə ad verirlər?

Riyad qəzəblə dilləndi:

– Çiçəkdə olan ətrə minlərlə ad verməklə onu korlamaq olarmı, qardaşım?

Bir anlıq sükutdan sonra əlavə etdi:

– Zəyyad inanırdı ki, bizlərdən hər birimiz vaxtı çatdıqda, vətən uğrunda vuruşa hazır olduqda özü gəlib növbəyə durmağa can atacaq.

Əhməd suallı bir ifadə ilə:

– Xatırlayırsanmı, təkgöz** «Təkgöz» dedikdə İsrailin sabiq hərbi naziri Muşe Dayan nəzərdə tutulur.

onunla öyünürdü ki, guya biz nizamla bir cərgədə durmağa qabil xalq deyilik… Guya elə buna görə də o, bizdən qorxmur və bizi saymır…

Riyad:

– Bu, bir adamın xülyası, bir adamın illüziyasıdır… Həqiqətdə isə biz vətən uğrunda vuruşa getmək üçün bütün övladlarını növbəyə düzüb vaxtının çatmasını gözləyən bir xalqıq. Çoxları fürsət tapıb bu müqəddəs amal uğrundakı vuruş üçün növbəyə durmaqda bizi qabaqlamış və indi səbirsizliklə öz vaxtlarının çatmasını gözləyirlər… Mən də bu gün növbədəyəm. Mən gərək iki intiqam alam: biri vətənin, biri isə həlak olmuş qardaşımın. Artıq həsrətlə yaşadığım bu ayrılıq illərinin amansız pəncəsi məni boğmaqdadır. İndi məndə bu ayrılığa qarşı elə bir nifrət hissi baş qaldırıb ki, əvvəllər nəyə isə belə nifrət etdiyimi ağlıma belə gətirə bilmirəm… İndi məndə qanımı vətən torpağına qatmaq, adımı Fələstin bağlarından birində zeytun ağacı gövdəsinə cızmaq üçün ehtiraslı bir istək yaranıb…

Günlər keçdi… ümidi də, həqiqi və xəyali kədəri də, qələbəni və məğlubiyyəti də, həyatı və ölümü də özü ilə daşıdı. Riyad isə yeni şəfəqi yaradanlardan biri kimi burulğanlar qoynunda yaşadı… O, istəyirdi ki, vətənə uçmaq üçün külək öz qanadlarını ona borc versin… Təbəssümlə öz dostlarına desin, «istəyirsinizmi öz sirrimi sizə açım?.. Özümə söz vermişdim ki, bir gün bu sirri sərhəddən keçirim… Mən bu əhdimə vəfalı olmağa özümdə güc və iradə olduğuna inanırdım. Fələstin torpağı üçün… dağlar, vadilər, bağ-bağçalar üçün, göy ləpəli

gözəl sahil üçün burnumun ucu göynəyir, həsrət odu məni yandırırdı…».

Üç ilə yaxın bir müddətdən sonra vətənin daxilində bir çox cəsarətli partizan əməliyyatlarında fəal iştirakına görə Riyad sionist hərbi tribunalarından birinin mühakimə zalında müttəhim kürsüsündə oturmuşdu…

Riyad çıxarılacaq hökmü gözləyirdi… O, salona göz gəzdirdi, nə qədər fələstinlinin böyük məhəbbətlə ona baxdığını, onu qucub öpmək, əllərini sıxmaq, bağırlarına basmaq intizarında olduqlarını gördü… çöhrəsini sevinc nuru bürüdü…

Hərbi məhkəmənin sədri hökmü oxuyanda Riyad qulaq asmır, hökmün təfsilatı ilə maraqlanmırdı… O öz-özünə dodaqaltı deyirdi: «Budur, bu gördüklərim də növbəyə durub öz vaxtlarını gözləyirlər. Bu növbə isə zülmə, ədalətsizliyə son qoyulmayınca, vətənin üfüqlərində yeni şəfəq doğmayınca tükənməyəcək, ara verməyəcəkdir… Dünən Zəyyad və onun yoldaşlarının növbəsi idisə, bu gün mənim növbəmdir, sabah isə Əhmədin, Əlinin, İsanın, sonra Mahmud və başqalarının növbəsi gələcək, sonra… sonra… sonra…».

Riyad arzu və xəyal aləmindən ayrılanda kin və ədavət dolu hökmün ibarələri səslənməkdə davam edirdi.

Riyada 20 il həbs cəzası elan edən məhkəmənin bu mənfur, qərəzli qərarı oxunub qurtardıqda o, yenidən salona nəzər saldı. Ona zillənmiş gözlər yenə onu öz ağuşuna aldı, qucub bağrına basdı. Sonra Riyad razılıq təbəssümü ilə əlini qələbə əlaməti kimi yuxarı qaldırdı.

VƏTƏNİN PORTRETİ

Zəyyad rəsm ləvazimatını bir kənara qoyub dostu Munaya tərəf çevrildi və sanki öz-özüylə danışırmış kimi dedi:

– İlk dəfədir ki, heyrət içərisində dayanıb necə və haradan başlamağı bilmirəm. Kaş belə bir şəkil çəkmək fikri heç mənim ağlıma gəlməyəydi. Birmirəm, nağıllar dünyasının hansı şeytanı bu fikirlə məni yeni sirli bir aləmə saldı. Elə bir aləm ki, fırça ilə təcəssümünün və təsvirinin verilməsinə tabe olmur. Bir çox şəkillər çəkməyimə və onlardan bəzilərinin hətta böyük şöhrət qazanmasına baxmayaraq, nədənsə mən onun qarşısında uzun uzadı dayanır, başlanğıcını belə vermək iqtidarında olmuram… Kim bilir, bəlkə də mən mümkün olmayan bir işə cəhd edirəm. Kim bilir, bəlkə də mən elə bir uzaqlığa baxıram ki, onun təsvirini vermək sənətkar fırçasının imkanı xaricindədir. Kim bilir, bəlkə də mən arzuya sığmayan bir arzudayam.

Muna sualla ona müraciət edərək:

– O nədir ki, şəklini çəkməyə bu qədər cidd-cəhd edirsən?

Zəyyad cavabında:

– Mən vətəni rəsm etmək istəyirəm… Vətənin portreti – onu belə adlandırıram.

– Vətənin portreti… bu nə qəribə fikirdir.

– Bəli, bu doğrudan da qəribə fikirdir. Eyni zamanda anlaşılmaz, ağlabatmaz bir fikirdir. Bununla belə bu fikir çoxdan bəri məni izləyir və xəyalımı bir an belə tərk etmir. Lakin mən bu işə başlamağın heyrətindən xilas ola bilmirəm və bilmirəm onu necə çəkəcək, bir obraz kimi kağız üzərində necə canlandıracağam.

Muna:

– Axı, nə üçün sən öz heyrətinə son qoymursan. Bir çarmıx və ona mıxlanmış bir insan şəkli çək, vəssalam. Məgər vətən çarmıxa çəkilmiş deyilmi?..

Zəyyad cavabında:

– Çox gözəl fikirdir, lakin yeni deyildir. Bir də, axı, mənim arzum budur ki, rəsm edəcəyim obraz qəhrəmanlıq himnini andıran gözəl bir əsər kimi özü mənim xəyalımda, zehnimdə canlansın. Elə bir obraz ki, vətənimin bütün faciələrini incəliklərinə qədər özündə əks etdirə bilsin.

Muna:

– Səndə istedad da, bilik də, qətiyyət də vardlır. Şübhəsiz ki, sən nəhayətdə bu çətin işin öhdəsindən gəlməyi bacaracaqsan.

– Bu, mənim də arzumdur, dostum. Onu da deyim ki, belə bir obraz yaratmaq fikri hər gün səhər tezdən məni səsləyərək yatağımdan qaldırır. Bu çağırışdan özüm də razıyam. Bu yolda cəhdlərimi son həddə qədər səfərbərliyə alıb qətiyyət göstərəcəyəm. Sənə isə söz verirəm ki, onu çəkib qurtarmaq mənə nəsib olarsa, onun ilk müşahidi, ilk tamaşaçısı sən olacaqsan.

Günlər keçdi. Muna dostu ilə yenidən rastlaşanda onun portret haqqında nə qərara gəldiyini soruşdu. O isə cavabında:

– Bir yenilik yoxdur… Onu rəsm etməkdə hələ də acizəm. Sənət yollarında pessimistliyə təslim olmağa qarşı həmişə üsyan etmişəm… Lakin bu dəfə belə bir portret çəkmək fikrinin özlüyündə düz olmadığını dərk etməyə başlasam da, uğursuzluğa təslim olmağa məcburam.

Muna təşviqedici, həvəsləndirici bir tərzdə:

– Vətəni bir gündə, bir gecədə, hər hansısa bir vəziyyətdə, hər hansı bir şəraitdə rəsm etmək asan deyil. Qətiyyətlə deyə bilərəm ki, sən pessimistlik və təslimçilikdən uzaqsan.

Son görüşlərindən bir neçə gün əvvəl Zəyyadda artıq xoş bir əhval-ruhiyyə yaranmışdı. Bunu hiss edən Muna tələsik ondan soruşur:

– Deyəsən sən, nəhayət, portreti çəkmək qərarına gəlmisən. Demək, qaldı mənə vəd etdiyin kimi, mənim onun ilk tamaşaçı olmağım.

Zəyyad mənalı təbəssümlə:

– Ola bilsin qərara gəlmişdim. Lakin əvvəlcə bir mənə de görüm, «Vətən» sözü necə yazılır?

Muna cavabında:

– Qəribə sualdır, məgər bu söz üç hərflə yazılmırmı?*

Zəyyad:

– Xeyr, xeyr, elə deyil.

– Bəs necədir?

– Qulaq as mənə, dünən gecə yuxusuzluq məni lap əldən saldı. İş otağıma keçib, oradan dünyamızın mübariz şairlərindən birinin divanını götürdüm və səhifələrini çevirməyə başladım. Təsadüfən orada «İndii mən bilirəm» ünvanlı qəsidə ilə rastlaşdım… İlk beytlərində deyilir: «Məktəbə gedəndə inanmışdım ki, «Vətən» sözü yalnız üç hərf ilə yazılır… İndii isə anladım ki: «Vətən» sözü yalnız göz yaşları ilə yazılırmış.

Bir qədər susduqdan sonra Zəyyad əlavə edib dedi:

– Öz-özümə deyirəm, indi mən anladım ki, vətənin portretini fırça və rənglərlə rəsm etmək cəhdim nə qədər gülünc imiş. Dostum, həqiqətən vətən, xüsusilə çarmıxlanmış olduqda, qan və göz yaşlarından başqa heç bir şeylə rəsm edilməz.

---

* *Ərəb dilində qısa saitlər yazılmadığı üçün «vətən» sözündə yalnız samitlər, yəni «v», «t», «n» hərfləri yazılır və «vətən» kimi oxunur.*

FƏLƏSTİN ƏDƏBİYYATI

- MUİN BSİSU
- MAHMUD DƏRVİŞ
- ATEF ƏL-BUTRUS



MUİN BSİSU

Muin Bsisu 1926-cı ildə Fələstinin Qəzza bölgəsində anadan olmuşdur. İbtidai və orta təhsilini Qəzzada almışdır. 1952-ci ildə Amerikada universiteti bitirdikdən sonra yenidən Fələstinə gəlmişdir. İxtisasca jurnalistdir. İlk şeri 1946-cı ildə «Hürriyyət» qəzetində çap olunmuşdur. 1952-ci ildə ilk şer kitabı («Əl-maareke») çapdan çıxmışdır. 1955-1957-ci illərdə Misirdə həbsə məhkum edilmişdir. O, Qəzza kommunist partiyasının baş katibi olmuşdur. Muin Bsisu 1984-cü ildə Londonda vəfat etmişdir.

MUİN BSİSU, MAHMUD DƏRVİŞ

İSRAİLLİ ƏSGƏRƏ MƏKTUB
(poemadan parça)

Beyrut — o Beyrut
Durub dediyinin üstündə.
Budaqlar barrikadaya dönüb
Quşların gözündə.
Beyrut Beyrutda
Mühasirəyə alınıb.
Pəncərələrin şüşəsi qırıq-qırıq…
Paytaxtımız, Allahın sevimli yeri,
İndi sən -

qəzəb və vüqarın qorxunc adına
dönmüsən.

* * *

…Elə hey yazacağıq
Mərmi ya bizi, ya səni tapana kimi.
Sonuncu mühasirənin,
Sonuncu həmlənin
Beyrutu cəhənnəmə çevirəcəyi
ana kimi.
Biz sənə yazırıq:
sənin atdığın mərmi
dönəcək göz yaşına.
Sənin atdığın mərmi
Hitlerin əsir düşərgəsinin zülmətini,
Bizim bədənimizin, göz yaşımızın
qaranlığını
Həkk eləyəcək sənin yaddaşına.
Biz sənə yazırıq.
Dərd nə qədər bağrımızı deşəcək?
Nə vaxta qədər
Dəniz ada ilə döyüşəcək?

* * *

İndi biz kimik Divanda
sənin fikrincə?!
Güllələrdən deşik-deşik olmuş
qum kisəsimi?
Tüstü içində çaşbaş qalan qoyunmu?

* * *

Of, yolu azmışıq
Zaman və məkanın mövhumatında.
Of, yolu azmışıq
yadırğadığımız labirintlərin altında.
Ölüm oğlu, od və bıçaq oğlu,
Nələr yazılıb
sənin ruhunun yaddaşına? —
Bir söz çıxsın dilindən.
Özüylə ətdoğrayan aparan əsgər,
Boynuna al:
Nələr öyrənmisən Osvensimdə
yandırılmış insanların
üyüdülmüş gülündən?
Məgər Yerusəlimə hücumundan,
Vavilonu əsarət altına alandan,
Vetxonu zəbt edəndən sonra
Bir şey qazandınmı?
Qazancın yalnız budur:
Sapand daşı.
Ölüm və göz yaşı.
Kimin baltasıdır

Başımızın üstündən asılan?
Məgən, sən özün heç nədən qorxmursan?

* * *

Gərilmiş sifətlər,
Tunc kimi cingiltili nida.
Dağılmış küçələrdə
yanıqlı əks-səda.

Sən öz tırtıllı, zirehli maşınında
Bizim üçün hazırca səhra,
hazırca qəbir axtarırsan.
Görəsən bu ölkədə ölənlərə
kifayət edəcəkmi qəbristan?
Zaman gərdişindədi, bizdən əlini çək!
Bizim oradakı evimizi,
Bizim oradakı dənizimizi
Heç kəs sənə verməyəcək.
Naringilər çiçəkləyən o sahildə keçib
Bizim uşaqlıq illərimiz.
O torpaqdan ayrıla bilməz
Ürəklərimiz, əllərimiz.
Tarixin yağışları yağacaq…
Hələ tükənməyib inamımız.
Hələ ordayıq, hələ ordayıq bizim hamımız
Tariximiz unutmayacaq o çağları.
Öz yolunla getməyə öyrətmə uşaqları.
Neyləyəcəksən mürgülü vulkan oyansa əgər?
Sən özün heç nədən qorxmursan məgər?

* * *

Çoxsifətli müstəmləkəçi!
Nə vaxta qədər döyüşəcəksən?
Nə vaxta qədər ölü bədənləri xatırlayıb
Aləmi üstünə güldürəcəksən?
Divar saatı kimi özün yatıb
Vaxtı öldürəcəksən?
Nə vaxta qədər qorxacaqsan
Fələstinin qum dalğasından, od püskürən

Torpağından?
Nə vaxta qədər qorxacaqsan
zərif ceyran ayağından?
Nə vaxta qədər qorxacaqsan
zəlzələdən?
Nə vaxta qədər gözləyək:
səhərdən axşamacan, axşamdan səhərəcən?
Nə vaxt partlayıb
məhv olacağıq biz.
Nə vaxt partlayıb
məhv olacağıq biz.
Bu ağrılar, əzablar nə qədər çəkəcək?
Çörəyimizə, suyumuza nə vaxta qədər
zəhər çökəcək?
Nə vaxta qədər ora-bura
dürtüləcəksən?
Nə vaxt cəhənnəmə itiləcəksən?
Biz elə bil ki sənlə bir meyitin
iki üzüyük.
Ancaq aramızda dərin uçurumlar,
çaylar var.
Nə vaxta qədər çiyinlərində
Cənazə aparacaqsan? -
Sən, ey cənazələr sahibi,
Söylə, nə vaxta qədər?
Sənin özünü heç nə qorxutmur məgər?
Sənin özün qorxmursanmı, israilli əsgər?

MAHMUD DƏRVİŞ

Mahmud Dərviş 1941-ci ildə Fələstinin Akka əyalətinin əl-Berva kəndində anadan olmuşdur. 1948-ci ildə yaşadığı kənd zəbt olunduğu üçün İsrail sərhədləri içinə daxil edilmişdir. Uşaq yaşlarından şeir yazmağa başlamışdır. O, «Əl-Ard» (Torpaq) hərəkatında Fələstinin müstəqilliyi uğrunda mübarizədə fəal iştirak etmişdir. Mahmud Dərviş «Əl-İttihad» qəzeti və «Əl-Cədid» dərgisinin nəşr olunmasında böyük xidmətlər göstərmişdi. Fələstinin İsrail tərəfindən işğalını pisləyən şeirlər yazdığına görə 1970-ci ildə İsraildən sürgün edilmişdir. O, uzun müddət Avropa və Ərəb ölkələrində yaşamışdır. Mahmud Dərviş 1982-ci ildə Sabra-Şatilla düşərgəsində Fələstin qaçqınlarına qarşı soyqırıma etiraz səsini ucaltmışdır və «Beyrud qəsidəsi»ni yazmışdır. O, 1988-ci ildə Fələstin Azadlıq Deklarasiyasının mətnini hazırlamış və beynəlxalq təşkilatlara təqdim etmişdir. 1995-ci ildə Ramallaha köçmüş və burada fəaliyyətini davam etdirməyə başlamışdır. «Zeytun yarpaqları», «Fələstin sevgisi», «Gecənin sonu», «Uzaq bir son baharın xəfif yağışı», «Quşlar ölür Cəlildə», «Sevgilim yuxudan oyanır», «Beyrut qəsidəsi» və s. şeir kitabları çap olunmuşdur. Mahmud Dərviş müxtəlif illərdə Afrika-Asiya yazıçılar birliyinin «Lotos» (1969), Beynəlxalq Lenin Sülh (1983), Uluslararası Nazim Hikmət (2002) və s. mükafatlara layiq görülmüşdür.

QUŞLAR ÖLÜR CƏLİLDƏ

Görüşəcəyik bir az sonramı,
Bir il, iki il sonramı.
Ya da filan-filan ildə -
Bizdən sonrakı nəsildə…
Ayrılıq haqlayanda bizi
Şəkilçəkən aparatla atəş açdın
Cəlil quşlarına.
Göy yamaclara,
Doğum sancısından qovrulan ağaclara.
Baxışların gəzirdi üfüqlərdə
Həqiqətin neçə-neçə çalarını,
Faciənin keçilməmiş yollarını…
Yaş paltar əvəzi
Qanlı dəsmallar asılıb iplərdən.
Qaşlarını çata-çata,
Sən haraya baxırsan, Rita?
Qum kimi döşənirəm sahilinə dənizimin
Ayaqlar altında əzilə-əzilə,
Palma təki ucalıram
Yüksəkliyə çata-çata.
Sən haraya baxırsan, Rita?
Ölümlə vermişəm əl-ələ,
O da solğun, mən də solğun.
Gömrükxana qapılarında görüşürük.
Əl uzadırıq bir-birimizə köhnə dostlar kimi.

Birgə üzürük səyahət gəmimizdə.
Elə bil təzədən doğulmuşuq ikimiz də
Bu məchul dünyada.
Sən haraya baxırsan, Rita?
Nə gəzirsən üfüqlərdə, nə pusursan?
Qapılan önündən küçələr təki uzanardı
Susduğun gecələr,
İndi də susursan.
Sükutun balta kimi kəsir
Yaralıların iniltisini,
Anaların fəryadını.
Avtomatın lüləsilə
Öpüşürəm dodaq-dodağa —
Dənizin pəncəsindən qurtulmuşam,
Nəfəs verir mənə sanki avtomat.
Sənsə qalmısan uzaqlara baxa-baxa
Ölüm səhnəsinə yaxın gəl, yaxın!
Gör bir necə düşür zamanın quyularına
Cəlilin quşları axın-axın…
Tükənibdi artıq səbir -
Mən bir başdaşıyam,
Böyüyür altımdakı qəbir.
Mən qara buludların göz yaşıyam.
Mən bir insanam ki,
Vətən məndə yaşayır.
Qolumu zəncir kəsir —
Bədənimdə zəncir yeri də
Vətənin xəritəsinə oxşayır.

ŞƏXSİ VƏSİQƏ

Yaz!
Mən ərəbəm,
vaxtı ötmüş pasportumun
arxivdəki nömrəsi filan,
səkkiz uşağım var,
doqquzuncusu
doqquz ay, doqquz günü saya-saya
bu il gələcək dünyaya.
Hirslənmə, yaz!
Elə bilmə bu diyarda qəribəm,
mən ərəbəm!
İş yerim daş karxanası,
daşdan çıxardıram
səkkiz uşağımın
çörəyini, paltarını, dəftərini, kitabını.
Dilənçilik eləmirəm,
əl açıb kəsdirmirəm ki, sənin qapını,
bəs niyə hirslisən belə?
Yaz!
Mən ərəbəm,
Ərəbistanda ünvansızam hələ.
Düşmənlərim səksəkədə -
Mən dözümsüz dözüməm
qəzəblə nəfəs alan ölkədə.
Mən torpağa kök atanda
nə sərv ağacı vardı,
nə zeytun ağacı.
Sıfırda dayanmışdı zamanın sayğacı…

Atam əsilzadə deyil,
babam adi fəllah idi,
bilirdi dilini torpağın,
öz işində Allah idi.
Bir evim var
qamışdan hörülüb divarı
iliyimə işləyəndə soyuğu
danışa bilmirəm, susuram.
Sən də hirslənmə barı.
Yaz!
Mən ərəbəm,
saçım kömür rəngində,
gözlərim qəhvəyi,
baxışımda yurdumun gecələri.
Dəyişib adını
Qaldığım şəhərin küçələri.
Çıxıb əlimdən
babamın saldığı meynəlik,
atamın becərdiyi torpaq,
bizə qalan daş oldu, qaya oldu fəqət,
belə deyirlər
onu da gözaltı edib sizin hökumət.
Yəqin ki, razısan taleyin yazısından.
Elə isə
yaz
təzə səhifənin əbasından:
Mən bir məxluqam -
adım İnsan!
Fəqət bir gün
ac qurd kimi gəmirəcəm

insan cildli qəsbkarın ətini,
çıxardacam boğazından dərisini.
Bacarırsa əgər Tanrı
cilovlasın hirsimi.

İNSAN HAQQINDA

Daş basdılar ağzına,
bağladılar əlini.
Millətin dərdi ağır —
Yüklədilər belinə,
sən qatilsən dedilər.

Çörəyini aldılar,
paltarını aldılar,
bayrağını aldılar,
özünü həbs eləyib
zindanlara saldılar,
sən oğrusan dedilər.

Qovdular hara getdi,
əzdilər harda bitdi,
ağır qürbətdə itdi,
sən qaçqınsan dedilər.

Ömrü gödəlib gecənin,
yaşıl işıq yanacaqdır
sonunda bizim küçənin.
Zəncirlər də əriyəcək,

Məhbəsləri zaman özü
bu torpaqdan kürüyəcək.
Neron öldü, sağdır Roma,
gələcək hələ sorağı…
Bir sünbülün neçə dəni
tökülüb dəfn ediləcək,
tarla-tarla bürüyəcək
sünbüllər bizim torpağı.

UZAQ ŞƏHƏRDƏ QƏRİB

Uşaqlıqda qəşəng idim —
böyüyürdüm qızılgüllər arasında,
bulaqlar dənizim idi,
al-əlvandı bütün Aləm
gözlərimin qarasında…

Qızılgüllər yaralandı,
vətən məndən aralandı,
çat-çat olub paralandı
susuz qalan bulaqlarım.

Böyümüşəm, döyüşürəm,
sözüm iti deyişirəm,
görən çoxmu dəyişirəm —
hələ öndə sınaqlarım.

Qızılgüllər sağalanda,
ümidlərim çin olanda,

qucduğum tək sən olanda
tapacağam dincliyimi.

Alnıma bax — gül bağıdır,
bulaq-bulaq tər axıdır,
uşaqlarım hələ sağdır,
qabaqlayıb gəncliyimi.

ATEF ƏL-BUTRUS

BEYRUTUM MƏNİM

Sərab olan arzumdu
Önümdəki qum təpəsi,
Qaçıram, çata bilmirəm,
Təngişdirir yol nəfəsi.
Səfil-səfil dolaşıram,
Vaxt olur ki, yad elləri.
Yorulanda başaltıma
Yığıram əlvan gülləri.
Sakitliyin ağuşunda
Arayıram işıq ucu.
Yenə xəyal, yenə sərab —
Ümidinin qəsri uçur.
Bu tarimar qəlbimmidir,
Ya alovda yanan Beyrut?
Arzu yanır, fikir yanır,
Hünərin var, yanma, unut…
Dönüb çərxi zamanın da,
Dönüb üzü insanın da.
Mən özüm də dəyişmişəm,
Unutmuşam şənlənməyi.
Unutmuşam ətirlənib,
Rəqs eləyib əylənməyi.
Saraylar da, salonlar da,
Otellər də yaddı mənə.

Bu torpaqda doğulmuşam,
Həsrətliyəm bu vətənə.
Dəvə iyli bir ərəbəm,
İncitmirəm heç bir kəsi.
Qulağımdan getmir bir an
Qoyun-quzu mələrtisi.
Qollarımı qulac-qulac
Gələcəyə mən açıram;
Heçə dönən xəyalımın
Arxasınca hey qaçıram.
Lap dördnala çapır atım,
Bax, beləyəm mən, Beyrutum.
Tanı məni, tanı məni,
Görməyəydim belə səni -
Təbəssümlü bir gözəlsən.
Soyundurur səni yadlar.
Ehtiraslı baxışlara
Sinə açsan, bağrım çatlar.
Əfv et məni, can Beyrutum,
Əfv et məni, mənim gülüm;
Sənə belə söyləyəndə
Quruyaydı gərək dilim.
Qılınc qından siyrilidi —
Axtarıram o əğyarı.
Nifrətimin hədəfinə
Düz vuraydı qolum barı.
Yaramdan qan axa-axa,
Sərilirəm bu torpağa -
Nəfəsimə çəkirəm mən
Şəhidlərin nəfəsini.

Dinləyirəm azadlığı
Çöl quşunun nəğməsini.
Yumdum bir an gözlərimi…
Gəlib keçdi aylar, illər,
Gördüm açıb yetimlərin
Gözlərində qərənfillər…
Bərk-bərk qucub torpağı mən
Tablayıram dərdə-qəmə,
Məhəbbətin toxumutək
Vətən dolur ürəyimə —
Cücərtilər baş qaldırır,
Boy göstərir ilk baharım.
Çarələnir, məlhəmlənir,
Köz-köz olmuş yaralarım.
Odlar sönüb güllər olur,
Küllər dönüb güllər olur.
Güllər gülür küçələrin,
Divarların yaxasında.
Büsat açır, məclis qurur
Quşlar da öz bağçasında.
Sevincindən selə dönür
Göylərin də göz yaşları;
Təmizləyir şəhərimdən
Çirkabları, dərd-azarı.
Alqışlayır millətimiz
Bu zəfəri, ehtişamı —
Yerdə qalmır sevgilimin —
Beyrutumun intiqamı.

TACİK ƏDƏBİYYATI

- ƏBÜLQASİM LAHUTİ
- SƏDRƏDDİN AYNİ
- ƏBDÜCABBAR QƏHHARİ
- MİRZƏ TURSUNZADƏ
- LAYİQ ŞİRƏLİ
- MİRSƏİD MİRŞƏKƏR
- BASİR RASO
- GÜLRÜXSOR SƏFİYEVA



ƏBÜLQASİM LAHUTİ

Keşməkeşli həyat yolu keçmiş inqilabçı şair Əbülqasım Lahuti 1887-ci ildə İranın Kirmanşah şəhərində çəkməçi ailəsində anadan olmuşdur. Onun şeir yazmasında «İlhami» təxəllüsü ilə tanınan şair atasının böyük təsiri olmuşdur. Lahuti şeir yazmağa 1903-cü ildən başlasa da, əsərlərinin çapı 1907-1908-ci illərə təsadüf edir. O, 1905-1911-ci illər Məşrutə inqilabının məğlubiyyətindən sonra edam cəzasına məhkum edildiyindən Bağdada qaçmışdır. Lahuti 1915-ci ildə yenidən İrana qayıtmış və 1920-1922-ci illər milli-demokratik hərəkatı zamanı Təbriz üsyanına başçılıq etmişdir. Demokratik qüvvələrin məğlubiyyəti onu gizli yolla Sovet İttifaqına keçməyə məcbur etmişdir. O, əvvəlcə Moskvada yaşamış, sonralar isə öz arzusu ilə Tacikistanda məskunlaşmışdır. Tacik ədəbiyyatında siyasi lirikanın gözəl nümunələrini yaratmışdır. «Tac və bayraq», «Firəngistana səyahət», «Bəxt pərisi», «Üç damla», «Mərdistan» və s. poemaları, «Dəmirçi Gavə» və s. dramları Lahuti yaradıcılığının əsas istiqamətlərini müəyyənləşdirməkdə əhəmiyyətli nümunələrdir. Tacikistan SSR-nin himninin mətnini Lahuti yazmışdır. Lahuti tərcümə sahəsində də uğurlar qazanmışdır. Şekspirdən, Qriboyedovdan, Puşkindən, Şevçenkodan, Mayakovskidən və başqa sənətkarlardan etdiyi tərcümələr onun mütərcimlik fəaliyyətinin gözəl nümunələridir.

Əbülqasim Lahuti 1957-ci ildə vəfat etmişdir.

HİCAZİ YOLDAŞIN ÖLÜMÜ HAQQINDA

I

Bu gün əsir olan, ey sadə fəhlə,
Sabah öz yurdunda azad olanda,
Qığılcım qoparan çəkicin ilə
Səltənət qəsrinə zərbə çalanda,
Elmlə, biliklə, hiss, həyəcanla
Daha yaraşıqlı dünya quranda,
Nəğməylə, hörmətlə, işlə, vicdanla
Şəhid yoldaşını düşün İranda!
Bir ovuc ağanın mənfəətiyçün
Düşmən, Hicazini keçirdi ələ.
O öz sinifinin səadətiyçün
Başı uca getdi ölümə belə.
Sən də, kəndli qardaş, dinlə bu axşam,
Nə zaman dodağın sevinclə dindi,
Düyümlənmiş bəxtin açıldı tamam,
Gecən şəfəq dolu gündüzə döndü,
Gavahın yerinə doğma diyarda
Nəfəsi alovlu traktor aldın,
Gülləri sayrışan gözəl baharda
Bərabər yaşadı kişiylə qadın.
Mənim xatirimçün, öz xatirinçün
Yoldaş Hicazini xatirinə sal!
O azadlıq dedi... Əfsus ki, bir gün
Ömrü paymal oldu, köynəyi də al...

II

Bəli! Gün gələcək, İranda, şəksiz,
İnsanlar döyüşdə sınanacaqdır!
Ağasız, əyansız, darğasız, bəysiz
Təptəzə bir dünya yaranacaqdır!
Ürfanın məşəli yandığı çağda
Nadanlar qalxacaq, gün doğur, deyə.
Kəndli, azad kəndli nə bircə buğda,
Nə də bircə arpa verəcək bəyə...
Onda, boz dağlardan qalxacaq sis də,
Qonaqlar gələcək hər yandan sizə.
Ölməz Hicazinin məzarı üstə
Əklillər qoyacaq həm tər, həm təzə.

LAYLAY

Gözlərimin nurusan,
Ömrümün qururusan!
Çöl, çəmən, dəniz, orman,
Quş, balıq, pələng, aslan
Yatır...
Gəlmir hay, laylay,
Laylay balam, ay laylay!

Təkcə çaylar dillənir,
Həm axır, həm lillənir...
Səni yatırsın deyə,
Səs salıb yerə, göyə
Laylay çalır çay, laylay;
Laylay balam, ay laylay!
Körpəm uyusun rahat...

Həm kədərsiz, həm azad.
Yuxuda görsün axşam
Oyuncaqları tamam...
Bədirlənir ay, laylay;
Laylay balam, ay laylay!

Yat! Yuxuda gülü gör.
Sevdalı bülbülü gör.
Sünbülü də gör, bala,
Könülü də gör , bala!
Yox könülə tay, laylay;
Laylay balam, ay laylay!

Sabah səni öz anan
Yuyundursun mehriban...
Saçlarını darasın,
Səndə sevinc arasın...
Sən də şəfəq yay, laylay,
Laylay balam, ay laylay!
Sən böyü yaşa tez dol!
Vətəndə qəhrəman ol!
İndi təbəssüm ilə
Şirin – şirin yat hələ,
Sən yuxudan doy, laylay,
Laylay balam, ay laylay!

AZƏRBAYCANIN SƏSİ

Azərbaycan! Təranən səslənir qulağımda,
Mahnılar diyarısan dünyanın qucağında.
İndi sənin sazının başqa nəvası vardır,
Hər incə pərdəsində dostluq havası vardır.
Sənin mərd övladların sülh sevər qəhrəmandır,
Hərb odunu söndürən dalğalı bir ümmandır.
Səmədlə görüşəndə, Rahimlə görüşəndə,
Qanadlandı xəyalım al bayraqlı Vətəndə...
Dilbazi bir şeirlə min könülü ovladı...,
Dərdi də, qüssəni də, nisgili də qovladı...
Azərbaycan! Təranən səslənir qulağımda,
Mahnılar diyarısan dünyanın qucağında!

GÖRDÜM

Getdim o günü qönçeyi – dildarımı gördüm,
Min canlar alan yarü vəfadarımı gördüm.

Yolda yorulub az qala əldən düşəcəkdim,
Haldan – hala keçdim elə ki, xalını gördüm.

Sanki bədənim bir yük idi canımın üstə,
Gəldim özümə, sanki öz iqbalımı gördüm.

Baxdım gözünə, bir təzə gültək təzələndim,
Yandı ciyərim, eşqi – sitəmkarımı gördüm.

Bir gün kimi parlaqdı, yanırdı od içində,
Mərmər sinəsində o qoşa narını gördüm.

Sərxoş dəvəyə döndüm onu qəmzələrindən,
Atdı cilovun, bağladı qollarımı —gördüm.

Qızmar yay idi, hər tərəfə od ələnirdi,
Mən güllü, çiçəkli təzə gülzarımı gördüm.

O aydı, günəşdi neçə min ulduz içində,
Göylərdə yanan şöləli ayparamı gördüm.

Min mehri – məhəbbətlə mənə baxdı, utandım,
Öz dərdimi, dərmanımı, öz çarəmi gördüm.

Döndüm evə, mən ol gecəni yatmadım əsla,
Yatmaq nə idi, mən o gözü qaramı gördüm.

* * *

DƏLİ KÖNLÜMÜ VİRANƏ ETDİN

Dəli könlümü viranə etdin,
Yaxıb, yandırıb büryanə etdin.

Bizim bu eşqi saldın dillərə,
Onu bir böyük əfsanə etdin.
Yandım şam kimi şölə saçaraq,
Məni özünə pərvanə etdin.

Sənsiz yuvasız quş kimiyəm, gəl,
Bəlkə sən mənə bir xanə etdin.

Desən, sadağa verrəm canımı,
Nə zülmün varsa bu canə etdin.

Daşlara çırpar könlüm özünü,
Son onu axır divanə etdin.

SÜLHSEVƏRLƏR MARŞI

Haçanacan hərbin odu
Bu dünyanı yandıracaq?
Haçanacan al qanlara
Qərq olacaq böyük, uşaq?
Sülh istəyir bütün xilqət,
Bütün aləm, bütün bəşər,
Yer üzünə sülh gərəkdir,
Ey millətlər, ey ölkələr.

Biz dünyanın adamları
Bir torpaqda yaşayırıq,
Yol çəkirik, ev tikirik,
Min – min qayğı daşıyırıq,
Gəlin, birgə fərman verək
Hər bir qətlə, məşəqqətə,
Həyat dönsün bir sevincə,
Torpaq dönsün bir cənnətə.

Hər tərəfə şölə saçsın
Qoy dostluğun məşəlləri,
Çiçək açsın insanların
Arzuları, əməlləri,
Gəlin, xalqlar, qəbilələr,
Bir – birinə duraq yaxın,

Gücümüzlə qanlı hərbin
Yollarını bağlayağın.

Biz dünyanın adamları
Bir torpaqda yaşayırıq,
Yol çəkirik, ev tikirik,
Min – min qayğı daşıyırıq.
Gəlin, birgə fərman verək
Hər bir qətlə, məşəqqətə,
Həyat dönsün bir sevincə,
Torpaq dönsün bir cənnətə.

Sülh istəyir böyük, kiçik,
Sülh istəyir yaxın, uzaq,
Sülh uğrunda döyüş gedir,
Bəşəriyyət, ayağa qalx!
Həyat deyə çarpışırıq,
İnsan deyə döyüşürük,
Əlimizdə sülh bayrağı
İrəliyə yürüşürük.

Biz dünyanın adamları
Bir torpaqda yaşayırıq,
Yol çəkirik, ev tikirik,
Min – min qayğı daşıyırıq,
Gəlin, birgə fərman verək
Hər bir qətlə, məşəqqətə,
Həyat dönsün bir sevincə,
Torpaq dönsün bir cənnətə.

DÖRDLÜKLƏR

Uzağa düşmərəm ondan bircə an,
Surəti həmişə ürəyimdədir,
Fikri gecə – gündüz çıxmaz başımdan,
Adı dilimdədir, diləyimdədir.

Tələşım, zəhmətim, dayanma, çoxal,
Elə istəyirəm hünər göstərəm.
Tək mənim adımı eşitsin o yar,
Bəlkə alqış deyə mənə o sənəm.

O pak eşqi ilə aşıb – daşıram.
Onsuz geniş dünya gəlir dar mənə.
Ona gecə – gündüz nəğmə qoşuram,
Canımdan əzizdir o dildar mənə.

Onu sədaqətin rəmzi sanıram,
Dönməz vəfası var, etibarı var,
Onun əzabından rahatlanıram,
Xoşbəxtdir kimin ki, belə yarı var.

Onsuz dəli ollam, divanə ollam,
Kaş bir şerim gəlsin xoşuna onun.
Şam olsa mən ona pərvanə ollam,
Dönnəm gecə – gündüz başına onun.

Gəl, mənim taleyim, arzum, niyyətim,
Səpim yollarına gülü, çiçəyi,
Gəl, tut əllərimdən, artsın qüvvətim,
İstəkli, əzizim, yarım, mələyim.

SƏDRƏDDİN AYNİ

Sədrəddin Ayni 1878-ci ildə Özbəkistanın Gicduvan qəsəbəsində kəndli ailəsində anadan olmuşdur. Ata-anası 1890-cı ildə vəba xəstəliyindən vəfat etmişdir. S.Ayni ağır maddi ehtiyacla üzləşsə də Buxaraya gedərək mədrəsədə təhsil almışdır. O, XIX əsrin 90-cı illərindən bədii yaradıcılığa başlamış və ilk əsərlərini Suflu, Möhtaci və Cununi təxəllüsləri ilə qələmə almışdır. S.Ayni Buxarada Əmir hakimiyyətinə qarşı ixtişaşlarda iştirakına görə 1917-ci ildə həbs edilmişdir. Lakin Buxara Əmirinin devrilməsi nəticəsində S.Ayni azadlığa çıxmışdır. Özbəkistan və Tacikistanda Sovet hakimiyyəti qurulduqdan sonra onun ictimai-siyasi fəaliyyət dairəsi xeyli genişlənmişdir. S.Ayni daha çox alim və yazıçı kimi uğur qazanmışdır. Onun tacik dilində 15, özbək dilində 8, rus dilində isə 6 cildlik əsərləri çap olunmuşdur. O, «Buxara cəlladları», «Odina», «Qullar» və s. kimi iri həcmli nəsr əsərlərinin, çoxsaylı poema və şeirlərin, Rudəki, Firdovsi, İbn Sina, Sədi, Nəvai və s. klassiklər haqqında dəyərli monoqrafiyaların müəllifidir. S.Ayni 1949-cu ildə Leninqrad Dövlət Universitetinin elmi şurasının qərarı ilə müdafiəsiz olaraq filologiya elmləri doktoru adına layiq görülmüşdür. 1951-ci ildə yenicə təşkil olunmuş Tacikistan Elmlər Akademiyasının ilk prezidenti seçilmişdir. Xidmətlərinə görə Dövlət mükafatına, Lenin ordeninə və digər fəxri adlara layiq görülmüşdür.

Sədrəddin Ayni 1954-cü ildə vəfat etmişdir.

NƏ VAXTACAN?

Nə vaxtacan o saçlara dönüb heyran olacaqsan,
könlüm mənim?
Nə vaxtacan, de, o yaqut dodaqlara
baxıb al qan olacaqsan,
könlüm mənim?
Nə vaxtacan vəfasıza belə heyran olacaqsan,
könlüm mənim?
Nə vaxtacan bu hicrandan uçub viran olacaqsan,
könlüm mənim?
Nə vaxtacan göz yaşların yağış olub yağacaqdır?
Nə vaxtacan bu tənhalıq səni oda yaxacaqdır?
Nə vaxtacan bu ayrılıq varlığını sıxacaqdır?
Nə vaxtacan biganəyə baxıb peşman olacaqsan,
könlüm mənim?
Nə vaxtacan ayağını qanadacaq bu tikanlar?
Nə vaxtacan bitməyəcək bu həsrətlər, bu hicranlar?
Nə vaxtacan odlayacaq, söylə, səni ah – fəğanlar?
Nə vaxtacan yanıb, yanıb belə giryan olacaqsan,
könlüm mənim?
Nə vaxtacan xiffət edib göz yaşını siləcəksən?
Nə vaxtacan məhrumiyyət zəncirində öləcəksən?
Nə vaxt girib döyüşlərə azad olub güləcəksən?
Mübarizə vaxtı çatıb, nə vaxt üsyan olacaqsan,
könlüm mənim?

ƏBDÜCABBAR QƏHHARİ

Əbdücabbar Qəhhari 1924-cü ildə Tacikistanın Kanu Badam şəhərində anadan olmuşdur. O, Düşənbə Pedaqoji İnstitutunu bitirmişdir. Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur. 1942-ci ildə tamaşaya qoyulmuş «Gənc qəhrəman» pyesi onun ilk əsəridir. Əbdücabbar Qəhharinin poema, şeir və dramlarından ibarət «Taleyin nəğməsi», «İlham», «Ölüm gecəsi», «Dostluq tərənələri», «Səadət mahnıları», «Qonaqla söhbət», «Oğlan dünyanı görür», «Sevinc mahnısı» və s. kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Onun əsərlərinin müəyyən qismi rus, özbək, Azərbaycan, ukrayna, qazax və s. dillərinə tərcümə edilmişdir.

GÜL VƏ GÜLSATAN

Gül – iyləmək üçün, görmək üçündür,
Sanma yolmaq üçün, dərmək üçündür.
(El sözü)

Sübhün məclisinə tələsir günəş,
Gül-lalə sayrışan ilk bahar çağı...
Şəbnəmlə yuyunub, gözəlləşib gül, –
Ətrinə qərq edib bağçanı, bağı.

* * *

Səhər açılanda gəldi gülsatan,
Açılmış ətirli güllərə baxdı.
Qayçını vurduqca gülə, yarpağa,
Gülün göz yaşları torpağı yaxdı.

* * *

Satmağa apardı gülü bazara,
Gülün rəngi qaçdı, yoldaca soldu.
Dəstə tutan əli boyandı qana,
Hər tikan bir cərrah neştəri oldu.

* * *

Əldən ələ keçdi, soldu, saraldı,
Tapdaq olmaq üçün yerə atıldı,
İnsan tamahına qurban oldu gül,
Əklil tək, çələng tək pula satıldı.

* * *

Gülüş öyrətmişdi gülümsər günəş,
Soldu, həşəm oldu üstündə yarpaq.
Zərif vücuduna dan şəfəqindən
Bir köynək tikmişdi bu ana torpaq.

* * *

Sərt külək istədi havadar dura,
Ayaqlar altına atılan gülə.
Şimşək nalə çəkdi, bulud ağladı,
Qara torpaqlara qatılan gülə.

* * *

Xəzri götürərək o həşəm gülü,
Aparıb gizlədi əmin yerdəcə.
İnsafla, mürvətlə, sonsuz şəfqətlə,
Torpağa tapşırdı həmin yerdəcə.

* * *

Heyf o gülə ki, səhər çağında
Dünyanın bağında xoş ətir saçdı,
Əfsus ki, gülsatan əlinə düşdü,
Qönçə dodağını açdı, nə açdı.

* * *

Əbəs açılmadı qönçə dodağı,
Sevən aşiqlərə nə dedi görək:
«Şirin ömür ani olsa da əgər,
Sevib-sevilərək yaşamaq gərək».

MİRZƏ TURSUNZADƏ

Mirzə Tursunzadə 1911-ci ildə Tacikistan Respublikası Reqar rayonunun (indiki Tursunzadə şəhəri) Qaradağ kəndində dülgər ailəsində anadan olmuşdur. 1929-cu ildə ədəbiyyata nasir kimi gəlmişdir. M.Tursunzadənin «Qələbə bayrağı» adlı ilk kitabı 1932-ci ildə çapdan çıxmışdır. 1936-cı ildə o, Dehoti ilə birlikdə «Xosrov və Şirin» adlı mənzum dram yazmışdır. «Bahar və payız» adlı ilk poemasını 1937-ci ildə qələmə almışdır. Tursunzadə 2-ci şeirlər kitabını 1939-cu ildə çap etdirmişdir.

Böyük Vətən müharibəsi illərində xalqlar dostluğu mövzusunda «Vətən oğlu» poemasını yazmışdır. M.Tursunzadə 1947-ci ildə Hindistana getmişdir. Hindistan səyahəti ona yeni əsərlər yazmaq üçün çoxlu mövzular vermişdir. «Qanq», «Tara-Çandri», «Hindistan balladası», «Bombeydə hər cür bağ» və s. şeirləri Hindistan təəssüratları əsasında yazılmışdır. M.Tursunzadə «Arabaçı Həsən» poeması, «Tahir və Zöhrə», «Gəlin» dramları və digər janrlarda yazdığı əsərləri ilə tacik ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

Mirzə Tursunzadə 1977-ci ildə vəfat etmişdir. Onun yaradıcılıq fəaliyyəti qiymətləndirilərək Sosialist Əməyi Qəhrəmanı adına, Nehru adına Beynəlxalq və SSRİ Dövlət mükafatlarına layiq görülmüşdür. O, Tacikistan SSR EA-nın həqiqi üzvü seçilmiş, uzun müddət Asiya və Afrika ölkələri Həmrəylik Komitəsinə və Tacikistan Yazıçılar İttifaqına rəhbərlik etmişdir.

QANQ

Kəhkəşanmı, səma boyu
O ağaran
qaranlıqda?
Yoxsa paslı qılıncmıdır
Düşüb qalmış
nəm torpaqda?
Xeyr, o nə yerə enmiş
ulduzların qatarıdır,
Nə də ki, bir paslı qılınc...
o aylı Qanq sularıdır!
Siz ey ağır xəyallarla
nəfəs alıb axan sular,
Deyin qəzəblə çırpınan
qəlbinizdə nə məna var?
Sirli, ağır bir sükutu,
qara lili, dumanları
Okeana tərəf çəkir
dalğanızın karvanları.
Ey Hindistan torpağını başdan – başa dolaşan çay,
Süfrələrə bəxş eləyən hər nemətdən, meyvədən pay.
Şan – şöhrəti hər obada, hər ağızda dastan olan,
Ey bir adı milyon qəlbdə əbədilik yuva salan,

O nədir ki, ağırlığı üstünüzə yük salmışdır?
Karvanınız yorğun – yorğun okeana yol almışdır.
Nə olmuşdur, ey coşqun Qanq, həm sən, həm də
Dostun Camno[1]
Axırsınız yavaş – yavaş, heç bilmədən hansı yana.
Rəngi tutqun lilli sular
sanki bürünmüş tüstüyə,
Hər yanına qapqara bir kölgə çökmüş bilməm niyə?
Ölülərin küllərini qohumları edib ehsan
Bəlkə sənə tullamışlar?.. Onunçün də bulanmısan.
Qismətin də buymuş sənin:
Olub indi rahat beşik,
Nəsillərin küllərini gəzdirirsən əbədilik.
Odur küllər axıb gedir, gözdən itir uzaqlarda,
Yalnız qalır anaların həzin səsi qulaqlarda.
Səssiz qəzəb çökür bu dəm tutqun sular üzərinə.
Dalğaları ağır – ağır
o, dənizə çəkir yenə...
Nəhayətsiz, sərt yolları o piyada gedən yolçu
Bir kölgədə dincələrsə ağır olar onun suçu.
Nə haqqı var palmaların altında o,
yatsın rahat,
Heç olmasa yuxusunda
mahnı deyib açsın qanat;
Nə haqqı var
bilsin neçin vüqarlıdır əcnəbilər,
Nə haqqı var pəncərədən içəriyə salsın nəzər.
Zavallı Qanq!

---

[1] *Qanq çayının bir qolu*

Səndən içən bəxti qara insanlartək
Zəncirlisən...
Acı – acı qamçı çəkir sənə külək.
Çox ölkədən, çox obadan axıb gəlir çaylar sənə,
Şaxələnmiş damar kimi qan axıdır ürəyinə.
Sən şahidsən
Bu ellərin birliyi ki, lap əzəldir
Bütöv qəlbi parçalayan hansı əməl, hansı əldir...
Sanma sübhdən, ya günorta,
Xeyr, zülmət çəkən zaman,
Yadlar gecə oğru kimi
Körpüyə yük tökən zaman,
Mən o yerdə eşitmişəm
Suların da naləsini,
Bu ölkənin ağır – ağır gedib – gələn nəfəsini.
Üzülməyir bu körpüdən
Belə sakit gedən karvan.
Əksilməyir bu inilti
Quşların da mahnısından.
Bir tərəfdə məzlum – məzlum
Baxanların hıçqırtısı,
Bir tərəfdə uzaqlaşan qatarların qışqırtısı.
Yad, okean gəmiləri bağ – bağatdan tutur yükün.
Bunlar gedir...
Yük daşınır
İndi başqa karvan üçün.
Qəmlənirsən,
Baxışınla yola salıb karvanları...
Aparırlar ürəyini...
Talan olur elin varı.

Aparırlar daş – qaşını
Taxılını, çayını da.
Döşü südsüz anaların,
körpələrin payını da.
Ey Qanq çayı,
Sən ey zülmət içindəki göz yaşları!
Yorğun – yorğun yetər axdın okeana,
Qərbə sarı;
Söylə, bu gur sularının qüdrətini itirmədən
Hücum çəkib
Kükrəmirsən
Okeana qarşı nədən!

TARA – ÇANDRİ

Deyirlər ki, möminlərin
qarşısında bahar – qış,
Uzun müddət şair Bedil[1]
hiylə qurub yaşamış...
Tərifini, təhqirini
anlamayan mollalar
Zənn etmişlər onu daim
bir müqəddəs ixtiyar.
O rəqqasə Madanayla,[2]
şirin dilli Komdeni[3]
Tərənnümdən doymamışdır
gəzib bağı – çəməni.

---

[1] *Orta Asiyadan çıxmış mütəfəkkir – şairdir, tacik dilində şeirlər yazmışdır. Məşhur «Ürfan» poemasının müəllifidir.*
[2] *«Ürfan» poemasının qəhrəmanı*
[3] *«Ürfan» poemasının qəhrəmanı*

Onun şair xəyalına
vermiş daim qol – qanad,
Hindlilərə, taciklərə
doğma olan bu cüt ad.
Məhəbbətə, əqlə yoxdur
o demişdir bir əvəz.
Şair Bedil olmuş bəli
doğrudan da müqəddəs...
Söylə varmı Madanadan,
de, Komdedən xəbərin
Tara – Çandri,
Tara – Çandri,
rəqqasəsi bu əsrin!
Zər içində cingiltili
bir ox kimi süzürsən,
Baxışınla baxanların
ürəyini üzürsən.
Əlvan tovuz lələyinə
bürünmüşsüz de nədən
Min rəng çalan nur içində
dünən Komde, bu gün sən?!
Yox, şöləsi səndən azdır
Madananın, Komdenin.
Tara – Çandri,
Tara – Çandri,
sehribazı bu əsrin!
Şair Hafiz kəlamilə
qalmış dildə, ağızda.
Ömür sürmüş o qızıl gül
səltənəti – Şirazda.

Yalan, kələk bilməmişdir,
yaşamışdır vüqarla.
Taciklərə arxalanmış,
böyük bir iftixarla,
Dalıb hüsnün mənasına
olan zaman biqərar,
Səfil demiş, sərxoş demiş,
ona mömin adamlar.
«Aləm bilir dəyişmərəm
üzündəki bir xalını.
Mənə təklif eləsələr
Səmərqəndi, Buxaranı».
Hüsnə məftun olan Hafiz
bu sözləri deyəndə,
Sanki həmin qara xalı
görmüş elə o səndə.
Sənin çatma qaşlarının
arasında həmin xal
Nəzərlərə toxunduqca
salır yeni qiylü – qal.
Mən də görüşdüm sənilə
qalmadı qəlbin tabı.
Tara – Çandri,
Tara – Çandri,
ey Hindistan məhtabı.

* * *

Qəlb möhnəti Hind qadını
çöhrəsində oynayır.

Qiymətli bir tacda sanki
qara almas parlayır.
Qara aytək şəfəq saçıb
çatma qaşlar tağında,
Hafizin vəsf etdiyi xal
durur göz qabağında!
Uçub gəldim sənin məhkum
vətəninə bu gün mən,
Ürəyimə munis olan
azad tacik elindən.
Sənin qadir sənətinə
heyran oldum doğrusu.
El ruhundan gələn səsin
yox sualı – sorğusu!...
Oyna, tiyətək parlayıb
dərdlərimi unutdur.
Özün şimşək, qıvrım saçın
dalğalanan bulutdur.
Həm ildırım, həm nizəsən,
həm külək, həm dalğasan,
Həm də azadlıq şəfəqi...
bilmə bu haqqı asan!
Erkən gəlmiş qonağam mən
bir işıqlı diyardan.
Dinlə məni:
kam almaqçün azadlıqdan, bahardan
Sarsıtmasın iradəni
töhmətlərin acısı,
Tara – Çandri,
Tara – Çandri,
ey sərt illər bacısı!

BOMBEY BAĞLARI

Yoxdur heç bir boyaqçıda
bu sularda olan göy rəng.
Ruhu oxşar hansı behişt
gözəl Bombey bağlarıtək?!.
Zəriflikdə qız yanağı
yox, yox layiq deyil yenə
Ağacların lacivərdi sularda əks etməsinə...

* * *

Görünəndə qəmli üzlər
sıx yarpaqlar arasından,
Coşğun könül nəğmə olub
uçmaq istər yuvasından!
Yarpaqlardan toxunmuşdur
burda canlı mənzərələr:
Əfsanəvi yırtıcılar
göy məbədlər, fəvvarələr.
Burda iki ağaclıq var,
iki cənnət misallı bağ...
Hansı gerçək olduğunu
ayırd etmək olmur ancaq!
Qurudakı çox ucadır...
sudakını sarmış ələm.
Qaraqabaq bir kreyser
körfəzə yan alır bu dəm.
O sındırır, pozur tamam
Bağdakı bu mənzərəni.
Heyran etmir bağın hüsnü
o gəmini göndərəni...

Bu dözülməz ağır təhqir
«mərhəmətdir» uzaq qərbdən
Bu «mərhəmət» həqiqətdir
əməlini görürəm mən.
Kimin haqqı çatar etsin
mühakimə o iblisi...
Min il keçsə xatirindən
Hindli silməz ingilisi.
Amerika bayraq sancmış bura.
hindi bilib fəqir.
Bundan ağır, bundan kobud
Ola bilməz özgə təhqir!

VƏTƏNƏ QAYIDARKƏN

Uzaq ellər səfərindən geri dönərkən
Öpdüm vətən torpağını dönə – dönə mən.
Hindistandan ayrıldığım bu az müddətdə
Vətən sözü düşməmişdir bir an dilimdən.

Almış məni ağuşuna yenə bu ellər,
Qayıtmışam ürəyimdə təzə nəğmələr.
Təmiz vətən havasını uduram, dostlar,
Yenə: «Məndən gəl iç!» – deyir şəffaf çeşmələr.

Mən xoşbəxtəm... rahat qoymur qəlbimi ancaq
O millət ki, öz yurdunda olmuş oyuncaq.
Bilirəm ki, ürək sözüm hind ellərinə
Bu mahnımın qanadında, gedib çatacaq.

Uç ey mahnım, Hindistanda səba kimi əs,
Dəyib yanan dodaqlara buzu et əvəz.
Qoy ayıltsın yatanları haqqın nəfəsi,
Uca dağlar həqiqətə səd çəkə bilməz!

DAHA NƏ İSTƏYİRSƏN?

Hökmünə baş əyirəm, daha nə istəyirsən?
Şəninə söz deyirəm, daha nə istəyirsən?
Ömrümün baharında, ömrümün xəzanında
Tək səni səsləyirəm… daha nə istəyirsən?

Yəqin ki, sən bilirsən, qul həmişə qul olmaz,
Əsarətdə ömürlük yanıb, yanıb kül olmaz.
Qırar qandallarını, azadlığa can atar,
Dağ çayıtək daş yıxan, qaya sökən sel olmaz!

Nə yaxşı ki, əzizim, o qullardan deyiləm,
Sənsiz yaşamaqdansa, qoy yandırsın məni qəm.
İstəsən kül olaram, istəsən gül açaram,
Axı, nəyimə gərək sənsiz mənə bu aləm?

Tək sənsən göz önümdə, daha nə istəyirsən?
Sən səsimdə, ünümdə… daha nə istəyirsən?
Hər sevənin qəlbində bir eşq çiçəyi bitir,
Sən bitmisən könlümdə.. daha nə istəyirsən?

LAYİQ ŞİRƏLİ

Layiq Şirəli 1941-ci ildə Tacikistan Respublikasının keçmiş Leninabad vilayətinin Məzari Şərif kəndində anadan olmuşdur. 1961-ci ildə Düşənbə Pedaqoji İnstitutunu bitirmişdir. Yaradıcılığa 1960-cı ildə başlamışdır. «İlham», «Sağlıq», «Ürək yanğısı», «Dan təbəssümü» və s. kitabları işıq üzü görmüşdür. Layiq Şirəli tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. O, Puşkindən, Yesenindən, H.Heynedən, Yevtuşenkodan və s. sənətkarlardan tərcümələr etmişdir.

RUDƏKİ

Kor idimi,
Görürdümü Rudəki —
Mübahisə davam edir hələ ki.
Neçə alim baş qoşacaq bu işə,
Nəyə gərək bu tədqiqat, bu hesab?
Müəmmalı suallara düz cavab
Şairin öz şeiri olub həmişə.
Böyük ustad kor olubdu kor üçün —
Ağlı olan bunu yaxşı bilir ki.
Gözü ilə, könlü ilə görənçün
Gözlərinin bəbəyidir Rudəki.

ÇAYIN NƏĞMƏSİ

Xəyala dalaydım çay sahilində,
Ötən günlərimdən xəbər varmıdır?
Su üstə çilənən qırçın ləpələr
Alnıma düzülən qırışlarmıdır?

O çaydan şairlik öyrənəydim mən,
Ən gözəl şeirdir suların səsi.
Savadsız olsa da, dilsiz olsa da,
Şirindir, duzludur hər əfsanəsi.

Dağ nəhri öyrədər — dəliqanlılıq,
Nəşəli coşğunluq, vüqar, şıltaqlıq.
Qopur sinəsindən ölməz şeirlər,
Nə lovğalıq bilir, nə də yaltaqlıq.

Coşğun ləpələrtək öpür sahili,
O da şair kimi susmaq bilməyir.
Dinləyim sulardan yüksələn səsi,
«Qəm yemə, bu dünya sonsuzdur» deyir.

Batır qızıl günəş yenə, a dostlar,
Çayın sahilində xəyala dalım.
Başımdan keçəni deyim sulara,
Ötüşən günümü qoy yola salım.

O çay baş götürüb gedir aramsız,
Ayağı bilməyir yorulmaq nədir.
Qəm, sevinc sahili arasındadır,
Daim bu nəğmə də öz dilindədir.

Qəm, sevinc bəzəyir ki sahili,
Mən çayam, həmişə gərək axam mən.
İki sahil yoxsa, mən necə çayam?
İki sahil yoxsa, demək, yoxam mən.

MİRSƏİD MİRŞƏKƏR

Mirsəid Mirşəkər 1912-ci ildə Tacikistan Respublikası Dağlıq Bədəxşan vilayətinin Sindev kəndində kəndli ailəsində anadan olmuşdur. Sənətə 1930-cu ildə gəlmişdir. «Qələbə bayrağı» adlı ilk kitabı 1934-cü ildə çap olunmuşdur. «Qızıl qışlaq» və «Boyun əyməyən Pyanc» əsərlərinə görə Mirsəid Mirşəkərə 1950-ci ildə Dövlət Mükafatı verilmişdir. O, tacik ədəbiyyatında təkcə şair yox, həm də dramaturq kimi tanınmışdır. «Qızıl qışlaq», «Taşbay və Gülqurban», «Məhəbbət müəllimi», «Osmanovun faciəsi» və s. dram əsərləri ilə müasir tacik dramaturgiyasının inkişafında böyük rol oynamışdır.

SİZİNLƏ TANIŞAM

Ey Hisar dağları, Şuğnam dağları,
Sizi ömrüm boyu unutmaram mən.
Tanışam, doğmayam sizə sizintək
Gözümü dünyaya açdığım gündən.

Gecələr ağlardım canım dişimdə,
Kövrəlib ağlardız siz ikiniz də.
Gündüz sevinərdim, gündüz gülərdim,
Qoşulub gülərdiz mənimlə siz də.

Çobanlıq eləyib tütək çalanda
Siz də asta-asta ney çalardınız.
Əlimə, qoluma güc, qüvvət verib
Dağı çapardınız, yol salardınız.

Ey Hisar dağları, Şuğnam dağları,
Qəlbimdən, sinəmdən qopan nəğməsiz.
Mənim gəncliyimi, cavanlığımı
Necə var, eləcə yaşadınız siz.

Niyyəti qaranlıq, əli silahlı
Vətənə şığıyan ordu gördünüz.
Xalqını, elini qorumaq üçün
Düşmənə, yağıya sinə gərdiniz.

Ey Hisar dağları, Şuğnam dağları,
Mən sizi görməyə gəldim yenidən.
Düşürəm bu dəfə ayağınıza,
Vəfalı oğultək baş əyirəm mən.

İLHAM MƏNBƏYİM

Sən, ey mənim taleyimə naxış çayım,
Ey qüdrətim, ey nemətim, Vəxş çayım!
Sənsən mənə ilham verən, güc gətirən,
Sən dinirsən, dodağımda nəğmə dinir.
Vəxş desəm, ürəyimdə sellər coşur,
Misralarım ətir saçır, nəğmələrim çiçəklənir.
Xəyalımda ötən günlər acı, şirin,
Hamısı da çeşmə kimi sənə bağlı.
Bu dünyada ilk sevgimiz sən olmusan,
Sahilinə bağlanıbdı cavanlığım.
Seyr etdikdə sənin yeni gəncliyini,
Ürəyimdə iftixarım aşıb daşır.
Sənin şıltaq dalğaların elə bil ki,
Ürəyimin sevinciylə qucaqlaşır.
Coş, dalğalan, vurğunuyam bu halının,
Sellərinin qəzəbindən xoşum gəlir!
Vətənimin torpağına çiçək səpdin,
Bu məhsuldar, bu səpindən xoşum gəlir.
Həyat nədir, lal-dinməzcə ötüb keçə,
Nəğmələrim dalğaların dilindədir.
Taciklərin şöhrətisən, Vəxş çayı!
Həyat sənin suyundadır, selindədir!

BASİR RASO

NƏĞMƏ

Ey çay, lap sənin kimi
Ey dağ, lap sənin kimi
Mən də tacik torpağında doğuldum.
Razılaş ki, ey çay,
Razılaş ki, ey dağ,
Bəlkə bir az köntöydü mənim bu arzum,
Bəlkə də lap gülüncdü.
Bağışla ki, ey çay,
Bağışla ki, ey dağ,
Özü haqda danışmaq zəifliyi
İnsanda çox güclüdür.
Mən cırıq şalvarda, ət-ayaqyalın
Ey çay, sahillərinlə qaçardım bir zamanlar,
Həm də sıldırımlarınla, ey dağ.
Mən səndə çimmək istəyirdim, ey çay,
Ey çay, sən isə dalğalarınla
Yırğalardın məni,
Mən isə onları ram etdim,
Və indi nəhəngdir ürəyim mənim —
Vaxş kimi.
Dırmaşmaq istəyirdim, ey dağ, üzü yuxarı,
Amma ki, əsirdi uşaq qıçlarım.
Sənlə çarpışmada bərkidi o ayaqlar,
Mən səni fəth etdim, ey dağ.
Mən sənin zirvəndən dünyaya baxdım.

Düz Vaxşa baxdım.
Mənə əngəl olarsız?
Külə döndərəm
ey dağ, səni də,
ey çay, səni də!

TƏZƏ ƏFSANƏ

Nə əfsanə, nə nağıl,
Nurek tikintisində —
Yeni Rüstəm-Zal gördüm
Hər insan nəfəsində.
Bu gur işıq, bu qüvvə
Çırpınan bir həyatdı —
O da qədim sularda
Bir etiraz oyatdı.

İnsan qoluyla sınıb
Enlətdi bu dərəni —
Sanki lap uşaqlıqdan
Məşq etmiş mənzərəni...

Bütün bunlardan sonra
Sevinc aşıb daşırdı.
Sanki Rüstəmlə Fərhad
Burda qucaqlaşırdı…

Parlaqdı əfsanədən
Əsrin yeni töhfəsi.
Nuregin İşığı — həyat küləyi
Xoş sabahların səsi…

ADİ SUAL

— Niyə gədərlisən, de? Axı nə olub sənə?
Evə dönəndə kişi soruşdu arvadından.
Gözəllik salonunda səni pərt eləyiblər,
Bəlkə kirpiklərinçin rəng çıxmışdır dadından?

Dilləndi gözəl arvad,
Nə o biri, nə budur…
Boş-boş baş alıb getmiş
İllər məni qorxudur.

Ətək sazağlıdı zirvədə də qar,
Mənə düzünü söylə, gizlətmə bircə qram…
Sevirsənmi sən məni yenə əvvəlki kimi,
Axı özün görürsən, bəyazlaşmış saçlarım.

Gülməli sualdı — dilləndi kişi,
Fikrini gör daha nələr almayıb?
Mənsə düşünürəm bu yer üzündə
Sənin çəkmədiyin bir rəng qalmayıb.

Onlar mis rəngində, qara rəngində,
Gah mavi, gümüşü, gah da sap-sarı…
Gah da ki, nə bilim…, demək əzizim
Dəb üçün etmisən bütün bunları?

Şıltaqlıq… mən sənə bir söz demirəm…
Meylin haradırsa oraya da keç…
Ağsaçlı olasan, nə deyirəm ki,
Etiraz etmərəm, bir yoxla, risk et.

GÜLRÜXSOR SƏFİYEVA

AŞİQ DEYİLƏMSƏ

Əgər sevə bilməsəm mən
Dünya dönər qəm evinə.
Könlüm özgə istəyindən
Nə dincələr, nə sevinər.

Əgər aşiq deyiləmsə
İşıqsızdır ömrüm demək.
İtən dostlar əvəzinə
Yadlar mənə dost deyəcək.

Uzaq düşsəm gül üzlümdən,
Ətirsizdir bu gül-çiçək.
Sevgi yoxsa, boş köksümdə
Sərvət odu kükrəyəcək.
Sevgisizin imanı yox,
Üzü sürtük çay daşıdır.
Xəyalı çən, ömrü soyuq,
Sinəsində qış yaşadır.

Əgər aşiq deyiləmsə,
Bacım, olar qismətim qəm…

Əgər aşiq deyiləmsə
Özüm də bir əfsanəyəm!

Səntək yana bilmiriksə,
Onda kimik, onda nəyik?
Mahnımızla, şeirimizlə
Cüt alışan pərvanəyik!..

PAKİSTAN ƏDƏBİYYATI

- MƏHƏMMƏD İQBAL
- FAİZ ƏHMƏD FAİZ



MƏHƏMMƏD İQBAL

BALASINA ŞAHİNİN ÖYÜDÜ

Dinlə sozlərimi, dinlə, can balam!
Mənim şahin balam, qəhrəman balam!

Lələyin ipəkdən yumşaq olsa da,
Bir arslan qəlbi var köksünün altda.

Bununçün həyatdan kam almalısan,
Cəsur, qətiyyətli, sərt olmalısan.

İştahın gələndə çəkinmə ovdan,
Bağrın daşdan olsun, ruhun alovdan.

Kəkliyin, turacın, qırqovulun sən
Qanını içməsən, şahin deyilsən!

Dən yeyən alçını udmuş bu dərə,
Çünki qoşulublar dən yeyənlərə.

Neçə sar görmüşəm, qanda boğulmuş,
O öz qurbanının qurbanı olmuş.

Yumşaq ürəklidir çil, cürə, sərçə,
Sən quşlar şahısan yeganə, bircə.

Maral buynuzu tək qüvvətli, mətin
Kəskin olmalıdır sənin cürətin!

Çox zaman şəfqətli, həlim, mehriban,
Bəzən sal qayadan sərt olmalısan.

Kimin ki, qanında coşur cəsarət,
Yalnız ona qismət dinclik, səadət!

Dinlə, çolpasına nə demiş tərlan:
Yaqutdan üstündür bircə damla qan.

Sürüyə qoşulur yalnız qoyunlar,
Ancaq tək yaşayır şahinlə şonqar.

Dədəni, babanı bir də sal yada:
Yuvamız səhrada, dağ yamacında!
Ağac budağında, düşünsən bir az,
Gəlib yuva tikmək bizə yaraşmaz.

Şahinlər bağçada əylənə bilməz,
Şahini həmişə ənginlikdə gəz.

Hində ömür sürür yalnız toyuqlar,
Sərçənin yeməyə çəyirtkəsi var.

Şahinlər qoruyur şah vüqarını,
Qayada sağaldar yaralarını.

Qırğı, caynağını çətində, bərkdə
Daşın bülövüylə itiləməkdə!

Rüstəmi qanadı altına alan
Simürğə bənzə sən, bahadır balam!

Şir ilə çarpışsan, çəkinmə əsla
Çıxar, oy gözünü caynaqlarınla!

Sən mələk deyilsən, qolum, qanadım,
Ağ başlı şonqardı sənin əcdadın.

Bu əngin səmada dövrə vurub sən,
Ən gözəl ruzunu nuş etməlisən.

Ruzunu döyüşdə qazanmasan, bil
Zövq ilə dincəlmək halalın deyil.

HİNDİSTAN HİMNİ

Bu aləmdə hər iqlimdən gözəldir, xoşdur Hindistan,
Bizik bağda ötən bülbül... O, gülşəndir, o bağ-bostan.

Əgər düşsək qərib yurda, əmanətdir ürək burda,
Ürək burda qızıl nurda ... o nur – xırman, dəniz, ümman.

Bizim dağlar dayaq ərşə... Günəş başda qızıl tacı,
Qaya ərdir, tutub qalxan dəmirdən, misdən, altundan.

Bu çöllərdə qürurla, gurhagurla çağlayır min çay,
Çayın sahilləri cənnət... yer üstündə təzə rizvan.

Qızıl Qanqım, gümüş Qanqım, suyundan içmişəm bir vaxt,
Məgər çıxarmı heç yaddan bizim sarvan, bizim karvan

Neçə millət tutub ülfət, bu ünsiyyət bizə şöhrət,
Balan min-min, ana bircə, anam sənsən, qədim dastan.

Misir, Roma sönüb getdi, hanı ərzə günəş yunan,
Fəqət burda mayak olmuş əzəldən elm ilə ürfan.

Külə dönmüş neçə düşmən, susub leysan, sönüb vulkan,
Qalan yenə bizim xışdır, bizim çəltik, bizim xırman.

Hanı dostlar? Bu aləmdən xəbərsizsən, ey İqbal, sən,
Fəqət səndən umar dərman bəşər qəlbində hər əfqan.

TANRI VƏ İNSAN

Tanrı:

Mən suyla torpaqdan aləm yaratdım,
Sən fars ilə zənci, türk ilə tatar.

Mən misi, dəmiri qarşına atdım,
Sən yapdın dəmirdən qılınc zəhrmar.

Mən quşlar yaratdım, nəğməkar, azad,
Sən dərhal düzəltdin dəmirdən qəfəs.

Mən orman göyərtdim, açdı qol-qanad,
Sən balta götürüb doğradın əbəs.

İnsan:
Sən gecə yaratdın, mən çıraq oldum,
Verdiyin torpaqda bağça, bağ oldum.

Sən dağlar ucaltdın, mən açdım mədən,
Piyalə yaratdım sənin gilindən.

İlan zəhərini aldım əlindən,
Məlhəmə döndərdim zəhrmarı mən.

Güzgüylə çevirdim verdiyin qumu,
Boynuma qoyduğun minnətin bumu?

MƏHƏBBƏT VƏ ÖLÜM

Gözəldi dünyanın yaranış günü,
İlk dəfə gördülər ərzin hüsnünü.

Aləmə verildi günəş adlı tac,
Ulduzlar bağına Ay – gümüş ağac.

Gecənin əyninə biçildi qara,
Zöhrə şölə saldı qaranlıqlara.

Bahar süd içirdi ilk tumurcuğa,
Bağçalar qərq oldu yaşıla, ağa.

Öyrəndi ilk dəfə hər kəs bir şeyi:
Şəhərlər – ağlamağı, güllər – gülməyi.

Mələk saçı kimi qara buludlar
Tapdılar, Ərz adlı aşiq buldular.

Şairlik alovu ürəyə düşdü,
Həqiqət səngəri şərlə döyüşdü.

Dindi yer kürəsi: «Özüməm cənnət!»
Tanrıyam! Tanrıyam! – dedi təbiət.

Məkan nida qıldı: – Mən məkansızam,
Zaman bildirdi ki, mən də sonsuzam.

Xülasə, aləmi bürüdü şadlıq,
Azadlıq, abadlıq ən güclü işıq.

Səmada cüt mələk qanad-qanada,
Biri ağappaqdı, biri qapqara.

– Nə işlə məşğulsan? – soruşdu biri.
– Memaram! – söylədi ağqanad pəri.

Mənəm bu aləmi gözəlləşdirən,
Gözə işıq, qüvvət, şana bal verən.

Dünyaya eşqdən calaq vururam,
Sevəni sevənə qovuşdururam.

Bəs sən?
– Mən ölüməm. Ölüm mələyi.
Hər şeyi ələyir mənim ələyim.

Kim nəyi tikibsə söküb-tökürəm,
Üstündən qara xaç, qələm çəkirəm.

Caynağım qılıncdır, baxışım şimşək,
Kimə əlim dəysə, kül olur gerçək.

– Bəs yoxmu cahanda qorxduğun qüvvət?
– Bircə Məhəbbətdir, yalnız Məhəbbət!

– Eləsə, gözümün içinə dik bax.
Mənəm həmən qüvvət, tanı, ey axmaq!

Məhəbbət gözündən bir çınqı atdı,
Ölüm külə döndü, torpağa bağdı.

ŞİKAYƏT

Ana yurdum Hindistan, nə ölü, nə dirisən,
Sən yadların tacını bəzəyən mirvarisən.

Sənə can verən kəndçi az qala bir dilənçi,
Alıb tabuta qoydun o canlı gövhəri sən.

Tarlasını, evini, ömrünü də yedilər,
Yalnız ac qarğalardır məzarına tələsən.

Avropamı müqəssir? Yox, günah özündədir:
Himalay qüdrətinlə uyğudasan hələ sən.

FAİZ ƏHMƏD FAİZ



Urdu şeir ənənəsinin çağdaş təmsilçisi olan Faiz Əhməd Faiz 13 fevral 1911-ci ildə Pakistanın Sialkot qəsəbəsində anadan olmuşdur. O, Lahorda fəlsəfə, ərəb və ingilis ədəbiyyatı üzrə təhsil almışdır. II Dünya müharibəsində ingilis-hind ordu birləşmələrində zabit kimi xidmət göstərmişdir. Xidmətlərinə görə İngilis İmperatorluq medalı ilə təltif edilmişdir. Pakistan Hindistandan ayrılıb öz dövlət müstəqilliyini elan etdikdən sonra Faiz Əhməd Faiz hərbi xidmətdən istefa vermişdir. Bundan sonra o, «Pakistan Tayms» adlı sosialist qəzetinə redaktorluq etmişdir. Faiz Əhməd Faiz 1951-ci ildə Ravalpindinin sui-qəsdində günahlandırılaraq 4 il müddətinə azadlıqdan məhrum edilmişdir. O, 1979-cu ildə Ziya-ül Həq hərbi çevrilişindən sonra Beyruta sürgün edilmiş və 1982-ci ilə qədər orada yaşamışdır. Faiz Əhməd Faiz Hind Mütərəqqi Yazıçılar Hərəkatının üzvü olmuş, Asiya-Afrika Yazıçılar Birliyinin yayım orqanı olan «Lotos»da fəaliyyət göstərmişdir. 1967-ci ildə Lenin Sülh mükafatı almışdır. Görkəmli sənətkar 29 noyabr 1984-cü il tarixində Lahorda vəfat etmişdir.

DUA

Dedilər dünyanın sonu çatacaq,
İnandım mən sabahına.
Diz çöküb yalvarsam, yalvardım, ancaq
Sevgi Allahına, eşq Allahına.

İlahi, kərəm et, qoy bəd əməllər,
Sevən ürəklərə şübhə salmasın.
Ağ günə çıxsın qoy əzilən ellər,
Dünyada məhkəmə, məhbəs qalmasın.

Mən səndən çox uman, küsən deyiləm, –
Qoy tutsun ağanı kasıbın ahı.
Nə çoxdur dünyada döyən, döyülən,
Sən haqqın namını vermə İlahi.

Qoy günəş nuruna tamarzı gözlər,
Açılsın Günəşə, Aya boylansın.
Susan ürəklərdə qıfıllı sözlər,
Nəğmələr selitək bir gün oyansın.

Qəlbində eşq odu, məşəli yanan,
Qoy nəğmə oxusun, elimdən nə xoş.
Həqiqət işığı gəzsin hər yanı,
Bu azad havadan, sevgidən sərxoş.

İKİ SƏS

Birinci səs

Ah, tükəndi arzular, sona yetdi bu uçuş,
Ulduzlar bəndə düşüb, göylər qoynunu açmış.
Getdi coşqun arzular, ümidlər kimə qaldı?
Nur qanadlı ilhamın səmaları daraldı.
Mənə nağıl danışma, faydası yox yalanın,
Qisməti ölüm olar son ümidsiz qalanın.
Sağ olsun, dar ayaqda dada yetdi Vətənim:
Artıq çoxdan hazırdır məzarımla, kəfənim.

İkinci səs

Dayan, tələsmə dostum, qəm yemə çox da hədər,
Dünyanın nemətindən hamıya bir pay yetər.
Əgər elin səsində varsa sənin də səsin,
Bir üşüyən ürəyi isidirsə nəfəsin,
Bil ki, güləcək axır, tale sənin üzünə,
Səhra gülüstan kimi görünəcək gözünə.
Əgər bir gün boş qalsa yerin süfrə başında,
Sanma cana qəsd edər dünyanın bu yaşımda.
Səndən sonra gecələr, səhərlər də qalacaq,
Yaşıl kəndlər, obalar, şəhərlər də qalacaq.

Qalacaqdır sevdiyin, oxşadığın gözəllər,
Dinlədiyin nəğmələr, xoşladığın qəzəllər.
Dəfnində ağlayacaq gözlərə minnətdar ol!
İndidən oxşayacaq sözlərə minnətdar ol!

Birinci səs

Yaxşı, bəs belədirsə yaşamaqdan nə fayda?
Ömrün ağır yükünü daşımaqdan nə fayda?
Əgər sədd hörülərsə fikrin xalqa çatmasın.
Söylə dost, düşünməkdən. Danışmaqdan nə fayda?
Son mənzil məhbəsdirsə, daha bünövrə qoyub,
Azadlıq binasını başlamaqdan nə fayda?

İkinci səs

Nə qədər dilimizdə dəyanət var, qüvvət var,
Qəlbimizdə mübarik sevgi var, həqiqət var.
İnqilab nəğmələri, şərqi ötəcək hey! –
Qolumuza taxılan bu qandal, qantağalar!
Biz dünənin sahibi, sabaha da sahibik,
Vaxt gələr diz çökərlər önümüzdə ağalar.
Ay da, günəş də bizinən qoşa, əlbir,
Bütün yaxşı adamlar, gələcək bizimlədir!

BU ZİNCİRE VURULUŞ, BU DAR AĞACI ANI

Bu bekleyiş saati sarmış tüm patikaları,
Hiçbir saat vurmuyor özlenen bahar anını,
Ve gündelik tasalar çökmüş üstüne ruhlarımızın.
İşte mihenk anıdır bu, aşkımızın nöbetini devretmek için.

Bu kutsal andır, sevgili bir yüzü gözümüzün önüne getiren,
Bu kutsal saattir, dinmek bilmez yüreği dindiren!
Şarap kadehi de saki de geri çevrilir, boşuna!
Serin bulutlar geçtiği zaman üstünden dağın,
Bir selvi ya da çınar yaprağının,
Paylaşamayacaksak artık hiçbir dostla
Oynaşan gölgelerini, yeşil saatlerini onların.

Sızladı durdu bu yaralar çoktan beri, ama böylesi-
Bu zincire vuruluş, bu darağacı ve bu sevinç
Bu kaçınılmaz seçme vaktindeki
Bu tüm dostlardan ayrılış vaktindeki gibi sızlamadı hiç!

Sözünüz geçse de hücreye, hükmedemezsiniz bahçeye
Kırmızı gül goncaları açtığında, o taze an geldiğinde,
Hiçbir ilmik yakalayamaz şafak rüzgvrının ayaklanışını,
Hiçbir ağa tutsak düşmez baharın uyanışı.

Görecekler başkaları, ben görmesem de o vnı
Bülbülün şakıdığı ve çiçeğin açtığını.

HAPİSHANEDE BİR AKŞAM ÜSTÜ

Adım adım iniyor gece
Takımyıldızların salınan merdivenlerinden;
Yakın, şefkatle fısıldayan bir ses gibi yakın
Esiyor hafif bir rüzgvr;
Avludaki ağaçlar,
Boynu bükük mahkımlar,
Kayboluyor rüzgvrın fırıl fırıl eteğinde.

Ay ışığının ince parmakları merhametle
Işıldıyor çatının tepesinde;
Toza karıştı yıldızların avizesi.
Göğün mavisi akkorlaştı.
Kurşuni gölgeler kaplıyor yeşil kuytuları
Tereddüt içinde hasretin
Acıyla girdaplanışı gibi beyinde.

Bir düşünce dolanıp duruyor yüreğimde-
Öyle bir bengi sudur ki hayat bu anda
Ona zehirlerini katan tiranlar
Ne bugün ne yarın, asla kazamayacaklar.
Ne çıkar aşkın taht odasını aydınlatan
Mumu söndürseler de? Güçlüyseler
Ayı söndürsünler, görelim hele.

İKİ CİHANDA DA YİTİRİYOR AŞKINI

İki cihanda da yitiriyor aşkını, işte böyle
Terk ediyor gecenin hüznü ardından, işte böyle

Meyhanedeki kadehler can sıkıntısıyla dolu şimdi
Baharın her günü yüzü asık, ayrıldığından beri

Yok yere günah işledi. Yazık! yalnızca dört günde
Öğrendi biraz cesaretin anlamını, işte budur yıkılmazlık

Sevdiğinden daha ayartıcıydı anılar, dünya durdu
Anılarının yatağında, şimdi canlı bir elemdir çektiği

Farkında olmadan sevdiceği bugün gülümsedi ya, Faiz der ki
Söz etme sakın bu karışıklıktan, çünkü dingindir şimdi yüreği.

KONUŞ

Konuş, dudakların özgürdür senin.
Konuş, bu senin kendi dilin.
Konuş, bu senin kendi gövden.
Konuş, yaşamın hvlv senindir.

Anla, demircinin tezgvhında nasıl
Ateş tutuşturur çılgınca, demir korlaşırsa;
Kilitleri açar onların çenesi,
Ve her zincir kırılır artık.

Konuş, bu kısa zaman yeterince uzundur
Gövdenin ve dilin ölümünden önce:
Konuş, çünkü gerçek henüz ölü değil,
Konuş, konuş, ne söyleyeceksen söylemelisin.

RÜBAİ

Senin yitik anılarındı önceki gece yüreğimi ürperten
İlkbaharın çorak bahçelere gizlice girmesi gibi
Çölü usulca yalaması gibi sabahın serin esintisinin
Kendini iyi hissetmesi gibi bir hastanın, yok başka bir nedeni

ƏFQAN ƏDƏBİYYATI

- MİR ƏBDÜLQADİR ƏBHƏR
- MUCAVƏR ƏHMƏD ZİYAR
- SÜLEYMAN LAYİQ
- ABDULLA BƏXTANİ XİDMƏTKAR



MİR ƏBDÜLQADİR ƏBHƏR

BİR YAZ GECƏSİ

Aydın yaz gecəsi, səfalı gülşən,
Sən ol, məzə olsun, bir də olum mən.
Sakit bir guşədə — su kənarında
Olaq təbiətin ixtiyarında.
Güllərin içində uzanaq səssiz,
Tamaşa eyləyək təbiətə biz.
Bağlayım boynuna güldən həmayil,
Olum istəyimə, arzuma nail.
Mahnılar oxuyum həzin bir səslə,
Gizli bir sirr açım sənə həvəslə.
Sən də sevgilinə edib işvə, naz.
Güllərin içində şurə gəl bir az.
Ömür bir anlıqdır, inan, bir anlıq,
Heyf, keçir gənclik, ötür cavanlıq.

RÜBAİLƏR

1

Ey mənim vətənim, ey səcdəgahım,
Qəlbimin qüvvəti, ruhum pənahım.
Baş qoydum daşına, torpağına mən
Dağın, çölün olmuş bəxtim, rifahım.

2

Sən şərqin qəlbisən alov püskürən,
Yanar məşəlilə Şərqə nur verən.
Hər guşən şöhrətlə bəzənmiş sənin,
Şan-şöhrət nişanın vardır, ey Vətən!

3

Alqış sənin yüksək qarlı dağına,
Alqış bu gününə, xoş novrağına.
Daima nur saçan arzuna alqış,
Alqış yenilməyən al bayrağına!

4

Öpürəm müqəddəs torpağını mən,
Lalələr çöllərin ətrinə əhsən.
Daim hərarətli, coşan qəlbin var,
Mübariz oğullar yetirmisən sən.

5

Min fitnə törədən ey cəllad, dayan,
Bu abad dünyanı dağıtma, aman!
Bəşərin min ildə qurduqlarını
Bir anda eyləmə yer ilə yeksan.

6

Səhranın döşündə bitən hər lalə
Yarın camalını salır xəyalə.
Bağrına hicrandan bir dağ basılmış,
Mənimtək həsrətdir o da vüsalə.

7

Şeirin ki olmalı Şuru, həycanı,
Oxşamaz nə ruhu, nə fikri, canı.
Tökülər kağıza qələm ucundan,
Qalmaz ürəklərdə izi, nişanı.

8

Ey arzu içində yaşayan bəşər,
Qoyma ki, bürüsün bu cahanı şər.
Yaxşı aç gözünü bu dünyaya bax!
Gör necə zülm edir sənə sitəmkar.

9

Qoy bülbül eyləsin bu bağda fəqan,
Çünki onun gülün dəribdir bağban.
Qoy çırpsın özünü gül budağına
Bəlkə, rahat olsun ürəyi bir an.

10

Canım, eşqim mənim, cananım ol sən,
Qəmim, dərdim mənim, dərmanım ol sən.
Bu vurğun könlümün ruhi-rəvanı,
Təbibim, munisim, mehmanım ol sən!

11

Əcəb od püskürür divanə könlüm,
Döyünməkdən gəlib fəğanə könlüm.
Ümidlə arzunun zülməti içrə
Düzəldir nurlu bir kaşanə könlüm.

12

Sevirəm o xumar gözlərini mən,
Şəkər ləbdən çıxan sözlərini mən.
Gəl od vur qəlbimə, yandır bu canı,
Sevirəm odunu, gözlərini mən.

13

Bu öyüd atamdan qalmış yadigar:
Alçaq adamlarla dost olma, zinhar!
Onlardan daima uzaqlaş, oğlum,
Belə öyrətmişdir müdrik babalar.

14

Mənə həyat verdi vətənim Pərvan,
İstiyə, soyuğa öyrətdi hər an.
Ondan lazım olan dərsimi aldım,
Məni də dərd əhli eylədi, aman!

MUCAVƏR ƏHMƏD ZİYAR

İNQİLAB BEŞİYİ

Təmiz Arya torpağında
qeyrətəm mən, namusam mən,
qüruram mən.
Yaradıram, qururam mən.
Min illərin əzab dolu
çörəyiyəm,
Mən Asiyanın ürəyiyəm,
Mən Asiyanın ürəyiyəm.
Kim deyib ki, tarix boyu gərək susam,
Qüdrət adlı o zirvədə
parıl-parıl parıldayan
bir ulduzam.
Min illərin əzab dolu
çörəyiyəm.
Mən Asiyanın ürəyiyəm.
Mən Asiyanın ürəyiyəm
Bu torpağın mən kiniyəm.
İnqilablar beşiyiyəm,
Mən pələnglər məskəniyəm,
Mən xalqımın tarix boyu səbriyəm
Mənə qəbir qazanların qəbriyəm,
Kim deyər ki, bu gün mənə —
Mən dünyanın yorğun, solğun bəniziyəm.
Yox, bu gün —
Mən üsyanlar dalğasıyam,
Mən inqilab dəniziyəm!
Min illərin əzab dolu çörəyiyəm!
Mən Asiyanın ürəyiyəm,

Mən Asiyanın ürəyiyəm.
Mənə kinli baxan düşmən
öz başını qoyub gedib,
yaddaşını qoyub gedib.
…İgidlərim qeyrətimdən doğuldular,
Düşmənlərim qəzəbimdən boğuldular.
Mən illərin, əzab dolu çörəyiyəm.
Mən Asiyanın ürəyiyəm,
Mən Asiyanın ürəyiyəm.
Heyrət hünər deməksə,
Hünər özü bir heyrətdir.
Qeyrət dünya deməksə,
Dünya özü bir qeyrətdir.
Min illərin əzab dolu çörəyiyəm,
Mən Asiyanın ürəyiyəm,
Mən Asiyanın ürəyiyəm.
Təmiz Arya torpağında
Qeyrətəm mən,
namusam mən, qüruram mən.
Yaradıram, qururam mən.
Min illərin əzab dolu çörəyiyəm,
Mən Asiyanın ürəyiyəm,
Mən Asiyanın ürəyiyəm.
Kim deyib ki, tarix boyu
gərək susam.
Qaranlıqlar zirvəsində
parıl-parıl parıldayan
bir ulduzam!
Min illərin əzab dolu çörəyiyəm,
Mən Asiyanın ürəyiyəm,
Mən Asiyanın ürəyiyəm.

SÜLEYMAN LAYİQ

BAHAR GƏLİR

Silsilə dağlardan gələn buludlar
Yenə hücum çəkir tutdu hər yanı.
Elə bil bir xalı pərdəylə örtdün,
Şəfəqdən qızarmış gülgün səmanı.

Elə bil dəryada tufan başladı,
Elə bil dalğaydı axışıb gələn.
Külək də qəmli bir nəğməylə ötdü,
Torpaq da qaraldı elə bil birdən.

Neçə quş yuvası dağıtdı külək,
Onlar uçub getdi çəməndən, bağdan.
Buluddan tökülən lopa-lopa qar
Asıldı kəfəntək çılpaq budaqdan.

Bağban, qəmgin olma, səbr elə bir az,
Bu bulud, bu çovğun, keçəcək, inan.
Gözlə, gör nə gəlir bu yer üzünə
Bu soyuq küləyin, qarın ardından.

Qarın hər dənəsi çəməndə, çöldə,
Bir lalə xırmanı açacaq hökmən.
Şaxtanı çəkməsə butada güllər
Atəştək çıxarmı öz köynəyindən?

Yenə də göy üzü silinər tamam,
Yenə də çəməndə güllər açarlar.
Yenə quşlar qurar öz yuvasını
Qışı məğlub edib gələr ilk bahar.

YELKƏN

Ey yolçular, ey yolçular,
Həyat yolu xətərlidir.
Sükan qırıq,
Dəniz tufan,
Qəlb nigaran…
Səma zülmət,
Sular qara,
Nərə çəkən dalğalardır
Baxsan hara…
Qatarlanıb qızmış nərtək,
Qabağına hər nə çıxsa
Məhv edəcək…

Yol çətindir,
Sükançısa susur hələ
Ölü kimi.
Belə getsə,
Dalğaların pəncəsində
Dağılacaq bizim gəmi.
Kəsə bilməz qarşımızı
Tufan,
Zülmət,

Dalğa,
Külək,
Son məqsədə çataq gərək…

Ey yolçular, ey yolçular,
Xətərdədir bizim gəmi.
Gəlin, dostlar,
Açım sizə ürəyimi.
Bu tufanda,
Bu zülmətdə
İnanmıram bu gəmimiz
Sahilədək rahat üzə.
İndi özgə bir sükançı
Gərəkdir bu gəmimizə…

ABDULLA BƏXTANİ XİDMƏTKAR

MƏHƏBBƏT DİLİ

Bir yay gecəsidir… çıxmışam dama…
Uzaqdan göz vurur mənə ulduzlar.
Acı haram qatıb şirin yuxuma,
Damda durmağımın bir səbəbi var.

Xəyalım göylərdə gəzir dəmadəm,
Qəmər diqqətimin əsiri olub.
Mənə viran olmuş bir evdir aləm
Qəmim də, kefim də bu evə dolub.

Məhəbbətə pərdə deyildir gərək,
Boldur bərəkəti göyün mehrindən.
Qəlbimdə qızıl bir lalə bitəcək,
Olmaz başqa bir gül olsun ona tən.

Gərək bürünməsin məhəbbət dona,
Baxışı hər aşiq eşqə dil sayıb.
Hər xalqın öz dili yaranıb, amma
Heç vaxt məhəbbətin dili olmayıb.

BƏDİİ MƏTNLƏRİN SEÇİLDİYİ ƏDƏBİYYATLAR

1. Aida İmanquliyeva. Məqalələr və tərcümələr. Bakı, «Bakı Çap Evi», 2010, 488 s.
2. Əbdürrəhman Cami. Bakı, «Azərnəşr», 1965, 219 s.
3. Əbdürrəhman Cami. Seçilmiş əsərləri. Bakı, «Öndər nəşriyyat», 2004, 320 s.
4. Əmir Xosrov Dəhləvi. Şirin və Xosrov. Bakı, «Avrasya Press», 2006, 248 s.
5. Fəxri Gürgani. Vis və Ramin. Bakı, «Azərnəşr», 1974, 479 s.
6. Firdovsi. Şahnamə. 2 cilddə, I cild. Bakı, «Nurlar», 2005, 992 s.
7. Həbib Dərzinəvəsi. Ömər Xəyyamın rübailəri. Şimali Kipr Türk Cümhuriyyəti, Lefkoşa, 2007, 304 s.
8. Hafiz Şirazi. Seçilmiş şeirlər. Bakı, Azərnəşr, 1967, 249 s.
9. Xəlilov S. Şərq ruhunun Qərb həyatı (Aida İmanquliyevanın yaradıcılıq axtarışlarının izi ilə). Bakı, «Şərq-Qərb», 2009, 380 s.
10. Xəlil Rza Ulutürk. Dünyaya pəncərə. Bakı, «Çinar-çap», 2010, 1151 s.
11. İsti nəfəs (tacik ədəbiyyatından seçmələr). Bakı, «Yazıçı», 1984, 294 s.
12. İnci xəzinəsi. Bakı, «Gənclik», 1977, 239 s.
13. Kəlilə və Dimnə. Bakı, «Azərnəşr», 1982, 317 s.

14. Qabusnamə. Bakı, «Azərnəşr», 1989, 237 s.
15. Qədim Şərq ədəbiyyatı. Bakı, «Azərbaycan Ensiklopediyası» NPB, 1999, 584 s.
16. Mirzo Tursunzadə. Hindistan balladası. Bakı, Uşaqgənc-nəşr, 1950, 43 s.
17. Nasir Xosrov. Səfərnamə. Bakı, «Elm», 1997, 178 s.
18. Ömər Xəyyam. Rübailər. Bakı, «Azərnəşr», 1984, 114 s.
19. Pamir çiçəkləri. Bakı, «Azərnəşr», 1964, 120 s.
20. Rabindranat Taqor. Seçilmiş əsərləri. Bakı, «Çaşıoğlu», 2006, 312 s.
21. Rabindranat Taqor. Seçilmiş əsərləri, 8 cilddə, VII c., Bakı, «Azərnəşr», 1965, 298 s.
22. Sədi Şirazi. Bustan. Bakı, «Azərnəşr», 1964, 253 s.
23. Sədi Şirazi. Gülüstan. Bakı, «Azərnəşr», 1987, 284 s.
24. Söhrab Sipehri. Suyun ayaq səsi. Bakı, «Mütərcim», 2010, 60 s.
25. Sevgi fəsli. Bakı, «Çinar-çap», 2010, 288 s.
26. Şemsettin Küzeci. Kərkük şairləri (İrak Türkmən şairləri). I c., Ankara, 2006, 624 s.
27. Şemsettin Küzeci. Kərkük şairləri (İrak Türkmən şairləri). II c., Ankara, 2007, 624 s.

MÜNDƏRİCAT

BİR NEÇƏ SÖZ 3

HİND ƏDƏBİYYATI

Qədim Hind ədəbiyyatı nümunəsi 9
Mahabharata və ya Bharata oğullarının böyük vuruşları haqqında dastan
(Tərcümə edən: Natiq Səfərov; şeir parçalarını tərcümə edən Çingiz Əlioğlu) 9

MÖHTƏŞƏM ŞƏRQ ABİDƏSİ 42
KƏLİLƏ VƏ DİMNƏ *(Tərcümə edən: Rəhim Sultanov)* 44

ƏMİR XOSROV DƏHLƏVİ 198
Şirin və Xosrov *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....202
Qitələr *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....259
Rübailər *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....260

RABİNDRANAT TAQOR.....264
Açılmış sirr *(Tərcümə edənlər: Mehdi Mirkişiyev, Beydulla Musayev)*.....266
Çarəsiz bədbəxtlik *(Tərcümə edənlər: Mehdi Mirkişiyev, Beydulla Musayev)*...275
Dəftər *(Tərcümə edənlər: Mehdi Mirkişiyev, Beydulla Musayev)* 279
Həyat *(Tərcümə edən: Məmməd Rahim)* 286
Mahnının nəfəsi *(Tərcümə edəni: Rəhim Sultanov)* 287
Niyə? *(Tərcümə edən: Rəhim Sultanov)* 287
Əllər *(Tərcümə edən: Rəhim Sultanov)* 288
Şübhə çulğalayırkən *(Tərcümə edən: Rəhim Sultanov)*.....289
Ana Benqaliya *(Tərcümə edən: Rəhim Sultanov)* 290
Yelkənli qayıq *(Tərcümə edən: Rəhim Sultanov)* 291

MİSİR ƏDƏBİYYATI

Qədim poeziya nümunələri 295
Ölümün öyülməsi *(Tərcümə edən: İsmayıl Vəliyev)*.....295
Nilin öyülməsi *(Tərcümə edən: İsmayıl Vəliyev)* 296
İlahəyə *(Tərcümə edən: İsmayıl Vəliyev)* 302
Səhər günəşinə *(Tərcümə edən: İsmayıl Vəliyev)*.....302

Qədim nəsr nümunələri.....303
Gəmi qəzasına uğramışın nağılı *(Tərcümə edən: Elman Ağaoğlu)* 303
Məhkum olunmuş şahzadə *(Tərcümə edən: Elman Ağaoğlu)* 310

FATİMƏ NAOOT 316
Kor *(Tərcümə edən: Qəşəm Nəcəfzadə)* 316
Kənd idiotu *(Tərcümə edən: Qəşəm Nəcəfzadə)*.....317

LİVAN ƏDƏBİYYATI

CÜBRAN XƏLİL CÜBRAN 321
Qırılmış qanadlar *(Tərcümə edənlər: Gövhər Baxşəliyeva, Əfsanə Məmmədova)*.323
Peyğəmbər *(Tərcümə edən: Müşfiq Şükürov)*.....409

MİXAİL NUAYMƏ 461
«Qu-qu» saat *(Tərcümə edən: Aida İmanquliyeva)* 463
İnsan və quş*(Tərcümə edən: Aida İmanquliyeva)*.....470
Buz əriyəcək*(Tərcümə edən: Aida İmanquliyeva)*.....474
Ey dəniz *(Tərcümə edən: Könül Bünyadzadə)* 479
Qovğa *(Tərcümə edən: Könül Bünyadzadə)* 480
İnsanları görəndə *(Tərcümə edən: Könül Bünyadzadə)*.....481
Yaxşılıq və pislik *(Tərcümə edən: Könül Bünyadzadə)*.....482

ƏMİR ƏR-REYHANİ.....484
Sufi nəğməsi *(Tərcümə edən: Könül Bünyadzadə)* 486
Uzaqların Allahı, bizi dinlə *(Tərcümə edən: Könül Bünyadzadə)*.....486
Yağışın nəğməsi *(Tərcümə edən: Könül Bünyadzadə)* 487
Su və güllər *(Tərcümə edən: Könül Bünyadzadə)*.....488
Mistiklərin nəğməsi *(Tərcümə edən: Könül Bünyadzadə)*.....489

SÜHEYL İDRİS 494
Azadlıq *(Tərcümə edən: Aida İmanquliyeva)*.....495

MİŞEL SÜLEYMAN 503
Xalqın qüdrəti *(Tərcümə edən: Əliağa Kürçaylı)* 504
İşıq və duman arasında bir an *(Tərcümə edən: Nəbi Xəzri)* 504
Üsyankar hüzn *(Tərcümə edən: Əliağa Kürçaylı)* 505
Şəhid *(Tərcümə edən: Əliağa Kürçaylı)* 506
Cənnət quşu *(Tərcümə edən: Əliağa Kürçaylı)* 507

İRAQ ƏDƏBİYYATI

SAHİB CAMAL 511
Yusif *(Tərcümə edən: Aida İmanquliyeva)* 511

ƏBDÜL VAHAB ƏL-BAYATİ.....520
Yağış *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 521
Küləklə kül *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 521
Bəsrə *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)*.....522

ƏLİ ƏL-HİLLİ 524
Daşkəndə məktub *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 525

YUSİF ƏL-SAİĞ 526
Qan çiçəyi *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)*.....527
Zəfər ətri *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)*.....527

HƏSƏP ƏL-ŞEYX CƏFƏR 529
İtmiş vadi *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)*.....530

SAMİ MEHDİ 531
Qaraltı *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 532
Gizliliklər *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 532

MƏHƏMMƏD ƏL-BƏDRİ 534
İşarələr *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)*.....535
Şəhid *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)*.....536

İRAQ-TÜRKMAN ƏDƏBİYYATI

ƏBDÜLLƏTİF BƏNDƏROĞLU 539
Öz dilim 541
Qız qalası 541
Üç damla yağış 543
Düşüncədə yaşamaq.....544
Gur-gur baba 545

NƏSRİN ƏRBİL.....554
İki şehir 555
Şey 555
Dertli kuşlar 556
Kerkük şehitlerine.....556
Sönmesin ocağımız.....557

SALAH NÖVRƏS 559
Dünya gözəli *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 560
Köşkümüz *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* 560

MEHMET MEHDİ BAYAT.....561
Kaytaz baba 562
Karabağ şikestesi.....565
Ben nerdeyim vatan orada.....466
Gül hanım 568

ƏLCƏZAİR ƏDƏBİYYATI

MƏHƏMMƏD DİB 571
Hasin dermek *(Tərcümə edən: Aida İmanquliyeva)* 571

İORDANİYA ƏDƏBİYYATI

MACİD ZEYYİB ĞƏNƏMA **581**
Növbəyə dayanmaq *(Tərcümə edən: Aida İmanquliyeva)* *581*
Vətənin portreti *(Tərcümə edən: Aida İmanquliyeva)* *586*

FƏLƏSTİN ƏDƏBİYYATI

MUİN BSİSU, MAHMUD DƏRVİŞ **591**
İsrailli əsgərə məktub (poemadan parça) *(Tərcümə edən: Rafiq Yusifoğlu)* ... *591*

MAHMUD DƏRVİŞ **596**
Quşlar ölür Cəlildə *(Tərcümə edən: Nəriman Qasımoğlu)* *597*
Şəxsi vəsiqə *(Tərcümə edən: Nəriman Qasımoğlu)* *599*
İnsan haqqında *(Tərcümə edən: Nəriman Qasımoğlu)* *601*
Uzaq şəhərdə qərib *(Tərcümə edən: Nəriman Qasımoğlu)* *602*

ATEF ƏL-BUTRUS **604**
Beyrutum mənim *(Tərcümə edən: Qasım Qasımzadə)* *604*

TACİK ƏDƏBİYYATI

ƏBÜLQASİM LAHUTİ **609**
Hicazi yoldaşın ölümü haqqında *(Tərcümə edəni: Əli Tudə)* *610*
Laylay *(Tərcümə edən: Əli Tudə)* *611*
Azərbaycanın səsi *(Tərcümə edəni: Əli Tudə)* *613*
Gördüm *(Tərcümə edən: Cabir Novruz)* *613*
Dəli könlümü viranə etdin *(Tərcümə edən: Cabir Novruz)* *614*
Sülhsevərlər marşı *(Tərcümə edən: Cabir Novruz)* *615*
Dördlüklər *(Tərcümə edən: Cabir Novruz)* *617*

SƏDRƏDDİN AYNİ **618**
Nə vaxtacan? *(Tərcümə edən: Cabir Novruz)* *619*

ƏBDÜCABBAR QƏHHARİ **620**
Gül və Gülsatan *(Tərcümə edən: Abbasəli Sarovlu)* *621*

MİRZƏ TURSUNZADƏ **623**
Qanq *(Tərcümə edən: Qasım Qasımzadə)* *624*
Tara – Çandri *(Tərcümə edən: Qasım Qasımzadə)* *627*
Bombey bağları *(Tərcümə edən: Qasım Qasımzadə)* *631*
Vətənə qayıdarkən *(Tərcümə edən: Qasım Qasımzadə)* *632*
Daha nə istəyirsən? *(Tərcümə edən: Əhəd Muxtar)* *633*

LAYİQ ŞİRƏLİ **634**
Rudəki *(Tərcümə edən: Əhəd Muxtar)* *635*
Çayın nəğməsi *(Tərcümə edən: Məmmədağa Soltanov)* *635*

MİRSƏİD MİRŞƏKƏR 637
Sizinlə tanışam *(Tərcümə edən: Əhəd Muxtar)* 638
İlham mənbəyim *(Tərcümə edən: Əhəd Muxtar)*.....639

BASİR RASO 640
Nəğmə *(Tərcümə edən: Tofiq Nurəli)*.....640
Təzə əfsanə *(Tərcümə edən: Tofiq Nurəli)* 641
Adi sual *(Tərcümə edən: Tofiq Nurəli)*.....642

GÜLRÜXSOR SƏFİYEVA 643
Aşiq deyiləmsə *(Tərcümə edən: Əhəd Muxtar)* 643

PAKİSTAN ƏDƏBİYYATI

MƏHƏMMƏD İQBAL 647
Balasına şahinin öyüdü *(Tərcümə edən: Xəlil Rza Ulutürk)*.....647
Hindistan himni *(Tərcümə edən: Xəlil Rza Ulutürk)*.....649
Tanrı və insan *(Tərcümə edən: Xəlil Rza Ulutürk)*.....650
Məhəbbət və ölüm *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* 651
Şikayət *(Tərcümə edən: Xəlil Rza Ulutürk)*.....653

FAİZ ƏHMƏD FAİZ 655
Dua *(Tərcümə edən: Çingiz Əlioğlu)*.....656
İki səs *(Tərcümə edən: Çingiz Əlioğlu)*.....657
Bu zincire vuruluş, bu dar ağacı anı *(Tərcümə edən: Halil Köksal)* 659
Hapishanede bir akşam üstü *(Tərcümə edən: Halil Köksal)*.....660
İki cihanda da yitiriyor aşkını *(Tərcümə edən: Toğrul Asi Balkar)*.....661
Konuş *(Tərcümə edən: Toğrul Asi Balkar)*.....661
Rübai *(Tərcümə edən: Toğrul Asi Balkar)* 662

ƏFQAN ƏDƏBİYYATI

MİR ƏBDÜLQADİR ƏBHƏR 665
Bir yaz gecəsi *(Tərcümə edən: Məmmədağa Sultanov)* 665
Rübailər *(Tərcümə edən: Məmmədağa Sultanov)*.....665

MUCAVƏR ƏHMƏD ZİYAR 668
İnqilab beşiyi *(Tərcümə edən: Seyran Səxavət)* 668

SÜLEYMAN LAYİQ 670
Bahar gəlir *(Tərcümə edən: Balaş Azəroğlu)* 670
Yelkən *(Tərcümə edən: Balaş Azəroğlu)*.....671

ABDULLA BƏXTANİ XİDMƏTKAR 673
Məhəbbət dili *(Tərcümə edən: Şahin Fazil)*.....673

BƏDİİ MƏTNLƏRİN SEÇİLDİYİ ƏDƏBİYYATLAR 674

BİRİNCİ CİLDİN MÜNDƏRİCATI

BİR NEÇƏ SÖZ.....3

QƏDİM ŞUMER ƏDƏBİYYATI

«Bilqamıs» dastanı *(Tərcümə edən: İsmayıl Vəliyev)*.....*9*

İRAN ƏDƏBİYYATI

RUDƏKİ 49
Qocalığım, gəncliyim *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* *51*
Bahar *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*52*
Dünya – mehmanxana, sənsə bir qonaq *(Tərcümə edən: Abbasəli Sarovlu)*.*53*
Gözəl yarım, Yusifə zillətdə, azadlıqda *(Tərcümə edən: Abbasəli Sarovlu)*..*54*
Sənsiz istəmirəm günəş görünsün *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*54*
Qəza tək dadıma bir çatanım yox! *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*55*
Ey ürək, həyatın döyünməkdədir *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*55*

ƏBÜLQASIM FİRDOVSİ.....56
Şahnamə *(Tərcümə edən: Mübariz Əlizadə)*.....*61*

QABUSNAMƏ *(Tərcümə edən: Rəhim Sultanov)*.....*171*

NASİR XOSROV 218
Səfərnamə *(Tərcümə edən: Tahir Məhərrəmov)* *220*
Qartal lələkli ox *(Tərcümə edən: Abbasəli Sarovlu)* *263*
Kəndliyə sitayiş *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*263*
Sənətkara sitayiş *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*264*
Nəsihət *(Tərcümə edən: Abbasəli Sarovlu)* *265*
Bilik *(Tərcümə edən: Abbasəli Sarovlu)* *265*
Pislik və nəciblik *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*266*
Allahla mübahisə *(Tərcümə edən: Abbasəli Sarovlu)* *267*
Qılınc ol *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*275*
Məddah şairləri məzəmmət *(Tərcümə edən: Abbasəli Sarovlu)* *276*

FƏXRİ GÜRGANİ 277
Vis və Ramin *(Tərcümə edən: Abbasəli Sarovlu)* *280*

SƏNAİ QƏZNƏVİ 389
Gərək *(Tərcümə edən: Abbasəli Sarovlu)* *390*
İnsanı ucaldar elmi, əməli *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*390*

Tapar zəhmət əhli xəzinə, qaş-daş *(Tərcümə edən: Abbasəli Sarovlu)* *391*
Ölüm qorxusu *(Tərcümə edən: Abbasəli Sarovlu)* *391*
Rübailər *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*393*

İMADİ 395
Taleyim ki, bu yamyaşıl çəmənzara salıb məni
(Tərcümə edən: Abbasəli Sarovlu) *396*
Sanki bir mələk vardır bu lacivərd göylərdə
(Tərcümə edən: Abbasəli Sarovlu) *397*

ƏNVƏRİ ƏBİVƏRDİ 398
Qənaət və comərdlik haqqında *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*399*
Zəmanədən şikayət *(Tərcümə edən: Abbasəli Sarovlu)* *399*
Bir həkimi məzəmmət *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*400*
Həcv *(Tərcümə edən: Abbasəli Sarovlu)* *400*
Nəsihət *(Tərcümə edən: Abbasəli Sarovlu)* *400*
Öyüd *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*400*
Fələkdən şikayət *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*401*
Öz ləyaqətini qorumaq haqqında *(Tərcümə edən: Abbasəli Sarovlu)* *402*
Qəzəl *(Tərcümə edən: Abbasəli Sarovlu)* *403*
Hikmət və nəsihət *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*403*
Hikmət *(Tərcümə edən: Abbasəli Sarovlu)* *404*
Qitələr *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*404*
Varlının xəsisliyi *(Tərcümə edən: Abbasəli Sarovlu)* *405*
Heyhat *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*405*
Zəmanə əhlindən şikayət *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*405*
Giley *(Tərcümə edən: Abbasəli Sarovlu)* *406*
Rübailər *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*406*

ÖMƏR XƏYYAM.....407
Rübailər *(Tərcümə edən: Əkrəm Cəfər)*.....*410*
Rübailər *(Tərcümə edən: Həbib Dərzinəvəsi)*.....*416*

SƏDİ ŞİRAZİ 418
Bustan *(Tərcümə edən: M.Seyidzadə)* *422*
Gülüstan *(Tərcümə edənlər: şeirlər - Məmmədağa Soltan, nəsr - Rəhim Sultanov və İsmayıl Şəms)* *482*

HAFİZ ŞİRAZİ *(Tərcümə edən: Əbülfəzl Hüseyni)*.....*538*
Qəzəllər *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* *542*
Saqinamələr *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* *556*

Məsnəvi *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* 561
Rübailər *(Tərcümə edən: Əbülfəzl Hüseyni)*.....563
Qitə *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* 565

ƏBDÜRRƏHMAN CAMİ 566
Yusif və Züleyxa *(Tərcümə edən: Mübariz Əlizadə)*.....569
Baharistan *(Tərcümə edən: Rəhim Sultanov)*.....664
Biri könül açan, birindən zəhlə qaçan iki növ şeirin tərifi və xüsusiyyətləri *(Tərcümə edən: Abbaşəli Sarovlu)* 695
İsgəndərin əhalisi xoşbəxt həyat sürən bir ölkəyə yetişməsi *(Tərcümə edən: Abbaşəli Sarovlu)* 696
Qitə *(Tərcümə edən: Abbaşəli Sarovlu)*.....700

NİMA YUŞİC.....701
Dustaqlar *(Tərcümə edən: Xəlil Rza Ulutürk)*.....702

NADİR NADİRPUR 707
Ata *(Tərcümə edən: Abbaşəli Sarovlu)*.....708
Üzüm şeiri *(Tərcümə edən: Abbaşəli Sarovlu)*.....710
Qəzəb mahnısı *(Tərcümə edən: Abbaşəli Sarovlu)*.....714

FÜRUĞ FƏRRUXZAD 716
Bacıma *(Tərcümə edən: Abbaşəli Sarovlu)* 717
Sənə yazıram bu şeiri *(Tərcümə edən: Abbaşəli Sarovlu)*.....718

RZA BƏRAHƏNİ 721
Söz *(Tərcümə edən: Səlim Babullaoğlu)*.....721
39-cu ağac *(Tərcümə edən: Səlim Babullaoğlu)*.....721
Kəpənəklərə *(Tərcümə edən: Səlim Babullaoğlu)* 722
Əhməd Şamlu ilə *(Tərcümə edən: Səlim Babullaoğlu)*.....723

SÖHRAB SİPEHRİ.....724
Rəngin ölümü *(Tərcümə edən: Məsiağa Məhəmmədi)*.....726
Qüruba doğru *(Tərcümə edən: Məsiağa Məhəmmədi)*.....727
Nilufər *(Tərcümə edən: Məsiağa Məhəmmədi)*.....728
Qürbət *(Tərcümə edən: Məsiağa Məhəmmədi)*.....729
Balıqların sifarişi *(Tərcümə edən: Məsiağa Məhəmmədi)* 730
Suyun ayaq səsi *(poema) (Tərcümə edən: Məsiağa Məhəmmədi)*.....731

BƏDİİ MƏTNLƏRİN SEÇİLDİYİ ƏDƏBİYYATLAR 748

Elman Hilal oğlu Quliyev

ŞƏRQ XALQLARI ƏDƏBİYYATI

(müntəxəbat)

2 cilddə

2-ci cild

Nəşriyyat direktoru
Müşfiq Məmmədov

Texniki redaktoru
Hans Klos

Çapa məsul
Gündüz İsmayılov

Çapa imzalanmış 20.06.2011,
formatı 70x100 , fiziki ç.v 85.5,
ofset kağızı №1, tayms qarnituru,
sifariş K122. Sayı 500